Prof. dr. ZAHİD FƏRRUX MƏMMƏDOV

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

BANK FƏALİYYƏTİNİN ƏSASLARI

(Elmi-nəzəri və praktiki məlumat kitabı)

BAKI-2013

BBK 6.1.
M-40

M-40 **Zahid Fərrux Məmmədov. Bank fəaliyyətinin əsasları.** (Elmi-nəzəri və praktki məlumat kitabı). Bakı, Azərnəşr. 2013. səh.480.

Bank fəaliyyətinin əsasları (Elmi-nəzəri və praktiki məlumat nəşri) kitabında beynəlxalq standartlara uyğun müasir və rəqabətə dözümlü Azərbaycan maliyyə-bank industriyasının müasir vəziyyəti və perspektivləri haqqında elmi cəhətdən əsaslandırılmış məlumatlar yer alır.

Kitabın metodoloji və nəzəri əsası iqtisadi nəzəriyyənin, maliyyə və kredit nəzəriyyəsinin müddəaları, maliyyə hüququ, Azərbaycan Respublikasının maliyyə-bank institutlarının fəaliyyətini tənzimləyən Qanunlar və Azərbaycan Respublikası Mərkəzi Bankın bankların fəaliyyətinə dair hazırladığı Normativ xarakterli sənəd və təlimatlar təşkil edir. Tədqiqat zamanı Azərbaycan Respublikası Mərkəzi Bankının elmi-tədqiqat nəşrlərindən istifadə olunmuşdur.

Əldə edilmiş nəticələr Azərbaycan maliyyə və bankçılıq iqtisad elmində ilk icmal məlumat əsəridir. Kitabın içində olan mövzuların hazırlanması prosesində xarici təcrübədən istifadə olunmuş və anlayışların izahlı şərhi müasir Azərbaycan bank sisteminin təcrübəsinə əsaslanaraq verilir.

Kitab Azərbaycan ali məktəblərində «maliyyə və bankçılıq» ixtisası üzrə tədris planına daxil edilmiş «bank işi» kurslarının tədrisində istifadəsi məqsədəuyğundur.

Kitab geniş oxucu auditoriyası, xüsusən də maliyyə və bankçılıq məsələri ilə əlaqədar məşğul olan mütəxəssislər, ekspertlər və «Maliyyə» ixtisası üzrə tədris edən müəllimlər, təhsil alan bakalavr, magistr və doktorantlar üçün nəzərdə tutulan elmi nəzəri və praktiki nəşrdir.

M-40 **0601000000** ***qrifli nəşr***
M-651 (07) 2011

© Zahid Fərrux Məmmədov, 2013
© "İqtisad Universiteti" Nəşriyyatı, 2013

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASININ İYİRMİNCİ İLDÖNÜMÜNƏ İTHAF EDİRƏM

1991-ci il 18 oktyabr tarixində Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. 1992-ci il 7 avqust tarixdə «Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanunu ilə yanaşı «Azərbaycan Respublikasının «Milli Bankı haqqında» Qanun da qəbul olunmuşdur. Həmin ayın 15-də Azərbaycan Respublikasının milli valyutası – manat tədavülə buraxılmışdır (rublla bərabər). 1994-cü il yanvarın 1-dən manat ölkənin yeganə ödəniş vasitəsi elan olundu.

1995-ci il 12 noyabr tarixdə keçirilən referendumda qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının 19-cu maddəsinin II bəndində isə pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququnun yalnız Milli Banka mənsub olması bir daha təsdiq edilmişdir.

1996-cı il 10 iyun tarixdə «Azərbaycan Respublikasının Milli Bankı haqqında», 14 iyun tarixdə isə «Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında» Qanunlar yeni redaksiyada qəbul edildi. Yeni bank qanunları respublikanın bank sisteminin qabaqcıl dünya bank təcrübəsinə yaxınlaşmasına, kredit təşkilatlarının yaradılmasına imkan yaratdı.

Lakin yeniləşən elmi-nəzəri metodlara və müasir dövrün tələblərinə uyğunlaşmaq məqsədilə, 10 dekabr 2004-cü ildə «Azərbaycan Respublikasının Milli Bankı haqqında» Qanun qəbul edilmişdir. Həmçinin, 16 yanvar 2004-cü ildə qəbul edilmiş «Banklar haqqında» Azərbaycan Respublikası Qanunu da 30 mart 2004-cü ildə qüvvəyə minmişdir.

«Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında» 18 mart 2009–cu il tarixli Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar olaraq «Azərbaycan Respublikası Milli Bankı» «Azərbaycan Respublikasının Mərkəzi Bankı» adlandırılmışdır.

Azərbaycanda əmanətlərin sığortalanması mexanizmlərinin yaradılması üçün görülən tədbirlərin nəticəsi olaraq 29 dekabr 2006-cı ildə «Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Azərbaycanda Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində də mühüm işlər həyata keçirilir. Bununla bağlı olaraq, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu 25 fevral 2009-cu ildə qüvvəyə minmişdir.

Beləliklə, Azərbaycanda maliyyə-bank industriyasının inkişafının əsas məqsədi - qanunvericilik mühitinin daha da yaxşılaşdırılması, beynəlxalq standartlara uyğun müasir və rəqabətə dözümlü maliyyə-bank xidmətləri bazarının inkişafı üçün münbit hüquqi bazanın yaradılmasıdır.

M Ü N D Ə R İ C A T

Giriş 9

I FƏSİL. MALİYYƏ-BANK XİDMƏTLƏRİ İNDUSTRİYASI 15

1.1. Yığım- investisiya əlaqəsi 15
1.2. Finans sistemi 17
1.3. Finans xidmətləri təklif edən insitutlar 18
1.4. Finans bazarı 25
1.5. Finans alətləri 29
1.6. Kaptital bazarı 37
1.7. Qiymətli kağız bazarı 38
1.8. Fond Birjası 59

II FƏSİL. BANK SİSTEMİ 67

2.1. Azərbaycan Respublikasının bank sisteminin hüquqi əsaslar 69
2.2. Bank infrastrukturu 70
2.3. Xarici ölkələrin pul-kredit sistemi 72
2.4. Bank sferasında diaqnostik sistem 99
2.5. Bank sektorunda bazar riski kateqoriyaları 100
2.6. Maliyyə sabitliyinin qiymətləndirilməsində istifadə edilən indekslər 101
2.7. Azərbaycanda maliyyə sabitliyinin təminatında mərkəzi bankın rolu 102
2.8. Bank sistemində stress test sistemi 103
2.9. Bank sistemində böhran 105
2.10. Bank sistemində antiböhran tədbirlər proqramı 111
2.11. Bank sistemində nəzarət modelləri 114
2.12. Bank sistemində əmanətlərin sığortalanması 117

III FƏSİL. MƏRKƏZİ BANKÇILIQ 125

3.1. Xarici ölkələrin mərkəzi banklarının məqsəd və vəzifələri. 128
3.1.1 ABŞ Federal Ehtiyat Sistemi 128
3.1.2. Kanada Bankı 129
3.1.3. Yaponiya Bankı 130
3.1.4. Avropa Mərkəzi Bankı 132
3.1.5. Almaniya Federal Bankı 137
3.1.6. İngiltərə Bankı 138
3.1.7. Fransa Bankı 139
3.1.8. İtaliya Bankı 139
3.1.9. Avstraliya Ehtiyat Bankı 140
3.1.10. İsveçrə Milli Bankı 141

3.1.11. Rusiya Mərkəzi Bankı 142
3.1.12. Türkiyə Cümhuriyyəti Mərkəz Bankası 144
3.1.13. Çin Xalq Bankı 147
3.1.14. İran İslam Respublikası Mərkəzi Bankı 147
3.2. Azərbaycan Respublikasının Mərkəzi Bank fəaliyyətinin ümumi əsasları və əməliyyatları 149
3.3. AR Mərkəzi Bankın təşkilatı strukturu və idarə olunması 150
3.4. Azərbaycan Mərkəzi Bankının məqsəd və funksiyaları 152
3.5. Mərkəzi Bankın pul siyasəti 158
3.6. Qlobal böhranların şiddətlənməsi mühitində Azərbaycan Mərkəz Bankının pul siyasətinin istiqamətləri 163

IV FƏSİL. ÖDƏNİŞ SİSTEMİ 171

4.1. Ödəniş sistemi haqqında ümumi məlumat 173
4.2. İri məbləğli ödənişlərin köçürülməsi sistemləri–AZİPS 175
4.3. Xırda ödənişlər üzrə hesablaşma klirinq sistemi 177
4.4. Kütləvi ödənişlər üzrə mərkəzləşdirilmiş informasiya sistemi (KÖMİS) 180
4.5. Kağız daşıyıcılarda hesablaşmalar 181
4.6. Bank hesablarının növləri 181
4.7. Standart bank hesab nömrəsinin (İBAN) tətbiqi və istifadəsi 182
4.8. Kredit kartları və kart prosessinq təşkilatları 183
4.9. SWIFT. Beynəlxalq maliyyə ödənişlərini həyata keçirən təşkilat kimi 196

V FƏSİL. BANK FƏALİYYƏTİNİN TƏŞKİLİ, İDARƏ EDİLMƏSİ, TƏŞKİLATI STRUKTURU VƏ REQLAMENTİ 199

5.1. Bank fəaliyyətinin həyata keçirilməsinə dair ümumi qaydalar 200
5.2. Bank fəaliyyətinin özəllikləri 203
5.3. Bankçılığın əsas prinsipi və funksiyaları 203
5.4. Bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya 205
5.5. Bankların təşkili və idarə edilməsi 224
5.6. Bank fəaliyyətində risklərin növləri və risklərin idarə edilməsi sistemi 234
5.7. Bankın fəaliyyətinin yoxlanılması 238

VI FƏSİL. BANKLARIN ÖHDƏLİKLƏRİ VƏ KAPITALI 243

6.1. Bankların öhdəlikləri 243
6.2. Kapital anlayışı 250
6.3. Bank kapitalının funksiyası 251
6.4. Öhdəliklərin likvidlik göstəriciləri 253

6.5. Bank məcmu kapitalı 255
6.6. Kapitalın adekvatlıq əmsalı 257

VII FƏSİL. BANKLARIN AKTİV ƏMƏLİYYATLARI VƏ AKTİVLƏRİN TƏHLÜKƏSİZLİYİ 259

7.1. Bankların aktiv əməliyyatların mahiyyəti 260
7.2. Aktivlərin təsnifləşdirilməsi 262
7.3. Aktivlərin risk dərəcəsi üzrə ölçülməsi 267
7.4. Likvid aktiv və öhdəliklərin təsnifatı 268
7.5. Bank aktivlərinin təhlükəsizliyini təmin edən nəzarət mexanizmi: Daxili Audit 269

VIII FƏSİL. BANKLARIN KASSA ƏMƏLİYYATLARI VƏ NAĞDSIZ HESABLAŞMALAR 273

8.1. Pul dövriyyəsi 274
8.2. Nağdsız hesablaşmalar və pul köçürmələri 277
8.3. Azərbaycan Respublikasının kredit təşkilatlarında kassa əməliyyatlarının aparılması və qiymətlilərin inkassasiyasının təşkili 300

IX. BANKLARDA KREDİT ƏMƏLİYYATI 307

9.1. Kreditin mahiyyəti, prinsipləri, forma və növləri 308
9.2. Kreditləşmənin iqtisadi əhəmiyyəti və kredit tələblərinin dəyərləndirilməsi 317
9.3. Azərbaycan banklarında kreditlərin verilməsi qaydaları 321
9.4. Mərkəzləşdirilmiş kredit reyestri haqqında qaydalar 332

X FƏSİL. BANKLARIN QİYMƏTLİ KAĞIZLAR BAZARINDA İNVESTİSİYA FƏALİYYƏTİ 339

10.1. Qiymətli kağızlar bazarının investisiya potensialı və qiymətli kağızların təsnifləşdirilməsi 339
10.2. İnvestisiya prosesinin maliyyə təminatı 341
10.3. Qiymətli kağızlar bazarında investisiya riskinin qiymətləndirilməsi 346
10.4. İnvestisiya strukturu 348
10.5. Qiymətli kağızlar bazarında investisiya imkanlarının fundamental və texniki təhlil 349
10.6. Bankların qiymətli kağızlar bazarında fəaliyyəti 354
10.7. Bank portfelinin əsas funksiyaları 360
10.8. Bankın investisiya fəaliyyətinin gəlir və riski 361
10.9. Bankın investisiya siyasəti 362

XI FƏSİL. BEYNƏLXALQ BANK İŞİ VƏ BANKLARIN VALYUTA ƏMƏLİYYATLARI 366

11.1. Valyuta bazarı 368
11.3. Nominal və real valyuta kursları..... 377
11.4. Valyuta kursunun dəyişməsinə səbəb olan amillər 380
11.5. Valyuta mövqeyi..... 381
11.6. Azərbaycan Respublikası müvəkkil banklarının açıq valyuta mövqeyi limitlərinin müəyyən edilməsi və tənzimlənməsi..... 382
11.7. Beynəlxalq bankçılığın mahiyyəti 383
11.8. Beynəlxalq kredit..... 387
11.9. Beynəlxalq finans bazarları..... 393
11.10. Finans bazarının qloballaşması..... 403
11.11. Qlobal finans mərkəzlərinin status qazanması üçün lazımi şərtlər 410
11.12. Xarici bankların Azərbaycan bank sistemində yeri 411
11.13. **X**arici ticarətdə istifadə edilən hesablaşmaların formaları..... 412
11.14. Rəsmi mənbələrlə ticarəti kreditləşdirmə və xarici ticarətin kreditləşdirilməsində banklar tərəfindən araşdırılan ölkə risk dəyərləndirilməsi 417
11.15. Valyuta böhranı..... 420
11.16. Banklarda valyuta mübadilə əməliyyatlarının aparılması Qaydaları 421
11.17. Fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çixarilması qaydaları 423

XII FƏSİL. BANKLARDA MARKETİNQ PLANI VƏ MALİYYƏ İNTERNET XİDMƏTLƏRİ.....433

12.1. Bankın marketinq planı 433
12.2. Şəbəkə iqtisadiyyatı..... 436
12.3. Elektron biznes..... 438
12.4. İnternet banking..... 444

XIII FƏSİL. BANK SİSTEMİNDƏ MALİYYƏ HESABATLARININ TƏRKİBİ, PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ VƏ MÜHASİBAT UÇOTUNUN ƏSAS VƏZİFƏLƏRİ.....447

13.1. Maliyyə vəziyyətinin qiymətləndirilməsi ilə bilavasitə əlaqəli olan elementlər və uçot siyasəti 448
13.2. Maliyyə fəaliyyətinin nəticələri..... 451
13.3. Maliyyə hesabatlarının məqsədi və tərtib olunma prinsipləri 454
13.4. Maliyyə hesabatlarının elementləri 456
13.5. Maliyyə hesabatı elementlərinin qiymətləndirilməsi 456

13.6. Maliyyə kapitalının saxlanması konsepsiyası və mənfəətin müəyyən olunması 456
13.7. Maliyyə hesabatlarının tərkibi 457
13.8. Maliyyə hesabatlarının istifadəçilərə təqdim edilməsi 460
13.9. Pul vəsaitlərinin hərəkəti 462
13.10. Banklarda mühasibat uçotunun əsas vəzifələri 469

****

Qanunlar, Azərbaycan Respublikası Mərkəzi Bankının normativ sənədlər və təlimatları.
Ədəbiyyat 472

G İ R İ Ş

Pul, ödənişlərdə hər kəs tərəfindən qəbul edilən ümumi bir mübadilə vasitəsidir. İnsanlar arasında iş-bölümü və ixtisaslaşmanın inkişafında mübadilə yalnız pulun köməyi ilə mümkündür. Pulun əmanətə, əmanətlərin isə kreditə transformasiya prosesi məhz banklar vasitəsilə həyata keçirilir. Mərkəzi bank pul təklifini iqtisaiyyatın pul tələbinə, iqtisadi və sosial siyasətin hədəflərinə görə tənzimləyir, banklar isə fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir. Yəni, banklar iqtisadi vahidlərin müəyyən bir müddətə istifadə etmədikləri və ya xərcləmədikləri pulları əmanət formasında cəlb edərək, kreditlərin verilməsini təşkil edir. Toplum içində pulu olub borc verməyə hazır kimsələr və kredit axtaranların sayı sonsuzdur. Ancaq bunların arasında bir kredit alış-verişinin meydana gəlməsi üçün borc alana etimad əsas şərtdir. Bank depozitlərin cəlb edilməsi və açdığı kredit xəttini təminat altına almaq üçün gərəkli texniki alətlərə malikdir.

Azərbaycan Respublikasının ərazisində banklar və bank olmayan kredit təşkilatları bank fəaliyyətini Mərkəzi Bankın verdiyi xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilir. Depozit əməliyyatları isə yalnız banklar və poçt rabitəsinin milli operatoru tərəfindən həyata keçirilir.

Bütün dünyada isə tədavülə buraxılan pul nişanlarını Mərkəzi Bank həyata keçirir. Pul nişanlarına olan tələbatı, pul nişanlarının istehsalının təşkili, pul nişanlarının ehtiyatlarını yaradan və kredit təşkilatları tərəfindən nağd pulun saxlanması və inkassasiyası qaydalarını müəyyən edən orqan- Mərkəzi Bankdır. Pul və valyuta siyasətinin müəyyənləşdirilməsi və həyata keçirilməsi, ödəniş sisteminin tənzimlənməsi və inkişafı, bank nəzarətinin həyata keçirilməsi, dövlətin beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanması və idarə edilməsi kimi mühüm strateji dövlət əhəmiyyətli funksiyaları da Mərkəzi Bank Bank həyata keçirir. İqtisadi siyasətdə pul siyasətinin ağırlıq payı artdıqca, pul siyasətini həyata keçirən qurum- Mərkəzi Bankın da iqtisadiyyatda gücü və önəmi artmaqdadır.

Lakin, iqtisadi siyasətdə pul siyasətinin yeri və rolu zaman içində önəmli dəyişikliklərə uğramışdır. Mərkəzi Bank pul siyasətinin həyata keçirilməsi istiqamətində təsbit etməyi məqsəd və hədəflərə çatmaq üçün müxtəlif vasitələrdən istifadə edirlər. Ancaq bu vasitələrin təsirləri isə ölkədən ölkəyə və ən əsası da ölkələrin iqtisadi səviyyələrinə və struktur özəlliklərinə bağlı olaraq önəmli fərqliliklər göstərir. Mərkəzi banklar pul siyasətinin məqsəd və vəzifələrini yerinə yetirmək üzrə alətlərdən istifadə edərək bankların fəaliyyətinə təsir edir.

Mərkəzi bank açıq bazar əməliyyatı vasitəsilə bankların likvidliyinə və bazarda pul miqdarındakı dəyişikliyə yol açа bilir. Bankların likvidliyində meydana gələn dəyişmələr isə öz növbəsində kredit və fond həcminə təsir edir.

Mərkəzi Bank uçot dərəcəsini və öz əməliyyatları üzrə faiz dərəcələrini müəyyənləşdirir. Mərkəzi Bank uçot dərəcəsini müəyyənləşdirərkən ölkədəki mövcud makroiqtisadi durumu və maliyyə bazarının vəziyyətini nəzərə alır.

Mərkəz Bankı öz əməliyyatları üzrə faiz dərəcələrini pul bazarının likvidlik vəziyyətini nəzərə alaraq özünün açıq bazar, yenidənmaliyyələşdirilmə və depozit əməliyyatları üzrə faiz dərəcələrini təsbit etməklə və ya hərraclarda tələb və təklif əsasında müəyyənləşdirir.

Mərkəzi Bank kredit təşkilatlarına məcburi ehtiyatlar saxlamaq barədə göstəriş verə bilər.

Mərkəzi Bank pul siyasətinin məqsədləri kontekstində kredit təşkilatlarının yenidən maliyyələşdirilməsini həyata keçirir. Bu zaman verilən kreditlər dövlət qiymətli kağızları, dövlətin və digər etibarlı emitentlərin qarantiyaları və zaminliyi, xarici valyuta, qızıl, müxtəlif formada qiymətli metallar və digər aktivlərlə təmin olunur. Belə kreditlər 6 aydan çox olmayan müddətə verilir və həmin müddətə uzadıla bilər.

Mərkəzi Bank özünün müəyyən etdiyi şərtlərlə və qarşılıqlı razılaşma əsasında kredit təşkilatlarından depozitlər cəlb edə və kredit təşkilatları tərəfindən aparılan ayrı-ayrı əməliyyatları

müvəqqəti məhdudlaşdıra, o cümlədən onların əməliyyatları üzrə faiz dərəcələrinin aşağı və yuxarı hədlərini müəyyənləşdirə bilər.

Öz növbədsində də, banklar tərəfindən bəzi cektorlara kredit açılması, bəzilərinə isə kredit verilməsində rədd siyasəti, I halda sektorun inkişafına yol açar, II halda isə sektorun daralması ilə nəticələnə bilər. Bankların kredit siyasəti şirkətlərin istehsal siyasətinə və mənfəət həcminə birbaşa təsir edir. Hətta banklar şirkətlərin iflasından qurtarmak imkanlarına malikdirlər.

Ümumiyyətlə, bank kapitalının adekvatlıq əmsalı bankların fəaliyyəti real sektorun tərkibinə daxil olan müəssisələrindən fəaliyyətindən çox fərqlidir:

1) banklar fəaliyyətləri üçün lisenziyanı Mərkəzi Bankdan alır;

2) Bankın təsisçilərinin şəxsi keyfiyyətləri, vicdan və xarakterləri özəl bir araşdırma mövzusudur. Məsələn, Azərbaycanda bank inzibatçıların mənəvi keyfiyyətləri ilə bağlı tələblər «Banklar haqqında» Qanunda nəzərdə tutulur. Bu da inzibatçıların «məqbul və lazımi keyfiyyətlərə malik şəxs» və «vətəndaş qüsursuzluğu» göstəricilərinə malik olmasını və bank sistemi üçün daha layiqli namizədlərin seçilməsini şərtləndirir;

3) Lakin, bu çoxluq hududsuz deyil, qanunla tənzimlənir. Məsələn, Azərbaycan Respublikasında fəaliyyət göstərən kommersiya bankları və xarici bankların yerli filialları üçün kapitalın tərkib hissələrini (komponentlərini), habelə bank nəzarəti üzrə Bazel Komitəsinin müəyyən etdiyi prinsiplərə müvafiq surətdə kapitalın adekvatlıq əmsallarını və onların hesablanması qaydalarını «Bank kapitalının və onun adekvatlığının hesablanması qaydaları»müəyyən edir;

4) banklar mal deyil, satınalma gücü istehsal edir. Bankçılıq pul ticarəti deməkdir, yəni ucuz faizə aldığı pulları, daha yüksək faizə sataraq mənfəət əldə edir;

5) banklar rentabellik, likvidlik və riskin bölüşdürülməsi prinsiplərinə çox bağlıdırlar. Banklar əlindəki pulu mümkün olduğu qədər çox fiziki və hüquqi şəxslərə paylamaqla yanaşı kassasındakı aktivlərin müəyyən bir hissəsini likvid formada saxlamaq məcburiyyətindədir. Məsələn, Azərbaycan Mərkəzi Bankın Bankların likvidliyinin idarə olunması haqqında Qaydalar respublikada fəaliyyət göstərən kommersiya banklarının və xarici bankların yerli filiallarının likvidlik riski və likvidliyin idarə olunması üzrə bankların daxili siyasət, qayda və prosedurlarına dair minimum tələbləri müəyyən edir;

6) banklar dövlət orqanları tərəfindən çox ciddi nəzarət altındadırlar. Məsələn, Azərbaycan Respublikasının «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakin leqallaşdirilmasına və terrorçuluğun maliyyələşdərəlməsinə qarşı mübarizə haqqında» Qanunu - cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı hüquqpozmaların aşkar edilməsi və qarşısının alınması üçün hüquqi mexanizmin yaradılmasına, belə pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi məqsədi ilə maliyyə sistemindən istifadə olunması imkanlarını istisna edən şəraitin yaradılmasına, bu sahədə dövlətin və cəmiyyətin maraqlarının qorunmasına yönəlmişdir;

7) qanun, banklara kassalarında borclarına qarşı hər an likvid aktivlərinin nisbətini təsbit etdiyi halda, digər müəssisələrdə belə bir məcburiyyət yoxdur;

8) banklar pul yaratmaqla tədavüldə pulun miqdarına təsir edərək qiymət mexanizminə təsir edə bilir, lakin digər müəssisələrin belə bir təsir etmə imkanları mümkün deyildir;

9) Nizamnamə kapitalının həcmi digər şirkətlərə nisbətətn çox yüksəkdir. Hazırda, Azərbaycanda yeni bank təsis etmək üçün 10 milyon manat tələb edilir;

10) MB bankların sağlamlaşdırılması və iflası zamanı lazımi tədbirlər və proqramlar hazırlayır. Ona görə də krizis dövründə Mərkəzi Bank öz siyasətini Makroiqtisadi sabitliyin, Bankların və sistem əhəmiyyətli müəssisələrin maliyyə sabitliyinin qorunmasına, habelə İqtisadi artımın dəstəklənməsinə yönəltmişdir. Makroiqtisadi tənzimləmə potensialını və siyasətin çevikliyini artırmaq üçün Mərkəzi Bank haqqında qanuna dəyişikliklər edildi. Edilən dəyişikliklər əsasında Mərkəzi Bank sistem əhəmiyyətli müəssisələr və bankların maliyyə vəziyyətini stabilləşdirmək məqsədilə 2009-cu ildə Ümumi Daxili Məhsulun təxminən 5%-in səviyyəsində likvidlik inyeksiyası həyata keçirdi. Bu yardım onların xarici borclarının restrukturizasiyasına və maliyyə vəziyyətinin stabilləşməsinə imkan verdi.

Azərbaycanın monetar orqanı – Mərkəzi bank bank və maliyyə sisteminin inkişafına, o cümlədən bank sektorunda beynəlxalq standartların və maliyyə əməliyyatlarının innovativ xidmət və məhsulların tətbiqinə xüsusi diqqət yetirilir və bu istiqamətdə məqsədyönlü, sistemli və ardıcıl layihələr həyata keçirir. Bu nədənlə kitabda Azərbaycan Respublikası Mərkəzi bankın fəaliyyəti geniş tədqiq edilmişdir.

Bank rəqabətinin güclənməsi, bank xidmətlərinin çeşidinin artırılması, investisiyaların genişlənməsi və bank xidmətləri bazarında bu kimi digər meyllərin artması bankları müxtəlif mənbələrdən vəsait cəlb etməkdə maraqlı edir. Belə bir şəraitdə əmanətçilərdən cəlb edilmiş vəsaitlərinin etibarlı qorunması xüsusi aktuallıq kəsb edir. Bu məqsədlə əmanətlərin sığortalanması mexanizmlərinin yaradılması üçün görülən tədbirlərin nəticəsi olaraq 29 dekabr 2006-cı ildə "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Azərbaycan Respublikasında əmanətlərin sığortalanması sisteminin yaradılmasının məqsədi banklar və xarici bankların yerli filialları ödəmə qabiliyyətini itirdikdə, fiziki şəxslərdən əmanətə qəbul olunmuş pul vəsaitinin itirilməsi riskinin qarşısını almaq, maliyyə və bank sisteminin sabitliyini və inkişafını təmin etməkdir.

Bu gün Cənubi Qafqazda valyuta ehtiyatlarının 88%-i, bank aktivlərinin isə 68%-i Azərbaycanın payına düşür. Ölkəmizin regional iqtisadiyyatdakı rolunun artması həm də onun bank-maliyyə mərkəzinə çevrilməsində, bank kapitalı idxalı və ixracında özünü büruzə verir. Bu gün Azərbaycanda bank sistemində xarici kapitalın iştirakına heç bir məhdudiyyət qoyulmamış, xarici kapitallı bankların fəaliyyəti üçün əlverişli şərait yaradılmışdır. Bunun nəticəsidir ki, bu gün ölkəmizdə 23 xarici kapitallı bank fəaliyyət göstərir. Onlardan 5-i 100%-lik xarici kapitala malikdir. Ümumi bank kapitalında xarici kapitalın payı 18.2% təşkil edir.

Təsadüfi deyildir ki, qlobal maliyyə böhranının ən aktiv fazasında belə Azərbaycanın bank sisteminə xarici kapitalın axını dayanmamışdır. Azərbaycanın yerli bankları da aktiv surətdə xarici bazarlara çıxmaqdadırlar.

Bu gün Azərbaycan banklarının xarici ölkələrdə 2 törəmə bankı, 1 filialı, 6 nümayəndəliyi fəaliyyət göstərir. Müxtəlif maliyyə xarakterli xidmətləri təqdim edən Azərbaycan Beynəlxalq Bankı tədricən maliyyə korporasiyasına çevrilir və ABB xaricdə aşağıdakı strukturların təsisçisi və sahibidir: «Azərbaycan Beynəlxalq Bankı–Moskva» MMC və «Azərbaycan Beynəlxalq Bankı–Gürcüstan» MMC. Bankların xarici maliyyə bazarlarında fəaliyyətinin aktivləşməsi və nüfuzunun artması onların beynəlxalq reytinqin alınmasına marağını artırmışdır. Belə ki, təkcə ötən il bank beynəlxalq reytinqə malik olmuş və qlobal böhran şəraitində banklar reytinq səviyyələrini qoruyub saxlamışlar.

Bank fəaliyyətinin əsasları (Elmi-nəzəri və praktiki məlumat nəşri) kitabında beynəlxalq standartlara uyğun müasir və rəqabətə dözümlü Azərbaycan maliyyə-bank industriyasının müasir vəziyyəti və perspektivləri haqqında elmi cəhətdən əsaslandırılmış məlumatlar yer alır.

Bank fəaliyyətinə aid mövzuların tədqiqi, özəlliklə qlobal maliyyə böhranı sonrası mərkəzi bankın məqsəd və vəzifələri; elektron ödəniş sistemlərinin fəaliyyətinin təhlükəsizliyi; Bank fəaliyyətinin təşkili, idarə edilməsi,təşkilati strukturu və reqlamenti; bank öhdəliklərinin formalaşması və onlann strukturunun optimallaşdırılması, öhdəliklərin mənbələrinin keyfiyyətcə səmərəli idarə olunması və bank kapitalının ölçülməsi qaydası; bank aktivlərin təhlükəsizliyi; bankların kassa əməliyyatları və nağdsiz hesablaşmaların həyata keçirilməsi şərtləri; Banklarda kreditlərin verilməsi proseduru; bank sistemində risklərin idarə edilməsi prosesi; bank tərəfindən kredit sifarişlərinin qiymətləndirməsi meyarları; Bankların qiymətli kağızlar bazarında investisiya fəaliyyəti; Beynəlxalq bank işi və bankların valyuta əməliyyatları; Banklarda marketinq planı və maliyyə internet xidmətlərinin təkmilləşdirilməsi, Bank sistemində gəlirlərin formalaşması və onlardan istifadənin qiymətləndirilməsi kimi mövzular bankçılıq elmində tədqiqat obyekti kimi xüsusi əhəmiyyət kəsb edir və bu nədənlə yuxarıda qaldırılan bütün sualların cavabı Bank fəaliyyətinin əsasları (Elmi nəzəri və praktiki məlumat nəşri) kitabı ətraflı formada açıqlanmışdır.

Kitabın metodoloji və nəzəri əsası iqtisadi nəzəriyyənin, maliyyə və kredit nəzəriyyəsinin müddəaları, maliyyə hüququ, Azərbaycan Respublikasının maliyyə-bank institutlarının

fəaliyyətini tənzimləyən Qanunlar və Azərbaycan Respublikası Mərkəzi Bankının bankların fəaliyyətinə dair hazırladığı Normativ xarakterli sənəd və təlimatlar təşkil edir. Tədqiqat zamanı Azərbaycan Respublikası Mərkəzi Bankının elmi-tədqiqat nəşrlərindən istifadə olunmuşdur.

Əldə edilmiş nəticələr Azərbaycan maliyyə və bankçılıq iqtisad elmində ilk icmal məlumat əsəridir. Kitabın içində olan mövzuların hazırlanması prosesində xarici təcrübədən istifadə olunmuş və anlayışların izahlı şərhi müasir Azərbaycanın bank sistemi təcrübəsinə əsaslanaraq verilir.

«Bank fəaliyyətinin əsasları» məlumat informasiya kitabında yer alan mövzuların əksəriyyəti iqtisadi ədəbiyyatda ilk dəfə işlənmiş və hazırlanmışdır.

Bu kitab «Bank işi» fənninin tədrisi prosesində, istərsədə banklarda işləmək və imtahanlara hazırlaşan məzunlar üçün yararlı və faydalı elmi nəzəri və praktiki məlumat kitabıdır. Kitab orijinallığı ilə fərqlənir, cünki kitabın içində olan mövzuların əksəriyyəti ilk dəfədir işıq üzü görür.

Azərbaycan ali məktəblərində «maliyyə və bankçılıq» ixtisası üzrə tədris planına daxil edilmiş «bank işi» kurslarının tədrisində istifadəsi məqsədəuyğundur.

Ümumilikdə, kitab geniş oxucu auditoriyası, xüsusən də maliyyə və bankçılıq məsələri ilə əlaqədar məşğul olan mütəxəssislər, ekspertlər «maliyyə», «dünya iqtisadiyyatı», «mühasibat uçotu və audit» ixtisasları üzrə tədris edən müəllimlər, təhsil alan bakalavr, magistr və doktorantlar üçün nəzərdə tutulan elmi nəzəri və praktiki nəşrdir.

Bank fəaliyyətinin əsasları kitabı on üç fəsildən ibarətdir. Kitabın bütün fəsillərində ən çox istifadə olunan anlayışların izahlı elmi şərhi verilir.

I fəsildə - «Maliyyə-bank xidmətləri industriyasi» geniş formada tədqiq edilir. Bu fəsildə yığım və investisiya arasında əlaqə, finans sisteminin strukturu, maliyyə xidmətləri üzrə vasitəçi insitutların fəaliyyəti haqqında hərtərəfli və geniş icmal xarakterli təhlillər aparılır və məlumatlar verilir.

II fəsil - «Bank sistemi» mövzusuna həsr edilib. Bu fəsildə Azərbaycan Respublikasının Bank sisteminin hüquqi əsasları, Bank infrastrukturu**,** xarici ölkələrin pul- kredit sistemi, Bank sistemində diaqnostik sistem, Bank sektorunda bazar riski kateqoriyaları, Bank sistemində maliyyə sabitliyinin təminatında Mərkəzi Bankın rolu, Stress testlərin keçirilməsi qaydası, Bank Sistemində Böhran, Bank sistemində antiböhran tədbirlər proqramı, Bank sistemində nəzarət modelləri, Bank sistemində əmanətlərin sığorta modeli kimi mövzular təhlil edilir.

III fəsil - «Mərkəzi Bank»ın fəaliyyətinə həsr edilmişdir. Bu fəsildə xarici ölkələrdə Mərkəzi Bankların fəaliyyəti, Azərbaycan Respublikasının Mərkəz Bankının fəaliyyətinin ümumi əsasları və əməliyyatları, AR Mərkəzi Bankın təşkilati strukturu və idarə olunması, Mərkəzi Bankın pul siyasəti, Qlobal böhranlarin şiddətlənməsi mühitində Azərbaycan Mərkəzi Bankının pul siyasətinin istiqamətləri təhlil edilir.

IV fəsil - «Ödəniş Sistemi»nin çalışma mexanizmini əhatə edir. Bu fəsildə Ödəniş Sistemi haqqında ümumi məlumatlar verilir, AZİPS, XÖHKS və KÖMİS ödəniş sistemlərinin fəaliyyətləri və kredit kartlarından istifadə qaydaları açıqlanır.

V fəsil - «Bank fəaliyyətinin təşkili, idarə edilməsi, təşkilati strukturu və reqlamenti» mövzusuna həsr edilmişdir. Bu fəsildə Bank fəaliyyətinin özəllikləri, bankçılığın əsas prinsipləri, bankların idarəetmə strukturu və bank fəaliyyətində risklərin növləri və risklərin idarə edilməsi sistemi, bankın fəaliyyətinin yoxlanılması kimi mövzular işlənib hazırlanmışdır. Burada AR Mərkəzi Bankın Normativ xarakterli sənəd və təlimatlarlarından, o cümlədən - « Banklarda risklərin idarə olunması haqqında Qaydalar», «Bank yoxlamalarının həyata keçirilməsinin prosedur qaydaları», «Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları» və «Bank lisenziyalarının və icazələrin alınması üçün müraciət qaydaları» haqqında təlimatdan istifadə edilib.

VI fəsil - «Banklarin öhdəlikləri və kapitalı» mövzusuna həsr edilmişdir. Bu fəsildə bankın öhdəliklərinin mahiyyəti, kapital anlayışı, bank kapitalının funksiyası, məcmu kapitalın əsas məqsədi, bank məcmu kapitalınının qiymətləndirmə prosesi, öhdəliklərin likvidlik göstəriciləri, kapitalın adekvatlıq əmsallarına dair tələblər və onların hesablanması qaydaları açıqlanır. Burada

Məlumatların hazırlanmasında AR Mərkəzi Bankın Normativ xarakterli sənəd və təlimatlarından, o cümlədən-« Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları» və « Bankların likvidliyinin idarə olunması haqqında Qaydalar» istifadə edilmişdir.

VII fəsil - «Bankların aktiv əməliyyatları və onların təhlükəsizliyi» mövzusunu əhatə edir. Bu fəsildə bankların aktiv əməliyyatların mahiyyəti, bank aktivlərin təsnifləşdirilməsi, aktivlərin risk dərəcəsi üzrə ölçülməsi qaydası, bank aktivlərinin təhlükəsizliyini təmin edən nəzarət mexanizmi kimi mövzular haqqında geniş və hərtərəfli məlumatlar verilir. Burada məlumatların hazırlanmasında AR Mərkəzi Bankın Normativ xarakterli sənəd və təlimatlarından, o cümlədən- «Banklarda daxili nəzarət və daxili auditin təşkili barədə Qaydalar»,«Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları» və «Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərin ödənilməsi üçün ehtiyatların yaradılması Qaydaları» istifadə edilmişdir.

VIII fəsil - «Bankların kassa əməliyyatları və nağdsız hesablaşmalar » mövzularını əhatə edir. Bu fəsildə Pul dövriyyəsi anlayışı, nağdsız hesablaşmalar və pul köçürmələri, kredit təşkilatlarinda kassa əməliyyatlarinin aparilması və qiymətlilərin inkassasiyasının təşkili kimi məsələlər məlumatlar təqdim edilir. Məlumatların hazırlanmasında «Azərbaycan Respublikasının kredit təşkilatlarında kassa əməliyyatlarının aparılması və qiymətlilərin inkassasiyasının təşkili qaydaları» və «Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında təlimat» istifadə edilmişdir.

IX fəsil - «Banklarda kreditlərin verilməsi prosedurunu və Mərkəzləşdirilmiş Kredit Reyestrinin fəaliyyəti» mövzularını əhatə edir. Burada- kreditin mahiyyəti, prinsipləri, forma və növləri, kreditləşmənin iqtisadi əhəmiyyəti və kredit tələblərinin dəyərləndirilməsi, banklarinda kreditlərin verilməsinin qayda və prinsipləri haqqında məlumatlar verilir. Buradakı məlumatların hazırlanmasında AR Mərkəzi Bankın-«banklarda kreditlərin verilməsi qaydaları» və "Mərkəzləşdirilmiş və Kredit reyestri haqqında qaydalar" istifadə edilmişdir.

X fəsil - «Bankların qiymətli kağızlar bazarında investisiya fəaliyyəti» mövzusuna həsr olunub. Burada qiymətli kağızlar bazarının investisiya potensialı, investisiya prosesinin maliyyə təminatı, qiymətli kağızlar bazarında investisiya riskinin qiymətləndirilməsi, Fond bazarında investisiya fəaliyyəti, qiymətli kağızlar bazarının investisiya imkanlarının fundamental və texniki təhlil; Banklarının qiymətli kağızlar bazarında fəaliyyəti, bankların investisiya siyasətinin müəyyən edən amillər təhlil olunur.

XI fəsil - Beynəlxalq bank işi və bankların valyuta əməliyyatları mövzusu haqqında ətraflı məlumat verilir. Burada–valyuta bazarı, valyuta mövqeyi, beynəlxalq bankçılığın mahiyyəti, valyuta böhranı, banklarda valyuta mübadilə əməliyyatlarının aparılması qaydaları haqqında ətraflı məlumat verilir. Burada Məlumatların hazırlanmasında AR Mərkəzi Bankın «Azərbaycan Respublikasında rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarının rejimi haqqında qaydalar», «fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından çıxarılması qaydaları və Azərbaycan Respublikası müvəkkil banklarının açıq valyuta mövqeyi limitlərinin müəyyən edilməsi və tənzimlənməsi qaydalarından» istifadə edilmişdir.

XII fəsil - Banklarda marketinq planı və maliyyə internet xidmətləri mövzuları haqqında ətraflı məlumat verilir.

XIII fəsil - Bank sistemində maliyyə hesabatlarının tərkibi, pul vəsaitlərinin hərəkəti və mühasibat uçotunun əsas vəzifələrinə həsr olunub. Burada Məlumatların hazırlanmasında AR Mərkəzi Bankın **«**Banklarda daxili nəzarət və daxili auditin təşkili barədə Qaydalar», « Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları», « Banklarda risklərin idarə olunması haqqında Qaydalar», «Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatlarında mühasibat uçotunun aparılması Qaydaları» «Maliyyə İdarəetməsi və Hesabatları Standartı», «Banklarda daxili nəzarət və daxili auditin təşkili barədə Qaydalar**»** və «Azərbaycan Respublikasının bank sistemində maliyyə hesabatlarının tərtib və təqdim olunması Qaydaları»ndan istifadə edilmişdir.

Bank fəaliyyətinin əsasları (Elmi nəzəri və praktiki məlumat nəşri) kitabında beynəlxalq standartlara uyğun müasir və rəqabətə dözümlü Azərbaycan maliyyə-bank industriyasının müasir vəziyyəti və perspektivləri haqqında elmi cəhətdən əsaslandırılmış məlumatları əhatə edir.

Kitabın metodoloji və nəzəri əsası iqtisadi nəzəriyyənin, maliyyə və kredit nəzəriyyəsinin müddəaları, maliyyə hüququ, Azərbaycan Respublikasının maliyyə- bank institutlarının fəaliyyətini tənzimləyən Qanunlar və Azərbaycan Respublikası Mərkəzi Bankının bankların fəaliyyətinə dair hazırladığı Normativ xarakterli sənəd və təlimatlar təşkil edir. Tədqiqat zamanı Azərbaycan Respublikası Mərkəzi Bankının elmi-tədqiqat nəşrlərindən istifadə olunmuşdur.

Kitab Azərbaycan ali məktəblərində «maliyyə və bankçılıq» ixtisası üzrə tədris planına daxil edilmiş «bank işi» kurslarının tədrisində istifadəsi məqsədəuyğundur.

Kitab geniş oxucu auditoriyası, xüsusən də maliyyə və bankçılıq məsələri ilə əlaqədar məşğul olan mütəxəssislər, ekspertlər və maliyyə və dünya iqtisadiyyatı, mühasibat uçotu və audit ixtisasları üzrə tədris edən müəllimlər, təhsil alan bakalavr, magistr və doktorantlar üçün nəzərdə tutulan elmi nəzəri və praktiki nəşrdir.

I FƏSİL. MALİYYƏ-BANK XİDMƏTLƏRİ İNDUSTRİYASI

1.1. YIĞIM- İNVESTİSİYA ƏLAQƏSİ

Hər hansı bir ölkədə iqtisadi vahidlər (ev idarələri, şirkətlər və dövlət) gəlirlərinin hamısını istehlak xərclərinə yönəltmirlər. Onlar gəlirin bir hissəsini yığıma və ya investisiyaya ayırırlar. İqtisadi vahidlərin ən vacib məqsədlərindən biri də gündəlik istehlak ehtiyaclarını artırmaqdır. Ancaq iqtisadi vahidlərin bugünkü istehlaklarını artıra bilmələri üçün gələcəkdəki istehlak imkanlarından daha çox fədakarlıq etməyə hazır olmaları lazımdır və ya eyni ifadəni tərsinə söyləsək, şəxslərin bu gün müəyyən bir istehlak miqdarından əl çəkmələri onlara gələcəkdə, bu gün əl çəkdiklərindən daha çox həcmdə istehlak imkanı vəd edir. Bu çoxluğu isə faiz həddi müəyyənləşdirir. Məsələn, bir şəxsin bugünkü 100 manatlıq istehlakından əl çəkməsi ona bir il sonra 120 manatlıq istehlak imkanı təmin edirsə, deməli, faiz nisbəti 20%-dir (inflyasiyanı nəzərə almadan).

Ümumiyyətlə, hər hansı bir ölkənin iqtisadi artımı o ölkədə yaradılan xalis real aktiv investisiyaların cəminə bağlıdır. Bu aktiv investisiyanın finans qaynağını isə ölkə daxilində cəlb edilmiş yığımlar ilə ölkə xaricindən gətirilən sərmayə fondları təşkil edir. Yığım ilə investisiya arasında qarşılıqlı əlaqə vardır. Yığım olmadan investisiyanın gerçəkləşdirilməsi mümkün deyildir, eyni zamanda investisiya imkanları və şəraiti olmadığı halda, iqtisadi anlamda yığımın da toplanması qeyri-mümkündür. Modern iqtisadi sistemlərdə, yığım sahibləri ilə investisiya qoymaq istəyənlər, adətən, müxtəlif şəxs və ya qruplardır. Bu səbəblə də müəyyən kəsimlərin planladıqları və gerçəkləşdirdikləri yığımların toplamı ilə başqa kəsimlərin planladıqları investisiyaların toplamının bərabər olması, gerçəkləşməsi ideal sayıla biləcək bir haldır.

Ümumiyyətlə, ölkənin iqtisadi artımı yığım (investisiya) miqdarına bağlıdır. İnkişaf etməkdə olan ölkələr yoxsul olduqlarından, onların yığımları da azdır. Sadəcə bu yığımlara əsaslanıb investisiya qoymaq ölkənin iqtisadi böyüməsini təmin edə bilməz və ya yetərli olmaz. Bu səbəbdən də inkişaf etməkdə olan ölkələr ölkənin iqtisadi böyüməsini sürətləndirmək məqsədi ilə xarici sərmayədən (xarici yığımlardan) yararlanmaq istərlər. Ümumiyyətlə, xarici sərmayə bir ölkəyə: özəl xarici sərmayə investisiyası və xarici kredit olmaqla iki formada gəlir.

Yığım fərdin pul gəlirinin istehak üçün sərf edilməmiş hissəsidir. Şəxslərin məlum bir dönəmdə əldə etdiyi cari gəlir (Ce) iki bölümdən ibarətdir: yığım (T) və cari xərclər (He). Bunu riyazi şəkildə belə göstərmək olar: **Ce = T + He.**

Cari gəliri sabit olaraq qəbul etsək, o zaman şəxslərin yığımı cari xərclərin böyüklüyünə bağlı olacaqdır. Cari xərclərin toplamının cari gəlirə bərabər olduğu və ya bu gəlirdən yüksək olduğu bir halda şəxsi yığım sıfır və ya mənfi olur. Hər hansı bir ölkədə toplanan yığımın qaynağı şəxs və qurumların gəlirləridir. Yığım qabiliyyəti şəxsin gəlir səviyyəsinə bağlıdır.

Yığım etmə arzusu haqqında isə müxtəlif amillərdən söz açıla bilər:

1. gözlənilməyən bir hadisəyə qarşı xərclərə hazır olma (xəstəlik, ani fəlakət və s.);
2. gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan iri xərclər üçün bu gündən pul yığmaq (səyahətə çıxma, ev və ya avtomobil alma, uşaqlarının məktəb xərclərini maliyyələşdirmək və s.);
3. işqurma məqsədini gerçəkləşdirmək üçün hazırlıq görmə;
4. finans varlığı əldə etmə arzusu;
5. yüksək bir gəlirə sahib olma arzusu.

Klassik və neoklassik iqtisadçılara görə yığım faizin bir funksiyasıdır. Yüksələn faiz qiyməti, yığım meylini artıraraq məcmu yığım həcmini şişirdir. Faiz nisbətində azalma isə yığım həcmində azalmaya yol açır.

İnvestisiya definisiyası və investisiyanın stimullaşdırılmasına təsir edən amillər. Hər hansı bir dönəmdə iqtisadiyyatda istehsal edilən məhsulun (output) yeni quruluşlar, yeni dayanıqlı təchizat və inventardakı dəyişmələr şəklindəki qisminin dəyərinə investisiya deyilir vəya investisiya, gələcəkdəi istehlakı artıra bilmək məqsədilə bugünkü istehlakı qısmağı lüzumlu qılmaqdadır. Qeyd edək ki, daxili və xarici kapital investisiyaları praktikaya keçiriliş şəklinə görə iki cür ola bilər. Belə ki, investisiyanın yatırıldığı daşınır qiymət və ya maddi dəyər ya ilk dəfə yaradılır, ya da daha öncədən mövcuddur. Daxili və xarici investorun bir ölkədə fabrik inşa etdirməsi və ya yeni çıxardılan hissə sənədini (səhmi) satın alınması birinci, daha öncə inşa edilmiş olan bir fakbrikin satın alınması və ya kapital bazarında alım-satım predmeti olmuş bir daşınır qiymətin mülkiyyətinin əldə edilməsi isə ikinci qrupa misaldır. Daha öncə qurulmuş olan bir fabrikin xarici sərmayədar tərəfindən alınması, yeniləmə və ya genişləmə məqsədli ola bilər. Bununla bərabər, mövcud bir fabrik, bina və ya təsisin satın alınması, fərdi olaraq investisiya olmaqla birlikdə, makro-iqtisadi nöqteyi-nəzərdən investisiya sayılmaz. Çünki bu əməliyyat, əgər yeniləmə və genişləmə məqsədli investisiya deyilsə, yəni istehsal kapasitəsini artırmırsa, sadəcə olaraq mövcud təsisin əl dəyişdirməsini təmin etməkdədir. Eyni şəkildə, səhm, finansman bonosu, xəzinə bonosu, dövlət istiqrazı kimi finansal varlıqların satın alımı da, iqtisadi mənada, investisiya sayılmaz; bu investisiyalar finans investisiyalarıdır. Burada əlavə bir dəyər yaradılmadığı kimi, fərd sadəcə olaraq əlindəki varlığın şəklini dəyişdirməkdədir.

Birləşmiş Millətlər Təşkilatı (BMT), investisiyaları 1953, 1968 və 1993-cü illərd Milli Hesablar Sistemi (System of National Accounts – SNA) içində təsnif etmişdir 1993-cü ildəki SNA, BM, OECD, IMF, IBRD və Avropa Topluluqları Komissiyası tərəfindən müştərək hazırlanmışdır. Bununla rəsmi olaraq dünya miqyasında statistikaların müqayisə edilə biləcək duruma gəlməsi təmin edilmişdir. 1993-cü ildəki SNA iqtisadi varlıqları finansal iqtisadi varlıqlar və qeyri-finansal iqtisadi varlıqlar olaraq ikiyə ayırmışdır.

Finansal iqtisadi varlıqlar aşağıdakı komponentlərdən təşkil olmaqdadır: Bono; İstiqraz; Səhm; Pul funksiyasını yerinə yetirən qızıl; Kassa-bank; Avanslar; Debet hesabları.

Ümumi olaraq investisiyaların aşağıdakı şəkildə təsnif etmək mümkündür: etüd-proyekt investisiyaları; yeni investisiyalar; fəaliyyəti davam etdirmə və yeniləmə investisiyaları; ekspansiya investisiyaları; tamamlama və çətin situasiyaları açmaq üçün ekstremal investisiyalar; modernləşdirmə və təkmilləşdirmə investisiyaları; araşdırma-inkişaf etdirmək (research and development R&D) investisiyaları.

İqtisadiyyatda gəlir və məşğulluğu artıran təməl ünsur olan investisiya anlayışına, bəzi hallarda yanlış tərif verilir. Məsələn, mövcud bir fabrikin, bir ərazi və ya tarlanın satın alınması xalq arasında investisiya adlandırılır. O isə, bu kimi xərcləmələrdə iqtisadiyyatda yeni bir istehsal gücü təşkil etmir, sadəcə mövcud mal və xidmətlər bir əldən başqa ələ keçir. Mövzuya mikrosəviyyədə baxsaq, bu hadisə mövcud bir fabrikə satın alan şirkət baxımından bir investisiyadır. Ancaq mikrosəviyyədə düşünsək bunun bəsit bir əldən-ələ dəyişmə olduğunu görərik. Bunun kimi, qiymətli kağızların satın alınınası halı da investisiya çərçivəsi xaricindədir. Səhm, istiqraz satın alan şəxsin etdiyi xərcləmə də bir investisiya xərcləməsi deyildir. Buna iqtisad dilində (ingiliscə placement) playsmant deyilir, yəni playsmant sadəcə mövcud yatırımların əldən-ələ keçməsidir, yeni bir investisiya deyildir. İnvestisiya isə sadəcə sərmayə həcminə qoyulan əlavə kapitaldır.

Plasman - pulun, gəlir gətirən daşınır və daşınmaz mallara və ya digər sərvət ünsürlərinə qoyularaq dəyərləndirilməsidir. Plasman mövcud investisiyaların əl dəyişdirməsidir, yəni bir investisiya deyildir. Adətən, sənayeləşmiş ölkələrdə plasman aksiyalara qoyulmaqdır.

Bunların alqı-satqısı iqtisadiyyatda mövcud istehsal gücləri üzərindəki mülkiyyət haqqının bir əldən başqa ələ keçməsindən savayı bir şey deyildir. İqtisadi anlamda investisiya fondların sərmayə mallarına (real varlıqlara) yönəlməsidir. Ümumiyyətlə, hər hansı bir ölkədə yığımın həcmi real investisiyalar təşkil edir, real investisiyaların həcmi isə bu investisiyaların gerçəkləşdirilməsi üçün yetərli fondların olmasına, digər bir ifadə ilə desək, yığım fondlarının axtarılmasına bağlıdır. Real varlıq investisiyaları yenidən qurmaya və istehsal gücünün artımına yönəldilmiş investisiyalardır.

Ümumiyyətlə, iqtisadçıların sərmayənin marjinal təsiri adlandırdıqları və finans nəzəriyyəsində daxili səmərə vermə nisbəti (internal rate) olaraq tanınan investisiyanın səmərəlilik nisbəti, şübhəsiz investisiyaya yönəlik planların qərara alınınasında önəmli faktlardır.

İnvestisiyanın stimullaşdırılmasının 2 önəmli amili vardır: investisiyanın gəlirlilik nisbəti; və investisiyanın finans qaynaqlarının orta xərcləri.

İnvestisiyanın səmərəliliyi investisiya mövzusuna ölkə iqtisadiyyatının ehtiyac hiss etməsi, başqa sözlə desək, investisiyanın qoyulacağı iş sahəsində bir təklif və tələb tarazlığın tapılması ilə yaxından əlaqədardır. Sərmayə xərcləri isə finansal bazarlarda təşkil edilən borclanma və özəl fondlarının xərcləri ilə investor şirkətin özəl şərtlərinə bağlı olaraq az və ya da yüksək səviyyədə təşkil edilə bilər.

Finans bazarında fondların xərclərinin aşağı və ya yuxarı səviyyədə olmasına təsir edən başlıca amillər: Mərkəzi Bankın apardığı pul siyasəti və ölkə iqtisadiyyatının yığım potensialı və onun kapital bazarındakı fəaliyyətinin əhatə dairəsi təşkil edir.

1.2. FINANS SİSTEMİ

Yığım və investisiyanın müxtəlif şəxslər tərəfindən həyata keçirildiyi bir toplumda yığımların investisiyaya dönməsi, finans sisteminin varlığını meydana çıxarır. Finans sistemi şirkət və fərdlərdən əmanətləri (depozitlər) cəlb edir və toplanmış vəsaitləri sonradan dövlət, şirkət və fərdlər arasında yenidən bölüşdürür. Beləliklə, öz vəsaitlərini təklif edən əmanətçilər (kreditorlar) və bu vəsaitlərə ehtiyacı olanlar (borclular) kimi iki qrup yaranır.



Finans sisteminin ən vacib çalışma mexanizmi borclama və borcvermə əməliyyatlarını asanlaşdırmaq və nizamlı bir şəkildə işləməsini təmin etməkdir.

Risk paylaşımı - əgər bir yığım sahibi əlindəki bütün fondları digər bir şəxsə borc olaraq verib və borcunu geri ala bilməzsə, böyük bir zərərə uğrayar. Amma eyni şəxs tək bir şəxsə borc verərsə, yükləndiyi riskə qarşı çox böyük gəlir əldə edərək borclanmanın qiymətini çox yüksəldə bilər. Amma eyni şəxs minlərcə şəxsə borc verərsə və bunlardan sadəcə bir neçəsi geri dönməzsə, qurumun fəaliyyətinə çox da ciddi təsir göstərməz. Buna görə də finans vasitəçi qurumları riski

düşürmək məqsədi ilə toplanan finans ehtiyatlarını diversifikasiya edər və riski düşürməklə sistemin az xərclərlə daha məhsuldar çalışmasına səbəb olurlar.

İxtisaslaşma: bir şəxsin digər bir şəxsə kredit verməsi halında o şəxsin maliyyə durumunu yaxşı dəyərləndirə bilməsi kreditin geri dönüb-dönməyəcəyi mövzusunda sağlam qərarlar verə bilməsi üçün təminatlara nəzər yetirməsi çox vacibdir. Finans qurumları bu bilgilərlə silahlanmış mütəxəssislər çalışdıraraq düzgün kredit qərarları verirlər və bu şəkildə fondların geri dönməmə riskini ən aşağı səviyyəyə endirərək fond axtarma xərclərini düşürürlər. Bu da kreditlərin optimal paylanmasını şərtləndirir.

Fondların böluşdürülmə prosesi - yığımlar nə qədər gəlirli sahələrə qoyularsa, bu ölkənin iqtisadi artım səviyyəsi də o qədər yüksələr. Ümumiyyətlə, iqtisadi artım ilə birlikdə inkişaf etmiş finans sisteminin ehtiyacı da artmaqdadır. İqtisadiyyatın inkişafı güclü finans sisteminin varlığına bağlıdır. Kredit sisteminin inkişafı ilə iqtisadi artım bir-birlərini tamamlayır və bir-birlərinin inkişafına kömək edirlər. İqtisadi sistemlərdə bəzi şəxslər məlum zaman kəsiyində əldə etdikləri gəlirlərinin bir hissəsini daimi yığıma ayırırlar və yığımlarının qarşılığında müəyyən bir gəlir əldə etmək istəyirlər. Bəzi şəxslər isə əldə etdikləri gəlirlərdən daha çox xərcləməyə meyllidirlər.

Finams sisteminin strukturuna təsir edən başlıca amillər:

1. Qurumların sayı və ölçüləri;
2. Təklif edilən xidmətlərin xüsusiyyəti;
3. Sektora giriş və çıxış şərtləri (mobilitə);
4. İstehsal, marketinq və istehlak proseslərinin xüsusiyyətləri (şəffaflıq);
5. Texnoloji dəyişikliklər;
6. Qanun dəyişiklikləri;
7. Müştəri seçimləri;
8. Faiz nisbəti;
9. Qloballaşma və qiymətli kağızların geniş istifadəsi.

1.3. FİNANS XİDMƏTLƏRİ TƏKLİF EDƏN İNSİTUTLARLAR

Finans vasitəçiliyinin ən çoxsaylı növləri inkişaf etmiş ölkələrdə inkişaf etmişdir. Finans vasitəçilərinin hər növünün öz fəaliyyət dairəsi və xidmət sferası olsa da onlar arasında kəskin rəqabət şəraiti hökm sürür. Finans vasitəçilərinin ölkə iqtisadiyyatında və fond axıınında rolu həm mütləq, həm də nisbi mənada xeyli dəyişməkdədir. Artıq tarixən qədim finans vasitəçiliyi olan banklar öz yerlərini digər finans qurumlarına verməkdədir. Finans aktivləri içərisində pensiya fondları və qarşılıqlı fondların xüsusi çəkisi artmaqdadır. Bu proses əsasən dezintermediasiya prosesi ilə bağlıdır. Banklar getdikcə investisiya institutları tərəfindən kapital bazarından sıxışdırılmaqdadır.

Bank sistemi ikipilləli təşkil olunur. Ölkənin bank sisteminin mərkəzində duran Mərkəzi Bank "Banklar Bankı" kimi çıxış edir və ona iqtisadi baxımdan bir çox vəzifə və fünksiyalar verilmişdir. Hər şeydən əvvəl, Mərkəzi Bank son kredit instansiyasıdır. Qanunvericiliklə ona verilmiş hüquqdan istifadə edərək bank sistemini tənzimləyir, onların iqtisadiyyata təqdim etdiyi kreditləri və depozit qəbulunu dolayı yolla müəyyən edir. Mərkəzi Banklar dövriyyədəki nağd pulun emitentidir və iqtisadiyyata pul təklifinin əsasını təşkil edən pul bazasını əlində olan pul siyasəti alətləri ilə müəyyən edir. Milli pulun daxili və xarici dəyərini qoruyur. Hökumətə maliyyə və iqtisadi məsələlərdə müşavirlik edir. Göründüyü kimi, bir dövlət orqanı kimi, onun bir çox vəzifələri vardır.

Kredit- maliyyə qurumlarının ən ilkin və geniş yayılmış forması bankların da daxil olduğu depozit institutlarıdır. Depozit institutu olan kommersiya bankları, demək olar ki, bütün ölkələrdə iqtisadiyyatın finansmanı üçün başlıca mənbəyidir. Banklar fiziki şəxslərdən, firmalardan, dövlət orqanlarından tələb edilənədək və müddətli əmanətlər qəbul edir və öz növbəsində onları kredit olaraq təqdim edir və ya ayrı-ayrı iqtisadi subyektlərin qiymətli kağızlarını yerləşdirir, investisiyaların həyata keçirilməsində iştirak edir.

Banklarının fəaliyyəti hər bir ölkənin bank qanunvericiliyi ilə tənzimlənir. Bəzi ölkələrdə onların fəaliyyətinə daha məhdud hüquqi çərçivədə, bəzilərində isə bir qədər geniş çərçivədə imkan verilir.

Finans vasitəçiləri **-** finans qurumlarına vasitəçilik deyilməsinin səbəbi fond transferini saxlamaq məqsədi ilə yığım sahibləri ilə borclular arasında tam bir transfert vəzifəsi görməsindədir. Bu qurumlar özləri əmanət qəbul edir və bu əmanəti kredit halında ehtiyacı olanlara verərək fond axtarma prosesini tamamlayırlar. Vasitəçilər əldə etdikləri fondların istifadəsinə görə müəyyən bir komisyon ödəyirlər, özləri də əmanətləri kreditə çevirdiklərinə borclulardan bir komissyon tələb edirlər. Bu ikisinin arasındakı fərq qurumun mənfəətini təşkil edir. Vasitəçilər pul axtaranla pula ehtiyacı olanlar arasında vasitəçilik edir və müvəqqəti sərbəst pulları istifadəçilərin sərəncamlarına transformasiya edirlər.

Vasitəçi qurumlardan ən önəmlisi fərd və qurumların yığımlanın əmanət formasında toplayan "əmanət qəbul edən qurumlarıdır". Bu qurumlarda yığımları ilə bazardakı fond təklifini qarşılayan (fond çoxluğuna sahib olanlar) və bazardan fond tələbində olaraq fond kəsirlərini finans etmək istəyən (fond kəsiri olanlar) iştirakçılar yer alır. Əmanət qəbul edən qurumlar, fond çoxluğuna sahib olanlardan "əmanət" adı altında fond qəbul edər və qiymətli kağız alışı və kredit satma yolu ilə fond kəsiri olanlara fond təmin edirlər. Bu əməliyyatların finans bazarlarında rəğbət görməsinin səbəblərini aşağıdakı şəkildə sıralaya bilərik: fond çoxluğuna sahib olanların yığımlarını əmanət formasına çevirmək; əmanətlərdən saxlanan fondların tələblərə uyğun şəkildə paketləmə və marketinqini həyata keçirirlər. Beləliklə, fond kəsiri olanların ehtiyac duyduqları miqdar və müddətlərdə kreditlərin bazarlamasını gerçəkləşdirirlər.

Əmanət qəbul edən qeyribank finans qurumlarının qaynaqlarının böyük bir hissəsini xalqın qoyduğu əmanət hesabları təşkil edir. Əmanət növləri bir-birindən fərqli olan bu qurumların ümumi xüsusiyyətlərini aşağıdakı kimi sıralamaq mümkündür:

1. bu qurumlar, təklif etdikləri əmanət ilə bağlı şərtləri açıqlayır və tələb edilən miqdarı tam olaraq təklif edirlər və əmanət olaraq qoyulan pulun nominal toplamını gələcəkdə geri ödəməyi öhdəlik edirlər;

2. kiçik yatırımçılar tərəfindən də tələb edilə biləcək finans aktivləri təklif edilir;

3. bu qurumların təklif etdikləri əmanətlərin bir hissəsi dövlətlə bağlı xüsusi təyinatlı qurumlar tərəfindən sığorta edilir.

Finans bazarlarında əmanət toplayan qurumlar aşağıdakılardır: Kredit ittifaqları, Kommersiya bankları, Əmanət bankları, Əmanət və Kredit birlikləri və Poçt-bank qurumları olmaqla beş qrup altında toplaya bilərik.

Kommersiya bankları topladıqları müddətli və müddətsiz əmanətlərlə bərabər, dolayı finans alətlər qarşılığında fond toplayaraq səhm, istiqraz və çeşidli kredit alətlərinə yatıran finans qurumlarıdır. "Kommersiya bankı" adı bankların ticarətlə yaxından əlaqədar olmasını xəbər verir. Kommersiya bankları qurulduqları ilk günlərdən bəri şirkətlərə kredit vermə əməliyyatını həyata keçirirlər. Son illərdə kredit verilən qrupların sırası genişlənsə də, bu bankların təməl kreditləndirdikləri qruplar hələ də şirkətlərdir. Bütün kommersiya banklarının başlıca iki funksiyası vardır: borc almaq və borc vermək. Borc almaq çox zaman əmanət şəklində, borc vermək isə kredit şəklində ortaya çıxır. Kommersiya banklarının bank sistemi içərisində ən önəmli fəaliyyətlərindən biri də bank pulunu yarada bilməsidir. Bank pulu banka qoyulan əmanətin məcburi ehtiyat normalarına ayrılan miqdarı çıxıldıqdan sonra, təkrar kredit olaraq verilməsi nəticəsində yaranır. Bank pulu çek sisteminin tətbiq edildiyi ölkələrdə böyük rol oynayır. Kommersiya banklarının fond qaynaqlarını müddətsiz və müddətli əmanət hesabları, Mərkəz bankının avansları və iştirakların mənfəətləri təşkil edir. Kommersiya bankları çoxçeşidli əmanət hesabları təklif etməklə fond çoxluğuna sahib olanlara xidmət göstərirlər.

Əmanətlərdən təşkil edilən fondlar və həqiqətən verilən kreditlər və ya qiymətli kağız alımı ilə fond kəsri olanlara fond transfer edirlər. Kommersiya bankları əmanət və borcvermə xidmətləri, fərdlərə, şirkətlərə, dövlət qurumlan tərəfindən verilən kredit əmanət servisləri kimi, özəl və ya dövlət sektorlarına xidmət göstərirlər.

Əmanət bankları - ipotekli kreditlər yolu ilə kiçik yatırımçılara yönəlik borcvermə əməliyyatlarında ixtisaslaşmış qurumlardır. Əmanət banklarının əsas funksiyası kiçik investorların əmanətlərinin toplanması və bu əmanətlərin iqtisadiyyata yönləndirilməsidir. Bank topladıqları fondların böyük bir hissəsini müştərilərinə verirkən, bir hissəsini də kredit şəklində ipotek qarşılığı olaraq inşaat-mənzil krediti kimi kiçik şirkətlərə verir. Əldə edilən mənfəətin 10-15%-i qaranti fondunu təşkil edir, qalan hissəsi isə əmanətçilərə faiz formasında verilir. Əmanət banklarında faiz dərəcələri kommersiya banklarına nisbətən aşağıdır.

Əmanət və kredit birlikləri (ƏKB)- kommersiya bankları ticari kreditlər üzərində ixtisaslaşarkən, əmanət və kredit qurumları ev, avtomobil kimi istehlak kreditləri sahəsində ixtisaslaşırlar. Əmanət və kredit birlikləri, əhalidən topladıqları əmanətləri inşaat-mənzil finansmanı axtaran quruluşlardır. Əmanət və kredit birlikləri 150 il bundan öncə yaranmalarına baxmayaraq onların tam mənada inkişafı II Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Əmanət və kredit birlikləri banklara qarşı rəqib olaraq ən ciddi qurumlardır. ƏKB mənzil tikintisi sahəsinin finansmanı mövzusunda ixtisaslaşır və bunların xidmətindən başlıca olaraq orta gəlirə sahib olan fərdlər istifadə edir. ƏKB balansının aktivində ən böyük payı kreditlər və ipotekə əsaslanan qiymətli kağızlar təşkil edir (ümumi aktivlərin 70%-i). Son vaxtlar ipotekə əsaslanan qiymətli kağızlar artmağa meyllidir, çünki onlar ipotekə görə daha asan satılmağa başlamışdır. ƏKB-də məcburi ehtiyat normaları tətbiq olunur. Buna əsasən ƏKB nağd pul, nağd və Mərkəzi bankda əmanət olaraq tutmaq məcburiyyətindədir.

Kredit ittifaqları - mənfəət məqsədi daşımırlar və fəaliyyətləri sadəcə üzvləri ilə məhdudlaşır. Kredit ittifaqları daha çox üzvlərinin istehlak kreditləri ehtiyacına yatırım edirlər. Kredit ittifaqları ortaqlıq anlaşması təməlinə söykənirlər. Modern bir kredit ittifaqı hər hansı bir kommersiya bankının verdiyi bütün xidmətləri verə bilir. Kredit birlikləri kommersiya bankları kimi çalışır. Lakin, onlar bankları kredit ittifaqlarının gəlir vergisindən azaddırlar, haqsız rəqabətə yol açdığını söyləyirlər. Kredit ittifaqları ilə digər əmanət quruluşları arasındakı təməl fərq göstərdikləri xidmətlərlə bağlıdır. Kredit ittifaqları mənfəət əldə etmək məqsədi ilə qurulmamışdır. Kredit ittifaqları vergidən azad yardım alan qurumdur və yatırılan əmanətlərlə səhmdara çevrilir və faiz ödəmələri mənfəət payı olaraq üzvlərə (səhmdarlara) verilir. Kredit ittifaqlarında çalışanların əksəriyyəti maaşsız işləyir. Kredit ittifaqlarının kreditlərinin 60%-ə yaxını ittifaqın üzvlərinə açılır. Belə ki, ittifaqın üzvləri istehlakçı olduqlarına görə, onlar istehlak və ipotek kreditləri təqdim edirlər. Kredit ittifaqlarının aktiv hissəsində qiymətli kağızlara yatırımlar da yer alır.

Azərbaycan Respublikasında "Kredit İttifaqları Haqqında" Qanun 2 may 2000-ci ildə qəbul edilmişdir və kredit ittifaqları könüllü, mənafe əsasında birləşən fiziki şəxslərin, kiçik sahibkarlıq subyekti olan hüquqi şəxslərin sərbəst pul vəsaitlərini cəmləşdirmək yolu ilə özlərinin qarşılıqlı kreditləşdirilməsi üçün yaratdıqları bank olmayan kredit təşkilatıdır.

Azərbaycan Respublikasının ərazisində banklar və bank olmayan kredit təşkilatları bank fəaliyyətini Mərkəzi Bankın verdiyi xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilə bilər və Depozit əməliyyatlarını yalnız banklar *və* poçt rabitəsinin milli operatoru tərəfindən həyata keçirilir.

Maliyyə xidmətlərinin göstərilməsi üçün poçt rabitəsinin milli operatoruna xüsusi raziliq (lisenziya) verilməsi və fəaliyyətinə dair prudensial tənzimləmə qaydaları "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", və "Poçt haqqında" Azərbaycan Respublikasının qanunlarına və digər normativ hüquqi aktlarına uyğun olaraq hazırlanmış və poçt rabitəsinin milli operatoruna maliyyə xidmətlərinin göstərməsi üçün xüsusi razılıq (lisenziya), onun filial və şöbələrinə isə icazələrin verilməsi qaydalarını, habelə malyyə xidmətləri sahəsində Milli operatorun fəaliyyətinə dair prudensial normativləri və tələbləri müəyyən edir. Milli operator, onun filial və şöbələri maliyyə xidmətləri sahəsində yalnız Mərkəzi Bankın verdiyi lisenziyada və icazədə nəzərdə tutulmuş fəaliyyət növləri ilə məşğul ola bilərlər. Milli operatorun şöbəsinə maliyyə xidmətlərinin həyata keçirilməsi üçün icazə yalnız nəzdində fəaliyyət göstərdiyi filialın maliyyə xidmətlərinin göstərilməsinə icazəsi olduğu halda verilə bilər. Maliyyə xidmətlərinin həyata keçirilməsi üçün lisenziya və icazələr müddətsiz verilir. Lisenziya və icazə verildiyi gündən qüvvəyə minir. Milli operatorun fəaliyyətinə dair prudensial normativlərin və tələblərin müəyyən edilməsi maliyyə xidmətləri sahəsində onun təhlükəsiz və etibarlı fəaliyyətinin təmin

edilməsi məqsədini daşıyır. Avropa ölkələrində poçt sistemi müəssisələrində əhaliyə direkt geniş spektirli və keyfiyyətli bank-maliyyə xidmətləri təklif edilməkdədir.

Milli operator maliyyə xidmətləri sahəsində aşağıdakı fəaliyyət növlərini həyata keçirə bilər:

1. poçt hesablarının açılması və aparılması;
2. pul köçürmələrinin həyata keçirilməsi;
3. maliyyə təsisatlarında, o ъümlədən Azərbaycan Respublikasının Mərkəzi Bankında müxbir hesabların açılması;
4. poçt əmanətlərinin qəbul edilməsi;
5. ödəniş vasitələrinin, o cümlədən debet və kredit kartlarının, poçt çeklərinin buraxılması;
6. müştərilərin sifarişi və vəsaiti hesabına xariъi valyutanın alqı-satqısı;
7. nağd pulun və digər qiymətlilərin inkassasiyası.

Maliyyə xidmətlərinə bilavasitə rəhbərlik edən Milli operatorun vəzifəli şəxs(lər)i ali iqtisadi və ya hüquqi təhsilə və bank-maliyyə sahəsində azı 4 illik iş stajına və etibarlı işgüzar nüfuza malik olmalıdır. Maliyyə xidmətlərinə rəhbərlik edən filialın vəzifəli şəxsi(ləri) ali və ya orta ixtisas təhsilinə, azı 3 illik iş stajına, bank işinə dair peşə hazırlıq kursunun sertifikatına və etibarlı işgüzar nüfuza malik olmalıdır. Maliyyə xidmətlərini həyata keçirən şöbənin rəhbəri etibarlı işgüzar nüfuza malik olmalıdır.

Milli operator maliyyə xidmətləri sahəsində fəaliyyəti dövründə nizamnamə kapitalının minimum məbləğinin, likvidlik göstəricilərinin və açıq valyuta mövqeyinin daimi olaraq aşağıdakı normativlər səviyyəsində saxlanmasını təmin etməlidir:

1. nizamnamə kapitalının minimum məbləği - 20 (iyirmi) milyon manat;
2. gündəlik ani likvidlik əmsalı - azı 50 (əlli) faiz;
3. açıq valyuta mövqeyi üzrə:

3.1. ayrılıqda hər bir sərbəst dönərli valyuta üzrə 5 (beş) faiz;

3.2. ayrılıqda hər bir qapalı valyuta üzrə 3 (üç) faiz;

3.3. sərbəst dönərli valyutalar üzrə məcmu açıq valyuta mövqeyi 10 (on faiz);

3.4. qapalı valyuta üzrə məcmu açıq valyuta mövqeyi 7 (yeddi) faiz.

Ani likvidlik normativinin hesablanması, likvidliyin planlaşdırılması və idarə olunması ilə bağlı digər tələblər, eləcədə açıq valyuta mövqeyinə dair tələblər Mərkəzi Bankın müvafiq normativ xarakterli aktları ilə banklar üçün müəyyən etdiyi qaydada tənzimlənir.

Əmanət qəbul etməyən finans qurumları.

İnvestisiya bankları - uzunmüddətli investisiya kreditini təmin edən və ya da özəl şirkətlərin çıxardıqları istiqrazların satışına qarantiya verən qurumlardır. Hər iki durumda da bunların fəaliyyətləri kommersiya banklarından fərqli olub investisiyaların finansmanı məqsədinə yönəlikdir. İnvestisiya banklarının qaynaqları ortaqların (hökumət, kommersiya bankları və ya böyük holdinqlər kimi) qoyduqları öz sərmayədən çıxartdıqları uzunmüddətli istiqrazların satışından və ya xarici qaynaqlardan yaranır. İnvestisiya bankları, istiqraz çıxararaq investisiya krediti saxlamaq istəyən şirkətlərlə bir qaranti anlaşması (underwriting) imzalayırlar. İstiqrazların satışını nəzərdə tutan bu anlaşma müxtəlif formalarda ola bilər. Məsələn, bir sxemə görə, investisiya bankı, istiqrazları topdan satın alır və bunları bazarda yenidən satır. Digər bir sxemə görə isə istiqraz ixrac edən qurum bunları özü bazarda satışa təklif edir, ancaq satılmayan hissə investisiya bankı tərəfindən satın alınır. Beləliklə, hər iki durumda istiqrazları çıxaran qurum bunların satılmasını qarantı altına almış olur. Şübhəsiz investisiya bankları bu xidmətlər müqabilində bir komisyon (haqq) alırlar.

Beləliklə, investisiya bankları, kapital bazarının daha çox inkişaf etdiyi ölkələrdə xalqın qısa və uzun bir müddət üçün istifadə etmədiyi əmanətləri ilə şirkətlərin və dövlətin uzun müddətli kreditə olan ehtiyaclarının qarşılanmasında vasitəçi olurlar.

İnvestisiya banklarının funksiyaları aşağıdakılardır: Aksiya və istiqrazların II bölgüsünü həyata keçirir; avrovalyuta bazarında avroistiqraz və avroaksiya yerləşdirilməsinə vasitəçilik edir və korporativ şirkətlərə investisiya mövzusunda müşavirlik xidməti verir.

İnkişaf bankları - daha çox sərmayə bazarının inkişaf etmədiyi və ya sərmayənin qıt olduğu ölkələrdə ortaya çıxmışdır. İnkişaf banklarının vəzifələri aşağıdakılardır: İnvestisiya

layihələri hazırlamaq və investisiyanı stimullaşdırmaq məqsədi ilə uzunmüddətli kredit xətti açmada yardımlar; Şirkətlərin səhmlərini alaraq investisiya prosesində iştirak edirlər; Xarici sərmayənin investisiya sahələrinə yönəlməsinə vasitəçilik edirlər.

Finans şirkətləri öz varlıq və borclarına əsaslanıb qiymətli kağızlar ixrac etməklə və topladıqları fondları birbaşa olaraq nağd kredit istəyən istehlakçılara və ya istehlak mallarının finansmanı üçün şirkətlərə qısa və uzunnüddətli kredit təklif edən finans qurumlarıdır. Ümumiyyətlə, finans şirkətləri, hər hansı bir yerdən ucuz kredit əldə edə bilməyən kommersiya şirkətləri və fərdlərin qısa-ortamüddətli kreditlərə olan ehtiyacını ödəməyə yardımçı olur. Finans şirkətləri fond təklifçilərinə, banklara və ya digər finans vasitəçilərinə, qısa və ortamüddətli dolaylı finans aləti satmaqla topladıqları fondların çoxunu ya birbaşa olaraq nağd kredit istəyən istehlakçılara və ya uzunömürlü istehlak mallarının finansmanı məqsədi ilə şirkətlərə, qısa və ya uzunmüddətli kredit formasında təklif edən vasitəçi qurumlardır. Finans şirkətləri kommersiya finans şirkətləri, faksidlə satış finans şirkətləri və istehlak finans şirkətləri formasında üç qrupa bölünür. İlk finans şirkətlərinin II Dünya müharibəsindən sonra ABŞ-da, daha sonra isə Avropa ölkələrində fəaliyyəti genişlənmişdir. Finans şirkətlərinin, banklardan fərqli olaraq, kiçik əmanətləri toplamaq yerinə, kapital bazarlarına qiymətli kağız satar və ya onları banklardan borc alaraq əldə edərlər.

Adətən, finans şirkətləri istehlakçıya kredit verir. Məsələn, ABŞ-ın, "General motors" avtomobil korporasiyası maşınlarını tez satmaq məqsədi ilə "General motors akseptans korporation" finans şirkəti təsis etmiş və beləliklə, maşınları kreditə satmaqla onun realizasiyasını gücləndirmişdir.

Taksitlə satış finans şirkətləri həm pərakəndə, həm də topdan satanlar üçün qısamüddətli kredit imkanı saxlayır. Ümumiyyətlə, fınans şirkətləri pərakəndə və topdan satış şirkətlərinə kredit verməkdə ixtisaslaşmış şirkətlərdir. Bu qurumlar, qısa müddətli, kredit bazarında, kommersiya banklarına rəqibdilər.

Sosial güvənlik qurumları - sərmayə bazarının ən önəmli qurumlarından biridir. Bu qurumlar üzvlərindən topladıqları fondlarla aksiya, istiqrazlar satın alaraq bu fondları verimli bir şəkildə istifadə etməklə üzvlərinə xidmət edirlər.

İnvestisiya fondları - fondlar investorlara mülkiyyət haqqı verən səhm ixrac edirlər. İnvestorlar üçün hər hansı bir təminat və ya sığorta mövzusu imkansızdır. Əldə edilən fondlardarı qiymətli kağız portfelinin satın alınmasında istifadə edilir. Finans bazarlarındakı bəzi fondlar səhm və istiqraz kimi finans alətləri üzərində ixtisaslaşmışlar.

İnvestisiya fondları açıq və qapalı üçlü investisiya fondları olaraq ikiyə ayrılır. Açıq investisiya fondları **-** səhmdarların istəyi ilə onların səhmlərini satın ala bilən finans qurumlarıdır. Qapalı investisiya fondları fondun təşkilində müəyyən sayda səhmlər ixrac edilir və səhmdarlar özlərinə aid səhmləri sadəcə digər yatınınçılara sata bilirlər.

Pul bazannda investisiya fondları xəzinə bonosu kimi likvidliyi çox olan yüksək pul bazan alətlərinə yatının edirlər. İnvestisiya fondları iqtisadi vahidlərdən fond qəbul etməklə, bu fondlar şirkətin investisiya fəlsəfəsinə uyğun olaraq idarə edir. İdarə və digər xərclər çıxarılaraq, investisiyadan əldə edilən qazancları şirkətin səhmdarlarına verilir. Əsas etibarilə investisiya fondları investorların sərbəst pul vəsaitlərin pul və kapital bazarında və xüsusi finans aktivlərinin alqı-satqısında dəyərləndirir.

Pensiya fondları - üzvlərinin əqidəsinə və gəlirinə görə təsbit edilən ayırmaları toplayaraq üzvlərini xəstəlik, ölüm və pensiyalılıq kimi risklərdən qoruyurlar. Toplanan ayırmalar uzunmüddətli və sabit olduğundan likvid fond tutmaq ehtiyacına heç bir əsas qalmır. Bu səbəbdən də toplanan fondlar kapital bazarı alətlərinə yönəlir. Pensiya fondları iştirakçılara, yaşamlarının aktiv olaraq çalışmadıqları dönəmində, dönəmsəl gəlir saxlamaq üzrə, aktiv olaraq çalışdıqları dönəmdə ödədikləri payların vasitəsi ilə topladıqları fondları finans bazarlarında dəyərləndirən qurumlardır.

Pensiya fondlarının yaradılmasında bir tərəfdə iştirakçı və ya qatılımçı, digər tərəfdə isə sistemin qurucusu olur. Pensiya fondları, qurucularından asılı olaraq fərqli formalar ala bilir. Əsas olaraq iki tip əməklilik fondu idarəsindən bəhs edir. Bunların birincisi müəyyən edilmiş maaş, digəri isə müəyyən edilmiş iştirak və ya qatqı modellərdir.

Hər iki sistemdə investisiya riskinin qurucu ilə iştirakı arasındakı paylaşdırılması fərqlənir. Məlum maaş modellərində qurucu əməkliliyə haqq qazanmış olan qatılımçılara son ildə aldıqları

maaşın nə qədəri səviyyəsində pensiya maaşı ödəyəcəyini öncədən müəyyən edilir. Müəyyən edilmiş qatqı modelindəki sözləşmədə, qatılımçıların çalışdıqları dönəmdə maaşlarının nə qədərini qatqı payı olaraq ödəyəcəkləri müəyyən edilməklə, əməkli maaşı bu qatqı paylarının məcmu tutan təqdirdə təsbit edilir. Pensiya fondlarının qurulma məsələsi həm məcburi, həm də könüllü və ya istəyə bağlı ola bilər. Məcburi uyğulamalar Çili, Malaziya və Sinqapurdadır. İstəyə bağlı pensiya fondları isə ABŞ və İngiltərədə rast gəlinir.

Ümumiyyətlə, Qərb ölkələrində istər dövlət, istərsə də özəl sektorda bütün çalışanların pensiya təminatları vardır. Bundan başqa, bütün işçilər sosial sığorta sistemi tərəfindən qorunurlar. Adətən, pensiya fondlarının aktivləri bölümündə 80% korporativ qiymətli kağızlardır, onun isə 30%-i aksiyadır ki, bununla pensiya fondları çeşidli şirkətlərin korporativ siyasətinə təsir etmə gücünə sahib olur.

Ümumiyyətlə, Avropada pensiya fondlarının fəaliyyəti dövlət tərəfindən dəstəklənir. Belə ki, Fransa və İtaliyada pensiya fondlarının fəaliyyətində əldə edilən gəlir vergidən azaddır. Bu isə onlara iri investor kimi çıxış etməyə imkan verir. Pensiya fondlarının vəsaiti həm işverənlər, həm də işçilərin ayırmaları hesabına formalaşır. Fond bu vəsaitləri müəyyən obyektlərə investisiya edir və sonradan dövri olaraq yığılmış vəsaiti işdən azad olunanlara bütövlükdə və ya annuitet qaydasında ödəyir. Pensiya fondlarına vəsait yığılarkən vergiyə cəlb olunmur. Pensiya fondlarının passivləri uzunmüddətli xarakter daşıyır. Buna görə də onlar uzunmüddətli qiymətli kağızlara yatırım etmək imkanlarına sahib olurlar. ABŞ-da korporativ qiymətli kağızların əhəmiyyətli hissəsi pensiya fondlarının payına düşür.

Qiymətli kağızlarla əməliyyat aparan şirkətlər - əllərindəki uzunmüddətli fondları qanun çərçivəsində səhm və istiqraz satınalma yolu ilə dəyərləndirən qurumlardır. Finans bazarlarında, bu şirkətlərin çox çeşidli funksiyaları vardır. Bəzi qiymətli kağız şirkətləri iştirakçılar arasındakı qiymətli kağız əməliyyatlarının gerçəkləşdirilməsində bilgi qaynaqlarını "broker" (komisyonçu) kimi istifadə edirlər. Brokerlər əməliyyatlarını gerçəkləşdirmək üçün bir komisyon alırlar. Bu komisyon təklif və tələb arasındakı qiymət fərqinə təsir edir. Komisyon əməliyyat miqdarının faizi olaraq hesablanır.Bəzi qiymətli kağız şirkətləri, yeni çıxarılmış şirkətin qiymətli kağız ixracını reallaşdırır. Hüquqi şəxsin müəyyən qiymətli kağızlarının alış və satış qiymətlərini elan edib, bu qiymətli kağızların elan edilmiş qiymətlərlə alınması və ya satılmasını öhdəsinə götürməklə öz adından və öz hesabından qiymətli kağızlarla alqı-satqı əqdlərinin bağlanılması prosesi diler fəaliyyəti hesab edilir. Bəzi şirkətlər diler və broker olaraq xidmət göstərməklə, gəlirlərini də bu iki fəaliyyət növündən əldə edirlər.

Sığorta şirkətləri - sığorta şirkətlərinin əsil funksiyası, meydana gəlməsi düşünülən təhlükələrdən doğa biləcək ilki və zərərləri azaltmaq məqsədi ilə üzvlərinə sığortaçılıq xidmətləri verirlər. Sığorta şirkətləri ölüm, xəstəlik, ya da qəza sığortası kimi sığorta polislərinin satılması qarşılığında prim (müəyyən edilən məbləğin yüzdə bir hissəsi) alırlar və topladıqları bu primləri çeşidli qiymətli kağız satın alınmasında istifadə edirlər. Bu yolla sığorta şirkətləri fonda ehtiyacı olanlara finans yardımı göstərirlər. Ümumiyyətlə, sığorta şirkətləri kapital bazarının ən önəmli iştirakçılarıdır. Sığorta şirkətləri sığorta strukturu içərisində, özəl sığorta və sosial sığorta olaraq iki yerə bölünür. Özəl sığorta isə öz növbəsində, həyat və mal sığortası olaraq ikiyə ayrılır, sosial sığorta isə sosial müdafiə qurumlarını əhatə edir.

Mal və qəza sığortalarında şirkətlər, aktivlərində daha çox likvid tutmaqla və kapital bazarlarında likvidliyi yüksək olan finans alətlərinə yatırım qoyurlar. Burada investisiya qərarlarında mənfəətdən çox, likvidlik və təminatlıq ön plana çıxmaqdadır.

İnsanlar heç gözlənilməyən olaylarla hər gün qarşılaşa və bu qarşılaşmalar ölümlə və ya qəza ilə nəticələnə və hətta bu zaman bir maddi varlığın itkisinə də yol açа bilər. Bu məqsədlə insanlar gələcəyə və sağlığa yönəlik olaraq maddi itkiləri aradan qaldırmaq məqsədi ilə sığorta şirkətləri təşkil etmişlər.

Sığorta iqtisadi mexanizmin yardımı ilə fərd və qurumlar öz risklərini (gələcəyin müəyyənsizliyinə görə) sığorta qurumlarına həvalə edirlər.

Sığorta şirkətləri fərdlərə həm əmanət və həm də investisiya xidmətləri göstərir.

Həyat sığorta şirkətləri. Həyat sığortası fondları uzunmüddətli və sabit olmasından dolayı daha çox şirkətlərin səhmlərinə, ipotek kreditlərinə və dövlət istiqrazlarına yatırılır. Həyat sığortasının əsas vəzifəsi sığortaçını ölüm və yaşama risklərindən qorumaqdır. Sığortalı üçün ölüm bilinməzdi: Həyat sığortası (polisi) primləri aşağıdakı amillərə diqqət yetirməlidir: sığortalanın yaşı; orta ömür gözlənilişi; sığorta fondundan gözlənilən investisiya gəlirləri; şirkət xərcləri; uyğun bir mənfəət marjı.

Həyat sığorta polisi iki tiplidir: ömürlük həyat sığortası və müvəqqəti həyat sığortası (həyat sığortasının müvəqqəti müddəti).

Lizinq. "Finans icaraçi", məlum bir müddət üçün icarələyən (lessor) və icaraçi (lessec) arasında imzalanan, icaraçi tərəfindən seçilib, icarələyən tərəfindən satın alınan bir mülkiyyətini icarələyəndə, malın istifadəsini müəyyən bir icarə haqqı ödəməsi qarşılığında icaraçidə buraxan bir kontarktdır.

Dünyada lizinqə mövzu olan mallar: avtomobillər; büro avadanlıqları və ya cihazları; xəbərləşmə cihazları; kənd təsərrüfatı alət və maşınları; təyyarələr; yol-inşaat maşınları; avtobuslar; mətbəə avadanlıqları; tibbi cihazlar; enerji təsisatı.

Lizinq ölkədaxili icarə və beynəlxalq icarə olmaq üzrə ikiyə ayrılır. Lizinqin ölkədaxili və ya da beynəlxalq olması, icarələnən malın idxal edilib-edilmədiyinə görə deyil, sözləşməyə tərəf olanların, ölkə daxilində olub-olmadığına bağlıdır. Başqa bir sözlə, bir mal ölkə daxilində fəaliyyət göstərən lizinq şirkəti tərəfindən icarələnirsə, bu mal istər Türkiyədə istehsal edilsin, istərsə də idxal edilmiş olsun, bu ölkədaxili icarələmədir. Başqa bir tərəfdən, əgər icarə edən şirkət ölkə xaricində fəaliyyət göstərirsə və Azərbaycandakı bir lizinq şirkəti icarə işləmində vasitəçilik edirsə, beynəlxalq lizinqdən söz edilir.

Beynəlxalq lizinqin inkişafında rol oynayan başlıca faktorlar aşağıdakılardır:

1) Təyyarə və gəmilərin satın alınınasının böyük investisiya tələb etməsi və şirkətlərin lizinq yolu ilə finansman yükünü həmin avadanlıqları çalışma ömrünə bölmək istəmələridir;

2) Ölkələr ixracatlarını inkişaf etdirmək üçün beynəlxalq finansal icarələmə metodundan istifadə edirlər. Məsələn, 1979-cu ildə yapon hökuməti tərəfindən dəstəklənən "Şamural leasinq" proqramı hazırlanmışdır. Proqrama görə, yapon finansal lizinq şirkətləri, ABŞ təyyarələrini öncə satın almış sonra beynəlxalq sahədə icarələməklə, idxalatını artırmış və valyuta rezervlərini azalmış kimi göstərmişlər. Daha sonra valyuta risklərini azaltmaq üçün yapon iyeni üzərindən daha aşağı faizli sözləşmələr quraraq, iyen gəlirlərinin özlərinə qayıtmasına nail olmuşlar. Bu proqram, "Shogun Lease" olaraq tanınır.

Faktorinq. Faktorinq, böyük miqdarda kreditli satış edən şirkətlərin, bu satışlardan alınan haqların "Faktor və ya Faktorinq şirkəti" adlandırılan quruluşlar tərəfindən satın alınması əməliyyatıdır. Faktor şirkətlərin alacaq hesablarının satın alınmasında ixtisaslaşmış finansal bir qurumdur. Faktorinq qısamüddətli satışlardan alınan haqların faktorlara satılması ilə şirkətlərə fond saxlama imkanı veren bir finans texnikasıdır. Faktorinq əməliyyatı firma (müştəri), borclu və faktorinq şirkəti (faktor) olmaq üzrə üç tərəfdən ibarətdir:

1. Firma (müştəri) faktorinq xidmətini tələb edən və kreditli satışlardan əldə edilənləri faktorinq şirkətinə dövr edən şirkətlərdir.

2. Faktorinq şirkəti: müştərinin alacaqlarının dövr etdirərək və satın alaraq, qarşılığını nağd şəklində, alacaqlıya ödəyən şirkət və ya bu əməliyyatları yürüdən bankdır,

3. Borclu müştərinin alacaqlı olduğu fərdlər, şirkətlərdir.

Forfatinq. Forfatinq, faktorinqdə olduğu kimi, alacaq hüquqlarının üçüncü şəxsə dövr edilməsidir. Forfatinq metodu ilə ixracatın 80% və ya 90%-ə kimi hissəsi finansə edilir. Çünki forfatinq əməliyyatında mal dəyərinin 10%-i və ya 20%-ə qədər hissəsi nağd olaraq ödənilir. Dünya miqyasında forfatinq əməliyyatı aparan 300-ə qədər bankın 80-i Londondadır. Beynəlxalq bazarlarda artan rəqabət, ixracatçıların idxalatcılara daha uzunmüddətli mal satmalarına səbəb olmuşdur. Bunun nəticəsində ixracatçıların, alacaqlarını almama riski, faiz və valyuta riski kimi əlavə risklərlə yüklənmələri və bu risklərdən qorunma arzusu forfatinq finansman texnikasın istifadəsinə yol açmışdır.

Forfatinq əməliyyatında yer alan tərəflər aşağıdakılardır: ixracatcı şirkət (forfaitist); idxalatçı firma; Forfait; Qarantlı bank.

Forfatinq prosesinin I mərhələsində ixracatçı ilə alıcı arasında satış sözləşməsi bağlanılır. II mərhələdə, forfaiter ixracatçıdan dəyərləndirmə ala bilmək üçün bəzi məlumat və sənədlər istəyir:

tələb edilən kreditin həcmi, müddəti, valyuta cinsi, idxalatçının adı, ünvanı, yerləşdiyi ölkə, alacaqların şəkli, təminat növü, təminatı verecək olan bankın adı, yerləşdiyi ölkə, sənədlərin məbləği, müddətləri, ödənəcəkləri yer, ixrac edilən malların cins və miqdarı, sənədlərin təslim tarixi və lazım olan digər sənədlər.

Forfaitinq əməliyyatında ən çox istifadə edilən pullar aşağıdakılardır; ABŞ dolları, Avro və İsveçrə Frankı. Forfatinq əməliyyatında risk amilləri aşağıdakılardır: ölkə riski; siyasi risk; transfer riski; valyuta riski; ticari risk; faiz riski. Forfaitinq ilə ixracatçı özünü bu risklərə qarşı qoruyur və müddətdən öncə finansman əldə edir.

1.4. FİNANS BAZARI

Fond təklif və tələbi arasındakı axınları nizamlayan hüquqi və idari qaydaların mövcud olduğu və fond transfer əməliyyatlarının gerçəkləşdiyi bazarlara "Finans bazarları" adı verilmiş və finans bazarları tərkibinə pul və kapital bazarları daxildir.

Finans bazarlarını çeşidliyinə görə qruplaşdırmaq mümkündür:

1) bu bazardan faydalananlar baxımından: iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə fond tələb etmək üzrə şəxslər, şirkətlər, mərkəzi hökümət, bələdiyyə idarələri, xarici sərmayədarlar kimi 5 çeşid yatırımçı gəlir. Şirkətlər kapital bazarına istiqraz və şirkətin səhmlərini satmaq üçün gəlirlər. Sərmayə bazarlarında ilk və ya II əl kapital alqı satqıları ola bilir. Ümumiyyətlə, şirkət orta müddətli kreditlərini bank və sığorta şirkətlərindən alırlar. Dövlət borcları arasında orta və uzunmüddətli xəzinə istiqrazları (borcları) xüsusən önəmlidir. Bunlar açıq bazarda satılır.

2) alətin tipi: borca və ya kapitala görə, yəni istiqraz və səhm;

3) alətin müddəti: 1gündən-1 ilədək (qısamüddətli), 5-10 ilədək (ortamüddətli) və daha uzunmüddətli alətlər;

4) mərkəzləşmə dərəcəsi: bəzi bazarlar regional, bəziləri ölkə əhəmiyyətlidir. Buraya ölkənin hər yerindən təklif və tələb gələ bilir;

5) I və II bazarlar. II Bazardakı əməliyyatların çoxu daha öncə bazara çıxarılan alətlərin investorlar tərəfindən alqı-satqısıdır, yeni fondlar saxlanması deyildir. Bunlara II işləmlər deyilir. Səhm və istiqraz bazarlara çıxarılarkən, bunlar ilk bazara gəlir və ilk satış orada aparılır. Bunları satın alanlar satmaq istədikləri zaman II bazara gəlirlər.

Müddətindən asılı olaraq finans bazarı pul bazarı və sərmayə bazarı kimi iki yerə bölünür:

1) **Pul bazarı** qısa fond təklifləri ilə qısa müddətə olan fond tələblərinin qarşılaşdığı bir bazardır. Ümumiyyətlə, qısamüddətli fondlar hüquqi və fiziki şəxslərin dövriyyə vasitələrinə olan ehtiyacları üçün tələb olunur.

2) **Kapital bazarı** uzunmüddətli fond təklifləri ilə uzun müddətə olan fond tələblərinin qarşılaşdığı bir bazardır. Burada uzunınüddətli fondlar satılır və alınır. Uzunmüddətli fondlar sonradan hüquqi şəxslərin amortizasiya ayırmalan və mənfəətləri hesabına ödənilir.

Finans alətləri finans bazarında alqı-satqı obyektidir. Başqa sözlə, pul vəsaiti maliyyə alətləri vasitəsilə yığım sahiblərindən investora ötürülür. Finans qurumları isə bu prosesin vasitəçiləridir. Onlar pul sahiblərindən pulu cəlb edir və layihəçiyə ötürür. Başqa sözlə desək, finans qurumları finans bazarının iştirakçılarıdır. Finans bazarı əlavə pul vəsaitinə sahib olanlarla pula ehtiyacı olanlar arasında finans alətləri vasitəsi və finans qurumlarının iştirakı ilə əlaqə yaradan orqanizmdir. Finans alətlərinin alqı-satqısı zamanı bağlanan müqavilənin xarakterinə görə finans bazarını spot və forvard bazarına bölmək olar. Spot bazarında maliyyə alətlərinin alqı-satqısı dərhal həyata keçirilir və ödənişlə qiymətli kağızın sahibin sərəncamına keçməsi eyni anda baş verir. Forvard bazarı isə əvvəlcədən razılaşdırılmış qiymətlə maliyyə alətlərinin müəyyən müddətdən sonra alınıb-satılmasını nəzərdə tutur. Bu bazarın alətlərinə törəmə qiymətli kağız da deyilir. Törəmə qiymətli kağızlara opsion, varrant və fyuçerslər aiddir. Spot bazarında risk forvard bazarına nisbətən aşağıdır. Forvard bazarında tərəflər birja kurslarının dəyişməsi, inflyasiya, faiz stavkalarında tərəddüdlər və s. ilə bağlı olaraq finans itkiləri ilə üzləşə bilərlər. Bu bazarda qiymətli kağızlar spot bazarına nisbətən daha yüksək qiymətə satılır.

Finans alətlərinin elementlərinə görə də finans bazarını dövlət qiymətli kağızları və korporativ qiymətli kağızlar bazarı kimi təsnifləşdirə bilərik. Dövlətin finans bazarında emitent kimi çıxış etməsi büdcə kəsirin borclanma yolu ilə örtülməsi ilə bağlıdır. Korporativ finans alətləri isə real iqtisadiyyatın özəl qurumlarının maliyyə ehtiyaclarının ödənilməsinə xidmət edir. Dövlət borc sənədlərinin finans bazarında ağırlığının artması özəl qurumların sərəncamlarına gələn maliyyə axınlarının məhdudlaşmasına gətirib çıxarır. Bu tendensiya ölkə iqtisadiyyatında investisiyaların azalmasına, nəticə etibarilə iqtisadi artım tempinin aşağı düşməsinə yol aşır (crowdinq təsiri). Dolaylı maliyyə vəsaitləri şəraitində əmanətçilər öz vəsaitlərini müəyyən müddət və faiz ödənilməsi şərti ilə finans institutlarına verirlər. Sonradan kreditə ehtiyacı olan şirkət və fərdlərin bu ehtiyacları finans qurumları tərəfindən təmin edilir. Göründüyü kimi, finans bazarında borc verənlərlə borc alanlar arasındakı qarşılıqlı münasibətləri finans sistemi tənzim edir. Lakin, bu zaman fondların axını göstərilən iqtisadi subyektlərin bilavasitə görüşməsi nəticəsində deyil, vasitəçi qurumların yardımı ilə baş verir. Təbii ki, əgər finans sistemi olmasa idi, borc vermək istəyənlərlə, borc almaq istəyənlər bir-birini tapmayacaq, nəticədə dolayı pul münasibətləri də qurulmayacaqdır. Birbaşa maliyyə vəsaitləri şəklində borc almaq istəyində olanlar finans bazarında doğrudan borc verənlərə qiymətli kağız sataraq fond təmin edirlər. Bu durumda borc alan iqtisadi vahidlər borclarını gələcəkdə əldə etdikləri gəlirlərdən ödəmək öhdəliyini öz üzərinə götürür.

Bu bazarlar axtarılan fondun müddətinə görə də adlandırılır. Ən çox bir il olaraq tanımlanan qısa müddətli fondların alınıb satıldığı bazarlara pul bazarları, bir ildən yuxari, yəni uzun müddətli fondların axtarıldığı bazarlara isə sərmayə bazarları adı verilir.

Qısa müddətli fond təklif və tələbinin bir araya gəldiyi bazarlara "pul bazarları" (money markets) deyilir. Diqqət edilməsi lazım gələn ən önəmli nöqtə, bu bazarın qısamüddətli fondlardan təşkil edilməsidir. Burada göstərilən müddət, prinsipcə, bir ildən yuxarı ola bilməz.

Pul bazarlarında fəaliyyət göstərən ən önəmli qurumlar-banklardır. Kommersiya banklarının mənbələrini təşkil edən əmanətlər qısamüddətli olduğu üçün bankların satdıqları fondlar da (kreditlər) qısamüddətli olmaqdadır. Pul bazarı alətləri sırasına hökümətlərin ixrac etdiyi xəzinə bonoları dövlət istiqrazları, özəl sektor qurumlarının ixrac etdiyi xəzinə bonoları, dövlət istiqrazları, özəl sektor qurumlarının ixrac etdiyi finansman fondları, bankların ixrac etdiyi depozit sertifikatları, Repo anlaşmaları daxil edilə bilir.

Pul bazarında əldə edilən fondlar şirkətlərin finansmanında istifadə edilir.Bu bazarda şirkətlərin gerçəkləşdirilməsində istifadə edilən alətlər isə ticari sənədlər və əmanətlərdir. Pul bazarında gerçəkləşdirilən əməliyyatlarda müddət qısa, risk və faiz nisbətləri aşağıdır.

Orta və uzun müddətli fond təklif və tələbinin bir araya gəldiyi bazara "kapital bazarları" adı verilir. Kapital bazarını pul bazarından ayıran ən əsas xüsusiyyət orta və uzunmüddətli (bir ildən çox olmaq şərti ilə) fondlardan meydana gəlməsi və bu fondların şirkətlərin durum varlıqlarının digər bir ifadə ilə sabit sərmayə ehtiyaclarının qarşılanmasında istifadəsidir. Qaynaqlar pul bazarlarındakı kimi yığım olub, alətləri isə aksiya və istiqraz kimi qiymətli kağızlardır. Bu bazardakı əməliyyatlarda müddət uzun, risk və faiz nisbətləri də aşağıdır.

Uzunmüddətli fond ehtiyaclarının qarşılaşdığı sərmayə bazarlarının ən təməl iki aləti isə istiqrazlar və səhm sənədləridir. Şirkətlər finans bazarından 2 şəkildə qaynaq əldə etmək imkanına malikdirlər. Ən çox istifadə olunan metod borc aləti (bono kimi) ixrac etməkdir. Bu alətlə firma borc alətini (bonoyu) alan quruma, məlum bir ödəmə zamanında (müddət sonunda) məlum bir gəlir ilə birlikdə əsas pulu ödəməyi öhdəlik edir. Borcun müddət sonu bir ildən az isə "qısa müddətli", bir illə on il arasında ödəmə tarixi olan bonolara "orta müddətli", müddəti on ildən daha uzunüddətli qiymətli kağızlara isə "uzunmüddətli" bonolar qoyulur.

Şirkətlərin cəlb edə biləcəkləri başqa bir finans mənbə aləti səhmlərdir. Səhm olan qurum və ya fərd, səhmi çıxaran şirkətə ortaq olmaqdadır. Şirkət il sonunda mənfəət əldə etməsi halında səhmdarlara "divident" verir. Səhmləri bono və ya istiqrazdan ayıran ən önəmli xüsusiyyətlər: səhmlərin müddətinin olmaması və ya müəyyən edilmiş olan bir gəlir nisbətinə sahib olmamasıdır.

Beləliklə, finans bazarı beş həlqədən təşkil edilir:

1) Yığım sahibləri (fond təklif edənlər);

2) İnvestorlar (fond tələb edənlər);

3) Finansman alətləri;

4) Yardımçı qurumlar;

5) Hüquqi və idari nizamlayıcı qurumlar.

Finans bazarlarında yer alan fərdlərin və ya şirkətlərin verəcəkləri investisiya qərarlarında, finansal alətlər böyük önəmə malikdirlər. Finans alətlərinin çeşidli və çox saylı olması, investorlara alternativ investisiya imkanları saxlayır. Yığımlardan təşkil edilən fondların finans kəsiri olan investorlara təklif edilməsi finans bazarlarının mövcud olmasının başlıca səbəbidir.

Kapital bazarları içində də təşkilatlanmış və təşkilatlanmamış kapital bazarları olaraq bir fərqlənmə mümkündür. Təşkilatlanmış kapital bazarları, məsələn, İstanbul və ya Moskva Fond Birjasında əməliyyat görən "səhm bazarı" və "istiqraz və bono" bazarıdır. Kredit təklif və tələbi pul bazarlarından kapital bazarlarına və ya kapital bazarlarından pul bazarlarına doğru asanca axa biləcək xüsusiyyətdə olduğundan ikili xarakterə malikdir.

Pul bazarları ilə sərmayə bazarları bir-biri ilə çox yaxın əlaqəlidir, belə ki, faiz nisbətlərində meydana gələ biləcək artım və ya azalışlar, pul və sərmayə bazarlarındakı hərəkətlərin birindən digərinə doğru axınına təsir edir.

Faiz nisbətləri iki bazar arasındakı fond axınını nizamlayır, yəni nizamlayıcı dayanıqlı vəziyyət alır. Fond təklif edənlər öz investisiya siyasətini və əldə etməyi gözlədikləri qazanclara əsaslanaraq fondları bazarların birinə və ya hər ikisinə də istiqamətləndirə bilirlər. Fond tələb edənlər isə istədikləri fondun çeşidinə bağlı olaraq hər iki bazarı da saxlaya bilirlər. Bəzi vasitəçi qurumlar pul və ya kapital bazarlarında əməliyyat həyata keçirirlər. Hər iki bazar arasındakı cari faiz nisbətlərində dəyişiklik olmaqla yanaşı, həm də aralarında çox yaxın bir əlaqə mövcuddur. Fondlar aşağı faiz nisbətlərindən yüksək olana doğru tendensiya göstərir. Pul bazarında meydana gələn dəyişmə sərmayə bazarları üzərində təsirini göstərir.

Faiz nisbətləri isə bu iki bazar arasındakı fond axınında nizamlayıcı bir rol oynayır. Bu bazarlarda fond təklif edənlər investisiya siyasətləri və gözlədikləri gəlirlər istiqamətində fondları bir bazardan digər bazara və ya birdən çox bazarlara doğru yönəldə bilir. Fond tələb edənlər isə ehtiyac duyduqları kreditin növünə görə bir bazardan və ya birdən çox bazardan borclana bilir.

Bəzi vasitəçi qurumlar, xüsusilə banklar pul və kapital bazarlarına aid əməliyyatlan gerçəkləşdirməklə hər iki bazarda da çalışma yetkisinə malikdir.

Finans bazarlarında fondlar aşağı faiz nisbətlərinden yüksək nisbətli olanlara doğru hərəkət edir. Məsələn, pul bazarlarında görülən faiz nisbətindəki artımlar sərmayə bazarlarına mənfi təsir göstərməklə fondların sərmayə bazarlarından pul bazarlarına doğru axımına səbəb olur.

Əməliyyatlarına görə finans bazarları: I və II bazarlar adlandırılır. Finans bazarlarında əməliyyat görən finans alətləri, bazarlara ilk dəfə girilməsinə görə, I və II bazarlar olaraq iki qrupa ayrılır. Finans bazarlarına ilk dəfə çıxarılan səhm və istiqraz kimi qiymətli kağızları ixrac edən şirkətlər ilə əmanət sahiblərinin doğrudan doğruya qarşılaşdıqları bazarlara "I bazarlar" (primary markets) deyilir. I bazarlar kapital bazarları məntiqi ilə uzunmüddətli fondların əmanət sahiblərindən şirkətlərə hərəkət etməsini saxlar və gerçəkləşdirilən istiqraz və aksiya sənədləri satışları ilə şirkətlərə yяni sərmayə yaradar. I bazarlara daha öncə təklif edilmiş və dövriyyədə olan uzunmüddətli qiymətli kağızların alınıb satıldığı, aksiyalarda heç bir zaman, istiqraz müddəti gəldiyində, bu qiymətli kağızları ixrac edən zaman quruma baş vura bildikləri bazarlara "II bazarlar" (secondary markets) deyilir. II bazarlar qiymətli kağızların pula dönmə sürətini artıraraq, I bazara tələb yaradır və inkişafa yardımçı olur. Ayrıca, bu bazarda gerçəkləşdirilən fəaliyyətlərin şirkətlər ilə heç bir əlaqəsi yoxdur.

Təşkilatlanmamış kapital bazarları isə hüquqi və idari qaydaları olmayan, fiziki və rəsmi bir məkana sahib olmayan, təşkilatlanmış bazarların xaricində alqı-satqı işləmələrinə davam edən, əlaqəli qurum və quruluşların nəzarət və təftişindən uzaq (yəni ingiliscə buna "Over The Counter (OTC) Markets) olan finans bazarıdır.

Yerli və regional bazarlar. Bazarları ölkə içindəki yayğınlığına görə yerli və regional olaraq iki qrupa ayıra bilərik. Finansal alətlərin ölkə daxilindəki alqı-satqı işləmlərinin gerçəkləşdirildiyi bazarlara "yerli bazarlar" (national markets) adı verilir. Yerli bazarlar, sərmayənin tabana yayılmasına, əmanətlərin aktiv hala gətirilməsinə vasitəçi olmaqda, eyni

zamanda alternativ finansman yönətmələri arasında ən ucuz qaynaq nitəliyində olan fondlar ilə şirkətlərə yeni investisiyalara girmə, qısamüddətli fondları uzunmüddətli fondlar halına gətirə bilmə imkanı saxlamaqda, gərək ölkə içində, gərəksə xarici şirkətlərin tanınmasına imkan saxlamaqdadır. Ayrıca, bu bazarlar şirkətlərə aid aksiyaların təşkilatlanmış bir bazarda, arzu edilən zamanda, təklif və tələbə görə təşkil edilən qiymətlərlə alınıb satılma imkanı verir.

Bir bölgənin sərhədləri içində alqı-satqı işləmlərinə davam edən bazarlara isə "regional bazarlar" (lokal markets) deyilir.

Finans alətlərinin istifadəsinə görə finans bazarları: Finans alətlərə görə bazarları aksiya bazarları və istiqraz-bono və ya istiqraz törəmələri olaraq iki qrupa ayıra bilərik. Sadəcə aksiyalar və törəmələrinin alqı-satqı işləmlərinin gerçəkləşdiyi bazarlara "Aksiya bazarları" adı verilmişdir. Birja üzv üçün vasitəçi qurumlar arasında qiymətli kağız hərəkətini stumullaşdırıcı və investisiyaların aksiya sənədi xaricindəki istiqraz, bono və törəmələri alqı-satqı işləmlərinin gerçəkləşdiyi bazarlara "istiqraz-bono bazarları" adı verilir.

Pul bazarında qaynaqlar müddətli və müddətsiz əmanət, kapital bazarlarında isə davamlılıq təklif edilən yığımlardır. Pul bazarının başlıca xüsusiyyəti bu bazarların qısamüddətli fondlardan təşkil olunınasıdır. Pul bazarının alətləri ticari sənədlərdən, qaynaqları isə çeşidli əmanətlərdən təşkil edilir. Pul bazarında saxlanan fondlar kreditlərdir və bu kreditlər daha çox şirkətlərin dövriyyə vəsaitlərinin finansmanı üçün istifadə edilir.

Pul bazarı ilə kapital bazarı arasındakı fərqli yönlərə baxmayaraq, bu iki bazar bir-biri ilə yaxın əlaqəlidir. Aralarındakı əlaqələri aşağıdakı kimi sıralaya bilərik: Fond təklif edənlər bunlardan birinə və ya digərinə gedə bilərlər. Fond təklif edənlərin hansı bazara gedəcəyi, bunların investisiya və mövcud gəlir əldə etmə imkanları ilə bağlıdır. Eyni şəkildə fondları istifadə edənlər, bunları iki bazarın hər hansı birində saxlaya bilərlər.

Fondlar, iki bazar arasında gedib gələ bilir. Məsələn, Dövlət, müddəti başa çatan qısamüddətli borclarını uzunmüddətli borclarla (istiqrazlarla) dəyişdirə bilir. Və ya hər hansı bir bank müddəti başa çatan istiqraz gəlirini bir şirkətə qısamüddətli borc vermək surəti ilə istifadə edə bilir.

Bəzi qurumlar hər iki bazara xidmət götürə bilərlər. Məsələn, qısamüddətli dövlət borclarını alıb-satan agentlər, uzunmüddətli istiqrazları də ala bilir. Kommersiya bankları həm ortamüddətli, həm də qısamüddətli kredit verə bilir. Qısa və uzunmüddətli bazarların gəlirləri bir-biriylə əlaqəlidir. Örnəyin kredit sıxıntısı dolayısı ilə qısamüddətli fondların gəliri artınca uzunmüddətlilərinki də artar. Hər nə qədər qısa və uzunmüddətli bazarlar arasında arbitraj qurmaq surəti ilə bir əlaqə qurulsa da, pul bazarı uzunmüddətli bazarlara nisbətən daha həssasdır. Ayrıca pul bazarlarındakı kağızlar pula çox yaxındır, riskləri azdır.

1.5. FİNANS ALƏTLƏRİ

Finans bazarı çoxsaylı alətlərin alqı-satqısını və müxtəlif finans vasitəçilərinin fəaliyyətini əhatə edir. Biz finans bazarının işləyişinə diqqət yetirmək üçün orada əməliyyat görən finans alətlərinin və finans vasitəçilərinin növləri üzərində dayanaq. Qeyd etdiyimiz kimi, finans alətləri çoxsaylıdır. İnkişaf etmiş finans bazarı olan ölkələrdə finans alətlərinin bir-birindən olduqca fərqli və eyni zamanda oxşar cəhətləri olan növlərinə rast gəlinir. Fond təklif edənlər fond tələbində olanlardan dövr etdirdikləri fondların qarşılığında və bu alış-veriş nəticəsində doğan alacaq və ya ortaqlıq haqqlarını göstərən bir sənəd alırlar. İşdə bu sənədə "Finans instrumenti (aləti) və ya fınans investisiya aləti adı verilmişdir. Finans alətləri müəyyən bir satın alma gücünü təmsil edirlər və fond tələbində olanlar tərəfindən yaradılmaqla, fond sahiblərinə fondlarının əvəzində verilir.

Finans alətləri onu əlində tutanlar üçün finans aktivləri, bazara çıxaranlar üçün isə finans bazarları təşkil edirlər. Finans alətləri fond alış-verişinə fond təklif edənlər və ya fond istifadəçilərinin öz aralarında imzaladıqları sözləşmənin özəlliyinə, etimad və haqqlara, gəlir səviyyəsinə, müddətinə və likvidliyinə görə fərqlənirlər. İqtisadi vahidlərin fond tapmaq məqsədi ilə həqiqətən çıxardıqları finans alətləri vasitəsiz finans alətləridir. Vasitəli finans alətləri isə finans qurumları tərəfindən çıxarılan və yığım sahiblərinin həqiqətən bu qurumlar üzərindəki haqqlarını və alacaqlarının, bilavasitə vasitəçi qurumlardan fond saxlayan iqtisadi vahidlər üzərindəki haqqlarını və alacaqlarını göstərən sənədlərdir.

Başqa bir tərəfdən, saxladıqları haqqlara görə finans alətləri ortaqlıq haqqı saxlayan və alacaq haqqı doğuran finans alətləri olaraq qruplaşdırıla bilər.

Son illərdə finans innovasiyalarının güclənməsi təcrübədə finans alətlərinin daha yeni formalarını ortaya gətirmişdir. Dünya ölkələrində finans alətlərinin yeni növlərinin meydana gəlməsi həm də dezintermediasiya və sekyuritizasiya prosesi ilə bağlıdır. Finans vasitəçiliyinin bahalığı və istifadəçilər üçün ağırlığı, onlan birbaşa olaraq yığım sahibləri ilə əlaqə yaratmağa sövq etmiş və bankların borc kapitalı bazarındakı vatəçiliyindən imtina edərək, birbaşa finans alətlərini buraxmağa üstünlük vermişdir. Bununla da sekyuritizasiya, yəni finans bazarında borclanmanın əsas forması kimi qiymətli kağızların rolu güclənmişdir. Hazırda subyektlər mənfəət artırmaq və finans vasitəçiliyinin maya dəyərini aşağı salmaq, bununla da vasitəçilik xidmətlərinin ucuzlaşdırılması məqsədilə finans innovasiyalarından geniş istifadə edirlər. Finans innovasiyaları daha yeni, tərəflərin maraqlarını qarşılıqlı təmin olunması baxımından daha təkmil və dəyişən makroiqtisadi situasiyaya uyğunlaşmaq qabiliyyətinə malik olan finans alətlərini ortaya gətirir. Finans innovasiyaları sürətləndikcə finans alətlərinin də sayı artmaqdadır. Təbii ki, finans vasitəçilərinin təklif etdiyi finans məhsullarının bazarda daha çox reallaşması üçün onların məzmununa daim yeniliklər edilməsi tələb olunur. Finans innovasiyaları həm də bir sıra səbəblərlə bağlı olaraq daha da təşviq olunmaqdadır. Bu səbəblər sırasında ilk növbədə faiz dərəcələrinin və inflyasiya tempinin sabit olmamasını göstərmək olar. Dünya ölkələrində son dövrlərdə faiz dərəcələri və inflyasiya tempi həm nominal, həm də real baxımdan kəskin tərəddüdlərə məruz qalır. Bu tərəddüdlərdən irəli gələn riski azaltmaq məqsədilə yeni növ finans xidmətlərinə tələb ortaya çıxır. Finans innovasiyalarının güclənməsinə səbəb olan mühüm amillərdən biri də requlyativ xarakterli dəyişikliklərdir. İnkişaf etmiş ölkələrdə 70-ci illərdə finans bazarının derequlyasiyası müxtəlif finans vasitəçilərinin fəaliyyətini məhdudlaşdıran hədləri ortadan götürdü və bununla da rəqabət arenası xeyli dəyişikliyə məruz qaldı. Öz fəaliyyət arenasını xeyli genişləndirən finans vasitəçiləri yeni daxil olduqları seqmentdə yeni finans xidmətləri təklif etməyə başladılar. Finans innovasiyalarını gücləndirən digər səbəb texnologiyanın təkmilləşməsi ilə bağlıdır. Kompüterlərin finans əməliyyatlarına tətbiqi finans xidmətləri sferasını xeyli genişləndirir və sazişlər üzrə xərclərin dəyərini azaldır. Pul vəsaitlərinin elektron köçürülməsi, bankomatlar, ticarət mərkəzlərində terminallar, yaşayış evlərini tərk etmədən finans sazişləri bağlamağa imkan verən personal kompüterlər, həmçinin telekommunikasiya finans proseslərinin sürətlənməsinə səbəb olur və əmanətçilərin, borc alanların tələbatlarının daha dolğun şəkildə ödənilməsinə imkan verən finans məhsullarını ortaya çıxarır. Finans innovasiyaları iqtisadi aktivlik səviyyəsindən asılı olaraq da güclənməkdədir. İqtisadi tsiklin çiçəklənmə dövründə daha yeni finans alətlərinə tələb yaranır. Eyni zamanda iqtisadi tsiklin enmə dövründə də riskin azaldılmasına və likvidliyin qorunub saxlanılmasına üstünlük verilir. Bu da finans innovasiyası tələb edir. Finans innovasiyaları təkcə finans vasitəçiliyinin dəyərini aşağı salmır. Eyni zamanda pula ehtiyacı olanların müəyyən növ finans mənbələrinə çıxışını yüngülləşdirir və pul vəsaitlərinin, likvidli qiymətli kağızlar portfelinin idarə olunmasına müsbət təsir göstərir.

Finans alətləri birbaşa və dolayı finans alətlərinə ayrılır. Tarixən finans alətlərinin ən qədim növü veksel olmuşdur. Veksel tarixən təsərrüfat həyatına daxil olan ilk qiymətli kağız növüdür. 1718-ci əsrlərdə isə Avropada veksel qanunvericiliyi qəbul edilmişdir. Veksel bir tərəfin digər tərəfə müəyyən müddətdə nəzərdə tutulmuş pul məbləğinin qeyd şərtsiz məcburi ödənməsini və sonuncunun bu məbləği tələb etmək hüququnu təsdiq edən ciddi formalı yazılı borc öhdəliyidir. Veksel hər şeydən əvvəl kredit alətidir. Veksel vasitəsilə müxtəlif kredit öhdəlikləri: alınmış əmtəənin və göstərilmiş xidmətin kommersiya krediti şərti ilə ödənilməsi, alınmış borcun qaytarılması, kreditin təqdim edilməsi, həmçinin əlavə dövriyyə kapitalının cəlb edilməsi rəsmiyyətə salınır. Hər şeydən əvvəl veksel tədiyə vasitəsi rolunu oynayır. Başqa sözlə vekselin əsas xassəsi onun pul hesablaşmalarının aləti olmasıdır. Bu zaman veksel tədavülü hesablaşmaları bir neçə dəfə sürətləndirir. Belə ki, veksel onun ödənilməsinə qədər onlarla subyektin əlindən keçərək pul öhdəliklərini qarşılayır və nağd pula olan tələbatı azaldır.

Veksellərin kommersiya bankları tərəfindən uçotunun aparılması onların likvidliyini xeyli artırır. Veksellərin likvidliyini daha da artırmaq üçün Mərkəzi Bank tərəfindən onların yenidən

uçotu siyasəti aparılır. Mərkəzi Bankın bu tədbiri kommersiya banklarının veksellərin uçotuna olan həvəsini artırır və eyni zamanda iqtisadiyyatın pula olan ehtiyacları daha dolğun şəkildə qarşılanır. Mərkəzi banklar tərəfindən veksellərin yenidən uçotu iqtisadiyyatın tənzimlənməsi məqsədilə aparılır. Veksellər borcun yaranması şəraitindən və onun yerinə yetirdiyi funksiyalardan asılı olaraq kommersiya, finans və təminat veksellərinə ayrılır. Kommersiya vekseli kreditə verilən əmtəənin alqı-satqısı üzrə real sazişə əsaslanır. Kommersiya vekseli faktiki olaraq əmtəənin girovu ilə verilir və vekselin vasitəsilə əldə edilmiş həmin əmtəənin satışından daxik olacaq pul vəsaiti ilə təmin olunur. Buna görə də həmin veksellər bəzən əmtəə vekseli, alıcı, yaxud örtülmüş veksel adlandırılır. Veksellərin digər bir növü də finans vekselidir. Finans vekseli bir tərəfin digər tərəfdən vekselin əvəzində pulun borc şəklində alınmasına əsaslanır. Xüsusi finans vekselləri davamlı finans vəziyyətinə malik olan iri məşhur firmalar tərəfindən buraxılır. Finans vekselləri qısamüddətli olduğundan istiqrazlara nisbətən az əhəmiyyətə malikdir. Bu veksellər banklar tərəfindən uçota qəbul edilmir.

Əsasında konkret əmtəə sazişi dayanan kommersiya vekseli sadə və köçürmə formasında olur. Sadə veksel vekselverənin veksel sahibinə konkret məbləği bitmiş müddət üzrə ödənilməsinin yerinə yetirilməsi barədə heç nə ilə şərtlənməyən öhdəliyidir. Sadə vekselin üzərində yalnız tədiyəni ödəməyə məsul şəxsin bir imzası olur. Köçürmə veksel (tratta) vekselverənin ödəyici - borcluya ünvanlanınış, veksel sahibinə pulun ödənilməsi barədə əmrini nəzərdə tutan yazılı sənəddir. Sadə vekseldən fərqli olaraq köçürmə vekseldə iki tərəf deyil, üç və daha artıq tərəf iştirak edir.

Müddətli hesablar və depozit sertifikatları ilə yanaşı bank vekselləri də bankların vəsait cəlb etməsində mühüm rol oynayırlar. Bank vekseli vekselverənin veksel sahibinə müəyyən məbləği konkret müddətdə ödəməsi barədə borc öhdəliyidir. Bank vekseli müddətli hesablardan və depozit sertifikatlarından öz likvidliyi ilə fərqlənir. Belə ki, bank vekseli tədiyə vasitəsi rolunu oynamaq hüququna sahibdir və indossament qaydasında üçüncü şəxsə ötürülə bilər. Bank vekseli banklar üçün də əlverişlidir. Bu alətlərin emissiyası rəsmi qeydiyyat tələb etmir. Lakin bank vekselinin buraxılması kommersiya vekselindən fərqli olaraq real əmtəə sazişlərindən qaynaqlanmaması onların iqtisadiyyatda tədavülünə ciddi nəzarət olunması zərurətini ortaya çıxarır. Buna görə də Mərkəzi banklar tərəfindən veksel emissiyasına məhdudiyyət qoyan normativlər müəyyən edilir. Kommersiya vekselindən fərqli olaraq bank vekselinin banklar tərəfindən uçotu qadağan edilir.

İndi isə finans vasitəçiləri ilə olan bankların və qeyri-bank institutlarının emissiya etdikləri finans alətləri növləri üzərində dayanaq. Məlumdur ki, dolayı finans alətləri içərisində əsas yeri pul finans alətləri tutur. Bu tip alətlər alqı-satqı prosesində tədiyə vasitəsi rolunu oynamaq hüququna sahibdirlər.

Banknot dövlətin rəsmi puludur, pul sisteminin əsil finans alətidir, Mərkəzi bank tərəfindən tədavülə buraxılır, qanun gücü və pul siyasətinə məsul rəsmilərin qərarı ilə təşkil edilən satınalma gücüdür, dövlətin cəmiyyətə borcudur. Banklar cari hesab açan başlıca finans qurumlarıdır. Cari hesablar böyük hərəkət göstərən fondlardır. Hər hansı bir cari hesaba gündə çoxlu pul yatırıla və çəkilə bilir. Milyonlar, cari hesablarda aparılan tək bir əməliyyatla əldən-ələ dəyişdirilə bilir. Müştərinin hər hansı bir anda cari hesabdan çıxarda biləcəyi miqdara provizyon deyilir. Provizyon müştərinin hesabındakı istifadə edilə bilən likvid limitidir. Provizyon müştərinin hesaba qoymuş olduğu ödəmə miqdarından çox, az və ya ona bərabər ola bilər. Kommersiya bankları cari hesab kreditləri ilə əmanət və satınalma gücü yaradırlar.

Çek - istifadəyə hazır provizyona söykənən bir ödəmə əmridir, qeydiyyatlı pul ödəmələrində istifadə edilən başlıca alətdir. Banknot ilə çek arasında hüquqi baxımdan fərqlər vardır. Banknot dövlətin rəsmi puludur və onu rədd etmək qadağandır və onu qəbul etmək bütün ticarət təşkilatları tərəfindən məcburidir. Lakin birisinə pul yerinə çek verilirsə, o, bunu rədd edə bilər. Çeklə aparılan əməliyyatlarınuçotu dəqiq olduğundan iş həcmini və qazanclarını vergi dairəsindən gizlədənlər, rüşvət alanlar və s. bu kimi bənzəri şəxslər çeki qəbul etməzlər. Çeklə ödəmə aparan və aparılan şəxslərin qazandığı praktik fayda onlara pul tutma, daşıma və sayma çətinliyindən qurtarır. Çek verənin banka çek alıcısının alacağı pul məbləğinin bankdan alması barədə yazılı tapşırığıdır. Çek qiymətli kağızın bir növü olub ödəmə hesabat kitabçasıdır. Çekin də veksel kimi öz vacib rekvizitləri vardır. Bunlar aşağıdakılardır: adi "çek"; çek verənin çekdə

göstərdiyi pul məbləğinin ödənilməsi barədə banka tapşırığı; çek tədiyəçisinin adı və hesab nömrəsi; çek verənin imzası; çekin tərtib edildiyi gün və yer.

Çekin bir neçə növü vardır ki, bunların da ən əsasları aşağıdakılardır:

1. Adlı çek - konkret şəxsin adına yazılır və gələcəkdə onun başqa şəxsə ötürülməsi mümkün ola bilməz;

2. Order çeki - bu da konkret şəxsin adına yazılır, amma bu çeklərin gələcəkdə ötürücü imzalarla indosament ötürülməsi mümkündür;

3. Təqdim edilənin adına olan çek - təqdim edilənin adına yazılır və o bir şəxsdən digər şəxsə adi təqdim edilmə ilə ötürülə bilər;

4. Hesab çekləri - onunla nağd pul ödənişlərinin aparılmasına icazə verilmir. Pul çeki bankdan nağd pul alınması üçün təyin edilib.

Konosament yüklərin daşınmasında dünya praktikasında hamı tərəfindən qəbul edilən standart formalı sənəddir. Konosament yükləmə, daşınma və alınma hüququnu təsdiq edən sənəddir və beynəlxalq nəqliyyatda yüklərin daşınmasında istifadə edilir. Konosamentin aşağıdakı formaları vardır: təqdim edilənin adına konosamentdə təqdim edilən yükün sahibi hesab edilir; adlı konosament yükün konosamentdə adı çəkilən şəxs hesab edilir; Adlı konosament başqa bir şəxsə aid ola bilməz. Konosamentin de öz rekvizitləri vardır. Bunlar aşağıdakılardır: gəminin adı; firmanın adı; yükün qəbul olunına yeri; yükü göndərənin adı; yükü alanın adı; yükün adı və onun əsas xarakteristikası; konosamentin verildiyi vaxt və yer; gəmi kapitanının imzası.

Pul bazarında əməliyyat görən alətlərin başında əmanət dayanır. "Əmanət" dedikdə, istənildiyi zaman və ya məlum bir müddət sonunda geri alınmaq üçün banklar qoyulan pul anlaşılır. Əmanət sahibləri verdikləri pul qədər banklardan alacaqlı olurlar. Başqa bir sözlə, pulunu banka qoyan bir kimsə banka kredit vermiş olur. Bir sıra ölkələrdə ödəmələrin böyük bir hissəsi (təxminən 90%) banklar vasitəsilə olur. Pulun banknot yerinə əmanət şəklində bankda tutulması əmanətçiyə gəlir gətirir. Müddətləri baxımından əmanətləri aşağıdakı şəkildə sıralamaq mümkündür: müddətsiz və müddətli əmanət.

Banklardan istənilən an çıxarılmaq üzrə qoyulan əmanətlərə müddətsiz, müəyyən bir müddət sonunda götürülmə ilə qoyulan əmanətlərə isə müddətli əmanət deyilir. Tələb olunanadək depozitlər müxtəlif bank hesablarındakı vəsaitlərin sahibinin pul və hesablaşma sənədlərini yazmaqla birinci tələbdən əldə edə bilməsidir. Bunlara hüquqi şəxslərin cari və hesablaşma hesabında saxlanılan vəsaitlər, müxtəlif təyinatlı fondların vəsaitləri, hesablaşmalardakı vəsaitlər, digər kreditorların vəsaitləri, digər bankların müxbir hesablarındakı vəsaitlərin qalığı, fiziki şəxslərin tələb edilənədək əmanətlərdəki vəsaitləri və s. aiddir. Depozit sahiblərinin kateqoriyalarından asılı olaraq depozitləri hüquqi və fiziki şəxslərin depozitlərinə bölmək olar. Depozit əməliyyatının subyekti banklar və pulun sahibləri olan kreditorlar, obyekti isə banka verilən pullar sayılır. Bu hesabın sahibi üçün üstünlüyü onun yüksək likvidli olmasıdır. Ancaq onlar üzrə faizlər ya ödənilmir, ya da aşağı faiz müəyyən edilir.

Nəzərə alsaq ki, dünya bank təcrübəsində bankların cəlb etdiyi vəsaitlərin əsas hissəsini (təqribən 60-70 %ni) müddətli depozitlər təşkil edir. Müxtəlif növlü depozit və əmanətlər üzrə ödənilən faiz siyasəti stimullaşdırıcı rola malik olmalı və müştəriləri öz vəsaitlərini nəinki qısa müddətə, hətta uzun müddətə banklarda saxlamağa təhrik etməlidir.

Bankların əsas xərcləri depozit və ya əmanət xidməti ilə bağlıdır.

Azərbaycan Respublikasında mövcud bank qanunvericiliyinə uyğun olaraq əhalinin əmanətləri banklar tərəfindən yalnız Azərbaycan Respublikası Mərkəzi Bankının verdiyi lisenziya əsasında qəbul edilə bilər.

Əmanətçi ilə bağlanmış müqaviləyə əsasən bank əmanətçinin qoyduğu pul vəsaitini saxlamağı, əmanət üzrə faiz şəklində və bankların təklif etdiyi başqa formada gəlir ödəməyi, əmanətlə hesablaşmalar üzrə əmanətçinin tapşırıqlarını yerinə yetirməyi tutulmuş şərtlərlə və qaydada geri qaytarmağı öhdəsinə götürür.

Banklar ilk növbədə müştərilərin vəsaitlərini cəlb etmək və ya onların vəsaitlərini özündə saxlamaq üçün onlara kifayət qədər yüksək faiz gəliri əldə etməyi təmin etməlidir. Digər tərəfdən isə banklar kifayət qədər yüksək faiz dərəcəsindən qaçmalıdırlar.

Depozit hesabları onun sahibləri üçün puldur. Eyni zamanda depozit faiz gətirən bank puludur. Dolayısı ilə depozit onun sahibləri üçün bir tərəfdən tədiyyə vasitəsi, digər tərəfdən kapital rolunu oynayır. Lakin depozitin gətirdiyi faiz həmişə kapitalın adi gətirisindən az olur. Depozitin özünəməxsus xüsusiyyəti onun faiz gətirən likvid vəsait olmasıdır. Banklar tərəfindən açılan tələb edilənədək hesablar onun sahibləri üçün ən yüksək likvidliyə malikdir. Onlar bu hesablardakı vəsaiti istənilən vaxt geri götürə və onu digər subyektin hesabına köçürə bilərlər. Belə hesabı adətən firmalar, hökumətlər, fiziki şəxslər cari xərclərini bank köçürmələri vasitəsilə həyata keçirmək üçün açırlar. Tələb edilənədək hesablardan vəsait istənilən vaxt çağrıla bilsə də, təcrübə prosesində bankların daim bu hesablarında qalıqlar mövcud olur (transaksion qalıqlar). Banklar həmin vəsaiti fond olaraq pula ehtiyacı olan subyektlərə təqdim edə bilir. Finans sistemi əsas etibarilə banklara söykənən ölkələrdə bu transaksion qalıqlar fond axtaranların qısamüddətli ehtiyaclarının ödənilməsində böyük rol oynayırlar.

Hal-hazırda isə banklar depozit və əmanət əməliyyatları üzrə faiz siyasətini təyin etməkdə sərbəstdirlər. Kommersiya banklarının bu cür siyasətinə müəyyən amillər təsir göstərir. Bankların faiz dərəcəsinə təsir göstərən əsas amillərdən biri Mərkəzi Bankların apardığı uçot siyasətidir. Çünki uçot siyasətinin aşağı düşməsi və ya qalxması kommersiya banklarının ssuda və depozitləri üzrə faizlərinin aşağı düşməsinə və ya qalxmasına səbəb olur. Mərkəzi bankların açıq bazarda apardığı əməliyyatlar da kommersiya banklarının faiz siyasətinə təsir göstərən pul-kredit tənzimlənməsinin əsas metodlarından biridir.

Ümumiyyətlə, qeyd etmək olar ki, kommersiya banklarının səmərəli fəaliyyət göstərməsi onun faiz dərəcəsinin nə qədər səmərəli olduğundan asılıdır. Bildiyimiz kimi bank öz gəlirlərini bir tərəfdən faiz dərəcəsini artırmaqla çoxalda bilər (indiki şəraitdə faizlərin bazarda tələbdən və təklifdən asılı olaraq formalaşdığı şəraitdə bu qeyri-mümkündür). Digər tərəfdən isə kommersiya bankları apardıqları əməliyyatların kəmiyyətini artırmaqla əldə etdiyi faiz dərəcələrinin həcmini və öz gəlirlərini artıra bilər. Bu baxımdan indiki şəraitdə yerli kommersiya bankları öz gəlirlərini artırmaq üçün son istiqaməti üstün tutmalıdırlar. Banklar əlavə vəsaitləri cəlb etmək üçün özlərinin uzunmüddətli öhdəliklərini, yəni istiqraz vərəqlərini də buraxa bilərlər. Bu vaxt bank qiymətli kağızların emitenti kimi çıxış edir. İndiki şəraitdə banklar resurs çatışmazlığı ilə üzləşməmək üçün, cəlb etdiyi müddətli qoyuluşların xüsusi çəkisini artırmaq üçün öz passivlərinin strukturunu təkmilləşdirməlidirlər.

Bank hesabları növlərindən biri də müddətli hesablardır. Bu hesablarda bankların bəlli bir müddət üzrə cəlb etdiyi vəsaitlər yerləşdirilir. Müddətli hesablar bank resurslarının formalaşmasında önəmli rol oynayır. Bu hesablardakı vəsait tədiyyə rolunu oynaya bilməz. Müddəti bir ilə qədər olan hesablar pul bazarı aləti, müddəti bir ildən yuxarı olan hesablar isə kapital bazarı alətidir. Son vaxtlar inkişaf etmiş ölkələrin təcrübəsində vəsaitlərin maksimum cəlb olunması məqsədilə banklar tərəfindən daha geniş spektrli xidmətlər göstərilməkdədir.

Banklar tərəfindən emissiya edilən depozit sertifikatları da son illərdə finans bazarlarında daha çox əməliyyat görməkdədir. Depozit sertifikatı banka pul vəsaitinin yerləşdirilməsi barədə əmanətçinin hüququnu təsdiq edən şəhadətnamədir. Onun sahibi sertifikatı digər şəxsə verməklə həmin hüquqları, yəni əmanəti və onun faizini almaq hüququnu ona ötürmüş olur. Bankın depozit sertifikatları qiymətli kağızların bir növü kimi çıxış edir və müvafiq qanunvericilik əsasında tənzimlənir. Depozit sertifikatları təkrar bazara çıxarıla və orada əməliyyat görə bilir. Onlar müddətli hesablara nisbətən likvidli alət hesab edilir. Lakin depozit sertifikatları tədiyə rolunu oynaya bilməzlər.

Finans bonosu - pul bazarında əməliyyat görən qısamüddətli pul alətidir.

Təminat məktubları - bankların firmalara, xüsusilə də xarici ticarətlə məşğul olan firmalara verdikləri sənəddir. Bank təminat məktubu isə bankın müştərisi olan şirkətin öhdəliklərini yerinə yetirməməsi halında ortaya çıxacaq olan borcu ödəməyi qəbul etdiyi öhdəlikdir.

Repo - qiymətli kağızların geri satın alınmaq öhdəliyi ilə satılması, əks-repo isə qiymətli kağızları geri satmaq öhdəliyi ilə satın alınması kimi tərif edilir. Əməliyyatın başlanğıcında borc pul verilərək qarşılığında qiymətli kağız satın alınır, sonunda isə qiymətli kağız borc verənə geri verilir və borcu alan aldığı pulu əlavə faizlə geri qaytarır. Reponun müddəti 1 gecədən 30 günədək və ya daha çox müddətə ola bilər.

Poliçə - alacaqlının borcluya xitabən imzaladığı bir ödəmə əmridir. Əmrə yazılı sənədi imzalayan borclu, poliçəni imzalayan alacaqlıdır. Poliçə iki borcu eyni vaxtda ödəməyə yarayan bir kredit alətidir. Məsələn topdansatan, mal satmış olduğu pərakəndiçiyə xitabən imzaladığı poliçə ilə borclu olduğu sənayəçiyə alacağını transfer edir.

Warrant - özəlliyi mal qarantisinə dayanan bir kredit alətidir. Mağazalara malı kredit verən bir kommensarta iki ayrı sənəd verilir. Bu sənədlərin biri mal alınmasını göstərən sənəd, digəri isə warrantdir. Qaimə malın mülkiyyət sertifikatıdır. Warrant isə mal üzərində ipotek haqqıdır. Kommersant özünə kredit açan şəxsə və ya müəssisəyə qaranti olaraq warranti verir. Qaimə isə özündə qalır. Kommersant borcunu ödəmədən mal satarsa, alıcıya yalnız qaiməni verə bilir. Qaiməyə varrantın əlavə edilməsi, malın bir borc qarantisi olaraq tutulduğunu isbat edir. Alıcı, dəyəri ödərkən bu borcu da diqqətə almaq imkanını əldə edir, ancaq borcunu ödəmək şərti ilə warrantı geri ala bilər. Mağazalar qaimə ilə warrantı bərabər gətirən şəxsə malı təslim edir. Warrant metodu kənd təsərrüfatında, otelçilikdə, sənayedə və neft ticarətində istifadə edilir.

Kənd təsərrüfatı warranti tarladakı və ya fermerin əlindəki məhsulu qaranti göstərərək kredit alınmasını təmin edə bilər.

Xəzinə bonosu - pul bazarında əməliyyat görən pul alətidir. Xəzinə bonosu 3, 6 və 12 ay müddətli, büdcə kəsirini maliyyələşdirmək üzrə dövlət tərəfindən çıxarılan borc sənədləridir. Xəzinə bonosu adsız olduğu üçün tam likvid aktivdir. Ancaq dövlətə qarşı etibarın zəif olduğu ölkələrdə müddət daha da qısadır.

Kredit kartları istehlak xərcləmələrində, çekin yerini alan bir ödəmə alətidir. Bank kartları kredit kartlarından fərqlidir. Kredit kartının sahibi müəyyən bir miqdara qədər ödəmə həyata keçirmədən xərcləmələri edə bilər. Bank kartı isə kredit əməliyyatını aparmaq haqqını verməz. Kredit kartının işləmə sxemasını aşağıdakı kimidir: Müştəri banka bank kredit kartoçkasının alınması üçün ərizə təqdim edir. Şirkətin kredit qabiliyyəti yoxlanıldıqdan sonra, şirkətin ödəmə quçu təsbit edilərək limit çərçivəsində özəl kart hesabı açılır və ona plastik kart hazırlanır. Kart sahibi mal və xidmət alarkən kartını satıcıya təqdim edir və satıcı ticarət hesabı hazırlayır (slip) və bu prosesə impintinq (imprinting) deyilir. Hesab üç nüsxədə hazırlanır, 1-ci nüsxə kart sahibinə, 2-ci satıcıya, 3-cü isə banka, yəni bank - ekvayerə göndərilir. Bank ekvayer günlük və ya müştəri ilə bağladığı müqavilə əsasında, ticarət hesabı olan kimi orada qeyd edilən məbləği satıcının hesabına köçürüb və bunun qarşılığında məbləğin 2-5%-ni komisyon haqqı olaraq özündə saxlayır. Bank-ekvayer pulları bank-emitent vasitəsilə, yəni informasiya mübadiləsi interchange sistemi ilə alır və məlumat qarşılığında ekvayer emitentə komisyon haqqı ödəyir.Hər ayın sonu tarixinə bank emitent kart sahibinə onun kart hesabının xüsusi çıxarışını göndərir. Alıcı, yəni kart sahibi müqavilədə nəzərdə tutulmuş komisyon haqqını və ay ərzində həyata keçirdiyi xərcləri də ödəyir.

Əgər kart sahibi ilə satıcının hesabı bir bankda olarsa, o zaman hesablaşmalar sadələşir.

Debet kartoçkasına sahib olan şəxs onun cari hesabında tutulan vəsait limitində xərcləmə həyatı keçirə bilər. Dünyada ilk bankomat 1967-ci ildə Londonda fəaliyyətə başlamışdır. Halhazırda dünyada ən böyük bankomat istifadəçiləri Sakit okean - Asiya regionu ölkələrinin payına düşməkdədir. Bankomatlar apardıqları əməliyyatlarına görə bir neçə növə bölünür:

Sadə bankomatlar- və tam funksiyalı. Tam funksiyalı bankomatlar daha mürəkkəb əməliyyatlar həyata keçirə bilərlər: pul köçürməsi, xarici valyutaların dəyişməsi. Bankomat aparatları həm küçələrdə, həm də ofislərdə yerləşdirilə bilər. Bankomatların çalışma rejimi aşağıdakı kimidir: on line rejimi; avtonom rejim (off line); cədvəl rejimi.

Kart sahibinə bank pul verərkən, bank ondan pin kodunu tələb edir. Kartı əlində tutan, ancaq kodu bilməyən şəxsin bankomatdan pul alması mümkün deyildir. Kredit kartları, nağd puldan istifadə edilmədən, mal və xidmət satinalma imkanı saxlayan kartlardır. Digər tərəfdən isə kredit kartları ödəmə prosesində və ya alış-verişlərdə kreditdən istifadə etməni genişləndirir.

Kredit kartları "indi al daha sonra ödə" amerikan həyat tərzi fəlsəfəsinin bir məhsuludur. Başlanğıcda yalnız ticarəti asanlaşdırmasına baxmayaraq, günümüzdə bankçılıq, işlətmə və fərdi pul menecmentinin təməl ünsürü halına gəlmişdir. Günümüzdə kredit kartları effektiv və çekin yerini alan bir ödəmə vasitəsi alətinə çevrilmişdir. Kart sahibinin yanında pul daşıması vacib deyil, ona çekin qəbul edilməməsindən doğa biləcək problemləri aradan qaldırmaq, bəlli bir

miqdara qədər bütün ehtiyaclarını bu yolla ödəyə bilməkdir. 1994-cü ildən etibarən dünyada başlıca kredit kartları arasında yer alan Eurocard /Mastercard dünya bazarlarında 140 milyon, American Exrrress 30 milyon, Diners club kredit kartı 5.7 milyon və Visa 190 milyon kredit kartını istifadəsinə almış və bu kartları ödəmə vasitəsi olaraq qəbul edən ticarət qurumlarının sayı 17.5 milyona çatmışdır. Kredit kartlarının müxtəlif növləri mövcuddur: ödəmə, borclandırma (charge cards, kreditli kart (credit cards), səyahat və əyləncə kartları (travel and entertaiment cards), mağaza kartları (store cards), firma kartları, beynəlxalq və ölkə daxili kartlardır. Kredit kartları ilə sürətlə artan əməliyyat həcminə diqqət yetirdikdə, kredit kartları sisteminin inkişaf etmiş ölkələrdə oturmuş bir sistem olduğunu qəbul etmək məcburiyyətindəyik.

Kredit kartından istifadə etmənin üstünlükləri aşağıdakılardır: nağd pul daşımamaq, uyğun bir mal və ya xidmətin satınalınması zamanı böyük miqdar pulun itirilmə və ya oğurlanma riskini ortadan qaldırır; yolçuluq sırasında planlaşmamış olayların sonda təşkil edilən proqram dəyişikliklərinin ödəmə gücünə təsir etməməsi; beynəlxalq keçərli kart sahibinin xaricə gedərkən hədsiz miqdarda valyuta daşıma məcburiyyətinin olmaması, ödənişlətdə müəyyən faizin olması, kartların bir hissəsinin nağd çəkmə imkanı olması, təklif edilən bəzi xidmətlərdən aşağı qiymətlərlə yararlanmaq və bunlara bənzər bir çox xidməti bərabərində təklif etməsidir.

Kredit kartları mövzusundakı yeniliklərdən biri də bu kartın eyni zamanda telefon kartları əvəzinə telefonlarda da istifadə edilməsidir. Kredit kartları ilə bağlı ən önəmli problem kartlar mövzusunda yetərli qanunların olmamasıdır.

Overdraft hesabları xüsusilə inkişaf etmiş ölkələrin bank işində daha geniş yayılmışdır. Overdraftla kontokorrent hesabları bir-birinə çox oxşardır. Overdraft hesabından silinənlər qalıqlardan çox olduqda kredit münasibətləri ortaya çıxır. Lakin overdraft hesablarında passiv saldo təsadüfi hallarda və qeyri-müntəzəm şəkildə yaranır. Bundan başqa, kontokorrent hesabları yalnız təsərrüfat subyektləri üçün açıldığı halda, overdraft hesabları fiziki şəxslər üçün də açılır.

Kapital bazarının başlıca alətləri istiqraz və səhmləridir. Bunlara qoyulan investisiya risklidir. Qeyd etdiyimiz kimi, dövlət uzunmüddətli ehtiyaclarını sərmayə bazarına çıxarmaqla ödəyir. İqtisadiyyatın inkişaf səviyyəsi ilk növbədə sərmayə bazarının inkişaf səviyyəsindən asılıdır. Çünki sərmayə bazarı investisiyaların finanslaşmasının mühüm mənbəyidir. Sərmayə bazarı alətləri pul bazarı alətlərinə nisbətən az likvidlidir və onların riski yüksəkdir. Sərmayə bazarı iqtisadi və siyasi cəhətdən stabil olan, adambaşına milli gəliri yüksək olan ölkələrdə inkişaf edir. Sərmayə bazarı alətlərinə səhm, istiqraz, uzunmüddətli kreditlər, həyat sığortası polisləri s. aiddir.

Kapital alətlərinin geniş yayılmış növü sahibinə iştirak hüququ verən səhmdir. Səhm sahibinə səhmdar cəmiyyətin mənfəətinin bir hissəsini divident şəklində almaq, cəmiyyətin idarə olunmasında iştirak etmək və müəssisə ləğv olduqdan sonra onun əmlakından pay almaq hüququ verir.

Səhmin sahibi cəmiyyətin bütün təsərrüfat müvəffəqiyyətsizliyinə görə malik olduğu səhmin həcmi qədər məsuliyyət daşıyır. Səhmdə ifadə olunınuş pul məbləği onun nominal dəyərini təşkil edir. Səhmin üzərində göstərilmiş nominal, daha doğrusu onun qiyməti hələ onun real dəyəri deyildir. Səhmin real dəyəri yalnız bazarda müəyən olunur. Səhmin bazarda alınıb-satıldığı qiymət onun kursu adlanır. Səhmin kursu və nominal qiyməti onun bazar və emission qiymətinin və ödənəcək dividentin həcminin müəyyən olunmasında başlıca oriyentirdir.

Borc münasibətləri yaradan əsas qiymətli kağız növü istiqrazlardır. İstiqraz uzunmüddətli finans aləti olub, müxtəlif borclular tərəfindən emissiya edilir. İstiqraz səhmdən fərqli olaraq bəlli müddətə və qəti təyin edilmiş faizlə ödənişi nəzərdə tutur. İstiqraz firmaların uzunmüddətli finanslaşdırmasının əsas aləti hesab edilir.

Finans bazarında əməliyyat görən əsas qiymətli kağızlarla yanaşı son illərdə meydana gələn törəmə qiymətli kağız növləri də əməliyyat görməkdədir. Fyuçers sazişləri hər iki tərəfə əmtəənin alqı-satqısı üzrə öhdəlik qoyur və göstərilmiş müddətdə və saziş bağlanan momentin qiyməti ilə həmin öhdəliyin yerinə yetirilməsini nəzərdə tutur. Bir tərəf göstərilən müddətdə və qiymətdə əmtəəni almalı, digəri həmin şərtlərlə onu satmalıdır. Fyuçers sazişləri alıcı və satıcını qiymət dəyişmələrindən qorumaq və sığorta etmək məqsədi güdür. Törəmə qiymətli kağızın digər növü opsiondur. Opsion onun sahibinə müəyyən müddətdən sonra qəti təyin edilmiş qiymətlə əsas qiymətli kağızı almağa hüquq verir. Varrant sahibinə opsiondan fərqli olaraq qiymətli kağızı

almaq hüquq və ya vəzifəsi qoyur. Başqa sözlə, əgər opsion sahibinə əsas qiymətli kağızı almaq vəzifəsi qoyulmursa, varrantın sahibinə belə vəzifə qoyulur.

Törəmə fınans alətləri iqtisadi və texnoloji inkişafın qanuni şərtləri və müştəri tələbatındakı dəyişmələr finansal yeniliklərin ortaya çıxmasına səbəb olmuşdur. Törəmə bazarı hər hansı aktivin və ya malın bugünkü və ya ona uyğun qiymətlərlə müəyyən edilmiş gələcək dövrdə alınıb-satılması münasibətlərini əhatə edir.

Alqı və satqı zamanı bağlanılan müqavilələr törəmə bazarının alətləri adlanır.

Törəmə finans alətlərinə aiddir: Forward, Futures, Opsiyon və SWAP kontraktları. Törəmə finans alətləri daha öncə mövcud finans alətlərindən törəmələrinə görə deyil, bazarın ehtiyacından törədikləri üçün törəmə (derivative) finansal alətlər kimi adlandırılmışdır.

Futures kontraktı iki qrup arasında, müəyyən edilən gələcək bir tarixdə, məlum qiymətdən hər hansı bir pul, mal və ya da qiymətli kağızı satma anlaşmasıdır. Bu anlaşmanın əsas xüsusiyyətləri aşağıdakılardır:

1) alıcı ilə satıcı arasında və ya alıcı ilə birja arasında aparılan qanuni bir anlaşmadır;

2) anlaşmalar standartdır (miqdar, keyfiyyət, müddət, teslim zamanı və yer baxımından);

3) mərkəzi birjalarda əməliyyat aparırlar;

4) likviddirlər. Kontraktlarda digər finans alətləri kimi II bazarlarda alqı-satqı predmeti ola bilərlər;

5) qiymətlər tender metodu ilə müəyyən edilir;

6) bir miqdar başlanğıc investisiyası zəruridir;

7) futures kontraktının qiymətinə görə və investorun qısa və ya uzun mövqedə olmasına görə takos mərkəzinə günlük ödəmə edilməsi zəruridir.

Futures bazarlarında fəaliyyət göstərmənin üç əsas səbəbi vardır:

1) Spekulasyon. Spekulyatorlar futures bazarlarında riskə girərək mənfəət əldə etməyə çalışan investorlardır;

2) Qoruma (hedging) gələcəkdəki faiz, qiymət və valyuta kursu dalğalanmalarından doğacaq riskin, mənfəətə ən az səviyyədə təsir edəcək şəkildə azaldılmasını saxlayacaq qoruma metodlarını ifadə edir. Hedgerlər futures bazarlarında mövqe olaraq bəzi risklərdən qurtulma məqsədidir. Əsas məqsəd isə riski minimuma endirməkdir;

3) Arbitraj qurmaq. Arbitraj hər hansı bir məhsulu zaman və məkan olaraq bir-birindən fərqli bazarında, ucuz olanda almaq, bahalı olanda satmaqdı. Mənfəəti isə bu əməliyyatın nəticəsidir. Arbitraj məqsədi ilə futures bazarlarında yer alan investorlar heç bir riskə girmədən futures qiymət və günlük bazar qiyməti arasındakı fərqlilikdən yararlanmaqla mənfəət əldə edirlər. Spekulasyon və arbitraj arasındakı təməl fərq ondan ibarətdir ki, spekulasyonda olan risk arbitrajda yoxdur.

Ümumiyyətlə, müddətli əməliyyatlar başlıca olaraq üç qrupa ayrılır:

1) əsas mal və qiymətli mədənlər üzərində futures əməliyyatları;

2) finansal varlıqlar üzərində futures əməliyyatları;

3) aksiya indeksi üzərində futures əməliyyatları.

Əsasl mal və qiymətli mədənlər üzərində müddətli əməliyyatlara mövzu olan mallar buğda və pambıq, qəhvə, kakao, yun, qızıl və işlənmiş neft kimi beynəlxalq bazarı olan, beynəlxalq və keyfiyyət standartına sahib əmtəələrdir. Finansal aktivlər isə valyuta, istiqraz və səhm kimi qiymətli kağızlardır. İndeksə bağlı futures əməliyyatlarında isə, müəyyən bir indeksdə yer alan səhmlər indeksdə yer aldıqları nisbətdə bir portfel üzərinə qoyulur.

Forward bazarları. Forward kontraktı, iki qrup arasında müəyyən edilən gələcək bir tarixdə, müəyyən edilən qiymətdən bir mal, pul, ya da qiymətli kağızların alqı-satqı anlaşmasıdır. Standartlaşdırılmış bir forward kontraktı yoxdur. Forward kontraktları alıcı və satıcı arasında yer alan, bir malın, pulun və ya da qiymətli kağızın miqdarını, təslim yerini və zamanını və qiymətini göstərən kontraktdır. Forward və Futures kontraktları bir-birinə oxşayır, yəni hər ikisində də bir malın və ya qiymətin irəlidə təhvili mövzusudur. "Futures" ilə "Forward" sözləşmələri arasındakı müəyyən fərqlər aşağıdakılardır:

1) "Futures" kontraktlarından fərqli olaraq "forward" sözləşmələri standartlara bağlı deyildir. Bir forward əməliyyatında tərəflər mal ilə əlaqəli bütün ayrıntıları aralarında təsbit edərlər;

2) Forward sözləşmələri III şəxslərə dövr edilməz və ləğvi də ancaq tərəflərin razılığı ilə mümkündür;

3) Forward kontraktlarında təminat yatırma məcburiyyəti yoxdur;

4) Forward kontraktlarında tərəflər bir-birilərini tanıyırlar, təhvil öhdəliklərini bir-birlərinə qarşı yerinə yetirirlər.

Opsiyon (seçənəkli əməliyyat) bazarları. Opsiyon sahibinə müəyyən bir qiyməti, müəyyən bir tarixdə və ya müəyyən bir müddət içində, öncədən müəyyən edilən bir qiymətdən satma və ya satınalma haqqı verən bir kontraktdır. Opsiyon haqqı haqq sahibinə irəlidəki bir tarixdə qərar vermə imkanı saxlayır. Şərtlər uyğundursa satma haqqı istifadə edilir, deyilsə istifadə edilməz. Haqqın mövzusunu təşkil edən varlıq keçən müddət içində dəyər qazanmışsa, onda opsiyon haqqı alma tətbiq edilir, satma haqqı isə istifadə edilməz.

Malın dəyəri düşdüyü təqdirdə də, opsiyon satma haqqı tətbiq edilir, alma haqqı isə istifadə edilməz. Opsiyon istifadə edilməyi təqdirdə, yatırımçının opsiyon dəyəri qədər itkisi olur. Opsiyonlar valyuta kursu və faiz nisbəti kimi riskləri ortadan qaldırmaq məqsədi ilə istifadə edilən və bu gün istifadə sahələri daha da genişlənən aksiya və istiqrazlar kimi alətlər üzərinə də yazıla bilən finans alətləridir. Opsiyon alış və satış opsiyonu olaraq ikiyə ayrılır. Alış opsiyonu müəyyən bir tarixdə müəyyən bir hissənin sənədini alıb-almama, satış opsiyonu isə müəyyən bir tarixdə bir aksiyanı satıb-satmama haqqını verir.

Opsiyon əməliyyatlarında tərəf olan investordan biri opsiyon kontrakt hazırlayan və satan tərəf, digəri isə bəlli bir dəyər qarşılığı opsiyonu satın alan yatırımçıdır.

Opsiyon və futures əməliyyatlarının bəzi bənzər və fərqli cəhətləri vardır:

1) Hər ikisi gələcək bir tarixdə təhvil əsasına dayanır;

2) Futures sözləşməsi satın alanların (satanların qazancları, zərərləri) futures qiymətlərdəki artıma bağlıdır. Alış və satış opsiyonu satıcılarının mənfəət və zərər durumu isə investorların mənfəət və zərər profilinin tam tərsidir;

3) Opsiyon almaq opsiyonu yazmaqdan daha az risklidir. Alıcının riski opsiyon primi ilə məhduddur. Futures kontraktlarında isə uzun mövqe alanın riski qısa mövqe alandan daha yüksəkdir; Opsiyon primi opsiyon satın alınan anda ödənir. Futures üçün isə prim ödənməz. Buna qarşı fiıtures kontraktları üçün başlanğıc marjı və günlük hesablaşma uyğulaması vardır;

4) Opsiyon yazıldığında (satıldığında) prim gəliri əldə edilir. Futures kontraktlarında isə belə bir gəlir yoxdur;

5) Opsiyonlar və futureslər meylli qorumaya malikdirlər.

SWAP əməliyyatları. SWAP sözünün mənası dəyişmə deməkdir. SWAP əməliyyatı hər hansı bir pulun, ya da finansal varlığın eyni anda spot bazarda və forward bazarlarında əməliyyat görməsidir. SWAP əməliyyatında bir müddət başqa bir müddət ilə dəyişdirilir. Məsələn, bir xarici pul spot bazarda alınıb forward bazarda satıla bilir. Ya da eyni xarici pul fərqli müddətlərdə iki ayrı forward əməliyyatının predmeti olur. SWAP texnikasından istifadənin səbəbləri aşağıdakılardır: arbitraj, varlıqların gəliri nisbətini yüksəltmək üçün risk menecment xərcini azaltmaqdır.

1.6. KAPİTAL BAZARI

Kapital bazarı orta və uzunmüddətli fond təklif və tələbinin qarşılaşdığı bazardır. Kapital bazarının tipik xüsusiyyəti və pul bazarından ayrıldığı ən başlıca əsası bu bazarın uzunmüddətli fondlardan meydana gəlmiş olmasıdır. Kapital bazarından saxlanan fondlar daha çox şirkətlərin bina, avadanlıq kimi olan vəsaitlərinin finansmanında istifadə edir. Qısaca, desək, kapital bazarından saxlanan fondlar sabit sərmayə ehtiyacının ödənilməsində böyük əhəmiyyətə malikdir.

Pul bazarında olduğu kimi, kapital bazarının mənbələri yığımlardır. Kapital bazarının ən önəmli və ya uyğun olaraq istifadə etdiyi alətlər: səhm və istiqrazlardır. Kapital bazarında təklif və tələb bəzi alətlər yardımı ilə qarşılaşır. Sərmayə fondları qiymətli kağızların alqı-satqısı yolu ilə bir əldən digər ələ dəyişdirilir. Ona görə də bu halda kapital bazarını qiymıtli kağızlar bazarı ilə birlikdə düşünmək məcburiyyətindəyik. Adətən, kapital bazarı ilə qiymətli kağızlar bazarı anlayışları çox

vaxt bir-birinə yaxın olduğundan, sinonim kimi qəbul edilir. Qiymətli kağızlar bazarı isə özəlliklə istiqraz və səhm bazarlarını əhatə edir. Bir az da dərinliyə girsək, sərmayə bazarları ilə qiymətli kağız bazarındakı hərəkətlərin gerçəkdə tərs yöndə olduğu anlaşılır. Kapital bazarında "Mal" kapital fondları, qiymətli kağız bazarında isə istiqraz, səhm kimi "kağızlar"dır. Bir kimsə 100 manatlıq aksiya satın almaq istədiyi zaman, bu kapital bazarı yönündən sərmayə təklifi, qiymətli kağızlar bazarı yönündən isə qiymətli kağız tələbi anlamını verir. Göründüyü kimi, kapital bazarı qiymətli kağız bazarı gerçəkdə bərabər anlamlı deyil, tərs anlamlı qurumlardır.

Birində təklifi təşkil edən bir hərəkət, digərində tələbi şərtləndirir. Bu tərs yönlüyə baxmayaraq, qiymətli kağızlar bazarını kapital bazarı içində və ya onun bir parçası olduğunu söyləmək mümkündür, ya da başqa bir yöndən baxsaq, əsil bazarın kapital bazarı olduğunu, qiymətli kağızların isə ayrıca bir bazarı təşkil etmədiyini sadəcə qiymətli kağızların kapital bazarında fondların əldən-ələ dəyişdirilməsində istifadə edilən alətlər olduğunu da irəli sürə bilərik. Qiymətli kağız bazarında, digər bazarlarda olduğu kimi təklif-tələb qanuni keçərli olmaqla bərabər, bəzi hallarda bundan kənaraçıxmalar da müşahidə olunur, yəni bu bazarda xatırladılan qanun işləmir. Digər bazarlarda bir malın qiyməti düşüncə ona qarşı tələb artırsa, qiymətli kağızlar bazarında isə bəzi hallarda qiymət düşərkən tələb azala da bilər. Alınıb-satılan malın fiziki bir dəyərinin olmaması, doğrudan-doğruya hər hansı bir ehtiyacı ödəməməsi və spekulativ xarakterli olması təklif və tələbdə tərsinə elastikliyi yarada bilir.

Kapital bazarının növləri. Kapital bazarını müxtəlif meyarlara görə qruplara ayıra bilərik:

1) Qiymətli kağızların ilk dəfə bazara çıxıb-çıxmadığına görə: I bazar, tədavülə ilk dəfə çıxarılan qiymətli kağızların əldən-ələ dəyişdirildiyi bazarlardır; II bazar - kapital bazarlarına daha öncə çıxarılmış və hələ də tədavüldə olan qiymətli kağızların alınıb-satıldığı bazarlardır.

2) bazarların təşkilatı vəziyyətlərinə görə:

təşkilanlandırılmış kapital bazarı, yəni qiymətli kağızların alqı və satqısı birjalarda aparılır; sərbəst kapital bazarı, yəni müəyyən məkanı olmayan bazarlardır.

3) ölkə miqyasında olub-olmamasına görə: ölkə səviyyəsində kapital bazarı; bölgə miqyaslı kapital bazarı.

4) qiymətli kağız çeşidlərinə görə: özəl sektora aid aksiya və istiqrazların bazarı və dövlətə aid istiqraz və xəzinə bonolar bazarı.

Kapital bazarının funksiyaları. I) yığımların sənayə sektoruna axımını təmin edir; II) aksiyaların dəyərinə uyğun olaraq şirkət menecmentinin fəaliyyətinə qiymət vermək olur.

Sərmayə bazarında fondlar qiymətli kağız müqabilində əldən-ələ dəyişdirildiyinə görə, fond sahibləri bu sənədləri iki formada satın ala bilirlər: ya ilk ixracdan, ya da ikinci əldən. Məhz bu səbəbdən kapital bazarı iki kəsimdən ibarətdir: I bazar: yığım sahibləri istiqraz və aksiya kimi haqq təmsil edən sənədləri bilavasitə ixrac edən qurumların və ya bunları ixraca vasitəçilik edən qurumlardan ala bildikləri hallarda I bazardan (primary market) söhbət gedə bilər. I bazarda ən önəmlisi qiymətli kağızların ixracdan alınmasıdır. Arada bir vasitəçi qurumun olması bu alışın I bazarda gerçəkləşməsinə maneçilik törətməz. II bazarda qiymətli kağızları ixracdan alanlar bunları pula çevirmək istədikləri təqdirdə, sonsuz müddətli sənədlərdə (aksiyalarda) heç bir zaman, orta və uzunmüddətli sənədlərdə (istiqrazlarda) müddətindən əvvəl, bunları ixrac edən qurumlara müraciət edə bilməzlər.

II bazar bu durumdakı qiymətli kağızların pula çevrilməsini saxlayan bazardır və qiymətli kağızların likvidliyini artıraraq I bazara tələb yaradır, onun inkişafını təmin edir. Bu baxımdan, kapital bazarında II bazar I bazar qədər önəmlidir. İnkişaf etmiş bazarlarda II bazarın iş həcmi I bazardan dəfələrcə böyükdür. II bazarın ən yaxşı təşkilatlanmış bölümü qiymətli kağız birjasıdır.

I bazar daha çox sərmayə bazarı bilinci ilə, II bazar isə qiymətli kağız bazar bilinci ilə çalışır. I bazarda uzunmüddətli fondların yığım sahibindən şirkətlərə transferi prosesi ortaya çıxır və I bazarda istiqraz və aksiya satışları sonuncuda şirkətin strukturuna təzə pul halında yeni sərmayə daxil edir. Ancaq II bazarda əldən-ələ dəyişdirilən qiymətli kağızlar fondları istifadə edənlərdən çoxdur. II bazardakılar öz aralarında qiymətli kağızları alıb-satırlar burada alınıb-satılan şey sərmayə fondları deyil, bir neçə qiymətli kağızlardır. Qiymətli kağız bazarında tələb faktoruna təsir edən amillər aşağıdakılardır:

1. Ümumi pul miqdarı;
2. Xalqın yığım imkanları;

3. Yığım meyli;
4. Sosial sığorta fondları sığorta şirkətləri;
5. Pensiya fondları;
6. Sosial müdafiə fondu.

Yuxarıdakı amillər inkişaf etdikcə, bazarda qiymətli kağızlara tələb də artır. Qiymətli kağız bazarındakı təklifə təsir edən amillər aşağıdakılardlr:

1) yeni qurulan səhmdar şirkətlər;
2) mövcud şirkətlərin xalqa açılması; (İPO tədbiri)
3) xalqa açıq mövcud şirkətlərin sərmayə artımı.

1.7. QİYMƏTLİ KAĞIZ BAZARI

Qiymətli kağızlar bazarının bir sıra fiınksiyaları vardır ki, onlan şərti olaraq iki qrupa bölmək olar: ümumi bazar funksiyaları (hər bir adi bazara xas olan) və xüsusi funksiyalar - bu funksiya onu digər bazarlardan fərqləndirir.

Ümumi qiymətli kağızlar bazar fünksiyalarına aşağıdakılar aid edilir:

1. Kommersiya funksiyası - bazarda görülən əməliyyatlardan gəlir əldə etmək funksiyası;
2. Qiymət funksiyası;
3. İnformasiya funksiyası - bazarın ticarət obyektləri və onun iştirakçıları haqqında olan bazar məlumatlarının bazar iştirakçıları üçün hazırlanması və çatdırılması;
4. Tənzimləyici funksiya bazarda ticarət və iştirak etmək üçün qayda-qanunlar yaradır, iştirakçılar arasında mübahisələri həll edən nəzarət orqanlarını və yaxud da idarə orqanlarını təşkil edir.

Qiymətli kağızlar bazarının xüsusi fünksiyalarına isə aşağıdakıları aid etmək olar:

1. Yenidən bölüşdürülmüş funksiya;
2. Qiymət və finans risklərinin sığortası funksiyası:

Yenidən bölüşdürülmüş fumksiyanın özünü şərti olaraq 3 yerə bölmək olar: Pul vəsaitlərinin bazar fəaliyyəti sahələri və sferaları arasında yeni bölüşdürülməsi: Əmanətlərin qeyri-istehsal formasından istehsal formasına çevrilməsi və dövlət büdcəsi kəsirinin qeyri-informasiya əsasında maliyyələşdirilməsi, yəni tədavülə əlavə pul vəsaitlərinin buraxılmaması.

Qiymət və finans risklərinin sığorta edilməsi funksiyasının meydana gəlməsi törəmə qiymətli kağızlar olan fyuçers və opsionların meydana gəlməsi nəticəsində mümkün olmuşdur.

Qiymətli kağız bazarları quruluşlarındakı qanuni xüsusiyyətlər baxımından üç ana qrupa ayrılır:

1) Dövlət qiymətli kağız bazarları. Qanun ilə qurulan, idarə heyəti və qaydaları rəsmi məqamlar tərəfindən müəyyən edilən bazarlardır;

2) Özəl qiymətli kağız bazarları. Qiymətli kağız bazarlarının üzvləri tərəfindən qurulan, mənfəət məqsədi olmayan və əsas etibarı ilə əqidə quruluşu statusunda olan bazarlardır. Anqlosakson ölkələrindəki qiymətli kağız bazarları buna nümunədir;

3) Qarışıq xüsusiyyətə malik qiymətli kağız bazarları, qismən dövlət, qismən də özəl qiymətli kağız bazarlarının xüsusiyyətlərinə sahib bazarlardır.

Fond birjasının təməli 1801-ci ildə qoyulmuş və binası isə 1802-ci ildə tikilmişdir, ancaq birja qanuni fəaliyyətə 1875-ci ildən başlamışdır. Azərbaycanda fond birjası ilk dəfə 15 fevral 2001-ci il tarixdə fəaliyyətə başlamışdır.

Qiymətli kağızlar bazarının strukturu va növləri. Qiymətli kağızlar bazarının strukturunda əsas 2 bazar götürülür: Qiymətli kağızların birinci bazarı və qiymətli kağızların ikinci bazarı.

Birinci bazara şirkətlər və bələdiyyə orqanları tərəfindən ilk ixrac edilmiş qiymətli kağızlar çıxarılır. Birinci bazarda istiqrazlar və aksiyalar kimi qiymətli kağızlar almıb-satılır. Birinci bazarın özəyi qiymətli kağızların ixracdan satın alınmasıdır. Birinci bazardan alınan qiymətli kağızlar ikinci bazarda satıla bilər, yeni əl dəyişdirilə bilər. İkinci bazar qiymətli kağızların hər an pula çevrilməsini saxlayan bazardır. İkinci bazar qiymətli kağızların likvidliyini artıraraq birinci bazara tələbi artmr və onun inkişafını təmin edir.

İkinci bazarın özü dörd bazara bölünür: birja; qeyri-birja bazarı; üçüncü bazar və dördüncü bazar.

Fond birjası. İkinci bazarın ən vacib elementlərindən biri fond birjasıdır. Fond birjası qiymətli kağızlar bazarının likvidliyini və onun tənzim olunmasını təmin edir. Fond birjası qiymətli kağızların bazar qiymətini müəyyən edir, qiymətli kağızlara olan tələb və təklif arasında tarazlığı əks etdirməklə həmçinin onlar haqqında lazımı informasiyanın yayılmasını təşkil edir.

Qeyri-birja bazarında qiymətli kağızlar birjada qeydiyyatdan keçmir. Qeyri-birja bazarı avtomatlaşdırılmış şəkildə fəaliyyət göstərir ki, bu da alıcılara və satıcılara qiymətli kağızların cari qiymətlərini izləmək imkanı verir.

Üçüncü bazar qeyri-birja bazarıdır ki, burada qiymətli kağızların alqı-satqısı vasitəçilər tərəfindən qeydiyyata alınaraq yüksək komisyon məbləği tələb olunur. Bu bazar ən çox ABŞ-da inkişaf edib.

Dördüncü bazar və yaxud da kompüterləşdirilmiş bazar. Bazar dördüncü bazarın əsasında aksiyaların elektron ticarət sistemi sistemi fəaliyyət göstərir. Bu bazar investorlara sazişləri güclü kompüter sisteminin vasitəsilə imzalamaq imkanı verir ki, burada da birjaya toxunmadan böyük komisyon xərclərinə qənaət etmək olar. İnvestor istənilən vaxt şəbəkə vasitəsilə öz istədiyi qiyməti fayla göndərir və əgər qarşılıqlı təklif alınarsa, sövdələşmə baş tutmuş hesab olur.

Yuxarıda adları çəkilən qiymətli kağızlar bazarını müxtəlif əlamətlərinə görə də seqmentləşdirmək olar. Qiymətli kağızlar öz növlərinə görə aşağıdakı bazarlara bölünürlər.

1. Aksiya bazarları;
2. İstiqraz bazarları;
3. Veksel bazarları;
4. Opsiyon bazarları;
5. Depozit və əmanət sertifikatları bazarı.

Emitentlərə görə də qiymətli kağızlar bazarını aşağıdakı bazarlara bölmək olar:

1. şəxsi qiymətli kağızlar bazarı;
2. dövlət qiymətli kağızlar bazarı;
3. beynəlxalq qiymətli kağızlar bazarı.

İnvestorlara görə də qiymətli kağızlar bazarı aşağıdakı bazarlara bölünürlər:

1. institusal investorların qiymətli kağızlar bazarı;
2. fərdi investorların qiymətli kağızlar bazarı;
3. ərazi meyarına görə qiymətli kağızlar bazarının aşağıdakı növləri vardır: regional; milli və qlobal.

Qiymətli kağızlar bazarı işlədilən ticarət "texnologiyasına" görə aşağıdakı növlərə bölünürlər:

1. Kassa bazarları;
2. Təcili bazarlar;
3. Auksiyon bazarları;
4. Diler bazarları.

Əgər maraqlı tərəflər öz qiymətli kağızlarını təcili alıb-satmaq istəyirlərsə, onda onlar kassa bazarlarından istifadə edirlər. Bu bazarda sövdələşmələr 12 gün ərzində həyata keçirilir.

Auksion bazarları aşağıdakı bazarları özündə birləşdirir:

- Sadə auksion bazarları;
- Holland auksion bazarları;
- ikili auksion bazarları;
- Onkol bazarları;
- Fasiləsiz auksion bazarları.

Sadə auksion bazarları əsasən fond alətlərinə qarşı yüksək alıcılıq tələbi olduğu zaman işləyir və satıcı monopoliyası yaranır. Burada ən yaxşı vəziyyətdə satıcılar olurlar ki, alıcılar həmin qiymətli kağızın alınması üçün yüksək qiymətlər verirlər.

Holland auksion bazarları bu bazarın fəaliyyəti alıcıların ərizələrinin əvvəlcədən yığılması vasitəsi ilə həyata keçirilir. Bundan sonra isə ərizələr emitent və ya vasitəçilər tərəfindən qiyabi analiz edilir və son olaraq bu qiymətli kağızları almaq istəyən alıcıları razı salacaq qiymət müəyyənləşdirilir.

İkili auksion bazarlarının sadə auksion bazarlarından fərqi odur ki, burada çoxlu sayda alıcılar və satıcılar iştirak edirlər ki, onlar burada öz qiymətli kağızlarını alıb-satmaq hüququnu qazanmaq üçün öz aralarında yarışırlar.

Qnkol bazarlarından isə qiymətli kağızlara olan tələb və təklifin təmərküzü tələb olunan səviyyəyə çatmadıqda istifadə edilir. Onkol ticarət sistemində müəyyən vaxt ərzində qiymətli kağızların alınıb-satılması üçün sifarişlər yığılır. Sonra sifarişlər içində ən yüksək qiymət verən ərizəyə üstünlük verilir. Bundan sonra əgər müxtəlif ərizələrdə qiymətli kağızların alınıb satılmasına eyni qiymətlər göstərirlərsə, bunlann içində həcmi böyük olana üstünlük verilir. Qərb ölkələrində onkol bazarları əsasən fond birjalarında geniş yayılmışdır.

Fasiləsiz auksion bazarlarının əsasən fərqi ondan ibarətdir ki, bu bazara qiymətli kağızların alınıb-satılması haqda ərizələr daxil olduqda tez bir zamanda həyata keçirilir. Əgər daxil olmuş sifarişlər şəxsi razı salmırsa, ərizəni verən tərəf ya qiymət şərtlərini dəyişə bilər, ya da ki onun təzədən icra edilməsini qeydiyyatdan keçirib icrasını gözləyər. Fasiləsiz auksion bazarının iş mexanizmi sazişi bağlayan hər iki tərəfin razı salınmasına yönəldilmişdir.

Diler bazarı birjadan kənarda fəaliyyət göstərir və qiymətli kağızlar bazarında mühüm yer tutur. Öz şəxsi hesabına fond alətlərini almaq və satmaq imkanına malik olan şəxs diler bazarını təşkil edə bilər. Dilerlərin qiymətli kağızların alqı-satqısında rəsmən elan etdikləri elan bütün investorlarla imzalanan sazişlər zamanı qüvvədə qalmalıdır. Diler rəsmən elan etdiyi sazişin şərtlərindən yayına bilməz.

Yuxarıda qeyd etdiyimiz bütün bazarlar müəyyən faktorlar əsasında yaradılır və bu bazarların hamısının yeganə məqsədi gəlirlərini maksimum səviyyəyə qaldırmaq və öz təsir gücünü artırmaqdır. İnvestor bütün bu bazarları analiz edərək öz qiymətli kağızını hansı bazarda satacağına qərar verir. Əlbəttə, hər bir investor özünə sərf edəcək bazarı seçəcəkdir. Bütün bu bazarların funksiyaları və vəzifələri normativ aktlarda göstərilmişdir.

Qiymətli kağız bazarının inkişafı. Qiymətli kağız bazarları çox əski tarixlərdəki bazarlarda qiymətli mədənlərin alqı-satqısı ilə başlamış və vasitəçilərin dövriyyəyə girməsi ilə genişlənərək, kredit ilə ticarət sənədlərinin alınıb-satıldığı bir bazara çevrilmişdir. Deyilənə görə "birja" ifadəsi, Brugge şəhərində pul ticarətini məşlək halına gətirən Van der Burse ailəsinin adından əmələ gəlmişdir (Belçikada). Bu bazarların ilki Avropada 1487-ci ildə Anversdə yaranmış, 16-cı əsrdə Amsterdamda, əsrin axırına yaxın isə Lion və digər fransız şəhərində də qurulmuşdur. İngiltərə Birləşmiş Krallığının London şəhərində, qiymətli kağızların alqı-satqısının gerçəkləşdiyi bir bazar mövcud olub, lakin onun başlanğıc tarixi bilinmir. Lakin 1770-ci ildə, qiymətli kağızların alqı-satqı əməliyyatlarının gerçəkləşdirildiyi, bir kafenin üstünə - "The stock Exchange" (qiymətli kağızlar birjası) lövhəsi asılmış və giriş pullu olmuş və bununla da ilk qiymətli kağız bazarı qurulmuşdur. 16-cı əsrdə birja Paris və London, 17-ci əsrdə Berlin, Vyana, 18-ci əsrdə Nyu York, 19-cu əsrdə Brussel, Roma, Milan, Madrid, İstanbul və Tokio kimi şəhərlərdə birjalar qurulmuşdur.

Qiymətli kağız bazarlarının kapital bazarına müsbət təsiri. Qiymətli kağız bazarları qiymətli kağızların təklif və tələbinin qarşılaşdığı bir bazar olub, yığımlara hərəkət qazandırır, sərmayənin mülkiyyətini geniş xalq kütləsinə yayır, iqtisadiyyatda barometr vəzifəsi görür, sənayedə struktural dəyişikliyi asanlaşdırır, bazarda tək qiymətin təşkilini saxlyır, bazarda təminat işlərini yerinə yetirir, ictimai uzlaşmanı saxlayır və iqtisadi sosial baxımdan önəmli bir yer təşkil edir.

Qiymətli kağız bazarları yığımlara hərəkət qazandrır, qiymətli kağız təklif və tələbinin qarşılaşdığı alıcı və satıcıların alqı-satqı əməliyyatların gerçəkləşdirdiyi, şəxsi və qurumların iştirakçılarının yer aldığı bazarlardır. Qiymətli kağız bazarları yığım sahibləri, investorlar, bunlar adına əməliyyat aparan vasitəçi qurum və fərdlər, qiymətli kağız satışı aparanlar kimi dəyişik mənfəət qruplarının ehtiyaclarını ən uyğun şəkildə qarşılamaq məqsədi güdür.

Beləliklə, fond ehtiyacı olan və bu səbəbdən də, qiymətli kağız ixrac etmək istəyən şirkətlər ilə fond çoxluğu axtaranları sabit bir məkanda bir araya gətirən və gerçəkləşdirilən əməliyyat iki tərəfə də mənfəət əldə etməyə imkan verir. Fond ehtiyacı olan şirkətlər qiymətli kağız ixrac edərək ucuz yollu fond əldə etdikləri kimi, yığımları olan və bunu dəyərləndirmək istəyənlər də özlərinə ən uyğun və ən yüksək gəlir saxlama imkanı əldə edir. Göründüyü kimi, qiymətli kağız bazarları qiymətli kağızların lazımi anda pula çevrilməsini, yəni likvid duruma gəlməsində vasitəçilik rolunu üzərinə götürür.

Bu xüsusiyyətilə bazarda əməliyyat görən bütün iştirakçılar fayda əldə etmiş olurlar. Qısaca desək, qiymətli kağız bazarları bu bazarlarda yer alan investorların likvid ehtiyacını qarşılayır və fond çoxluğu olanların bu fondları səmərəli və sürətli bir şəkildə dəyərləndirərək yatırıma dönüşdürülməsinə imkan saxlayır.

Birjanın bir başqa önəmli funksiyası sərmayənin mülkiyyətini geniş xalq kütləsinə yaymaqdır. Şirkətlər qiymətli kağızları fond birjasındakı listinqdən keçirməklə, şirkətin milli və beynəlxalq səviyyədə tanınma imkanını əldə edir. Bunun xaricində şirkətlər öz sahəsində bacarıqlı olma sayəsində, bazarın bu mühitindən faydalanaraq çıxardıqları qiymətli kağızlarını asanlıqla bazarlaya bilirlər.

Ümumiyyətlə, qiymətli kağızlar bazarı orta sinfin təşkilinə və güclənməsinə təsir edir. İnkişaf etmiş ölkələrdəki xalq kapitalizmi bu şəkildə gerçəkləşmişdir. Birjada yüzlərcə aksiya və istiqraz funksiyalaşdığından, bunların qiymətləri ani anda yayımlanır. Qiymətli kağızları çıxaran şirkətlər, davamlı bir imtahan verirlər. Beləliklə, makro səviyyədə ölkənin barometri vəzifəsini yerinə yetirirlər. Qiymətli kağızlara olan təklif və tələbə görə qiymət hərəkətləri davamlı olaraq dəyişir. Lakin qiymətli kağızların qiymətinə təsir edən əsas amil, bunları ixrac edən şirkətlərin finans strukturlarındakı güclülük və mənfəət durumlarıdır.

Şirkətlərin göstərmiş olduğu yüksək performans, qiymətli kağızlara olan tələbi artırdığından, nəticədə qiymətlər də artır. Bu göstərici şirkət səhmdarları üçün çox yararlı və faydalıdır. Hətta, səhmlərin orta performansını göstərən indeks ölkənin ümumi iqtisadi durumu haqqında bilgi verir və bundan istifadə edərək gələcəyə yönəlik proqramlar hazırlamaq mümkün olur. Hər hansı bir şirkətin qiymətli kağız bazarında dəyər qazanması və ya itirməsi, şirkətin performans ve güvənirliyinin ən önəmli göstəricisidir. Bundan başqa, şirkətlərin bacarıq dərəcələrini də müqayisə etmək mümkün olur.

Bütün alıcı və satıcıların qiymətli kağız bazarlarında qarşılaşması qiymətli kağızların vahid bir alış və satış qiymətinin meydana gəlməsini təmin edir. Bilindiyi kimi, vahid bir qiymət tam rəqabət olan bazarlarda meydana çıxır.

Birja bülletenləri vasitəsilə ölkənin və dünyanın hər tərəfinə bazarda müəyyənləşmiş qiymət vərəqəsi göndərilir. Bu yolla qiymətli kağızlarla maraqlananlar üçün qiymətdə aldanma hadisələrinin qarşısı alınır.

Təşkilatlandırılmış qiymətli kağız bazarında hər istəyən şirkətin öz aksiyasını satması mümkün deyildir. Listinqdən keçə bilmələri üçün qiymətli kağızlar üzrə komitənin müəyyən etdiyi şərtləri yerinə yetirmək məcburiyyəti vardır. Bununla, birjada qiymətli kağızların alqı-satqısı ilə məşğul olanlara təminat verilir.

Qiymətli kağız bazarlarının kapital bazarına mənfi təsiri. Qiymətli kağız bazarlarının böyük şirkətlərin xeyrinə fəaliyyət göstərməsi nəticəsində kiçik şirkətlərin böyük və tanınmış şirkətlərə nisbətən maliyyə mənbəyi tapması hədsiz çətindir. Yığım gücünün zəif olduğu ölkələrdə sərmaye bazarlarından zənginlər faydalanır, yeni yüksək gəlirli qrupların gəlirləri daha da artır. Şirkətlərin top menecmentləri satış, mənfəət, divident kimi mövzularda əldə etdikləri məlumatları öz mənfəətləri hesabına "insider tradind" adı verilən əməliyyatlar da gerçəkləşdirə bilirlər. Məsələn, 11/XI-2002-ci il tarixli "Vedomosti" qəzetinin verdiyi xəbərə görə "Fransız bankı Societe Ceneralenin özəlləşdirməsi sahəsində, insayder informasiyanın ticarəti üzrə bir qrup biznesmenə qarşı 4 ildir ki, məhkəmə araş-dırması davam edir". Bəzi hallarda şirkətin böyük həcmli səhmdarları, şirkətin finans cədvəllərində dəyişikliklər etməklə, yəni şirkətin mənfəətini az göstərməklə, şirkətin qiymətli kağızlarının dəyərinin azalmasına yol açdırır və daha sonra bu mövqedən yararlanaraq şirkətin kağızlarını ucuz almaqla, nəti-cədə yüksək dərəcədə qazanc əldə etmə fürsətinə nail olurlar.

Qiymətli kağızları iki böyük sinfə bölürlər: birinci dərəcəli əsas qiymətli kağızlar; ikinci dərəcəli törəmə qiymətli kağızlar. Əsas qiymətli kağızların əsasını hansısa bir aktivə, əmtəəyə, pula, kapitala, əmlaka, digər növ rüsumlara və s. əsaslanan mülkiyyət hüququnun olması təşkil edir. Əsas qiymətli kağızların özlərini də öz növbəsində iki qrupa bölmək olar və ilkin qiymətli kağızlar - bura aksiyalar, istiqrazlar, veksellər və s. aid edilir. İkinci dərəcəli qiymətli kağızlar ilkin qiymətli kağızların əsasında buraxılan qiymətli kağızlardır. Törəmə qiymətli kağızlar isə fyuçers kontraktları (əmtəə, val-yuta, faiz, indeks və s.) və opsionlar hesab edilir.

Qiymətli kağızların təsnifatı ilə qiymətli kağızların növlərinin təsnifatı bir-birlərindən fərqlənirlər. Qiymətli kağızların təsnifatı qiymətli kağızların onlara aid olan müəyyən göstəricilərinə görə növlərə bölünməsidir. Qiymətli kağızların növlərinin təsnifatı isə həmin növ qiymətli kağızların qruplara bölünməsi, yəni qiymətli kağızların növlərinin yarımnövlərə bölünməsidir.

Aksiya – qiymətli kağız bir növüdür. Aksiyalar özü isə iki yerə imtiyazlı və adi aksiyalara bölünürlər. Adi aksiyalar özü birsəsli və çoxsəsli, nominal və qeyri-nominal olurlar.

Yuxarıda qeyd etdiyimiz kimi qiymətli kağızlar bir sıra xarakterik əlamətlərə malikdirlər:

1) **Müddətlilik xarakteri:** qiymətli kağızın mövcud olduğu müddət; nə vaxt tədavülə buraxılıb, hansı müddətə və yaxud müddətsiz;

2) **Mülkiyyət forması və mülkiyyətin növü.** Yəni qiymətli kağız bazarı kim tərəfindən dövlət, şirkət və ya fiziki şəxs buraxılıb;

3) **Tədavül xarakteri.** Bazarda sərbəst və yaxud məhdudiyyətlərlə tədavül edilir.

4) Hüquqi nöqteyi-nəzərdən qiymətli kağızın iqtisadi mahiyyəti;

5) risk səviyyəsi - yuxarı, aşağı;

6) **mövcud olma forması** - kağız şəklində, hüquqi cəhətdən desək, sənəd formasız və yaxud qeyri-kağız, qeyri-sənəd formasıdır;

7) Milli mənsubiyyəti qiymətli kağızın öz dövlətimizə və ya xarici dövlətə məxsusluğu;

8) Ərazi mənsubiyyəti qiymətli kağız ölkənin hansı regionunda ixrac edilib.

Bazar xarakteristikasına görə

1. Qiymətli kağızın əsasını təşkil edən aktivlərin tipi və ya onun əsasının başlanğıcı (əmtəə, pul, firmanın ümumi aktivləri); Təsir etmə tərzi - qiymətli kağızı təqdim edənə və ya konkret şəxsə (hüquqi və fiziki şəxs); Tədavülə buraxılış forması - emissiya və ya qeyri-emissiya şəklində; Gəlir mövcudluğu - qiymətli kağız üzrə hansısa gəlir ödənilir və ya ödənilmir və vəsaitlərin yerləşdirilməsi forması - pul bir borc kimi və ya yeni mülkiyyət əldə edilməsi üçün investisiya ediləcək.

İqtisadi mahiyyət nöqteyinəzərindən qiymətli kağızların əsas növləri aşağıdakılardır:- aksiya; istiqraz; bank sertifikatları; veksel; çek; konosament; varrant; opsion.

Müddətli qiymətli kağızlar o qiymətli kağızlardır ki, onlar tədavülə buraxılarkən müəyyən edilmiş vaxt ərzində varlıq olurlar. Adətən müddətli qiymətli kağızları 3 yarımnövə bölürlər: qısamüddətli (1 il müddətinə), ortamüddətli (5-10 ilə qədər) və uzunmüddətli (20-30 ilə qədər).

Müddətsiz qiymətli kağızların tədavüldə olma müddəti heç bir şeylə reqlamentləşdirilmir, onlar "ömürlükdür".

Qiymətli kağızların klassik mövcud olma forması qiymətli kağızın sənəd şəklində olma formasıdır. Qiymətli kağızlar bazarının inkişaf etməsi qiymətli kağızların bir çox növlərini ən başlıca bütün emissiyanın qeyri-sənəd şəklində olmasını tələb edir. İnvestisiya qiymətli kağızları kapital qolı obyekti kimi götürülür. İnvestisiya qiymətli kağızları aksiyalar, istiqrazlar, fyuçers kontraktları və opsiyonlar hesab edilir.

Qeyri-investisiya qiymətli kağızları əmtəə və digər bazarlarda pul hesablaşmalarına xidmət edir. Qeyri-investisiya qiymətli kağızları veksellər, çeklər, konosamentlər hesab edilir.

Qiymətli kağızlar sahibli, adlı və təqdim edilənin adına ola bilər.

Adlı qiymətli kağızda sahibkarın adı olur və bundan başqa xüsusi reyestr qeydiyyatından keçir.

Təqdim olunanın adına qiymətli kağızda sahibkarın adı təsbit edilir və tədavüldə olması ən sadə yolla bir şəxsdən digər şəxsə ötürülməklə həyata keçirilir.

Dövlət qiymətli kağızları - bunlar adi müxtəlif növ istiqrazlardır.

Qeyri-dövlət qiymətli kağızlar şirkətlər və ya fiziki şəxslər tərəfindən tədavülə buraxıla bilər.

Qiymətli kağızların çoxu bazar xarakterli olurlar ki, onlar bazarda da sərbəst alınıb-satıla bilirlər. Amma bir sıra hallarda qiymətli kağızların tədavülündə məhdudiyyətlər ola bilər. Bu zaman isə qiymətli kağız yalnız onu ixrac edənə satıla bilər.

Diaqramma 1.1

Kapital aktivlərinin qiymətləndirilməsi



Gəlirlik nöqteyi-nəzərindən qiymətli kağızlar gəlirli və ya gəlirsiz ola bilər. Risk səviyyəsinə görə qiymətli kağızları aşağıdakı tərzdə yerləşdirmək olar:

1) gəlir nə qədər çoxdursa, risk də bir o qədər çoxdur.

2) qiymətli kağızın təlimatı nə qədər yüksəkdirsə, risk də bir o qədər azdır. Emissiya qiymətli kağızları əsasən iri əskinaslarla buraxılır və bunlar əsasən aksiyalar və istiqrazlar olurlar.

Qeyri-emissiya qiymətli kağızlar isə tək-tək və ya kiçik seriyalarla buraxılır.

Aksiyaların ümumi xarakteristikası. Aksiya - emissiya qiymətli kağızı olub, öz sahibinə SC-dən divident şəklində gəlir əldə etmək, mülkiyyətinə ortaq olmaq hüququ verir. Səhmdarları aşağıdakı qruplara bölmək olar: fiziki (fərdi, şəxsi); kollektiv (institusional); korporativ.

Aksiyaya sahib olan investorların aşağıdakı hüquqları vardır: səs vermək hüququ; SC-dən divident şəklində gəlir əldə etmək; əlavə güzəştlər. Bu güzəştləri SC özü verir. Bu zaman investora SC-nin istehsal etdiyi məhsulları alarkən və ya onun göstərdiyi xidmətlərdən istifadə edərkən güzəştlər edilir: şirkətin idarə edilməsində iştirak etmək; şirkət müflis olduqdan sonra onun əmlakına sahib olmaq.

Aksiya aşağıdakı xüsusiyyətlərə malikdir:

1) aksiya mülkiyyət tituludur. Aksiyanı əlində tutan şəxs SC-yə ortaqdır;

2) aksiyanın müddəti yoxdur. Aksiyaların hüquqları SC fəaliyyət göstərənə qədər qüvvədə olur;

3) aksiya üçün məhdudlaşdırılmış məsuliyyət xarakterikdir. Buna görə də şirkət borcu olarkən və ya bankrot olarkən investor əlində tutduğu aksiyanın sayına görə məsuliyyət daşıyır;

4) aksiya üçün bölünməzlik də xarakterikdir. Aksiyalara ortaq olmaq onun mülkləri arasında bölgüsünə aid edilmir, bütün onlar vahid şəxs kimi çıxış edir;

5) aksiya parçalana və birləşə bilər.

Parçalanma zamanı bir aksiya bir neçəsinə çevrilə bilər. Parçalanma zamanı nizamnamə kapitalında heç bir dəyişiklik olmur. Məs: Bir aksiyanın kapital qiyməti 1000 manat olduğu zaman dörd aksiya buraxılır. Bu zaman bir aksiyanın nominal qiyməti 250 manat olacaqdır. Səhmdarların köhnə sertifikatları yenisi ilə əvəz edilir ki, burada da onların daha çox aksiyaya sahib olduğu göstərilir.

Birləşmə zamanı isə aksiyaların sayı azalır ki, bu da aksiyaların qiymətinin artmasına gətirib çıxarır. Nominal qiymətin artmasına baxmayaraq, nizamnamə kapitalında heç bir dəyişiklik edilmir. Bu zaman da səhmdarların köhnə sertifikatları yenisi ilə əvəz edilir, yeni sertifikatlarda aksiyaların sayı az göstərilir.

Aksiya rəsmi sənəd olduğu üçün o müəyyən rekvizitlərə malikdir. Normativ sənədlərə müvafiq olaraq aksiya blankında aşağıdakı rekvizitlər göstərilməlidir:

1. SC-nin firma adı və onun yerləşdiyi ünvan;

2. qiymətli kağızın adı -"aksiya"; onun sıra nömrəsi;

3. aksiyanın növü (adi və imtiyazlı);
4. nominal qiyməti;
5. qiymətli kağız sahibinin adı;
6. aksiyanın tədavülə buraxıldığı gün nizamnamə fondunun həcmi;
7. tədavülə buraxılan aksiyaların sayı;
8. ixrac edildiyi gün;
9. imtiyazlı aksiyalar üzrə dividentin ödənilmə vaxtı və divident tariflər;
10. SC-nin idarə rəhbərinin imzası;
11. möhür yeri, qiymətli kağızlar bankını hazırlayan müəssisə.

Həmçinin də qeydiyyatçının göstəriciləri və onun yerləşdiyi ünvan, dividentin ödənilməsini həyata keçirən bank agenti də göstərilə bilər.

Aksiyanın növləri. Malik olduqları hüquqlara görə aksiyaların adi və imtiyazlı növləri olur. İmtiyazlı aksiyalara sahib olan səhmdarların ümumi yığıncağında səs vermək hüququ yoxdur. Bu aksiyaya sahib olan səhmdarların üstünlüyü ondan ibarətdir ki, nizamnamədə bu aksiya sahiblərinə ödəniləcək dividentin həcmi və SC ləğv edildikdən sonra ödəniləcək likvid qiyməti göstərilməlidir. Elə başa düşmək lazım deyil ki, imtiyazlı aksiya sahibləri tamamilə səs vermək hüququndan məhrum edilmişdir. Qanun imtiyazlı aksiya sahiblərinə aşağıdakı məsələlərin həlli zamanı səhmdarların ümumi yığıncağında iştirak etmək hüququ verir.

1. SC-nin yenidən təşkil edilməsi və ləğv edilməsi;
2. Səhmdar cəmiyyətin nizamnaməsinə səhmdarın hüququnu məhdudlaşdıran və dəyişdirən eyni imtiyazlı aksiyaların sahiblərinə yönəlirən əlavələr və dəyişikliklər etmək;

Əgər səhmdarların illik yığıncağında imtiyazlı aksiya sahibləri üçün müəyyən edilmiş dividendin ödənilməsi və ya bir hissəsinin ödənilməsi qərarı qəbul edilərsə, onda bu zaman imtiyazlı aksiya sahibləri səs vermək hüququna sahib ola bilərlər. İmtiyazlı aksiyaların 2 növü mövcuddur: kumuliyativ və konversiya edilən.

Kumuliyativ aksiyalar o aksiyalar hesab edilir ki, nizamnamə ilə müəyyən edilən və ödənilməyən və ya bir hissəsi ödənilməyən divident yığılır və sonra ödənilir. Məs: imtiyazlı aksiyaların emissiyası zamanı müəyyən edilmişdir ki, aksiyanın nominal qiymətinin 14%-ə qədər divident ödəniləcək və sonra səhmdarların ümumi yığıncağında cari ildə dividentin ödəniləcəyi qərarı qəbul edilirsə, gələn il kumuliyativ aksiyalar üzrə divident aksiyanın nominal qiymətinin 28%-ni təşkil edəcəkdir. Bundan başqa, bir şeyi də qeyd etmək lazımdır ki, kumuliyativ imtiyazlı aksiya sahibləri onlara divident ödənilməyən müddət ərzində səs vermək hüququna malikdirlər və bu səsvermə hüququ divident tam ödənildikdən sonra öz gücünü itirmiş olur.

Konversiya aksiyalarının buraxılışı zamanı onların adi aksiyalarla və ya imtiyazlı aksiyaların digər növlərinə dəyişilmək imkanları və şərtləri müəyyən edilməlidir.

SC bir qayda olaraq iki və daha artıq imtiyazlı aksiya buraxa bilər. İndi isə imtiyazlı aksiyaların bir neçə növünə nəzər salaq. İmtiyazlı aksiyalar içində daha geniş yeri geri çağrılmış və geri qaytarılmış imtiyazlı aksiyalar tutur. Geri çağırma və geri qaytarılmanı SC müxtəlif yollarla edə bilər.

SC həmçinin, pay iştirakı ilə də imtiyazlı aksiyaları tədavülə buraxa bilər. Bu növ aksiya sahibinə onun buraxılması zamanı təsbit edilmiş dividentdən savayı əlavə divident alma hüququ da verir. Adi aksiyalar üzrə verilən divident bu növ aksiyalar üzrə verilən dividentdən çox olduqda verilir. Bundan başqa, həmçinin də təminatlı imtiyazlı aksiyalar buraxıla bilər. Bu növ aksiyalar yalnız səhmdar şirkətlər tərəfindən buraxıla bilər.

Adi aksiyalar öz sahibinə səhmdarların ümumi yığıncağında iştirak etmək, hər cür məsələlərin həll edilməsində səs vermek, divident almaq, SC ləğv edildikdən sonra isə onun əmlakina sahib olmaq hüququ verir. Adi aksiyaların sahibləri qiymətli kağızın yeganə sahibkarları hesab edilir. Adi aksiyalarla səsvermədə yalnız öz sahibinə səs vermək hüququ verən aksiyalar iştirak edə bilər. Adi aksiyalar üzrə divident cari xalis gəlirin üzərindən verilir. İllik dividentlərin ödənilmə həcmi və ödəmə formasının qərarı səhmdarların ümumi yığıncağında direktorlar şurasının tövsiyəsi ilə qəbul edilir. Bu zaman dividentin həcmi direktorlar şurasının tövsiyə etdiyi göstəricidən yuxarı ola bilməz. İrəli sürülən dividentin həcmi ümumi yığıncaqda azaldıla bilər.

Aksiyalar üzrə dividentlərin rüblər və yarımilliklər üzrə ödənilməsi qərarını isə direktorlar şurası özü qəbul edir.

SC aşağıdakı hallarda aksiyalar üzrə dividentlərin ödənilməsi qərarını qəbul edə bilməz:

1. dividentlər ödənildikdən sonra SC iflas edərsə;

2. əgər nağd aktivlərin qiyməti onun nizamnamə kapitalından və ehtiyat fondundan kiçik olarsa.

Aksiyalar üzrə divident, bir qayda olaraq, pul şəklində ödənilir. Belə ki, nizamnamə ilə dividentin aşağıdakı formalarda da ödənilməsi mümkündür;

1. səhmdarların əlində olan aksiyalara mütənasib olaraq əlavə aksiyaların (istiqrazların) buraxılması forması;

2. gəlirin əmlak şəklində paylaşdırılması yolu ilə.

Dünya praktikasında adi aksiyaların elə növləri mövcuddur ki, onlar üzərindən dividentlərin ödənilməsi imtiyazlı aksiyalarda olduğu kimidir. Bu aksiyaların sahibi əvvəlcədən təsbit edilmiş qaydada, ilin sonunda isə şirkətin işindən asılı olaraq əlavə divident alır.

Dividend. Divident - gəlirin bir formasıdır. Dividend səhmdarın SC-dən aldığı gəlir formasıdır. Dividenti həm səhmdarlar, həm də onların nominal saxlayıcıları ala bilərlər. Bir şeyi də qeyd etmək lazımdır ki, SC dividentin ödənilib-ödənilməməsi haqqında qərar verə bilər. Qanun SC-ni dividentin vaxtı-vaxtında ödənilməsinə məcbur edə bilməz. Əgər dividentin ödənilməsi barədə qərarı qəbul edilirsə; AC aksiyanın hər növünə görə divident ödəməlidir. Xalis gəlirin bir hissəsi dividentin ödənilməsinə, bir hissəsi isə ehtiyat fonduna yönəldilə bilər. Dividend pul şəklində və ya şəxsi aksiya formasında ödənilə bilər. Əgər divident şəxsi aksiyalar şəklində ödənilərsə, bu praktika gəlir kapitalizasiyası adlandırılır. Nəzəri cəhətdən gəlirin şəxsi aksiya şəklində ödənilməsi divident hesab edilə bilməz, çünki bunlar xalis gəliri özündə əks etdirmir. Dividentlərin ödənilmə vaxtı SC tərəfindən müəyyənləşdirilir. Dividentlərin ödənilməsi illər, rüblər və yarımilliklər üzrə ola bilər. İllik dividentin ödənilməsi qərarı SC-nin ümumi yığıncağında direktorlar şurasının tövsiyəsi ilə qəbul edilir.

Aksiyanın qiymətinin dəyərləndirilməsi. Aksiyanın ilkin dəyərləndirilməsi dedikdə, onun nominalı başa düşülür. Aksiyanın nominalı onun üz tərəfində göstəriləndir. Buna görə də onu bəzən nominal qiymət kimi adlandırırlar. SC-nin bütün adi aksiyalarının nominal qiyməti eyni olmalı və bütün aksiya sahibləri üçün bərabər hüquq təmin etməlidir. Şirkət tərəfindən buraxılan aksiyaların nominal qiyməti onun hələ real qiymətini təmin etmir. Bu qiyməti bazar müəyyən edir. Belə ki, nominal qiymət az inkişaf etmiş və az likvidli fond bazarlarında aksiyanın qiymətləndirilməsində bir istiqamətləndirici rolunda çıxış edir. Bu zaman nominal qiymət aksiyanın qiymətinin dəyərləndirilməsində uzun müddət əsas kimi götürülür. Bundan sonra isə aksiyanın qiymətinin dəyərləndirilməsi onların ilkin yerləşdirilməsi zamanı baş verir ki, bu zaman da emissiya qiymətini müəyyən etmək lazım gəlir. Bu aksiyanın ilkin sahibinin alacağı qiymətdir. Müvafiq qanunvericiliyə uyğun olaraq aksiyanın emissiya qiyməti onun bütün ilk alıcıları üçün eynidir. Aksiyanın emissiya qiyməti nominal qiymətdən yüksək və yaxud da ona bərabər ola bilər. Emissiya qiymətinin nominal qiymətdən yüksək olması emissiya mədaxili adlandırılır. Emissiya qiyməti bazar qiymətindən kiçik də ola bilər. Əgər səhmdar ona aksiyaları bazar qiymətindən 10% güzəştlə almaq üçün verilən imkanlardan istifadə edərsə, emissiya qiyməti bazar qiymətindən kiçik olar. Beləliklə də emissiya qiyməti bazar qiymətinin 90%ni təşkil edir.

Aksiyalar emissiya mərhələsində olduqda satılacaq yeni adi aksiyaların satış perspektivi və tədavülə buraxılma vaxtı müəyyən edildikdən sonra bazar qiymətinə tələb yaranır. Aksiyanın qiymətinə əsasən aşağıdakı hallarda tələb duyulur:

1. SC-nin birləşdirilməsi və səs verən aksiya paketinin alınması zamanı;

2. aksiyanın mühafizəyə alınması üçün verilən kredit zamanı;

3. açıq tipli səhmdar cəmiyyətinin qapalı səhmdar cəmiyyətinə çevrilməsi zamanı;

4. əvvəllərdə realizə edilmiş şəxsi aksiyaların alınmasının məqsədəuyğunluğunun müəyyən edilməsi zamanı;

5. SC-nin parçalanması və ayrılması zamanı;

6. SC-nin ləğv edilməsi zamanı.

Bazar qiyməti - aksiyanın ikinci bazarda alınıb-satıldığı qiymətdir. Bazar qiyməti, adətən, fond birjalarında alqı-satqı zamanı müəyyən edilir ki, bu qiymət də aksiyanın real qiymətidir. Birja kursu tələb və təklifə uyğun olaraq müəyyən edilir. Təklif qiymətini satıcı, tələb qiymətini isə alıcı müəyyən edir.

Qiymətli kağızın kursu çoxlu tələb nəticəsində təklif qiymətinə bərabər olur, lakin artıq qiymətli kağız olduqda isə tələb qiymətinə bərabər olur. Beləliklə də real kurs qiyməti qiymətli kağızı alan və satanın tələbi əsasında müəyyənləşir.

İnvestor aksiyanın gəliri barədə təsəvvürləri dəyişərsə, onda qiymətlər də dəyişər. Bir qayda olaraq, bazar şəraiti də nəzərə alınır. Buna görə birja iş günü ərzində aksiyanın satış qiyməti də dəyişə bilər. İlk görülən saziş qiyməti açılış qiyməti, sonuncu isə bağlanma qiyməti adlandırılır. Gün ərzində aksiyaya verilən ən yüksək və ən aşağı qiymət müəyyən edilir.

Ən yüksək qiymət və ən aşağı qiymət nəinki bir gün üçün, eləcə də bir həftəlik, bir aylıq, rüblər üzrə və illik müəyyən edilir. Bu bizə bu və ya digər aksiyanın bazar qiyməti tendensiyasını müəyyən etmək imkanı verir. Açılış qiyməti əhəmiyyətli dərəcədə bağlanma qiymətindən fərqlənə bilər. Aksiyanın qiymətinin dəyərləndirilməsi zamanı aksiyanın kurs və ya balans qiyməti əsas rol oynayır. Əgər kurs qiyməti balans qiymətindən yüksəkdirsə, bu birja artımını göstərir. Balans qiyməti emitentin aksiyalarını listinqdən köçürmək istədiyi zamanı auditorlar tərəfindən müəyyən edilir.

Qiymətli kağıza sahib olan investor aksiyalar üzərində yalnız divident ala bilər. Dividentin həcmini müəyyən edən faktorlar isə onun ödəmə şərtləri xalis gəlirin çoxluğu və onun bölüşdürülmə nisbətidir.

Aksiyanın gəlirliliyinə təsir edən əsas amillər aşağıdakılardır:

1. divident ödənişlərinin kəmiyyəti (xalis gəlirdən törəmə kəmiyyət və onun paylaşdırılması proporsiyası);
2. bazar qiymətlərinin enib-qalxması;
3. inflyasiyanın səviyyəsi;
4. vergi iqlimi.

Qərb fond bazarlarında fəaliyyət göstərən operatorlar gəlirliliyinə görə aksiyaları aşağıdakı kateqoriyalara bölürlər: Yüksək likvidli aksiyalar və kurs qiymətinin artmasında lider olan aksiyalar.

Gəlirliyi çətin proqnoz edilən aksiyalar qrupunu isə spekuliyativ aksiyalar təşkil edir.

İstiqrazların ümumi xarakteristikası. İstiqraz onu ixrac edənlə sahibkar arasında borc münasibətlərini təsdiq edən qiymətli kağızdır. İstiqraz öz sahibinə təsbit edilmiş gəlir saxlayır. Aksiya və istiqrazın prinsipial fərqləri vardır. İnvestor aksiyanı almaqla emitent-şirkətin mülkiyyətçisinə, istiqrazı almaqla isə şirkətin kreditoruna çevrilir. Bundan başqa aksiyalardan fərqli olaraq, istiqrazlar müddətli olur; İstiqrazın aksiyadan bir fərqi də ondan ibarətdir ki, ilk öncə istiqrazlar üzrə faizlər ödənilir, aksiyalar üzrə divident. Bundan başqa, şirkət ləğv edilən zaman səhmdarlar şirkətin əmlakına yalnız istiqraz vərəqələri üzrə borclar ödənildikdən sonra sahib ola bilərlər. Əgər aksiya bir mülkiyyət tituludursa və öz sahibinə şirkətin idarə edilməsində iştirak etmək hüququ verirsə, istiqraz isə bir borc aləti olmasına baxmayaraq, bu hüququ verə bilmir. Dünya praktikasında istiqrazlar növlərinə görə bir-birlərindən fərqlənirlər. Müxtəlif göstəricilərinə görə istiqrazları aşağıdakı şəkildə təsnifatlaşdırmaq olar:

1) emitentə görə istiqrazlar;
1.1. dövlət;
1.2. bələdiyyə;
1.3. korporasiya;
1.4. xarici;
2) tədavülə buraxılma müddətindən asılı olaraq istiqrazları 2 böyük qrupa bölmək olar:
2.1. qabaqcadan şərtləndirilmiş ödənilmə müddəti ilə olan istiqrazlar. Onlar da öz növbəsində aşağıdakı kimi olur;
2.1.1. qısamüddətli;
2.1.2. ortamüddətli;
2.1.3. uzunmüddətli;

Vaxt müddəti hər bir dövlətdə müxtəlif cür olur. Məsələn ABŞ-da qısamüddətli istiqrazlar 1-3 ilə qədər, ortamüddətli istiqrazlar 3-7 ilə qədər, uzunmüddətli istiqrazlar 7 ildən yuxarı;

2.2. istiqrazlar təsbit edilməmiş ödənilmə müddətli.

2.2.1 müddətsiz və ödənilməmiş;

2.2.2. geri çağrılan istiqrazlar. Emitent tərəfindən ödənilmə müddətindən əvvəl geri çağrıla bilər;

2.2.3. uzadılmış istiqrazların investora ödənilmə müddətini uzatmaq və bu müddət ərzində faiz almağı davam etdirmək hüququ var;

2.2.4. möhlətli istiqrazların emitentə ödənilmə müddətini uzatmaq hüququ var.

3) istiqraza sahib olma tərzindən asılı olaraq:

3.1. adlı istiqrazlar. Burada sahib olma hüququ istiqrazın reyestri və reyesterdə sahibkarın adının daxil edilməsi ilə təsdiq edilir;

3.2. təqdim edilənin adına olduqda sahib olma hüquqları sadə yolla istiqrazın təqdim edilməsi ilə təsdiq edilir;

4) İstiqraz vərəqələrinin buraxılma məqsədlərinə görə istiqrazlar aşağıdakı kimi olur.

4.1. adi. Bu növ istiqrazlar adətən emitentin borclarının maliyyələşdirilməsi və ya əlavə maliyyə ehtiyatları cəlb etməklə müxtəlif növ tədbirlərdə istifadə edilə bilər;

4.2. məqsədli. Bu növ istiqrazların satışından əldə edilən vəsait konkret investisiya layihələrinin və konkret tədbirlərin finansmanına yönəldilir (məs. körpünün tikilişinə, telefon xətlərinin çəkilişinə və s.);

5) yerləşdirilmə üsullarına görə:

5.1. sərbəst yerləşdirilən istiqraz vərəqələri;

5.2. icbari qaydada yerləşdirilməsi tələb edilən istiqrazlar;

6) Borc alınmış məbləğin ödənilməsi formasından asılı olaraq istiqraz aşağıdakı kimi qruplaşdırılır.

6.1. pul formasında ödənilməklə;

6.2. natural formada. Ödəmə natural formasında olur. Məsələn, SSRİ-də 20-ci illərdə buraxılan çörək istiqrazları, 1993-cü ildə buraxılan Avto VAZ-ın istiqrazlarını misal göstərmək olar

7) nominalın ödənilməsi metoduna görə:

7.1. istiqrazların nominalının ödənilməsi birdəfəlik ödənilmə ilə ola bilər;

7.2. nominalın ödənilməsi müddəti bölüşdürülmüş istiqrazlar da vardır ki, bu zaman nominalın ödənilməsi müəyyən vaxt çərçivəsi ərzində baş verir;

7.3. istiqrazın ümumi təsbit edilmiş miqdarının ardıcıllıqla ödənilməsi yolu ilə (lotareya və tarif vərəqələri);

8) emitetin istiqraz vərəqələri üzrə ödənişlərinin aparılması aşağıdakı şəkildə olur:

8.1. istiqrazların bəziləri üzrə ödənişlər yalnız faizlərin ödənilməsi ilə aparılır, kapital qaytarılmır, daha dəqiq desək, emitent konkret vaxtı bildirilmədən onların geri alınma imkanları bildirilir. Bu cür istiqrazlar XVIII əsrdə buraxılmış ingilis konsollarını misal göstərmək olar. Bu istiqrazlar hal-hazırkı dövrdə də tədavül edilir;

8.2. bəzi istiqrazlar da vardır ki, onun yalnız nominal kapitalı qaytarılır, heç bir faiz ödənilmir;

8.3. istiqrazlar da vardır ki, onlar üzrə faizlər istiqrazın müddəti bitənə qədər ödənilir. Lakin müddət bitdikdən sonra isə investor həm istiqrazın nominal qiymətini, həm də ümumi faiz gəlirini əldə etmiş olur;

8.4. istiqrazlar da vardır ki, kapitalın nominal qiyməti qaytarılır, onlar üzrə faizlərin ödənilməsinə isə təminat verilmir və şirkətin fəaliyyətinin nəticələrinə bağlı olur;

8.5. istiqrazlar da vardır ki, öz sahiblərinə dövri təsbit edilən gəlir və nominal qiymətin əldə edilməsi hüququnu verir;

9) gəlirin dövri ödənilməsi kuponlarla aparılır;

9.1. təsbit edilmiş kupon tarifli istiqrazlar;

9.2. üzən kupon tarifli istiqrazlar. Burada kupon tarifi borc faiz dərəcəsinin səviyyəsindən asılıdır;

9.3. minimum və sıfır kuponlu istiqrazlar (az faizli və ya faizsiz). Bu istiqrazlar üzrə bazar qiyməti nominaldan aşağı müəyyən edilir;

9.4. seçilmiş ödəniş istiqrazları. Bu istiqraz sahibi kupon şəkildə gəlir, eləcə də yeni buraxılan istiqrazlar əldə edə bilər;

9.5. qarışıq tipli istiqrazlar. Bu zaman istiqraz sahibi gəlirin bir hissəsini təsbit edilmiş kupon tarifləri şəklində, bir hissəsini isə üzən tariflərlə alır;

10) tədavül edilmə xarakterinə görə istiqrazlar:

10.1. konversiya edilməyən;

10.2. konversiya edilən. Bu zaman istiqraz sahibi öz istiqrazını həmin emitentin aksiyalarına dəyişə bilər;

11) İstiqrazlar təmin olunmasına görə 2 tipə bölünür:

11.1. girovla təmin edilmiş;

11.2. girovsuz təmin edilməmiş;

Girovla təmin edilmiş istiqrazlar öz növbəsində aşağıdakı kimi olur: fiziki aktivlərlə mühafizə edilmiş; daşınan və daşınmaz əmlak şəklində; Avadanlıqlar şəklində. Bu forma da çox zaman nəqliyyat şirkətləri tərəfindən buraxılır; Bəzi fond qiymətli kağızlarının girov qoyulması ilə. Bu zaman emitent əlində olan hansısa bir şirkətin qiymətli kağızları ilə mühafizə edilir. Pul ipotekli girovlu istiqrazlar. Bu cür istiqrazları əlində ipotekli borc sənədləri olan kredit idarələri tədavülə buraxır.

Girovsuz mühafizə edilmiş istiqrazların isə aşağıdakı növləri vardır: maddi aktivlərə əsaslanan mühafızəsiz istiqrazlar və emitentin konkret gəlir növü üzrə. Emitent bu istiqrazlara hansısa konkret gəlir hesabına faiz və borcu ödəməlidir;

Bu istiqrazların reallaşmasından alınan vəsaitlər emitentin hansısa bir investisiya layihəsinin maliyyələşdirilməsinə yönəldilə bilər. Emitent bu layihənin reallaşmasından əldə edilən gəliri isə faiz və borcların ödənilməsində istifadə edir;

Təminatlı istiqrazlar. Girovla mühafizə edilməmiş bu istiqrazlara təminatı emitent-şirkət deyil, başqa şirkət verir: paylaşdırılmış və ya ötürülmüş məsuliyyətli istiqrazlar və sığorta edilmiş istiqrazlar. Bu istiqrazları emitent-şirkət hansısa bir şəxsi sığorta formasında sığorta edir;

12) təhlükəsizlik dərəcələrinə görə istiqrazları aşağıdakı şəkildə qruplaşdırırlar:

12.1. etibarlı istiqrazlar. Bu istiqrazlar böyük şöhrətə malik olan şirkətlər tərəfindən buraxılır.

12.2. makulatura istiqrazlar adətən spekulyativ xarakter daşıyır. Bu istiqrazlara qoyulan kapital hər zaman yüksək riskli hesab edilir.

İstiqraz qiymətinin dəyərləndirilməsi. İstiqrazın nominal qiyməti və bazar qiyməti olur. Nominal qiymət istiqrazın üz tərəfində çap edilir və borca götürülən məbləği ifadə edir. Nominal qiymət istiqraz gəlirliyinin hesablanmasında əsas kəmiyyət kimi götürülür. İstiqraz üzrə faiz nominala görə müəyyən edilir. Bir qayda olaraq, istiqraz yüksək nominal qiymətlə buraxılır. Onlar varlı investorlar üçün yönəldilmişdir. Buna görə də istiqraz aksiyadan fərqlənir. Bir şeyi də qeyd etmək lazımdır ki, aksiyadan fərqli olaraq istiqraz üçün nominal qiymət ən vacib parametrlərdən biridir. Əvvəllərdə qeyd etdiyimiz kimi, istiqraz alıcılar üçün bir investisiya obyekti kimi çox cəlbedicidir və alqı-satqı zamanı bir əmtəə predmetinə çevrilir. İstiqraz emissiya olunan gündən ta ödənilmə gününə qədər bazarda müəyyən edilən qiymətlə alınıb-satılır. Emissiya olunan müddətdə istiqrazın bazar qiyməti nominaldan kiçik, nominala bərabər və ya ondan böyük ola bilər. İstiqrazın bazar qiyməti onun satışı zamanı istiqraz bazarında və maliyyə bazarında baş verən hadisələrin gedişatı ilə bağlı olaraq müəyyən edilir, bundan başqa isə istiqraz vərəqəsinin 2 əsas emitenti rol oynayır. Bu elementlər aşağıdakılardır:

1. istiqrazı gələcəkdə ödənilmə müddəti zamanına yaxın əldə etmək (istiqrazın ödənilmə müddəti yaxinlaşdıqca onun qiyməti baha olur).

2. müntəzəm şəkildə təsbit edilmiş gəlirə sahib olmaq (istiqrazın verdiyı gəlir nə qədər çox olarsa, onun bazar qiyməti də bir o qədər yüksək olar).

İstiqrazın bazar qiyməti bir sıra digər şərtlərdən də asılıdır ki, bunlardan da ən vacibi onun risk səviyyəsinin nə dərəcədə olmasıdır.

Müxtəlif istiqrazların nominalı əhəmiyyətli dərəcədə öz aralarında fərqləndiyindən, çox zaman istiqrazın bazar qiymətini müqayisə edən göstəriciyə ehtiyac duyulur. Bu göstərici "kurs"dur. İstiqrazın kursu onun bazar qiymətinin nominal qiymətinə olan nisbətidir.

Dünya ədəbiyyatında yuxarıda qeyd etdiyimiz istiqrazın nominal və bazar qiymətindən başqa, istiqrazın alış qiyməti də vardır. Alış qiyməti nominala bərabər, nominaldan kiçik və böyük ola bilər.

İstiqraz üzrə diskont və gəlirlik. İstiqraz başqa qiymətli kağızlar kimi fond bazarında bir investisiya obyektidir və öz sahibinə gəlir gətirir. İstiqrazlar üzrə ümumi gəlir aşağıdakı elementlərdən düzəldilir: müntəzəm ödənilən faiz (kuponlu gəlir); müəyyən vaxt ərzində istiqrazın qiymətinin dəyişməsi; alınan faizlərin reinvestisiyasından əldə edilən gəlirlər.

Aksiyadan fərqli olaraq istiqraz öz sahibinə təsbit edilmiş gəlir gətirir. Bu gəlir özündə daimi arqumenti ifadə edir ki, bu da müəyyən il ərzində öz sahibinə hər il təsbit edilmiş gəlir əldə etmək hüququ verir.

İstiqrazlar nə qədər çox potensial gətirirsə, bir o qədər onlarə alan faiz ödənişləri reinvestisiya edilə bilər. İstiqraz üzrə kupon gəlirinin həcmi ən əvvəl istiqrazın etibarlılığından, bir sözlə desək, onun emitentindən asılıdır. Emitent-şirkət nə qədər güvənli olarsa istiqrazı bir o qədər faiz dərəcəsi aşağı olur. Bundan başqa faiz gəliri ilə tədavüldə olma müddəti arasında bir bağlılıq vardır. Ödənilmə müddəti nə qədər uzaq olarsa, faiz dərəcəsi bir o qədər yüksək olar və ya tərsinə.

İstiqrazın gətirdiyi ikinci gəlirdən danışarkən biz nominal qiymətdən aşağı alınan istiqrazları nəzərdə tuturuq. Bu cür istiqrazlar sıfır kuponludur. Onlar üzrə gəlir onların satış qiyməti və istiqrazın nominalı arasındakı olan fərq qiyməti ilə müəyyən edilir.

İstiqrazın diskont ilə alınıb-satılması zamanı istiqrazın satış qiymətinin müəyyən edilməsi ən mühüm cəhətlərdən hesab edilir. Bu qiymətin hesablanınası diskont adlanır.

İstiqraz üzrə gəlirin sonuncu elementi isə reinvestiya əldə edilən faiz gəlirləridir. Gəlirin bu növü uzunmüddətli istiqrazların ahnması zamanı mühüm əhəmiyyət kəsb edir.

İstiqraz üzrə əldə edilən ümumi və xüsusi gəlir başqa qiymətli kağızlara nisbətən kiçikdir. Bu onunla izah edilir ki, istiqraz digər qiymətli kağızlara nisbətən daha etibarlı hesab edilir.

İstiqrazın gəlirliliyinə 2 mühüm faktor da təsir edir. Əgər istiqrazın gəlirliyi 4%, inflyasiyanın səviyyəsi isə 3% olarsa, real gəlir 1% olacaq. Yox, əgər inflyasiyanın səviyyəsi 4%-ə bərabər və ya yuxarı olarsa, onda investorun gəliri sıfıra bərabər olar və ya ziyana gedər. Buna görə də investor inflyasiya zamanı uzunmüddətli istiqrazların alınmasından imtina edir.

Vergilər də həmçinin istiqrazın gəlirliliyinə böyük təsir göstərir. Buna görə də yuxarıda qeyd edilənləri nəzərə alaraq istiqrazın real gəliri vergiləri və inflyasiya səviyyəsini çıxdıqdan sonra hesablanır.

Dövlət qiymətli kağızları. DQK dövlətin daxili borcunun mövcud olma formasıdır. Bunlar borc qiymətli kağızlardır ki, burada da emitent rolunda dövlət çıxış edir. Belə ki, DQK-larının hamısı borc qiymətli kağızlardır, amma buna baxmayaraq, praktikada hər bir sərbəst DQK-nın öz adı vardır ki, bu da onları istiqrazların digər növlərindən fərqləndirmək imkanı verir. DQK-nın tədavülə buraxılması bir sıra mühüm məsələlərin həll olunmasında istifadə edilə bilər**:**

- dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi;
- dövlətin məqsədli proqramlarının maliyyələşdirilməsi;
- iqtisadi aktivliyin tənzim edilməsi.

DQK-ların, bir qayda olaraq, digər qiymətli kağızlardan iki üstünlüyü vardır. Birinci odur ki, DQK risk səviyyəsinə görə ən etibarlı qiymətli kağızlardır. İkinci üstünlüyü də digər qiymətli kağızlara nisbətən ona güzəştli vergilərin olmasıdır.

DQK-nın yerləşdirilməsi: Mərkəzi bank və Maliyyə Nazirliyinin yolu ilə olur.

İstiqrazın buraxılış növündən asılı olaraq onun əsas investorları əhali, pensiya, sığorta şirkətləri və fondları, banklar, investisiya şirkətləri və fondları hesab edilir.

Bir qayda olaraq, DQK istiqraz bazarında əsas yerlərdən birini tutur. DQK-nın istiqraz bazarında payı 50%-dir. DQK-nın strukturunda orta və uzunmüddətli istiqrazlar xüsusi çəkiyə malikdirlər.

Müxtəlif meyarlara görə instiqrazları təsnif edərkən onları bir neçə qrupa bölmək olar.Emitent növünə görə:

1. mərkəzi hökumətin qiymətli kağızları;
2. bələdiyyə qiymətli kağızları;
3. dövlət idarəsi qiymətli kağızları;
4. dövlət statusu verilmiş qiymətli kağızlar.

Tədavül formasına görə: bazar qiymətli kağızları. (Bu növ qiymətli kağızlar onların ilkin yerləşdirilməsindən sonra sərbəst alınıb-satıla bilir); qeyri-bazar qiymətli kağızları. (Bu növ qiymətli kağızlar onların sahibləri tərəfindən alınıb-satıla bilməz, amma müəyyən müddətdən sonra emitentə qaytarıla bilər).

Tədavül müddətinə görə:

- qısamüddətli, adətən 1 il müddətinə buraxılır;
- ortamüddətli (15 il);
- uzunmüddətli (1015 il).

Gəlirlərin ödənmə vasitəsinə görə: faizli qiymətli kağızlar (faiz dərəcəsi təsbit edilmiş – uzun və ya pilləli ola bilər); diskont qiymətli kağızlar (nominaldan az qiymətə yerləşdirilir və bu gəlir istiqraz üzrə gəliri əmələ gətirir); İndeks edilən istiqrazlar (Nominal qiyməti hər zaman artır.

Bələdliyyə qiymətli kağızları. Bu dövlət yerli icra hakimiyyəti orqanlarının yerli büdcə kəsiri və ya qeyri-büdcə məqsədi ilə qiymətli kağız buraxmaqla finans resurslarını cəlb etməyin bir yoludur. Yerli hakimiyyət orqanları əlavə finans vəsaitlərini istədiyi hər cür məqsədlər üçün istifadə edə bilər və bunu da aşağıdakı şəkildə qruplaşdırırlar:

1. yerli büdcə kəsirinin müvəqqəti doldurulması üçün;
2. mənfəətsiz obyektlərin finansmanı üçün;
3. Sosial təyinatlı obyektlərin tikilməsi, yenidən qurulması və təmiri (məktəb, xəstəxana, muzey, kitabxana və s.);
4. Yerli infrastruktur obyektlərinin tikilməsi, yenidən qurulması və təmiri (yolların, körpülərin, su hövzələri və s.);
5. mənfəətli layihələrin finansmanı. Qoyulan sərmayə bir neçə il ərzində əldə edilən gəlir hesabına ödənilir;
6. mənzil-tikinti, təmir və yenidən qurulma layihələrinin finansmanı. Bir qayda olaraq bu layihə öz xərclərini tikinti yaşayış fondunun satılması hesabına ödəyir.

Bələdiyə qiymətli kağızlarının əsas alıcıları yerli əhali, kommersiya bankı, sığorta və pensiya fondları hesab edilir.

Göstərilən bu qiymətli kağızların alınması investorlara iki əsas səbəbdən maraqlı hesab edilir:

1. vergi güzəştlərinin olduğuna görə bank depozitlərinə nisbətən gəlirliliyin çox olması;
2. digər qiymətli kağızlara nisbətən yüksək etibarlılığın olması. Bələdiyyə qiymətli kağızlarından daha yüksək etibarlılığa hökumətin buraxdığı qiymətli kağızlar sahibdir.

Bələdiyyə istiqrazlarının buraxılış qərarını yerli icra hakimiyyəti orqanı qəbul edir. Bələdiyyə istiqraz vərəqələrinin yerləşdirilməsi isə bu iş üçün bir və ya bir neçə vəkil edilmiş kommersiya bankları və yaxud da digər kommersiya strukturlarının vasitəçiliyi ilə həyata keçirilə bilər. Bu cür vasitəçilər konkurs əsasında seçilir. Adətən bələdiyyə istiqrazları sərbəst tədavül edilir. Onların sahibləri bu instiqrazları bərpa və ya qeyri-bərpa bazarlarında sərbəst alıb-sata bilər. İstiqrazın müddəti bitdikdən sonra istiqraz emitent tərəfindən onun nominal qiyməti ödə-nilməklə geri alınır.

Qiymətli kağızların ilkin emissiya prosedurası aşağıdakı mərhələlərdən ibarətdir. Əgər açıq tipli səhmdar cəmiyyətdirsə, onda aşağıdakı kimi olur:

1. emitent tərəfindən qiymətli kağızların ixrac edilməsi qərarının qəbul edilməsi;
2. emitent tərəfindən qiymətli kağızların emissiya layihəsinin hazırlanması və təsdiq edilməsi;
3. qiymətli kağızların icraçısının dövlət qeydiyyatından keçməsi;
4. emissiya layihəsi barədə məlumatları açıqlamaq;

5. qiymətli kağızların şəhadətnamələrinin hazırlanması;

6. ixracın nəticələri barədə hesabatın qeydiyyatdan keçməsi və onların elan edilməsi;

Qiymətli kağızların qapalı səhmdar cəmiyyətdə yerləşdirilməsi halı üçün:

1. emitent tərəfindən qiymətli kağızların ixrac edilməsi qərarının qəbul edilməsi;

2. qiymətli kağızların ixracının və emissiya layihəsinin dövlət qeydiyyatından keçməsi;

3. qiymətli kağızların yerləşdirilməsi;

4. ixracın nəticələri barədə hesabatın dövlət qeydiyyatından keçməsi. Beləliklə, qiymətli kağızların emissiya prosesi bir neçə əsas mərhələlərdə formalaşır və birinci mərhələni hazırlıq mərhələsi hesab etmək olar.

SC təsis edilməmişdən qabaq yaradılacaq yeni təsis strukturunun əlverişli olub-olmadığı məsələsi həll olunmalıdır. Hesabat və analizlər aparılmalıdır ki, yeni yaranan SC istehsal və təsərrüfat proseslərini daha effektli şəkildə təşkil etməyə imkan verəcək və yenidən onun SC istehsal etdiyi məhsullar rəqabətə davam gətirəcək.

Qiymətli kağızların təkrar ixracı zamanı eldə edilən vəsait investisiya fəaliyyətinin finansmanında istifadə edilir. Bu zaman daha effektli mənbə və finansman mexanizmi işlənib hazırlanmalıdır. Əgər şirkət yeni emissiya keçirməyi planlaşdırırsa, onda aşağıdakıları müəyyən etməlidir:

1. emissiyanın həcmi;

2. qiymətli kağızların yerləşdirilməsi şərtləri;

3. qiymətli kağızlar bazarında yerləşdirəcəyi emissiya qiyməti. Qiymətli kağızın ixracı məsələsini həll etmək üçün aşağıdakı istiqamətlər üzrə analitik işlərin aparılması tələb edilir;

4. şirkətin fəaliyyət göstərdiyi sahənin analizi (və yaxud da yeni yaradılacaq şirkətin fəaliyyət sahəsi);

5. şirkətin fəaliyyət göstərdiyi sahədə vəziyyətin öyrənilməsi; SC-nin finans vəziyyətinin analizi.

Belə hazırlıq vəziyyətinin nəticəsi olaraq qiymətli kağızın ixrac edilib-edilməməsi məsələsini həll etmək.

Əgər biz qiymətli kağızı ixrac edəcəyimizə qərar veririksə, onda aşağıdakı addımlar atılmalıdır:

1. buraxılacaq qiymətli kağızın növü müəyyən edilir;

2. qiymətli kağızın buraxılması təşkil edilir;

3. qiymətli kağızın emissiya və buraxılma vaxtı əsaslandırılır, aksiyanın ictimai ixracı üçün lazım olan pul vəsaiti müəyyən edilir.

Qanuna və nizamnaməyə uyğun olaraq qiymətli kağızın buraxılması qərarını emitentin idarəetmə orqanı qəbul edir. Hazırlıq mərhələsi zamanı 2 ən mühüm sənəd tərtib edilməlidir: biznes planı və qiymətli kağızların emissiya layihəsi. Qiymətli kağızların emissiya layihəsinin işlənib hazırlanması prosesi ikinci mərhələ hesab edilirdi. Bu sənəd də əsasən yeni SC-nin yaradılması və yaxud da əlavə qiymətli kağızlar ixrac edilən zaman mühüm əhəmiyyət kəsb edir. Bu normativ sənəddə üç informasiya öz əksini tapmalıdır:

1. emitent haqqında əsas məlumatlar;

2. onun maliyyə vəziyyətini xarakterizə edən məlumatların olması;

3. ixrac ediləcək qiymətli kağızların xarakteristikası. Qiymətli kağızların emissiyasının 3-cü mərhələsi onların buraxılışının qeydiyyatdan keçməsidir.

Qiymətli kağızların təkrar ixracının qeydiyyatdan keçməsi üçün lazım olan normativ sənədlər aşağıdakılardır:

1. qeydiyyatdan keçməsi üçün ərizə;

2. qiymətli kağızın buraxılması qərarı;

3. notariusda təsdiq edilən təsis sənədlərinin surətləri;

4. emissiya layihəsi (2 nüsxə);

5. ödəmə tapşırığının surəti (qiymətli kağızlarla əməliyyata görə verginin ödənilməsi haqqında ödəmə tapşırığı surəti (emissiya məbləğinin 0,8 %-i)

Qeydiyyatdan keçirən orqanın təqdim olunan sənədlərə heç bir iddiası olmadıqda emitentə aşağıdakı sənədləri verir:

1. qeydiyyatdan keçməsi barədə bəyanatın nüsxəsi;

2. qiymətli kağızın dövlət qeydiyyatından keçməsi aktını təsdiq edən məktub вя məktubda aşağıdakılar göstərilməlidir: qeydiyyatdan keçmiş aksiyanın həcmi və xarakteristikası; tarix və dövlət qeydiyyat kodu.

Qiymətli kağızların emissiyasının dördüncü mərhələsi ondan ibarətdir ki, emitent emissiya layihəsi nəşr edir ki, bütün maraqlanan alıcılar informasiyaya sahib olsunlar.

Beşinci mərhələ isə qiymətli kağızın realizasiyasıdır, yəni birinci alıcısına satılmasıdır. Bunu emitentin özü və yaxud da qiymətli kağızlar bazarının peşəkar iştirakçıları olan anderrayterlər də edə bilərlər.

Qiymətli kağızların emissiyasının sonuncu mərhələsi ixracın nəticələri barədə hesabatın verilməsindən ibarətdir. Emitent 2 şəkildə hesabat hazırlamalıdır. Biri aksionerlər üçün, digəri isə dövlət orqanları üçün. Emitent aksionerlər qarşısında illik keçirilən iclasda hesabat verir, dövlət orqanları qarşısında isə qiymətli kağızların yerləşdirilməsi ərzində, həmçinin də bitdikdən sonra hesabat verir. Emitentin təqdim etdiyi hesabata aşağıdakılar daxil edilməlidir.

1. qiymətli kağızın realizasiya qiyməti, sayı, növü və ödəmə forması;

2. yerləşdirmənin iştirakçıları barədə (banklar və investisiya institutları);

3. emitentin aksiyalarının nəzarət paketinin sahibi haqqında məlumat

4. nizamnamə kapitalında direktorlar şurası və idarə heyəti üzvlərinin payı barədə və qiymətli kağızın yerləşdirilməsi haqqında olan digər məlumatlar.

Anderraytinq. Anderraytinq - riskə qarşı sığorta etmə və ya yeni çıxarılan qiymətli kağızların bazarda təminata alınmasıdır. Anderraytinqin aşağıdakı növləri mövcuddur: Anderraytinq sərt öhdəliklər əsasında; Anderraytinq ən yaxşı səylər əsasında; Anderraytinq "Stand-By "; Anderraytinq "hamısı və yaxud heç nə" prinsipləri əsasında; Emitentin avanslı və avanssız anderraytinqi və rəqabətli anderraytinq.

Anderrayter - vasitəçi xidmətidir və ilkin emissiyanın yerləşdirilməsində üzərinə öhdəlik alır. Sövdələşmə o zamanı xətm edilir ki, anderrayter öhdəlikləri yerinə yetirmir. "Sərt öhdəliklər əsasında" anderraytinq zamanı emitentlə müqavilənin şərtlərinə görə anderrayter təsbit edilmiş qiymətdə buraxılan qiymətli kağızların hamısını və yaxud bir hissəsini pul verib geri almaq məcburiyyətindədir. Bu vəziyyətdə əgər qiymətli kağızların bir hissəsi birinci bazarda yerləşdirilə bilinməyəcəksə, onda anderrayter qiymətli kağızın həmin bir hissəsini almaq məcburiyyətindədir. Anderrayter bu öhdəlikləri yerinə yetirə bilməzsə, nəinki öz etibarını, həm də öz vəsaitini itirmiş olur.

"Ən yaxşı səylər əsasında" anderraytinq zamanı isə anderrayter emitentlə razılaşmanın şərtlərinə əsasən qiymətli kağızların yerləşdirilməsi üçün maksimum səylərini sərf etməlidir. Bu zaman anderrayterin finans öhdəliyi ancaq yayılmayan emissiyanın bir hissəsini pul verib geri almaqdır. Belə vəziyyətdə bütün finans riski emitentin qiymətlərinə düşür.

"Stand by" anderraytinqin bir formasıdır. Bu zaman anderrayter köhnə səhmdarlar tərəfindən alınmayan səhmlərin bir hissəsini almaq öhdəliyi üzərinə götürür və bu, onu gələcəkdə yerləşdirmək şərti il olur.

"Hamısı və yaxud heç nə" anderraytinqi zamanı anderrayter emissiyanın hamısını tamamilə yerləşdirməlidir. Müqavilə öz gücünü anderrayter götürdüyü öhdəlikləri yerinə yetirə bilmədiyi zaman itirmiş olur.

Emitent öz qiymətli kağızlarını yerləşdirmək üçün avanslı və avanssız müqavilələr də bağlaya bilər.

Rəqabətli anderraytinqin mahiyyəti ondan ibarətdir ki, burada müxtəlif anderrayterlər öz aralarında rəqabət aparırlar. Emitentlə müqaviləni rəqiblərinə nisbətən ən yaxşı qiymət və şərtləri təklif edən anderrayter bağlayır.

Emitent və anderrayterin qiymətli kağızların yerləşdirilməsi zamanı və müəyyən müqavilələrin bağlanması zamanı qarşılıqlı əlaqə prosesi yaranan vəziyyətin analizindən asılıdır;

1. aksiyaların ictimai ixracı yolu ilə cəlb olunan pul vəsaitinin həcmi;

2. emitentin şərtlərinə uyğun gələn aksiyaların növünün seçilməsi;

3. onların qiymətli kağızlarını ən yaxşı yerləşdirə biləcək anderrayterlərin seçilməsi;

4. ixracın bütün xərcləri;

5. yeni ixrac edilmiş qiymətli kağızların yerləşdirilməsi üçün qiymət təklifi. Bir sıra vaxtlarda anderrayter emitentdən ixrac hüququnu almaq üçün opsiona yazılır. Həmçinin diler sərbəst şəkildə ixracın müəyyən hissəsini ala bilər, yerdə qalan hissəsini isə opsiona götürə bilər. Göstərilən məsələlər emitentin qiymətli kağızları tədavüldə olarkən bir qədər asan həll edilir.

Dünya ölkələrinin praktikası göstərir ki, qiymətli kağızların emissiyasının hazırlanması və yerləşdirilməsində anderrayterlərin iştirakı zamanı ixracın təxminən 70-80%-ə qədəri investisiya şirkətlərinin payına düşür, yerdə qalan 20-30%-i isə emitentlərin payına düşür. Emitentdən alınan qiymətlə satılan qiymət arasındakı fərq 1-25 % arasında dəyişir.

Anderrayterin dünya praktikasında funksiyaları aşağıdakı kimi müəyyən edilir:

1. Emissiyanın hazırlanması (şirkətin yenidən qurulmasına köməklik göstərmək emitentlə, hüquqi firmalarla investisiya məsləhətçiləri ilə birlikdə emissiyanın təşkili və qiymətləndirilməsi);

2. yayılması (emissiyanın bir hissəsinin və yaxud hamısının pul verib geri alınması, emissiyanın birbaşa yayılması, emissiyanın sindikatlar vasitəsilə satılması);

3. bazardan sonrakı müdafiə (ikinci bazarda qiymətli kağızın kursunun saxlanılması);

4. analitik və tədqiqati müdafiə qiymətli kağızın kurs dinamikasına və ona təsir edən faktorlara nəzarət.

Qiymətli kağızların reytinqi. Reytinq ekspertin bazarın obyektiv göstəriciləri barədə, əsas borc və faizin ödənilməsinin mümkünlüyü barədə, bu və ya digər fond dəyərinin keyfiyyəti barəsində fikir və rəyləridir. Reytinq qiymətinin yaranması bazarı xarakterizə etməyin ən yaxşı üsullarından biridir. Reytinq qiymətli kağızların alınıb-satılmasında konkret tövsiyələr vermir. İnvestor bu informasiyanın yalnız qiymətli kağızların alqı-satqısını həyata keçirərkən bir meyar olaraq istifadə edə bilər. Reytinqin emitent üçün böyük faydası vardır. Reytinq emitentin qiymətli kağızının likvidliyini qaldırmağa kömək edir. İnkişaf etmiş bazarlarda bütün borc öhdəliklərinin reytinq qiyməti vardır və burada hansısa bir istiqrazın reytinqi olmadan alıb-satmaq çox çətindir. Sivilizasiyalı bazar emitent tanınmış reytinq agentliklərinə müraciət etməyə məcbur edir və burada emitent müəyyən məbləğdə pul ödədikdən sonra mütəxəssis analitiklə onun qiymətli kağızının keyfiyyətini yoxlayır və ona reytinq qiyməti verirlər. Beləliklə də effektli fond bazarlarında yalnız reytinq prosedurasından keçən istiqraz vərəqələri etibarlı hesab edilə bilər. Bu zaman istiqrazın qiymətini reytinq agentliyinin tərtib etdiyi kateqoriya əsasında müəyyən etmək olar.

Reytinq Amerikanın kəşfidir və yetmiş ildən artıq bir inkişafa malikdir On beş il əvvəl Avropa bazarlarında reytinq kateqoriyası yox idi, son on il də Avropa bazarlarında da reytinq kateqoriyası inkişaf etməyə başladı. ABŞ da iki ən tanınmış reytinq agentliyi vardır. Bunlardan biri "Standard and Poors" agentliyidir ki, onun əsası 1860-cı ildə qoyulub. İkinci ən tanınmış reytinq agentliyi isə "Moodys İnvestor Servises" agentliyidir.

Reytinqi 3 əsas istiqamətə ayırmaq olar: sərbəst reytinq; finans institutlarının reytinqi; sənaye şirkətlərinin reytinqi. Müstəqil reytinq iki əsas istiqamətdən ibarətdir: siyasi və iqtisadi risklərin qiymətləndirilməsi. Tədqiqatçılar ilk öncə siyasi riskin qiymətləndirilməsindən başlayırlar. İlk öncə siyasi sistem öyrənilir. Bura hökumətin quruluşu, xalqın iştirakı, siyasi qərarların yerinə yetirilməsi zamanı konsensusun dərəcəsi, borc ödənilməsi imkanları və s. daxildir. Sonra isə ictimai mühit öyrənilir. Bura isə həyat səviyyəsi, demokratik vəziyyət daxil edilir. Sonuncu mərhələ isə beynəlxalq əlaqələrin öyrənilməsidir.

Müstəqil reytinqin ikinci bloku iqtisadi riskin qiymətləndirilməsidir. Əvvəlcə ölkənin iqtisadi potensialı, ehtiyatları, kapital qoyuluşu, istehsal və xidmət dairələri sferaları öyrənilir. Sonra dövlət maliyyəsi xarakterizə edilir. Burada vergi sistemi, büdcə, onun xərcləri, "dövlət borcunun miqdarı və s. səciyyələndirilir. İqtisadi riskin qiymətləndirilməsinin üçüncü bloku pul sisteminin vəziyyəti və inflyasiya səviyyəsinin analiz edilməsidir. İqtisadi riskin qiymətləndirilməsi həmçinin də birbaşa tədiyə balansının vəziyyətindən asılıdır. Ən sonuncu xarakteristika isə valyuta sisteminin vəziyyətinin necə olmasıdır.

Finans institutlarının reytinqi özündə bank reytinqini təsbit edir. Bank reytinqi 2 əsas istiqamətə - biznes riskinin qiymətləndirilməsi və finans riskinin qiymətləndirilməsi istiqamətlərinə bölünür.

Korparasiya reytinqinin əsasını emitentin finans vəziyyətinin analiz edilməsi təşkil edir. Reytinq prosesinin birinci mərhələsini səhmdar cəmiyyətin fəaliyyətinin qiymətləndirilməsində istifadə edilən göstəricilər təşkil edir. Fond bazarı inkişaf edən ölkələrdə qiymətləndirmə bir qayda olaraq rəqabətə davamlılığın və finans vəziyyətinin analizinə əsaslanır. Bu zaman şirkətıı inkişaf perspektivləri, idarəetmə keyfiyyəti, rəqabətə davamlılıq mövqeyi və s. tədqiq edilir. Şirkətə investisiya cəlb etmək baxımından reytinqini qurmaq üçün yeddi qiymətləndirmə qrupunun təşkil edilməsi təklif edilir:

1. gəlir norması;
2. aktivlərin gəlirliliyi;
3. aktivlərin dövriyyəsi və verimliliyi;
4. satışların gəlirliliyi;
5. istehsalın gəlirliliyi;
6. aksiyaların cari və ümumi gəlirliliyi;
7. şirkət bazar kapitalizasiyası.

Bu göstəricilər şirkətin gəlirliliyini və onun aktivlərinin keyfiyyətli idarə edilməsini xarakterizə edir.

İkinci qrupa şirkətin finans vəziyyətinin göstəriciləri daxil edilir.

1. alıcılıq qabiliyyəti;
2. likvidlik;
3. şirkətin bazara davamlılığı.

Üçüncü qrupa şirkətin istehsal potensialını göstərən göstəricilər daxildir: səhmdar cəmiyyətin əmlakının tərkibi və onun finansman mənbəyi. Əsas göstəricilərə isə nizamnamə kapitalında və balansın aktivindəki əsas vəsaitlərin payı, həmçinin də əsas vəsaitlərin istifadə edilmə və işlənib köhnəldilməsi dərəcələrini xarakterizə edən göstəricilər daxil edilir.

Dördüncü qrupa isə şirkətin qiymətli kağızlarına qoyulan vəsaitin güvənliyini və təhlükəsizliyini xarakterizə edən göstəricilər aid edilir. Bura aşağıdakılar aiddir:

1. debitor borclarının riski;
2. debitor və kreditor borclarının nisbəti;
3. bir aksiyanın likvid qiyməti;
4. inflyasiyaya uğrama riski;
5. ikinci bazarda aksiyanın qeyri-likvidlik riski.

Beşinci qrupa isə aksiyanın qiymətlərinin böyümə perspektivini, həmçının onun sahələrinin inkişaf dinamikası və eksport potensialını xarakterizə edən göstəricilər aid edilir.

Qiymətli kağızlar bazarının iştirakçıları. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 15-ci bölməsinin 1078-ci maddəsinə müvafiq olaraq qiymətli kağızlar bazarında aşağıdakı fəaliyyət növləri mövcuddur.

1. broker fəaliyyəti;
2. diler fəaiiyyəti;
3. qiymətli kağızların idarə olunması üzrə fəaliyyət;
4. depozitar fəaliyyəti;
5. qiymətli kağızların sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyət;
6. klirinq fəaliyyəti;
7. fond birjası fəaliyyəti.

Həmin peşəkar fəaliyyət yalnız QKDK tərəfindən verilmiş müvafiq xüsusi razılığa (lisenziyaya) malik olan şəxslər tərəfindən həyata keçirilə bilər. Bu fəaliyyət növləri ilə məşğul olunması qaydaları QKDK-nin normativ sənədləri ilə tənzimlənir.

Broker və diler fəaliyyəti. Əvvəllərdə qeyd etdiyimiz kimi, bazarın fəaliyyət göstərməsi üçün bazara maraq göstərən satıcılar, alıcılar və vasitəçilər olmalıdır. Qiymətli kağızlar bazarında vasitəçi rolunda, adətən brokerlər və dilerlər çıxış edirlər. Tapşırıq və ya komisyon müqaviləsi əsasında

müvəkkil və ya komisyonçu kimi fəaliyyət göstərən hüquqi və ya fiziki şəxs onun müştərisinin marağına uyğun və onun hesabına qiymətli kağızlarla mülki hüquqi əqdlərin bağlanması broker fəaliyyəti hesab edilir.

Qiymətli kağızlar bazarının broker fəaliyyəti ilə məşğul olan peşəkar iştirakçısı broker adlanır. Broker sifətində həm fiziki şəxslər, həm də hüquq şəxslər çıxış edə bilərlər. Fond bazarında peşəkar broker fəaliyyəti müəyyən lisenziya əsasında həyata keçirilir.

Broker bu lisenziyanı müvafiq dövlət orqanlarından alır.

Qiymətli kağızlar bazarında broker və ya broker təşkilatı kimi fəaliyyət göstərmək üçün aşağıdakı tələblərə cavab vermək lazımdır:

1. müəyyən edilən minimal kapitala sahib olmalıdır ki, investor qarşısında maddi məsuliyyət hiss etsin;

2. qiymətli kağızlarla əməliyyatları tam və dəqiq təzahür edən, işlənib hazırlanmış haqq-hesab sisteminə malik olmalıdır.

Broker və müştəri öz əlaqələrini müqavilələr əsasında qurur. Broker müştərinin adından və hesabından çıxış edir. Broker müştərinin tapşırığı əsasında hərəkət edir. Brokerin əsas gəliri sazişlərin məbləğindən asılı olaraq tutulan komisionlardır.

Çox zaman brokerler öz fəaliyyətinə qiymətli kağızlar bazarında müştərilərlə məsləhət etməyi də daxil edirlər.

Diler. Hüquqi şəxsin müəyyən qiymətli kağızlarının alış və satış qiymətlərini elan edib, bu qiymətli kağızların elan edilmiş qiymətlər üzrə alınması və ya satılmasını öhdəsinə götürməklə öz adından və öz hesabından qiymətli kağızlarla alqı-satqı əqdlərinin bağlanılması diler fəaliyyəti hesab edilir. Qiymətli kağızlar bazarında diler fəaliyyətini həyata keçirən peşəkar iştirakçı diler adlanır. Brokerdən fərqli olaraq diler qiymətli kağızlar bazarında hüquqi şəxs kimi fəaliyyət göstərən investisiya şirkətlərini təmsil edir. Əqdləri də müştərilərin hesabına deyil, öz hesabına yerinə yetirir. Dilerin gəliri alqı-satqı qiymətləri arasındakı fərqdə olur. Bazarda operator rolunda çıxış edən diler alqı-satqı qiymətlərini, alınan və satılan qiymətli kağızların minimal və maksimal saylarını, həmçinin də elan edilən qiymətlərin nə vaxta qədər qüvvədə qalacağını müəyyən edir.

Depozitari fəaliyyəti. Qiymətli kağızların və ya onların sertifikatlarının saxlanılması, yaxud uçotu və qiymətli kağızlara olan hüquqların keçməsi üzrə xidmətlər göstərilməsi depozitari fəaliyyəti hesab olunur. Qiymətli kağızlar bazarının depozitari fəaliyyətini həyata keçirən peşəkar iştirakçısı depozitari adlanır. Qiymətli kağızların uçotu üçün təyin edilmiş hesabat "depo hesabı" adlandırılır. Yalnız hüquqi şəxs depozitari ola bilər. İlk depozitari sistemi fond birjalarına xidmət etmək üçün yaradılmışdır. Depozitari fəaliyyəti ilə bağlı olan əməliyyatların hamısı depozitari və deponent arasında bağlanan müqavilələr əsasında həyata keçirilir. Depozitor müqaviləsi yazılı şəkildə bağlanır və bu müqavilənin bağlanması deponentin qiymətli kağızlara olan hüququnun depozitariyə keçməsini bildirir. Depozitar deponentin onda saxladığı qiymətli kağızlar sertifikatlarının qorunmasına mülki hüquqi məsuliyyət daşıyır.

Depozitari müqaviləsinə aşağıdakı mühüm şərtlər daxil edilməlidir:

1) müqavilənin predmetinin birmənalı müəyyən edilməsi, qiymətli kağızların sertifikatlarının saxlanılma və ya qiymətli kağızlara olan hüquqların uçotu üzrə xidmətlərin göstərilməsi;

2) deponentin depozitaridə saxlanan qiymətli kağızları üzrə sərəncam verilməsi haqqında deponentin depozitariyə məlumat vermə qaydası;

3) müqavilənin qüvvədə olduğu müddət;

4) müqavilədə nəzərdə tutulmuş depozitari xidmətlərinin ödənilməsinin həcmi və qaydası;

5) depozitarinin deponent qarşısında hesabat verməsinin forması və dövriliyi;

6) depozitarinin vəzifələri.

Öz aralarında danışan brokerlər onlarda saxlanılan bütün qiymətli kağızların sertifikatlarını yığır və birja depozitarisində deponent edirlər. Bu zaman bütün reyestrlərdə bu qiymətli kağızları broker hesabından nominal sahib kimi çıxış edən birja depozitarisinin hesabına köçürürlər. Birja depozitarisində hər bir brokerə "depo hesabı" açılır ki, burada da ona məxsus olan bütün qiymətli kağızların hesabatı gedir. Beləliklə, brokerlər arasında görülən sazişlərin nə-ticələrinin rəsmiləşdirilməsi üçün reyestr xidmətlərinə müraciət etmək lazım deyil. Mülkiyyətçinin dəyişdirilməsi birja

depozitarisinin depo hesablarında öz əksini tapır. Beləliklə də qiymətli kağızların hesabatını aparılması nağdsız olur və depo hesablarında dəyişikliklər edilir.

Klirinq fəaliyyəti. Qiymətli kağızların göndərilməsi üzrə qarşılıqlı öhdəliklərin müəyyən edilməsi (qiymətli kağızlarla əqdlər üzrə məlumat toplanması, yoxlanılması, təshih edilməsi və onlar üzrə mühasibat sənədlərinin hazırlanması) bu öhdəliklərin hesaba alınması və qiymətli kağızlär üzrə hesablanma aparılması klirinq fəaliyyəti hesab edilir.

Praktikada klirinq təşkilatları aşağıdakı kimi adlandırılırlar: hesabat palatası, klirinq palatası, klirinq mərkəzi, hesabat mərkəzi və s. Ümumi planda hesablaşma klirinq təşkilatları ixtisaslaşdırılmış bank tipli təşkilatlardır ki, qiymətli kağızlar bazarının iştirakçılarına hesablaşma ilə bağlı xidmət göstərir. Onun aşağıdakı əsas məqsədləri vardır:

1. bazar iştirakçılarına hesablaşma xidmətləri xərclərinin minimuma endirilməsi;
2. haqq-hesab vaxtının qısaldılması;
3. Hesablaşma zamanı yer alan bütün risklərin minimum səviyyəyə endırilməsi.

Hesablaşma-klirinq təşkilatlatı, adətən, kommersiya banklarının oldugu hüquqi formada olur; amma çox vaxt qapalı səhmdar cəmiyyət formasında olur ki, bu təşkilatlar da ölkənin mərkəzi bankının verdiyi lisenziya əsasında fəaliyyət göstərirlər. Hesablaşma-klirinq təşkilatları kommersiya şirkətləri olub, gəlirlə işləməlidir. Onun nizamnamə kapitalı onun üzvlərinin ödəmələri hesabına yaradılır. Bu təşkilatın əsas gəlir mənbəyi aşağıdakı kimidir:

1. sazişləri qeydiyyatdan keçirmə haqqı;
2. məlumatların satılmasmdan əldə edilən gəlir;
3. tədavüldəki pul vəsaitlərindən əldə edilən gəlir;
4. öz hesablaşma texnologiyasının satışından daxil olmalar;
5. digər gəlirlər.

Hesablaşma-klirinq təşkilatlaın törəmə qiymətli kağızlar olan fyuçers müqavilələri və birja opsionlarının alqı-satqısında mərkəzi yer tutur. Hesablaşma-klirinq təşkilatları ilə onun üzvləri, birjalar və digər təşkilatlar arasında qarşılıqlı münasibətlər müvafiq müqavilələr əsasında qurulur.

Hesablaşma-klirinq təşkilatlarının üzvləri əsasən iri banklar, iri finans şirkətləri, həmçinin də fond və fyuçers birjaları olur. Hesablaşma-klirinq təşkilatlarının kredit və ya digər aktiv əməliyyatları həyata keçirmək hüququ yoxdur. Hesablaşma-klirinq təşkilatları depozitari xarakterli xidmətləri də həyata keçirir.

Reyestr fəaliyyət. Qiymətli kağızların sahiblərinin reyestrinin aparılması sistemini təşkil edən göstəricilərin toplanınası, qeydə alınması, işlənməsi, saxlanması və verilməsi qiymətli kağızların sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyət hesab edilir. Qiymətli kağızların sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyətlə yalnız hüquqi şəxslər məşğul ola bilər. Reyestrin aparılması üzrə fəaliyyət emitent və ya onun tapşırığı ilə qiymətli kağızlar bazarının peşəkar iştirakçıları tərəfindən həyata keçirilə bilər. Qiymətli kağızların sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyəti həyata keçirən şəxslər reyestr saxlayıcıları və ya qeydiyyatçılar adlandırılır. Reyestrin aparılması üçün yalnız bir qeydiyyatçı ilə müqavilə bağlanılır. Qeydiyyatçı qeyri-məhdud saylı emitentlərin qiymətli kağızlarının sahiblərinin reyestrini apara bilər. Öz əsas funksiyalarından başqa qeydiyyatçılar reyestrlə bağlı bir sıra əlavə funksiyaları yerinə yetirirlər. Qeydiyyatçılar qiymətli kağızların sertifikatlarına da nəzarət edirlər. Sahibkarın dəyişdirilməsi zamanı qeydiyyatçı yeni sahibkarın adına sertifikat yazmalıdır və bu zaman o, ona qeydiyyatdan keçirmək üçün verilən sertifikatın doğrudan həmin şəxsə məxsus olduğunu, oğurluq olmadığını və ya axtarışda olub olmadığını yoxlamalıdır. Bir qayda olaraq, qeydiyyatçı emitentin agentidir. Qeydiyyatçı vasitəsilə emitent öz investorlarına məlumat verə bilər. Əgər qeydiyyatçı rolunu bank yerinə yetirirsə, o, həmçinin də emitenti ödəmə agenti kimi çıxış edə bilər. Bir qayda olaraq, qeydiyyatçılar qiymətli kağızların sahiblərinin şəxsi hesablarını aparır. Şəxsi hesabda sahibkara məxsus olan qiymətli kağızların sayı və sahibkar haqqında digər lazımi informasiyalar olur. Əgər alqı-satqı baş veribsə, sahibkarın dəyişdirilməsi reyestrdə qeyd olunmalıdır.

Qiymətli kağızların nominal saxlayıcı reyestrinin aparılması sistemində qeydə alınmış, o cümlədən hüquqi sahibinin tapşırığı ilə və onun xeyrinə depozitarinin deponenti olan və qiymətli kağızlar barəsində sahib olmayan şəxsdir. Nominal saxlayıcı bu o şəxsdir ki, onun adına reyestrdə bir

neçə qiymətli kağız yazılıb, amma həqiqətdə o, bu kağızların sahibi deyildir. Qiymətli kağızların nominal saxlayıcısı kimi qiymətli kağızlar bazarının peşəkar iştirakçıları ola bilərlər. Depozitari və brokerler müştərilərlə bağlanan müqavilə əsasında qiymətli kağızların nominal saxlayıcısı kimi qeydiyyatdan keçə bilərlər. Nominal saxlayıcılar özləri real sahiblərin uçotunu apara bilər. Əgər yeni və köhnə sahibkarlar öz hesabını nominal saxlayıcılarda açıblarsa, alqı-satqı zamanı nominal saxlayıcıda hesabın vəziyyəti dəyişir, amma sayı sabit olaraq qalır. Buna görə də uzağa gedib qeydiyyatçıdan qeydiyyatdan keçmək lazım deyil, sahibkarın dəyişdirilməsi nominal saxlayıcıda da rəsmiləşdirilə bilər. Əgər emitent qiymətli kağızların sahiblərinin reyestrini istəyirsə, bu zaman qeydiyyatçı nominal saxlayıcıya sorğu göndərir və o da hesablarını apardığı sahibkarların adlarını təqdim edir. Bir çox inkişaf etmiş ölkələrdə qeydiyyatçılar institutu yoxdur. Reyestrlərin toplanması və onların emitentə verilməsi vəzifəsini öz üzərinə depozitari sistemləri götürür. Belə ölkələrə Almaniya, İsveç, digər Skandinaviya ölkələrini və İsveçrəni misal göstərmək olar. Dünyanın bir çox ölkələrində qeydiyyatçılar hələ də vardır, amma getdikcə onlar sıxışdırılır.

Qiymətli kağızlar bazarının dövlət tənzimlənməsi. Hər bir qiymətli kağızlar bazarı birbaşa və ya dolayısı ilə dövlət orqanı tərəfindən tənzim edilir. Qiymətli kağızlar bazarının nizama salınması onun iştirakçıları olan emitentləri, investorları, professional fond vasitəçilərini əhatə edir. Bazar iştirakçılarının nizama salınması iki cür ola bilər: daxili və xarici.

Daxili tənzimolunına zamanı qiymətli kağızlar bazarının fəaliyyətini müəyyən edən nizamnamə, qaydalar və daxili normativ sənədlər tənzim edilir. Xarici tənzimedilmədə isə qiymətli kağızlar bazarı dövlətin beynəlxalq normalar razılığı əsasında qəbul etdiyi normativ aktlarla tənzim edilir.

Qiymətli kağızlar bazarının tənzim edilməsi bütün növ fəaliyyət və əməliyyatları əhatə edir. Qiymətli kağızlar bazarının tənzim edilməsi orqanlar və yaxud təşkilatlar tərəfinden həyata keçirilir və bu baxımdan bunlar bir-birlərindən fərqlənirlər: - qiymətli kağızlar bazarının dövlət tənzimlənməsi və qiymətli kağızlar bazarının onun professional iştirakçıları tərəfindən tənzim edilməsi. Bu proses halhazırda iki üsulla inkişaf edir. Bir tərəfdən dövlət, digər tərəfdən isə qiymətli kağızlar bazarının iştirakçıları olur.

İctimai tənzimlənmə - tənzimlənmə ictimai fikir əsasında həyata keçirilir.

Xarici ölkələrin təcrübəsi göstərir ki, dövlət aşağıdakı fünksiyaları yerinə yetirir:

1. qiymətli kağızlar bazarının inkişaf etdirilməsi konsepsiyasının işlənib hazırlanması və onun reallaşdınlması proqramı;

2. qiymətli kağızlar bazarının inkişaf etdirilməsi üçün qanunverici aksiyaların təkmilləşdirilməsi və işlənib hazırlanması;

3. bazarın fəaliyyət normalarının hazırlamnası və onların dövri dəyişdirilməsi;

4. bank institutlarının maliyyə vəziyyətinin nəzarətdə saxlanılması;

5. fond bazarının iştirakçılarını sığorta edən sistemin yaradılması.

Qiymətli kağızlar bazarının tənzim edilməsinin praktiki prosesi birinci və ikinci bazarda yerinə yetirilir. Birinci bazarda dövlət tənzim edilməsinin məqsədi qiymətli kağızların tədavülə buraxılması zamanı vahid tələblərin müdafiə edilməsi və qeydiyyatdan keçirilməsidir. İkinci bazarda isə dövlət tənzimlənмəsi orqanlarının vəzifələri nisbətən genişdir. Onlar bazarın professional iştirakçılanın attestasiya etmək, ixtisaslaşdırılma attestasiyalarını vermək və fond bazarında işləmək hüququ verən lisenziyaları vermək hüququna malikdirlər.

Qiymətli kağızlar bazarının tənzim edilməsi metodlarına aşağıdakıları aid etmək olar:

1. emissiya layihəsi ixracının qeydiyyatdan keçməsi;

2. subyektlərin lisenziyalaşdırılması;

3. investisiya institutu mütəxəssislərinin attestasiyası;

4. emitentlərin maliyyə vəziyyətinə auditor nəzarəti;

5. qiymətli kağızlar bazarı və onların emitentləri barədə informasiyanın yaradılması;

6. fond əməliyyatlarının düzgün olub-olmadığını yoxlamaq.

Qiymətli kağızlar bazarının tənzim edilməsi adətən aşağıdakı məqsədləri daşıyır:

1. bazarda nizam-intizam yaradılmasına kömək etmək, bazarın bütün iştirakçılarının işləməsi üçün normal şeraitin yaradılması;

2. bazar iştirakçılarının dələduzlardan və finldaqçılardan qorunması;

3. tələb və təklif əsasında qiymətli kağızın qiymət əmələ gəlməsinin azad və açıq prosesini təmin etmək;

4. effektli bazarın yaradılması, yəni bu bazarda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün həmişə stimul var və buradakı hər bir risk adekvat olaraq mükafatlandırılır;

5. bəzi hallarda yeni bazarları yaratmaq, cəmiyyətə lazım olan bazar və bazar strukturlarına kömək etmək;

6. müəyyən ictimai nailiyyətlərin əldə edilməsi üçün bazara təsir etmək. Qiymətli kağızlar bazarının tənzim edilməsi prosesi özündə aşağıdakıları birləşdirir:

7. bazarın normativ fəaliyyətinin əsasını təşkil edən və ümumi yolla qəbul edilən qanunların, qətnamələrin, təlimatların, metodik nizamnamələrin və digər normativ aktların işlənib hazırlanması.

8. qiymətli kağızlr bazarının peşəkar iştirakçılarının seçilməsi. Müasir qiymətli kağızlar bazarını və eləcə də digər bazarları peşəkar vasitəçilərsiz fikirləşmək olmaz;

9. bazar iştirakçılarının bazarın fəaliyyətinin əsasını təşkil edən normativ qayda-qanunlara əməl etməsinə nəzarət;

10. hansısa bir normativ qayda-qanunlardan kənara çıxılarsa sanksiya sisteminin yaradılması. Belə sanksiyalar şifahi və ya yazılı xəbərdarlıq şəklində, cinayət məsuliyyətinə cəlb olunmaqla və yaxud bazar iştirakçıları sıralarından çıxarılmaqla cəzalandırıla bilər.

Dövlətin qiymətli kağızlar bazarının fəaliyyətinə qarışmasında əsas məqsədlərdən biri də onun inkişaf etdirilməsidir. Dövlət müxtəlif vasitələri istifadə edərək onu fond bazarının inkişafına yönəldir. Dövlətin qiymətli kağızlar bazarını inkişaf etdirmək üçün təsiri 3 variantda olur:

1. Qiymətli kağızlar bazarına bilavasitə təsir etmə;

1.1. kapitalın artma qiymətini azaltmaq; öz qiymətli kağızlarını ictimai şəkildə təqdim edən şirkətlərə vergi üstünlüklərinin verilməsi;

1.2. sazişlərin qiymətlərini aşağı salmaq broker mükafatlarını ən aşağı səviyyədə müəyyən etmək.

1.3. bir sıra fond birjalarını maliyyələşdirmək və işlə təmin etmək yolu ilə bazar vasitəsiz qiymətlərini aşağı salmaq.

2. Qiymətli kağızlar bazarının fəaliyyətinə təsir edən sahələrdə siyasəti dəyişdirmək;

2.1. kommersiya banklarının şirkətlərə verdikləri kreditləri ən yüksək ölçüyə qaldırmaq, hərəkətdə olan bank depozitlərinin faiz dərəcələrini aşağı salmaq və beləliklə də investorların kapitalını qiymətli kağızlar bazarına yönəltmək;

2.2. qiymətli kağızlar bazarının likvidliyini artırmaq məqsədilə qiymətli kağızlarla sazişlərdən əldə olunan gəlirlərə aşağı və ya "o" dərəcəli vergilərin tətbiq edilməsi və digər qeyri-istehsal sahələrinə yüksək vergilərin tətbiq edilməsi.

3. Qiymətli kağızlar bazarını inkişaf etdirmək məqsədilə ümumi siyasətin dəyişdirilməsi;

3.1. möhkəm və stabil makro iqtisadiyyatın müdafiə edilməsi, hesablaşma dərəcələrinin müsbət yönümdə aşağı səviyyədə saxlanılması və investisiya alternativlərindən differensial vergilərin ləğv edilməsi;

3.2. beynəlxalq portfel investiyasını inkişaf etdirmək məqsədilə xarici investisiya ilə bağlı qayda-qanunların "yumşaldılması".

1.8. FOND BİRJASI

Qiymətli kağızlar birjası (stock exchange, securities bourse) gerçəkdə sərmayə bazarının deyil, qiymətli kağızlar bazarının qurumudur. Ancaq bu bazarlarda alqı-satqı mövzusu olan "Qiymətli kağızlar" deyilən aksiya və istiqraz kimi dəyərli kağızlar bilavasitə iqtisadi dəyər olmayıb, iqtisadi dəyərləri təmsil edən sənədlərdir. Qiymətli kağız bazarlarında alqı-satqı edənlərin məqsədi mənfəət əldə etməkdir. Aksiyanı satın alan şəxsin məqsədi divident və ya aksiyanı daha yüksək qiymətə sataraq qazanc əldə etməkdir.

Qiymətli kağızların ikinci bazarında əsas yerlərdən birini fond birjası tutur. Birjanın meydana gəlməsinin əsas səbəblərindən biri bazar münasibətlərinin inkişaf etməsi olmuşdur. İlk dəfə birja anqlosakson dövlətlərində meydana gəlmişdir.

Fond birjası, müstəqil olaraq, fəaliyyət predmeti qiymətli kağızlar üçün zəruri şəraitin yaradılması, onların bazar qiymətlərinin müəyyən edilməsi, kağızlara olan tələb və təklif arasında tarazlığı əks etdirən, həmçinin onlar haqqında lazımi informasiyanın yayılması, qiymətli kağızlar bazarı iştirakçılarının yüksək peşəkarlıq səviyyəsini nümayiş etdirmək üçün şərait yaradılması olan təşkilatdır. Fond birjası qapalı səhmdar cəmiyyət formasında olur. Fond birjası yalnız birja üzvləri arasında ticarəti təşkil edir.

Fond birjası fəaliyyətini müvafiq icra hakimiyyəti orqanının verdiyi xüsusi razılıq əsasında həyata keçirir. Fond birjası depozitari və klirinq fəaliyyəti istisna olmaqla, digər fəaliyyət növləri ilə məşğul ola bilməz. Fond birjasının nizamnaməsinin, onun ticarət qaydalarının pozulması və fond birjasının digər daxili sənədlərinin pozulması zamanı cərimələr müəyyən edilir. Fond birjasının üzvlərinə aid olan daxili normativ aktlar fond birjası tərəfindən onun üzvlərinin təklifləri nəzərə alınmaqla müstəqil müəyyənləşdirilir.

Fond birjasının beş əsas funksiyası vardır:

1) likvidlik ehtiyaclarını qarşılamaq;

2) alıcıları-satıcıları qiymətli kağızların alqı-satqısını etmək üçün bir məkanda qarşılaşdırmaq;

3) qiymətli kağızların real kursunu müəyyən etmək;

4) kapitalın bir sahədən digər sahəyə axmasını təmin etmək;

5) real bazarın yaradılmasına xidmət etmək.

Dünya praktikasında fond birjalarının 3 tipi mövcuddur: ictimai hüquqi; xüsusi birjalar; və qarışıq birjalar.

İctimai-hüquqi birjalar hər zaman dövlətin nəzarəti altında saxlanılır. Dövlət birja ticarət qanunlarının tərtib edilməsində iştirak edir və onların həyata keçirilməsinə nəzarət edir, ticarət zamanı birjada qayda-qanunların olmasını təmin edir. Bu cür tip birjalara Almaniyada, Fransada rast gəlmək olar.

Xüsusi birjalar səhmdar cəmiyyət formasında yaradılır. Tam sərbəst birja ticarətini təşkil edirlər. Bu, o demək deyil ki, dövlət bir kənarda qalır. Dövlət birja ticarətinin tənzim edilməsində öz üzərinə heç bir təminat götürmür. Buradakı bütün sazişlər qanun çərçivəsində olur, heç bir qanun pozuntusuna yol verilmir, əgər qanun pozuntusuna yol verilərsə, onu pozanlar cinayət məsuliyyətinə cəlb edilir. Bu tip birjalar Böyük Britaniya və ABŞ dövlətləri üçün xarakterikdir.

Əgər fond birjası səhmdar cəmiyyət formasında yaradılırsa və onun kapitalının 50 %-indən az olmayaraq dövlətə məxsusdursa, onda bu cür birjaları qarışıq birjalar adlandırırlar. Bu cür birjaların başında seçilmiş birja orqanı durur. Birjanın fəaliyyətinə birja komissar nəzarət edir və rəsmi şəkildə birja kurslarını qeydiyyatdan keçirir. Bu cür birjalar Avstriya, İsveç və İsveçrə dövlətləri üçün xarakterikdir.

Fond birjası, həmçinin, birja sazişlərində iştirak edəcək iştirakçıların hamısına eyni səviyyədə məlumat verməlidir. Fond birjasının bir vasitəçi kim iştirak etməsinə baxmayaraq, o müştəriyə alacağı qiymətli kağızın gəlir verib-verməyəcəyi barədə təminat verə bilməz. Birja müştəriyə yalnız alacağı qiymətli kağız haqqında dolğun məlumat verə bilər. Beləliklə, qeyd etmək lazımdır ki, birjada yalnız o şirkətlərin aksiyaları kotirovka edilir ki, onlar listinqdən keçmiş olurlar. Birja ekspertiza qiymətini müəyyən etmək və qiymətli kağızı qiymətləndirmək üçün qiymətli kağızı ixrac edən şirkətdən auditor tərəfindən yoxlanılmış mühasibat balansını, mənfəət və zərər hesabat sənədlərini tələb edə bilər. Birja bu sənədləri aldıqdan sonra bir ay müddətində bu sənədlərlə tanış olur və öz rəyini bildirir. Listinqin bir üstünlüyü də ondan ibarətdir ki, listinqdən keçmiş şirkətlər kredit idarələrinin etibarına sahib olurlar. Listinqdən keçmiş şirkətlər müəyyən şöhrətə sahib olurlar. Buna misal olaraq Nyu-York fond birjasında listinqdən keçmək üçün aşağıdakı tələblərə cavab vermək lazımdır:

1. aksiyaların bazar qiyməti 18 mln. dollar olmalıdır;

2. tədavüldə olan aksiyaların ümumi sayı 1100 ədəddən az olmayaraq, onların bazar dəyəri 18 mln. dollar olmalıdır;

3. şirkətin 100 və daha artıq aksiyasını əlində tutan 2000 səhmdar olmalıdır;

4. son maliyyə ili üçün vergini ödədikdən sonra gəliri 2,5 mln. dollar olmalı və son iki il üçün isə 2.0 mln. dollar olmalıdır;

5. şirkətin əmlakı 18 mln. dollardan aşağı olmamalıdır.

Bir şeyi də qeyd etmək lazımdır ki, hər bir birjanın özünəməxsus müxtəlif şərtləri vardır. Bir birjadan listinqdən keçməyən şirkət digər bir birjadaı listinqdən keçə bilər. Birjada listinqdən keçmiş qiymətli kağızların investorlar üçün faydaları aşağıdakılardır: birjada listinqdən keçmiş şirkət qanun çərçivəsində aksiya və istiqraz ixrac edir. Bu səbəbdən də investorların bu mövzuda aldanılması imkansızdır.

Qiymətli kağızlan listinqdən keçmiş şirkətlər birjaya fəaliyyətləri ilə əlaqədar, o cümlədən maliyyə durumlarına yönəlik ən son məlumatları birjaya vermə məcburiyyətindədirlər. Buna görə də investor qiymətli kağız alarkən və ya satarkən əlaqəli şirkət haqqında doğru, yetərli və yeni məlumatları birjadan hər an saxlaya bilir.

Birjada listinqdən keçmiş qiymətli kağızlar üçün sabit bazar vardır. İnvestorlar portfellərindəki bu cür aksiyaları və ya istiqrazları çox qısa vaxtda nağda çevirə bilərlər. Birjada qiymətlər günlük yayımlandığına görə, investorlar qiymət indeksini izləyə və özlərini riskə qarşı qoruma imkanı əldə edə bilərlər.

Birjada qiymətli kağızlar alınıb və ya satılarkən investor çox az bir komisyon haqqı ödəyir. Bu səbəbdən də onun qiymət mövzusunda aldanılması imkansızdır, çünki alış və ya satış qiyməti rəsmən bəllidir.

Listinqdən keçmiş finans səhmləri investorlar üçün əmanətli investisiya alətləridir.

Birja iqtisadi barometr kimi. Yeni qurulan hər hansı bir birja həmən bir çalışma tempi göstərməz, bir müddət özlərini və təmsil etdiyi investisiya sahələrini xalqa tanıtmaq məcburiyyətindədir. Bu tanıtma yavaş-yavaş gerçəkləşdikcə birjaya qarşı xalqda bir güvən yaranmağa başlayır.

Fəaliyyətə keçmə (manipulation) artan bağlılığın yetərli bir səviyyəyə çıxması ilə birjada ilk əməliyyatlar görülür. Lakin bunların miqdarı azdır, birjada investisiya qoyanlar zamanla qazanclı çıxdıqlarını və investisiyaların uzun müddətdə digər alətlərdən daha verimli olduğunu gördükcə yatırımlarını artırırlar. Buna paralel olaraq qiymətlər yüksəlməyə başlayır. Qiymətlərin yüksəlməsilə isə hər kəs qazanır. Tələb bir az daha artır. Birjada mənfəət əldə edildiyini görən və duyan hər kəs birjaya qaçmağa başlayır.

Panikanın başlaması ilə öncə qiymətlər sürətlə aşağı düşür. Daha sonra, alıcı olmadığı üçün iş həcmi də azalır. Azalma nə qədər davam edir?

Qiymət və iş həcmindəki azalma başlanğıc nöqtəyə qədər azalmaz və bu nöqtədən az və ya çox ola bilər. Həmin nöqtədə bazarda qiymətlər sabitləşirmi? Təbiidir ki, yox. Xatırladılan on kritik nöqtədə dartışma başlayır və satıcılar artıq satmaqdan əl çəkirlər. Beləliklə, yeni bir təklif-tələb tarazlığı meydana çıxır və qiymətlər sabitləşir. Bazar bu təcrübədən zərər görür. Artıq səhmlərin sonsuzadək yüksəlməyəcəyi və düşərkən də sıfıra qədər enməyəcəyi öyrənilmişdir.

Birjalar yalnız iqtisadi həyatı deyil, bütün sosial siyasətin barometridir. İqtisadi olaylar, faktorlar və göstəricilər qədər, hətta onlardan daha çox sosial-siyasət və sosial-psixoloji dəyişmələr birjaya təsir edir.

Kotirovka. Fond birjalarının əsas funksiyalarından biri onun üzvləri olan hüquqi və fiziki şəxslərin kotirovkaya qəbul edilmiş qiymətli kağızların kursu haqqında informasiyanın verilməsidir. Kotirovka sözü fransız sözü olub вя mənası nömrələmək, irəli sürmək deməkdir.

Hər bir fond birjası öz nizamnaməsinə uyğun olaraq kotirovka komissiyasını yaradır və onun əsas funksiyaları aşağıdakılardır.

1. qiymətli kağızların kursunu müəyyən etmək;
2. kotirovka ediləcək qiymətli kağız üçün birja qiymət bülletenlərinin çap edilməsi;
3. keçən birja ticarət gününün nəticəsi barədə informasiyanın təqdim edilməsi;
4. birja şurası və rəhbərliyinə qiymətli kağızın kotirovkä vərəqəsindən kənarlaşdırılması təklifinin təqdim edilməsi;
5. qiymətli kağızların və onların emitentlərinin reytinqinin həyata keçirilməsi.

Kotirovka komissiyasının tərkibi hissəsi aşağıdakı kimidir:

1. komissiyanın sədri bir il müddətinə seçilir;
2. komissiya sədrinin müavini;
3. birja üzvlərinin nümayəndələri;
4. birja aparatının işçiləri.

Kotirovka komissiyasının iclasında komissiyanın sədrinin və yaxud da onun müavininin iştirak etməsi vacibdir. Onların kotirovka vərəqəsində imza etmə hüququ vardır.

Kotirovka komissiyasının keçirilən iclasları qeyd edilir və bu iclasda aşağıdakı məsələlərə baxılır:

1. kotirovka əsasında salınmış sazişlər sadalanır;

2. kotirovka əsasında kotirovka komissiyanın qərarları qeyd edilir. Jurnala komissiyanın sədri və yaxud da onun müavini qol çəkir. Jurnal elektron şəklində də mövcud ola bilər.

Kotirovkanın nəticələri kotirovka vərəqəsində qeyd edilir. Kotirovka vərəqəsi aşağıdakıları özündə cəmləşdirir:

1. kotirovkanın tarixi;
2. qiymətli kağızın emitentinin adı;
3. qiymətli kağızın növü;
4. qiymətli kağızın nominal qiyməti;
5. aksiya başına divident;
6. birja açılarkən qiymətli kağızın kursu;
7. birja bağlanarkən qiymətli kağızın kursu;
8. birja günü ərzində ən maksimal qiymət;
9. birja günü ərzində ən minimal qiymət;
10. keçən və bugünkü, birja günü bağlanarkən qiymət fərqi. Kotirovka vərəqəsi komissiyasının sədri və yaxud da onun müavini tərəfindən imzalana bilər. Kotirovka vərəqəsinə daxil edilmiş informasiya birja bülletenlərində nəşr edilməli və tabloda nümayiş etdirilməlidir.

Birja qanunlarına uyğun olaraq kotirovkaya qəbul edilirlər:

1. ikinci bazarda tədavüldə olan ilkin şəkildə hüquqi-təşkilati formada yaradılan səhmdar cəmiyyətlərin aksiyaları;

2. yerli və daxili idarəetmə orqanlarının özəlləşdirilməsi nəticəsində yaradılmış səhmdar cəmiyyətlərin aksiyaları;

3. səhmdarların çoxunun razılığı ilə ikinci bazara çıxarılan qapalı səhmdar cəmiyyətlərin aksiyaları;

4. səhmdar cəmiyyətin və ya digər hüquqi şəxsin iqtiqrazları;

5. opsiyon sertifikatları və ya digər istehsal qiymətli kağızlar.

Sazişlərin həyata keçirildiyi qiymət kurs adlanır. Birjada hər bir kotirovka ediləcək qiymətli kağız üçün hər gün vahid kurs müəyyən edilir. Kotirovka komissiyası tələb və təklifi nəzərə alaraq vahid kurs müəyyənləşdirir ki, bu kurs da hər iki tərəfl razı salır.

Baki Fond Birjasında Qiymətli Kağızların Listinqi, Delistinqi və Ticarətə Buraxılmasi Qaydaları. Birja aşağıdakı öhdəliklərə malikdir:

1. Listinqdən keçmiş qiymətli kağızların müntəzəm və şəffaf ticarəti üçün lazımi şərait yaratmaq;

2. Listinqdən keçmiş qiymətli kağızların ticarəti haqqında məlumatları mütəmadi olaraq dərc etmək;

3. Qiymətli kağızların ticarəti üzrə birja tərəfindən açıqlanmalı olan məlumatlar istisna olmaqla, qiymətli kağızların Emitentinin birjaya təqdim etdiyi, lakin onun özü tərəfindən ictimaiyyətə açıqlanmamış məlumatı Emitentin razılığı olmadan açıqlamamaq;

4. Qəbul edilmiş hər-hansı birja qaydaları, onlara əlavə və dəyişikliklərlə bağlı qiymətli kağızlar bazarının iştirakçılarını dərhal məlumatlandırmaq.

Birjada birinci və ikinci səviyyəli kotirovka vərəqələri mövcuddur. Qiymətli kağızların birinci səviyyəli kotirovka vərəqəsinə daxil edilməsi üçün tələblər aşağıdakılardır:

1. Emitent qeydiyyatda olduğu ölkənin qanunvericiliyinə uyğun olaraq qeydiyyatdan keçməli və listinqlə bağlı birjaya müraciətindən əvvəlki 3 (üç) il ərzində fəaliyyət göstərməlidir;

2. Emitent açıq səhmdar cəmiyyəti formasında (adlı səhmlər və adlı istiqrazlar üçün) və ya qapalı səhmdar cəmiyyət formasında (adlı istiqrazlar üçün) təşkil olunmalıdır.

3. Barəsində listinq ərizəsi təqdim edilmiş Emitentlə bağlı bu ərizənin təqdim edildiyi vaxtdan əvvəlki 3 il ərzində iflas proseduru başlanmamalı və ya o, qeyd olunan dövr ərzində vaxtaşırı müflisləşmə problemləri ilə qarşılaşmamalıdır.

4. Emitentin idarəetmə orqanlarında listinq üçün ərizəni təqdim etdiyi tarixdən əvvəlki 6 (altı) ay ərzində mühüm dəyişikliklər olmamalıdır. Emitentin idarəetmə orqanlarında dəyişikliklər o zaman mühüm sayılır ki, onun müşahidə şurasının və ya idarə heyətinin üzvlərindən ən azı yarısı dəyişdirilmişdir;

5. Səhmlərin və istiqrazların sahiblərinin reyestri qiymətli kağızlar bazarının peşəkar iştirakçısı olan reyestrsaxlayıcısı tərəfindən aparılmalıdır;

6. Emitentin ümumi Kapitalı 5.000.000 manatdan az olmamalıdır;

7. Emitent son 3 (üç) maliyyə ilinin hər birinin nəticələri üzrə illik xalis mənfəətə malik olmalıdır;

8. Emitent maliyyə hesabatlarını MHBS-a uyğun hazırlamalıdır;

9. Listinqdən keçmək üçün müraciət etmiş Emitent ana şirkətdirsə, Emitent MHBS-a uyğun hazırlanmış konsolidə olunmuş illik hesabat hazırlamalıdır;

10. Emitent Müstəqil Auditor tərəfindən ABS-ın tələblərinə uyğun auditdən keçməlidir (audit rəyləri şərtsiz müsbət olmalıdır; yalnız bir il üzrə audit rəyinin şərti-müsbət olmasına yol verilə bilər);

11. Emitent nizamnaməsini özünün baş ofisində və/və ya internet saytında açıqlamalıdır;

12. Emitentin müşahidə şurasında ən azı 3 (üç) üzv olmalı və onlardan ən azı üçdə biri Müstəqil Direktor olmalıdır;

13. Emitent daxili audit komitəsinə malik olmalıdır;

14. Aidiyyatı Şəxslə əqdlər mövcud qanunvericiliyə uyğun olaraq həyata keçirilməlidir.

15. Emitent səhmdarların sahib olduqları səhmlərin sayına mütənasib olaraq əlavə emissiya olunmuş səhmləri əldə etmək üzrə üstünlük hüquqları nəzərdə tutmalıdır;

16. Emitent üzərində nəzarətin ötürülməsi ilə bağlı aşağıdakı tələblərə riayət edilməlidir:

- Emitent üzərində nəzarətin bir və ya bir neçə ardıcıl əməliyyatın keçirilməsi yolu ilə otürülməsi halında, səhmlərin özgəninkiləşdirilməsi zamanı yeni səhmlərə sahib olan şəxs müvafiq əməliyyatın keçirilməsi tarixindən etibarən 30 (otuz) iş günü ərzində digər səhmdarlara müqavilədə göstərilən qiymətdən az olmamaq şərtilə açıq təklif irəli sürməlidir.
- Müqavilədə göstərilən qiymət nəzarətin ötürülməsindən əvvəlki 1 (bir) il ərzində Emitentin səhmlərinə görə birjada ödənilən qiymətdən az olarsa, açıq təklif Ədalətli Qiymət üzrə keçirilməlidir.
- Emitent üzərində nəzarətin ötürülməsi, qiymətli kağızların özgəninkiləşdirilməsinə dair açıq təklif və ya bununla bağlı hər hansı digər mübahisələrə birjanın Mübahisələrin həll edilməsi üzrə Komissiyası (yaradılana qədər birjanın idarə heyəti) tərəfindən baxılmalıdır;
- Bu bəndin tələblərinin yerinə yetirilməsinin təmin edilməsi barədə Birja ilə nəzarət edən səhmdar arasında müvafiq razılaşma imzalanır. Bu razılaşmaya uyğun olaraq, alıcı bu maddənin tələblərinin yerinə yetirilmədiyi təqdirdə, satıcı (Emitentin Nəzarət Edən Səhmdarı) alıcı ilə əqdi bağlamamalıdır.

17. Emitent üzərində nəzarət ötürüldükdə yeni səhmlərin sahibi olan şəxs tərəfindən yuxarıda göstərilən əqdin baş tutduğu tarixdən növbəti 3 (üç) iş günü ərzində əqd barədə birjaya yazılı surətdə məlumat verilməlidir.

18. Emitent mütəmadi olaraq yenilənən və onun fəaliyyətinin mühüm istiqamətlərini işıqlandıran veb səhifəyə malik olmalıdır.

Qiymətli kağızların ikinci səviyyəli kotirovka vərəqəsinə daxil edilməsi üçün tələblər aşağıdakılardır:

1. Emitent Azərbaycan Respublikasının ərazisində qeydiyyatdan keçməli və fəaliyyət göstərməlidir;

2. Emitent ən azı listinqlə bağlı birjaya müraciətindən əvvəlki 1 (bir) il ərzində fəaliyyət göstərməlidir;

3. Emitent maliyyə hesabatlarını qanunvericiliyin tələblərinə uyğun hazırlamalıdır;

4. Emitent Müstəqil Auditor tərəfindən aparılan auditdən keçməlidir.

4. Emitent qiymətli kağızlarının listinqə daxil edilməsinə görə Birjanın İdarə Heyəti tərəfindən müəyyən edilən müvafiq haqq ödəyir.

Listinqdən keçmiş qiymətli kağızların Emitenti digər qiymətli kağızların kotirovka vərəqəsinə daxil edilməyi üçün birjaya aşağıdakı sənədləri təqdim etməlidir:

- listinq üçün ərizə;
- qiymətli kağızların dövlət qeydiyyatı haqqında şəhadətnamə;
- emissiya prospekti.

Qiymətli kağızların delistinqi. Listinq Komissiyası aşağıdakı hallarda qiymətli kağızları delistinq edə bilər:

1. Emitent və onun qiymətli kağızları bu Qaydaların tələblərinə uyğun olmadıqda;

2. Emitentin müflisləşməsi, iflası və ya ləğv edilməsi haqqında qərar qəbul edildikdə;

3. Birinci səviyyəli kotirovka vərəqəsinə daxil edilmiş qiymətli kağızlarla ticarət 20 (iyirmi) iş günündən və ikinci səviyyəli kotirovka vərəqəsinə daxil edilmiş qiymətli kağızlarla ticarət 40 (qırx) iş günündən artıq müddətə dayandırıldıqda.

Listinq Komissiyası tərəfindən qiymətli kağızların delistinqi barədə qərar qəbul edildikdə, bu barədə Emitentə yazılı məlumat verilməlidir.

QANUNLAR, NORMATİV SƏNƏDLƏR VƏ TƏLİMATLAR

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi
2. Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Azərbaycan Respublikasının Qanunu
3. Banklar haqqında Azərbaycan Respublikasının Qanunu
4. Əmanətlərin sığortalanması haqqında Azərbaycan Respublikasının qanunu
5. Valyuta Tənzimi haqqında Azərbaycan Respublikasının qanunu
6. Kredit ittifaqları haqqında Azərbaycan Respublikasının qanunu
7. Poçt haqqında Azərbaycan Respublikasının qanunu
8. Bank olmayan kredit təşkilatları haqqında Azərbaycan Respublikasının Qanunu

ƏDƏBİYYAT

1. Banklar haqqında normativ- hüquqi aktlar toplusu// Elmi redaktor: Z.F. Məmmədov. Bakı, Qanun, 2009. 1092 s.

2. Dövlət maliyyəsi normativ- hüquqi aktlar toplusu// Elmi rəhbər: V.Z.Zeynalov. Bakı, Qanun, 2010. 1180 s.

3. Abbasov Ə.M., Z.F. Məmmədov. Bank işi və e-bankçılıq. Bakı, 2003.

4. Zeynalov V. Z. Maliyyə. Azərnəşr. Bakı, 2009.

5. Ibrahimov Z. Pul, kredit və banklar (suallara cavab). Bakı, 2009.

6. Məmmədov Z.F. Yigim ve investisiya munasibətləri //Iqtisad elmleri: nezeriyye ve praktika. - 2000. - № 3-4.

7. Məmmədov Z.F. Azerbaycan Respublikasinda finans iqtisadiyyatinin huquqi cercivesi //Qanun. - 2002. - № 12. – S. 36 - 39.

8. Məmmədov Z.F. Faiz ve inflyasiya hedleri arasindaki munasibetlerin nəzəri yonlərinin təhlili //Iqtisad elmləri: nezeriyye ve praktika. - 2002. - №1.

9. Мамедов З. Ф. Деньги, кредит, Банки. Учебник. Бакı, 2008. 400 с.
10. Z.F. Mamedov., Ahmet Yeman. Azerbaycanın kredi ve para sistemi**:** günümüzdeki özellikleri ve gelişme yönü // Maliyyə ve finans yazıları. Sayı 87. Nisan 2010. // Turkiye.
11. Zeynalov V. Z. Küresel mali krizin Azerbaycan ekonomisine etkileri ve Azerbaycan Merkez Bankasinin monetar politikasinin analizi// T.C. Marmara Üniversitesi. Financial arasdirmalar ve calismalar dergisi. Uluslararası hakemli dergi.Yayın № 773. -2010
12. Банковское дело. Учебник. М.: Проспект, 2008.
13. Банковское дело Управление и технологии под ред. Тавасиева Учебник 2005. 671с.
14. Банковское дело. под ред. Коробовой Г.Г. - Учебник 2006.
15. Банковское дело: современная сист. кредитования. под ред. Лаврушина М.- 2007.
16. Рустамов. Э. С. Проблемы реформирования макроэкономических институтов в послекризисный период// Деньги и кредит.- 9/2010.

II FƏSİL. BANK SİSTEMİ

ƏSAS ANLAYIŞLAR

Bank - fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir.

Bank holdinq şirkəti - bank lisenziyasına malik bir və ya bir neçə törəmə bankı olan, fəaliyyəti baş ofisinin yerləşdiyi ölkənin bank tənzimləməsi orqanları tərəfindən tənzimlənən və nəzarət olunan şirkətdir.

Törəmə bank - nizamnamə kapitalında səsvermə hüququ verən səhmlərin əllidən çox faizi təsisçi banka və ya bank holdinq şirkətinə məxsus olan bankdır, yaxud elə bankdır ki, onunla təsisçi bank və ya bank holdinq şirkəti arasında bağlanmış müqaviləyə əsasən təsisçi banka və ya bank holdinq şirkətinə onun qərarlarının qəbul edilməsinə mühüm təsir göstərmək imkanı verilir.

Stress test – gözlənilməz, müstəsna, lakin mümkün şoklara bankın həssaslığının qiymətləndirilməsi alətidir.

Risk faktoru – bank daxili və bankdankənar, əvvəllər müşahidə olunmuş və ya bankın fəaliyyətinə potensial təsir edə biləcək, ölçülə bilən risklər üzrə faktorlardır.

Bankın filialı - hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, öhdəlikləri üçün bankın özünün məsuliyyət daşıdığı, banka icazə verilmiş bank fəaliyyətinin hamısını və ya bir hissəsini həyata keçirə bilən bankın ayrıca bölməsidir.

Bankın şöbəsi - hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, öhdəlikləri üçün bankın özünün məsuliyyət daşıdığı, onun respublika ərazisində depozitlər cəlb edən və/və ya köçürmə, hesablaşma-kassa əməliyyatları aparan ayrıca bölməsidir.

Bankın nümayəndəliyi - hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, bank fəaliyyəti ilə məşğul olmağa hüququ olmayan, yalnız onun mənafelərini təmsil və müdafiə edən bankın ayrıca bölməsidir.

Bank olmayan kredit təşkilatı -öz vəsaiti və/və ya cəlb edilmiş vəsait hesabına (depozitlər istisna olmaqla) yalnız pul formasında kreditlər verməklə məşğul olan hüquqi şəxsdir.

Bank lisenziyası - Qanunla müəyyən edilmiş qaydada verilən, fiziki və hüquqi şəxslərdən depozitlər və ya digər qaytarılan vəsaitlər cəlb etmək, öz adından və öz hesabına kreditlər vermək ilə bağlı fəaliyyəti, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirməyə müstəsna hüquq verən xüsusi razılıqdır.

Bank krediti - bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (komisyon haqqlar) ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir. Həmin şərtlərlə pul vəsaitinin verilməsi haqqında götürülmüş hər hansı öhdəlik, qarantiya, zəmanət, borc qiymətli kağızlarının diskontla və ya faizlər alınmaqla satın alınması və müqaviləyə əsasən hər hansı formada verilmiş vəsaitin qaytarılmasını tələb etməklə bağlı digər hüquq da kredit anlayışına aiddir.

Depozit - müvafiq müqavilə şərtləri ilə faizlər və ya komisyon haqqlar ödənilməklə və ya ödənilmədən müştərilərin (əmanətçilərin) tələbi ilə qaytarılmasını və ya başqa hesaba köçürülməsini nəzərdə tutan bankın balansında aparılan cari, əmanət (depozit) və ya digər hesaba qoyulmuş və ya köçürülmüş pul vəsaitidir.

Mühüm iştirak payı - səhmdar kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahiblikdir.

İnzibatçı - bankın Müşahidə Şurasının, Audit Komitəsinin və Idarə Heyətinin üzvləri, habelə bankın baş mühasibi (mühasibat xidmətinin rəhbəri), daxili audit bölməsinin əməkdaşları, bank filialının, şöbəsinin və nümayəndəliyinin rəhbərləri və baş mühasibləri.

Banka aidiyyatı olan şəxslər - bankın inzibatçıları, struktur bölmələrinin rəhbərləri, qərarların qəbul edilməsində iştirak edən digər əməkdaşları və onlarla yaxın qohumluq münasibətlərində olan şəxslər (əri/arvadı, valideyni, o cümlədən ərinin/ arvadının valideyni,

babası, nənəsi, övladı, o cümlədən övladlığa götürülən, qardaşı və bacısı); bankda mühüm iştirak payı olan hər hansı şəxs və ya bankın mühüm iştirak payı olan hüquqi şəxs və həmin hüquqi şəxsdə mühüm iştirak payı olan hər hansı şəxs, habelə bu cür mühüm iştirak payına malik olan hüquqi şəxslərin icra orqanlarının rəhbərləri.

Banka aidiyyatı olan şəxs adından hərəkət edən şəxslər - aralarında bağladıqları müqavilə əsasında banka aidiyyatı olan şəxs adından hərəkət etməyə hüququ olan şəxs; banka aidiyyatı olan şəxsin mühüm təsir göstərə bildiyi hüquqi şəxs; banka aidiyyatı olan şəxsin nümayəndəsi.

Prudensial- bankın təhlükəsiz fəaliyyətinin təmin edilməsinə istiqamətlənmiş normativlərə, qaydalara, tələblərə və göstərişlərə əsaslanmış düşünülmüş davranış, idarəetmə və nəzarət üsuludur.

Fidusiar vəzifələr – bankın maliyyə göstərijilərinə nəzarət və onların qiymətləndirilməsi, qanunlara, digər normativ hüquqi aktlara riayət etməsinin təmin edilməsi, habelə Müşahidə Şurası və İdarə Heyəti tərəfindən bankın cari və gələcək maraqlarının toqquşması hallarının qarşısını ala bilən vəzifələrdir.

Qorunan əmanət—sığorta hadisəsi baş verdikdə Əmanətlərin Sığortalanması Fondu tərəfindən qorunan əmanətçiyə kompensasiya olunan əmanətidir.

Sığortalanmış əmanət—qorunan əmanətçinin qorunan əmanətinin Fond tərəfindən kompensasiya ödənilən hissəsidir.

Əmanətçi—bankda əmanəti olan, habelə qanunvericiliyə və/və ya müqaviləyə əsasən əmanətə sərəncam vermək hüququ olan şəxsdir.

Qorunan əmanətçi—aşağıdakılar istisna olunmaqla, bankda əmanəti olan fiziki şəxsdir: bankın Müşahidə Şurasının, Audit Komitəsinin, idarə heyətinin üzvləri və onların yaxın qohumları (ər/arvad, onların valideynləri və övladları, o cümlədən övladlığa götürülənlər, bacı və qardaşları); bankın 10 faiz və daha çox səsvermə hüququ verən səhmlərinə malik olan şəxslər və onların yaxın qohumları (ər/arvad, onların valideynləri və övladları, o cümlədən övladlığa götürülənlər, bacı və qardaşları); kompensasiyaların ödənilməsi barədə elanın ilk dəfə dərc edildiyi tarixdən əvvəlki təqvim ili ərzində bankın auditini keçirmiş kənar auditorlar.

Birgə əmanət hesabı—iki və ya daha çox fiziki şəxsin sahibliyində olan və onlardan birinin və ya bir neçəsinin imzası ilə sərəncam verilə bilən bank hesabıdır.

Sığorta haqları—bu qanunla müəyyən edilmiş qaydada iştirakçı bankın Fonda ödədiyi üzvlük, təqvim və əlavə haqlardır.

Sığorta hadisəsi—iştirakçı bankın məcburi ləğv edilməsi və ya müflis elan olunması, yaxud qanunvericiliyə müvafiq olaraq əmanətlər üzrə öhdəliklərin yerinə yetirilməsinə moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və bankın əmanətçilər qarşısında öz öhdəliklərini qanun və ya müqavilə şərtlərinə uyğun yerinə yetirə bilməməsi faktının Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edilməsidir.

Sığorta hadisəsinin baş verdiyi gün—bu qanuna müvafiq olaraq Mərkəzi Bank tərəfindən Fonda göndərilən bildirişdə sığorta hadisəsinin baş verməsi günü kimi qeyd olunan tarixdir.

Kompensasiya—sığorta hadisəsi baş verdikdə, qorunan əmanətçilərə ödənilən pul vəsaitidir.

Bazar riski – bazarda baş verən dəyişikliklərin nəticəsində bankın məruz qala biləcəyi riskdir. Bu dəyişikliklərə faiz dərəcələri, valyuta məzənnələrinin, qiymətli kağızların dəyəri, habelə makro iqtisadi göstəricilərdə baş verən dəyişikliklər aid edilir.

Risk – bankın mənfəətinə və kapitalına təsir edən gözlənilməz zərərin baş verməsi ehtimalıdır.

Risklərin idarə edilməsi prosesi – bankın məruz qala biləcəyi riskin müəyyənləşdirilməsi, ölçülməsi, təhlili, idarə edilməsi, monitorinqi və hesabatlığını əhatə edən prosesdir.

2. 1. AZƏRBAYCAN RESPUBLİKASININ BANK SİSTEMİNİN HÜQUQİ ƏSASLARI

Banklar haqqında Azərbaycan Respublikasının Qanununun (4 mart 2005-ci il, 6 mart 2007-ci il, 17 aprel 2007-ci il, 19 oktyabr 2007-ci il, 2 oktyabr 2008-ci il, 26 may 2009-cu il və 30 iyun 2009-cu il tarixli qanunlarla qəbul edilmiş dəyişikliklər və əlavələrlə) 2.1. maddəsində deyilir: Azərbaycan Respublikasının bank sistemi Azərbaycan Respublikasının Mərkəzi Bankından və kredit təşkilatlarından ibarətdir.

Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Azərbaycan Respublikasının Qanunu (17 aprel 2007-ci il, 9 oktyabr 2007-ci il, 6 noyabr 2007-ci il, 26 may 2009-cu il, 19 iyun 2009-cu il və 30 iyun 2009-cu il tarixli qanunlarla qəbul edilmiş dəyişikliklər və əlavələrlə) Azərbaycan Respublikası Mərkəzi Bankının hüquqi statusunu, onun məqsəd, funksiya və səlahiyyətlərini, habelə idarəetmə və təşkilati strukturunu müəyyən edir, dövlətin mərkəzi bankı kimi dövlət hakimiyyəti orqanları ilə və digər şəxslərlə münasibətlərini tənzimləyir. Mərkəzi Bank dövlətin mərkəzi bankıdır. Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin II hissəsinə müvafiq olaraq, Mərkəzi Bank dövlətin müstəsna mülkiyyətindədir.

Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş funksiya və səlahiyyətlərini həyata keçirərkən, Mərkəzi Bank müstəqildir və bu zaman hər hansı dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər onun fəaliyyətinə hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhdudiyyət qoya bilməz, qanuna zidd təsir və müdaxilə edə bilməz. Mərkəzi Bank öz fəaliyyəti barədə yalnız Azərbaycan Respublikası Prezidentinə hesabat verir.

Mərkəzi Bankın Azərbaycan Respublikası Prezidenti qarşısında hesabatlığı aşağıdakılardan ibarətdir:

1. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndinə müvafiq olaraq, Mərkəzi Bankın İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsindən;

2. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərinə müvafiq olaraq, Mərkəzi Bankın İdarə Heyəti sədrinin – Mərkəzi Bankın sədrinin və onun müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsindən;

3. Qanunun 58-ci maddəsinə müvafiq olaraq, Mərkəzi Bankın fəaliyyətinin yoxlanılması üçün auditorun təyin edilməsindən və zəruri hallarda, auditor yoxlamasının növbədənkənar qaydada keçirilməsindən;

4. Mərkəzi Bankın İdarə Heyətinin sədri tərəfindən ildə iki dəfə Mərkəzi Bankın əsas məqsəd və funksiyalarının həyata keçirilməsi barədə hesabatın, habelə audit rəyi ilə təsdiq edilmiş ilin yekunları üzrə maliyyə hesabatının və hesabat əməliyyat büdcəsi barədə hesabatın Azərbaycan Respublikası Prezidentinə təqdim edilməsi.

Büdcə layihəsinin müzakirəsi zamanı Mərkəzi Bankın İdarə Heyətinin sədri qarşıdakı il üçün pul siyasətinin əsas istiqamətləri barədə Azərbaycan Respublikası Milli Məclisinə məlumat verir.

Mərkəzi Bank qanunla onun səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə bütün banklar, bank olmayan kredit təşkilatları, habelə digər şəxslər üçün məcburi normativ xarakterli aktları müstəqil qəbul edir.

Mərkəzi Bank Azərbaycan dövlətinin bankıdır. Mərkəzi Bank Azərbaycan dövlətinin maliyyə agenti kimi çıxış edə bilər.

Azərbaycan Respublikasında kredit təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Banklar haqqında, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, «Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında» və «Kredit İttifaqları haqqında» Azərbaycan Respublikası qanunları, Mərkəzi Bankın bunlara müvafiq olaraq, qəbul edilmiş normativ aktları, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

Cari bank fəaliyyəti ilə bağlı qərarları qəbul edərkən, kredit təşkilatları dövlət hakimiyyəti və bələdiyyə orqanlarından asılı deyildir və onlar kredit təşkilatlarının fəaliyyətinə qarışa bilməz.

Kredit təşkilatları qanunla onların fəaliyyət növlərinə aid edilməyən fəaliyyəti həyata keçirməyə məcbur edilə bilməz. Kredit təşkilatlarının və dövlətin müvafiq öhdəlik götürdüyü hallardan başqa, bütün digər hallarda kredit təşkilatları dövlətin, dövlət isə kredit təşkilatlarının öhdəlikləri üçün məsuliyyət daşımır.

Banklar haqqında Azərbaycan Respublikasının Qanunu (4 mart 2005-ci il, 6 mart 2007-ci il, 17 aprel 2007-ci il, 19 oktyabr 2007-ci il, 2 oktyabr 2008-ci il, 26 may 2009-cu il və 30 iyun 2009-cu il tarixli qanunlarla qəbul edilmiş dəyişikliklər və əlavələrlə) Azərbaycanda bank sisteminin hüquqi bazasının beynəlxalq standartlara tam uyğunlaşdırılması, iqtisadiyyatda bank xidmətlərinin rolunun artırılması, bank əmanətçilərinin və kreditorlarının müdafiəsinin gücləndirilməsi və bütövlükdə bank sisteminin stabil və təhlükəsiz fəaliyyətinin təmin edilməsi məqsədilə bankların təşkili, daxili idarəedilməsi, fəaliyyətinin tənzimlənməsi və ləğv edilməsi prinsiplərini, qaydalarını və normalarını müəyyən edir.

Bank-fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir.

Bank olmayan kredit təşkilatları haqqında Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslərin maliyyə resurslarına olan ehtiyaclarının daha dolğun ödənilməsi, maliyyə xidmətlərindən istifadəsi üçün əlverişli şəraitin yaradılması məqsədilə bank olmayan kredit təşkilatlarının təsis edilməsi, idarə olunması və fəaliyyətinin tənzimlənməsi qaydalarını müəyyən edir.

Bank olmayan kredit təşkilatı xüsusi razılıq əsasında kreditlərin verilməsi və Bank olmayan kredit təşkilatları haqqında Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər fəaliyyət növlərini həyata keçirən ixtisaslaşmış kredit təşkilatıdır.

Azərbaycan Respublikasının ərazisində banklar və bank olmayan kredit təşkilatları bank fəaliyyətini Mərkəzi Bankın verdiyi xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilə bilər. Depozit əməliyyatları yalnız banklar *və* poçt rabitəsinin milli operatoru tərəfindən həyata keçirilə bilər.

Bank ən azı üç hüquqi və/və ya fiziki şəxs tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır. Siyasi partiyalar, ictimai birliklər, fondlar və digər qeyri-kommersiya təşkilatları bankın səhmdarı ola bilməzlər. Bank yalnız adlı səhmlər buraxa bilər. Bankın imtiyazlı səhm sahibləri səs hüququna malik ola bilməzlər. Bankın təsisçiləri olan səhmdarları onun sonrakı səhmdarlarına nisbətən hər hansı əlavə üstünlüklərə malik ola bilməz və ya hər hansı əlavə vəzifələr daşıya bilməzlər.

Banklar məcmu kapitalını və likvid ehtiyatlarını daimi olaraq müəyyən olunmuş səviyyədə saxlamalı, öz öhdəliklərini yerinə yetirmək və zərərə yol verməmək üçün aktivlərin qiymətdən düşməsinə qarşı zəruri tədbirlər görməli, mühasibat sənədlərini və digər zəruri sənədləri qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib etməli, bankın fəaliyyətinə nəzarət mexanizmlərini formalaşdırmalı və tətbiq etməli, zərərin əmələ gəlməsi riskini maksimal şəkildə azaltmaq məqsədi ilə aktivlərin diversifikasiyasını (bölüşdürülməsini) təmin etməlidirlər.

2.2. BANK İNFRASTRUKTURU

Bank sisteminin fəaliyyətini təmin edən müəssisələr, agentliklər və xidmət sahələri Bank infrastrukturuna aiddir. Bank infrastrukturu özündə məlumat, metodik, elmi, kadr təminatı, həmçinin rabitə vasitələri və kommunikasiyanı birləşdirir.

Bazar iqtisadiyyatı şəraitində banklar hər şeydən əvvəl ölkə iqtisadiyyatının, onun sahələrinin, həmçinin xidmət göstərdiyi fiziki və hüquqi şəxslərin fəaliyyəti barədə geniş və operativ məlumatlara ehtiyac duyurlar. Bu banklara müştərilərin kredit qabiliyyətliliyi, iqtisadi və işgüzar bazarın, əmlakın idarə edilməsi vəziyyətinin düzgün qiymətləndirilməsi və müştərilərin vaxtlı vaxtında məlumatlandırılmasını təşkil etmək üçün vacibdir.

Bazar iqtisadiyyatında mövcud olan güclü rəqabət, baş verə biləcək iqtisadi böhran, müəssisələrin və dövlətin qeyri-sabit maliyyə vəziyyəti şəraitində düzgün qərarlar qəbul etməkdən ötrü məlumat təminatı banklar üçün günün tələbinə çevrilir. Bunsuz banklar hətta müvəqqəti maliyyələşmə fəaliyyətin həyata keçirə bilməz, müştərilər üçün lazımi xidmətləri vaxtlı-vaxtında keyfiyyətlə icra edə bilməzlər. Eyni zamanda kapitai itkisinə yol verə bilərlər.

Banklar lazım olan məlumatlar müxtəlif mənbələrdən -xüsusi agentliklərdən, çoxsaylı məlumat kitablarından, jurnal və operativ nəşrlərdən, mərkəzi banklardan və s., beynəlxalq aləmdə baş verən mühüm dəyişikliklər barədə məlumatlan isə internet vasitəsilə əldə edə bilər.

Metodiki təminat bank infrastrukturunun mühüm elementlərindən biridir. İndi bankların fəaliyyətinə dair bütün lazım olan sənədlər toplusu Mərkəzi Bank tərəfindən hazırlanır və fəaliyyətə buraxılır. Azərbaycan Mərkəzi Bank strukturunda Tədqiqatlar və İnkişaf Mərkəzi Makroiqtisadi və maliyyə sabitliyinə dair aşağıdakı modelləri hazırlamışlardır:

Bank ifrastrukturımun mühüm elementlərinden biri də elmi təminatdır. O həm ayrı-ayrı bankları, həm də bütövlükdə bank sistemini əhatə etməlidir.

Kadr təminatı bank infrastrukturunun ən vacib elementidir. 80 ildən yuxarı ölkəmizdə maliyyə və bank orqanlan üçün kadrlar hazırlayan Azərbaycan Dövlət İqtisad Universitetinin fəaliyyəti təqdirəlayiqdir. Azərbaycan Dövlət İqtisad Universitetində «Beynəlxalq valyuta kredit və maliyyə münasibətləri», «Bank işi», «qiymətli kağız bazarı» və bir çox digər fənlər tədris olunur ki, son məqsəd iqtisadi sistemlər üçün yüksək ixtisaslı kadr hazırlığından ibarətdir.

Bazar iqtisadiyyatı şəraitində təsərrüfat subyektlərinin artması banklar tərəfindən göstərilən xidmətlər çeşidinin və həcminin çoxalmasma gətirib çıxarır. Öz növbəsində bu, bankları keyfıyyətcə yeni, texniki cəhətdən yüksək səviyyəli ödəmələrin və hesablaşmaların sürətli icrasını təmin edən rabitə və digər texfiiki vasitələrin əldə edilməsinə məcbur edir.

Bank sisteminin sabit, normal iş şəraitini təmin edən amillərdən biri qanunvericilikdir. Bank qınunvericiliyi bu sistemin zəruri bir hissəsidir.

Hal-hazırda Azərbaycanda bank sisteminin fəaliyyətini tənzimləyən bir neçə əsas qanunlar qüvvədədir:

1) Banklar haqqında Azərbaycan Respublikasının Qanunu (4 mart 2005-ci il, 6 mart 2007-ci il, 17 aprel 2007-ci il, 19 oktyabr 2007-ci il, 2 oktyabr 2008-ci il, 26 may 2009-cu il və 30 iyun 2009-cu il tarixli qanunlarla qəbul edilmiş dəyişikliklər və əlavələrlə)

2) Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Azərbaycan Respublikasının Qanunu (17 aprel 2007-ci il, 9 oktyabr 2007-ci il, 6 noyabr 2007-ci il, 26 may 2009-cu il, 19 iyun 2009-cu il və 30 iyun 2009-cu il tarixli qanunlarla qəbul edilmiş dəyişikliklər və əlavələrlə). Banklar haqqında Azərbaycan Respublikasının Qanunu (4 mart 2005-ci il, 6 mart 2007-ci il, 17 aprel 2007-ci il, 19 oktyabr 2007-ci il, 2 oktyabr 2008-ci il, 26 may 2009-cu il və 30 iyun 2009-cu il tarixli qanunlarla qəbul edilmiş dəyişikliklər və əlavələrlə) ;

3) Bank olmayan kredit təşkilatları haqqında Azərbaycan Respublikasının Qanunu (25 dekabr 2009-cu il); Əmanətlərin sığortalanması haqqında Azərbaycan Respublikasının Qanunu (08 may 2009-cu il və 30 iyun 2009-cu il tarixli qanunla qəbul edilmiş dəyişikliklər və əlavələrlə);

4)Valyuta tənzimi haqqında Azərbaycan Respublikasının Qanunu 27 noyabr 2001-ci il tarixli, 220-IIQD nömrəli; 30 aprel 2002-ci il tarixli, 317-IIQD nömrəli; 3 mart 2006-cı il tarixli, 82-IIIQD nömrəli; 17 aprel 2007-ci il tarixli, 320-IIIQD nömrəli; 7 dekabr 2007-ci il tarixli, 507-IIIQD nömrəli; 30 iyun 2009-cu il tarixli, 856- IIIQD nömrəli; 5 mart 2010-cu il tarixli, 972-IIIQD nömrəli Qanunlara əsasən dəyişikliklər və əlavələrlə;

5) Kredit İttifaqlari Haqqinda Azərbaycan Respublikasinin qanunu (2001-ci il 23 noyabr və 30 sentyabr 2010-cu il tarixli əlavə və dəyişikliklərlə);

6) Poçt haqqında Azərbaycan Respublikasının Qanunu (1 may 2007-ci il, 2 oktyabr 2008-ci il və 30 iyun 2009-cu il tarixli qanunlarla edilmiş əlavə və dəyişikliklərlə);

7) Bank olmayan kredit təşkilatları haqqında Azərbaycan Respublikasının Qanunu 25 dekabr 2009-cu il).

Beynəlxalq təcrübə göstərir ki, bank sisteminin səmərəli fəaliyyəti üçün bank birlikləri və konyorsiumlan, holdinqləri, xüsusi təyinatlı banklar, kredit kooperasiyaları haqqmda qanunlar

işlənib hazırlanmalıdır. Həmçinin banklann fəaliyyətini nizamlayan qanunlar topiusuna kredit işi, elektron ödəniş sistemi, bank sirri, bankların iflası qanunları da daxil edilməlidir. Maliyyə-kredit sistemində banklarla bərabər fəaliyyət göstərən digər maliyyə instutları-qiymətli kağızlar və fond birjası, faktorinq və trast şirkərləri, investisiya fondlan haqqında qanunlar da az əhəmiyyət kəsb etmir.

2.3. XARİCİ ÖLKƏLƏRİN PUL- KREDİT SİSTEMİ

Amerika Birləşmiş Ştatlarının pul-kredit sistemi. Amerikan dolları 1785-ci ildə milli pul olaraq qəbul edilmişdir. 2 aprel 1792-ci ildə dolların dəyəri gümüş və qızılı ağırlıq miqdarı ilə bağlanılmışdır. 1890-cı ildə tək işğal sisteminə keçilmiş, yəni qızıl pul sisteminin əsası qoyulmuşdur. 1913-cü ildə Amerika Mərkəzi Bankı qurulmuşdur. 1917-ci ildə dolların qızıla dəyişməsinə son qoyulmuş, ancaq 1919-cu ildə bu sistem təkrar təsis edilmişdir. 31 yanvar 1934-cü ildə dollar 40,94% dəyərindən devalvasiya edilmiş və təzədən dolların qızıl qarşılığı müəyyən edilmişdir. 18 dekabr 1971-ci ildə isə dolların qızıla çevrilməsinə son qoyulmuşdur. 1976-cı il yanvar ayında Yamayka sövdələşməsi ilə dolların qızıla olan bağlılığı tamamilə ləğv edilmişdir. 23 dekabr 1913-cü ildə Federal Ehtiyat Bank (FEB) qurulmuşdur.

Federal Ehtiyat Sisteminin cari funksiyaları aşağıdakılardır:

- Bank təşvişləri ilə bağlı problemlərin həlli;
- Bankların özəl maraqları ilə mərkəzləşdirilmiş dövlət öhdəlikləri arasında tarazlığın qorunması;
- Monetar siyasət tədbirləri nəticəsində ölkənin pul təchizatının təmin olunması;
- Maliyyə sisteminin sabitliyinin dəstəklənməsi;
- Depozit qəbul edən təsisatlar, ABŞ hökuməti və xarici rəsmi müəssisələr üçün maliyyə xidmətinin təmin olunması;
- ABŞ-ın dünya iqtisadiyyatındakı mövqeyinin gücləndirilməsi.

FEB-i idarə edən qurumlar aşağıdakılardır: Qubernorlar şurası, və idarə şurası. FEB qubernatorlar şurasının 7 üzvü var. Bunlar bu vəzifələrə Amerika prezidenti tərəfindən 4 illik müddətə təyin edilir. Müddətin bu qədər çox olmasının səbəbi siyasi güc qarşısında qubernatorların öz müstəqilliklərini qorumaq məqsədidir. Şuranın üzvləri ancaq Konqresə hesabat vermək məcburiyyətindədir. İdarə şurasının 9 üzvü var. Bunların 3-ü qubernatorlar şurası tərəfindən təyin edilir, qalan 6 üzvü isə banklar tərəfindən seçilir. FEB-in Monetur siyasətinin ən başlıca əməliyyatı qiymətli kağız bazarında dövlət istiqraz və bonolarının alqı-satqısıdır.

Amerikan kommersiya bankları əmanət qəbul etmə haqqında lisenziyaya sahib olan banklardır. Kassa likvid aktivləri nağd pul, FEB-də tutulan pullar və digər bankların hesablarında tutulan pullardır. Bu banklar istehlak və sənaye sahələrinə qısamüddətli kredit açırlar. Portfelləri isə yerli icra və dövlət orqanlarına aid sənədlərdən ibarətdir. Passivlərində isə dövlət və özəl sektorun əmanətləri saxlanılır.Amerikada kommersiya banklarının sayı 14500-ə yaxındır. Ancaq bunlar içində ən böyük banklar Chase Manhattan Bank, First National Bank, Chase Manhattın Bank, Morıan Trust Company banklarıdır. Amerikanın investisiya bankları şirkətlərə orta və uzun müddətli kredit açırlar. Bu banklar əmanət qəbul edir, sənaye quruluşları üçün hissə sənədi və istiqraz ixrac edirlər. Bu banklar pula olan ehtiyaclarını kommersiya banklarından borc olaraq ödəyirlər.

Amerikada 200-ə yaxın xarici ölkələrin bankları fəaliyyət göstərir. Bunların ümumi bank aktivləri içində payları 14 faizdir. Amerikan banklarının ölkə xaricində 800-dən çox şöbəsi vardır. Amerikan banklarının xaricdəki fəaliyyətinə FEB, Federal Əmanət Sığorta Fondu və Pul Nəzarət Komitəsinin üzvlərindən meydana gələn komissiya nəzarət edir.

Kanadanın pul-kredit sistemi. Kanada federal struktura malik bir idarəyə sahibdir. Pul emissiyası və Kanadanın pul vahidi olan dolların hərəkətlərinə nəzarət edən Kanada Mərkəzi Bankıdır.

Ölkənin mərkəzi bankı kimi Kanada Bankının 5 əsas vəzifəsi var:

- Monetar siyasətinin həyata keçirilməsi (inflyasiya göstəricisinin tənzimlənməsi);

- Pulların buraxılışı;
- Təhlükəsiz, şəffaf və səmərəli maliyyə sisteminin təşkili;
- Vəsaitlərin idarə edilməsi;
- İnsani, maliyyə, informasiya, texnologiya və fiziki mənbələrin sağlam idarə edilməsinə dəstək verən korporativ inzibatçılığın həyata keçirilməsi.

Kanada bank strukturunda aktivlərin dəyəri böyüklük baxımından olduqca yüksək bir təmərküzləşməyə malikdir. 1960-cı ildən sonra 8 bankın 500 şöbəsi vardı. Banklardan ən böyük 5-i isə bütün bankçılıq sektorunun aktivlərinin 20 %-nə malikdir. Kanadada bank haqqında Qanun 1961-ci ildən hazırlanmağa başlandı və 1967-ci ildə qüvvəyə mindi. 1990-cı ildə Kanada bankçılıq sektoranun bütün varlığının 40%-i xarici sərmayəli bankların əlindədir. Kanadada banklar adətən Monreal və Toronto kimi iri maliyyə şəhər mərkəzlərində yerləşmişdir. Nəticə etibarı ilə 1995-ci ildə səkkiz yerli bank bütün bankçılıq varlığının 50%-nə sahib idi.

Yaponiyanın pul-kredit sistemi. Yapon Bankı 1882-ci ildə qurulmuşdur və 1889-cu ildən etibarən qanunla ona banknot əməliyyatının aparılması səlahiyyəti verilmişdir. 1978-ci ildə Yaponiyada qızıl standartı sistemi tətbiq edilmişdir. 1931-ci ildə Yaponiyada qızıl pul standartı ləğv edilmiş və 1937-ci ildə pul kütləsinin tədavülü 1,6 dəfə artmış və inflyasiya tempi illik 50%-dən yuxarı olmuşdur. 1945-1951-ci illər arasında inflyasiya tempi 343 dəfə artmış və yapon pul vahidi olan iyenin dəyəri 99% azalmışdır. 1949-cu ildə iyenin dollara qarşı məzənnəsi 360 iyen = 1 dollar olmuş və bu paritet 1971-ci ilə qədər qüvvədə qalmışdır. 1971-ci ildən Yaponiya Hökuməti üzən valyuta kursu tətbiq etməyə başladı. 1973-1980-ci illərdə illik qiymət artımı 9,5% olmuşdur. 1980-ci ildən sonra beynəlxalq ticarət münasibətlərində yapon iyenin ödəniş vasitəsi olaraq Amerikan dolları və alman markasından sonra üçüncü yerə keçmişdir və Asiya regionu ölkələri üçün iyen ən sabit və güclü pul və bu regionun mərkəz bankları üçün ehtiyat pul vahidi olaraq qəbul edilməkdədir.

Dünyada beynəlxalq valyuta ehtiyatları içində Amerikan dollarının payı 55 %, yapon iyeninin payı 10 %-dir. Yapon mal və xidmət ticarət ixracatının 34%-i, idxalının 12%-i yapon iyeni tərəfindən aparılır. Yapon iyeninin dollara qarşı məzənnəsinin dinamikasını 1970-ci ildən başlayaraq dollara qarşı dəyər qazanmaqdadır.

Yaponiyanın kredit sistemi 1868-ci ildə qurulmuşdur. 1872-ci ildə Yaponiyada Yapon Mərkəzi Bankı qurulmuş və 1887-ci ildə isə Kommersiya bankları haqqında qanun qüvvəyə minmişdir. Yaponiya kredit sistemi - Yapon Mərkəzi Bankı, dövlət, kommersiya bankları, özəl və kredit kooperasiyalarından meydana gəlir.

1998-ci il aprelin 1-dən Yaponiya Mərkəzi Bankı haqqında yeni qanun qəbul edilmişdir. Bu qanuna əsasən Bank Maliyyə Nazirliyindən müstəqillik qazandı.

Bankın aşağıdakı funksiyaları var:

- Pul əskinazlarının çap edilməsi və nağd pul təminatının idarəedilməsi;
- Monetar siyasətin idarə etməsi;
- Maliyyə Sisteminin sabitliyinin qorunması və hesablaşma xidmətlərin təqdim edilməsi;
- Xəzinədarlıq funksiyaları.

1949-cu ildə Bankın Siyasət Komitəsi yaradılmışdır. Komitə Bankın siyasətinin tərtib edilməsi və dövlətin maliyyə və pul-kredit siyasətində maraqlarını müəyyənləşdirən qurumdur. Komitə 7 üzvdən ibarətdir. Onlardan beşi səsvermə hüququqna malikdirlər: Komitənin Sədri hökumət tərəfindən 5 il müddətinə təyin edilir və şəhər bankları, regional banklar, kənd təsərrufatı və sənaye sektorunu təmsil edən dörd il müddətinə seçilən 4 üzv. Bundan əlavə Komitəyə Maliyyə Nazirliyinin və İqtisadi Planlaşdırma Komitəsinin səsvermə hüququ olmayan iki üzv daxildir. Komitə Bankın büdcəsinə aid qərarları Maliyyə Nazirliyi ilə razılaşdıqdan sonra qəbul edir. Həmçinin Maliyyə Nazirliyi ilə razılaşdıqdan sonra Parlament qarşısında hesabat verir. Bundan əlavə, Komitə faiz dərəcələrinin dəyişdirilməsini, kreditvermə prosesində girovların qiymətləndirilməsini, veksellərin növlərini və şərtlərini müəyyən edir.

Yapon bankları ölkənin iqtisadi inkişafını gücləndirmək məqsədi ilə kredit faiz dərəcələrini aşağı düşürmək siyasətini aparır.

Avstraliyanın pul-kredit sistemi. Avstraliya konstitusiyası bankçılıq sektorunda ikili bir nəzarət sistemi tərtib etmişdir. Bu həm Federal Hökumətin, həm də əyalət hökumətinin müəyyən

səlahiyyətlərinə malik olmasını göstərir. Əyalətin malik olduğu banklar ümumi bank haqqında alınan qərarlara tabe olmaq məcburiyyətində deyil.

1980-ci illərə qədər Avstraliyada banklar üzərində dövlət nəzarəti olduqca sərt idi. Bank faizləri və dövlət bono faizləri Mərkəzi Bankı tərəfindən müəyyən edilirdi. Avstraliya vətəndaşlarının portfel investisiyası qoyması qadağan idi. Xarici bankların da daxili bazara girişi çox çətin idi. Lakin 1980-ci illərdən sonra Avstraliyada maliyyə bazarındakı sərbəstləşmə sürətlə tətbiq edilməyə başlandı. Əvvəlcə bank istiqrazlarının satışı üçün özəl bazar təşkil edilməsinə icazə verildi. Daha sonra da Avstraliya dolları üzərində nəzarət ortadan götürüldü və xarici valyutalar qarşısında sərbəst üzməsinə icazə verildi.

Hazırda Avstraliya Ehtiyat Bankının əsas vəzifəsi monetar siyasətin həyata keçirilməsidir. Orta müddət ərzində aşağı və sabit inflyasiya göstəricisinə nail olunması məqsədilə monetar qərarlar Bankın İdarə Heyəti tərəfindən qəbul edilir. Digər əsas vəzifələrdən biri maliyyə sisteminin sabitliyini və ödəniş sisteminin şəffafflığı və təhlükəsizliyini təmin etməkdir. Avstraliya Birlik Bankı həmçinin, Avstraliyanın xarici ehtiyatlarını idarə edir və milli valyutanı buraxılması ilə məşğul olur.

Müasir dövrdə Avstraliyada faiz dərəcələri, kreditlər və valyuta kursu üzərindəki dövlət nəzarəti tamam aradan qaldırıldı. Günlük 1 milyard dollar olan valyuta alqı-satqısının həcmi 1996-cı ildə 50 milyard dollar miqdarına yüksəldi. Bundan başqa sistemin maliyyə risklərinə qarşı qorunması məqsədi ilə maliyyə alətləri bazarı təşkil edildi. Avstraliyanın pul vahidi olan dollar dünyanın əməlli başlı tələb görən pullarından biridir. 2010 ci ildə Avstraliya dolları dünya valyuta bazarında valyuta satışına görə dünyanın altıncı pulu sayılıb(dünya üzrə iqtisadiyyatının 10 yerdə olmasına baxmayaraq).

İsveçrənin pul-kredit sistemi. İsveçrə Konfederasiya dövləti olandan sonra kontorlar öz aralarında Vahid Pul Birliyi yaratdılar. 1948-də qəbul edilən Konstitusiyaya görə, Konfederasiya hökumətinə pul çıxarmaq səlahiyyəti verildi. İsveçrə Mərkəzi Bankı 1907-ci ildə quruldu və bankın səhmdarları yalnız İsveçrə vətəndaşları və qurumları ola bilər. Hal-hazırda Mərkəzi Bankın fiziki şəxs səhmdarlarının sayı 3541 nəfərdir.

Bank Konstitusiya və qanun vasitəsilə ölkənin maraqlarına uyğun olaraq iş aparır. Bankın fəaliyyət məqsədləri aşağıdakılardır:

- Ölkənin monetar siyasətinin həyata keçirilməsi;
- Qiymətlərin sabitliyinin təmin edilməsi;
- Nağd pul dövriyyəsinin təşkili;
- Pul bazarının likvidliyinin təmin edilməsi;
- Nağdsız pul köçürmələrinin təşkili;
- Beynəlxalq ehtiyatların idarə edilməsi;
- Maliyyə sisteminin sabitləşdirlməsi;
- Beynəlxalq əməkdaşlıqda iştirak və texniki yardımın göstərilməsi.

İsveçrə Milli Bankının iki baş ofisi mövcuddur – Bern və Surix şəhərlərində. Bundan əlavə, Cenevrədə nağd pulun dövriyyəsini təmin edən nümayəndəliyi və regionlarda beş təmsilçi ərazi idarəsi mövcuddur. Həmçinin Bankın kantonlar üzrə 16 agentliyi mövcuddur.

Bankın baş idarəetmə orqanı İdarə Heyətidir. İdarə Heyətinin funksiyaları – monetar siyasət, sərmayə qoyuluşu strategiyası və monetar siyasət sahəsində beynəlxalq əməkdaşlıqdan ibarətdir. Idarə Heyəti 3 daimi üzv və 3 nümayəndədən ibarətdir. Onlar dövlətin Federal Şurası tərəfindən Bank Şurasının tövsiyəsi əsasında seçilirlər.

Bankın Baş Şurası nəzarət funksiyalarını həyata keçirir. Şura 11 üzvdən ibarətdir. 6 üzvü Şuranın Prezidenti və vitse-prezidenti daxil olmaqla Federal Şura tərəfindən seçilir. Digər 5 üzvü səhmdarların yığıncağında təyin olunurlar. Bankın Şurasıında 5 komitə fəaliyyət göstərir.

İsveçrədə 1.5 min adama bir bank düşür ki, bu göstəriciyə görə, İsveçrə dünyada 5-ci yerdədir. İsveçrə bank sistemi 3 qrupdan ibarətdir:

1. Ümumi Federal Universal Bankları;
2. Kanton bankları (onların mülkiyyətçisi dövlətdir)
3. Özəl banklar. (Bu banklar əsas etibarilə investisiya portfeli ilə məşğuldurlar).

Ümumiyyətlə, İsveçrə banklarının əsas gəlir mənbəyi onlara etibar edilmiş mülkiyyətin idarə edilməsidir. İsveçrə bank aktivlərinin ümumi məbləği 2300 mlrd. İsveçrə frankıdır ki, bunun da 50 %-dən çoxu xarici müştərilərin payına düşür. İsveçrə Mərkəzi Bankının məlumatına görə, İsveçrə banklarında əmanətlərin ümumi həcmi 835.2 mlrd. frank olmuşdur. İsveçrə banklarının trust əməliyyatlarının miqdarı 326.2 mlrd. frankdır, bunun 81%-dən xarici ölkələrin payına düşür.

Avropa Birliyi ölkələrinin pul-kredit sistemi. Avropa Birliyi ölkələrinin iqtisadi və coğrafi göstəricisinə görə təsnifatı aşağıdakı kimi verə bilərik:

«Reyn kapitalizm» ölkələri – AB ölkələri sırasında **A**lmaniya və Fransa əsas gücə sahib ölkələr.

İtaliyada «Reyn kapitalizm» sırasında yer alır.

Böyük Britaniya – ABŞ-ın iqtisadi və siyasətinə yaxın bir ölkə.

«Kiçik» inkişaf etmiş Qərbi Avropa ölkələri: Belçika, Lüksemburq və Niderland.

Şimali Avropa – Danimarka, İrlandiya, Filandiya və İsveç.

Mərkəzi Avropada: Avstriya

Orta səviyyəli inkişaf etmiş ölkələr (Cənubi Avropa ölkələri): Yunanıstan, İspaniya və Portuqaliya.

May 2004-ci ildə AB daxil olan ölkələr:

Macarıstan, Kipr, Litva, Latviya, Malta, Polşa, Slovakiya, Sloveniya, Çexiya və Estoniya.

Almaniya – Birləşmiş Avropanın lideri

Fransa – Avropa iqtisadi intqerasiya beşiyi

İtaliya – Aralıq dənizinin iqtisadiyyatı və «Reyn kapitalizm»

Böyük Britaniya – Anqlosakson iqtisadiyyatı

Niderland – Avropanın qapısı

Belçika – Avropa Birliyinin paytaxtı

Lüksemburq – Uzunmüddətli kreditor. Avropanın maliyyə paytaxtı

Avstriya – Sosial siyasətinin mərkəzi

Skandinaviya

İsveç – Avropanın ən sülhsevər ölkəsi

Danimarka – Kiçik biznesin mərkəzi

Finlandiya – Dünya üzrə ən rəqabət qabiliyyətli ölkə

İrlandiya – iqtisadi artım üzrə Avropa lideri(2008-ci il böhranına qədər)

İspaniya – Cənubi Avropanın «İqtisadi möcüzəsi» (2008-ci il böhranına qədər)

Portuqaliya – Modernləşmə iqtisadiyyatı(2008-ci il böhranına qədər)

Yunanıstan – Postindustrial iqtisadiyyat(2008-ci il böhranına qədər)

Avropada ortaq bir bazarın qurulması ilə əlaqədar qərar 1957-ci ildə Romada alınmışdır. Avropa Birliyinin əsas məqsədi - rəqabət sistemini gücləndirmək və sərmayənin hərəkətini sərbəstləşdirməkdir. 1979-cu ildə Avropa Valyuta Sistemi quruldu. Belçika, Lüksemburq, Hollandiya, Almaniyanın dövlət başçıları bu ölkələrdə etibarlı olan pul vahidi ekyunu yaratdılar. Sonradan Avropa Valyuta Sisteminə İngiltərə, Finlandiya, Portuqaliya, Yunanıstan və İspaniya da girdi. 1991-ci ildə Maastrixdə (Hollandiyanın bir qəsəbəsi) Avropa İqtisadi və Valyuta Birliyi haqqında müqavilə imzalandı. 1994-cü ildə Avropa komissiyası, Avropa Birliyi ölkələrinin iqtisadi göstəricilərinin təhlili nəticəsində Avrosisteminə daxil olacaq 11 ölkənin adını açıqladı. Avrosisteminə İngiltərə, İsveç, Danimarka kimi ölkələr daxil olmadı. 31 dekabr 1998-ci ildə Avropa Birliyi ölkələrinin maliyyə nazirləri Avroya qarşı milli pul vahidlərinin dəyərini müəyyən etdilər. May 2004-ci ildə AB daxil olan ölkələr: Macarıstan, Kipr, Litviya, Litva, Malta, Polşa, Slovakiya, Sloveniya, Çexiya və Estoniya. 2007 ildə Bolqariya və Rumıniya kimi ölkələr Avropa Birliyinə daxil oldular.

Bəzi Avropa Birliyi ölkələrinin bank sektorunun ümumi aktivləri

	Ümumi aktivlər (milyard ekyü)	**Ümumi aktivlər/ milli gəlir (%)**	**Bankların miqdarı**
Almaniya	3.151	191	3.769
Avstriya	397	228	1.063
Danimarka	154	119	112
Fransa	2.834	235	1.635
Hollandiya	573	194	175
İngiltərə	1.016	109	37
İtaliya	728	97	170
Yunanıstan	825	91	176
İspaniya	48	62	21

Avrozonanın 13 üzv ölkəsinin monetar siyasətinin həyata keçirilməsindən cavabdeh olan Avropa Mərkəzi Bankı (AMB) dünyanın ən nüfuzlu mərkəzi banklardan biridir. Avropa İttifaqı institutları və üzv ölkələr tərəfindən hər hansı siyasi müdaxilə görməyən AMB Avropa İttifaqından ayrı büdcəyə malik olmaqla maliyyə müstəqilliyini də qoruyub saxlamaqdadır (iqtisadçıların ümumi konsensusa əsasən müstəqil mərkəzi bank makroiqtisadiyyatın siyasi məqsədlərlə manipulyasiyasının qarşısının alınması üçün ən yaxşı vasitədir). Hesabatlılıq məqsədilə AMB öz fəaliyyətinə dair hesabatlar hazırlamalı və illik hesabatını Avropa Parlamenti, Avropa Komissiyası, Avropa İttifaqı Şurası və Avropa Şurasına göndərməlidir. Maaştraxt Sazişi üzrə Avropa Mərkəzi Banklar Sistemi (AMBS) aşağıdakı funksiyaların yerinə yetirilməsinə görə cavabdehdir:

- Monetar siyasətin müəyyənləşdirilməsi və realizasiyası;
- Xarici valyuta əməliyyatlarının idarə olunması;
- Üzv ölkələrin rəsmi xarici ehtiyatlarının saxlanılması və idarə olunması;
- Ödəniş sistemləri üzrə hamar əməliyyatlarının keçirilməsinin dəstəklənməsi.

Almaniyanın pul-kredit sistemi. Almaniyada markanın qızıl standart sisteminə keçidi 1873-cü ildə oldu. İkinci dünya müharibəsindən sonra iyun 1948-ci ildə Doytes Mark tədavülə buraxılmışdır. Ancaq tədavülə buraxılan DM-in nə qızıla, nə də valyuta ehtiyatına qarşılığı göstərilmişdir. Çünki o zaman Almaniyanın nə qızılı, nə də valyuta ehtiyatları vardı. Bu gün isə beynəlxalq valyuta ödəmələr sistemində alman markası beynəlxalq ehtiyat valyutası olaraq ABŞ dollarından sonra dünyada ikinci dəyərli pul vahididir. 1 yanvar 1999-cu ildə Avro Valyuta Sisterminə

keçid ilə DM Avropa ölkələri arasında ən güclü və sabit pul vahidi olaraq qəbul edilmişdir. Almaniyanın kredit sistemi aşağıdakı qurumlardan meydana gəlir:

- Almaniya Mərkəzi Bankı;
- Kredit qurumları;
- Əmanət sandıqları;
- Kredit kooperativləri;
- İxtisaslaşdırılmış maliyyə-kredit qurumları.
- Federal Bankın Avropa Mərkəzi Bankı ilə birgə idarə olunan 4 fəaliyyət sahəsi aşağıdakılardır:
- Pul buraxan bank olaraq – iqtisadiyyatın nağd pulla təmin edilməsi və nağd pulun fiziki dövriyyəsinin təşkili;
- Bankların bankı olaraq – kommersiya bankları sistemi ilə əlaqadər olaraq iki funksiyası var: kommersiya bankları üçün klirinq palatası və bank nəzarəti;
- Dövlətin bankı olaraq – Federal, ştat və yerli hakimiyyət orqanlarını və eləcə də qanunla təsis olunmuş sosial təhlükəsizlik təşkilarını hesabla təmin edir və onlar üçün adi bank əməliyyatlarını yerinə yetirir;
- Valyuta ehtiyatlarını saxlayan orqan olaraq – valyuta ehtiyatları Federal Bankın qızıl ehtiyatları, xarici valyutada olan qiymətli kağızlar, xarici banklarda saxlanılan kredit, xarici valyuta və s. daxil olmaqla avroda ifadə olunmayan bütün aktivləridir.

Böyük şirkətləri maliyyələşdirən və beynəlxalq bank fəaliyyətində iştirak edən banklar aşağıdakılardır:

- Doyçe Bank;
- Dresdner Bank;
- Commers-bank;

Bu bankların həm Almaniya daxilində, həm də xaricidə çox geniş fəaliyyətləri vardır. Məsələn, Deutsche Bank öz bank fəaliyyəti xaricində 4 kommersiya bankına, 3 ipoteka bankına, 5 ixtisaslaşdırılmış bank və 11 beynəlxalq maliyyə quruluşuna sahibdir. Almaniyada federal əhəmiyyətli banklardan başqa, vilayət tipli banklar da mövcuddur. Kredit kooperativləri, kiçik və orta ölçülü biznesmenlərə kredit açırlar. Almaniyada 1961-ci il tarixli Kredit Qanunu ilə kredit təşkilatlarına nəzarət etmək məqsədi ilə Federal Nəzarət Bürosu qurulmuşdur. Almaniya Mərkəzi Bankının əsas vəzifəsi pul-kredit siyasətini həyata keçirməkdir. AMB heç bir dövlət qurumundan əmr və təlimat almadığı kimi, hökumətin nəzarətində də deyildir. Ancaq AMB pul-kredit siyasətini hökumətin iqtisadi siyasətinə paralel şəkildə aparır. AMB pul-kredit siyasəti mövzusunda hökumətin təklifi üzrə ona bu mövzuda müşvərətçilik xidməti verir. AMB-nin ali idarəetmə orqanları: Mərkəzi Şura və Direktorlar Şurasıdır. Mərkəzi Şura 11 vilayət mərkəz banklarının sədrləri və federal dövlət tərəfindən təyin edilmiş 8 müdirdən ibarətdir. AMB-nin sədri və müavinləri Federal Hökumətin təklif edəcəyi adlar arasından prezident tərəfindən təyin edilir. AMB sədri pul-kredit siyasətini yerinə yetirməkdə ən məsul dövlət məmurudur.

Fransanın pul-kredit sistemi. Fransanın pul vahidi frank 1975-ci ildən ödəmə vahidi olaraq qəbul edilmişdir. 1876-cı ildə frankın dəyəri qızılın ağırlıq miqdarına bağlanmışdır. 1936-cı ildə frankın qızıla dönərliliyinə son qoyulmuşdur. İkinci dünya müharibəsindən sonra hökumət güclü franka malik olmaq üçün ilk növbədə güclü iqtisadiyyata malik olmasını başa düşürdü. Buna görə də 1 yanvar 1960-cı ildə 100 köhnə frank bir yeni franka bərabər tutuldu (100 köhnə frank = 1 yeni frank). Yeni frankın qızıla qarşı pariteti 180 milliqram qızıl olaraq müəyyən edilmişdir. Fransa qızıl-valyuta ehtiyatının miqdarına görə ABŞ Almaniyadan sonra dünyada üçüncü yeri tutur. Hesablamalara görə Fransa əhalisinin əlində 5 min ton qızıl olduğu müəyyən edilmişdir.

Fransa kredit sistemini dörd bölməyə ayırmaq mümkündür:

- Fransa Mərkəzi Bankı;
- kommersiya bankları;
- ixtısaslaşdırılmış kredıt qurumları;

• xəzinə və poçtteleqraf sıstemı.

Fransız Mərkəzi Bankı 18 yanvar 1800-cü ildə Bonapart Napoleon tərəfindən qurulmuşdur. Fransız Mərkəzi Bankının sərmayəsi 2 dekabr 1945-ci il tarixli Qanun ilə tamamilə dövlətin əlinə keçdi. Fransız Mərkəz Bankı ölkədə aparılan pul-kredit siyasətinə görə məsuliyyət daşıyır.

Fransa Bankının əsas funksiyaları aşağıdakılardır:

• Avropa Mərkəzi Banklar sistemi çərçivəsində birgə monetar siyasətin həyata keçirilməsi;

• Bank sisteminin və investisiya təşkilatlarının idarə olunması və onlara nəzarət edilməsi. Bu məqsədlə Bankda Bankçılıq və Maliyyə Tənzimlənməsi Komitəsi, Bankçılıq Komissiyası, Kredit və qiymətli Kağızlar üzrə Milli Şura;

• Pul əskinazlarının çap edilməsi;

• Ödəniş və hesablaşmalar sistemlərinin fasiləsiz işinin təmin edilməsi.

Fransada bank üzərində nəzarət fəaliyyətini həyata keçirən orqanlar aşağıdakılardır:

• Bank komissiyası;

• Hökumət nümayəndəsi;

• Hesab nəzarətçisi.

Bank komissiyasının banklar fəaliyyəti üzərində təftiş, nəzarət, təqdimat və cəza vermə səlahiyyəti vardır. Hökumət nümayəndəsi kredit təşkilatlarının qərarlarını dövlət mənafeyinə uyğun olmadığını araşdırar. Hesab nəzarətçisi isə bankların öz fəaliyyətləri ilə əlaqədar vermiş olduğu məlumatların doğru olub-olmadığına nəzarət edər.

İngiltərənin pul-kredit sistemi. İngilis kralı F.Wilhelm (1027-1087) ingilis lirasının pensə və şillinqə bölünməsi və bir sterlinqin 350 qram gümüş əsasına arxalanması prinsipini qoymuşdur. Ölkədə uzun müddət gümüş pul qalmış, ancaq vaxt keçdikcə pulun gümüş dəyəri azalmağa başlamışdır. Gümüşün tədavüldə istifadəsinin qısa müddətdə aşınması, gümüş yerinə qızıl standart sisteminə keçməsinə səbəb olmuş və 1816-cı ildə qızıl tədavüldə tək iştal olaraq qəbul edilmişdir. İngiltərədə kağız pulun tədavüldə istifadəsinə 1688-ci ildən sonra keçilmişdir. 1914-cü ilə qədər kağız pulun asanlıqla qızıla dəyişmə imkanı vardı. 1914-ci ildə başlayan Birinci dünya müharibəsi İngiltərənin hərbi xərclərini ödəmək üçün hökuməti emissiyanı artırmağa məcbur etmişdir. Bunun nəticəsində tədavüldə kağız pul kütləsi artmış və onun qızıla dəyişdirilməsi çətinləşmişdir. Birinci dünya müharibəsindən sonra ingilis lirası dəyərindən 35% itirmişdir. 27 dekabr 1958-ci ildə ingilis lirasının qismən dönərliliyi qəbul edildi və 1 sterlinq 2.48828 qram saf qızıla bərabər tutuldu.

İngiltərənin finans-kredit qurumları ölkədə ticarət və sənayenin inkişafına paralel olaraq inkişaf etmişdir. İngiltərədə finans-kredit qurumlarının fəaliyyətinə nəzarəti aşağıdakı dövlət qurumları həyata keçirir:

1. İngiltərə Bankı;
2. Xəzinə;
3. İngiltərə kredit sistemi (mərkəzi bankdan başqa) aşağıdakı finans qurumlarından ibarətdir: kommersiya bankları; diskonto evləri; əmanət bankları; və ixtisaslaşdırılmış finans qurumları.

İngiltərə Bankı Mərkəzi bankın bütün funksiyalarını icra edir. Onlardan ən vacibi iqtisadi inkişafın artımı məqsədilə qiymətlərin sabitliyi və hökumətin iqtisadi siyasətinə dəstəyin göstərilməsidir. Bankıın əsas funksiyaları aşağıdakılardır:

• **Monetar siyasətin sabitliyi** –milli valyutanın (funt sterlinqin) kursunun sabitliiyini və alıcılıq qabilliyətini təmin etmək. Bu vəzifəni Bank əsasən faiz dərəcəsinin dəyişdirilməsi yolu ilə həyata keçirir. Faiz dərəcəsi Bankın Monetar Siyasət Komitəsi tərəfindən müəyyən edilir. Həmçinin Bank iqtisadiyyatı nağd pulla təmin etmək və nağd pulun fiziki dövriyyəsini təşkil etmək funksiyasına malikdir. Bank İngiltərə və Uelsdə əskinazların çap olunması üzrə inhisar hüququna malikdir. Şotlandiya bankları (The Royal Bank of Scotland, The Bank of Scotland və The Clydesdale Bank) və Şimali İrlandiya bankları (Bank of İreland, First Trust Bank, Nothern Bank və Ulster Bank) öz əskinazlarını buraxmaq hüququnu saxlayırlar, lakin bu əskinazların buxarılması İngiltərə Bankında birə-bir depozit ilə təyin edilməlididr.

• **Maliyyə sabitliyin dəstəklənilməsi** – burada maliyyə sistemi üçün təhlükələrin aradan qaldırılması nəzərdə tutur. Bu təhlükərlər bankın analitik xidmət və digər nəzarət orqanları tərəfindən müəyyən edilir. Bu təhllükələrin aradan qaldırılması üçün Bank daxili və xarici

bazarlarda maliyyə əməliyyatlarını aparır. İngiltərənin maliyyə sektorunun sabitliyinin təmin edilməsi məqsədlə Bank bir necə dövlət maliyyə qurumu, o cümlədən İngiltərə Xəzinədarlığı və Maliyyə Xidmətləri Təşkilati ilə əməkdaşlıq edir.

İngiltərədə finans qurumları əmanət cəlb etmək üçün Mərkəzi bankdan lisenziya almalıdır və bu lisenziyanın müddəti 2 il üçün etibarlıdır. İngilis əmanət banklarının cəlb etdikləri əmanətlərin ¼-i ölkə xaricində yaşayanların hesabına olur. İngilis əmanət bankları içində əmanətlərin 50%-dən çoxu 3 bankın əlindədir.

İngiltərə sənayeçilərinin qısamüddətli kredit ehtiyaclarını qarşılayan kredit qurumlarına diskonto evləri də deyildir. Diskonto evləri 1825-ci ildən etibarən fəaliyyətdədir. 1979-cu ildə diskonto evlərinin üçü aralarında banklararası bazar təşkil etmişlər ki, bu da onların likvidə olan ehtiyaclarını ödəməkdə yardımçı olmuşdur.

İngiltərədə banklararası pul bazarları 1971-ci ildən fəaliyyətdədir. Bu bazar bankların günlük kassa vəziyyəti səbəbi ilə aralarında qurduqları bir bazardır.

Bundan başqa, Londonda 56 ölkəni təmsil edən 250 bank şöbəsi mövcuddur. İxtisaslaşmış finans qurumlarını aşağıdakı qruplara bölə bilərik:

1. uzunmüddətli kredit qurumları;
2. istehlak və inşaat sektoruna kredit verən qurumlar;
3. sərmayə riskli qurumlar. (Vencur kapital şirkətləri)

Uzunmüddətli kredit qurumları aşağıdakılardır: sığorta şirkətləri, pensiya fondları. İstehlaka kredit verən və inşaat sektorunu dəstəkləyən quruluşların məqsədləri adlarından görünür. Sərmayə riskli qurumlar isə biznesə yeni atılan gənc biznesmenlərə yardım etmək məqsədi ilə fəaliyyət göstərir. İngiltərə Bankının səlahiyyətli orqanı 18 adamdan ibarət bir İdarə Məclisidir. Bunlar vəzifəyə kral tərəfindən təyin edilir. İdarə Məclisi tərəfindən seçilən müdirlər şurasına rəhbərliyi qubernor həyata keçirir. İdarə Məclisi komitələr şəklində çalışır və müxtəlif ixtisas komitələrindən təşkil edilir.

- Xəzinə;
- Hesabların nəzarəti;
- Xərclərin nəzarəti və təftişi;
- Kadrlar Komitəsi;
- Tədqiqat Komitəsi.

Bank bir neçə departamentə bölünmüşdür. Bankın departament müdirləri aşağıdakılardır: xəzinədarlıq;mühasibat və təftiş; dəftərxana; baş katiblik.

İtaliyanın pul-kredit sistemi. 1980-ci illərdə italyan pul-kredit sistemində əhəmiyyətli dəyişikliklər oldu: 1973-1983-cü illər ərzində İtaliya iqtisadiyyatındakı staqflasiyandan sonra İtaliya iqtisadiyyatı böyük çətinliklər yaşadı. Dövlət büdcəsinin kəsiri böyük rəqəmlərə çatmışdır. Təbii ki, belə vəziyyətdə dövlət borclanma kağızlarını ancaq yüksək faizlərlə sata bilərdi. Dövlətin faizli ödəmələri milli gəlirin 10%-nə yaxın idi. Ancaq daha sonra tətbiq edilən pul-kredit siyasəti nəticəsində inflyasiya hədləri aşağıya düşdü. 1980-ci ildən 1988-ci ilə qədər olan dönümdə istehsalatda illik artım 2,2% oldu və işsizlik isə 0,6% azaldı.

1999-cu ildə monetar və valyuta məzənnəsi siyasəti ilə bağlı cavabdehliyin Avropa Mərkəzi Bankına ötürülməsindən sonra İtaliya Bankı qərarların icrasını təmin edir, avronu buraxır və korlanmış əskinazları dövriyyədən çıxararaq məhv edir.

Digər funksiyalara bazara nəzarət, ödəniş sisteminə nəzarət, hesablaşmalar sisteminin təmin edilməsi, Dövlət Xəzinə Xidməti, Mərkəzləşdirilmiş Kredit Reyestri, iqtisadi təhlil və institusional məsləhət daxildir.

Avstriyanın pul-kredit sistemi. Avstriya Milli Bankının əsas funksiyaları aşağıdakılardır:

- Avrozona daxilində sabit-yönümlü monetar siyasət;
- Avstriyada maliyyə sabitliyinə nəzarət;
- Avstriyada ümumi dövlət və biznes cəmiyyətinin yüksək keyfiyyətliliklə təmin olunması;
- Ehtiyat aktivlərin idarə olunması;

Avro üzrə ödəniş sisteminin yerinə yetirilməsi

Avstriyanın kredit sistemində kommersiya banklarının payı 70%-dir. Bankların başlıca əməliyyatları xalqdan sərbəst pul vəsaitlərini toplamaq və onu iş dünyası üçün stimul etməkdir.

İrlandiyanın pul-kredit sistemi. İrlandiya Mərkəzi Bankı 4 noyabr 1942-ci ildə qurulmuşdur.13 mart 1979-cu ildən Avropa Birliyinin üzvüdür. İrlandiyada banklar 1825-1845-ci illərdə qurulmuş və hələ də inkişaf etməkdədir. İrlandiyada 1960-cı ildə iki böyük bank birləşmiş və nəticədə İrlandiyada bank sektorunda güclü bank qrupu yaranmışdır (AMB və İrlandiya Bankı). Bu banklar hələ də İrlandiya maliyyə bazarının aktivlərinin 80%-nə malikdir. Son zamanlar İrlandiya banklarının filiallarına İngiltərə və ABŞ-ın maliyyə bazarlarında rast gəlmək mümkündür. İrlandiya bankları olduqca keyfiyyətli bir iş imkanlarından istifadə edirlər. Maaşlar olduqca yüksək və çalışma saatları daha azdır. Çalışma saatlarının azlığı İrlandiya banklarında texnoloji yeniliklərdən yüksək səviyyədə istifadə edilməsinin bir göstəricisidir. İrlandiyada sığortaçılıq sektoruna edilən bəzi vergi güzəştləri sığorta bazarının inkişafına təkan vermişdir. Bu sektorda İrlandiya həyatı sığorta şirkətinin böyük çəkisi vardır (bazar payının 50%-i). Bu şirkətin ABŞ və Avropa Birliyi ölkələrində filialları mövcuddur.

İrlandiya birjası demək olar ki, İngiltərədəki bazarlarla birləşmiş kimidir. Gündə cəmi 3 saat olmaq üzrə 2 seans aparılır.

Bütün bankların fəaliyyətinə nəzarəti İrlandiya Mərkəzi Bankı həyata keçirir. İrlandiya Mərkəzi Bankının sədri olduqca müstəqildir. Yəni bankın sədri 7 illik bir müddət üçün baş nazirin təklifi və prezidentin təsdiqi ilə vəzifəyə təyin edilir.

Danimarkanın pul-kredit sistemi. Danimarkada bankçılıq sektorundakı ilk fəaliyyət XVIII əsrin əvvəllərində əmanət banklarının qurulması ilə başlanmışdır. Banklar topladıqları vəsaitləri dövlət istiqrazlarına qoyardılar. Kommersiya mənasında bankçılıq Danimarkada bir çox yanlışlıqlardan sonra İngilis bankçılığını nümunə almaq şərti ilə 1846-cı ildə qurulmuşdur. Danimarka Mərkəzi Bankı isə 1813-cü ildə qurulmuşdur. İndiyə qədər bankın ən vacib vəzifəsi Danimarkanın pul vahidi olan kronun xarici valyutalara qarşı dəyərini qorumaqdır. Kopenhagen qiymətli kağız bazarı isə 1986cı ildən etibarən kompyüter sisteminə keçmişdir.

Danimarka Milli Bankının Bankın fəaliyyətinin əsas məqsədi sağlam və təhlükəsiz məzənnə sistemini saxlamaq, həmçinin, pul dövriyyəsi və kreditlərin genişlənməsinə kömək etmək və onu tənzimləməkdir. Bankın əsas vəzifələri aşağıdakılardır:

- Qiymətləri sabitləşdirmək;
- Ödənişlərin şəffafflığını təmin etmək;
- Maliyyə sisteminin sabitliyini təmin etmək.

İsveçin pul-kredit sistemi. İsveç Dövlət Bankı 1668-ci ildə qurulmuşdur. İsveçin pul-kredit sistemi dünyada ən nəzarətli və intizamlı sistemə sahibdir. Xarici sərmayədarların İsveçə, isveçlilərin də xaricə investisiya qoymaları 1980-ci illərə qədər olduqca çətin idi. Bu tarixdən etibarən maneçiliklər yavaş-yavaş aradan qaldırılmaqdadır.

Hiderland pul-kredit sistemi. Niderland Mərkəzi Bankı 1814-cü ildə qurulmuş, 13 mart 1979-cu ildə isə Avropa Birliyinə daxil olmuşdur.

Hollandiyada pul-kredit siyasətini Mərkəzi Bankı həyata keçirir. Hollandiya Mərkəzi Bankı 1814-cü ildə Kral M.William tərəfindən qurulmuşdur.

1998-ci ilin Bank Qanununa əsasən Niderland Bankının fəaliyyəti aşağıdakı funksiyalardan ibarətdir:

- Avropa Mərkəzi Banklar Sistemi çərçivəsində Bank Avropa İttifaqının monetar siyasətinin yerinə yetirilməsinə dəstək göstərilməsi, iqtisadi sabitliyin qorunub saxlanılması, ümumilikdə Avropa İttifaqının iqtisadi siyasətinə dəstək göstərilməsi;
- Ödəniş sisteminin fəaliyyətinin dəstəklənməsi və pul dövriyyəsinin təmin edilməsi;
- Dövlətin qızıl-valyuta ehtiyyatlarının idarə edilməsi və xarici valyuta bazarlarında əməliyyatların aparılması;
- Digər banklara, investisiya təşkilatlarına və valyuta mübadiləsi ofislərinə nəzarət edilməsi;
- Statistik məlumatların toplanması.

Bundan əlavə, Bank dövlətin maraqlarını qorumaq məqsədi ilə kral sərəncamlarına əsasən digər funksiyaları yerinə yetirmək hüququna malikdir. Həmçinin Avropa Mərkəzi Bankı Niderland Bankından əlavə funksiyaları həyata keçirməsini tələb edə bilər.

Bankın İdarə Heyəti Prezident və 5 İcraçı Direktorlardan ibarətdir. İdarə Heyətinin üzvləri Kral tərəfindən 7 il müddətinə təyin olunurlar. Bundan əlavə Bankda 10 nəfərdən ibarət Müşahidə Şurası var. Müşahidə Şurası Bankın büdcəsini, illik hesabatları və İdarə Heyətinin xüsusi qərarlarının təsdiq edir. Bank daxilində məsləhətverici qurum rolunu Bank Şurası həyata keçirir. Bankın Prezidenti Bankın apardığı siyasəti və ümumi iqtisadi və maliyyə inkişafı barədə hesabat verir. Bank Şurası 14 müstəqil ekspert və maliyyə sektorunun təmsilçilərindən ibarətdir. Bank Şurasında və Müşahidə Şurasında hökümət təmsilçiləri də daxildir.

Hollandiyada kommersiya bankları üzərində Mərkəzi Bankın nəzarəti ciddi hiss edilir. Banklar hər ay aktivlərin ümumi vəziyyəti haqqında Mərkəzi Banka hesabat təqdim edirlər. Bundan başqa Mərkəzi Bank kommersiya banklarını müxtəlif risklərdən (likvid, faiz riskleri kimi) qorumaq məqsədi ilə bankların mühasibat sistemini ciddi təftiş edir. Hollandiya bankçılıq sektorunda bir təmərküzləşmə vardır: ən böyük üç bankın (ABN FF Rabo, NINB Post Bank) ümumi bankların aktivləri içərisində xüsusi çəkisi 80%-dir. Ancaq buna baxmayaraq bank sistemində olduqca gərgin bir rəqabət mühiti vardır. Amsterdam birjası ölkə iqtisadiyyatında əhəmiyyətli yerə malikdir. Amsterdam birjasında əməliyyat görən səhmlərin yarısından çoxu xarici şirkətlərə məxsusdur.

Lüksemburqun pul-kredit sistemi. Lüksemburqun pul sisteminin əsasları 15 may 1979-cu ildə qəbul edilən Qanun ilə tənzimlənmişdir. Bu Qanuna görə 1 Lüksemburq frankı = 1 Belçika frankı nisbətində sabitləşmişdir. Bu Qanun ilə birlikdə Lüksemburq frankı Avropa Valyuta Sistemində yer almışdır. 23 may 1983-cü ildə pul sistemini tənzimləyən Qanunda dəyişiklik edilmiş və Qanuna yeni əlavələr edilməklə Lüksemburq Pul Qurumu qurulmasına icazə verilmişdir. Lüksemburq Pul Qurumu tədavülə pul çıxarır və hərəkətinə nəzarət edir. Bundan başqa Lüksemburq Pul Qurumu maliyyə kredit sektorunun fəaliyyətinə nəzarət edir. Belçika ilə Lüksemburq arasında iqtisadi sahədə çox sıx əməkdaşlıq var.

Lüksemburq Mərkəzi Bankının əsas vəzifəsi AMBS missiyalarının həyata keçirilməsinin dəstəklənməsindən ibarətdir. O, həmçinin dövlət müəssisələri, maliyyə sektoru və ümumilikdə dövlət iqtisadiyyatını xidmətlərlə təmin edir.

Lüksemburq Mərkəzi Bankının ali rəhbər orqanları Şura və İdarə Heyətidir.

Şura – İdarə Heyətinin üç üzvündən və Lüksemburq Hökuməti tərəfindən təyin olunan 6 üzvdən ibarətdir. Şuranın Prezidenti İdarə Heyətinin Baş direktorudur.

İdarə Heyəti – Baş direktor və 2 direktordan ibarətdir.

Bankda üç istiqamət üzrə 9 departament və 1 katiblik fəaliyyət göstərir.

Lüksemburq bankçılıq sektorunda xarici sərmayəli bankların miqdarı çoxluq təşkil edir. Hətta Lüksemburq Avropa Birliyinin bəzi qurumlarına ev sahibliyi edir. Bunların içində Avropa İnvestisiya Bankı, Avropa Komissiyası Kredit İnvestisiya Bölməsi, Avropa Valyuta Əməkdaşlıq Fondu kimi qurumları saya bilərik.

Yunanıstanın pul-kredit sistemi. Yunanıstan Mərkəzi Bankı ölkədə pul-kredit siyasətini həyata keçirən və ona görə məsuliyyət daşıyan bir dövlət qurumudur.

Yunanistan ərazisində milli valyuta – Draxmanın yerinə avronun dövriyəyə buraxılması, avrozonada vahid monetar siyasətin keçirilməsinə imkan yaradılması və valyuta məzənnəsi siyasətinin koordinasiyasını nəzərdə tutur. 2002-ci ildən Yunanıstanda Avro dövriyyəyə buraxılmışdır.

Monetar siyasəti və valyuta məzənnəsini müəyyən etməklə, Bank digər vacib funksiyaları həyata keçirir. Bunlar aşağıdakılardır:

- Qiymət siyasətinin sabit saxlanılması;
- Özəl bank sektoruna nəzarət;
- Dövlətin qızıl-valyuta ehtiyatlarının saxlanılması və idarə edilməsi;
- Banknotların çap edilməsi və dövriyəyə buraxılması;
- Hökumətin xəzinədarlıq və fiskal agenti rolunda çıxış etməsi;
- Ödəniş sistemlərinin təhlükəsizliyini təmin edilməsi.

Bankın İdarə Heyəti Sədr, iki sədr müavinləri və 9 üzvdən ibarətdir. Bundan əlavə İdarə Heyətinə hökumətin Baş təmsilçisi də daxildir. Həmçinin Bankda 1997-ci ildə yaradılmış Monetar

Siyasət Komitəsi və Bankçılıq və Kredit Komitəsi fəaliyyət göstərməkdədir. Bankda ümumildə16 departament fəaliyyət göstərir.

Bank Yunanıstanda 38 kommersiya bankı var. Lakin buna bu gündə baxmayaraq bankçılıq sektorunda oliqopolistik quruluş davam edir.

Yəni 38 bankın fəaliyyətinə baxmayaraq (15 yunan və 21 xarici 3 böyük dövlət bankı), ümumi əmanətlərin 80 %-ni və kreditlərin 75%-ni 3 dövlət bankı əlində saxlayır. Bundan başqa müəyyən sahələrdə ixtisaslaşmış daha 8 kredit qurumu dövlətin nəzarətindədir. Yunanıstanda bank sektorunun mənfəəti Avropa standartından aşağı səviyyədədir. Bunun başlıca səbəblərindən biri də, xüsusi ilə dövlət nəzarətindəki bankların kənd təsərrüfatına və kiçik müəssisələrə verdiyi kreditin geri ödənməməsidir.

AB yeni üzv ölkələri – Şərqi Avropa dövlətləri.

Polşanın pul-kredit sistemi. Polşa Mərkəz Bankı 1828-ci ildə qurulmuşdur. 1870-ci ilə qədər Polşa Bankı polyak iş adamlarına kredit verən ən böyük kredit qurumu idi. 1870-ci ildən sonra Polşa Bankı Rusiya Mərkəzi Bankının filialına çevrildikdən sonra Polşa Bankının fəaliyyəti zəiflədi. Polşada ilk kommersiya bankı 1879-cu ildə Varşavada açılmışdır. 1871-ci də isə Varşavada Uçot Bankı açılmışdır. 1914-də Polşada kommersiya banklarının sayı 6-a çatmışdı. 1990-cı illərin sonlarından Polşada 1600-dən çox kommersiya bankı fəaliyyət göstərir, o cümlədən onlardan 81-i özəl, 6-ı dövlət, 9-u xarici sərmayəli, 4-ü müştərək və 1510-u kooperativ bankdır. Polşada 21700 nəfərə 1 şöbə düşür və bank sektorunda çalışanların sayı 240000-dir. 1992-ci ildə dövlət sərmayəli bankı "İxracatın İnkişafı Bankı" özəlləşdirildi və bankın nəzarət səhm paketini Avstriya bankı "Akhengesellshugt" satın aldı. Xarici banklar içində sıra ilə Amerika sərmayəli banklar, Niderland, Alman, Avstriya, Fransa, İtaliya, İngiltərə, Kanada, İrlandiya və İsveçrə banklarıdır. Ümumiyyətlə, Polşa kommersiya banklarının yarıdan çoxunun səhmdarları xaricilərdir. Lakin bütün bunlara baxmayaraq, əhali əmanətləri daha çox yerli sərmayəli banklarda saxlamağa üstünlük verir.

PMB-nın fəaliyyətində bir sıra əsas istiqamətlər üzrə ayırmaq olar:

- Monetar siyasət;
- Pulun çap edilməsi;
- Ödəniş sisteminin inkişaf etdirilməsi;
- Dövlətin qızıl-valyuta ehtiyatlarının idarəedilməsi;
- Dövlət Xəzinədarlığına xidmət göstərməsi;
- Təhsil və informasiya funksiyası.

Polşa Milli Bankı Bankın Prezidenti, Monetar Siyasət Şurası və İdarə Heyəti tərəfindən idarə olunur.

Bankın Sədri ölkə Prezidentinin təklifi əsasında Seym tərəfindən 6 il müddətinə təyin edilir. Bankın Sədri Monetar Siyasət Şurası, İdarə Heyəti və Banklara Nəzarət Komissiyasının iclaslarında başçılıq edir. Sədr hökumət və digər dövlət qurumlarından asılı olmamalıdır. Həmçinin o, hər-hansı siyasi blok və ya partiya üzvü ola bilməz. Sədr vəzifəsinə iki müddətdən artıq seçilmək olmaz.

Monetar Siyasət Şurasının Bankın Sədrindən əlavə 9 nəfər üzvü var. Bunlar Prezident, Seym və Senat tərəfindən bərabər şəkildə 6 il müddətinə təyin olunurlar. Monetar Siyasət Şurası monetar siyasətin əsas istiqamətlərini və həyata keçirmək prinsiplərini müəyyənləşdirir. Şura əsas faiz dərəcələrinin müəyyən edir və açıq bazar əməliyyatlarının prinsiplərini təyin edir. Həmçinin Şura Bankın maliyyə planını və Bankın fəaliyyəti üzrə hesabatlarını təsdiqləyir.

İdarə Heyəti Polşa Milli Bankının fəaliyyətini idarə edir. Əsas məqsədi Monetar Siyasəti Şurasının qərarlarının yerinə yetirmək, Polşa Milli Bankının fəalliyyət planını qəbul etmək və yerinə yetirmək, Şura tərəfindən qəbul ounan maliyyə planını icra etməkdən ibarətdir.

Çexiyanın pul-kredit sistemi. Çexiyada mərkəzi bank sistemi 1919-cu ildən fəaliyyətə başlamış və aşağıda qeyd olunan dövrlərə bölünür:

- Maliyyə Nazirliyi tərkibində bank bölməsi: 1919-1926;
- Çexoslovakiya Milli Bankı: 1926-1934;
- Çexiya və Moraviya Milli Bank: 1945-1950;
- Çexoslovakiya Dövlət Bankı: 1950-1992;

• Çexiya Milli Bankı: 1993-cü ildən etibarən.

Çexiya Milli Bankının (ÇMB) əsas məqsədi qiymət sabitliyidir. İkinci məqsəd isə davamlı iqtisadi inkişafın dəstəklənməsidir.

Bankın 2005-2010-cu illlər üzrə planlaşdırılan strateji məqsədləri aşağıdakılardır:

• İnflyasiyanı hədəf üzrə müəyyən olunan həddə saxlamaq;

• Avroya problemsiz keçidin təmin olunması məqsədilə hökumətlə yaxından işləmək və Çexiya iqtisadiyyatını Avropa Monetar İttifaqı daxilində sabit inkişaf etdirmək;

• Yeni kapital adekvatlığı çərçivəsini təqdim etmək və maliyyə bazarı üzrə tənzimləmə və nəzarətin bir araya gətirilməsini müvəffəqiyyətlə sona çatdırmaq;

• Özünün analitik və tədqiqat potensialını inkişaf etdirmək;

• Özünün Çexiya Respublikasının maraqlarını təmsil edən Avropa Mərkəzi Banklar Sisteminin nüfuzlu üzvü kimi formalaşdırılmasını təmin etmək;

• Vahid Avropa valyutasının tətbiqi üçün hərtərəfli hazırlaşmaq (Avronu dövriyyəyə buraxmaq və yerli ödəniş və hesablaşmaqlar sistemini Avropa İttifaqının Sistemləri ilə əlaqələndirmək);

• ÇMB-nin yeni tələbləri adaptasiya edə biləcək açıq təsisata çevrilməsi məqsədilə insan resurslarını inkişaf etdirmək;

• Avronun qəbul olunmasından əvvəl Milli Mərkəzi Bankları üzrə avrozonanın mövqeyini təhlil etmək.

7 üzvdən ibarət olan (sədr, iki sədr müavini və digər dörd üzv) İdarə Heyəti maliyyə siyasəti və bu siyasətin icra alətlərini müəyyən edir və əsas maliyyə siyasəti tədbirləri və ÇMB-nin əməliyyatlarına dair qərar verir, maliyyə bazarı nəzarətinə dair əsas tədbirlər inzabati prosedurlara müraciətlər üzrə qərarları təsdiqləyir.

ÇMB Praqada yerləşən Baş ofis və 7 regional filialdan ibarətdir. ÇMB ikipilləli idarəetmə sisteminə malikdir.

Hal-hazırda Çexiyada 53 bank fəaliyyət göstərir və bazarın nəzarəti xarici sərmayəli bankların əlindədir. Bütün bank əməliyyatlarının 90 %-dən çoxu həmin banklar vasitəsi ilə həyata keçirilir.

1996-cı ildə Çexiya banklarının böhranı başladı və bir neçə bankın iflası ilə sonuclandı. Böhran nəticəsində bankların sayı 48-ə düşdü. Böhranın başlıca səbəblərindən biri də "Virtuallaşma" əməliyyatının uğursuzluğu idi. 1 yanvar 1998-ci ildə Çexiya banklar haqqında yeni qanun qəbul edildi və qanuna görə banklara qeyri-maliyyə qurumlarının səhmlərinin 50 %-dən çoxunu əldə saxlamasına və bank məmurlarının qeyri-maliyyə qurumlarının direktorlar şurasının üzvlüyünə məhdudiyyət qoyuldu.

Maliyyə qurumlarının fəaliyyəti üzrə yeni nəzarət orqanı yaradıldı.

Bolqarıstanın pul-kredit sistemi. 1879 – Bolqarıstan Milli Bankı yaradılmışdır.

1885 – Bolqarıstan Milli Bankı haqqında Qanunun qəbul olunması ilə Bolqarıstan Milli Bankı pul çapı hüququna malik dövlət bankı olmuşdur.

1912-1924 – Milli Bank Maliyyə Nazirliyinin təzyiqi altında fəaliyyət göstərməyə məcbur edilmişdir.

1926 – Bolqarıstan Milli Bankı haqqında yeni qanunun buraxılması ilə Milli Bankın müstəqilliyi artırılsa da, 1937-ci il düzəlişləri ilə müstəqillik məhdudlaşdırılmışdır.

Mərkəzləşdirilmiş iqtisadiyyata əsaslanan yeni bank qanunvericiliyinin qəbul olunması ilə bank sektoru dövlət inhisarına keçdi, kommersiya banklarının mövcudluğuna son qoyuldu və mərkəzi bank sistemi öz gücünü itirdi.

1980 – İkipilləli bank sisteminə keçildi.

1991 – Yeni bank qanunvericiliyinin qəbul edilməsi ilə müasir bank sisteminə keçid oldu.

1997 – Yeni Banklar haqqında Qanunun qəbul olunması ilə monetar sistem yenidən formalaşdırılmışdır.

1998 – BNB Printing Works-in fəaliyyətə başlaması ilə əskinaz və qiyməti kağızların çapına başlanmışdır.

2004 – Avronun 2010-cu ilə Bolqarıstana təqdim olunması ilə bağlı strategiyanın tətbiqinə başlanmışdır.

2005 – Banklar haqqında edilən yeni düzəlişlər nəticəsində Bolqarıstan Milli Bankı tam müstəqillik əldə etmişdir.

Bolqarıstan Milli Bankı əskinaz və sikkələrin buraxılması, bank sektoruna nəzarət və onun tənzimlənməsi, dövlətin valyuta ehtiyatlarının saxlanması öhdəliklərini daşıyır. Milli Bank həmçinin Bolqarıstan Zərbxanasının da tək sahibidir.

Bolqarıstan Milli Bankının İdarə Heyəti Sədr, 3 sədr müavini və üzvdən ibarətdir. Bankda 4 departament (hər biri direktoratlıqlara bölünür), 1 baş katiblik, Sədrin ofisi, 5 ayrı direktoratlıq və İdarə Heyətinin katibliyi fəaliyyət göstərir.

Bolqarıstanda bank sektoru ilə əlaqədar məlumatlar aylıq, rüblük, illik dərc edilmişdir. 1991-ci ildən etibarən "Monetarnı Raport" adlı ingiliscə və bolqar dilində bir məlumat kitabçası dərc edilməyə başlanmışdır. 1992-ci ildə "Bank araşdırmaları" adlı populyar elmi jurnal da çıxmağa başlamışdır.

AB üzvlüyünə namizəd ölkə – Türkiyənin pul – kredit sistemi

Cümhuriyyət elan edildikdən 7 il sonra 11.6.1930-cu il tarixində Mərkəzi Bankın 1715 saylı qanunu çıxmışdır. Bu qanuna görə Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı 3.10.1931-ci il tarixindən işləməyə başlamışdır. 1715 saylı qanunun 1-ci maddəsinə görə Türkiyədə banknot çıxartma səlahiyyəti Mərkəzi Banka verilmişdir. 1715 saylı qanun 40 il qüvvədə olmuşdur. 26.01.1970-ci il tarixində 1211 saylı yeni qanun da banknot emissiyası səlahiyyətini 1999-cu ilə qədər Mərkəzi Banka vermiş və Bankın ixrac etdiyi banknotların tədavülünü məcburi edərək ödəmə güclərini məhdudiyyətsiz olaraq müəyyən etmişdir. Türkiyədə Mərkəzi Bankın emissiyadan başqa, pul siyasəti aparmaq, pul təklifini nizamlamaq, banklara kredit vermək, pul siyasəti vasitələrini müəyyən etmək, valyuta kurslarını müəyyən etmək kimi vəzifələri də vardır. Mərkəzi Bank dövlətin bankıdır. Bu baxımdan dövlətin hesabatlarını aparır və dövlətə pul verir. Cümhuriyyət dövründə ilk qurulan bank 1924-cü ildə avqust ayında fəaliyyətə başlayan İş Bankıdır. 1925-ci ildə qurulan Sənaye Bankı, 1932-ci ildə Sənaye və Kredit Bankına çevrilmişdir. 1930-cu illərdə 5 dövlət bankı təsis edilmişdir. Bunlar Sümer Bank (1933), İller Bank (1933), Etibank (1935), Dənizbank (1933) və Xalq Bankıdır (1938).

Türkiyədə 1958-ci ildə qəbul edilən 7129 saylı Banklar Qanunu ilə dövlət banklara kredit sahəsində sərbəstlik vermişdir. 1960-cı illərdən sonra Türkiyədə çox şöbəli bankçılıq sürətlə inkişaf etmişdir. Bankların idarə edilmə səlahiyyətlərinin özəl holdinqlər tərəfindən ələ keçirilməsinə mane olmaq məqsədi ilə 25.4.1985-ci il tarixdə 3182 saylı qərar qüvvəyə minmişdir. 1980-ci ildən sonra Türkiyədə xarici bank və şöbə olmayan bankların sayı sürətlə artmışdır. Türk bank sistemi 1980-ci ildən sonra xarici siyasətə başlamış və xarici bankların kəskin rəqabəti ilə qarşılaşmışdır. Türkiyədə uzun müddət 44 bank mövcud olmuşdursa, 1990-cı illərdə 70-ə çatmışdır. 1993-cü ildə Sümer Bankın bankçılıq hissələri özəlləşdirilmiş, 5 aprel 1994-cü il qərarları nəticəsində Mərmərə Bankı, TYT Bank və İmpeks Bankının fəaliyyətləri dayandırılmışdır. 1998-ci ildə Türkiyə Ticarət Bankının Mərkəzi Bank sığorta fonduna keçən hissələri özəlləşdirmə əhatəsinə alınmış, lakin daha sonra təxirə salınmışdır. İnterbank 1998-ci ildə Mərkəzi Bank sığorta fondunun idarəçiliyinə keçmişdir. 1990-cı ildən sonra Banklar qanununda dəyişiklik edilərək, bankların nağd və qeyri-nağd kreditlərinin öz mənbələrinin 20 qatını keçə bilməyəcəyi hökmünü qəbul etmişdir.

Türkiyədə 1980-ci illərdən sonra aparılan iqtisadi islahatların nəticəsində iqtisadiyyatda bütün qiymətlər 2 faktorun təsirində olmuş və bütün qiymətlər bunlara görə formalaşmaqdır faiz dərəcələri və valyuta kursu. Türkiyənin kredit sistemində islahatlar 80-ci illərin başlanğıcında keçirilməyə başlandı.

24 yanvar 1980-ci il qərarlarından sonra və xüsusilə 1 iyul 1980-ci ildən sonrakı dövr Türk bank sektoru baxımından çox vacibdir. Çünki 1.7.1980-ci ildə müddətli əmanətə və kreditlərə tətbiq edilən faiz nisbətləri sərbəstləşdirilmiş, banklara əmanət sertifikatı çıxartmaq icazəsi verilmişdir. 1980-ci ildən sonra iqtisadiyyatda maliyyə sərbəstliyinin təmin edilməsi üçün vacib

addımlar atılmışdır. Faizlər sərbəst buraxılaraq, faizlərin bazar gücləri tərəfindən müəyyən edilməsi əsas faktor olaraq görülmüşdür.

Türkiyədə 1982 və 1983-cü illərdə baş verən bank böhranları nəticəsində əmanət faizlərinin müəyyənləşməsindəki sərbəstlik 1.1.1983-cü ildə sona yetmişdi. 1987-ci ilin ortalarında faizlər yenidən sərbəstləşdirilmiş, 1989-cu ildə banklararası faiz yarışına qarışması nəticəsində Mərkəzi Bank faizlərə üst limit müəyyən etmişdi.

1985-ci ildə çıxarılan 3182 saylı bank qanununa görə Türkiyədə bir bankın təsis edilməsi və ya xarici ölkələrdə təsis edilmiş bir bankın Türkiyədə açacağı ilk şöbəsi üçün Nazirlər Kabinetindən icazə alınması lazımdır. Üsulla bağlı düzəlişlər isə Xəzinə tərəfindən müəyyən edilir.

1980-ci ildən sonra yeni ticarət banklarının qurulmasına icazə verilməsilə 8-i xarici olmaqla yeni 19 ticarət bankı qurulmuşdur. Bu bankların bir hissəsi şöbə açaraq Türkiyədə fəaliyyətə başlayan xarici bankların mərkəzi şöbələrinin Türkiyədə təsis edilmiş bank statusuna çevrilməsilə yaranmışdılar. 1988-1997-ci il müddətində Nazirlər Kabineti 7-si inkişaf və investisiya bankı sektorunda olmaqla 15 bankın təsis edilməsinə icazə vermişdi. Beləliklə, 1980-ci ildə 43 bank var idisə, 2002-ci ildə bu say 62 idi. 62 bankın 21-i ticarət, 3-4 dövlət sərmayəli, 36-sı özəl sərmayəli, 3-4 xarici sərmayəli, 15-i inkişaf və investisiya bankıdır. 1980-ci ildən sonra bankların sayının çoxalmasına baxmayaraq, dövlət sərmayəli bankların sayında azalma, özəl və xarici sərmayəli bankların sayında isə artma olmuşdu. Ancaq bu say artımına baxmayaraq, xarici sərmayəli bankların sektordakı payı artmamışdır.

Türkiyədə 1980-ci ildən sonra bir çox firma aldıqları kreditləri ödəyə bilməmək təhlükəsində idilər. Bunun nəticəsində bank kreditlərinin əsas hissəsi donmuş kreditlər vəziyyətində idilər. Bu vəziyyət bank sektorundakı böhranı daha da dərinləşdirmişdir. 1983-1984-cü illərdə 4 bank məcburi olaraq Ziraət Bankın nəzdinə keçmiş, 2 bankın fəaliyyəti dayandırılmışdır. 1988-ci ildə Anadolu Bankı Əmlak Kredit Bankı ilə birləşdirilərək Türkiyə Əmlak Bankı yaradılmışdır. 1992-ci ildə də Türkiyə Müəllimlər Bankı Xalq Bankına birləşdirilmişdir. Bütün bu dəyişikliklərdən sonra 1980-ci ildən sonra bankların nəzarət sistemi gücləndirilmişdir. 3182 saylı qanun ilə bankların xüsusi vəsaitləri artırılmış, verəcəkləri kreditlərə məhdudiyyətlər qoyulmuşdur. Maliyyə vəziyyətləri pozulan bankların gücləndirilməsi üçün Qanunda lazımi qərarları verə bilmə səlahiyyəti nəzarət orqanlarına verilmişdir. 1994-cü ildə Qanunda edilən dəyişikliklər ilə bankların sərmayələrindəki payların müəyyən limitin üzərində olması xəzinənin icazəsinə bağlı idi.

Bank sektorundakı mənfi dəyişikliklərdən sonra qanunlarda dəyişikliklər edilərək, nəzarət orqanlarının banklar üzərindəki vəzifələri artırılmışdır. 25.03.1987-ci ildə 3332 saylı qanun çıxarılmış və bu qanun çərçivəsində banklar çətin vəziyyətdən qurtarılmışdılar. Lakin görülən bütün tədbirlərə baxmayaraq kredit problemini həll etmək mümkün olmamışdı. Türkiyədə bank sektoru 1980-ci ildən qabaq oliqopolist bazar tipində ikən 1980-ci ildən sonra qismən bu tipdən qurtulmuşdu.

24 yanvar 1980-ci il qərarlarına qədər qapalı bir iqtisadiyyatda varlığını sürdürən türk bank sistemi iqtisadiyyatın liberallaşmasına paralel olaraq maliyyə sektorunda baş verən yenidən qurma dövründəki tərəqqidən çox təsirlənmişdir.

1994-cü il iqtisadi böhranı xüsusilə bank sistemini çox zəiflətmişdi. Sistemdəki 3 bank öhdəliklərini vaxtında yerinə yetirə bilməmiş və bu bankların fəaliyyətləri dondurulmuşdur. Bank sistemində inamın qorunması və inkişafın yenidən təmin edilməsi üçün ehtiyat əmanətlərin hamısına dövlətin zəmanəti tətbiq edilmişdir. Mükafat nisbətlərinin yüksəldilməsi, minimum ödənilmiş sərmayə həcminin artırılması, məcburi müddət nisbətinin 20%-dən 25%-ə yüksəldilməsi kimi bank sisteminə yönələn, bankların valyuta mövqeləri ilə sərmayə maksimumu arasında yeni izahlar verilmiş və valyuta mövqeyini sərmayə maksimumuna məhdudiyyət qoyulmuşdur. Bu nisbət 50% ikən 1999-cu ilin iyun ayında edilən düzəlişlər ilə mərtəbəli olaraq 20%-ə düşmüşdür.

Türkiyədə 1980-ci ildən sonra qurulan xarici bankların da təsirilə türk bankları xidmət təklifində texnikadan daha çox istifadə edilməyə başlanmışdır. Bu dövrdə banklar bir tərəfdən istehlak kreditləri, kredit kartları və internet bankçılıq kimi yeni fərdi bankçılıq vəsaitlərini

gündəmə çıxarırkən, digər tərəfdən sərmayə bazarlarındakı fəaliyyətlərini artırmışdılar. Sərmayə hərəkətlərinin sərbəstləşdirilməsindən sonra türk bank sistemi xarici maliyyələşdirmə imkanlarını artırmış, bundan başqa beynəlxalq aləmdə getdikcə artan ticarət həcminə bağlı olaraq sektor xarici ticarətin maliyyələşdirilməsinə daha çox önəm verilmişdir. Bu inkişaf bankların ölkə daxili mənbələrdəki yüksək real faiz nisbətlərindən mənbəyini götürən fond məsrəflərini qismən də olsa azaltmalarını təmin etmiş və böyümələrinə dəstəkləyici bir faktor olmuşdur. Bu inkişaf Türkiyədə getdikcə artan pul tədavülünün təsiri ilə bankların xarici pul cinsindən öhdəliklərini artırmış və xarici pulun açıq mövqeyinin yüksəldilməsinə səbəb olmuşdur. Türk bank sistemi 2 əsas bank qrupundan ibarətdir. Bunlar ticarət bankları və inkişaf-investisiya banklarıdır. Bundan başqa hər qrup sərmayə mənbəyinə görə özəl, dövlət və xarici olmaqla 3 qrupa bölünür.

Türkiyədə bankların mənbə məsrəflərini artıran və mənbələrin istifadəsini məhdudlaşdıran səbəblərin birincisi əmanət qarşılıqları və disponibilitenin tətbiqidir. Qarşılıqların tətbiqinə təqdim edilən təşkilatlar topladıqları mənbələrin vacib bir hissəsini sərbəst olaraq istifadə edə bilməzlər. Bu vəziyyət istifadə edilməyən mənbələrin məsrəflərinin istifadə edilən mənbələrin üzərinə yüklənməsinə yol açır. Beləliklə, mənbə məsrəfi ilə kredit məsrəfi arasındakı fərq müəyyənləşmiş olur. Bu da iqtisadiyyatda istehsal edilən əmtəə və xidmətlərin məsrəflərini yüksəltmədə, həm də daxildə, həm də xaricdə rəqabəti azaldır. Mənbələrin maliyyə sistemində istifadəsi məhdudlaşır.

Hal-hazırda Türkiyənin kredit sisteminin quruluşları beş qrupdan ibarətdir.

1 Mərkəz Bankası;
2 Əmanət bankları;
2.1. Dövlət bankları;
2.2. Özəl banklar;
2.3. Xarici banklar;
3 Maliyyə-kredit xidmət qurumları (vasitəçi qurumlar);
3.1. Fond birjası;
3.2. Bankerlər;
4 Digər maliyyə-kredit qurumları;
4.1. İnvestisiya bankları;
4.2. Sığorta şirkətləri;
4.3. İnvestisiya fondları;
5 Yarı maliyyə-kredit qurumları;
5.1. Sosial sığortlar qurumu;
5.2. Türkiyə Əməkli Sandığı;
5.3. Bağkur kimi sosial müdafiə qurumları.

Müasir dövrdə bank fəaliyyətinin səciyyəvi olan dörd əsas növünü fərqləndirmək olar:

1. Dövlət sərmayəli ixtisas bankları;
2. Özəl banklar;
3. Xarici banklar;
4. İnvestisiya bankları. (Onlar milli iqtisadiyyatın inkişafina yönəlmiş uzunmüddətli layihələrə vəsait qoyur və buna görə də Türkiyənin investisiya bazarının inkişafinda mühüm rol oynayırlar). İnvestisiya bankları depozit əməliyyatları aparmasalar da, Türkiyə şirkətlərinin modernləşməsi üçün Mərkəzi Bankın ehtiyatlarından və xarici ölkələrin kredit ehtiyatları mənbələrindən istifadə etmək imkanına malikdirlər.

Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı haqqında Qanuna uyğun olaraq Bankın fundamental vəzifələri aşağıdakılardır:

- Açıq bazar əməliyyatlarının həyata keçirilməsi;
- Türk Lirəsinin daxili və beynəlxalq dəyərinin qorunması məqsədilə zəruri tədbirlərin görülməsi və Türk Lirəsinin qızıl və xarici valyutalara qarşı paritetinin müəyyənləşdirilməsi məqsədilə hökumətlə birlikdə valyuta siyasətinin həyata keçirilməsi;
- Ölkənin qızıl və xarici valyuta ehtiyatlarının idarəedilməsi;
- Türk Lirəsinin həcminin və tədavülünün tənzimlənməsi, ödəniş, qiymətli kağızların transferi və hesablaşmalar sisteminin yaradılması;

• Maliyyə sistemində sabitliyin gücləndirilməsi, pul və xarici valyuta bazarlarına münasibətdə tədbirlərin görülməsi;

• Maliyyə bazarlarının monitorinqinin aparılması;

• Banklardakı depozitlərin şərtlərinin, növlərinin və xüsusi maliyyə qurumlarında iştirakla bağlı şərtlərin müəyyənləşdirilməsi.

• Bankın fundamental səlahiyyətləri aşağıdakılardır:

• Türkiyədə pulların tədavülə buraxılması;

• Hökumətlə birgə inflyasiya hədəfini və buna uyğun olaraq monetar siyasətin müəyyənləşdirilməsi;

• Fövqəladə hallarda Əmanətlərin Sığortalanması Fondunun resursları kifayət etmədikdə Fonda müəyyənləşdirəcəyi şərtlər və qaydalara uyğun olaraq Fonda avansın verilməsi;

• Kommersiya banklarına kreditin verilməsi;

Maliyyə bazarlarının monitorinqini aparmaq məqsədilə banklardan, digər maliyyə institutlarından və həmçinin qeyd edilən institutların fəaliyyətini tənzimləmək və nəzarət etməkdə səlahiyyətli olan idarələrdən lazımi məlumatların tələb edilməsi və statistik informasiyanın toplanması.

Özəl kommersiya bankları üçün isə mərkəzləşmiş və təmərküzləşmə pro-sesləri səciyyəvidir. Bu proseslər daha qüvvətli və nüfuzlu şəbəkələri genişləndirmək, yüksək səriştəli mütəxəssisləri işə cəlb etmək, əməliyyatların yerinə yetirilməsini mükəmməlləşdirmək, fəaliyyətin yeni istiqamətlərini mənimsəmək və s. üçün kifayət qədər vəsaitə malik olan bankların yüksəlişində öz əksini tapmışdır.

İnvestisiya banklan iri kommersiya banklarından kiçik olsalar da, iqtisadiyyatda böyük rol oynayırlar. Onlar ssuda kapitalları bazarınn böyük bir hissəsinin həfəkətinə yardım göstərirlər. İnvestisiya bankları uzunmüddətli kapitalı səfərbər edir və istiqrazları, digər növ borc kağızlarını buraxmaq və yerləşdirməklə vəsaitləri borc alanlara verirlər. İnvestisiya banklarının kreditlərinin təxminən 90%-i ödəniş müddəti uzun olan sənaye müəssisələrinin modernləşməsinə verilir.

80-cı illər Türkiyənin Yaxın və Orta Şərqdə beynəlxalq maliyyə mərkəzinə çevrilməsinin başlanğıc mərhələsi hesab etmək olar. Dünyanın ən iri 100 bankından 15-i (onların arasında «Cosjeta Jeneral», «Sitibank», «Çeyz Manhettın Bank» və digər məşhur banklar vardır) burada təmsil olunmuşdur. 1990-cı ilin sonunda ölkədə 23 xarici bank fəaliyyət göstərirdi. 1985-ci ildə banklar haqqında qəbul olunmuş Qanun əsasında həm yerli, həm də xarici banklara vahid hüquqi status verilmişdir.

Lisenziya almaq üçün xarici bank təsisçi müəyyən şərtlərə əməl etməlidir: minimal məbləğə nizamnamə kapitalına, müvafiq nüfuz və keyfiyyətli menecmentə malik olmalıdır.

Fəaliyyətdə olan xarici bankları üç qrupa bölmək olar. Birinci qrupa Qərbi Avropa və ABŞ kommersiya banklarının filialları; İkinci qrup Orta Şərq və Asiyanın kommersiya bankları və Üçüncü qrupa isə müştərək banklar aiddir.

Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı, məqsəd və alətləri. Son iyirmi ildə dünya iqtisadiyyatında meydana gələn dəyişikliklər, Mərkəzi Bank əmə-liyyatlarına əsaslı şəkildə təsir etmişdi. Xüsusilə maliyyə bazarlarının qloballaşması və inkişaf edən texnika bu bazarları 70-ci illərdən fərqli olaraq daha da genişləndirmişdi.Bu dəyişikliklər mərkəzi bankların başlıca vəzifələrinə də təsir etmişdir. Mərkəzi banklar əsas 2 məqsədi vardır. Bunlardan pulun dəyərini qorumaq və sabitliyini təmin etmək.

Mərkəzi Bankın əsas müşavirlik vəzifələri arasında: milli pulun xarici valyutalar və qızıl qarşısındakı paritetini müəyyən etməkdə hökumətə rəy bildirmə, bank qanununun tətbiqində hökumətlə rəy mübadiləsi aparma, banklar və digər maliyyə təşkilatları ilə bağlı quruluş icazələri və bunlarla bağlı təsfiyədən öncə bankın rəyi soruşulduğunda bu rəy bildirmə sayıla bilər.

Yeni mərkəz bankı qanunu ilə edilən dəyişikliklərin əsasları aşağıdakılardır:

1) Vasitə müstəqilliyi. Müstəqillik ölçüsü olaraq, bankın əsas məqsədinin qiymət sabitliyini təmin etmək olduğu və bankın pul siyasətinin müəyyən edilməsində və tətbiqində yeganə məsuliyyətli və səlahiyyətli olduğu qanuniləşmişdir. Bank vasitə müstəqilliyi qazanarkən, inflyasiya hədəfini hökumətlə birlikdə müəyyən etmə vəzifəsi və səlahiyyətilə vəzifələndirilmiş-

dir. Bankın hesab və əməliyyatlarının auditinin müstəqil audit təşkilatları tərəfindən aparılması yeni qanunda nəzərdə tutulmuşdur.

2) Pul siyasəti orqanı. Qiymət dayanıqlığının aktivliyinin təmin edilməsi məqsədilə dünya praktikası da nəzərə alınaraq pul siyasəti orqanı yaradılmışdır. Pul siyasəti orqanı sədrin rəhbərliyi altında sədr müavinləri, bank məclisinin üzvləri arasından seçiləcək nümayəndə və sədrin məsləhəti ilə müştərək qərarla seçilən nümayəndədən ibarətdir. Xəzinənin sədri və ya onun müavini səs vermə hüququ olmamaq şərtilə iştirak edirlər.

3) Dövlət sektoruna kredit verilməməsi. Xəzinə ilə dövlət orqanı və təşkilatlarına «avans verilməsi» və kredit verilməsi qadağan olunmuşdur. Bu baxımdan da əvəzi olmadan pul kəsilməsi də dayandırılmışdır.

İslami bankçılıq. Türkiyədə 1980-ci illərdən sonra islami əsaslara görə fəaliyyət göstərən maliyyə orqanlarının fəaliyyətlərinə icazə verilmişdi. İslami bank və maliyyə təşkilatlarının əsas xüsusiyyəti islam mühitinə görə fəaliyyətdə olması və faizsiz iş aparmasıdır. Faizsiz maliyyə sistemi təşkilatlarını yaratma fikri 1940-cı illərin əvvəllərinə təsadüf edir. Ancaq bunun həyata keçirilməsi 1970-ci illərdə reallaşmağa başlamışdır. Bu təşkilatların ilk örnəyi 1963-1967-ci illərdə Misirdə alman bank sisteminə bənzəyən bir sistemlə həyata keçirilmişdir. Faiz ödənilmədən fəaliyyət göstərən bu bank qısa müddətdə müvəffəqiyyətli nəticələr əldə etməsinə baxmayaraq siyasi səbəblərə görə bağlanmışdır. Bundan sonra qurulan növbəti islam bankı Qahirədə Nasıl Sosial Bankı adı altında 1971-ci ildə təsis edilmişdir. Daha sonrakı illərdə İslam İnkişaf Bankı fəaliyyətə başlamışdır. Bu bankın təsis edilməsilə islami maliyyə qurumlarının sayı bütün dünyada sürətlə artmışdır. Bu təşkilatlara Türkiyədə ilk qapını 1980-ci illərin ortalarında Turğut Özal açmışdır. Bu təşkilatlardan ilk daxil olanlara Faysal Finans və Albaraka olmuşdur.

İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRİN PUL-KREDİT SİSTEMİ

Koreyanın pul-kredit sistemi. Cənubi Koreyanın maliyyə-kredit sektorunun inkişafı dövlətin kredit sistemində yer alması ilə izah edilir. Cənubi Koreyada pul-kredit sisteminin əsas vəzifəsi dövlətin müəyyən etdiyi proqram çərçivəsində milli iqtisadiyyatın inkişafina dəstək olmaqdır. 1985-ci ildə sənayeyə yardım məqsədi ilə faiz dərəcələri əhəmiyyətli dərəcədə düşürüldü. Cənubi Koreyada ümumi bankçılıq sektorunda kommersiya bankları aktiv böyüklüyünə gorə birinci yerdədir. Cənubi Koreyada 61 bank vardır ki, bunlardan yeddisi ölkə əhəmiyyətli banklar, 10-u regional əhəmiyyətli banklar, 48 xarici sərmayəli banklardır. 1992-ci ildən etibarən Cənubi Koreya hökuməti pul-kredit sistemini liberallaşdırmış və ölkəyə xarici sərmayə girişinə izin vermişdir.

Koreya Bankı Cənubi Koreyanın mərkəzi bankıdır. Bankın əsas məqsədi qiymət sabitliyi olduğundan inflyasiyanı hədəfdə saxlayir. 12 iyun 1950-ci il tarixində Koreya Bankı haqqında Qanunun qəbul olunması ilə Koreya Bankı yaradılmışdır. Lakin 1962-ci ildə Qanuna əlavələr edilmişdir və nəticədə Bank kapitalı olmayan hüquqi şəxsə çevrilmişdir.

Koreya Bankının əsas məqsədi qiymətlərin sabilliyinin təmin edilməsidir. Bank hər il hökumətlə birgə qiymətlərin sabit qalması üçün hədəfləri müəyyənləşdirir və monetar siyasəti daxil olmaqla əməliyyat planını dərc edir. Koreya Bankı haqqinda Qanuna əsasən Bank pulların çap edilməsi, monetar və kredit siyasətinin müəyyən edilməsi, dövlətin bankı rolunda çıxış edilməsi, kommersiya banklarına bank funksiyasının təqdim edilməsi və bank sektoruna nəzarət funksiyalarına malikdir. Həmçinin Bank dövlətin xarici valyuta ehtiyyatlarını idarə edən qurumdur.

Koreya Bankı Sədr, sədrin birinci müavini və 5 sədr müavini tərəfindən idarə olunur. Bankın Sədri Dövlətin Ali Şurasının təklifi ilə Prezident tərəfindən təyin olunur. Sədr 4 il müddətinə seçilir və vəzifəyə yenidən seçilmək hüququ yalnız bir dəfə icazə verilir. Sədr Dövlət Ali Şurasının maliyyə məsələləri ilə bağlı iclaslarında iştirak etmək hüququna malikdir. Sədrin birinci müavini Sədrin təklifi əsasında Prezident tərəfindən vəzifəyə təyin edilir.

Bankın strukturunda vacib yer Monetar Siyasət Komitəsi tutur. Komitə milli iqtisadiyatı təmsil edən yeddi üzvdən ibarətdir:

- Bankın Sədri;
- Sədr müavini;

• Maliyyə və Strategiya Nazirliyinin nümayəndəsi;
• Maliyyə Məsələləri Komissiyasıının təmsilçisi;
• Koreya Bankı Sədrinin nümayəndəsi;
• Koreya Ticarət Palatasının nümayəndəsi;
• Koreya Banklar Federasiyasının nümayəndəsi.

Bankın Sədri Komitəyə başçılıq edir. Komitənin üzvləri 4 il müddətinə President tərəfindən təyin olunurlar. Komitənin qərarları sadə səs çoxluğu ilə qəbul edilir.

Koreya Bankında 15 departament fəaliyyət göstərir. Baş ofisdən əlavə ölkənin iri şəhərlərində Bankın 15 filialı mövcuddur.

Koreya Bankı beynəlxalq iqtisadi sahədə bir neçə istiqamətlərdə fəaliyyət göstərir:

• Beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq - Koreya Bankı bir sira beynəlxalq maliyyə qurumların üzvüdür. Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlıq çərçivəsində Koreya Bankında bir sıra texniki yardım layihələri həyata keçirilib. Korea Bankı Beynəlxalq Valyuta Fondu ilə yeni kredit sazişini imzalayan 24 mərkəzi bankdan biridir. 1962-ci ildən etibarən Koreyanın Dünya Bankının Qrupuna aid qurumlara üzv olması ilə Koreya Bankı Dünya Bankının bir sıra layihələrinin icraçısına çevrilmişdir.

• Regional iqtisadi inkşaf qurumları ilə əməkdaşlıq - Bu fəaliyyət çərçivəsində Koreya Bankı Asiya İnkişaf Bankının, Afrika ölkələri İnkişaf Bankının və Fondunun, Avropa Yenidənqurma və İnkişaf Bankın, İnteramerika İnkişaf Bankı Qrupunun üzvüdür. Bu regional qurumlara Koreya Bankı texniki dəstək çərçivəsində vəsaitlər ayırır və həmçinin bu qurumların biznesə kreditayırma prosesində fəal iştirak edir.

• Beynəlxalq və mərkəzi banklar ilə sıx əməkdaşlıq - Korea Bankı Beynəlxalq Hesablaşmalar Bankında 1975ci ildən müşahidəçi üzvü və 1997-ci ildən isə üzvüdür. Hazırda Koreya Bankı BHB-nın səhmlərinin 0.59%-nin sahibidir. Həmçinin, Koreya Bankı Şərqi Asiya və Sakit Okean (EMEAP) dövlətlərin Mərkəzi Banklarının İdarə Heyətlərinin təsisçilərindən biridir. 1990-cı ildən Koreya Bankı Cənubi-Şərqi Asiya dövlətlərinin Mərkəzi Bankları (SEACEN) qurumunun iştrakçısıdır. 1966-cı ildən Korea Bankı Cənub-Şərqi Asiya, Yeni Zellandiya və Avstraliya (SEANZA) üzvüdür və bu region üzrə ölkələrin mərkəzi banklarının görüşlərinin fəal iştirakçısıdır.

• Digər beynəlxalq əməkdaşlıq sahələri - Koreya Bankı G-20 görüşlərində Koreya hökuməti ilə birgə iqtisadiyyata aid görüşlərdə iştirak edir. Digər ölkələrin mərkəzi bankları ilə əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə Koreya Bankı 1989-cu ildən etibarən hər il Mərkəzi Bankçılıq Seminarları keçirir. Bu seminarlarda digər ölkələrinin, həmçinin Almaniya, ABŞ, İngiltərə və digər inkişaf etmiş və keçid iqtisadiyyatlı ölkələrin mərkəzi banklarının təmsilçiləri iştirak edir.

Sinqapurun pul-kredit sistemi. Eyni zamanda tədavüldə Bruneyin pul vahidi də istifadə edilməkdədir. Sinqapurda maliyyə kredit qurumları dövlət və özəl maliyyə qurumları olmaq üzrə başlıca iki qrupdan ibarətdir. Sinqapur Pul Tədavülü İdarəsi Mərkəz Bankın funksiyalarına bənzər əməliyatları aparan bir qurumdur. Sinqapurda özəl sərmayəli bankların əksəriyyəti xaricilərin əlindədir və bunlar ofsior bazarlarında çox aktivdirlər.

Bundan başqa Sinqapurda Asiya Dollar Bazarı, Pul Bazarı, Səhm bazarı, Qızıl Bazarı və Fyuzers Bazarı fəaliyyət göstərməkdədir.

İranın pul-kredit sistemi. İranda ilk milli bank 1928-ci ildə yaradılmışdır. 1960-cı illərdə isə İran Mərkəzi Bankı təsis edilmişdir. 1979-cu ildə İranda bütün milli banklar dövlətləşdirilmiş və xarici sərmayəli banklar ölkədən çıxarılmışdır. 1979-cu ilə qədər İran bank sistemində 7 dövlət bankı, 12 özəl sərmayəli İran bankı və 10 ədəd isə İran və xarici sərmayəli müştərək bank fəaliyyət göstərirdi. 1979-cu ildə Xomeyni inqilabından sonra ölkə iqtisadiyyatında 10 bank üstün vəziyyətə gəlmişdir. Bu banklar 1982-1989-cu illər ərzində 6571 milyard rial əmanət toplamışlar.

Aktiv böyüklüyünə görə İran Mərkəzi Bankı və Sədarət Bankdır.

İran İslam Respublikası Mərkəzi Bankı (İİRMB) İranın mərkəzi bankıdır. İran İslam İnqilabından sonra Bankın fəaliyyəti şəriət qanunları əsasında həyata keçirilir.

İranın ilk dövlət bankı olan Bank Melli İran 1927-ci ildə təsis olunmuşdur. Bankın əsas vəzifələri hökumətin maliyyə əməliyyatlarının dəstəklənməsi və İranın milli valyutasının (rial və

tümən) çapı və dövriyyəyə buraxılması olmuşdur. Bank Melli İran 33 ildən artıq müddət ərzində İran rialının dəyərini dəstəkləməklə İranın mərkəzi bankı kimi fəaliyyət göstərmişdir. 1960-cı ilin avqust ayında İran hökuməti İran Mərkəzi Bankını təsis edərək Bank Melli İran-da olan mərkəzi bank öhdəliklərini alaraq İran Mərkəzi Bankına vermişdir.

1979-cu ildə İranda İslam İnqilabın baş verməsi ilə İran Mərkəzi Bankının adı dəyişdirilərək "İran İslam Respublikası Mərkəzi Bankı" qoyulmuşdur. Bu tarixdən etibarən İranda monetar və kredit siyasətləri İranın Pul və Bank Qanunu (1979), Bankların Milliləşdirilməsi Qanunu (1979), Banklar Administrasiyası Haqqında Qanun (1979) və Faizsiz Bankçılıq Haqqında Qanun (1983) əsasında tərtib və icra olunur.

İİRMB aşağıdakı funksiyaların yerinə yetirilməsinə görə cavabdehdir:

• Əskinaz və sikkələrin buraxılması;
• Bank və kredit təşkilatlarının fəaliyyətlərinə nəzarət;
• Xarici valyuta siyasəti və əməliyyatlarının tərtibi və tənzimlənməsi;
• Qızıl əməliyyatlarının tənzimlənməsi;
• Milli valyuta axınının formalaşdırılması və tənzimlənməsi.

Hökumətin bankı olaraq İİRMB hökumət hesablarını, dövlət müəssisələri və təşkilatlarına verilən qrant və kreditlərin saxlanması üçün səlahiyyətləndirilmişdir.

Təşkilati struktur: İİRMB aşağıdakı orqanlardan ibarətdir:

• Baş Məclis;
• Monetar və Kredit Şurası;
• İdarə Heyəti;
• Not Ehtiyatlarına Nəzarət Şurası;
• Müşahidə Şurası.

İdarə Heyəti Sədr, sədr müavini, baş katib və 3 vitse-sədrdən ibarətdir.

Milli Cəvahirat Xəzinəsi - İİRMB-nin Baş Ofisində yerləşir. Xəzinədə dünyada məşhur olan bir çox daş-qaşların kolleksiyası toplanmaqdadır.

Beynəlxalq əlaqələr: İİRMB bir sıra beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq əlaqələrinə malikdir. İran İslam Respublikası İslam İnkişaf Bankının fəal üzvlərindən biri olduğundan İİRMB-nin onunla çox yaxın əlaqələri var.

İİRMB-nin Sədri İranın Beynəlxalq Valyuta Fondundakı Müdiri olaraq çıxış edir.

İİRMB Beynəlxalq Hesablaşmalar Bankının illik toplantılarında müşahidəçi statusunda iştirak edir.

Bundan əlavə İİRMB Dünya Bankı ilə yaxın əməkdaşlıq əlaqələrinə malikdir.

1984-cü ildə İran bankçılıq sektoru İslam Bank Sistemi modelinə keçmişdir. Bu sistemdə faiz qadağan edilmişdir. Lakin bank milli, beynəlxalq sistemdə fəaliyyətini davam etdirməklə ancaq İslam şərtlərinə görə deyil, həm də beynəlxalq sistemin qoyduğu şərtlərə uyğun olaraq fəaliyyət göstərir.

İsrailin pul-kredit sistemi. İsrailin pul-kredit sisteminin əsas xüsusiyyətləri aşağıdakılardır:

1. Dövlət kapital bazarına böyük ölçüdə müdaxilə edir.
2. Yüksək miqdardakı dövlət xərcləmələri kapital bazarından təmin edilir.
3. Sermayə və kredit bazarları bir-birindən ayrılmışdır.
4. Kapital hərəkətlərinə nəzarət güclüdür.
5. Təmərküzləşmiş bir bank sektoru mövcuddur (3 böyük bank ümumi bank sektorunun aktivlərinin 80 %-ni əlində saxlayır).

İsrail Mərkəzi Bankı 1964-cü ildən fəaliyyətdədir. İsrail Bankı İsrailin məkəzi bankıdır. Bankın Baş ofisi Qüdsdə, filialı isə Təl-Əviv şəhərində yerləşir.

1948-ci ildə müstəqilliyin elan olunması ilə milli valyutanın buraxılması hüququ daha sonra (1950) Leumi Bank adlanacaq Anqlo-Fələstin Bankına verilmişdir. Monetar siyasət və bankların fəaliyyətinə nəzarət funksiyası ilə Maliyyə Nazirliyində saxlanmışdır. 12 avqust 1954-cü il tarixində Knesset tərəfindən İsrail Bankı haqqında Qanunun qəbul olunması ilə İsrail Bankı təsis edilmişdir. Bununla da milli valyutanın buraxılması və banklara nəzarət funksiyaları İsrail Bankına ötürülmüşdür1978-ci ildə isə Banka xarici valyutaya nəzarət funksiyası verilmişdir. 1985-ci ildən İsrail Bankı tam müstəqil olmuşdur və 1992-ci ildən hökumət tərəfindən qarşıya

qoyulan inflyasiya hədəfinə nail olunması məqsədilə özünün maliyyə siyasətini idarə etməyə başlamışdır. Hazırda ümumi bank sisteminə nəzarət edən İsrail Bankı xarici valyuta ehtiyatlarını idarə etməkdədir.

İsrail Bankının əsas öhdəlikləri aşağıda qeyd olunmuşdur:

- Monetar siyasətinin tənzimlənməsi və idarə edilməsi;
- Hökumətə iqtisadi məsləhətlərin verilməsi;
- Xarici valyuta bazarına nəzarət və xarici valyuta ehtiyatlarının idarə olunması;
- Xarici valyuta fəaliyyətinin monitorinqi və təhlili;
- Bank fəaliyyətinə nəzarət;
- Maliyyə sabitliyinin dəstəklənməsi;
- Pulun buraxılması;
- Hökumətin və bankların bankı funksiyasının icrası;
- İsrailin beynəlxalq təşkilatlarda təmsil olunması.

Bankın İdarəetmə oqranları Müşahidə Komitəsi, Müşahidə Şurası, Əskinaz və Sikkələrin Planlaşdırılması Komitəsindən ibarətdir. İsrail Bankında yüksək rəhbər vəzifələr sədr, sədr müavini və 2 baş direktordan ibarətdir. Bankda 8 departament, 2 şöbə və 1 administrasiya fəaliyyət göstərir.

Səudiyyə Ərəbistanın pul-kredit sistemi. 1932-ci ildə ölkədə krallıq idarəetme forması olmasına baxmayaraq, bank haqqında qanun 1966-cı ildə qəbul edilmişdir. Ölkədə Hollandiyanın müstəmləkəsi olan İndoneziyadan gələn hacılara xidmət üçün 1927-ci ildə ölkədə Hollandiya Bankının filialı qurulmuşdur. Ölkənin mərkəzi bankı vəzifəsini görən Soudi Arabian Monetari Acensi 1953-cü ildə yaradılmışdır. Səudiyyə Ərəbistanı Krallığında ən böyük kommersiya bankı Nasional Kommersial Bankıdır. Krallığın xarici ölkələrdə qurduğu ilk bank Parisdə qurulan Soudi Bankue Bankıdır. Müasir dövrdə də krallığın pul vahidi olan rial tamamən dönərlik qazanmışdır. Pulun ölkəyə giriş və çıxışında hər hansı bir məhdudiyyət yoxdur.

Səudiyyə Ərəbistanı Monetar Agentliyi (SƏMA) Səudiyyə Ərəbistanı Krallığının mərkəzi bankıdır.

SƏMA 1952-ci ildə yaradılmışdır. Həmin dövrdə Səudiyyə Ərəbistanı Krallığının özünün monetar sistemi mövcud olmamışdır. Həmçinin Səudiyyə Ərəbistanın özünün bankları da yox idi və bank fəaliyyəti yalnız xarici bankların filialları tərəfindən həyata keçirilirdi. 1960-1972-ci illərdə SƏMA əsas diqqəti bank fəaliyyətinin genişləndirilməsi və Rialın qəbul olunması (1961) ilə bağlı tənzimləmə işlərinə yönəlmişdir1973-1982-ci illərdə SƏMA iqtisadi bum şəraitində inflyasiya təzyiqləri, bank sisteminin genişləndirilməsi və kütləvi xarici valyuta ehtiyatlarının idarə olunması istiqamətlərində fəaliyyət göstərmişdir. 1980-ci illərin ortalarından başlayaraq SƏMA-nın əsas prioriteti maliyyə bazarında islahatların keçirilməsi olmuşdur. Bundan sonrakı dövrlərdə fəaliyyət daha da genişlənərək yeni sahələri əhatə etmişdir.

Əsas fəaliyyət sahələri aşağıdakılardır:

- Milli valyuta olan Səudiyyə Rialının buraxılması;
- Hökumətin bankı olaraq fəaliyyət göstərilməsi;
- Kommersiya banklarına nəzarət edilməsi;
- Krallığın xarici valyuta ehtiyatlarının idarə olunması;
- Qiymətin və valyuta məzənnəsinin sabitliyinin dəstəklənməsi məqsədilə monetar siyasətin idarə olunması;
- Maliyyə sisteminin böyüməsinin dəstəklənməsi və möhkəmliyinin təmin olunması.

SƏMA-nın Direktorlar Şurası Sədr, *ex-officio* Sədr, *ex-officio* üzv və vitse-sədr və özəl sektordan üç üzvdən ibarətdir. Sədr və vitse-sədr 4 illik, digər üzvlər isə 5 illik müddətə təyin olunur.

Agentlikdə 7 departament, 2 katiblik, 1 bankçılıq institutu, sədrin ofisi və vitse-sədrin ofisi fəaliyyət göstərir.

Valyuta Muzeyi - SƏMA-nın nəzdində fəaliyyət göstərən Valyuta Muzeyi beynəlxalq standartlara cavab verən ixtisaslaşmış muzeydir. Burada müsəlman və ya qeyri-müsəlman

ölkələrinin qədimi sikkələri, müasir valyutalar, valyutanın hazırlanmasında istifadə olunan xam materiallar və əskinazlarda istifadə olunan təhlükəsizlik elementləri nümayiş olunur. Valyuta Muzeyi SƏMA-nın Ər-Riyad şəhərindəki Baş ofisində yerləşir.

Cənubi Afrika Respublikasının pul-kredit sistemi. Cənubi Aftika Respublikasının inkişaf və geri qalmış xüsusiyyətlərinin bir arada olduğu iqtisadiyyatına baxanda pul-kredit sisteminin ölkənin ən inkişaf etmiş quruluşlarından birisi olduğunu görərik. Cənubi Afrikanın kredit sistemi içində kommersiya bankları aktiv böyüklüyünə görə böyük gücə malikdirlər. Kommersiya bankları böyük şirkətlərə qısamüddətli kredit açmaq mövzusunda ixtisaslaşırlar. İnvestisiya banklarının əksəriyyəti kapital bazarı mövzusunda və uzunmüddətli kredit əməliyyatları mövzusunda ixtisaslaşan banklardır.

Cənubi Afrikada sığorta şirkətlərinin inkişafi çox genişdir. Lakin sektor çox az sayda böyük sığorta şirkətlərinin hakimiyyəti altındadır. Bu sığorta şirkətlərinin nəinki kredit sektorunda şərikləri, hətta ticarət, mədənçilik və sənaye sahələrində şərikləri vardır. Hətta bəzi böyük bankların nəzarət səhm paketi sığorta şirkətlərinin əlindədir. Cənubi Afrikada sığortaçılıq sektorunun inkişafının əsas səbəbi dövlətin onlara tanıdığı stimullaşdırıcı vergi siyasətidir.

Lakin Cənubi Afrikada dörd böyük Holdinq kapital bazarında əməliyyat görən qiymətli kağızların 75 %-ni əlində saxlayır. Bunun 50 %-i isə Anqlo Amerika şirkətlərinin nəzarətindədir.

Misirin pul-kredit sistemi. Misirdə ilk dəfə olaraq bank 1920-ci ildə pambıq ticarəti və toxuculuq istehsalçıları tərəfindən qurulan Bank Misir of Kamro bankıdır. Bu bankın qurulmasının ən böyük səbəblərinden biri də iqtisadi millətçilik fəlsəfəsi olmuşdur. Çünki o dövrdə Avropa bankları Misir maliyyə bazarında monopol hakim vəziyyətində idilər. 1960-cı ildə Misirdə bütün kommersiya bankları dövlət tərəfindən milliləşdirildi. Lakin 1974-cü ildən etibarən Misirdə xarici sərmayəli bankların fəaliyyətinə icazə verildi. Misirdə dörd dövlət bankı hələ də bank sistemində sektorunda aktivlərin yarısından çoxunu əlində saxlayır.

Argentinanın pul-kredit sistemi. Argentina Latın Amerikası bölgəsində həm torpaq sahəsinə, həm də iqtisadiyyatının inkişafına görə ən böyük ölkələdən biridir. Argentinada kapital bazarı və bank sektoru olduqca inkişaf etmişdir. 1935-ci ildə qurulan Argentina Mərkəzi Bankı pul çıxartma mövzusunda inhisarçı bir qurumdur. 1979-cu ildə Argentina Hökuməti ölkəyə və ölkədən kapitalın sərbəst giriş və çıxışına icazə verdi. 1985-ci ildə Argentina Hökuməti pul-kredit sistemində yeni bir islahat aparmağa başladı. Argentinanın pul vahidi pezo austral ilə dəyişdirildi və dəyişmə nisbəti 1 austral = 1000 pezoya bərabər olaraq müəyyən edildi. 1985-1988-ci ildə tətbiq edilən dar pul siyasəti iqtisadiyyata müvəffəqiyyət qazandırmadı və nəticədə iqtidara gələn yeni hökumət pul-kredit siyasəti proqramında dəyişiklik etdi və müəyyən dərəcədə bir sabitlik əldə etdi.

Braziliyanın pul-kredit sistemi. Braziliya Dövlət Bankı 1956-cı ilin aprelində təsis edilmişdir. Braziliya əvvəllər Portuqaliyanın müstəmləkəsi idi. O dövrdə ticarət və maliyyə münasibətləri krallıq tərəfindən həyata keçirildi. 1808-ci ildə Napoleonun hücumundan qaçan Portuqaliya kral ailəsinin xəzinə ilə birlikdə Braziliyaya köçməsi ilə orada avtomatik olaraq bank sistemi öz-özünə quruldu: 1808-ci ildə Braziliyada Banko de Brazil quruldu. Bu bank hökumətin maliyyə işlərini aparmaqla yanaşı, eyni zamanda xalqdarı da əmanət toplayırdı. 1821-ci ildə Portuqaliya kralı yenidən taxta gələndə bu bankdan toplanan pulları götürdü. Belə vəziyyət qarşısında bankın maliyyə vəziyyəti pisləşdi və 1829-cu ildə bank məcburən bağlandı.

Ancaq qəhvə sənayesinin inkişafı nəticəsində 1830-1840-cı illərdə bir çox yeni bank qurulmağa başlandı. Bu bankların əsas əməliyyatları qəhvə sənayesini maliyyələşdirmək üçün idi.

Birinci dünya müharibəsinə qədər Braziliya qızıl standart sistemini qorumuşdu. 1945-ci ildə Banko de Brazil içində SUMOK adlı bir bölmə quruldu. Bunun vəzifəsi pul çıxartmaq, Braziliyanın pul vahidinin dəyərinə nəzarət etmək, açıq bazar əməliyyatlarını aparmaq, bank sektoruna nəzarət etmək və lazım gəldikdə isə hökumətə borc vermək idi. 1980-ci ildən sonra Braziliyada pul-kredit sistemində fundamental islahatlar aparıldı. Lakin Braziliyanın "borc bataqlığında" olması iqtisadi islahatların müvəffəqiyyətlə həyata keçirilməsinə maneçilik törədir.

Braziliyada 13 yanvar 1999-cu ildə maliyyə böhranı nəticəsində milli pul vahidi dəyərini 1 gün içində 10 % itirdi. 1 gün içində ölkədən 1,2 milyard dollarlıq kapital çıxarıldı.

Meksikanın pul-kredit sistemi. 1970-ci illərin ortasından etibarən Meksikada artan inflyasiya və Meksikanın ABŞ iqtisadiyyatı ilə yaxınlaşması investisiya portfellərində sıx bir dollarlaşma tendensiyasının yaranmasına səbəb olmuş və bu tendensiyalarda bəzi banklar daxili bazardan dollar ilə borclanmağa başlamışlardır. Meksika bazarının beynəlxalq maliyyə qurumlarına açıq olması, ölkə daxilində pul tədavülünə olan nəzarəti zəiflədib. Bu səbəblə 1976, 1982, 1985,1995-ci illərdə yaranan isti pul hərəkətlərinin iqtisadiyyata və tədiyə balansına təsiri mənfi olmuşdur. Meksikanın maliyyə sektorunun ən böyük problemi dövlətin kifayət qədər valyuta qazancına malik olmamasıdır. Bu səbəblə də dövlətin banklardan dollarla borclanması və sonradan onların geri ödənməsində ciddi çətinliklər meydana çıxır. Meksikanın ən böyük gəlir mənbəyi neft sektorudur və neft qiymətlərində dəyişikliklər o saat öz təsirini iqtisadiyyatda əks etdirir.

Çin Xalq Respublikasinin pul-kredit sistemi. 80-ci üdən sonra Çində pul kredit sistemində aparılan islahatlar nəticəsində ölkə mərkəzi idarəetme sistemindən bazar iqtisadiyyatını tətbiq edən bir ölkə vəziyyətinə gəldi. 1980-ci ilə qədər bank sistemi dövlətin inhisarında idi. 1980-ci ildən sonra bu sistem sərbəstləşdi və bank sektorunda rəqabəti stimullaşdıran imkanlar yarandı. 1980-ci ilə qədər Çində Sovet tipli pul-kredit sistemi hakim idi. Şirkətlərə açılan bütün kreditlərin hərəkəti bankın nəzarətində idi. Lakin 1980-ci ildən sonra iqtisadi sahədə islahatların bir hissəsi olan pul-kredit sistemində də ciddi islahatlar aparıldı. 1978-ci ildə tədavüldəki pul kütləsinin ümumi daxili məhsul içindəki payı 6 % ikən, 1989-cu ildə isə bu nisbət 15%-ə qədər artmışdır. Eyni dövrdə xalqın banklardakı əmanətlərinin məbləğinin ümumi daxili məhsul içində payı 6 %-dən 30 %-ə qədər yüksəlmişdir. Beləliklə, bazarda nağd pul miqdarının artımı bəzi iqtisadçılar tərəfindən gələcəkdə Çində inflyasiyaya səbəb amil kimi qiymətləndirilirdi. Lakin belə bir proses baş vermişdir, çünki əhali ehtiyacından artıq qalan pullarını banklara əmanət olaraq qoymuşdur.

Xalqın gəlir səviyyəsinin artmasına paralel olaraq ölkədə bank sektoru da inkişaf etdi. Çin Xalq Respublikasının Mərkəzi Bankı həqiqi mənada mərkəz bank fəaliyyətini 1985-ci ildən başlayaraq həyata keçirməyə başladı. ölkədə bankçılıq sektorunda rəqabətin olmasına baxmayaraq, dörd dövlət sərmayəli banklar toplam əmanətlərin 80 %-ni əlində saxlayırlar.

Çin Xalq Respublikasının mərkəzi bankı olan Çin Xalq Bankı Çinin monetar siyasətə nəzarət edir və Çinin kontinental hissəsində fəaliyyət göstərən maliyyə institutlarının fəaliyyətini tənzimləyir. Çin Xalq Bankı Çin Bankı (kommersiya bankı) və ya Çin Mərkəzi Bankı (Tayvanın mərkəzi bankı) ilə səhv salınmamalıdır. Bank 1 dekabr 1948-ci il tarixində Huabey Bankı, Beyhay Bankı və Xibey Fermer Bankının birləşməsi nəticəsində təsis edilmişdir. İlk əvvəl Şizəçuanda yerləşən Baş ofis, 1949-cu ildə Pekinə köçmüşdür. 1949-1978-ci illərdə Çin Xalq Bankı Çin Xalq Respublikasının yeganə bankı idi və o, mərkəzi və kommersiya bankın funksiyasını yerinə yetirirdi.

1980-ci illərdə iqtisadi islahatların tərkib hissəsi olaraq Çin Xalq Bankının kommersiya bankı funksiyaları müstəqil, lakin dövlətə məxsus olan dörd bank arasında bölüşdürüldü və 1983-cü ildə Dövlət Şurası Çin Xalq Bankının Çinin mərkəzi bankı olaraq fəaliyyət göstərəcəyini elan etdi. Onun mərkəzi bank statusu Səkkizinci Milli Xalq Qurultayının 18 mart 1995-ci il tarixində keçirilən 3-cü İclasında təsdiqlənmişdir. 1988-ci ildə Çin Xalq Bankı əsaslı şəkildə yenidən formalaşdırılmışdır. Əyalət və yerli filialların hamısı bağlanmış və əvəzində fəaliyyət hüdudları yerli inzibati hüdudlara uyğun olmayan 9 regional filial açılmışdır. 2003-cü ilin mart ayında Onuncu Milli Xalq Qurultayının Birinci İclası Çin Xalq Bankının bank təsisatları, aktivlərin idarə olunması şirkətləri, inam və investisiya şirkətləri və digər depozit maliyyə institutları üzrə nəzarət funksiyalarını ayırmaqla Dövlət Şurasının Təşkilati Struktur İslahatı üzrə Qərarını təsdiqləmişdir. Nəticədə maliyyə sektoruna nəzarət məqsədilə Çin Bank Nəzarət Komissiyası yaradılmışdır. 2003-cü ilin 27 dekabr tarixində Onuncu Milli Xalq Qurultayının Daimi Komitəsi Çin Xalq Bankının ümumi maliyyə sabitliyi və maliyyə xidmətləri təminatının qorunması üçün monetar siyasətin hazırlanması və icrası rolunun gücləndirilməsi məqsədilə qanuna düzəlişi təsdiqləmişdir.

Çin Xalq Bankının fəaliyyəti Dövlət Şurasının təlimatları əsasında monetar siyasətin formalaşdırılması və həyata keçirilməsi, maliyyə risklərinin qarşısının alınması və həll olunması və maliyyə sabitliyinin qorunmasından ibarətdir.

Çin Xalq Respublikasının Çin Xalq Bankı haqqında Qanunu Çin Xalq Bankının bu funksiyaları yerinə yetirməsini təmin edir: müvafiq sifariş verilməsi və qaydaların hazırlanması və həyata keçirilməsi; monetar siyasətin formalaşdırılması və icra olunması; valyutanın buraxılması və onun dövriyyəsinin idarə olunması; banklararası kredit və istiqraz bazarlarının tənzimlənməsi; xarici valyutanın idarə olunması və banklararası xarici valyuta bazarının tənzimlənməsi; qızıl bazarının tənzimlənməsi; rəsmi xarici valyuta və qızıl ehtiyatlarının saxlanması və idarə olunması; dövlət xəzinəsinin idarə olunması; ödəniş və hesablaşma sisteminin normal fəaliyyətinin dəstəklənməsi; maliyyə sektorunda çirkli pulların yuyulmasına qarşı tədbirlərin təlimatlandırılması, təşkil olunması və müvafiq maliyyə vəsaiti axınlarının monitorinqinin həyata keçirilməsi; maliyyə statistikaları, sorğuları, analizləri və proqnozlarının həyata keçirilməsi; mərkəzi bank olaraq beynəlxalq maliyyə tədbirlərində iştirak edilməsi; Dövlət Şurası tərəfindən qeyd olunan digər funksiyaların icra olunması.

Çin Xalq Bankının yüksək rəhbərliyi sədr və sədr müavinlərindən ibarətdir. Sədr Çin Xalq Respublikasının prezidenti tərəfindən vəzifəyə təyin olunur və vəzifəsindən kənarlaşdırılır. Sədr vəzifəsinə namizədlər Dövlət Şurasının Birinci Katibi tərəfindən irəli sürülür və Milli Xalq Qurultayı tərəfindən təsdiqlənir. Milli Xalq Qurultayının fasilə dövrü ərzində namizədlərlə bağlı qərarları Qurultayın Daimi Komitəsi qəbul edir. Çin Xalq Bankının sədr müavinləri Dövlət Şurasının Birinci Katibi tərəfindən vəzifəyə təyin olunur və ya vəzifədən kənarlaşdırılır.

Çin Xalq Bankının qəbul etmiş olduğu sistemə əsasən sədr sədr müavinlərinin yardımı ilə Bankın ümumi fəaliyyətinə nəzarət edir.

Çin Xalq Bankının Pekində yerləşən baş ofisi 18 funksional departamentdən (bürodan) ibarətdir.

Çin Xalq Bankının Beynəlxalq departamentinin cavabdeh olduğu sahələr aşağıdakılardır:

- Çin Xalq Bankının beynəlxalq maliyyə təşkilatları, xarici mərkəzi banklar və Honq Konq və Makao Xüsusi İnzibati Regionlar və Tayvan əyaləti ilə rəsmi əlaqələri və işgüzar əməkdaşlıq münasibətləri;
- Yerli maliyyə sənayesinin açılışının Çin hökumətinin ÜTT-yə qoşulduğu zaman üzərinə götürmüş olduğu öhdəliklərə uyğun olaraq koordinasiyası;
- Çin Xalq Bankının xarici işlərinin həyata keçirilməsi;
- Çin Xalq Bankının xarici ofislərinin fəaliyyətinə nəzarət.

MDB ÖLKƏLƏRİNİN PUL-KREDİT SİSTEMİ

Rusiyanın pul-kredit sistemi. Rubl on altıncı əsrdən başlayaraq Rusiyanın milli pul vahidi olaraq qəbul edilişdir. 1897-ci ildən etibarən Rusiya qızıl standartına keçmişdir. Bu proses 1914-cü ilə qədər davam etmişdir.1917-ci il Oktyabr inqilabından sonra rubl Sovet İttifaqına girən bütün ölkələr üçün yeganə bir pul vahidi olaraq qəbul edilmişdir. 1991-ci ildə Sovet Ittifaqın dağılması ilə rubl Rusiyanın pul vahidi olaraq qəbul edildi. Lakin Rusiya rublu bu günədək dəyərini sürətlə itirməyə başlamışdır.

Rusiyanın pul sisteminin hüquqi əsasmı 12 aprel 1995-ci ildə qəbul edilən Mərkəzi Bank haqqında Qanun təşkil edir. Rusiyanın rəsmi pul vahidi rubl qəbul edilmişdir. Rusiya Federasiyasının tədavülündə rubl xaricində başqa pul vahidlərinin istifadəsi qanunla tənzimlənir. Rubl dəyərinin qızıla və ya başqa qiymətli əşyalara olan qarşılığı qanunda müəyyən edilməmişdir. Tədavüldə nağd pul emissiyasına və onların təşkilinə, tədavülə çıxarılmasına yalnız Mərkəzi Bank səlahiyyətlidir. 1917-ci ilə qədər Rusiyada kredit sistemi kapitalist iqtisadiyyatının şərtləri çərçivəsində inkişaf etmişdir. Bu dövrdə quruluşuna, funksiyalarına və əməliyyatlarına görə Rusiya kredit sistemi inkişaf etmiş kapitalist ölkələrinin modelinə yaxın idi. Rusiya imperiyasının kredit sistemi aşağıdakı qurumlardan ibarət idi:

- Dövlət Bankı;
- Kommersiya bankları;
- İxtisaslaşdırılmış kredit təşkilatları (sığorta şirkətləri, kredit kooperasiyaları)

1917-ci il Oktyabr inqilabından sonra Rusiyada bütün kredit təşkilatları dövlətləşdirildi. 1925-ci ildə kredit sistemi aşağıdakı qurumlardan ibarət idi:

1. Dövlət Bankı;
2. Kommersiya bankları;
2.1. Səhmdar cəmiyyətli banklar;
2.2. Kooperasiya bankları;
2.3. Kommunal bank;
2.4. Mərkəzi kənd təsərrüfatı bankları və respublika kənd təsərrüfatı Bankları;
3. İxtisaslaşdırılmış kredit maliyyə təşkilatları;
3.1. kənd təsərrüfatı kredit cəmiyyəti;
3.2. kredit kooperativləri;
3.3. yardımçı əmanət kredit qurumları;
3.4. əmanət kassaları;

• 1930-cü ildə SSRİ kredit sisteminin quruluşu kredit islahatları nəticəsində tamamilə yenidən quruldu. SSRİ-nin kredit sistemi inzibati- komanda idarəetmə sisteminin qanunlarına uyğun olaraq quruldu:

• Dövlət Bankı;
• Tikinti Bankı;
• Xarici Ticarət Bankı;

1980-ci ilin ortalarına qədər faiz mexanizminin çalışmaması, yəni kreditlərin böyük hissəsinin ikinci büdcə vəsaiti rolu oynaması ölkənin bank sistemini ciddi problemlərlə üz-üzə qoydu. Nəticədə verilən kreditlərin əksəriyyəti hökumət qərarları ilə silinirdi. Buna görə də kredit sisteminin ciddi islahatlara ehtiyacı vardı. 1986-cı ildə ixtisaslaşdırılmış sahə bankları qurulmağa başlandı.

• Dövlət Bankı;
• Sənaye Tikinti Bankı;
• Əmanət Bankı;
• Xarici İqtisadi Əlaqələr Bankı;

1990-ci ildə SSRİ Ali Soveti "Bank və bankların fəaliyyəti haqqında" Qanun qəbul etdi. Qanuna görə, kommersiya banklarına depozit, kredit siyasətini və faiz dərəcələrini sərbəst şəkildə müəyyən etməyə icazə verildi. Bundan başqa, kommersiya banklarına valyuta əməliyyatı aparılmasına da izin verildi. 1997-ci ildə Rusiyanın kredit sisteminin quruluşu aşağıdakı kimi olmuşdur:

• RF Mərkəzi bankı;
• Bank sistemi;
• Kommersiya bankları;
• Əmanət Bankı;
• İxtisaslaşdırılmış kredit qurumları sayılmayan maliyyə institutları:
• sığorta şirkətləri;
• investisiya fondları;
• lizinq və b.

1921-ci ildə RSFSR-in Dövlət Bankı, 1923-cü ildən isə SSRİ Dövlət Bankı kimi fəaliyyət göstərirdi. 13 iyul 1990-cı ildə SSRİ Dövlət Bankının Rusiya Respublika Bankı əsasında RSFSR Ali Şurasına hesabat verən RSFSR Dövlət Bankı yaradılmışdır. Bu Rusiya Mərkəzi Bankının yaradılma tarixi hesab edilir. 20 dekabr 1991-ci ildə SSRİ Dövlət Bankı ləğv olunaraq bütün aktiv və passivləri, həmçinin Rusiya ərazisində olan əmlakı RSFSR Mərkəzi Bankına verilmişdir. 1991-ci ildən adını dəyişərək Rusiya Federasiyasının Mərkəzi Bankı adı altında fəaliyyətini davam etdirməkdədir. 1991-1992-ci illərdə Rusiya Mərkəzi Bankın nəzarəti altında xüsusi bankların kommersiya filialları əsasında kommersiya bankları yaradılmışdır. Bank rubla qarşı valyuta mübadiləsini müəyyən edir və valyuta bazarını yaradaraq valyutanın alqı-satqısını aparmağa başlayır. 1992-ci ildə Mərkəzi Bank dövlət büdcəsinin kassa əməliyyatlarının aparılması funksiyasını yeni yaradılan Federal Xəzinədarlığa ötürülmüşdür. 1992-1995-ci illərdə Mərkəzi Bank

kommersiya banklarının fəaliyyətinə nəzarət və yoxlama sistemi, valyuta tənzimlənməsi və nəzarəti sistemləri yaratmışdır. 1995-ci ildən başlayaraq Mərkəzi Bank birbaşa kreditlərin ayrılması yolu ilə dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsini və iqtisadiyyatın inkişafına mərkəzləşdirilmiş məqsədyönlü kreditlərin ayrılmasını dayandırmışdır.

Bankın həyata keçirdiyi əsas funksiyalar aşağıdakılardır:

- Milli valyutanın sabitliyinin qorununb saxlanılması;
- Pul nişanlarının buraxılması və tədavüldən çıxarılması;
- Rusiya Federasiyası hökuməti ilə birgə maliyyə-kredit siyasətini hazırlanması və həyata keçirilməsi və s.

Rusiya Mərkəzi Bankı 27 təşkilati strukturdan ibarətdir. Burada 79 ərazi bölməsi və 623 kassa-hesablaşma mərkəzi fəaliyyət göstərir.

Mərkəzi Bank Direktorlar Şurası tərəfindən idarə olunur. Şura İdarə Heyətinin sədri daxil olmaqla 12 üzvdən ibarətdir. Şuranın üzvləri Dövlət Duması tərəfindən 4 il müddətinə təyin edilir. Mərkəzi Bankın İdarə Heyətinin Sədri Dövlət Duması tərəfindən Prezidentin təklifi əsasında təyin edilir. Dövlət Duması Mərkəzi Bankın Sədrini tutduğu vəzifədən azad etmək huququna malikdir.

Mərkəzi Bankın yanında Milli Bank Şurası fəaliyyət göstərir. Şuranın Federal Assambleya palatalarının, Prezidentin, Rusiya Federasiyası hökumətinin, Rusiya Mərkəzi Bankının nümayəndələri, ekspertlər və digər kredit təşkilatların təmsilçilərindən ibarətdir. Bank Şurası Direktorlar Şurası tərəfindən təqdim olunan Mərkəzi Bankın illik hesabatlarına baxılması; kapital qoyuluşunun ümumi həcminin təsdiq edilməsi; Bank işçilərinin pensiya təminanatının, sosial və tibbi sığortaları üçün ayrılan xərclərin ümumi həcmini təsdiqetmə funksiyasına malikdir.

Ukraynanın pul-kredit sistemi. Müstəqil Dövlətlər Birliyi ölkələri içində Rusiyadan sonra iqtisadi gücə malik olan ikinci ölkə Ukraynadır. 1992-ci il yanvar ayında ölkədə qiymət islahatları aparılıb və nəticədə bank sektorunda faiz dərəcələri inflyasiya dərəcələrindən yüksək olmuşdur. 991-ci il may ayında Ukrayna Milli Bankı Qosbankdan ayrılaraq əvvəllər Qosbanka aid olan bütün səlahiyyətləri öz üzərinə götürüb. Ukrayna bank sistemi ixtisaslaşmış dörd kommersiya bankından ibarətdir: Dövlət Əmanət Bankı, Aqrosənaye Bankı, Tikinti Bankı və Sosial İnvestisiya Bankı. Bank sistemi içində ümumi əmanətin 80 %-i Dövlət Əmanət Bankına aiddir: 17 avqust 1998-ci il Rusiyada başlanan maliyyə böhranı Ukrayna pul-kredit sisteminə mənfi təsir göstərmiş və nəticədə milli pul vahidi olan qrivna xarici valyutalar qarşısında dəyərini itirmişdir.

Ukrayna Milli Bankı Ukraynanın mərkəzi bankıdır. Ukrayna Milli Bankı haqqında Qanuna əsasən Milli Bank dövlətin xüsusi mülkiyyətindədir.

Bank 1839-cu ildə Rusiya Dövlət Kommersiya Bankının Kiyev ofisi kimi yaradılmışdır. Ukrayna Milli Bankının təşkili və fəaliyyətinin hüquqi statusu Ukrayna Konstitusiyası və Ukrayna Milli Bankı haqqında Ukraynanın Qanunu ilə tənzimlənir. 20 mart 1991-ci ildə Ukrayna Radası Banklar və Bank fəaliyyəti haqqında Qanunu qəbul etmişdir. Məhz bu tarixdən etibarən Ukrayna Milli Bankı Ukraynanın mərkəzi bankı kimi fəaliyyət göstərməyə başlamışdır.

Ukrayna Milli Bankının əsas funksiyası milli pul vahidi Qrivnanın və ölkənin bank sisteminin sabitliyini təmin etməkdir. Bundan əlavə Ukrayna Milli Bankı aşağıdakı funksiyaları da həyata keçirir:

- Monetar siyasətin həyata keçirilməsi;
- Ukrayna milli pul vahidinin tədavülə buraxılması;
- Bank köçürmələrinin, ödəniş və hesablaşmala qaydalarının tərtib edilməsi;
- Monetar, kredit və statistik informasiya və tədiyyə balansına metodoloji dəstəyin təmin edilməsi;
- Bank nəzarətinin həyata keçirilməsi;
- Banklar, onların filial və nümayəndəlikləri, valyuta mübadiləsi, maliyyə və kredit təşkilatlarının qeydiyyata alınması və bank fəaliyyəti üçün lisenziyaların verilməsi;
- Tədiyyə balansının toplanması, təhlili və proqnozlaşdırılması;
- Qızıl və valyuta ehtiyatlarının saxlanılaraq toplanılmasını, həmçinin onlarla köçürmə şərtlərinin təmin edilməsi;
- Monetar, kredit, maliyyə, qiymət və valyuta əməliyyatlarının statusunun təhlil edilməsi;

• Ukrayna bank sistemi üçün kadrların treyninqlərdə iştirak edilməsi.

Ukrayna Milli Bankının ali idarəetmə orqanı İdarə Heyətidir. İdarə Heyətinin tərkibinə Sədr, birinci vitse-sədr, 3 vitse-sədr, 4 icraçı direktor, 6 departament direktoru və bir filial müdiri daxildir.

Ukrayna Milli Bankının beynəlxalq əməkdaşlığı aşağıdakı istiqamətlər üzrə həyata keçirilməkdədir:

• Dünya Bankı;
• Avropa Yenidənqurma və İnkişaf Bankı;
• Beynəlxalq Valyuta Fondu;
• MDB Dövlətlərarası Bankı;
• Alman-Ukrayna Fondu Proqramı;
• Digər beynəlxalq təşkilatlar (Avropa İttifaqı, Ümumdünya Ticarət Təşkilatı və s.).

Qazaxıstanın pul-kredit sistemi. Qazaxıstanın Mərkəzi Bankının 1997-ci ildə milli pul vahidi olan tanqe ilə açdığı kreditlərin faiz dərəcəsi 49 %, valyuta üçün tətbiq etdiyi faiz 20 % olmuşdur. Qazaxıstanda fond birjası fəaliyyətinə 1995-ci ildən başlanmışdır. Ümumiyyətlə, Qazaxıstan Orta Asiya ölkələri içində ölkəyə axan xarici sərmayə miqdarına görə birinci yerdədir. Ölkədə müxtəlif ölkələrin banklarının şöbələri və nümayəndəlikləri mövcuddur. Türkiyənin iki bankı Ziraət Bankı və Əmlak Bankının filialı Alma-Atada fəaliyyət göstərir. Türk Eksimbank Qazaxıstan iqtisadiyyatına 240 milyon dollarlıq kredit ayırmışdır.

Qazaxıstan Milli Bankı Qazaxıstan Respublikasının mərkəz bankı olmaqla ölkənin ikipilləli bank sisteminin üst pilləsini təşkil edir.

Sovet İttifaqı dövründə Qazaxıstan Milli Bankı (QMB) SSRİ Dövlət Bankının respublika kontoru olaraq fəaliyyət göstərmişdir. Bununla belə, Qazaxıstan SSR-də pul dövriyyəsinin idarə olunması mərkəzləşdirilmiş qaydada həyata keçirilmişdir. 16 aprel 1991-ci il tarixində "Qazaxıstan Respublikasının dövlət müstəqilliyi haqqında" qanunun qəbul edilməsindən sonra QMB özünün maliyyə-kredit, pul sistemlərini, qızıl ehtiyatlarını almaz və valyuta ehtiyatlarını saxlamaq hüququ əldə etmişdir. 13 aprel 1993-cü il tarixində qəbul olunan "Qazaxıstan Milli Bankı haqqında" qanun QMB-nin fəaliyyət prinsipləri, hüquqi statusu və səlahiyyətlərini müəyyənləşdirmişdir. Qazaxıstan Prezidentinin 30 mart 1995-ci il tarixli Sərəncamı əsasında QMB özlüyündə mərkəzləşdirilmiş struktura çevrilmişdir. Prezidentin 31 avqust 1995-ci il tarixli Sərəncamı ilə isə Qazaxıstanda ikipilləli bank sisteminə keçid oldu və QMB bu sisteminin üst pilləsini təşkil etməyə başladı.

Fəaliyyət: QMB aşağıda qeyd olunan funksiyaları həyata keçirməkdədir:

• Ölkənin pul-kredit siyasəti;
• Ölkə ərazisində əskinaz və sikkələrin emissiyası;
• Banklar bankı funksiyası;
• Hökumətin bankı, maliyyə məsləhətçisi və agenti funksiyası;
• Ödəniş sistemlərinin fəaliyyət göstərməsinin təşkili;
• Ölkədə valyuta tənzimlənməsi və nəzarəti;
• Ölkənin qızıl-pul aktivlərinin idarə olunması;
• Maliyyə təşkilatlarına nəzarət funksiyası;
• Ölkənin Milli Fondunun idarə olunması.

Təşkilati struktur: Qazaxıstan Milli Bankının İdarə Heyəti Sədr və üç müavindən ibarətdir. Bundan əlavə Direktorlar Şurası mövcuddur ki, Bura İdarə Heyətinin üzvləri və 9 departament direktoru daxildir.

Qazaxıstan Milli Bankı mərkəzi aparat, 11 departament (1-i Astanada olmaqla), 10 ayrı idarə və 1 şöbədən ibarətdir. Bundan əlavə, 16 ərazi filialı və Almatı şəhərində 2 filial fəaliyyət göstərməkdədir. QMB-nin tək xarici nümayəndəliyi Rusiya Federasiyasındadır. Bunlardan əlavə aşağıda qeyd olunan 4 təşkilat Milli Banka hesabat verməkdədir:

• Banklararası hesablaşmaları mərkəzi;
• Bank xidməti bürosu;
• Qazaxıstan sikkəxanası;

• Əskinaz fabriki.

QMB aşağıdakı səhmdar cəmiyyətlərin təsisçisidir:

• Qazaxıstan əmanətlərin zəmanəti agentliyi;

• Sığorta ödənişlərinin zəmanəti fondu;

• Qazaxıstan ipoteka kreditlərinin zəmanəti fondu;

• Qazaxıstan Milli Bankının Ehtiyat Mərkəzi

Yuxarıda qeyd olunanlardan əlavə, QMB "Milli Prosessinq Mərkəzi"nin təsisçilərindən, "Pensiya Yığım Fondunun" səhmdarlarından biridir.

Beynəlxalq əlaqələr: Qazaxıstan Milli Bankının beynəlxalq əməkdaşlıq münasibətləri əsas olaraq aşağıda qeyd olunan istiqamətlərdə inkişaf etdirilir:

• Xarici mərkəzi banklar və beynəlxalq maliyyə təşkiları ilə əlaqələri inkişaf etdirilməsi və dərinləşdirilməsi;

• QMB-nin beynəlxalq maliyyə təşkilatları və xarici mərkəzi banklardan aldığı texniki yardımın əlaqələndirilməsi;

• MDB ölkələrinin dövlətlərarası təşkilati strukturlarda iştirakı;

• Qazaxıstan Respublikasının beynəlxalq maliyyə təşkilatlarının nizamnamə kapitalında iştirakı.

Özbəkistamın pul-kredit sistemi. Özbəkistanın milli pul vahidi sum 1994-cü ilin iyunundan etibarən tədavülə buraxılmışdır. Mərkəzi Bank haqqında Qanun 21 dekabr 1995-ci ildə qəbul edilmişdir. Özbəkistanda xarici bankların fəaliyyəti 25 aprel 1996-cı ildə qəbul edilən banklar və banklar haqqında Qanun ilə nizamlan-maqdadır. Özbəkistanda Pakistan və Hindistanın banklarının nümayəndəlikləri əksəriyət təşkil edir. Lakin Özbəkistanda çoxlu özəl sərmayəli bankların fəaliyyətinə baxmayaraq, bank sektorunun aktiv və əmanətlərinin 80 %-i 4 böyük dövlət bankının əlindədir. Ümumiyyətlə, Özbəkistanda xarici sərmayəli bankların sayı 12-dir.

Qırğızıstanın pul-kredit sistemi. Orta Asiya Türk Cumhuriyyətləri içində milli pul vahidini tədavülə çıxaran ilk ölkə Qırğızıstandır. Qırğız milli pul vahidi son 1993-cü ildə tədavülə çıxarılmışdır. İlk günlər 4 som = 1 ABŞ dolları ikən, sonralar isə som Amerika dolları qarşısında dəyərini itirmişdir. 31.05.97 tarixində 1 ABŞ dolları = 1 som olmuşdur. Mərkəzi Bank haqqında Qanun 12 dekabr 1992-ci ildə parlamentdə qəbul edilmişdir.

Qırğızıstanda qiymətli kağız bazarı 5 may 1994-cü ildə fəaliyyətə başlamışdır. Fond birjası əsasən kommersiya bonoları və dövlət istiqrazlarının alqı-satqısını həyata keçirir. Qırğızıstan Mərkəz Bankı ilk qısamüddətli xəzinə bonolarını 1993-cü ilin may ayında tədavülə buraxmışdır. Qırğızıstanda xarici sərmayəli banklar içində üstünlüyü türk bankları təşkil edir. Türkiyənin Dəmir Bankı Qırğızıstanda filial aç-mışdır. Bankın əsas məqsədi ölkədə yaşayan xaricilərin və yüksək gəlir səviyyəsinə malik qırğız vətəndaşlarının sərvətlərini istiqamətləndirməkdir. Bundan başqa Türk Eksimbankı Qırğızıstana cəmi 35 milyon dollar kredit açmışdır.

Türkmənistanın pul-kredit sistemi. Türkmənistanın bank sistemi 2 pilləlidir. Yuxarıda Mərkəzi Bank və fəaliyyətləri, onun nəzarəti altında olan kommersiya bankları. Türkmənistan Mərkəzi bankının xarici iqtisadi əlaqələri çox genişdir. Bankın Deüçe Bank (Alman Bankı), SBS, İran Milli Bankı, Midland Bank, Kredit İnstitut Bankı ilə müxbir münasibətləri vardır.

Türkmənistanda xarici sərmayəli Türk Bankı Türkiyə Ziraət bankının filialı fəaliyyətdədir (sərmayəsi 1 milyon dollar). Bundan başqa, 3 avqust 1993-cü ildə Türkiyə Xalq Bankının iştirakı ilə Türkmənistan Xalq İnkişaf Bankı qurulmuşdur.

Türk Eksimbank Türkmənistana cəmi 91 milyon dollarlıq kredit verib, bunun 75 milyonu ixrac krediti, 16 milyon da layihə proqramları üçün açılmışdır.

2.4. BANK SFERASINDA DİAQNOSTİK SİSTEM

Bank sferasında diaqnostika sistemı tətbiq olunur və 4 hissədən təşkil olunur:

1. bankların qiymətləndirilməsinin reytinq sistemləri;
2. maliyyə koeffisenti və qrup şəklində analiz sistemi;

3. bank risklərinin qiymətləndirilməsinin kompleks sistemi;
4. statistik modellər.

Sistemlər əsasən kəmiyyət qiymətləndirilməsini və kompyuterlə keyfiyyət hesablarını özündə cəmləyir. Bəzilərində kompyuter proqramları, bəzi halda isə ekspert rəyləri dominantlıq edir.

Bankların qiymətləndirilməsinin reytiq sistemləri. Ilk əvvəl bankların reytinqi onların fəaliyyətlərinin yerində təhlili ilə əlaqəli idi. Hal – hazırda isə yanaşma müəyyən qədər dəyişərək uzaqdan monitorinq metoduna yaxınlaşıb. Burada subyektiv qiymətləndirmə əsas götürülür. Reytinq sistemi bank sferasının cari vəziyyətini, problemli bankların üzə çıxardılmasına imkan verir. Bu sistem kon-kret zaman kəsiyinin informasiyasına əsaslanır. Uzaqdan monitorinq bir tərəfdən informasiya genişliyinə yol açırsa digər tərəfdən yerində olan informasiya ilə dəqiqliyini aşağı salır.

Maliyyə koeffisentləri və qrup şəklində analiz. Məlumdur ki, bankın maliyyə vəziyyətini son maliyyə göstəricilər toplusu müəyyən edir. Sonuncular özündə kapitalın lazımı səviyyədə olması, aktivlərin keyfiyyəti, gəlirliyi və likvidliyi cəmləyir. Çoxsaylı koefifsentlər bu göstəricilərə aid olub bankların sistem ana- liz ində istifadə edilir. Sistem üçün informasiya nəzarət orqanlarının illik hesabat məlumatları əsasında daxil olur. Analizlərin nəticələri ayrı -ayrı kredit təşkilatlarının fəaliyyətinin müqayisəsinin formalaşması və ayrı-ayrı bank qruplarının ma-liyyə fəaliyyəti kriteriyalarının təyin olunması, eyni zamanda uyğun qrupun göstəricilərinə uyğun olmayan bankların müəyyən olunması üçün istifadə olunur. Qrup şəklində analiz bank qrupları üçün maliyyə koeffisentlərinə əsaslanır. Nəzarətçi müəyyən edir ki, hansı səviyyədə ayrı-ayrı bankların göstəricisi analoji banklardan fərqlidir və bunun səbəbi araşdırılır.

Belə sistemdə qrupların təşkili aktivlərin həcminə (məsələn böyük və kiçik banklar), bazar seqmentinin spesifikasına (məsələn, yerli kommersiya bankları, xarici banklar, investisiya bankları) əsaslanır. Bəzi sistemlər müqayisə üçün xüsusi qruplar yaratmağa imkan verir. (məsələn, biznesin istiqaməti və ya konkret reqional banklar). Belə yollarla göstəriciləri pisləşən banklar müəyyən olunur. Qrup analizi həmçinin bütün bank sektorunda və ya onun ayrı-ayrı seqmqntlərində tendensiyaların tədqiqində istifadə olunur.

Bank risklərinin qiymətləndirilməsində kompleks sistemlər. Belə sistem çərçivəsində bütövlükdə kredit təşkilatının risklərinin qiymətləndirilməsi baş verir. Kompleks yanaşma riskin kəmiyyət və keyfiyyət amillərinin qiymətləndirilməsinə imkan yaradır. Bankın vəziyyəti haqqında hərtərəfli informasiya alınması üçün milli və xarici nəzarət orqanlarının qarşılıqlı fəaliyyəti vacibdir. Bankın yoxlanılmasına çoxlu resurs və vaxt sərf edilir, lakin iri milli və beynəlxalq bankların və diversifikasiyalı biznesi olan bank qruplarının qiymətləndirilməsi üçün rahatdır.

Statistik modellər. Statistik modellərin əsas məqsədi bankların gələcək vəziyyətini proqnozlaşdırmaq və vaxtında bank problemlərinin diaqnostikasıdır. Model nəzarət orqanları tərəfindən bank fəaliyyəti haqqında toplanmış informasiyaları risklərin qiymətləndirilməsi üçün istifadə edir.

Siyasi risklər

- Idarəetmə forması və siyasi institutların adaptasiya dərəcəsi;
- Ölkənin idarəetməsində əhalinin geniş iştirak dərəcəsi;
- Iqtisadi siyasi məqsəd və məsələlər üzrə geniş konsesiumun olması;
- Qlobal maliyyə və ticarət sisteminə inteqrasiya dərəcəsi;
- Milli təhlükəsizliyin daxili və xarici gözləntiləri.

Əhali gəlirlərinin strukturu və iqtisadiyyatın struktur təşkili

- əhalinin gəlirlərinin səviyyəsi və hayat səviyyəsi;
- bazar və qeyri-bazar iqtisadiyyatı;
- resursların mövcudluğu və onların diversifikasiya dərəcəsi.

İqtisadiyyatın artım perspektivi

- Kapital qoyuluşu, əmanətlərin həcmi və strukturu;
- İqtisadiyyatın artım tempi və xarakteri.

Büdcə vergi siyasətinin elastiklik dərəcəsi

- Milli hökumətin fiskal siyasətinin yekunu və büdcənin tarazlığı;
- Vergitutma sisteminin rəqabətliyi, vergitutmanın dərəcələrinin artımı sistemində

elastiklik dərəcəsi;

- Dövlət xərclərinin artımına yol açan amillər.

Dövlət borcu

- Milli hökumətin maliyyə aktivləri;
- Dövlət borcunun valyuta strukturu;
- Pensiyaların ödənilməsi üzrə dövlət öhdəlikləri;
- Bank sisteminin öhdəlikləri.

Qiymətlərin stabilliyi

- Qiymət inflyasiyasının inkişaf tendensiyası;
- Pul kütləsinin artım tempi;
- Mazənnə siyasəti;
- Mərkəzi bankın suverenlik dərəcəsi.

Tədiyyə balansının elastikliyi

- Xarici əməliyyatlar hesabının vəziyyətinə büdcə - vergi və pul – kredit siyasətinin təsiri;
- Cari əməliyyatlar hesabının strukturu;
- Kapital axınının strukturu.

Xarici borc və likvidlik

- Xarici dövlət borcunun valyuta quruluşu və həcmi;
- Dövlət zəmanətli öhdəliklərin həcmi;
- Dövlət borcunun ödəmə müddəti;
- Xarici aktiv və dövlət ehtiyatlarının quruluşu və həcmi;
- Borcun ödənilməsi ilə bağlı tarixi faktlar (defoltların tarixi).

2.5. BANK SEKTORUNDA (ÜMUMİ BANK SƏVİYYƏSİNDƏ) BAZAR RİSKİ KATEQORİYALARI

Risk – gözlənilməz hadisələrin bankın kapitalına mənfi təsir göstərə bilməsi və bankın biznes məqsədlərini həyata keçirmək imkanlarının məhdudlaşdırması ehtimalıdır. Ümumi bank səviyyəsində bazar riski mövcuddur. Bazar riski - faiz dərəcəsi, xarici valyuta məzənnəsi və kapitalın (həmçinin bazar qiymətli kağızların) qiymətlərindəki enib-qalxmaların nəticəsində bank aktivinin bazar dəyərini dəyişməsindən itkiyə səbəb ola bilən ehtimaldır. Bu anlayışa əsasən bazar riski riskin mənbəyindən asılı olaraq aşağıdakı kateqoriyalara bölünə bilər:

1. Faiz dərəcəsi riski – faiz dərəcəsinin dəyişilməsi nəticəsində yaranan riskdir. Bu risk mənbəyi ilk növbədə faiz gətirən maliyyə alətlərinə təsir edir;

2. Xarici valyuta riski – valyuta məzənnələrindəki dəyişikliklərə görə yaranan riskdir. Bu risk mənbəyi xarici valyutada yerləşdirilən alətlərin portfelinə təsir edir. O, həmçinin ticarət əməliyyatları müxtəlif valyutalarda aparıldıqda və sonradan qiymətləndirmə uçotu və hesabatları yerli valyutaya çevirildikdə bankın ümumi portfeli xarici valyuta riski ilə üzləşə bilər;

3. Kapital riski – kapitalın və digər bazar giymətli kağızlarının qiymətlərindəki dəyişikliklərə görə yaranan riskdir. Bu risk mənbəyi kapital portfelinə, eləcə də hecinq və spekulyasiya məqsədləri üçün istifadə edilən kapitalın törəmə alətlərinə təsir göstərir;

4. Əmtəə-mal riski - əmtəə-mal qiymətlərindəki dəyişikliklərə görə yaranan riskdir. Bu risk mənbəyinin təsir göstərdiyi portfellər faktiki əmtəələrdən (məsələn, qızıl) və ya əmtəə fyuçerslərindən və forvard müqavilələrindən ibarət ola bilər. Bu riskin banklara təsiri onların fəaliyyətindən asılı olacaqdır.

Bankın öz daxilindən qaynaqlanan risklərə beşinci fəsildə ətraflı izah olunacaqdır.

AMB tərəfindən banklarda kapitalın adekvatlığının yoxlanması və qiymətləndirilməsi prosesində tələb yaranarsa, hər bir bankdan bazar risklərinin örtülməsi üçün əlavə kapitalın təmin edilməsi tələb edilir.

2.6. MALİYYƏ SABİTLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ İSTİFADƏ EDİLƏN İNDEKSLƏR

Bank sektorunun maliyyə dayanıqlığı indeksi - Hesablanması zamanı bank sisteminin daha çox həssas olduğu risklər nəzərə alınır. İstifadə edilən göstəricilər aşağıda qeyd olunmuş qruplara bölünür:

1. Kapital səviyyəsini əks etdirən göstəricilər;
2. Likvidlik risklərini əks etdirən göstəricilər;
3. Rentabellik göstəriciləri;
4. Bazar riskləri üzrə göstəricilər;
5. Aktivlərin keyfiyyətini əks etdirən göstəricilər.

Göstəricilərə dair həddlər statistik üsüllara və beynəlxalq təcrübəyə əsasən müəyyən olunur və verilmiş limitlərdən kənarlaşmalar risklərin azalıb və ya artmasını özündə əks etdirir. Hər qrup üzrə ümumiləşdirilmiş nəticə göstəricilərin orta ölçülmüş qiyməti əsasında hesablanır.

İndeks indikator qruplarının orta riyazi qiyməti kimi müəyyənləşir.

*B*ank sektorun kövrəklik indeksi – bank sektorunun davamlığını əks etdirir.

İndeks özəl sektora kreditlərin, xarici borc öhdəliklərinin və əhalinin əmanətlərinin standart kənarlaşmanın orta qiyməti olaraq müəyyən edilir.Bu göstəricilərin kəskin dəyişməsi bank sektorunun dayanıqlığına təsir edir (məsələn, bank depozitlərin çıxarılması, kreditlərin yüksək artım tempi,devalvasiya gözləntiləri zaman pul axını və s.).

Maliyyə sabitliyinə təsir edən risk mənbələri

Endojen (daxili amil)	Ekzojen (xarici amil)
• maliyyə • kredit • bazar • likvidlik • faiz • pul • şirkət riski • informasiya texnolojılarından zəif istifadə • hüquqi risk • etibar və ya güvən riski • iş strateji riski • sərmayə yetərliyi riski	• iqtisadi risk • qeyri siyasi sabitlik • hadisə riski • təbii hadisələr • siyası • böyük şirkətin uğursuzluğu

2.7. AZƏRBAYCANDA MALİYYƏ SABİTLİYİNİN TƏMİNATINDA MƏRKƏZİ BANKIN ROLU

Banklar fəaliyyətləri dövründə öz aktivləri, balansarxası öhdəlikləri və kapitalının miqdarı ilə bağlı Mərkəzi Bankın müəyyən etdiyi prudensial normativlərə və tələblərə, o cümlədən açıq valyuta mövqeyinə riayət etməlidirlər. Mərkəzi Bank bankların və xarici bankların yerli filiallarının maliyyə sabitliyini təmin etmək məqsədilə aşağıdakı prudensial normativləri və tələbləri müəyyən edir:

1. nizamnamə kapitalının (xarici bankların yerli filialları üçün nizamnamə kapitalına bərabər tutulmuş vəsaitin) minimum miqdarını;
2. məcmu kapitalın minimum miqdarını (xarici bankların yerli filialları üçün məcmu kapitala bərabər tutulmuş vəsaitin minimum miqdarını);

3. əsas və məcmu kapitalın risk dərəcəsi üzrə ölçülmüş aktivlərə (xarici bankların yerli filialları üçün əsas və məcmu kapitala bərabər tutulmuş vəsaitin risk dərəcəsi üzrə ölçülmüş aktivlərə) nisbətini (kapitalın adekvatlıq əmsallarını);

4. likvidlik göstəricilərini;

5. bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu üçün kredit risklərinin maksimum miqdarını;

6. məcmu iri kredit risklərinin maksimum miqdarını;

7. aidiyyəti şəxslərə və aidiyyəti şəxs adından hərəkət edən şəxslərə verilmiş kreditlərin maksimum miqdarını;

8. aidiyyəti şəxslərə və aidiyyəti şəxs adından hərəkət edən şəxslərə verilmiş məcmu kreditlərin maksimum miqdarını;

9. digər hüquqi şəxslərin kapitalında bankların iştirakının maksimum miqdarını;

10. digər hüquqi şəxslərin kapitalında bankların məcmu iştirakının maksimum miqdarını;

11. açıq valyuta mövqeyinin limitlərini;

12. aktivlərin, balansarxası öhdəliklərin təsnifatından və qiymətləndirilməsindən asılı olaraq, mümkün zərərin ödənilməsi üçün xərclər hesabına yaradılan xüsusi ehtiyatlara aid tələbləri;

13. faizlərin hesablanması dayandırılmış aktivlərə aid tələbləri;

14. aidiyyəti şəxslər və aidiyyəti şəxs adından hərəkət edən şəxslər ilə aparılan əməliyyatlara aid tələbləri;

15. aktivlərin və passivlərin ödəniş müddətlərinin və faiz dərəcələrinin uyğunluğuna dair tələbləri (Banklar haqqında Azərbaycan Respublikasının Qanunu – Maddə 34).

Azərbaycanda Pul siyasəti və maliyyə sabitliyi Komitəsi pul və məzənnə siyasətinin işlənməsi və həyata keçirilməsi, habelə maliyyə sabitliyinin qorunması üzrə Mərkəzi Bankın İdarə Heyətinin yanında məşvərətçi orqandır. Komitənin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

1. Pul və məzənnə siyasətinin konseptual məsələlərini müzakirə edir və bununla bağlı Mərkəzi Bankın İdarə Heyətinə təkliflər verir;

2. İnflyasiya, məzənnə və pul aqreqatları ilə bağlı durumu, pul siyasəti alətlərinin tətbiqinin nəticələrini müzakirə edir və müvafiq departamentlərə tövsiyələr verir;

3. Pul proqramının yerinə yetirilməsini və pul bazarının vəziyyətini müzakirə edir, rüblük pul proqramını təsdiq edir, pul siyasəti alətlərinin tətbiqinə dair təkliflər verir;

4. Pul və məzənnə siyasəti və maliyyə sabitliyinin təhlili ilə əlaqədar hazırlanmış metodoloji sənədləri müzakirə edir və təsdiq olunmaq üçün İdarə Heyətinə təqdim edir;

5. Milli iqtisadiyyatda və dünya iqtisadiyyatında gedən proseslərin qiymətləndirilməsini həyata keçirir və zəruri olduqda bu qiymətləndirmənin nəticələrinin pul siyasətində və maliyyə sabitliyinin qorunmasında nəzərə alınmasını tövsiyə edir;

6. Pul və məzənnə siyasətinin maliyyə sabitliyinə təsiri məsələlərini müzakirə edir.

7. Maliyyə sisteminin sabitliyi, o cümlədən bank nəzarəti məsələlərini müzakirə edir və aidiyyəti departamentlərə müvafiq göstəriş və tövsiyələr verir;

8. Maliyyə sisteminin sabitliyi ilə əlaqəli digər məsələləri müzakirə edir və aidiyyəti departamentlərə müvafiq göstəriş və tövsiyələr verir.

Azərbaycan Bank sektorunda maliyyə sabitliyi siyasəti. 2011-ci ildə Mərkəzi Bankın bank sektorunda maliyyə sabitliyi siyasəti aşağıdakı hədəflərin realizasiyasına yönələcəkdir:

- Kapital adekvatlığının qorunması;
- Optimal likvidlik səviyyəsinin saxlanması;
- Restrukturizasiyanın həyata keçirilməsi.
- 2011-ci ildə tənzimləmə və nəzarət tədbirləri artım və dayanıqlıq arasında optimal nisbətin təminatına yönəldiləcəkdir.

Postböhran dövründə bank sektorunun daha stabil və dayanıqlı artım mənbələrinə söykənməsi vacib şərtdir. Bu, başlıca olaraq, maliyyə vasitəçiliyinin sağlam və uzunmüddətli iqtisadi artıma yönəlməsi zərurətini şərtləndirir. Bunun üçün bankların resurs bazasında uzunmüddətli yığım mənbələrinin, o cümlədən kapital bazarının rolunun artırılması zəruridir.

Bank sisteminin stabil və təhlükəsiz inkişafının təmin edilməsi üçün tənzimlənmə və prudensial nəzarət çərçivəsinin yeni qlobal çağırışlara adaptasiyası davam etdiriləcəkdir. Bu məqsədlə mikro-prudensial (institutlar üzərində fərdi nəzarət) nəzarətlə əhatə olunmuş riskləri daha effektiv tənzimləmək üçün bank nəzarəti üzrə Bazel Komitəsinin platformasında tövsiyə edilmiş yeni alətlərin istifadəsi imkanlarının qiymətləndirilməsinə başlanacaqdır. Bank tənzimlənməsi və nəzarətinin təkmilləşdirilməsi üçün makroprudensial yanaşmanın gücləndirilməsi başlıca vəzifə kimi müəyyənləşdirilmişdir.

Bank aktivləri üzrə ehtiyatlanma siyasətinin yeni kontrtsiklik fəlsəfə əsasında formalaşması son qlobal böhrandan sonra xüsusilə aktuallaşmışdır. Ənənəvi olaraq banklar fəaliyyətlərində "protsiklik" davranışa (iqtisadi artım dinamikasının arxasınca getmək meyli) meylli olurlar ki, bu da böhran zamanı zəruri ehtiyat portfelinin olmaması ilə nəticələnir. Kontrtsiklik yanaşmanın inkişafı bankların iqtisadi artım dövründə ehtiyatlı davranışını, böhran dövründə isə daha dayanıqlı olmalarını şərtləndirəcək. Bunu nəzərə alaraq "kontrtsiklik- dinamik ehtiyatlanma" mexanizmləri tətbiq olunacaqdır.

Mərkəzi Bank başlıca vəzifəsini makroiqtisadi və maliyyə sabitliyinin qorunmasında və bu məqsədlə pul və maliyyə sabitliyi siyasəti strategiyalarının təkmilləşməsində görür. Bu, uzunmüddətli dövrdə dayanıqlı və dinamik iqtisadi artımın başlıca şərtlərindən biridir. Dayanıqlı iqtisadi artıma nail olunmasında ölkənin ixrac potensialının tam reallaşması və diversifikasiya başlıca vasitədir. Bunun əsas şərtləri birbaşa xarici investisiyaların həcminin artırılması, kapital bazarının dərinləşməsi, institutların və insan kapitalının inkişafıdır.

2.8. BANK SİSTEMİNDƏ STRESS TEST SİSTEMİ

Stress testlər istisna hallarda baş verə biləcək hadisələr üzrə risk faktorlarının dəyişməsinin bankın maliyyə durumuna potensial təsirinin qiymətləndirilməsi üçün həyata keçirilir və bankın potensial zəif tərəflərini izləməyə, qiymətləndirməyə və zəruri preventiv tədbirləri müəyyən etməyə imkan verən risklərin risklərin idarə olunması mexanizminin elementlərindən biridir. Stress test çərçivəsində banklar kəskin zərərlərə gətirib çıxaran və risklərin idarə edilməsini çətinləşdirən hər bir risk faktorunu nəzərə almalıdır. Bu faktorlar bazar, kredit, likvidlik və digər risklərin komponentlərini özündə cəmləşdirir.

Stress testlərin keçirilməsi nəticəsində aşağıdakılar müəyyən edilir:

1. bankın kapitalının şoklara dözümlüyü;
2. şoklar nəticəsində bankın məruz qaldığı maksimum itki;
3. bankın fəaliyyətində boşluqlar;
4. müxtəlif risklərin qiymətləndirilməsi və onların qarşılıqlı əlaqəsi;
5. bankın makro iqtisadi amillərdən asılılığı.
6. Ssenari təhlili mümkün ekstremal hadisənin baş verməsi nəticəsində eyni zamanda bir neçə faktorun bankın maliyyə vəziyyətinə təsirini ölçür. Ssenari təhlilləri uzunmüddətli dövrləri əhatə edir. Həssaslıq təhlili yalnız bir faktorun dəyişməsinin bankın maliyyə durumuna təsirini ölçür. Ssenari təhlilindən fərqli olaraq həssaslıq təhlili daha qısamüddətli dövrü əhatə edir.
7. Hər bir bankda stress testlərin həyata keçirilməsi üçün bankın həcmindən və onun fəaliyyət istiqamətlərinin mürəkkəbliyindən asılı olaraq stress test modeli hazırlanmalıdır.

Stress testlərin aparılması zamanı potensial maksimal zərərin müəyyənləşdirilməsi üçün müxtəlif risk faktorlarının kombinasiyasına baxılmalı və onların bir-biri ilə əlaqəsi nəzərə alınmalıdır. Risk profillərinin müxtəlifliyi səbəbindən, habelə beynəlxalq səviyyədə qəbul edilmiş stress testlərin keçirilməsi standartlarının olmaması ilə əlaqədar stress test modellərinin qurulması hər bir bankda ona uyğun olan şəkildə həyata keçirilməlidir. Banklar məqsədindən asılı olaraq şokların təhlili üçün həm həssaslıq həm də ssenari təhlillərini həyata keçirməlidirlər.

Banklar ilkin olaraq stress testlərin həyata keçirilməsi üçün onlara təsir edə biləcək risk növlərini müəyyən etməli və müəyyən edilmiş hər bir risk və onun kateqoriyası üzrə stress testlər həyata keçirməlidir.Ilkin mərhələdə hər bir risk kateqoriyası üzrə banka təsir edə biləcək makro və mikroiqtisadi risk hadisələri müəyyən edilməli, onların tarixi dinamikasına baxılmalı və bankın

maliyyə hesabatlarının ətraflı təhlili həyata keçirilməlidir. Bu növ təhlillər həyata keçirildikdən sonra banka təsir edə biləcək şoklar müəyyən edilməlidir. Şoklar stress testin keçirilmə məqsədindən asılı olaraq müəyyən bir istiqamətdə və ya kompleks şəkildə ola bilər.

Stress test proseslərində hadisələrin ekstremallıq və ehtimal kriteriyalarının əlaqəsi nəzərə alınmalıdır. Yəni, hər hansı bir risk faktorunun ekstremal həddə dəyişilməsi ehtimalı mümkün olmalıdır. Stress testlər hadisələrin baş vermə ehtimallarını müəyyən etmir. Bu səbəbdən ssenarilərin seçilməsi zamanı hadisələrin baş vermə ehtimallarının başa düşülməsi vacib şərtdir.

Stress testin həyata keçirilməsi üçün istifadə edilən məlumatların mötəbərliyi və aktuallığı yoxlanılmalıdır. Bu zaman istifadə edilən hesabatların davamlıq və müqayisəlilik meyarlarına uyğunluğunun təmin edilməsi nəzərə alınmalıdır. Stress testdə qəbul edilmiş hər bir fərziyyə təhlil edilməli və əsaslandırılmalıdır. Stress testlər həyata keçirilərkən "ən pis", "ən yaxşı" və "ehtimal olunan" ssenariləri tərtib olunmalı və fərziyyələr daxil olmaqla hər bir ssenari üçün ayrıca meyarlar və şoklar müəyyən edilməlidir. Stress testlərin keçirilməsi zamanı risk faktorlarının müəyyən edilməsində yalnız keçmiş məlumatlara əsaslanmaq düzgün olmayan nəticələrə gətirib çıxara bilər. Bu səbəbdən stress testlərin hazırlanması zamanı bank tarixi ssenarilərdən başqa potensial riskləri və maksimal itkiləri nəzərə alan hipotetik ssenariləri də nəzərdən keçirməlidir.

Bankın məruz qaldığı risk faktorlarının sayı həddən artıq çox olduqda bu faktorların arasından yalnız bankın fəaliyyətinə ciddi təsir edə biləcək əsas risk faktorları seçilməli və onların bankın maliyyə durumuna təsiri ölçülməlidir.

Stress testlər aparılarkən ən azı aşağıdakılar nəzərə alınmalıdır:

1. müxtəlif sektorlarda baş verən şok hadisələrinin bankın kredit portfelinə
2. və onun keyfiyyətinə təsiri;
3. ÜDM-də baş verən dəyişikliklərin bankın kredit və depozit portfelinə
4. təsiri;
5. inflyasiya dəyişkənliyinin bank məhsullarının faizlərinə və kredit
6. portfelinə təsiri;
7. müxtəlif məhsulların faiz dərəcələrinə təsiredici amillərdə baş verən
8. dəyişikliklərin həm faiz dərəcələrinə, həm də bankın mənfəətinə, kapitalına, kredit və depozit portfelinə, xarici valyutada olan aktiv və öhdəliklərinə təsiri;
9. qeyri-işlək kreditlərin strukturunda baş vermiş dəyişikliklərin bankın mənfəətinə, kapitalına və likvidliyinə təsiri;
10. iri kreditlərlə bağlı yaranmış problemlərin bankın kredit portfelinə, likvidliyinə və mənfəətinə təsiri;
11. xarici borcların vaxtından əvvəl geri çağırılmasının bankın likvidliyinə təsiri;
12. iri depozitlərin geri çağırılmasının bankın likvidliyinə təsiri;
13. bankda yüksək likvidli vəsaitlərin azalmasının yeni kreditlərə təsiri;
14. əməliyyat gəlirinin azalması və/və ya əməliyyat xərcinin artmasına təsir edən amillərin kəskin dəyişməsi;
15. maliyyələşmədə problemlər;
16. təminatın dəyərinin dəyişməsi;
17. xarici valyutanın rəsmi məzənnəsinin dəyişməsi.

Banklarda stress testlər aparıldıqdan sonra əldə edilmiş nəticələr ən azı aşağıdakı hesabatlarda öz əksini tapmalıdır:

- cari, ilin sonuna və bir il sonrakı dövrdə şoklardan sonrakı balans hesabatı;
- cari, ilin sonuna və bir il sonrakı dövrdə şoklardan sonrakı mənfəət və zərər hesabatı;
- cari dövrdə şoklardan sonrakı ödəniş müddətinin bölgüsü cədvəli;
- cari, ilin sonuna və bir il sonrakı dövrdə şoklardan sonrakı kredit portfeli ;
- cari, ilin sonuna və bir il sonrakı dövrdə şoklardan sonrakı ən azı aşağıdakı əmsallar:
- kapitalın adekvatlıq əmsalı;
- leverec əmsalı;
- ani likvidlik əmsalı;
- birinci dərəcəli kapitalın adekvatlıq əmsalı;

- vaxtı keçmiş kreditlərin portfeldə payı;
- ROE əmsalı;
- ROA əmsalı;
- likvid aktivlərin aktivlərə nisbəti əmsalı;
- xalis faiz gəlirinin ümumi gəlirlərə nisbəti əmsalı;
- açıq valyuta mövqeyinin kapitala nisbəti əmsalı.

Banklar operativ qərar qəbul etmənin təmin edilməsi məqsədi ilə ən azı ayda bir dəfə stress testləri həyata keçirməlidirlər. Stress test modeli, o cümlədən stress testin həyata keçirilməsi zamanı istifadə edilən ehtimallar bankın risklərin idarə edilməsi bölməsi tərəfindən hazırlanmalı, Risklərin idarə edilməsi komitəsi tərəfindən ona baxılmalı və Müşahidə Şurası tərəfindən təsdiq edilməlidir. Modelə ən azı ildə bir dəfə, zəruri hallarda isə müətmadi olaraq yenidən baxılmalıdır. Modeldə istifadə edilən ehtimallara və şoklara hər bir stress test keçirilərkən fərdi qaydada baxılmalı və təsdiq edilməlidir.

2.9. BANK SİSTEMİNDƏ BÖHRAN

Finans böhranları haqqında nəzəriyyələr. 1970-ci illərin əvvəllərində etibarən yaşanan başlıca finans böhranlarını açıqlayan nəzəriyyələri əsasən altı başlıq altında toplaya bilərik:

- Dövri borc yığımı. Fişer, Minski kimi iqtisadçıların araşdırmalarına görə istər şirkətlərin, istərsə də ölkələrin sürətli böyümə dönəmlərində dövri bir borc yığımına rast gəlinir. Bu borc yığımı finans böhranlarının meydana gəlməsində başlıca faktor rolunu oynayır;
- Bankçılıqda yaşanan böhran. Fridman, Kaqan kimi monetaristlər tərəfindən irəli sürülən bu nəzəriyyəyə görə yüksək inflyasiya bankçılıq sektorunda təşvişə yol açmışdır. Bu durumda yeridilən daralmış pul siyasətinin iqtisadi aktiv üzərində təsiri azalır;
- Rasional nəzəriyyə. Flud, Qerber, Uotson və Kriqman kimi iqtisadçılara görə ən önəmli faktor olaraq qiymət dəyişmələrinə yönələn gözləmələrdir;
- Qeyri-müəyyənlik nəzəriyyəsi. Bu nəzəriyyə gələcəkdəki əldə ediləcək gəlirlə risk arasında qərar olmanın vacibliyini açıqlayır. Bu məktəbin iqtisadçıları – Molozer, Nerrinqə görə finans böhranlarına səbəb gələcəyə yönəlmiş qərarsızlıq və qeyri-müəyyənlikdir;
- Kredit nəzəriyyəsi. Kredit miqdarındakı azalmalar kredit tələbində ani bir artıma səbəb olur;
- Finans bazarı strukturu nəzəriyyəsi, Davis tərəfindən inkişaf etdirilən bu nəzəriyyə derequlyasiondan qaynaqlanan, bazara girişdə qarşılaşan maneçiliklərin aradan qaldırılması, yeni bazarların inkişafı və digər faktorlar üzərində durmaqdadır. Bazara giriş maneçiliklərin azaldılması rəqabət artımına, bu artım isə kredit tələbində bir artıma və kredit standartlarının azalmasına yol açaraq böhrana səbəb ola bilir.

Finans böhranının komponentləri. Müasir rus və xarici ədəbiyyatlarda maliyyə böhranı definisiyasının bir mənalı izahı yoxdur. Maliyyə böhranı sadəcə olaraq geniş spektrə malik böhranın bir parçasıdır hansı ki, iqtisadiyyatın ümumi böhranı zamanı yaranır. "Maliyyə böhranı" termininin son vaxtlar istifadəsi genişlənib. Adətən əvvəllər "pul böhranı" termini istifadə olunurdu.

Finans böhranlarının səbəbləri müxtəlifdir. İlk növbədə, bunun səbəbləri əsassız (tutarsız) makroiqtisadi siyasət, dövlət borc münasibətləri sisteminin kökündən pozulması, inflyasiyanın güclənməsi, bank sektorundakı çaxnaşma, zəif və ya axsaq milli finans sistemi, əlverişsiz xarici şərtlər (məsələn, əsas milli ixrac mallarının qiymətinin düşməsi, və ya əsas idxal mallarının qiymətinin qalxması), düzgün olmayan mübadilə kursu (adətən, yüksək), siyasi qeyri-sabitlikdir.

F.Mişkin hesab edir ki, "maliyyə böhranı fenomeni" – maliyyə aktivlərinin qiymətlərinin kəskin enməsi və bir çox maliyyə şirkətlərinin müflisləşməsi ilə xarakterizə olunur. F. Mişkin maliyyə böhranının aşağıdakı səbəblərini qeyd etmişdir:

1. faiz dərəcələrinin artımı;
2. fond bazarlarında qiymətlərin enməsi;
3. qiymətlərin ümumi səviyyəsinin gözlənilmədən enməsi;

4. qeyri-müəyyənliyin artması;

5. bank panikası.

"Beynəlxalq iqtisadiyyat" adlı ədəbiyyatın məhşur amerikan müəllifləri Tomas Puqel və Piter X. Lindert maliyyə böhranının yaranma səbəbinin beş amilini müəyyən etmişlər: həddindən artıq kredit və borc, xarici beynəlxalq şoklar, valyuta riski, daimi olmayan beynəlxalq qısamüddətli kreditlər, qlobal infeksiya. Bu amillər əsasən Türkiyə, Cənub-Şərqi Asiya Ölkələrində, Rusiyada (1998), Latın Amerikası ölkələrində müşahidə olunurdu.

Beləliklə maliyyə böhranının tərkib hissəsi kimi aşağıdakı elementləri müəyyən edə bilərik:

1. valyuta böhranı – milli valyutanın devalvasiyasına gətirib çıxardır.

2. bank böhranı – dövlətdən iri həcmdə maliyyə dəstəyi tələb edir.

3. borc böhranı – xarici və daxili borcda problemlərin kəskinləşməsi ilə bağlıdır.

4. birja – qiymətli kağızların kursunun kifayət qədər enməsi prosesi.

Valyuta böhranları- bu valyuta sferasında stabilliyin kəskin ziddiyyətləridir. Bu əsasən özünü valyuta kurslarının kəskin oynamasında, kapitalın "qaçışında", devalvasiya və revalvasiyada, beynəlxalq likvidliyin pisləşməsində, valyuta kredit və maliyyə münasibətlərində ziddiyyətlərin kəskinləşməsində özünü biruzə verir.

BVF-nun müəyyənləşməsinə görə valyuta böhranı dəyişim kursuna spekulyativ hücumlar zamanı devalvasiyaya yol açan və ya hökumətin valyutanı müdafiə məqsədi ilə kifayət qədər xarici ehtiyatlar istifadəsi zamanı baş verir.

Valyuta böhranlarının aşağıdakı klassifikasiyası mövcuddur:

- Birinci tip – hər hansı ölkədə kursun sabitləşdirilməsi şəraitində pul kütləsinin artımı ilə bağlıdır, hansı ki, daxili qiymətləri dünya qiymətlərinə nisbətdə artırır bu isə ticarət balansını pozur və nəticədə sabit valyuta kursundan imtina olunur.
- İkinci tip - həddən artıq dövlət borcunun yığılması ilə əlaqədardır. Bu müəyyən müddətdə investorların itməsinə yol açır, kapitalın "qaçışı" baş verir və kurs kəskin enir.
- Üçüncü tip – özəl sektorun borcları ilə bağlıdır.
- Dördüncü tip- dövlət borcunun həddən artıq yığılması və bu borcun büdcənin ödəmə qabiliyyətində olmaması bu isə sonda inflyasiya və devalvasiyaya yol açır.

Borc böhranı – elmi ədəbiyyatda borc böhranının birmənalı traktovkası yoxdur. Bu ele bir vəziyyətdir ki, bu zaman borclu tərəf kredit qrafikinə uyğun öz xarici borcunu ödəmək qabiliyyətində olmur. Bir çox ölkələr daxili investisiyalaşdırma zamanı daxili resursların çatışmadığına görə xarici borclanmaya müraciət edir. Bu əsasən dövlət büdcəsinin maliyyələşməsi, sosial-iqtisadi islahatlar, artıq mövcud borc öhdəlikləri zamanı meydana gələn problemdir.

R.İ.Xasbulatov hesab edir ki, borc böhranının kəskinləşməsinin səbəblərinə aşağıdakı amilləri aid etmək mümkündür:

1. Borclu ölkənin xarici borclanma sferasında düzgün seçilməmiş siyasəti

2. Xarici konyukturanın kifayət qədər oynaması və ən əsas beynəlxalq bazarlarda faiz dərəcələrinin kəskin artması.

3. Bazar risklərinin dəyərləndirilməsində buraxılan səhvlər və s.

Fond böhranı – fond bazarında böhranı qiymətli kağızların kursunun kəskin enməsi ilə müəyyən etmək mümkündür. Ən məhşur fond böhranı 1929-1933-cü illərdə baş vermişdir.

Maliyyə liberallaşması ilə bank böhranları arasında sıx əlaqə mövcuddur. Liberallaşma olan ölkələrdə bir çox kanallar mövcuddur ki, bunun nəticəsində banklara neqativ təsirlər yarana bilər. Maliyyə liberallaşması imkan verir ki, maliyyə institutlarına onlar özləri kredit şərtlərini, kreditlərin faiz dərəcələrini və s. müəyyən etsinlər.

Elmi ədəbiyyatda valyuta, böhranının birmənalı şərhi mövcud deyil. Valyuta böhranı maliyyə böhranı ilə əlaqələndirilir və qarşılıqlı əvəz oluna bilən anlayışlar kimi nəzərdən keçirilir. Valyuta böhranına geniş nəzər onu valyuta bazarındakı vəziyyətin kəskin ağırlaşması kimi təqdim edilir. Valyuta böhranı – valyuta sferasındakı qarşıdurmanın kəskin ağırlaşmasıdır. O, valyuta kurslarının kəskin tərəddüdlərində, kapital axınında, devalvasiya və revalvasiyada, beynəlxalq likvidliyin zəifləməsində, valyuta-kredit və maliyyə münasibətlərində qarşıdurmanın kəskinləşməsində özünü göstərir.

BPF-nin verdiyi tərifə görə «valyuta böhranı mübadilə kursuna spekulyativ hücumlar zamanı xarici rezervlərin xərclənməsinə və ya faiz dərəcələrinin kəskin qalxmasına səbəb olur». Nəzərə alsaq ki, real mübadilə kursu yaxınlaşmaqda olan valyuta böhranını müəyyənləşdirən əsas amildir, elə o da bank qeyri-sabitliyinin əsas indikatoru olacaqdır. Deməli, valyuta və bank qeyri-sabiliyininin yaranmasını iqtisadçılar xüsusi terminlə ifadə ediblər – "ikiqat böhran" (twin crises) .

Valyuta və bank sferasının qarşılıqlı əlaqəsi bu böhranların indikatorlarının da qarşılıqlı əlaqəsi və bir-birini tamamlamasına səbəb olmuşdur. Milli valyutanın devalvasiyası bank çaxnaşmasının yaxınlaşmasının göstəricisidir.

Maliyyə böhranının bir elementi də borc böhranıdır. Yerli və qərbin iqtisadçı-alimləri kifayət qədər uzun müddətdir ki, borc böhranının təbiətini ətraflı araşdırırlar. Borc böhranı dövlətin və təsərrüfat subyektlərinin kreditorlar qarşısında öz öhdəliklərini yerinə yetirə bilməməsidir. Bu mənada borc böhranı bank böhranı ilə oxşar görünə bilər. Bu iki anlayış arasında yeganə prinsipial fərq münasibətlərin subyektidir. Əgər bank böhranını araşdırarkən biz bank institutlarını nəzərdən keçiririk, borc böhranın isə finans müəssisələri və dövlətlə bir əlaqəsi yoxdur. Bundan başqa, bank böhranı mahiyyət etibarilə kredit böhranıdır, yəni kreditorun problemlərini öyrənir və təhlil edir, borc böhranı isə debitorun və ya borc alanın fəaliyyətindəki qeyri-sabitliyə işarə edir.

Fond böhranı maliyyə böhranının ayrılmaz hissəsidir, belə ki, xüsusən bazar iqtisadiyyatı şərtləri altında fond bazarında baş verən proseslər bank sisteminin vəziyyətinə müstəsna dərəcədə güclü təsir göstərir. Bir halda ki, qiymətli kağızlar real və maliyə sektorlarının (ilk növbədə, bankların) aktivlərinin əsas hissəsini təşkil edir, birjanın iflası, müvafiq olaraq, bankların ödəmə qabiliyyətini pisləşdirir.

Məlumdur ki, 1929-1933-cü illər dünya böhranı Nyu-York birjasında fəlakətli çökməsi ilə başladı. Bunun nəticəsində nəinki qiymətli kağızlar bazarında fəal işləyən minlərlə şirkətlərlə yanaşı bir çox banklar da çökdü. 1929-1933-cü illərdə 25000 amerikan bankından 11000-i müflisləşdi. 1929-cu ilin oktyabr ayından sonra bankların müflisləşməsi epidemiya miqyasını aldı. Əksər banklar aktivlərin "quruması" və əmanətlərin tələb olunması arasında məngənəyə düşmüşdülər. Bankların aktivlərində qiymətli kağızlar və qiymətli kağızlar girovu altında borclar üstünlük təşkil edirdi. Böhran şəraitində bu kağızların dəyəri dəfələrlə azaldı, əksəriyyəti isə bütün dəyərini itirdi. Misal üçün, 1931-ci ildə 1700 mln. dollarlıq depoziti olan 2250 bank, 1933-cü ildə isə 2875 mln. dollarlıq depoziti olan 2700 bank iflasa uğradı.

Beləliklə, maliyyə böhranı – ağır iqtisadi və sosial nəticələr verən xoşagəlməz hadisədir. Sistemli finans böhranının bütün mümkün nəticələri arasında ondan cəmiyyətin aldığı düzgün dərslər və sağlam təhlil əsasında qəbul olunmuş adekvat qərarların reallaşdırılması müsbət nəticələr adlandırıla bilər.

Maliyyə sarsılmaları sferasındakı işləri yekunlaşdıraraq belə qərara gəlmək olar ki, maliyyə böhranının tərkibinin mahiyyəti aşağıdakılardan ibarətdir: maliyyə böhranı – maliyyə aktivlərinin dəyərinin kəskin düşməsi ilə və ya maliyyə bazarında vəziyyətin kəskin ağırlaşması, xüsusən də milli pul vahidinin dəyərsizləşməsi və suveren borcun ödənilməsi problemi, maliyyə sisteminin funksiyalarının pozulması (maliyyə bazarı və maliyyə institutları), nəhayət, qiymətli kağızların mübadilə dəyərinin kəskin düşməsi ilə xarakterizə olunur.

Maliyyə böhranının tərifinə əsaslanaraq, yerli və xarici müəlliflərin elmi araşdırmalarında maliyyə qeyri-sabitliyinin yaranması və inkişafının dəqiq çərçivəsinin müəyyənləşdirilməsinə dair vahid yanaşmanın olmadığını əminliklə sübut etmək olar. Maliyyə böhranı anlayışı o qədər genişdir ki, onun mahiyətini dəqiq müəyyənləşdirmək mümkün deyil. Maliyyə böhranının strukturu məsələsində də iqtisadçı alimlər arasında fikir birliyi yoxdur.

Qərb ədəbiyyatında maliyyə böhranı termini, faktiki olaraq, bank böhranı kateqoriyası ilə eyni tutulur. Lakin maliyyə böhranı anlayışına belə yanaşma optimal deyildir, çünki bank böhranı maliyyə böhranının bir komponentidir. Maliyyə böhranı anlayışı bank böhranı anlayışına nisbətən daha geniş anlayışdır.

Beləliklə, maliyyə böhranının strukturu aşağıdakı komponentlərdən ibarətdir:

1. Valyuta milli valyutanın devalvasiyasına səbəb olur;

2. Bank bir və ya bir neçə bankın müflisləşməsi ölkədə ödəmə böhranını yaradır və onun fonunda da iqtisadiyyatda bankların müflisləşmə epidemiyası yayılır;

3. Borc daxili və ya xarici borc probleminin kəskinləşməsi ilə əlaqədardır;

4. Birja qiymətli kağızların bazar dəyərinin sürətlə düşməsi.

Sistemli bank böhranın başlanğıcı ümumilikdə bank sektorunda müstəsna rolu olan bir və ya bir neçə bankın ödəmə qabiliyyətində ciddi problemlərin yaranması ilə bağlı ola bilər. Bu cür bankların dağılması «domino effekti»ni təhrik edə və bununla da sistemli böhran yarada bilər.

Qloballaşma və liberallaşma proseslərinin bank böhranına təsiri.

Nəzəri nöqteyi baxımdan finans axınlrının beynəlxalq miqyasda sərbəstliyi bir sıra üstünlüklərə və müsbət təzahürlərə malikdir. Yığımlar və investisiyalar daha effektiv yerləşdirilir və istifadə edilir. İnkişaf etməkdə olan ölkələr kapital bazarına daha rahat şəkildə daxil ola bilirlər. İnvestorlar daha faydalı layihələr vəsait qoymaq imkanı əldə edirlər. Portfel investisiyalarının diversifikasiyası riski azaltmağa imkan verir.

Əlbəttə, finans bazarının tamamilə qloballaşması uzun müddət tələb edir. Buna səbəb müxtəlif ölkələrin valyuta kurslarında və faiz dərəcələrində olan fərqliliklərdir. Bununla bərabər qloballaşmanın indiki səviyyəsi bir sıra problemlər də ortaya çıxarır. Qloballaşma və liberallaşma prosesləri ikili, ziddiyyətli nəticələri ilə finans bazarındakı proseslərə də sirayət etməkdədir.

Ancaq qloballaşmanın faydaları aşağıdakılar:

- Yığım normasının artımı;
- investisiya və innovasiyaların sərmərəliyini yüksəlməsi;
- finans vasitəçilirinin kəsad xidmətlərinə olan tələbin ixtisar olunması;
- kapitalın beynəlxalq mənbələrinin istifadəsi zamanı yığım;
- investisiya və risklərin optimal bölgüsü;
- Lakin təcrübədə finans liberallaşması müxtəlif səbəblər üzündən heç də müsbət nəticələr vermir:
- yığım normasının aşağı düşməsi;
- cari əməliyyatlar üzrə tədiyə balansının yüksək kəsirə məruz qalması;
- finans sisteminin dollarlaşması prosesi;
- finans böhranları kimi mənfi hallar müşahidə edilir.

Qloballaşma nəticəsində finans böhranlarının yaranmasına təsir edən amillər aşağıdakılardır:

Sabit valyuta kursu rejimi. Əgər mərkəzi bank xarici valyutanın alqı-satqısına sabit qiymət elan edirsə, spekulyantlara hərəkət üçün bu bir işarədir. Onlar hesab edirlər ki, qızıl valyuta ehtiyatları tükənməsi zamanı mərkəzi bank valyuta kursunu dəstəklənməsini dayandırır və milli valutanı devalvasiya edir, buna görə də milli valyutanı onların hesablamalarına əsasən qızıl valyuta ehtiyatları tükənəndə satmağa başlayırlar. Bu zaman milli valyutanın kütləvi satışı baş verir ki, mərkəzi bank sabit kursu dəstəkləməkdən imtina etməli olur. Problemin həlli valyuta kursunun optimal seçimidir. Son vaxtlar iqtisadi sistemlər sərbəst üzən və sərt sabit rejimlərə istiqamətlənirlər, hansı ki, mərkəzi bank seçilmiş kursun dəstəklənməsi öhdəliyindən imtina edə bilmir.

Kapitalın yüksək mobilliyi. Yuxarıda qeyd etdiyimiz kimi buradakı qeyri stabilliyin mənbəyi «isti pullar»dır ki, hər an ölkəni qısa müddət ərzində tərk edə bilər. Kapitalın qaçışına istənilən informasiya (siyasi qeyri stabilliyi, neqativ iqtisadi proqnoz və s.) səbəb ola bilər.

Obyektiv informasiyanın çatışmamazlığı. Bu baxımdan rezidentlərdə, valyuta-kredit və finans münasibətlərinə inamsızlıq, şübhə yarandıqda, qeyri rezidentlər bu aktivlərdən o dəqiqə azad olmağa başlayırlar, baxmayaraq ki, məsələ ilə bağlı özlərinin heç bir qiymətləndirməsi yoxdur.

Finans institutlarının inkişaf etməməsi. Finans institutları arasında bankrot hallarının artması güclənən rəqabətin səbəbidir. Finans bazarlarında Amerikan və Alman bankları o qədər şanslı olur ki, digər ölkələrin kredit müəssisələrinin itirdikləri məbləğləri öz ehtiyatlarına cəlb edirlər.

İnkişaf etməkdə olan ölkələrinin qloballaşan finans bazarına inteqrasiyası onlar üçün fayda gətirir və inteqrasiya bu ölkələr xarici ölkələrdən investisiyaları finansman məqsədi ilə əlavə finans ehtiyatları cəlb etməyə imkan verir. O, həm də daxili finans institutlarının və finans bazarının inkişafına, finans menecmentinin yaxşılaşmasına səbəb olur. Lakin bu ölkələrin əvvəlki

təcrübəsinin göstərdiyi kimi qlobal finans bazarına hədsiz inteqrasiya özündə finans böhranı riskini daşıyır.

Bundan başqa,bəzi hallarda, beynəlxalq finans bazarlarının böyüməsi, onun milli hökumətlərdən daha çox hökmranlıq etməsinə imkan verir. Bəzi ölkələrin təcrubəsi göstərir ki, gündəlik valyuta və fond bazarlarında «səs vermələr» seçki kompaniyalarından, qanunverici orqanların qərarlarından, dövlət büdcəsindən daha vacib əhəmiyyət kəsb etməyə başlayır. Bununla bərabər bu bazarlar mahiyyətcə sosial institutlara çevrilərək ictimai davranışlar və ictimai şüur üzərində təsir etməyə başlayır.

Bank sistemində böhran. Ümumiyyətlə , hər bir ölkədə bank sisteminin böhrana salan fərqli səbəblərlə bərabər, bütün ölkədə keçərli ortaq səbəblər də var və beynəlxalq təcrübədə bank böhranının ən geniş yayılmış izahına görə əgər aşağıdakı dörd şərtdən biri mövcud olarsa bank sisteminin vəziyyəti böhranlı hesab oluna bilər:

1. Bankların aktivlərində işləməyən, yəni gəlir gətirməyən aktivlərin payı 10 %-dən çoxdur;
2. Bankların xilas etmə əməliyyatına sərf olunan məsrəflər ÜDM-un 2 %-dən çoxdur;
3. Bank sektorunun problemləri bankların əhəmiyyətli hissəsinin (10 %-dən artıq) milliləşdirilməsinə gətirib çıxarıb;
4. Əmanətçilər arasında şaiyələr (panika) yaranıb və depozitlərin kütləvi surətdə geri götürülməsi baş verib və ya depozitlərin dondurulması, ya da ki, böhrana cavab olaraq hökumət tərəfindən depozitlərə ümumi zəmanətlərin tətbiq olunması kimi fövqəladə tədbirlər görülüb.

Maliyyə böhranının hərarət dərəcənin şıddətlənməsinə təsir edən amillər aşağıdakılardır:

1.Faiz dərəcələrində yüksəlmə;

2.Bankın balansındakı pozuntular;

3.Fond birjasında çöküş;

4. Iqtisadiyyatda qeyri- müəyyənsizliyin artımı.

Bazar iqtisadiyyatı şəraitində bank böhranları qanunauyğun haldır və ona xas olan immanent disproporsiyalar və ziddiyyətlərlə şərtləndirilir. Bu çərçivədə bank sektorundakı böhranların səbəblərini araşdıran elmi-tədqiqat işləri son illər artmaqdadır.

Bank sisteminin böhrana girməsinin başlıca problemi sistemin dövlətə və cəmiyyətə yüklədiyi maliyyə ağırlığındadır. Bəzi hallarda, bankların xilas edilmə əməliyyatı maliyyə böhranların şaxələrini artıraraq daha böyük zərərlərə yol açа bilir. 2007- ci ildə ABŞ-da başlayan və daha sonra əksər ölkələrə yayılan maliyyə böhranı dünyanın keçirdiyi ən iri tutumlu qlobal böhranıdır. 1975- 2009 -ci illərdə 50 -dən artıq ölkədə 200 -dən çox valyuta və 54 borc/bank böhranlarını qeydə alıb.

2007- 2008 -ci illərdə ABŞ baş verən böhranın daha çox "finans infeksiyası" kimi yeni fenomenin nəticəsi olduğu aydınlaşandan sonra yeni dünya finans böhranının yaranma təhlükəsi xüsusilə kəskin şəkildə qəbul olunmağa başladı.

1970-2000-ci illərdə maliyyə böhranları onlarla ölkədə milli finans aktivlərinin 10-30 %-nin itirilməsinə səbəb oldu. 2008- 2009-cu illərdə bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin bank sistemlərində böhranlar baş verdi və bu böhranlar yalnız batan və çətin vəziyyətə düşən bankları deyil, eyni zamanda banklarla əlaqəsi olan real sektoru və ev idarələrini də əhatə etdi. 2008-ci ilin II yarısı - fond indekslərində azalma: 70-80%, global maliyyə sektorunda itkilər: 3 trln. $ və ya qlobal ÜDM-in 4.3%-i təşkil etmişdir.

Beynəlxalq təcrübə göstərir ki, bank böhranının aradan qaldırılmasına yönəlik çəkilən məsrəflər orta hesabla ÜDM-un 15-20%-ni təşkil edir. Məlumdur ki, əksər ölkələrdə bank böhranının qarşısının alınması çox böyük məsrəflər tələb olunmuşdur: İspaniya və Macarıstanda 15%-ə qədərini, Malayziyada 20,5%-i həcmində, Meksikada isə 30%-dən yuxarı səviyyəyə çatmışdı. Bir sıra ölkələrdə bu göstərici 40-50%-ə çata bilər. Türkiyənin bank sektorunun yenidən kapitallaşmasına və struktur yenilənməsinə dövlətin sərf etdiyi məsrəflər 40-50 mlrd. dollar və ya ÜDM-un üçdəbirini təşkil edirdi. Türkiyədə hətta bank sektorunun 25%-nin öhdəliklərini öz üzərinə götürəcək yeni tənzimləyici orqan (BDDK) yaradıldı.

Rusiyada bankların struktur yenilənməsinə sərf olan birbaşa maliyyə məsrəfləri 1998- ci ildə ÜDM-un 0,2%-ni təşkil etdiyi halda, 2009- ci ilin aprel ayına bu göstərici 21,7% təşkil etmişdi. 2007 – 2008 ci il böhranından sonra ABŞ hökuməti bankların struktur yenilənməsinə sərf etdiyi birbaşa maliyyə məsrəfləri ÜDM-un 38,7 %-ni təşkil edir, yəni rəqəmlə ifadə etsək- 5500 mlr. $. Avrozonada isə, böhranın qarşısının alınması ilə əlaqədar məsrəflər ÜDM-un 23,4%-i həcminə çatmışdı (3285mlr. $), o cümlədən AFR hökümətinin antiböhran proqramının həcmi 500 mlr. Avro, Fransada 360 mlr. Avro, İrlandiyada 400 mlr. Avro təşkil etmişdir.

Son məlumatlara görə hazırki finans böhranı nəticəsində dünya üzrə bankların məcmu itkiləri 700 mlrd dollardan çox təşkil edir, bunlardan yarıya qədəri Amerika banklarının payına düşür. Banklar bu məbləğin təxminən 50%-ni artıq yeni kapitalın cəlb olunması hesabına kompensasiya edə biliblər. Lakin BMF-nun son hesablamalarına görə bankların itkilərinin məbləği iki dəfədən də çox-1,6 trln. dollaradək arta bilər.

Beləliklə, Qlobal maliyyə böhranı (2008) və postkrizis ssenarisinin inkişafı ardıcılıqla aşağıdakı kimi olmuşdur:

1. ABŞ ipoteka kreditləşmə sisteminin çöküşü;
2. kredit həcminin azaldılması və kredit xəttinin açılmasına ciddi nəzarət;
3. Fond indekslərinin aşağı doğru meyli;
4. büdcə defiçitlərinin artımı;
5. Real sektorda geriləmə;
6. işsizliyin güclənməsi;
7. istehlak xərclərinin azalması.

Məlum olduğu kimi, dünya maliyyə böhranı Amerikanın daşınmaz əmlak bazarında möhtəkirlikdən başlanmışdır. Bundan başqa, törəmə maliyyə alətlərinin yaranma səbəblərindən biri risklərdən qorunmaq olsa da, onların spekulyativ məqsədlə istifadəsi sürətlə artdı. İpoteka "köpüyü" partlayaraq, bütün dünyada bank sektorundakı böhrana təkan vermişdir ki, bu da öz növbəsində, dünyanın bütün dövlətlərinin iqtisadiyyatında real sektorda resesiyya səbəb olmuşdur. Bütün bunlar maliyyə bazarlarında güvən amilinin itməsinə və panikanın yayılmasına gətirib çıxardı. Amerikanın bank sistemində başlayan böhran sürətlə dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrinə yayıdı.

Beləliklə, 2007- 2008 –ci illərdə başlanan və indiyədək davam edən qlobal maliyyə böhranını 4 mərhələyə bölmək olar:

1. Anglo- sakson maliyyə böhranı (2007 –ci ilin yaz ayından 2008- ci ilin mart ayınadək). Qlobal böhranının ilk mərkəzi ABŞ ipoteka bazarında problemlərin yaranması ilə meydana çıxdı və ABŞ-ın ən iri ipoteka Bankının "Bear Stearns" qurtarılmasına yönəlik başlanan əməliyyat oldu.
2. Hüdüd çəkmə vəya sərhəd çəkmə (decoupling, mart- avqust 2008- ci il). Böhran bütünlüklə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə yayıldı, ancaq bununla yanaşı ümid var idi ki, böhran inkişaf etməkdə ölkələrə təsir etməyəcək və nəticədə onların dinamik iqtisadi inkişafı burulğan içində olan ölkələrin xilas edilməsində əsas katalizator olacaqdır.
3. Kredit daralma əməliyyatı (de- leveraging,sentyabr- noyabr 2008 ci il). Qlobal böhranın inkişaf etməkdə ölkələrə bulaşması və inkişaf etmiş ölkələrdə resesiyanın başlanması haqqında rəsmilərin etirafları. Dünyanın bir çox ölkələrində bank sisteminin kollaps təhlükəsinin başlanğıcı.
4. Emissionla vurulmaq vəya doldurmaq (quantitative easing, noyabr 2008 –ci ilin sonundan indiyədək olan müddətə). Dünya ökələrinin əksər hökümətləri istehsalat kollapsına yol verməmək üçün monetar və fiksal xarakterli çox çesidli tədbirlər paketi hazırladı və məqsəd ilk növbədə, pul təklifini artırmaqla tələbi stumallaşdırmaqdır.

2.10. BANK SİSTEMİNDƏ ANTİBÖHRAN TƏDBİRLƏR PROQRAMI

Bir çox ölkələrin hökumətləri və mərkəzi bankları bank böhranının həlli və öz bank sistemlərinin struktur yenilənməsi ilə müxtəlif üsullarla məşğul olurdular. Təcrübə göstərdi ki, nə struktur yenilənməsinin ideal forması, nə də bank sektorunda vəziyyətin normallaşdırılmasının

universal strategiyası mövcud deyil və bir çox hallarda bu və ya digər fəaliyyət konkret vəziyyətlərdən asılıdır. Vaxt keçdikcə banklar da, dövlətlər də böhran hallarının mənfi nəticələrinin qarşısının alınmasına yönəlmiş bütöv tədbirlər kompleksləri, o cümlədən, kredit münasibətlərinin təkmilləşdirilməsi və Mərkəzi Bank infrastrukturlarının bütövlükdə etibarlılığını yüksəldən tədbirlər işləyib hazırladılar.

Bir qayda olaraq əsas maliyyə yükü birbaşa və ya dolayı yolla, o cümlədən, restrukturizasiya üçün yaradılan dövlət agentliklərinin fəaliyyətinin maliyyələşdirmək dövlət büdcəsinin üzərinə düşdü. Bank sisteminin struktur dəyişikliklərinin həyata keçirilmə zamanı əksər ölkələrdə bu prosesin həyata keçirilməsinin həvalə edildiyi xüsusi institutlar yaradıldı. Ənənəvi olaraq dövlətlər bank böhranlarının nəticələrinin aradan qaldırılması prosesində aktiv rol oynayırlar. Onlar bank sisteminin problemlərinin həlli üçün maliyyə resursları ayırmaqla özlərinin təşkilatçı rolunu təsdiqləmiş olurlar. Bu məqsədlər üçün görülən tədbirlər müxtəlif amillərdən, hər şeydən əvvəl bank böhranlarının konkret səbəblərindən və onların yarandığı, inkişaf etdiyi ümumi iqtisadi vəziyyətdən asılıdır. Böhranın səbəbləri bəzi ölkələrdə üst-üstə düşürdü, bəzilərində öz spesifikası ilə fərqlənirdi, lakin onun qarşısının alınması formaları hər yerdə bir çox cəhədən oxşar idi: sabitləşdirici kreditləşdirmə, rekapitalizasiya və s.

Bununla belə digər ölkələrin təcrübəsi, dövlət strukturlarının bank böhranlarının nəticələrinin aradan qaldırılmasında fəaliyyətinin təhlili bank sisteminin struktur dəyişikliklərinin üç əsas istiqamətini qeyd etməyə imkan verir:

1. Əsas vəzifəsi bank sisteminin likvidliyinin saxlanması və onun hesablaşmaların həyata keçirilməsində vasitəçilik funksiyalarının bərpa edilməsi olan antiböhran tədbirləri;

2. Bank sisteminin struktur dəyişiklikləri (kredit təşkilatlarına tətbiq olunan və ödəmə qabiliyyətinin bərpa olunmasına və ya ləğvetmə prosesinin həyata keçirilməsinə yönəlmiş tədbirlər kompleksi);

3. Bank sisteminin tənzimlənməsi və bank nəzarəti sisteminin möhkəmləndirilməsinə yönələn islahat.

Beynəlxalq təcrübədən çıxış edərək bankların struktur yenilənməsinin dörd əsas prinsipini göstərmək olar:

1. Struktur yenilənməsi sürətlə və diqqətlə aparılmalıdır ki, finans bazarları vasitəçik funksiyasının yerinə yetirilməsinə mümkün qədər tez başlaya bilsinlər;

2. Vergi ödəyicilərinin üzərinə düşən maliyyə yükü mütləq minimumda saxlanmalıdır;

3. Problemli banka yardım edərkən yaranan mənəvi risk problemindən qaçmaq üçün səhmdarlar, menecment və işçi heyət bankın üzləşdiyi vəziyyətə görə məsuliyyəti bölüşməlidirlər;

4. Gələcəkdə məhkəmə çəkişmələrilə üzləşməmək üçün bankın struktur yenilənməsi şəffaf və obyektiv kriteriyalara uyğun şəkildə aparılmalıdır.

Ölkələr üzrə açıklanan maliyyə paketleri (UDM nisbəti,%)

Ölkələr	2008	2009	2010
1	2	3	4
Çin	0,4	3,1	2,7
G. Koreya	1,1	3,9	1,2
Rusiya	0	4,1	1,3
ABD	1,1	2	1,8
G.Afrika	1,7	1,8	-
Kanada	0	1,9	1,7
Almaniya	0	1,6	2
Meksika	0	1,5	-
Yaponya	0,3	2,4	1,8
Fransa	0	0,7	0,8

Hindistan	0,6	0,6	0,6
Türkiyə	0	0,8	0,3
Brazilya	0	0,6	0,8

Bank sisteminin antiböhran proqramında: ölkənin makro iqtisadi vəziyyətin təhlili və qiymətləndirilməsi, məqsəd və vəzifələr, prioritetlər, tədbirlər və maliyyələşmə həcmi öz əksini tapmalıdır. Bundan başqa, proqramda müddət və icraçılar dəqiq göstərilməlidir.

Ümumiləşdirərək, bank sisteminin antiböhran tədbirlərini dörd qrupda cəmləşdirə bilərik:

I. Bank sisteminin təcili xilasetmə tədbirləri.

Bu tədbirlər paketinə daxildir:

1. bankın rekapitalizasiyası;
2. stabilizasiyon kredit xətti açmaq;
3. fiziki şəxslərin banklarda açılan əmanətlərə tətbiq edilən kompensasiya həcmini bəzi hallarda 100 %-dək artırmaq.
4. bank balansını problemli aktivlərdən təmizləmək, əgər gərəkirsə problemli aktivlərə dövlət zəmanəti verməк.

II. Monetar siyasət tədbirləri - antiinflyasionist siyasətdən stimullaşdırıcı siyasətə keçid.

Bu tədbirlərə daxildir:

1. Bəzi ölkələr inflyasiya qorxularını nəzərə alaraq, faiz dərəcələrini aşağı salır;
2. Milli pul vahidinin məzənnəsini aşağı salmaq;
3. Məcburi ehtiyyat normalarını aşağı salmaq;
4. Mərkəzi Bank tərəfindən birbaşa maliyyələşdirmə əməliyyatı.

Bununla yanaşı maliyyə qeyri stabilliyinin qarşısının alınması məqsədilə maliyyə resursları və alətləri kifayət etmədiyi təqdirdə indikator siqnalları sistemindən istifadə olunur bu iqtisadiyyatın maliyyə sisteminin diaqnostikasında əhəmiyyətli rol oynayır.

Qlobal proseslər fonunda son illəri əhatə edən dünyada baş verən qlobal böhranlarla bağlı **G-20 sammitinin antiböhran strategiyasını** da nəzərdən keçirmək əhəmiyyətli olardı:

▪ **Əsas istiqamətləri:**

1. Maliyyə risklərinin optimal idarə edilməsinə imkan verən qlobal maliyyə arxitekturasının yaradılmasında beynəlxalq əməkdaşlıq;
2. Maliyyə sistemləri və bazarlarının sərt tənzimləmə çərçivəsinin və şəffaflığının təmin olunması;
3. Hedc fondlarının fəaliyyətinə nəzarətin və onların hesabatlığının artırılması;
4. Kredit reytinqi agentliklərinin reytinqlərinin dürüstləşdirilməsi və onların da tənzimləmə ilə əhatə olunması.

▪ **Qərar - maliyyə yardımı:**

1. 2009-cu ildə BVF-yə əlavə vəsait - 1,1 trln. $
2. 2010-cu ilin sonunadək kollektiv fiskal ekspansiya – 5 trln. $

▪ **Gözlənilən nəticə:**

1. Qlobal ÜDM-də 4% artım effekti

Prezident İlham Əliyevin Azərbaycan hökumətinin yanvar 2009 – cü ildə keçirilmiş iclasında səsləndirdiyi tədbirlər kompleksini Prezidentin 7 antiböhran istiqamətlərinin tezisləri aşağıdakılar olmuşdur:

1. İstehlak qiymətlərinin azaldılması zərurəti.
2. İnhisarçılıqla mübarizə.
3. Milli banklara dəstəyi, kreditlərə və faiz dərəcələrinə nəzarəti əhatə edən maliyyə monitorinqi.
4. Real iqtisadiyyata sərmayə qoyuluşunun davam etdirilməsi.
5. Sosial öhdəliklərin dəstəklənməsi.
6. Sənaye müəssisələrinin daxili bazara istiqamətləndirilməsi.
7. Ərzaq təhlükəsizliyinin təmin edilməsi.

Mərkəzi bankların antiböhran siyasəti. (2008-2009)

İstiqamət	Əsas alətlər	Tətbiq edilən ölkələr
Pul siyasəti üzrə	Faiz dərəcələrinin aşağı salınması	ABŞ, B.Britaniya, Avrozona, Hindistan, Avstraliya Kanada Çin
	Məcburi ehtiyatların azaldılması	Çin, Braziliya, Bolqarıstan
	Milli valyutanın devalvasiyası	Koreya, Ukrayna, Macarıstan, Braziliya, Meksika, İslandiya, Rusiya, Polşa,
Bank sisteminin xilas edilməsi üzrə	Rekapitalizasiya	ABŞ, Almaniya, S.Ərəbistanı, Macarıstan, İtaliya, İspaniya, Belçika, BƏƏ
	Stabilləşdirmə kreditlərinin verilməsi	ABŞ, İspaniya, Macarıstan, Avrozona, Fransa, B.Britaniya İtaliya
	Restrukturizasiya (məs:təmərküzləşmə, mililəşmə)	Belçika, Niderland, B.Britaniya, İrlandiya, Portuqaliya, İsveç, İslandiya
	Depozit qarantiyasının 100%-dək genişləndirilməsi	Əksər ölkələr
	Toksik aktivlərin alınması	Kanada, Almaniya, Koreya, İtaliya, Yaponiya, Avstraliya, ABŞ,

Bank sistemində antiböhran kontekstində həyata görüləcək ilk tədbirlər aşağıdakılar olmalıdır:

1. Bazarlarda likvidliyin təminatı məqsədilə məcburi ehtiyat normalarının həddini azaltmaqla likvidliyin genişləndirilməsi (Mərkəzi Bank başlıca makroiqtisadi tendensiyaları və real sektorda fəaliyyət gostərən muəssisələrin mikroiqtisadi monitorinqinin nəticələrini nəzərə alaraq ucot dərəcəsini otən ilin sonlarından bəri 15%-dən 2%-ə, məcburi ehtiyat normalarını isə 12%-dən 0.5%-ə endirmişdir. Ümumilikdə, dolayı və birbaşa alətlər hesabına Mərkəzi Bank iqtisadiyyata 2008-ci ilin oktyabrından təqribən 1.8 mlrd. Manat həcmində likvidlik vermişdir. Bu likvidlik dəstəyi bank sistemi ilə yanaşı sistem əhəmiyyətli real sektor muəssisələrini (Azərbaycan Respublikası Dovlət Neft Şirkəti, Azəraluminium ASC) də əhatə etmiş, bu şəraitdə cari ilin on bir ayında olkədə iqtisadi artım davam edərək 9% təşkil etmişdir. Məcburi ehtiyat normaları 6%-dən 0,5%-ə salınmışdır;

2. Faiz dərəcələrini aşağı salmaq (25. May.2009. Uçot dərəcəsi 2%-ə, faiz dəhlizinin yuxarı həddi 7%-ə endirilmişdir);

3. Vergi yükünün azaldılması(Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 2009- 2012-ci illər ərzində bank və sığorta şirkətlərinin kapitalizasiyaya yönəldəcəyi mənfəət vergidən azad edilmişdir. Hesablamalara əsasən bank sistemi üzrə əlavə 170 mln. manat məbləğində kapitalın yaradılmasına zəmin yarandı);

4. Çətin durumda olan maliyyə və ya real sektor qurumuna maliyyə dəstəyinin göstərilməsi (2009-cu il ərzində Azərbaycan Mərkəzi Bankının antiböhran proqramı makroiqtisadi və maliyyə sabitliyinin qorunmasına və iqtisadi artımın dəstəklənməsinə yönəlmişdir.Manatın sabit məzənnəsi əsasında Mərkəzi Bankın iqtisadiyyata birbaşa yardım paketi Ümumi Daxili Məhsulun 5%-i səviyyəsində olmuşdur. Antiböhran proqramının həyata keçirilməsi pul kütləsinin azalmasının qarşısı alınmış, bankların maliyyə dayanıqlığını və iqtisadi aktivliyini qorumuş, sistem əhəmiyyətli iri müəssisələrin istehsal- investisiya fəaliyyətinə zəruri dəstəyi təmin etmişdir).

5. Banklara qoyulan əmanətlərin kompensasiyası məbləğinin artırılması tədbirləri (qorunan əmanətlərin məbləği altı dəfə artırılaraq 30 min manata catdırılmışdır);

6. Milli pul vahidinin dəyərinin qorunması tədbirləri (ölkəyə xarici maliyyə axınlarının əhəmiyyətli azalmasına, qonşu ölkələrdəki devalvasiya dalğasının psixoloji təsirinə baxmayaraq, manatın məzənnəsinin sabitliyi qorunmuşdur. Manatın məzənnəsinin sabitliyi həm də: əhalinin

əmanətlərinin dəyərsizləşməsinin, xarici valyutada borc yukunun artmasının, manata etimadın azalmasının və iqtisadiyyatda yüksək dollarlaşmanın qarşısını almışdır).

Həyata kecirilmiş antiböhran proqramı nəticəsində bank sektorunun maliyyə dözümlülüyü daha da güclənmişdir:

1. bank sistemi cari öhdəliklərinin təqribən 80%-i səviyyəsində likvid aktivlərə malikdir ki, bu da minimal normadan (30%) çoxdur;

2. sektorun kapital adekvatlığı göstəricisi qəbul edilmiş normadan iki dəfə çox -19% olmuşdur;

3. kredit portfelinin keyfiyyəti məqbul səviyyədə qorunub saxlanılmış, vaxtı kecmiş kreditlərin ümumi portfeldə xüsusi cəkisi 3.3% təşkil etmişdir;

4. bankların maliyyə nəticələri müsbət olmuş, cari ilin on bir ayında aktivlər uzrə gəlirlik 2.6%, kapitalın gəlirliyi isə 17.8% təşkil etmişdir.

Bundan başqa, Böhran hallarını qabaqlamağa xidmət edən aşağıdakı tövsiyyələr ciddi maraq doğurur:

- Kommersiya bankları üzərində nəzarət sisteminin gücləndirilməsi (lakin onların kəsirlərinin dövlət hesabına örtülməsi yox);
- Finans bazarları üzərində nəzarətin gücləndirilməsi;
- Böyük həcmdə borc vasitələrindən istifadə edən təşkilatların (banklar, investisiya və sığorta təşkilatları və s.) fəaliyyətində şəffaflığın (sürətli və əlçatan informasiyanın) təmin olunması;
- Kredit təsisatları ilə məşğul olan reytinq agentliklərinin fəaliyyətinin yaxşılaşdırılması;
- bank və təşkilatlar üzərində korporativ idarəetmə sisteminin gücləndirilməsi;
- Sabit pul dövriyyəsi və real valyuta kursunun təmin olunması (bu onların iqtisadi cəhətdən əsaslandırılmış hərəkətliliyini istisna etmir);
- Qısamüddətli beynəlxalq finans axınları üzərində güclü nəzarətin təşkili.

2.11. BANK SİSTEMİNDƏ NƏZARƏT MODELLƏRİ

Dünyada bank sferasına nəzarətə və bu sferanın tənzimlənməsinə ciddi ehtiyac ötən əsrin 20-30-cu illərində baş vermiş Böyük depressiyadan sonra formalaşmağa başlamışdır. İkinci Dünya müharibəsindən sonra bank biznesinin beynəlmiləlləşdirilməsi və kapitallaşmanın sürətləndirilməsi beynəlxalq bank nəzarəti qayda və normalarının formalaşmasını şərtləndirdi. Bununla belə, bank sferasında nəzarət səlahiyyətləri hər bir ölkədə qanunvericiliklə müəyyən olunmuş institusional formalarda həyata keçirilir. Bu sistemlərin müxtəlif ölkələr üzrə fərqlərinə baxmayaraq, onların hamısı aşağıdakı əsas məqsədlərin həyata keçirilməsinə istiqamətlənib:

1. Pul və maliyyə sabitliyinin saxlanması. Bu da bankların iflasına yol verilməməsi və aktiv və passivlərin səmərəli idarə edilməsinə yönəldilmiş bank tənzimlənməsi ilə bağlı tədbirlərin görülməsi deməkdir.

2. Bank sisteminin səmərəliliyinin təmin olunması. Bu isə aktivlərin keyfiyyətinin artırılması və potensial risklərin azaldılması hesabına əldə olunur. Bank nəzarətinə həmçinin daxili bank əməliyyatlarının və maliyyə vəziyyətinin qiymətləndirilməsi daxildir ki, bu da bankların həyati əhəmiyyətli iqtisadi əməliyyatları və institutları maliyyələşdirmək qabiliyyətini qiymətləndirməyə imkan verir.

3. Əmanətçilərin maraqlarının müdafiəsi: əmanətçilər qarşısında öz öhdəliklərini yerinə yetirə bilməyən bankların fəaliyyətinə müvafiq orqanlarının əmanətçilərə münasibətdə öz öhdəliklərini yerinə yetirə bilməyən bankların fəaliyyətinə nəzarəti gücləndirilməlidir.

Ayrı-ayrı ölkələrdə bank nəzarətini həyata keçirən orqanların növləri də müxtəlifdir ki, bu da bir sıra institusional, mədəni və inzibati şərtlərlə, habelə iqtisadiyyatın inkişaf səviyyəsi və kapital bazarlarının həcmi ilə izah olunur. Bəzi ölkələrdə Mərkəzi Banka nəzarət və bu bankların tənzimlənməsi vahid orqan tərəfindən həyata keçirilir, digər ölkələrdə bu funksiyaları öz aralarında sıx əməkdaşlıq edən xüsusi nəzarət orqanları icra edir, çünki pul-kredit siyasətinin və

bank nəzarətinin işlənib hazırlanması funksiyaları kəsişir.

Elə ölkələr var ki, burada nəzarət funksiyası tamamilə Mərkəzi Bankın əlindədir. Bu ölkələrə məsələn, Rusiyanı aid etmək olar. Bəzi ölkələrdə Mərkəzi Bank özünün nəzarət və tənzimləyici funksiyalarından qismən məhrum olunub (Fransa, Almaniya, Avstraliya, Kanada, İsveçrə, Türkiyə və s.). Nəhayət, elə ölkələr də vardır ki, onlarda mərkəzi banka və ya oxşar funksiyalara malik orqana nəzarət və tənzimləyici səlahiyyətlərin bir hissəsi verilir. Belə orqanın tipik nümunəsi kimi ABŞ-ın Federal Ehtiyatlar Sistemini göstərmək olar.

Beləliklə, nəzarət oqanları arasında funksiyaların bölünməsinin bir neçə modelini fərqləndirmək olar:

Model 1. Bank fəaliyyətinin tənzimlənməsi və ona nəzarət sferasında müstəsna səlahiyyətlərin qanunvericiliklə Mərkəzi Banklara həvalə olunmasına əsaslanır. Bank işi sahəsində nəzarət təcrübəsinin yarandığı vaxtdan etibarən məhz bu model, yeganə olmasa da, tarixən hakim model olub. Bu gün bu model özünün hakim mövqelərini itirsə də, ona əvvəlki kimi həyati tələbat var.

Model 2. "Qarışıq". Nəzarət və yoxlama funksiyaları ixtisaslaşdırılmış orqanlar tərəfindən Mərkəzi Bankın və maliyyə nazirliyinin bilavasitə iştirakı ilə yerinə yetirilir. Klassik misal kimi ABŞ-ı göstərmək olar. Amerikanın kommersiya bankları və maliyyə institutları üzərində nəzarəti Federal Ehtiyatlar Sistemindən başqa, banklarda və digər kredit institutlarında əmanətlərin sığortalanması ilə məşğul olan Əmanətlərin Sığortalanması Federal Korporasiyası və Pul Dövriyyəsinə Nəzarət İdarəsi (Maliyyə Nazirliyinin bürosu) tərəfindən də həyata keçirilir. Hər üç orqan ikiqat işin istisna olunması haqqında razılığa gəliblər. "Qarışıq" modelə Fransa, İtaliya və Niderland aiddirlər.

Model 3. Bank fəaliyyətinə nəzarət Maliyyə Nazirliyi ilə sıx əməkdaşlıq şəraitində, Mərkəzi Bankın iştirakı ilə müstəqil ixtisaslaşdırılmış orqanlar tərəfindən həyata keçirilir. Bu model Kanadanın və qismən Avstriya və Almaniyanın bank sisteminə xasdır.

Model 4. Bu model maliyyə xidmətləri bazarında meqatənzimləyicinin yaradılması haqqında qanunverici qərarlar qəbul etmiş ölkələri birləşdirir. Bu ölkələrin demək olar ki, hamısında nəzarət funksiyaları Mərkəzi Banklardan ayrılıb. Burada yalnız meqatənzimləyici səlahiyyətlərinin Mərkəzi Banka aid olduğu Sinqapur və müəyyən dərəcədə İrlandiya (burada meqatənzimləyici yerli Mərkəzi Bankın muxtar bölməsinin bazasında yaradılıb) istisna təşkil edir. Vahid maliyyə nəzarəti orqanları ilk dəfə 1986-cı ildə Norveç, 1988-ci ildə isə İslandiya və Danimarkada tətbiq olunub. Bu gün onlar Estoniyada, Latviyada, Macarıstanda, Maltada, Çində, Yaponiyada, Qazaxıstanda, Cənubi Koreyada və bir sıra digər ölkələrdə fəaliyyət göstərir.

Model 5. Beynəlxalq və ya millidən yüksəkdə nəzarət modeli. Bu modeli mənzil-qərargahı İsveçrədə yerləşən Beynəlxalq hesablaşmalar Bankı (BHB) və üzv dövlətlərin maliyyə bazarlarına əhəmiyyətli təsir göstərən direktivlər qəbul edən Avropa İttifaqı (Aİ) həyata keçirir.

Bu gün Azərbaycanın bank sektorunda səmərəli bank nəzarəti və tənzimlənmənin daha böyük əhəmiyyət kəsb etdiyi yeni inkişaf mərhələsi başlayır. Azərbaycanda bank nəzarətinin və tənzimlənməsinin əsas məqsədləri bank sistemində sabitliyin saxlanması, əmanətçilərin və kreditorların maraqlarının müdafiəsidir.

Azərbaycanda bank tənzimlənməsinin qanunverici əsasını "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Qanun" təşkil edir. Həmin qanuna əsasən, Azərbaycanda kredit təşkilatlarına nəzarəti Azərbaycan Respublikasının Mərkəzi Bankı həyata keçirir.

Qanunvericiliklə Mərkəzi Banka bank əməliyyatlarının keçirilmə qaydalarının təyin olunması, kredit təşkilatlarının dövlət qeydiyyatı, onların fəaliyyətlərinin lisenziyalaşdırılması, kredit təşkilatlarının (bank və qeyri-bank) fəaliyyətinə nəzarətin həyata keçirilməsi üzrə funksiyaların həvalə olunması ilə əlaqədar Mərkəzi Bank tərəfindən normativ aktlar işlənib hazırlanır.

Azərbaycan Respublikasının bank sisteminin sabit işləməsini təmin etmək, bank kreditorlarının və əmanətçilərin maraqlarını müdafiə etmək məqsədilə Mərkəzi Bank qüvvədə olan qanuna, "Banklar haqqında" və "Kredit ittifaqları haqqında" AR qanunlarına, Mərkəzi Bankın normativ aktlarına və səmərəli bank nəzarəti üzrə beynəlxalq təcrübəyə müvafiq olaraq,

bank fəaliyyətinin lisenziyalaşdırılması, tənzimlənməsi və bank fəaliyyəti üzərində nəzarət funksiyalarını həyata keçirir.

Bank nəzarətinin və tənzimlənməsinin təşkilinin konkret üsulunun seçilməsi bir sıra amillərin məcmusu ilə təyin olunur ki, bu amillərin də özünəməxsus müxtəlifliyi onların hər birinə təkrarolunmaz milli səciyyə qazandırır. Bir mübahisəsiz faktı qeyd etmək lazımdır ki, maliyyə bazarlarının bütün seqmentlərinin artan inteqrasiyası şəraitində nəzarət funksiyalarının meqatənzimləyicinin əlində cəmlənməsi tendensiyası özünü daha dolğun şəkildə büruzə verir.

Vaxtilə bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr maliyyə bazarının meqatənzimləyicisini yaratmaqla maliyyə bazarının dövlət tənzimlənməsi sistemində islahatların aparılması yolunu seçmişdilər. Onların sırasına Norveç (1986), Kanada (1987), Danimarka (1988), İsveç (1991), Böyük Britaniya (1997), Yaponiya (1998), Koreyan (1998), Avstraliya (1998), İslandiya (1999), Cənubi Afrika (1990), Macarıstan (1996), və Sinqapuru aid etmək olar. Meqatənzimləyici, mahiyyətcə, İsveçrədə də yaradılıb.

Maliyyə bazarının bütün bölmələri üzərində nəzarətin və yoxlamanın birləşdirilməsi nadir hadisə deyil. Britaniyada təxminən 10 il əvvəl yaradılmış Maliyyə Xidmətləri İdarəsi (FSA) ilk vaxtlardan həm investisiya xidmətləri sektorunu tənzimləyir, həm də banklara nəzarət edirdi (bank sistemi üzərində nəzarət ona İngiltərə Bankından keçmişdi). Sonralar ipoteka kreditləşməsi sektoruna, 2005-ci ildən isə sığorta sektoruna nəzarət də bu quruma verildi.

Beləliklə, etiraf etmək olar ki, bir çox xarici ölkələrdə meqatənzimləyicilərin yaradılması və ya ən azı maliyyə bazarlarında fəaliyyət göstərən bir neçə tənzimləyici orqanın funksiyalarının birləşdirilməsi tendensiyası kifayət qədər diqqətlə izlənir. Lakin müxtəlif ölkələrdə maliyyə bazarlarının meqatənzimləyicilərinin yaradılması prinsipləri bir-birindən fərqlənir. Meqatənzimləyicilərin formalaşma prinsipləri hətta Avropa Ittifaqı çərçivəsində də fərqlənir. Məsələn, tam inteqrasiya olunmuş meqatənzimləyicilər üç ölkədə mövcuddur, iki dövlətdə tənzimlənmə əsasən bir institutda mərkəzləşib, bir ölkədə konfederal sistem, altı ölkədə üç idarədən ibarət tənzimlənmə strukturu mövcuddur, daha ikisində isə mövcud sistem dəyişiklik prosesindədir. Mərkəzi bankların iştirakına gəlincə, yeddi dövlətdə bank nəzarəti mərkəzi bankın daxilindədir və ya onunla sıx əlaqədədir, beş ölkədə banklara nəzarət orqanının mərkəzi bankdan heç bir asılılığı yoxdur, ikisində əsasən müstəqildir, bir dövlətdə isə sistem yenidən nəzərdən keçirilməkdədir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrin heç də hamısı öz maliyyə bazarlarının meqatənzimləyicilərinin yaradılması yolu ilə getməyiblər. Məsələn, ABŞ-da maliyyə sektorunun seqmentlərinə nəzarəti müxtəlif təşkilatlar həyata keçirir. Onlardan heç biri hökumət strukturuna daxil deyil, sığorta sahəsinin isə, ümumiyyətlə, federal tənzimləyicisi yoxdur. Maliyyə bazarı dünyanın ən çox inkişaf etmiş bazarlarından olan ABŞ maliyyə bazarının tənzimlənməsi istiqamətində islahatların gedişində (1999-cu ilin ikinci yarısında qəbul edilmiş maliyyə qanunvericiliyinin modernizasiyası haqqında qanun) meqatənzimləyicinin yaradılmasından imtina edib. ABŞ funksional tənzimləmə prinsipinin inkişaf etdirilməsi yolu ilə getmiş və maliyyə bazarlarının bir neçə idarəetmə orqanını qoruyub saxlamışdır. Sözügedən qanuna görə, ABŞ-ın qiymətli kağızlar bazarında fəaliyyət göstərən kredit təşkilatlarının lisenziyalaşdırılması və nəzarəti SEC tərəfindən həyata keçirilir.

Qəbul olunmuş bir faktdır ki, bank işi etimada əsaslanır. Biz artıq müştərilərin bir çox hallarda ayrı-ayrı bankların və bütövlükdə bank sisteminin əmanətləri qorumaq qabililyyətinə etimadını itirdiyinin şahidi olmuşuq. Sərt və ciddi bank nəzarəti özlüyündə maliyyə sabitliyinin təmin olunması üçün kifayət deyil. Maliyyə qeyri-sabitliyinin bank sektorundan kənarda çox sayda digər potensial mənbələri var, odur ki, nəzarətin məqsədləri böhranın qarşısının alınması üçün daha irəli getməlidirlər.

2.12. BANK SİSTEMİNDƏ ƏMANƏTLƏRİN SIĞORTALANMASI

Bankların iflası zamanı dövlət tərəfindən lazımı tədbirlər və proqramlar hazırlanır. Məhz, bankların iflası zamanı dövlət tərəfindən lazımı tədbirlər və proqramlar kontekstində Əmanət sığorta sistemi (ƏSC) fəaliyyət göstərir.

1930-cu illərdə ABŞ–da banklardan əmanətin çəkilməsini önləmək üçün mükəmməl bir dərman olaraq ortaya çıxmış və illərdən bəri özəl sektoru əmanət riskindən qorumaqdadır. Bankın əmanət sahibləri, bank seçimində öz təhlillərindən çox hökümətin sığorta sahəsində təcrübəsinə əsaslanaraq güvən alır.

Əmanət sığorta sisteminin tətbiqatı 1930-cı illərdə ABŞ-da bank iflaslarına cavab olaraq qanuni çərçivəyə minmişdir. Əmanət sığorta sisteminin təməlləri 1933-cı ildə FDİC (Federal Deposit İnsuranse Commite) qurulması ilə başlanmışdır. ABŞ-da bank əmanətlərinə təminatı Federal Deposit İnsuranse Corporatin (FDİC) adlı qurum həyata keçirir.

Avropa birliyinə üzv olan ölkələrdə "əmanət – sistemlərinə aid təlimatlar 30 may 1994- cü il 94/19 EC saylı Avropa parlamentində qəbul edilmişdir. Təlimata görə birliyə daxil olan dövlətlərdə fəaliyyət izni olan bütün bankların cəlb etdikləri əmanətlər qarşılığında əmanət sığorta sistemində iştirakına məcburiyyət gətirmişdir. Təlimatın 3-cü maddəsinin 1 bəndinə görə kredit qurumları əmanət siğorta sisteminə qatılmadıqca, banklara əmanət toplamaq lisenziyası verilmir. Təlimatın 7-ci maddəsinə görə birliyə üzv olan dövlətlərin əmanətçilərə 20.000 Avroya qədər olan bölümünü ödəməklə məsuldur.

2008 –ci ilin qlobal maliyyə böhranı Avropa Birliyi ölkələri arasında əmanət sığorta sistemi haqqında qəbul etdikləri qərarların deklaritiv olduğunu ortaya qoydu. Məsələn, İrlandiya və Yunanıstan hökümətləri tək tərəfli olaraq bank əmanətlərinə (həcmindən asılı olmayaraq) 100 % zəmanət verdi. Böyuk Britaniya hökümәti İrlandiya hökümətinin bu qərarına təpki olaraq əmanətlərin tam kompensasiya olunan həcmini 35 min funt sterlinqdən 50 min funt sterlinqədək artırdı. Bütün bu kimi addımlar AB üzv ölkələrində "iqtisadi millətçilik" siyasətinin bank sektorunda "moral hazard" təhlükəsinə yol verecəyini ortaya qoydu.

2008-ci ilin sentyabrında Rusiya əmanətlərin tam kompensasiya olunan həcmini 100 min rubldan 200 min rubla, ödənişlərin maksimal məbləğini isə 400 min rubldan 700 min rubla qaldırmaqla əmanətlərə tətbiq olunan dövlət təminatının artırılmasını elan etdi. Lakin bu tədbir hələ ki, əhəmiyyətli kapital axınına səbəb olmadı.

Azərbaycanda «Əmanətlərin Sığortalanması haqqında» Azərbaycan Respublikasının Qanunu 11 fevral 2007-ci ildə dərc edilməklə qüvvəyə minmişdir. Bu qanun Azərbaycan Respublikasında fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin kollektiv icbari sığortalanması sisteminin yaradılması və fəaliyyəti, o cümlədən əmanətlər üzrə kompensasiya ödənilməsi qaydalarını müəyyən edir. Fond tərəfindən sığortalanan əmanətlər üzrə kompensasiya məbləği 4000 manatdan 6000 manata qaldırılmışdır.

Azərbaycan Respublikasının Milli Məclisi 08 may 2009-cu il tarixdə "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda əlavə və dəyişikliklərin edilməsi haqqında Azərbaycan Respublikası Qanununu qəbul etmişdir.

Qanuna edilmiş dəyişikliklə qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddinin müəyyən edilməsinin Azərbaycan Respublikası Mərkəzi Bankının uçot faiz dərəcəsindən asılılığı aradan qaldırıldı. Qəbul olunmuş Qanuna əsasən illik faiz dərəcəsinin yuxarı həddini Azərbaycan Respublikası Mərkəzi Bankı ilə razılaşdırmaqla Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası müəyyən edir. 10 iyun 2009-cu il tarixdə keçirilmiş növbədənkənar iclasda Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddini Azərbaycan Respublikası Mərkəzi Bankı ilə razılaşdırmaqla 15 faiz müəyyən etdi.

Qeyd edək ki, 2009-cu il 01 yanvar tarixindən etibarən Fonda üzv olan banklarda 15 faiz dərəcəsi ilə və bu faiz dərəcəsi həddində əmanətlər yerləşdirmiş əmanətçilərin əmanətləri qorunan əmanətlər hesab olunur və Fond tərəfindən sığortalanır.

Xatırladaq ki, Qanuna edilmiş dəyişikliyə əsasən kompensasiya məbləğinin maksimum həddi 30 min manatdır. Əmanətçilər əmanətlərin sığortalanması üçün heç bir ödəniş etmirlər. Sığorta haqları yalnız banklar tərəfindən ödənilir. Bundan başqa Qanuna dəyişikliyə uyğun olaraq hər hansı iştirakçı bankda sığorta hadisəsi baş verərsə, əmanətçilər sığortalanmış əmanətlər üzrə

əmanətin 100 % həcmində və maksimum 30 000 min manat məbləğində kompensasiya ala biləcəklər. Qeyd etmək lazımdır ki, kompensasiya məbləğinin 30 min manata çatdırılması MDB məkanında ən yüksək kompensasiya məbləğidir. Müqayisə üçün Qazaxıstanda kompensasiya məbləği 33 min, Rusiyada isə 25 min ABŞ dolları təşkil edir.

Əmanətlərin sığortalanması sisteminin yaradılmasının məqsədi banklar və xarici bankların yerli filialları ödəmə qabiliyyətini itirdikdə, fiziki şəxslərdən əmanətə qəbul olunmuş pul vəsaitinin itirilməsi riskinin qarşısını almaq, maliyyə və bank sisteminin sabitliyini və inkişafını təmin etməkdir.

Əmanətlərin sığortalanması haqqında Azərbaycan Respublikasının Qanunu (08 may 2009-cu il və 30 iyun 2009-cu il tarixli qanunla qəbul edilmiş dəyişikliklər və əlavələrlə) Azərbaycan Respublikasında fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin kollektiv icbari sığortalanması sisteminin yaradılması və fəaliyyəti, o cümlədən əmanətlər üzrə kompensasiya ödənilməsi qaydalarını müəyyən edir.

Fondun əsas məqsədi mənfəət götürmək deyil və onun fəaliyyəti nəticəsində əldə etdiyi bütün mənfəət sığorta ehtiyatlarının artırılmasına yönəldilir.

Dövlət və Mərkəzi Bank Fondun öhdəlikləri üzrə, Fond isə dövlətin və Mərkəzi Bankın öhdəlikləri üzrə məsuliyyət daşımır.

Fiziki şəxslərin əmanətlərinin cəlb edilməsi üçün bank lisenziyasına malik olan bütün banklar və xarici bankların yerli filialları Fondun məcburi iştirakçılarıdır. İştirakçı bankların Azərbaycan Respublikası ərazisindən kənarda yerləşən filiallarındakı əmanətlər Fond tərəfindən sığorta olunmur və onlar üzrə kompensasiya ödənilmir.

Xarici bankın öz ölkəsindəki əmanətlərin (depozitlərin) sığorta sistemi onun Azərbaycan Respublikasında fəaliyyət göstərən filialını (filiallarını) əhatə etdikdə, xarici bankın yerli filialındakı əmanətlər Fond tərəfindən sığorta olunmur, bu şərtlə ki, həmin ölkədə əmanətlərin sığortalanması sisteminin qaydaları bu qanunla müəyyən olunmuş şərtlərdən az əlverişli olmasın. Əks təqdirdə xarici bankın yerli filialındakı əmanətlər bu qanunla müəyyən edilmiş qaydada əlavə sığortalanmalıdır.

Fond öz gəlirləri, iştirakçı banklar isə Fonda ödədikləri sığorta haqları üzrə Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş güzəştlərdən istifadə edir.

Fondun funksiyaları

Fond aşağıdakı funksiyaları həyata keçirir:

1. iştirakçı bankların reyestrini tərtib edir və onlara şəhadətnamələr verir;
2. sığorta haqlarını yığır və onların uçotunu aparır;
3. öz əmlakını idarə edir və ona dair sərəncam verir;
4. sığorta hadisəsi baş verdikdə, əmanətçilərin tələblərinin uçotunu aparır və kompensasiya ödəyir;
5. Fondun funksiyalarının yerinə yetirilməsi üçün iştirakçı banklardan bu qanunla müəyyən edilmiş lazımi məlumatı (o cümlədən, əmanət siyasəti haqqında) və hesabatları alır;
6. bu qanuna müvafiq olaraq Fondun qaydalarını qəbul edir;
7. öhdəliklərini yerinə yetirmək üçün vəsaiti çatışmadıqda, maliyyə bazarlarından, Mərkəzi Bankdan və ya Azərbaycan hökumətindən borc vəsaitləri cəlb edir;
8. öhdəlikləri üzrə kompensasiya ödədikdə, həmin məbləği reqress qaydasında iştirakçı bankdan tələb edir;
9. iştirakçı banklardan sığorta haqları üzrə borcun və hesablanmış dəbbə pulunun ödənilməsini tələb edir və bu barədə Mərkəzi Banka məlumat verir;
10. əmanətlərin sığortalanması sisteminin fəaliyyətini təmin edən digər funksiyaları həyata keçirir.

Fondun sığorta ehtiyatları

Fondun sığorta ehtiyatları aşağıdakı mənbələr hesabına formalaşır:

1. iştirakçı bankların üzvlük haqları;
2. iştirakçı bankların təqvim haqları;
3. iştirakçı bankların əlavə haqları;

Fondun buraxdığı uzunmüddətli borc öhdəlikləri hesabına cəlb olunan vəsait;

5. iştirakçı banklar tərəfindən ödənilən dəbbə pulları;

6. cari xərclər çıxılmaqla, Fondun vəsaitinin idarə olunması nəticəsində əldə edilmiş gəlir;

7. qrant, ianələr və ya qanunvericilikdə qadağan edilməmiş digər mənbələrdən daxil olan vəsaitlər;

8. kompensasiyaların ödənilməsi üçün çatışmayan məbləğdə alınmış borc vəsaitləri;

9. reqress qaydasında tələb hüququ ilə bankdan və ya xarici bankın yerli filialından alınan vəsaitlər. İştirakçı banklar Fondun reyestrinə daxil olduqdan sonra 10 təqvim günü müddətində Fondun Mərkəzi Bankda olan hesabına 10 (on) min manat məbləğində birdəfəlik üzvlük haqqı ödəyirlər. üzvlük haqqını ödəmiş iştirakçı banklar birləşmə və ya qoşulma şəklində yenidən təşkil olunduqda, yaxud fiziki şəxslərdən əmanətlərin cəlb edilməsi hüququ Mərkəzi Bank tərəfindən bərpa edildikdə, üzvlük haqqı ödəmədən iştirakçı bankların bu qanunla müəyyən olunmuş hüquq və vəzifələrini əldə edir.

Fondun sığorta ehtiyatları aşağıdakı məqsədlərə istifadə edilə bilər: kompensasiyaların ödənilməsinə; illik büdcə çərçivəsində Fondun idarə edilməsinə və əmlakının alınmasına; borc öhdəliklərinin ödənilməsinə.

Fond risklərin bölüşdürülməsi (diversifikasiyası) məqsədi ilə, habelə aktivlərin təhlükəsizliyini, yetərli likvidliyini və ağlabatan gəlirliyini təmin etmək üçün sərbəst pul vəsaitlərini yalnız aşağıdakı maliyyə alətlərində yerləşdirir: dövlət qiymətli kağızlarında; mərkəzi bankların qiymətli kağızlarında; mərkəzi banklarda və yüksək reytinqli digər banklarda depozitlərdə, habelə yüksək reytinqli başqa maliyyə alətlərində.

Fond tərəfindən hər bir iştirakçı bankda sığortalanmış əmanət üzrə əmanətin 100 faizi həcmində, lakin 30 (otuz) min manatdan çox olmamaq şərtilə kompensasiya ödənilir. Mərkəzi valyutada olan əmanətlər üzrə kompensasiya manatla, xarici valyutada olan əmanətlər üzrə isə əmanətlərin valyutasında ödənilir. Əmanətlər ABŞ dolları və ya Avroda olmadıqda, kompensasiya bu valyutaların biri ilə sığorta hadisəsinin baş verdiyi günə Mərkəzi Bankın müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir. Bir əmanətçinin bir bankda, o cümlədən bankın yerli filiallarında və şöbələrində bir neçə əmanəti olduqda, yaxud həm Mərkəzi, həm də xarici valyutada əmanətləri olduqda, onlar toplanır və bir əmanət kimi manatla kompensasiya olunur. Sığorta hadisəsi əmanətçinin əmanəti olan bir neçə iştirakçı bankda baş verdikdə, kompensasiya hər bir bankda olan əmanət üzrə ayrı-ayrılıqda ödənilir. Birgə əmanət hesabı olan əmanətçinin həmin bankda digər əmanəti olduqda, birgə əmanət üzrə ona məxsus olan hissə və digər əmanəti toplanır və bir əmanət kimi kompensasiya ödənilir. 18 yaşı tamam olmamış övladının adına əmanət hesabı üzərində sərəncam vermək hüququ qanunvericiliyə uyğun olaraq valideynə və ya övladlığa götürənə məxsus olduqda, kompensasiya onlara ödənilir. Bu zaman valideynin və ya övladlığa götürənin həmin bankda əmanəti olduqda, bu əmanət üzrə ayrıca kompensasiya ödənilir. Əmanət üzrə sərəncam vermək hüququ qanunvericiliyə uyğun olaraq qəyyuma və ya himayəçiyə, yaxud müqaviləyə və ya etibarnaməyə müvafiq olaraq üçüncü şəxsə məxsus olduqda, kompensasiya həmin şəxsə ödənilir. Bu zaman qəyyumun və ya himayəçinin həmin bankda əmanəti olduqda, bu əmanət üzrə ayrıca kompensasiya ödənilir. İştirakçı banklar birləşmə və ya qoşulma şəklində yenidən təşkil olunduqda əmanətçinin varis banka keçmiş hər bir əmanətinə müqavilə müddəti qurtaranadək ayrıca əmanət kimi baxılır və ayrı-ayrılıqda kompensasiya ödənilir.

Beləliklə, əmanət sığorta sisteminin məqsədi – makro baxımdan əmanət sahiblərinin bank sistemlərinə olan güvəni gücləndirir və əmanətlərin bankcılıq sistemi kənarında qalmasını və ya sistem kənarına çıxarılmasının qarşısını almaq ücün fəaliyyət göstərir. Eyni zamanda, ƏSS yıgım sahiblərinin əmanətlərini topluca və ani olaraq banklardan çəkmələri durumunda bu sektorda yaşanabiləcək böhranların da qarşısını alır və ya ola biləcək mənfi təsirləri minimuma endirilməsində böyük xidməti vardır.

QANUNLAR, NORMATİV SƏNƏDLƏR VƏ TƏLİMATLAR

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi

2. Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Azərbaycan Respublikasının Qanunu
3. Banklar haqqında Azərbaycan Respublikasının Qanunu
4. Əmanətlərin sığortalanması haqqında Azərbaycan Respublikasının qanunu
5. Valyuta Tənzimi haqqında Azərbaycan Respublikasının qanunu
6. Kredit ittifaqları haqqında Azərbaycan Respublikasının qanunu
7. Poçt haqqında Azərbaycan Respublikasının qanunu
8. Bank olmayan kredit təşkilatları haqqında Azərbaycan Respublikasının Qanunu
9. Banklarda stress testlərin aparılması haqqında Qaydalar. Layihə.

ƏDƏBİYYAT

1. Banklar haqqında normativ- hüquqi aktlar toplusu// Elmi redaktor: Z.F. Məmmədov. Bakı, Qanun, 2009. 1092 s.
2. Dövlət maliyyəsi normativ- hüquqi aktlar toplusu// Elmi rəhbər: V.Z.Zeynalov. Bakı, Qanun, 2010. 1180 s.
3. Dünya ölkələrinin Mərkəzi Bankları. AR MB Beynəlxalq əlaqələr departamenti. Bakı, 2009
4. Abbasov Ə.M., Z.F. Məmmədov. Bank işi və e-bankçılıq. Bakı, 2003.
5. Ibrahimov Z. Pul, kredit və banklar (suallara cavab). Bakı, 2009.
6. Məmmədov Z.F Qlobal maliyyə böhranı və dövlət idarəçilik sistemində antiböhran siyasət: ümümi problemlər və fərqli yanaşmalar// «Qlobal maliyyə böhranı və dövlət idarəçilik sistemində antiböhran siyasəti: dünya təcrübəsi və Azərbaycan modeli». Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, 04 iyun 2010.
7. Məmmədov Z.F Turkiyenin muasir bank sistemi // Maliyye ve ucot.- 1996.- № 3.
8. Məmmədov Z.F Maliyye- kredit qurumlari //Maliyye ve ucot.- 1998. -№ 11-12.
9. Məmmədov Z.F Xarici ölkələrin pul- kredit sisteminə dair metodik vəsait. - Bakı, Az.DIU–1999. - 44 c.
10. Məmmədov Z.F Beynəlxaq valyuta–kredit munasibətləri. Dərslik. - Bakı, 2001, 2002, 2005,2008. IV nəşr.
11. Məmmədov Z.F. Qlobal böhranlarin şiddətlənməsi mühitində Azərbaycan Mərkəz Bankinin pul siyasətinin istiqamətləri və makro – prudensial idarəetmə antikriziz tədbirləri // Qanun. – 2009. - № 12.
12. Məmmədov Z.F. Qlobal maliyyə böhranı: səbəb və nəticələr // maliyyə və uçot. 12. - 2009.
13. Məmmədov Z.F. Global böhrani və dövlətin antiböhran strategiyasi: dünya təcrübəsi və Azərbaycan realliği// Dövlət idarəçiliyi. № 1. – 2010.
14. Məmmədov Z.F. Qlobal maliyyə böhranı kontekstində dövlət monetar idarəetmə sistemində antiböhran siyasət: dünya təcrübəsi və Azərbaycan modeli// AMEA-nın xəbərləri. İqtisadiyyat seriyası. №2, 2010.c. 5-15.
15. Гаджиев Ш.Г. Финансово-банковская система Азербайджана в условиях глобального кризиса: изменение акцентов международных сравнительных оценок // Центральная Азия и Кавказ, Глобализация. 4-5, - 2009. с. 84- 103.
16. Гаджиев Дж.Ф. Международный банк Азербайджана: устойчивое развитие в условиях мировой финансовой нестабильности //Академия государственного управления при президенте Азербайджана, научно-практическая конференция "Глобальный финансовый кризис и антикризисная политика в системе государственного управления: мировой опыт и азербайджанская модель". 4 июня , 2010, Baky.
17. Гаджиев Дж.Ф. Денежно-банковская система и МБА.М.: « Финансы и статистика», 2008.
18. Зейналов В. З. Проблемы развития банковского сектора Азербайджана в условиях глобального кризиса// Экономика и управление.-2011- № 7.

19. Ибрагимов З.Г. Генезис денежно- кредитной системы Азербайджана. Баку, 1997.

20. Керимов А. Рынок банковских услуг. Баку. 2010.

21. Мамедов З. Ф. « Инфекционный» характер банковского кризиса в контексте глобализации // Теория и практика финансового и банковского дела: VII Межвузовская конференция - 12/12.2006. Секции 1-3. - СПб.:– СПбГИЭУ,2006. - С. 106-112. 0,5 п.л.

22. Мамедов З. Ф. Влияние кризиса на реформирование банковского сектора Турции. 10 декабря 2009 г. Первый Российский экономический конгресс (РЭК-2009) . Москва с 7 по 12 декабря 2009 года в помещениях Московского государственного университета им. М.В. Ломоносова под эгидой Новой экономической ассоциации (НЭА) и Секции экономики Отделения общественных наук РАН.

23. Мамедов З. Ф. Перспективы развития системы страхования вкладов//Финансы, кредит и международные экономические отношения в XXI веке. Материалы 2-й международной научной конференции. 29- 30 марта 2007 года: СПб: Изд-во СПбГУЭФ, 2007. С.53.- 55

24. Мамедов З. Ф. Проблемы модернизации банковской системы Азербайджана // Теория и практика финансового и банковского дела: X Межвузовская конференция – 03-04 декабря. Пленарное заседание. - СПб: – СПбГИЭУ, 2008. - С. 71- 80.

25. Мамедов З. Ф. Степень долларизации и евроизации российской экономики // «Валютные проблемы инновационного развития экономики России» 22 октября 2008 г. Финансовая Академия при Правительстве Российской Федерации.

26. Мамедов З. Ф. Возникновение национальной банковской системы Турецкой Республики// Экономические и социальные проблемы рыночных отношений. Сборник научных статей. Часть3. – СПб: Изд-во СПбУЭФ, 1992.- 0,3 п.л.

27. Мамедов З. Ф. Институт банковского надзора как фактор стабилльности банковской системы в контексте мирового опыта//Qanun.–2008.- № 12.

28. Мамедов З. Ф. Отсутствие механизма определения «надежных» и «ненадежных» банков тормозит развитие этого сектора экономики //Азербайджанские Известия. -2004. - 1 декабрь.

29. Мамедов З. Ф. Анатомия финансового кризиса. – СПб: Изд-во СПбГУ, 2005. -322 с.

30. Mamедов З. Ф. Влияние кризиса на логику реформирования банковской системы.– СПб: Изд-во СПбГУЭФ, 2005. –

31. Мамедов З. Ф. Фондовый кризис: теоретические и эмпирические аспекты. // Тенденции развития финансово- кредитных и МЭО в условиях глобализации экономики. Научная сессия проф - препод. Состава по итогам НИР 2004 года. Марть- апрель 2005 года. Сборник докладов. СПб: Изд-во СПбГУЭФ, 2005.-

32. Мамедов З. Ф. Экспансия иностранного капитала на банковской рынок Турции в посткризисный период // Финансовый рынок и кредитно – банковская система России. Сборник научных трудов / Под ред. д.э.н., проф.А.С.Селищева. Выпуск № 7:– СПб.: 2006.

33. Мамедов З. Ф. Проблемы реформирование банковского сектора России после кризиса // Актуальные проблемы труда и развития человеческого потенциала: Межвузовский сборник научных трудов. Выпуск № 4. – СПб: Изд-во СПб ГУЭФ, 2006.

34. Мамедов З. Ф. Современные позиции и роль иностранного капитала в банковском секторе развивающихся стран // Финансовый рынок и кредитно – банковская система России. Сборник научных трудов / Под ред. д.э.н., проф.А.С.Селищева. Выпуск № 8:– СПб.: Инфо - да, 2007. с.187 -190.

35. Мамедов З. Ф. Глобализация финансовых рынков и проблемы развивающихся стран// Тенденции и проблемы развития региональной экономики на рубеже веков: Международная научно-практическая конференция. - 26-27 апреля 2000. ДГУ-2000. - С.261-262. 0, 1.

36. Мамедов З. Ф. Банковская система Турции: проблемы развития// Теория и практика финансового и банковского дела:V Межвузовская конференции аспирантов и докторантов.4.12.2003. - СПб.: СПбГИЭУ, 2003. - С.192-195.0,4

37. Мамедов З. Ф. Роль электронных финансовых услуг в развитии новой экономики //Государство и рынок в оптимизации структурных характеристик роста. Санкт-Петербург. 26-29 мая 2004. – СПб: Изд-во СПбГУЭФ, 2004.- С. 286-291. 0,5 п.л.

38. Мамедов З. Ф. Сущность банковского кризиса // Теория и практика финансового и банковского дела: VI Межвузовская конференции аспирантов и докторантов. - СПб.: СПбГИЭУ, 8 декабря 2004. -

39. Мамедов З. Ф. Основные тенденции развития денежно – кредитной системы Азербайджана // Центральная Евразия: национальные валюты. Стокгольм: Изд. Дом «СА Press», 2008. – 79- 103.

40. Мамедов З. Ф. Банковский кризис как ускоритель процесса передачи государственных кредитных учреждений в частные институты// Актуальные проблемы финансов и банковского дела. - СПб: СПбГИЭУ, 2007. 79- 95

41. Мамедов З. Ф.Банковский кризис и реформирование банковского сектора в контексте глобализации. Баку: Азернешр, 2007.

42. Мамедов З. Ф.Основные направления формирования устойчивого национального рынка ипотечного жилищного кредитования в АР // Финансовый рынок и кредитно – банковская система России. Сборник научных трудов / Под ред. д.э.н., проф.А.С.Селищева. Выпуск № 8:– СПб.: Инфо - да, 2007. с.187 -190.

43. Зейналов В.З. Эффективность финансовой стратегии правительства Азербайджана в условиях мирового кризиса // // Финансовый рынок и кредитно – банковская система России. Сборник научных трудов / Под ред. д.э.н., проф.А.С.Селищева. Выпуск № 8:– СПб.: Инфо - да, 2007. с.187 -190.

44. Мамедов З. Ф.Фондовый кризис: теоретические и эмпирические аспекты //Тенденции развития финансово- кредитных и международных экономических отношений в условиях глобализации экономики: Научная сессия. Март, 2005 г. - СПб.:– Изд-во: СПбГУЭФ, 2005. С.276-300.0, 5. п.л.

45. Мамедов З. Ф.Банковские кризисы в странах формирующихся рынков// Теория и практика финансового и банковского дела: VII Межвузовская конференция - 7/12.2005. - СПб.:– СПбГИЭУ,2005. -

46. Мамедов З. Ф.Международный опыт реструктуризации банковских систем // Финансовые проблемы обеспечения устойчивого роста современной экономики: Материалы Межвузовской научно-практической конференции / Под. ред. проф.Л.П.Кроливецкой. - Гатчина: Изд-во ЛОИЭФ, 2006.С.36-38.

47. Мамедов З. Ф.Система страхования вкладов как элемент поддержания стабильности национальной банковской системы // Азербайджанская модель национального экономического развития. Международная научно-практическая конференция 12-13 мая 2006года. – Baky.: Аз. ГЭУ. 2006. 1 п.л.

48. Мамедов З. Ф. Влияние финансового кризиса на взаимоотношение реального и банковского секторов// Взаимодействие реального и финансового секторов в трансформационной экономике. Материалы ВНК. 2-3 февраля 2006 г. - Оренбург: ИПГ ГОУ ВПО ОГУ, 2006. С.136-140.0,5 п.л.

49. Мамедов З. Ф. Банковский кризис в мировой экономической практике: основные тенденции развития //Финансы, кредит и международные экономические отношения в XXI

веке. Материалы 1-й международной научной конференции. 6-7 апреля 2006 года: Сборник докладов. Т II/Под. ред. В.Е. Леонтьева. - СПб: Изд-во СПбГУЭФ, 2006. С.56-60.

50. Мамедов З. Ф. Институт банковского надзора как фактор стабильности банковской системы // Роль финансово-кредитной системы в реализации приоритетных задач развития экономики. Материалы 2- й международной научной конференции. «Санкт-Петербургский государственный университет экономики и финансов» 29-30 января 2009 года.

51. Мамедов З. Ф. Современная банковская система Турецкой Республики // «Известия Санкт - Петербургского университета экономики и финансов. - 1998.- № 3. - С. 69-83

52. Мамедов З. Ф. Современные тенденции развития банковской системы Турецкой Республики// Деньги и кредит. -1998.- № 6. - С.58-65.

53. Мамедов З. Ф. Банковский сектор Турции: современные позиции и роль иностранного капитала // Деньги и кредит.- 2003.- № 12 .- С. 61-67.

54. Мамедов З. Ф. Кризис на фондовом рынке – отражение общей динамики экономики // Экономика и управление .- 2005. - № 3.

55. Мамедов З. Ф. Банковская система Турции //Мировая экономика и международные отношения.- 2005. - № 5 .

56. Мамедов З. Ф. Роль кризиса в реформировании банковской системы Турции// Деньги и кредит. - 2005. - № 9.

57. Мамедов З. Ф. Особенности современного состояния турецкой банковской системы //Финансы и кредит. -2005.- №12

58. Мамедов З. Ф. Участие иностранного капитала в странах формирующихся рынков после кризиса //Финансы и кредит.- 2006.- 9(213).

59. Мамедов З. Ф. Анализ и оценка банковских рисков // Известия СПбУЭФ. 2006. - № 3. - С.-93- 102

60. Мамедов З. Ф. Роль кризиса в реформировании банковского сектора стран формирующихся рынков. Журнал «Финансы и кредит», 10(250) - 2007 март

61. Мамедов З. Ф. Современные позиции и роль иностранного кАпитала в банковском секторе России после кризиса// Экономика и управление. - 2007. - № 4.

62. Мамедов З. Ф. Основные тенденции развития денежно – кредитной системы Азербайджана // Финансы и кредит.- 2008.- № 4.

63. Мамедов З. Ф. Экспансия российского банковского капитала в других странах СНГ и присутствие их банков на рынке РФ //Кавказ, Глобализация. Том 2, выпуск 1.- 2008. 67- 81

64. Мамедов З. Ф. Банковская система Азербайджана//Мировая экономика и международные отношения.- 2008. № 7.

65. Мамедов З. Ф. Посткризисная модернизация банковской системы Турции // Деньги и кредит. - 2009. - № 2.

66. Мамедов З. Ф. Банковская система Турецкой Республики// Экономика и управление. - 2009. - № 3. с.16 – 25.

67. Мамедов З. Ф. Структурная перестройка банковской системы Турции после кризиса//«Вестник Финансовой Академии» - 2010. № 1.

68. Мамедов З. Ф., Зейналов В. З. Антикризисная политика в банковской сфере: Турция, Российская Федерация и Азербайджана (сравнительный анализ) // Экономика и управление. - 2010. - № 9. с.3 – 25.

69. Мамедов З. Ф. Банковская система в условиях глобального финансового кризиса// Финансы и кредит.- 2010.- № 48.с. 8-15.

70. Мамедов З. Ф. Банковский кризис и реформирование банковского сектора в контексте глобализации. Баку: Азернешр, 2007.

71. Мамедов З. Ф. Основные тенденции развития денежно – кредитной системы Азербайджана // Центральная Евразия: национальные валюты. Стокгольм: Изд. Дом «СА Press», 2008. – 79- 103.

72. Мамедов З. Ф. Анализ и оценка банковских рисков // Известия СПбУЭФ. 2006. - № 3.

73. Мамедов З.Ф.Анатомия финансового кризиса. – СПб: Изд-во СПбГУ, 2005. -322 с.

74. Мамедов З.Ф.Влияние кризиса на логику реформирования банковской системы.– СПб: Изд-во СПбГУЭФ, 2005.

75. Мамедов З. Ф.Антикризисная политика в банковской сфере: Турция, Российская Федерация и Азербайджан (сравнительный анализ) // Годовая конференция НЭА «Образование, наука и модернизация» Секция 3.5.(20-22 декабря 2010 г.).

76. Мамедов З. Ф.Кризис в банковской системе Турции: причины и решения // Роль финансово-кредитной системы в реализации приоритетных задач развития экономики. Материалы 4- й международной научной конференции. «Санкт-Петербургский государственный университет экономики и финансов» 17- 18 февраля 2011 года. - 21-25 с.

77. Мамедов З. Ф.Системы финансового надзора за банковскими секторами: мировой опыт и азербайджанская практика // научная – практическая конференция. Государственный финансовый контроль в современных условиях. 18 февраля 2011.

78. Мамедов З. Ф.Основные направления политики по формированию модели международного финансового центра // «Эффективное государственное управление в условиях инновационной экономики». Финансовый университет при Правительстве Российской Федерации г. Москва 18 мая 2011 года

79. Рустамов. Э. С. Глобальный кризис и антикризисная политика Центрального банка Азербайджана // Деньги и кредит.- 1/2010.

80. Рустамов. Э. С. Проблемы реформирования макроэкономических институтов в послекризисный период// Деньги и кредит.- 9/2010.

III FƏSİL. MƏRKƏZİ BANKÇILQ

ƏSAS ANLAYIŞLAR

Açıq bazar əməliyyatları - Mərkəzi Bank tərəfindən qiymətli kağızların və xarici valyutanın alqı-satqısı əməliyyatlarıdır.

Banklararası pul bazarı Banklararası qısamüddətli (bir gündən bir ilədək) kredit və depozit bazarıdır.

Banklardan kənar nağd pul - Mərkəzi Bankın və kommersiya banklarının kassalarında olan pullar istisna olmaqla Mərkəzi Bank tərəfindən dövriyyəyə buraxılmış nağd puldur.

Baza inflyasiya - Qiymətləri dövlət tərəfindən tənzimlənən malların qiymətlərinin dəyişimindən və mövsümi amillərdən təmizlənmiş inflyasiyadır.

Çərçivə alətləri- Çərçivə alətləri Mərkəzi Bank tərəfindən həyata keçirilən bir günlük repo (vəsaitlərin cəlb olunması aləti) və bir günlük əks-repo (vəsaitlərin yerləşdirilməsi aləti) əməliyyatlarıdır. Bir qayda olaraq çərçivə alətləri üzrə əməliyyatlar bankların təşəbbüsü ilə müəyyən olunmuş faiz dərəcələri ilə aparılır.

Dövriyyədə olan nağd pul Mərkəzi Bank tərəfindən dövriyyəyə buraxılmış nağd pullardır. Buraya bank sistemindən kənarda olan nağd pulla yanaşı Mərkəzi Bankın və kommersiya banklarının kassalarında olan nağd pullar da daxildir.

Emissiya Bütün növ pul nişanlarının və qiymətli kağızların dövriyyəyə buraxılmasıdır. Pul nişanlarının emissiyası səlahiyyəti bir qayda olaraq Mərkəzi Banka məxsusdur. Qiymətli kağızların emissiyası isə həm dövlət həm də kommersiya qurumları tərəfindən həyata keçirilə bilər. Məhz, bu cəhətinə görə qiymətli kağızlar dövlət və qeyri-dövlət qiymətli kağızları qruplarına bölünür.

Faiz dərəcələri dəhlizi Mərkəzi Bankın çərçivə alətləri üzrə faiz dərəcələri "faiz dərəcələri dəhlizi"ni təşkil edir.

Dəhlizin minimal həddi bir günlük vəsaitlərin cəlbolunma (REPO) faiz dərəcəsi ilə, maksimal həddi isə - bir günlük vəsaitlərin yerləşdirmə (Əks-REPO) faiz dərəcəsilə müəyyən olunur.

Mərkəzi Bankın uçot dərəcəsi "faiz dərəcələri dəhlizi"nin bir parametri kimi çıxış edir. Faiz dərəcələri dəhlizinin parametrləri iki aydan bir ölkədəki makroiqtisadi durum və Mərkəzi Bankın inflyasiya hədəfi əsas götürülərək müəyyən olunur.

İnflyasiya - İnflyasiya qiymətlərin ümumi səviyyəsinin artımı prosesidir. Başqa sözlə desək, inflyasiya mal və xidmət qiymətlərinin artması ilə müşayiət olunan pulun dəyərsizləşməsi prosesidir.Ayrıca götürülmüş mal və ya xidmətin qiymətinin artması inflyasiya demək deyil. Yalnız qiymətlərin ümumi səviyyəsi qalxdığı zaman inflyasiya baş vermiş hesab olunur.

İnflyasiyanın hədəflənməsi Qiymətlərin sabitliyinin əsas hədəf kimi götürüldüyü pul siyasəti rejimidir. Bu rejimin tətbiqi zamanı Mərkəzi Bank qiymətlərin sabitliyi üçün yüksək dərəcədə məsuliyyət daşıyır.

İstehlak Qiymətləri İndeksi - (İQİ) Müəyyən vaxt intervalı çərçivəsində əhali tərəfindən qeyri-istehsal məqsədilə istehlak edilən mal və xidmətlərin qiymətlərinin ümumi səviyyəsinin dəyişməsini xarakterizə edən indeksdir. Buraya bütün zəruri tələbat malları (ərzaq və qeyri-ərzaq) və xidmətləri daxil edilir. Hər bir mal və xidmətin bu indeks əsasında formalaşan səbətdə öz xüsusi çəkisi vardır və ayrı-ayrı komponentlərin qiymət dəyişməsi bu çəkilərə uyğun olaraq yekun indeksin formalaşmasında iştirak edir. İstehlak Qiymətləri İndeksi Dövlət Statistika Komitəsi tərəfindən hesablanır.

Kredit - Bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (komisyon haqları) ödənilmək şərti ilə, təminatla və ya təminatsız borc verilən pul vəsaitidir.

Kredit xətti - Bankın, yaxud digər kredit institutunun borc alan subyekt qarşısında kredit vəsaitini təqdim etməklə bağlı öhdəliyi, yaxud bu öhdəliyin hüquqi rəsmiləşdirilməsidir. Bu zaman kredit vəsaiti bir dəfəlik deyil, hisssə-hissə təqdim olunur və borc alan subyektin bütün

müqavilə şərtlərinə əməl etdiyi təqdirdə kreditor kredit məbləğinin növbəti hissəsinin təqdim edilməsi ilə bağlı öhdəlik daşıyır.

Maliyyə Proqramlaşması - Maliyyə proqramı makroiqtisadi məqsədlərə nail olmaq üçün əlaqələndirilmiş iqtisadi siyasət tədbirlər planı olub, makroiqtisadi siyasəti proqramlaşdıran və iqtisadiyyatın bütün sektorları üzrə inkişaf parametrlərini bir-biri ilə uzlaşdıran hesablama modelidir. Başqa sözlə, maliyyə proqramı makroiqtisadi məqsədlərdən asılı olaraq müxtəlif siyasət simulyasiyaları aparmağa imkan verən bir çərçivədir. Bu çərçivə iqtisadiyyatın sektorları (real sektor, xarici sektor, fiskal sektor, monetar sektor) arasındakı qarşılıqlı asılılıqlar maksimum nəzərə alınmaqla formalaşdırılmışdır.

Məcburi ehtiyatlar - Müəyyən edilmiş normalara uyğun olaraq bankların depozit öhdəliklərinə görə Mərkəzi Bankda məcburi qaydada saxlamalı olduqları vəsait. M.E. dolayı pul siyasəti aləti olmaqla pul kütləsinin və bank sisteminin likvidliyinin tənzimləməsi məqsədilə tətbiq edilir.

Mərkəzi Bankın müstəqilliyi - Mərkəzi Bankın əsas məqsədinə nail olmaq üçün fəaliyyətinin hər hansı bir kənar müdaxilədən qorunmasıdır. "Azərbaycan Respublikasının Mərkəzi Bankı Azərbaycan Respublikasın ın qanunu"nun 6-cı maddəsinə görə "Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş funksiya və səlahiyyətlərini həyata keçirərkən Mərkəzi Bank müstəqildir və bu zaman hər hansı dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər onun fəaliyyətinə hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhdudiyyət qoya bilməz, qanuna zidd təsir və müdaxilə edə bilməz."

Mərkəzi Bankın notları - Mərkəzi Bank tərəfindən bir ilədək müddətinə buraxılan adlı sənədsiz dövlət güzəştli qiymətli kağızlarıdır. Qısamüddətli notlar dövriyyədə olan pül kütləsinin tənzimlənməsi üçün nəzərdə tutulmuş pul siyasəti vasitəsidir.

Monetar şərait indeksi - Monetar şərait indeksi pul siyasətinin əməliyyat hədəflərində orta çəkili dəyişməni ifadə edir. Əməliyyat hədəfləri kimi bir qayda olaraq qısamüddətli faiz dərəcəsi və məzənnə götürülür. MŞİ aşağıdakı düstur vasitəsilə qiymətləndirilir: Burada, və – müvafiq olaraq, hesabat və baza dövründə real faiz dərəcəsi; və – müvafiq olaraq, hesabat və baza dövründə mübadilə məzənnəsi; və – müvafiq olaraq, real faiz dərəcəsi və valyuta məzənnəsi üzrə normallaşdırılmış xüsusi çəkidir.

Monetizasiya - İqtisadiyyatın pulla təminatı səviyyəsini xarakterizə edən göstəriciləri özündə ehtiva edir. Məsələn, pul kütləsinin ÜDM-də xüsusi çəkisi iqtisadiyyatın monetizasiya səviyyəsinin göstəricisidir.

Nominal effektiv məzənnə - (NEM) indeksi Əsas iqtisadi tərəfdaş ölkələrin valyutalarına nəzərən manatın ikitərəfli nominal məzənnələrinin dəyişiminin çəkili ortasını əks etdirir.

Pul aqreqatları - Bir-biri ilə likvidlik səviyyəsinə görə, başqa sözlə nağd pul vəsaitinə daha tez çevrilə bilmə imkanlarına görə fərqlənən pul vəsaitlərinin növləri, ölkədə pul kütləsinin struktur göstəriciləridir. Müxtəlif ölkələrdə pul aqreqatları və onların tərkibi fərqlənir. AR-da M0, M1, M2 və M3 aqreqatlarından istifadə olunur: M0=ödəniş vəsaiti kimi ani istifadə olunan pul kütləsinin ən likvid hissəsi. Dövriyyədə olan banknot və sikkələr. M1=M0+tələb olunanadək əmanət və depozitlər; M2=M1+müddətli əmanət və depozitlər; M3=M2+sərbəst dönərli valyutada əmanət və depozitlər.

Pul bazası- Pul kütləsinin Mərkəzi Bank tərəfindən qısa müddət ərzində dəyişdirilə bilən hissəsi nəzərdə tutulur. Pul bazasının tərkibinə dövriyyədə olan nağd pul və bank ehtiyatları (kommersiya banklarının Mərkəzi Bankdakı müxbir hesablarının qalıqları) daxildir.

Pul kütləsi- Pul kütləsi dövriyyədə olan nağd və qeyri-nağd ödəniş vasitələrinin məcmusudur. Maliyyə bazarları inkişaf etdikcə pul kütləsinə daxil edilən aktivlərin sayı artır. Müasir dövrdə likvidliyin müəyyən minimal həddini özündə təcəssüm etdirən maliyyə aktivləri pul kütləsinə daxil edilir. Likvidlik prinsipindən əlavə adətən pul kütləsinə maliyyə aktivlərinin elə bir qrupu aid edilir ki, o pul siyasətinin hədəfi olmağa yararlı olsun. Azərbaycan praktikasında pul kütləsinin 3 növü fərqləndirilir: a) dar mənada pul kütləsi (M1), b) manatla geniş mənada pul kütləsi (M2), c) geniş mənada pul kütləsi (M3).

Pul icmalı - Ölkənin maliyyə sektoru ilə digər sektorlar arasında olan pul münasibətlərini əks etdirən göstəricilər sistemidir. Pul icmalı ölkənin Mərkəzi Bankının və kommersiya banklarının analitik balanslarının birləşdirilməsi əsasında formalaşır. Analitik balanslar ölkənin Mərkəzi Bankının aylıq mühasibat balansının və kredit təşkilatlarının icmal mühasibat balansının göstəricilərinin analitik qruplaşdırılması vasitəsilə hesablanır.

Pul kütləsinin hədəflənməsi -Mərkəzi Bank tərəfindən pul kütləsinin həcminin tənzimlənməsini nəzərdə tutan pul siyasəti rejimidir. Bu zaman Mərkəzi Bankın fəaliyyəti pul kütləsinin dəyişimi üzrə hədəfə nail olunmasına yönəldilir.

Pul multiplikatoru - İqtisadiyyatın, xüsusilə də bank sisteminin pul yaratmaq qabiliyyətini xarakterizə edir və geniş mənada pul kütləsinin (M2) manatla pul bazasına nisbəti kimi hesablanır.

Pul siyasəti - Pul siyasəti əsasən qiymətlərin sabitliyinin təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər sistemidir. Mərkəzi Bank valyuta məzənnəsi, pul kütləsi və faiz dərəcələrini tənzimləmək vasitəsilə inflyasiya proseslərinə təsir göstərir. Azərbaycanda pul siyasəti Mərkəzi Bank tərəfindən həyata keçirilir və onun son məqsədi öz səlahiyyətləri çərçivəsində qiymətlərin sabitliyini təmin etməkdən ibarətdir.

Pul siyasəti alətləri - Mərkəzi Bankın qarşısına qoyduğu hədəflərə nail olmaq üçün istifadə etdiyi iqtisadi dəyişənlərdir. Pul siyasəti alətləri birbaşa və dolayı alətlərə bölünür. Birbaşa alətlərə missal olaraq faiz dərəcələri üzərində nəzarət, kreditləşmə dəhlizi, birbaşa və ya məqsədli kreditlərin verilməsini göstərmək olar. Dolayı alətlərə misal olaraq açıq bazar əməliyyatlarını göstərmək olar.

Pul siyasəti alətlərinin avtonomiyası Mərkəzi Bankın qarşıya qoyulmuş məqsədlərə nail olması üçün pul siyasəti alətlərini sərbəst şəkildə seçməsidir. Yəni kənar orqanlar pul siyasəti alətlərinin tətbiqində Mərkəzi Bankın işinə müdaxilə etməməlidirlər.

Pul Siyasəti Rejimi - Son və aralıq hədəfləri arasındakı kombinasiyadan, həyata keçirilməsi mexanizmlərindən asılı olaraq təsnifləşdirilən pul siyasəti formalarıdır. Pul Siyasəti Rejimləri bir çox hallarda əsas hədəfə nail olmaq üçün aralıq və son hədəflər üzrə dəqiq və ya orientir kəmiyyət göstəriciləri, pul siyasəti çərçivəsində həyata keçirilməsi planlaşdırılan tədbirlər sistemi əks etdirilir. Pul siyasətinin pul kütləsinin hədəflənməsi, məzənnənin hədəflənməsi, inflyasiyanın birbaşa hədəflənməsi kimi rejimləri bir-birindən fərqləndirilir.

Pul siyasətinin transmissiyası - Mərkəzi Bank tərəfindən qəbul edilən pul siyasəti qərarlarının iqtisadiyyata ötürülməsini prosesidir. Müasir dövrdə pul siyasətinin faiz dərəcələri, kreditlərin verilməsi, valyuta məzənnəsi, inflyasiya gözləntiləri kimi transmissiya kanalları mövcuddur. Pul siyasəti qərarları real iqtisadiyyata bu kanallar vasitəsilə dərhal deyil, müəyyən zaman intervalından (laqdan) sonra təsir göstərir.

Pulun dövretmə sürəti - Nağd və nağdsız pul nişanlarının hərəkətinin intensivliyini xarakterizə edən göstərici.

Real effektiv məzənnə - (REM) indeksi. Manatın ticarət partnyoru olan ölkələrin valyutalarına nəzərən ikitərəfli nominal məzənnələrinin dəyişiminin ticarət xüsusi çəkiləri və həmin ölkələrdə inflyasiya nəzərə alınmaqla həndəsi ortasını əks etdirir.

REPO - Mərkəzi Bank (və ya bir kommersiya bankı) tərəfindən qiymətli kağızların digər banka sonradan geri almaq şərti ilə satışıdır.

Revalvasiya Milli valyutanın məzənnəsinin xarici valyutaya nəzərən bahalaşması prosesidir.

Sərt pul siyasəti İnflyasiyanın azaldılmasına və iqtisadiyyatda hərarətlə-nmənin azaldılmasına yönəldilmiş pul siyasəti tədbiridir. Bu zaman Mərkəzi Bank özünün faiz dərəcələrini artırır ki, bu da iqtisadiyyatda həm əmanətlər, həm də kreditlər üzrə faiz dərəcələrinə artırıcı təsir göstərir.

Son instansiya kreditoru Əsasən bankların maliyyə vəziyyətinin sağlamlaşdırılması məqsədilə kommersiya banklarının tələbləri əsasında Mərkəzi Bank tərəfindən verilən kreditlərdir. Sonuncu instansiya kreditlərinin şərtləri bir qayda olaraq Mərkəzi Bank tərəfindən müəyyən olunur.

Sterilizasiya əməliyyatları Artmış pul kütləsinin inflyasya potensiala malik izafi hissəsinin dövriyyədən çıxarılmasına yönəldilmiş əməliyyatlara Mərkəzi Bankın sterilizasiya əməliyyatları deyilir. Bununla belə xarici valyuta bazarında revalvasiya təhlükəsi yaradan artıq təklifin alınması əməliyyatlarını xarakterizə etmək üçün də sterilizasiya terminindən istifadə edilir.

SVOP (məzənnə SVOP-u) Məzənnə riskindən sığortalanmaq məqsədilə müəyyən müddətdən sonra yenidən əksinə mübadilə edilməsi şərtilə milli valyutanın xarici valyutaya mübadilə edilməsi.

Tədiyə Balansı Tədiyə balansı ölkənin beynəlxalq iqtisadi əlaqələrinin mədaxil və məxaric formasında valyuta ilə ifadə olunmuş dəyəridir. Başqa sözlə, tədiyə balansı beynəlxalq iqtisadi əməliyyatların həyata keçirilməsi nəticəsində milli iqtisadiyyata daxil olan və xaricə çıxarılan valyuta vəsaitləri arasında nisbəti müəyyən edir. Başqa sözlə, tədiyə balansı ölkə rezidentlərinin müəyyən dövr ərzində qeyri-rezidentlərlə apardığı iqtisadi əməliyyatların məcmusunu əks etdirən statistik hesabat sistemidir. İnstitusional vahidin rezidentlik statusu onun hər hansı bir ölkənin iqtisadi ərazisini öz iqtisadi maraqlarının mərkəzi seçməsi və bu əraziyə sıx bağlılığı ilə müəyyən edilir. Tədiyə balansi 4 hissədən ibarətdir: 1. Cari Əməliyyatlar balansı; 2. Kapitalın və maliyyənin hərəkəti balansı; 3. Ehtiyat aktivlərin dəyişməsi və 4. Balanslaşdırıcı maddələr.

Xalis daxili aktivlər - Bank sisteminin mərkəzi hökumət, rezident maliyyə təşkilatları və dövlət idarəetmə orqanları ilə apardığı aktiv-passiv əməliyyatlarının saldosudur. O cümlədən bank sisteminin ev təsərrüfatları, müəssisə və təşkilatlarla apardığı kredit əməliyyatları xalis daxili aktivlər bölməsində öz əksini tapır.

Xalis xarici aktivlər - (kommersiya bankları üzrə) Kommersiya bankları tərəfindən qeyri-rezidentlərlə xarici valyutada, manatla və qiymətli metallarla aparılmış aktiv-passiv əməliyyatların saldosudur.

Yenidən maliyyələşdirmə əməliyyatları Mərkəzi Bank tərəfindən kommersiya banklarının likvidlik ehtiyaclarının ödənilməsi məqsədilə müəyyən edilmiş qaydalara uyğun şəkildə kreditlərin verilməsidir.

Yumşaq pul siyasəti- Yumşaq pul siyasəti dedikdə əsasən resessiyanın qarşısının alınması və iqtisadi aktivliyin artırılması məqsədilə həyata keçirilən pul siyasəti nəzərdə tutulur. Bu zaman məsələn Mərkəzi Bank özünün faiz dərəcələrini aşağı salır ki, bu da həm əmanətlər, həm də kreditlər üzrə faiz dərəcələrinə azaldıcı təsir edir.

XARİCİ ÖLKƏLƏRİN MƏRKƏZİ BANKLARININ MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

ABŞ FEDERAL EHTİYAT SISTEMİ

Federal Ehtiyat Sistemi ABŞ-ın mərkəzi bank sistemidir. Federal Ehtiyat Sistemi ABŞ tarixində sayca üçüncü mərkəzi bank sistemidir. Daha əvvəl Birləşmiş Ştatların Birinci Bankı (1791-1811) və Birləşmiş Ştatların İkinci Bankı (1816-1836) valyutanın dövriyyəyə buraxılması, kommersiya kreditlərinin verilməsi, depozitlərin qəbul edilməsi və qiymətli kağızların buraxılması kimi fəaliyyət xidmətləri göstərməklə yanaşı çox sayda filiallara malik olmuş və ABŞ Xəzinədarlığının maliyyə agenti olaraq fəaliyyət göstərmişdir.

1907-ci ildə Konqres bank işi və valyuta islahatlarının öyrənilməsi üçün respublikaçıların Senatdakı lideri Nelson Aldriçin rəhbərlik edəcəyi Milli Monetar Komissiya yaratmışdır. Amerikanın mövcud monetar sistemi və Avropanın mərkəzi bank sistemi öyrənilmiş və nəticədə "Aldriç Planı" hazırlanmışdır. 23 dekabr 1913-cü il tarixində Aldriç Planı "Federal Ehtiyat Planı" olaraq təsdiqlənmişdir. Federal Ehtiyat Sistemi 16 noyabr 1914-cü ildə fəaliyyətə başlamışdır.

I Dünya Müharibəsi zamanı müharibə istiqrazlarının verilməsi ilə məşğul olan Federal Ehtiyat Sistemi, 1933-cü ildə Franklin Ruzveltin hakimiyyətə gəlməsi ilə subordinasiyalı İcraçı Filial statusu almış və yalnız 1951-ci ildə öz müstəqilliyini əldə etmişdir. Həmin tarixdən bu günədək müxtəlif siyasi yanaşmalar qəbul etməsinə baxmayaraq, Federal Ehtiyat Sisteminin səlahiyyətlərində əhəmiyyətli dəyişiklik olmamışdır.

Hal-hazırda Federal ehtiyat sistemi aşağıdakı funksiyaları yerinə yetirir:

1. tam məşğulluğun və qiymət stabilliyinin əldə edilməsi məqsədilə pul və kredit dövriyyəsinə təsir göstərmək yolu ilə milli monetar siyasəti idarə edir;
2. bank və maliyyə sistemlərinin möhkəmliyinin və təhlükəsizliyinin təmin edilməsi məqsədilə bank müəssisələrinə nəzarət edir və onların fəaliyyətini tənzimləyir;
3. maliyyə sisteminin stabilliyini saxlayır və maliyyə bazarlarındakı riski azaldır;
4. ABŞ hökumətinə, ictimaiyyətə, maliyyə müəssisələrinə maliyyə xidmətləri göstərir, milli hesablaşma sisteminin idarəetməsində də mühüm rol oynayır.

Federal Ehtiyat Sisteminin təşkilati strukturu aşağıdakılardan ibarətdir:

♦ Federal Ehtiyat Direktorlar Şurası – müstəqil federal hökumət təşkilatıdır. 7 üzvdən ibarət Direktorlar Şurasının hər biri üzvü Prezident tərəfindən təyin olunaraq Senat tərəfindən təsdiqlənsə də, əsas etibarilə müstəqil şəkildə fəaliyyət göstərir. Fəaliyyət müddəti 14 il olan hər bir üzv, o müddət ərzində prezident tərəfindən vəzifəsindən kənarlaşdırıla bilər. Şura Nümayəndələr Palatasının Spikerinə illik fəaliyyətlə bağlı hesabat verir. Ölkənin monetar siyasətin yaradılması öhdəliyi daşıyan Şura, həmçinin Federal Ehtiyat Banklarının və ümumilikdə ABŞ bank sisteminin fəaliyyətlərinə nəzarət edərək tənzimləyir.

♦ Federal Açıq Bazar Komitəsi – qısamüddətli fəaliyyət hədəfləri qoyaraq monetar siyasətini müəyyən edir. Bundan əlavə, xarici valyuta bazarına müdaxilənin ABŞ Xəzinədarlığı tərəfindən koordinasiya edilməsinə baxmayaraq, Komitə Federal Ehtiyat Sistemi tərəfindən xarici valyuta bazarlarında həyata keçirilən əməliyyatların yönəldilməsi ilə məşğuldur. Komitənin 12 üzvündən 7-si Direktorlar Şurasının üzvü, 5-i isə regional Federal Ehtiyat Banklarının nümayəndələridir. İkinci ərazi olan Nyu Yorkdan başqa digər regional Banklardan olan nümayəndələr növbəli qaydada 2-3 illik müddətə seçilir.

♦ Federal Ehtiyat Bankları – özəl korporasiyaların və dövlət federal təşkilatların bir sıra xüsusiyyətlərini özündə cəmləyir. Üzv bankların hər biri özünün regional Federal Ehtiyat Bankında müzakirə olunmayan səhm payına malik olsa da, bu pay ona Federal Ehtiyat Banklarının fəaliyyətinə yalnız məhdud nəzarət verir və Federal Ehtiyat Bankının nizamnaməsi qanun əsasında təsis olunur və onun üzv banklar tərəfindən dəyişdirilməsi mümkün deyil. Hazırda 12 Federal Ehtiyat Bankı mövcuddur.

KANADA BANKI

Kanadanın mərkəzi bankı olan Kanada Bankı 1934-cü ildə Kanada Bankı haqqında Qanunun qəbul olunması ilə təsis olunmuşdur. Bankın yaranma məqsədi "Kanadanın iqtisadi və maliyyə rifahının dəstəklənməsidir.

Uzun illər Kanadanın mərkəzi bankı olmamış və bank sistemi Kanada Banklar Assosiasiyası tərəfindən tənzimlənmişdir. Kanada Bankı 1934-cü ildə qəbul edilmiş "Kanada Bankı haqqında Qanuna əsasən yaradılmışdır. 1938-ci ildə Qanuna dəyişiklik olunmuş və Kanada Bankı milliləşdirilərək Krallığın korporasiyası olaraq fəaliyyətə başlamıışdır. Kanada Bankı günümüzdə də dövlətin bankı kimi fəaliyyət göstərir.

Bank yaradıldıqdan sonra pulların buraxılması hüququ Dövlət Maliyyə Departamentindən alınaraq Kanada Bankına verilmiş və özəl banklardan öz valyutalarını dövriyyədən çıxarmaları tələb olunmuşdur.

İkinci Dünya Müharibəsi dövründə Kanadanın müharibədə iştirakını maliyyələşdirən Kanada Bankı müharibədən sonra fəaliyyətini genişləndirərək Kanadanın iqtisadi inkişafını dəstəkləmək üçün səlahiyyətləndirilmişdir. Kanada biznesinə investisiya qoyuluşunu stimullaşdırmaq üçün törəmə Sənaye İnkişaf Bankı təsis olunmuşdur. Bankın monetar siyasəti inflyasiyanın azaldılmasından daha çox faiz dərəcələrinin aşağı salınması və işsizliyin aradan qaldırılmasına yönəlmişdi. 1960-cı illərdə inflyasiyanın artmağa başladığını görən Ceyms Koyn (Kanada Bankının Sədri) pul təchizatının azaldılması tapşırığını vermişdir. Bununla razılaşmayan Baş Nazir Con Difenbeyker işsizliyin aradan qaldırılması strategiyasına keçid tapşırığını vermişdir. Kanada Bankı siyasi nəzarətdə olmayan dövlət təşkilatı olaraq tanındığından bu hadisə

qısa böhranın (“Koyn Böhranı”) baş verməsinə səbəb olmuşdur. Nəticədə Bankın Sədri istefaya getmişdir.

Ölkənin mərkəzi bankı kimi Kanada Bankının 5 əsas vəzifəsi var:

1. Monetar siyasətinin həyata keçirilməsi (inflyasiya göstəricisinin tənzimlənməsi);
2. Pulların buraxılışı;
3. Təhlükəsiz, şəffaf və səmərəli maliyyə sisteminin təşkili;
4. Vəsaitlərin idarə edilməsi;
5. İnsani, maliyyə, informasiya, texnologiya və fiziki mənbələrin sağlam idarə edilməsinə dəstək verən korporativ inzibatçılığın həyata keçirilməsi.

Kanada Bankının ali idarəetmə orqanı Direktorlar Şurasıdır. Bankın Sədri və 4 sədr müavini federal hökumət tərərfindən deyil, Kabinetlə məsləhətləşməklə Bankın Direktorlar Şurası tərəfindən seçilir. Maliyyə Nazirinin müavini İdarə heyətinin üzvü olsa da, onun səs hüququ yoxdur. Bankın hesabatları Kanadanın Ümumi Auditorları tərəfindən deyil, Maliyyə Nazirliyi ilə məsləhətləşərək, Kabinet tərəfindən təyin edilmiş xarici auditorlar tərəfindən yoxlanılır. Bankda 16 departament fəaliyyət göstərir.

1991-ci ilin fevralında Kanada Bankı inflyasiya səviyyəsinin targetləşdirilməsinə keçid barədə elan etdi. Qərara alındı ki, inflyasiyanın məqsədli göstəricisi mərkəzi bankın və hökumətin birgə qərarı ilə təyin ediləcək və müəyyənləşdiricələk. Göstəricinin əsasını istehlak qiymətlərinin indeksi təşkil edirdi. İstehlak qiymətlərinin indeksi qida məhsullarını, enerjini və dolayı vergiləri nəzərdə tutmurdu. Məqsədi parametrin intervalları aşağıdakılar idi:

* 1991-ci il: 3-5%;
* 1992-ci il: 2-4%;
* 1994-cü ilin iyunu: 1,5-3,5%
* 1995-2001-ci illər: 1-3%.

İnflyasiya səviyyəsinin targetləşdirilməsi bir sıra üstünlüklərə malikdir. O, valyuta targetləşdirilməsindən fərqli olaraq, pul targetləşdirilməsi ilə yanaşı diqqətin milli maraqlarda mərkəzləşməsinə imkan verir və xarici təsirlərə meylliliyi azaldır. Mübadilə kursunun məqsədli göstəricisinin rejimi kimi, şəffafdır. İnflyasiyanın məqsədli səviyyəsi pul aqreqatları ilə müqayisədə əhali üçün daha anlaşılandır. Pul aqreqatları isə dəyişən meyarlara daha sərt əlaqədə olmalıdır.

Kanada Bankı daima ÜDM ölçülərində dəyişmələrin azaldılması və məşğulluğun artırılması üzrə tədbirləri həyata keçirir. Ölkə stabil ÜDM siyasətini və inflyasiyanın ortamüddətli göstəricilərinin azalmasından uzunmüddətli göstəricilərə tədrici keçid siyasətini yürüdür. Ümumilikdə, inflyasiya səviyyəsinin targetləşdirmə siyasəti monetar hakimiyyəti daha uzaqgörən olmağa və cari vəziyyətdə təmərküzlə birlikdə taktiki yox, strateji məqsədləri reallaşdırmağa vadar etdi.

YAPONİYA BANKI

Yaponiya Bankı ölkənin mərkəzi bankıdır. Bank administrativ təşkilat deyil, səhmdar cəmiyyəti kimi fəaliyyət göstərir. Bankın səhmlərin 55%-i dövlətə məxsusdur.

Bank yarandıqdan öncə yapon feodalları öz şəxsi pul əskinazlarının çap edirdi və nəticədə bu denominasiyaya səbəb olurdu. Bunu aradan qaldırmaq üçün 1871-ci ildə Yeni Pul Nişani Qanunu qəbul edildi və vahid pul – Yen milli valyuta kimi qəbul edildi. Lakin pul çap etmək hüququ hələ də feodallarda qalmaqda idi.

1882-ci ildə Yaponiya Bankı yaradıldı və 1885-ci ildən əskinazlar çap etməyə başladı. Hazırda bank 1942-ci ildə qəbul edilmiş qanun əsasında fəaliyyət göstərir. Bu qanun Bankı hökumətin sərt nəzarəti altında saxlayırdı və Yaponiyanın Maliyyə Nazirliyinə Bankın siyasətini dəyişdirmək imkanı verirdi. 1998-ci il aprelin 1-dən Yaponiya Mərkəzi Bankı haqqında yeni qanun qəbul edilmişdir. Bu qanuna əsasən Bank Maliyyə Nazirliyindən müstəqillik qazandı.

1988-ci il aprelin 1-də Yaponiya Bankı haqqında yeni qanun qüvvəyə mindi. Bu qanuna görə, bank Maliyyə nazirliyindən asılı deyildi. Yaponiya Bankı öz statusuna görə, inzibati orqan yox, səhmdar şirkətdir. Onun kapitalının 55%-i hökumətə, 45%-i maliyyə institutlarına, sığorta şirkətlərinə və digər şəxsi səhmdarlara məxsusdur. Səhmdarlara 4%-lik ölçüdə dividentlərin verilməsi təmin edilir. Bank tərəfindən yüksək mənffətin əldə edildiyi halda bu dividendlər 5%-ə qədər artırıla bilər. Qalan mənfəət dövlət büdcəsinə toplanır.

Yaponiya Bankının rəhbər orqanı Siyasi şuranın funksiyaları və strukturu bir qədər dəyişmişdir. 1998-ci 1 aprelindən 1-dən başlayaraq, Siyasi şura doqquz üzvdən ibarətdir. Bunlar təyin olunan altı şura üzvü, bankın sədri və onun iki müavinidir. Şuradan başqa, Bank idarəsinə üç icraçı auditor, üç icraçı direktor və səkkiz məsləhətçi daxildir.

Siyasi şuranın öhdəliklərinə aşağıdakılar daxildir:

- faizin uçot dərəcəsinin, digər faiz dərəcələrinin, veksellərin diskont edilmə şərtlərinin və tiplərinin müəyyənləşdirilməsi;
- borclar üzrə faiz dərəcəsinin müəyyənləşdirilməsi;
- məcburi bank ehtiyatları normalarının müəyyənləşdirilməsi və ya ləğv edilməsi;
- pul bazarına nəzarətin strateji xəttinin müəyyənləşdirilməsi. Tətbiq olunan nəzarət tədbirləri: əsasən açıq bazarda aparılan əməliyyatlar, istiqraz və veksellərin alqısı və satqısı;
- Yaponiya Bankının valyuta nəzarəti və pul bazarına nəzarət məsələləri üzrə rəsmi mövqeyinin dəyişilməsi barədə qanunun qəbul edilməsi;
- satış obyektlərinin müəyyənləşdirilməsi və maliyyə bazarlarında satışın həyata keçirilmə müddəti barədə qərarın qəbul edilməsi;
- şöbələrin, ofislərin, agentliklərin və Bankın birgə daxili struktur obyektlərinin yaradılması, köçürülməsi və ləğv edilməsi.

Yaponiya bankı mərkəzi bank kimi aşağıdakı funksiyaları yerinə yetirir.

Banknotların buraxılması. Mərkəzi bank ölkədə pulları çap etmək hüququna malik olan yeganə bankdır. Mərkəzi bank hələ 1889-cu ildə fidusiar banknot emissiya hüququna sahib olmuşdur. Ölkədəki pulların miqdarı ÜDM-dən daha sürətlə artır.

Yaponiya Bankı bankların iflasının qarşısını alır və kredit sisteminin stabilliyinə təhlükə olan banklara böhrandan çıxmaqda kömək edir.

Yaponiya Bankı dövlət qiymətli kağızları ilə əməliyyatlar aparır, həmçinin xəzinə fondlarını qəbul edir, qoruyub saxlayır və ödəyir (vergilər, təqaüdlər, ictimai işlərlə bağlı vəsaitlər və başqaları).

Yaponiya Bankı beynəlxalq fəaliyyəti həyata keçirir.

- xarici ölkələrin dövlət institutlarına və mərkəzi banklarına ien hesabları təqdim edir;
- BVF-na, Qiymətli kağızların Beynəlxalq bankına və digər beynəlxalq təşkilatlara kreditlər açır və vaxtını uzadır;
- ien kursunun arzuedilməz dəyişmələri zamanı beynəlxalq valyuta bazarlarında Yaponiyanın Maliyyə nazirliyinin agenti qismində valyuta intervensiyalarını həyata keçirir;
- digər ölkələrin mərkəzi bankları və beynəlxalq maliyyə təşkilatları üçün xarici dövlətlərin valyutasını alı rvə satır, beynəlxalq maliyyə təşkilatlarına kömək və kooperasiya məqsədi daşıyır;
- bu və ya digər ölkələrin iqtisadiyyatlarının cari vəziyyəti ilə bağlı məsələlər üzrə məsləhətləşmələr aparır, vəziyyətin proqnozlaşdırılmasını həyata keçirir, birgə nəzəri araşdırmalar və statistik tədqiqatlar təşkil edir.

Yaponiya Bankı ölkə bazarlarının maliyyə vəziyyətinin və iqtisadi mövqeyinin proqnozlaşdırılması və başa düşülməsi üçün zəruri olan nəzəri tədqiqatları və iqtisadi təhlili həyata keçirir.

AVROPA MƏRKƏZİ BANKI

1995-ci ilin dekabrında Avropa Şurasının Madriddəki iclasında Avronun tətbiqi proqramı qəbul olunmuş və elə həmin şuranın 1996-cı ilin dekabrında Dublindəki iclasında bu proqram inkişaf etdirilmiş və konkretləşdirilmişdir. Bu proqram və icraedici orqan – AB Komissiyası səviyyəsində qəbul edilmiş digər qərarlar iştirakçı ölkələr üçün iqtisadi və monetar ittifaqın təkamül prosesinin meyarlarını, o cümlədən vahid valyutanın tətbiqinin müddət və prinsiplərini nəzərdə tuturdu. Avronun tətbiqini nəzərdə tutan ölkələrin uyğunlaşmalı olacağı iqtisadi konvergensiya meyarları xüsusi maraq doğurur.

Avropa Birliyi ölkələrinin iqtisadi konvergensiyasının meyarları

Meyarlar	Hüdud qiyməti
Dövlət büdcəsinin kəsiri	ÜDM-in 3%-dən çox olmayaraq
Dövlət borcu	ÜDM-in 60%-dən çox olmayaraq
Qiymətlərin illik artımı	AB-nin bu mənada daha əlverişli olan üç ölkəsində inflyasiyanın orta səviyyəsindən yuxarıda 1,5%-dən çox olmayaraq
Uzunmüddətli faiz dərəcəsinin orta ölçüsü	Elə həmin üç ölkədə bu faiz dərəcələrinin orta səviyyəsindən 2%-dən çox olmayaraq
Qarşılıqlı valyuta kurslarının dəyişmə hüdudları	+/-15%

Avronun fəaliyyəti dövründə göstərilən meyarlara riayət olunması məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu. Belə ki, hədsiz büdcə kəsirinə yol vermiş ölkə (ÜDM-in 3%-dən çox) birinci ildə AB komissiyasının xüsusi hesabına öz ÜDM-nin 0,2%-i ölçüsündə depozit üstəgəl müəyyənləşdirilmiş limiti aşan kəsirin hər faizinə 0,1% köçürməlidir. Əgər bu vəziyyət ikinci ildə də qalmaqda davam edirsə, depozitin yalnız əlavə hissəsi ödənilir (ÜDM-in 0,5%-dən çox olmayaraq). Sonralar vəziyyət düzəlmirsə, depozit cərimələrə çevrilir və bu cərimələr «intizamlı» iştirakçıların sərəncamına verilir.

Avropa Birliyi ölkələrinin vahid pul sistemini tənzimləyən ilk maliyyə müəssisəsi Avropa valyuta institutu idi (AVİ). AVİ 1994-cü ildə yanvarın 1-də fəaliyyətə başlamışdır. Maastrixt müqaviləsinə uyğun şəkildə yaradılmış Avropa valyuta institutu Frankfurt-Mayndakı mənzil qərargahı ilə Avropa valyuta əməkdaşlıq fondunu əvəz etdi. AVİ-nin əsas vəzifələri aşağıdakılar idi:

- AB-yə üzv ölkələrin mərkəzi banklarının monetar siyasətlərinin koordinasiyası;
- Avropa valyuta sisteminin fəaliyyətinə nəzarət;
- Avropa mərkəzi banklar sisteminin təşkilinə və vahid valyutaya – avroya keçidə hazırlıq;
- ümumavropa hesablaşma sisteminin effektivliyinin yüksəldilməsi;
- mərkəzi bankların statistikasının unifikasiyası;
- bankların arzusu ilə rəsmi valyuta rezervləri ilə idarəetmə.

AVİ-nun inzibati orqanları aşağıdakılar idi: prezident, baş direktor, AVİ prezidentindən və AB-ə üzv ölkələrin mərkəzi bank müdirlərindən ibarət olan şura. Şura AB-nin Nazirlər Sovetinə və milli hökumətlərə təkliflər və tövsiyələr hazırlayırdı.

1998-ci ildə Avropa Mərkəzi Bankının təsisatı ilə Maastrixt müqaviləsinin maddələrinə uyğun olaraq AVİ ləğv edilmiş, onun bütün aktivləri və öhdəlikləri isə Avropa Mərkəzi Bankına keçmişdir. Elə həmin dövrdən də başlayaraq, Avropa Mərkəzi Bankının rəhbərliyi ilə Avropa Mərkəzi Banklar sistemi (AMBS) yaradılmış və Avropa Birliyinə üzv olan 15 ölkənin mərkəzi bankları bu sistemə daxil olmuşdur. Beləliklə, bu sistem qismən ABŞ-ın Federal rezerv sisteminə – Nyu-York bankının başçılığı ilə 12 bankı əhatə edən və mərkəzi bank rolunu yerinə yetirən Federal rezerv sisteminə oxşardır.

AMBS-nin funksiyaları istənilən digər mərkəzi bankın funksiyaları kimidir. Lakin bu funksiyalar bir dövlətə deyil, ölkələr qrupuna tətbiq olunur. Onlar aşağıdakılardır:

- Avropa Birliyinin monetar siyasətinin müəyyənləşdirilməsi və həyata keçirilməsi;
- valyuta əməliyyatlarının idarəetməsi;
- AB-yə üzv ölkələrin rəsmi valyuta ehtiyatlarının saxlanması və idarə edilməsi (bu halda valyuta ehtiyatlarının müəyyən hissəsi – «cari balanslar» – iştirakçı ölkə hökumətlərinin sərəncamında qalır);
- ödəniş sisteminin normal fəaliyyətinin təmin edilməsi.

Bundan başqa, Avropa Mərkəzi Bankı (öz səlahiyyətləri çərçivəsində) məsləhətçi funksiyaları yerinə yetirir, statistik məlumatları toplayır və əsasən də beynəlxalq əməkdaşlıqda iştirak edir, xüsusi halda, AB-ni beynəlxalq maliyyə təşkilatlarında təmsil edir. Maraqlıdır ki, AMB-nin razılığı və istəyi ilə bu təşkilatların işində Milli Mərkəzi Banklar da iştirak edə bilər.

AMB-nin əsas funksional vəzifəsi Avropa Birliyinin vahid monetar siyasətinin həyata keçirilməsidir. Bu vəzifə birlik ölkələrində qiymətlərin stabilliyinin təmin edilməsinə istiqamətlənmişdir. Avropa Mərkəzi Bankı inflyasiya məqsədi qismində «avro zonası» üçün İstehlak qiymətlərinin harmonizasiyalaşmış indeksindən (İQHİ) istifadə edir. Fərdi milli inflyasiya göstəriciləri «Avro zonasında» monetar siyasət üçün əhəmiyyət kəsb etmirlər. Məsələ bundadır ki, AMB valyuta zonasındakı qiymətlərin orta inkişafına yalnız bərabərləşdirilə bilir. İQHİ hər il 2%-dən çox olmayaraq arta bilir. Bununla da Avropa Mərkəzi Bankı İQHİ zənbilində-ki məhsulların keyfiyyətinin yüksəlməsi səbəbindən qiymət artımının qaçılmazlığını mümkün hesab edir və bununla da real qiymət artımının yüksəlmə effektinə gətirib çıxarır.

Pul kütləsinin ölçüsündən başqa, monetar siyasətin digər yönəldiciləri də və eyni zamanda potensial obyektləri mövcuddur: qısamüddətli faiz dərəcələri və valyuta kursu. Bu iki göstəricidən başqa, real iqtisadi aktivliyin parametrləri, əmək haqları, qiymət və dəyər indeksləri, qiymətli kağızların dəyərləri və büdcə-vergi siyasətini də xarakterizə edən bəzi digərləri həmçinin indikatorlara aid edilə bilər.

Monetar siyasətin reallaşdırılması zamanı AMB üç əsas alətdən istifadə edir:

- açıq bazarda əməliyyatlar;
- sutkalıq borcların təqdim edilməsi («overnayt» kreditləri);
- minimal məcburi ehtiyat normativinin tənzimlənməsi.

Açıq bazardakı əməliyyatlar likvid vəsaitlərin tələb və təkliflərinin tənzimlənməsinə istiqamətlənmişdir. AMB-də açıq bazardakı əməliyyatların dörd növünü fərqləndirirlər.

- əsas yenidən maliyyələşdirilmə əməliyyatları bank sisteminə likvid vəsaitlərin qaytarılmaq şərti ilə verilməsi üzrə AMB-nin fəaliyyətini təmsil edir və bazar faiz dərəcələrinin dinamikasına təsir göstərir;
- uzunmüddətli maliyyələşdirmə əməliyyatları da həmçinin maliyyə sektoruna likvidliyin verilməsi üçün nəzərdə tutulmuşdur, lakin əsas əməliyyatlarla müqayisədə daha uzun müddəti əhatə edir. Bundan başqa, bu əməliyyatların həyata keçirilməsi zamanı AMB bazarın xəbərdar edilmə məqsədini və bazar faiz dərəcələrinin idarə edilmə məqsədini daşımır. Əksinə, artıq təşəkkül tapmış faiz dərəcələrindən istifadə edir;
- «dəqiq tənzimləmə» əməliyyatları zəruri hallarda aparılır. Onların məqsədi faiz dərəcələrinə bazar likvidliyi ölçüsündə gözlənilməz dəyişikliklərlə bağlı təsirlərin hamarlaşdırılması, aradan qaldırılmasıdır;
- struktur əməliyyatlar bank sisteminə nəzərən AMB-nin kifayət qədər uzun müddət üçün struktur mövqeyinin təshih edilməsi məqsədilə aparılır. Əməliyyatlar aktivlərin alışı üzrə qaytarılan və qəti sövdələşmələr yolu ilə, aktivlərin qəti satışı və AMB-nın borc sertifikatlarının buraxılması yolu ilə qeyri-müntəzəm şəkildə həyata keçirilir.

Sutkalıq borclar və depozitlər bazar iştirakçılarının ümumi vəziyyət barədə və AMB-nin kreditləri və depozitləri üzrə «overnayt» bazar dərəcələrinin yuxarı və aşağı hüdudlarının müəyyənləşdirilməsi yolu ilə monetar siyasətin istiqaməti barədə xəbərdar edilməsi mexanizmi vasitəsilə bazarda sutkalıq likvidliyin doldurulması və ya aradan qaldırılması üçün nəzərdə tutulmuşdur.

Avropa Birliyinin maliyyə –kredit sisteminin təkamülü

İllər	Hadisələr
1865-ci il	Latın monetar ittifaqının yaradılması
1873-1924	Skandinaviya monetar ittifaqının fəaliyyəti
1950	Avropa ödəniş ittifaqının yaradılması
1957	Roma müqaviləsinin imzalanması
1958	Birliyin vahid büdcəsi ilk dəfə olaraq tərtib edilmiş və icra olunmuşdur
1958-1968	Azad ticarət zonasının fəaliyyət göstərməsi
1965	Merqer müqaviləsinin qüvvəyə minməsi
1967 aprel	ƏDV-nin tutulması üzrə vahid Avropa sisteminə keçid barədə Birliyin Nazirlər Şurasının direktivi qəbul edilmişdir
1968-1978	Gömrük İttifaqının fəaliyyəti
1970	Verner planı təklif olundu
1970	AB-nin vahid büdcəsinin formalaşdırılması ilə bağlı yanaşmalar dəyişdirildi
1972	«Tuneldə ilan» valyuta rejimi fəaliyyət göstərməyə başladı
1977-ci il 17 may	ƏDV hissəsində ümumi millətlərarası qanunvericiliyin hazırlanmasında əsas yanaşmaları müəyyənləşdirən Birliyin Nazirlər Şurasının altıncı direktivi qəbul edildi
1978-ci il 18 dekabr	Ekyü tətbiq edildi
1979-cu il 13 mart	Avropa valyuta sistemi yaradıldı
1987-ci il fevral	Büdcə islahatı
1989	Delor komitəsinin məruzəsi
1993-cü il 1yanvar	ƏDV dərəcələrinin harmonizasiyası ilə bağlı qərarlar qəbul olundu
1993	Maastrixt müqaviləsinin qüvvəyə minməsi
1994	Avropa valyuta institutu yaradıldı
1998-ci il 1 yanvar-31dekabr	A fazası Avropa monetar ittifaqının formalaşdırılması: «avro zonası»nın iştirakçı ölkələrinin seçimi
1998	Avropa valyuta institutu əsasında Avropa mərkəzi bankı və Avropa mərkəzi banklar sistemi yaradıldı
1999-cu il 1yanvar	Ekyü qeyri-nağd avro ilə əvəzləndi
1999-cu il 1 yanvar – 2001-ci il 31 dekabr	B fazası Avropa monetar ittifaqının formalaşdırılması: qeyri-nağd avronun dövriyyəsi, qanunvericiliyin unifikasiyası
2002-ci il 1 yanvar – 30 iyun	C fazası Avropa monetar ittifaqının formalaşdırılması: «avro zonası»nın iştirakçı ölkələrinin milli valyutaları dövriyyədən çıxarılır və avro ilə əvəzlənir

AMB mərkəzi bankların Aropa sisteminin önündə durur və bura AB ölkələrinin 15 mərkəzi bankı daxil edilir. Avro zonasına daxil olmayan dövlətlərin mərkəzi bankları ABMB-nin xüsusi statuslu iştirakçıları hesab olunur: onlar yalnız avro zonası üçün qüvvədə olan qərarlara təsir etmək hüququna malik deyillər.

Bundan əlavə, avro zonasına daxil olmuş ölkələrin mərkəzi banklarından və AMB-dən ibarət olan Avrosistem (The Eurosystem) anlayışı tətbiq edilir. ABMB üç orqan vasitəsilə - İdarə Heyəti (Governing Council), ABMB İcraçı Şurası (Executive Board) və Ümumi Şura (General Council) ilə idarə olunur. İdarə Heyətinə AMB İcraçı Şurasının üzvləri və avro zonasına aid olan ölkələrin mərkəzi banklarının rəhbərləri daxildir. AMB-nin İdarə Heyəti yenidən seçilmək hüququ olmadan səkkizillik müddətə seçilir və onun üzvləri onları tövsiyə edən və seçən ölkə və hökumətlərdən asılı deyillər. ABMB İdarə Heyəti prezidentdən, vitse-prezidentdən və dörd nəfər digər üzvlərdən təşkil edilmişdir. İdarə Heyətindən fərqli olaraq Ümumi Şuraya prezident və vitse-prezident ilə bərabər AB ölkələrinin bütün mərkəzi banklarının rəhbərləri daxildir.

AMB-nin nizamnamə kapitalı 5 milyard avro ilə müəyyən olunmuşdur. Mərkəzi bankların orada payı onların ölkələrinin və AB əhalisinin ÜDM-də payı baxımından hesablanır. Bununla belə, avro zonası ölkələrinin mərkəzi bankları imzalanmış kapitalın 100%-ni, amma bu zonaya aid olmayan ölkələrin mərkəzi bankları isə 5%-ni ödəməlidirlər.

Avropa Mərkəzi Bankı AVİ çərçivəsində kredit-maliyyə siyasətinin həyata keçirilməsində əsas rol oynayır. Bununla belə, onun əsas vəzifəsi maliyyə vasitələrinə və avro zona ölkələrinin institutlarına dair tələblərin unifikasiyasından, o cümlədən, mərkəzi banklar tərəfindən kredit-maliyyə siyasətinin aparılması metodlarından ibarətdir. Xüsusi olaraq, ABİ yaradılmazdan əvvəl ayrı-ayrı dövlətlərin mərkəzi bankları iqtisadiyyatın müxtəlif maliyyə-kredit tənzimlənməsi mexanizmlərindən istifadə edirdilər.

Avropa Mərkəzi Bankı avro zonasında vahid kredit-maliyyə siyasətini həyata keçiririkən aşağıdakı vasitələrdən istifadə edir:

1). inflyasiya səviyyəsinə nəzarət ilə bağlı əsas pul aqreqatları üçün məqsədyönlü cari qiymətlərin müəyyən olunması nəzərdə tutulur.

2). İkincisi, əsas faiz dərəcələrinin, o cümlədən, onların bütün avro zonası üzrə yayılması müəyyən olunur. AMB bütün avro zonası ölkələri üçün vahid sayılan yenidən maliyyələşmə qiymətini müəyyən edir. Faiz dərəcələrinin xarakteri və dəyişilməsi həcmi onların həcmindən asılıdır.

3). Üçüncüsü, kommersiya bankları üçün, eləcə də, faiz mükafatına nisbətdə minimal ehtiyat tələbləri müəyyən olunur. İndi AVİ-nin bütün ölkələri təyin olunmuş vahid ehtiyat normasını (10%-ə qədər qiyməti qəbul etmək olar) və faiz mükafatı (14%) tətbiq etməlidirlər. Öhdəliklərin vahid siyahısı müəyyən edilmişdir və bunun üçün normativ, həmçinin vəsaitlərin ehtiyatda saxlanması müddətinə əməl edilməməsi üçün cərimə sanksiyaları tətbiq edilir. Bu vəzifələrdən biri kimi minimal ehtiyat tələblərinin müəyyən olunması AVİ ölkələrində faiz dərəcələri bərabərləşdirilməlidir.

4). daim fəaliyyətdə olan mexanizmlər adlanan avro pul bazarında likvidliyin tənzimlənməsi üzrə qısamüddətli əməliyyatların məcmusu müəyyən olunur. Onlar bütövlükdə AMB-nin kredit və depozit mexanizmlərinə bölünür. Beləliklə, depozit mexanizminə kredit institutlarının müvəqqəti əldə olan pul vəsaitlərinin bir günlük AMB-nin depozitlərinə (overnight depozitləri) yerləşdirilməsi aid edilir. Bu depozitlər üzrə müəyyən olunan dərəcə (norma) avro bazarının birgünlük banklararası kreditlərinin aşağı həddini təşkil edir və AMB faiz dərəcələri sistemində minimal baza dərəcəsi hesab olunur. Analoji olaraq kredit mexanizmlərinə Avrosistemin istənilən mərkəzi bankı tərəfindən birgünlük kreditlərin verilməsi aid edilr. Müvafiq faiz dərəcəsi birgünlük banklararası avro kreditləri bazar qiymətinin yüksək həddini müəyyən edir.

AMB AVİ mərkəzi banklarına birgünlük kreditlərin verilməsi formasını müstəqil seçmək hüququ vermişdir və girov (lombard) kreditləri və birbaşa birgünlük repo sövdələşmələri onların içərisində ən əsası hesab olunur.

Birgünlük kreditlər üzrə AMB tərəfindən müəyyən olunan və iki kateqoriyaya bölünən aktivlər girov kimi istifadə edilə bilər. Hər iki kateqoriyadan olan aktivlər üzrə kriteriyalar da həmçinin AMB tərəfindən müəyyən olunmuşdur. Kredit institutu özünün milli mərkəzi bankında yenidən maliyyələşmə kreditlərinin alınması zamanı bu kateqoriyalardan birindən olan aktivləri ABİ ərazisində hər hansı depozitara yerləşdirir. AMB girov qoyulmuş aktivlərin bazar qiymətindən asılı olaraq verilən kreditlərin həcmini, eləcə də, qeyd olunan bazar qiymətinin dəyiş-diyi halda, əlavə ödəmələrə dair normativləri müəyyən etmişdir.

5). açıq bazarda əməliyyatlar aparılır və bununla AVİ-də, bir qayda olaraq, yalnız qiymətli kağızlar bazarında aparılan əməliyyatlar deyil, mərkəzi bankların bazarda bərabər hüquqlu kontragentlər kimi çıxış etdiyi hər hansı sövdələşmə nəzərdə tutulur. Qeyd olunan əməliyyatlar arasında başlıca və uzunmüddətli yenidən maliyyələşmə vasitəsi, o cümlədən, ehtiyatla təşkil edilən və struktur əməliyyatlar daha çox əhəmiyyət kəsb edir. Əsas yenidən maliyyələşmə vasitəsinə əsasən kedit institutları arasında 14 gün müddətinə sabit faiz dərəcəsi üzrə həftəlik auk-sionların keçirilməsi tələb edilir. Uzunmüddətli yenidən maliyyələşmə vasitəsi əsas maliyyələşmə

vasitəsi ilə oxşardır, amma burada üçaylıq kreditlərlə aylıq auksion ticarətinin təşkil olunması tələb olunur.

Avrozonanın 13 üzv ölkəsinin monetar siyasətinin həyata keçirilməsindən cavabdeh olan Avropa Mərkəzi Bankı (AMB) dünyanın ən nüfuzlu mərkəzi banklardan biridir. Avropa İttifaqı institutları və üzv ölkələr tərəfindən hər hansı siyasi müdaxilə görməyən AMB Avropa İttifaqından ayrı büdcəyə malik olmaqla maliyyə müstəqilliyini də qoruyub saxlamaqdadır (iqtisadçıların ümumi konsensusa əsasən müstəqil mərkəzi bank makroiqtisadiyyatın siyasi məqsədlərlə manipulyasiyasının qarşısının alınması üçün ən yaxşı vasitədir). Hesabatlılıq məqsədilə AMB öz fəaliyyətinə dair hesabatlar hazırlamalı və illik hesabatını Avropa Parlamenti, Avropa Komissiyası, Avropa İttifaqı Şurası və Avropa Şurasına göndərməlidir.

Beləliklə, AMB Avrozona üzrə faiz dərəcələrini təyin etmək hüququna malikdir. AMB və Avropa Mərkəzi Banklar Sisteminin əsas məqsədi Avrozona daxilində qiymət sabitliyinin qorunmasıdır. Hazırkı hədəf inflyasiyanı 2%-ə yaxın həddə saxlamaqdır. AMB və Avropa Mərkəzi Banklar Sisteminin qarşısında duran əsas vəzifələr avrozona üzrə monetar siyasətin müəyyənləşdirilərək icra olunması, üzv ölkələrin iqtisadi siyasətlərinin dəstəklənməsi, xarici valyuta əməliyyatlarının idarə olunması və bank ödəniş sistemi üzrə əməliyyatların asan şəkildə həyata keçirilməsidir. Bundan əlavə, AMB Avro əskinazlarının buraxılması ilə bağlı sə-lahiyyətləndirmə hüququna malikdir. Üzv ölkələr Avro sikkələri buraxmaq hüququna malik olsa da, bunun üçün AMB tərəfindən əvvəlcədən səlahiyyətləndirilməlidir.

AMB-nin monetar funksiyalarına aşağıdakılar daxildir:

1. kredit təşkilatları, dövlət və digər bazar orqanları üçün hesabların yaradılması;
2. bazar və kredit əməliyyatlarının açılması;
3. səmərəli və möhkəm klirinq və ödəniş sisteminin yaradılması məqsədilə kredit təşkilatlarından minimal ehtiyat saxlamasının tələb edilməsi;
4. üçüncü qrup ölkələrin mərkəzi bankları, kredit təşkilatları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edilməsi.

AMB-nin strukturu (xüsusən siyasi müstəqillik baxımından) Almaniya Federal Bankına uyğun olaraq modelləşdirilmişdir. Bank Avropa və ölkələrin milli institutları ilə münasibətdə müstəqil fəaliyyət göstərir və ayrı büdcəsinin olması baxımından milli mərkəzi banklarla münasibətdə maliyyə müstəqilliyini saxlayır. AMB-nin aşağıda qeyd olunan idarəetmə orqanları həmçinin AMB-dən və Avropa İttifaqının bütün milli mərkəzi banklarından ibarət olan Avropa Mərkəzi Bankları Sistemini də ("Avrosistem" isə AMB-dən Avrozonanın milli mərkəzi banklarından ibarətdir) idarə edir:

♦ **Rəhbər Şura –** AMB-nin ali qərarverici orqanıdır. O, Avronu qəbul edən milli mərkəzi bankların idarə heyəti üzvləri və sədrlərindən ibarətdir. Şura Avropa Mərkəzi Banklar Sisteminin monetar siyasəti, faiz dərəcələri və ehtiyatları ilə bağlı qərarların qəbul edilməsi, bundan əlavə əskinazların buraxılması və qanunvericiliyin ilkin formaları ilə bağlı digər institutlara məsləhət xidməti göstərilməsindən cavabdehdir. İl ərzində ən azı 10 dəfə toplanan Şuranın toplantılarında üzvlər, Şura Prezidenti və Komissiya Prezidenti iştirak edir. Hər üzvü bir səs hüququna malik olduğu (Şura və Komissiya Prezidentləri səs vermir) səsvermə nəticəsində qərarlar çoxluq prinsipi əsasında verilir;

♦ **İdarə Heyəti** – Rəhbər Şura tərəfindən müəyyən olunan monetar siyasətin icrası və bankın gündəlik fəaliyyətindən cavabdehdir. Heyət Prezident, vitse-prezident və dörd başqa üzvdən ibarətdir. Onların hamısı avrozona hökumətlərinin ümumi razılığı əsasında 8 illik (yenilənməyən) müddətə seçilir. Yazılmayan qanuna görə 2005-ci ildən etibarən qeyd olunan altı vəzifədən dördü Fransa, Almaniya, İtaliya və İspaniya mərkəzi bankları üçün saxlanılır;

♦ **Ümumi Şura** – Avronun qəbul edilməsi ilə bağlı keçid dövrü qarşıya çıxan məsələlərlə məşğuldur (daha əvvəl Avropa Monetar İnstitutunun gördüyü işlər). Bütün dövlətlərin qəbul edilməsinədək mövcudluğunu davam etdirəcəkdir. Prezident, vitse-prezident və Avropa İttifaqının bütün milli mərkəzi banklarının sədrlərindən ibarətdir.

ALMANİYA FEDERAL BANKI

Özünün gücü və əvvəlki böyüklüyü baxımından Avropa Mərkəzi Banklar Sisteminin ən çox təsiredici gücə malik üzvü olan Federal Bank, tam müstəqllik əldə edən ilk mərkəzi bankdır. Federal Bankın XX əsrin 2-ci yarısında inflyasiyanı nəzarətdə saxlaması, Alman markının ən nüfuzlu valyutalardan biri olması və Federal Bankın bir çox Avropa ölkələri üzərində əsaslı olan dolayı təsiretmə gücünə malik olması ilə nəticələnmişdir.

İkinci Dünya Müharibəsindən sonra Federal Bankın tarixi alman valyutasının tarixi ilə əlaqəlidir. Hərbi alyans hökuməti tərəfindən aparılan valyuta islahatları nəticəsində 21 iyun 1948-ci il tarixində alman markı reyxmarkla əvəz olunmuşdur. Qərb Qüvvələri ələ keçirilmiş ərazilərdə federal strukturu baxımından ABŞ Federal Ehtiyat Sisteminə uyğun formada modelləşdirilmiş ikipilləli mərkəzi bank sistemini təsis etmişdir. O, Qərbi Almaniyanın işğal altındakı ərazilərindəki ştatların (*Länder*) mərkəzi bankları və *Bank Doyçe Länder*-dən ibarət idi. Mərkəzi bankın hökumətin sifarişləri əsasında fəaliyyət göstərməsi ilə bağlı neqativ təcrübənin yaranması səbəbindən, müstəqil mərkəzi bank prinsipi meydana gəldi və *Bank Doyçe Länder* 1951-ci ildən etibarən müstəqil fəaliyyət göstərdi.

1949-cü ildə qəbul olunan "Əsas Qanun" (müvəqqəti konstitusiya) Federal hökumət qanunvericiliyinin qarşısında valyutanın buraxılmasına cavabdeh olacaq federal bankın təsis olunması öhdəliyini qoymuşdur. Qanunvericiliyin bu öhdəliyi yerinə yetirilərək 1957-ci ildə Federal Bank haqqında Qanunu qəbul edilmişdir ki, bunun nəticəsində mərkəzi bank sisteminin ikipilləli strukturu ləğv olunmuşdur. *Länder*in mərkəzi bankları öz müstəqilliklərini itirərək Federal Bankın regional ofislərinə çevrilmişlər ("ştat mərkəzi bankı" adını saxlamalarına baxmayaraq).

Berlin Divarının dağıdılmasından sonra 18 may 1990-cı il tarixində anlaşmasının imzalanması ilə hər iki alman respublikasının iqtisadi, sosial və valyuta ittifaqının yaranması nəticəsində alman frankı vahid valyutaya çevrilmişdir. 1992-ci ildə Federal Bank haqqında Qanunda dəyişikliklərin edilməsi nəticəsində *Länder*in 11 mərkəzi bankı və Müvəqqəti İnzibati Orqan oxşar iqtisadi ölçülərə malik 9 mərkəzi bank ilə əvəz olunmuşdur.

1993-cü ildə imzalanan Maaştrixt Sazişi nəticəsində Avropa İqtisadi və Valyuta İttifaqı yaranmışdır. Monetar siyasətlə bağlı cavabdehlik Avropa Mərkəzi Bankı və Avropa İttifaqı dövlətlərinin milli mərkəzi banklarından ibarət olan Avropa Mərkəzi Banklar Sisteminə ötürülmüşdür. 2001-ci ildən etibarən Avropa Mərkəzi Bankı valyuta üzərində tam nəzarəti ələ keçirmişdir. 2002-ci ildə Federal Bank haqqında Qanunda aparılan düzəlişlər nəticəsində Federal Bankın strukturu hazırkı vəziyyətə gətirilmişdir.

Federal Bankın Avropa Mərkəzi Bankı ilə birgə idarə olunan 4 fəaliyyət sahəsi aşağıdakılardır:

1. Pul buraxan bank olaraq – iqtisadiyyatın nağd pulla təmin edilməsi və nağd pulun fiziki dövriyyəsinin təşkili;
2. Bankların bankı olaraq – kommersiya bankları sistemi ilə əlaqadər olaraq iki funksiyası var: kommersiya bankları üçün Klirinq Palatası və Bank nəzarəti;
3. Dövlətin bankı olaraq – Federal, Ştat və Yerli hakimiyyət orqanlarını və eləcə də qanunla təsis olunmuş sosial təhlükəsizlik təşkilarını hesabla təmin edir və onlar üçün adi bank əməliyyatlarını yerinə yetirir;
4. Valyuta ehtiyatlarını saxlayan orqan olaraq – valyuta ehtiyatları Federal Bankın qızıl ehtiyatları, xarici valyutada olan qiymətli kağızlar, xarici banklarda saxlanılan kredit, xarici valyuta və s. daxil olmaqla avroda ifadə olunmayan bütün aktivləridir.

Federal Bank 9 regional ofis, *Länderin* keçmiş mərkəzi bankları və 66 filialdan ibarətdir. Federal Bankın ali idarəetmə orqanı olan İdarə Heyətinin tərkibi aşağıdakı kimidir:

♦ Almaniya hökuməti tərəfindən namizədliyi irəli sürülən prezident, vitse-prezident və İdarə Heyətinin 2 əlavə üzvü;

♦ İdarə Heyətinin Bundesrat tərəfindən namizədliyi irəli sürülən 4 əlavə üzvü.

Alman Federal Bankının funksiyalarının reallaşdırılması üçün tənzimlənmənin aşağıdakı alətlərindən istifadə olunur:

• uçot və ya diskont siyasəti;

- açıq bazarda siyaəst;
- məcburi ehtiyatlar siyasəti.

Pul – kredit sisteminin fəaliyyətinə nəzarəti «Bundesbank»dan başqa,

İNGILTƏRƏ BANKI

Britaniya Krallığının Mərkəzi Bankı olan İngiltərə Bankı dünyada ən qədim mərkəzi bank hesab edilir. Dövlət tərəfindən özəllişdirilən İngiltərə Bankı ən müasir və iri mərkəzi bankların əsaslandığı modeldir.

Tarixi: İngiltərə Bankı 1694-ci ildə şotlandiyalı bankir Vilyam Paterson tərəfindən yaradılmışdır. 1781-ci ildə Bank haqqında Qanuna düzəlişlər olundu və İngiltərə Bankı bankların bankı kimi fəaliyyət göstərirdi.

İngiltərə Bankı 1920-cu ildən kommersiya fəaliyyini azaltmağa başladı və 1944-cu ildə artıq yalnız mərkəzi bank funksiyalarını yetirməyə başladı. 1946-cı ildə Bank dövlət tərəfindən millliləşdirildi. 1997-ci ildə Banka monetar siyasətdə tam müstəqillik verildi.

İngiltərə Bankı mərkəzi bankın bütün funksiyalarını icra edir. Onlardan ən vacibi iqtisadi inkişafın artımı məqsədilə qiymətlərin sabitliyi və hökumətin iqtisadi siyasətinə dəstəyin göstərilməsidir. İngiltərə Bankı öz fəaliyyətini üç prioritet **məqsəddən** çıxış edərək həyata keçirir:

♦ **Monetar siyasətin sabitliyi** –milli valyutanın (funt sterlinqin) kursunun sabitliiyini və alıcılıq qabilliyətini təmin etmək. Bu vəzifəni Bank əsasən faiz dərəcəsinin dəyişdirilməsi yolu ilə həyata keçirir. Faiz dərəcəsi Bankın Monetar Siyasət Komitəsi tərəfindən müəyyən edilir. Həmçinin Bank iqtisadiyyatı nağd pulla təmin etmək və nağd pulun fiziki dövriyyəsini təşkil etmək funksiyasına malikdir. Bank İngiltərə və Uelsdə əskinazların çap olunması üzrə inhisar hüququna malikdir. Şotlandiya bankları (*The Royal Bank of Scotland, The Bank of Scotland və The Clydesdale Bank*) və Şimali İrlandiya bankları (*Bank of İreland, First Trust Bank, Nothern Bank və Ulster Bank*) öz əskinazlarını buraxmaq hüququnu saxlayırlar, lakin bu əskinazların buxarılması İngiltərə Bankında birə-bir depozit ilə təyin edilməlidir.

♦ **Maliyyə sabitliyin dəstəklənilməsi** – burada maliyyə sistemi üçün təhlükələrin aradan qaldırılması nəzərdə tutur. Bu təhlükərlər bankın analitik xidmət və digər nəzarət orqanları tərəfindən müəyyən edilir. Bu təhllükələrin aradan qaldırılması üçün Bank daxili və xarici bazarlarda maliyyə əməliyyatlarını aparır. İngiltərənin maliyyə sektorunun sabitliyinin təmin edilməsi məqsədlə Bank bir necə dövlət maliyyə qurumu, o cümlədən İngiltərə Xəzinədarlığı və Maliyyə Xidmətləri Təşkilati ilə əməkdaşlıq edir.

♦ ölkə daxilində və beynəlxalq aləmdə maliyyə sisteminin effektivliyinin və rəqabətədavamlılığının təmin edilməsi və yüksəldilməsi.

Bank Direktorlar Şurası tərəfindən idarə olunur. Şura Sədr, iki sədr müavini və 16 üzvdən ibarətdir. Vəzifələrə təyinat Parlament tərəfindən təsdiq olunduqdan sonra Kraliçanın fərmanı əsasında həyata keçirilir. Sədr və onun müavinləri 5 il müddətinə, Şuranın üzvləri isə 3 il müddətinə təyin edilirlər. Onlar yenidən seçilmək imkanına malikdirlər. Direktorlar Şurası ən azı ayda bir dəfə görüş keçirməlidir. Direktorlar Şurasının səlahiyyətlərinə İngiltərə Bankının pul-kredit siyasətindən başqa bütün idarəedilmə məsələləri aiddir. Pul-kredit siyasəti Monetar Siyasət Komitəsinin səlahiyyətindədir. Komitənin rəhbəri İngiltərə Bankının İdarə Heyətinin Sədridir. Komitə rəsmi faiz dərəcələrini müəyyən edən yeganə dövlət qurumudur.

Böyük Britaniyanın pul siyasətinin əsas məqsədi qiymət stabililyinin əldə edilməsidir. Qiymətlərin optimal səviyyəsinin saxlanması indiki zamanda iki istiqamətə malikdir: İnflyasiya səviyyəsinin 2,5% və daha az olması, monetar siyasətin daha açıq (sərbəst) rejimi. İngiltərənin pul siyasətinin mühüm aləti faiz dərəcələrinin səviyyəsinin tənzimlənməsidir.

Monetar siyasətin alətlərindən biri İngiltərə Bankının açıq bazardakı əməliyyatlarıdır. O ilk dəfə XX əsrdə 30-cu illərin əvvəllərində tətbiq olunmağa başlamış və İngiltərə Bankının uçot dərəcələrinin payını tədriclə azaltmışdır.

FRANSA BANKI

Fransanın mərkəzi bankı olan Fransa Bankının əsas vəzifəsi Avropa Mərkəzi Banklar Sisteminin (AMBS) valyuta siyasətini tətbiq etməkdir. AMBS-nin qurumu olan Fransa Bankı mərkəzi bank sisteminin fəaliyyət öhdəliklərini Avropa Mərkəzi Bankı ilə bölüşür. Fransa Mərkəzi Bankı daxili iqtisadi siyasətin aparılmasında məsulliyəti Malliyyə Nazirliyi ilə bölüşür.

Avropanın ən qədim mərkəzi banklarından biri olan Fransa Bankı 1800-ci ildə Napoleon Bonapart tərəfindən təsis edilmişdir. 1803-cü ildə Banka təqdim edilmiş və 1806-cı ildə təsdiq olunmuş emissiya hüququ 1945-ci ilə qədər dörd dəfə təzələnmişdir. Doqquz əyalət emissiya bankının udulmasından sonra 1848-ci ildən başlayaraq Fransa Bankı ölkənin bütün ərazisində inhisarçı emissiya hüququnu əldə etdi.

Bankın əsas vəzifəsi endirimli kommersiya istiqrazlarının mübadiləsi məqsədilə banknotların çap olunması idi. 1808-ci ildən 1936-cı ilə qədər olan dövr ərzində Fransa Bankı əskinazların buraxılması ilə məşğul olmuşdur XIX əsrin ikinci yarısından etibarən Fransa Bankı özünün filial şəbəkəsini sürətlə genişləndirmişdir. 1936-cı ildə Xalq Cəbhəsi Partiyasının seçkilərdə qalib gəlməsi nəticəsində Fransa Bankının milliləşdirilməsinə qərar verilmişdir. 1973-cü ildən etibarən Bankın statusuna dair islahatlara başlanmış və müvafiq işlərin həyata keçirilməsi məqsədilə Ümumi Şura yaradılmışdır. 4 avqust 1993-cü il tarixində qəbul edilmiş Fransa Bankı haqqında Qanun onun müstəqilliyinə zəmin hazırlamış oldu. 1998-ci il tarixində Avropa Mərkəzi Banklar Sisteminə daxil olan Fransa Bankının əsas vəzifəsi bu sisteminin fəaliyyətləri çərçivəsində vahid monetar siyasətin həyata keçirilməsidir.

Fransa Bankının əsas funksiyaları aşağıdakılardır:

- Avropa Mərkəzi Banklar sistemi çərçivəsində birgə monetar siyasətin həyata keçirilməsi;
- Bank sisteminin və investisiya təşkilatlarının idarə olunması və onlara nəzarət edilməsi. Bu məqsədlə Bankda Bankçılıq və Maliyyə Tənzimlənməsi Komitəsi, Bankçılıq Komissiyası, Kredit və qiymətli Kağızlar üzrə Milli Şura;
- Pul əskinazlarının çap edilməsi;.
- Ödəniş və hesablaşmalar sistemlərinin fasiləsiz işinin təmin edilməsi.

Fransa Bankının tətbiq etdiyi targetinq siyasəti bir neçə elementdən ibarətdir: 1. İnflyasiyanın konkret göstəricilərinin əldə edilməsi üzrə ortamüddətli deklarasiya; 2. İnflyasiyanın məqsədli parametrlərinin ölkə inkişafının uzunmüddətli konsepsiyasına daxil edilməsi; 3. İnflyasiyanın optimal səviyyəsinin əldə edilməsi üzrə ümumi strategiyada aralıq göstəricilərin, məsələn, pul kütləsi artımının rolunun azalması; 4. Uzunmüddətli monetal siyasətin şəffaflığı, cari vəzifələrin və planların aşkarlığı; 5. İnflyasiyanın məqsədli səviyyələrinin əldə edilməsi üçün mərkəzi bankın hesabat verməsi.

Fransa Bankının Sədr və iki sədr müavini Nazirlər Şurası tərəfindən 6 il müddətinə seçilirlər. Sədr həmçinin bütün departament rəhbərlərinin daxil olduğu İcra Komitəsinində və baş rəhbəlik vəzifələrinə təyinata baxan Peşəkarlıq Komitəsi başçılıq edir. Həmçinin o Avropa Mərkəzi Bankının İdarəetmə Şurasının üzvüdür. Bankın Sədri Ümumi Şuranın başçısıdır. Monetar Siyasət Komitəsi Sədr, iki müavini və Senat və Milli Assambleyanın Bankın Ali Şurasına daxil olan üzvlərdən ibarətdir. Komitə monetar siyasətin inkşaf etdirilməsi və bu sahədə bankın fəaliyyətinin Avropa Mərkəzi Banklar Sisteminə uyğunlaşdırılması ilə məşğuldur.

İTALİYA BANKI

İtaliya Bankı İtaliyanın mərkəzi bankı və Avropa Mərkəzi Banklar Sisteminin tərkib hissəsidir.

İtaliya banklarının yenidən təşkilatlanmasının nəticəsi olaraq 1893-cü ildə İtaliya Bankı yaradılmışdır. İtaliya 1926-ci ildən əskinazların buraxılması ilə məşğul olan tək insitutut olmaqla dövlət səviyyəsində əhəmiyyətli status aldı və ona bank nəzarəti funksiyaları verildi. Bu funksiyalar 1936-cı ildə Bank Qanunun qəbul olunması ilə genişləndirildi və gücləndirildi. Bu qanunla İtaliya Bankı dövlətin hüquqi statuslu təşkilatı olaraq rəsmi şəkildə tanındı.

İtaliya Bankı tarixində həlledici keçidlərdən biri 1947-ci ildə lirənin stabilləşməsi olmuşdur. 1970-ci illərdə beynəlxalq monetar sistemin və lirənin şokunun ardınca İtaliyada deflyasiyaya mərkəzi bankın müstəqilliyi üzrə güclü hüquqi təminatla yardım göstərilmişdir. Valyuta sabitliyinin yenidən təsis olunması və dövlət maliyyəsi ilə bağlı tənzimlənmənin başlanması İtaliyanın Maaştrixt Sazişi (1992) üzrə müəyyən olunan standartlara uyğunlaşmasına və 1999-cu ildə avronu özünün valyuta vahidi olaraq seçən qrupa daxil olmasına imkan yaratmışdır. Ölkə 2002-ci ildə avronun tədavülünə başlamışdır.

1999-cu ildə monetar və valyuta məzənnəsi siyasəti ilə bağlı cavabdehliyin Avropa Mərkəzi Bankına ötürülməsindən sonra İtaliya Bankı qərarların icrasını təmin edir, avronu buraxır və korlanmış əskinazları dövriyyədən çıxararaq məhv edir.

İtaliya Bankının Direktorlar Şurası Sədr, Baş Direktor və Baş Direktorun 3 müavinindən ibarətdir. Bankın təşkilati strukturu 7 kurasiya üzrə 28 departament, 4 katiblik və qrupdan ibarətdir.

İtaliya Bankı iqtisadiyyat və maliyyə sahəsində fəaliyyət göstərən çox sayda təşkilatların işində yaxından iştirak etməklə İtaliyanı təmsil edir. Xüsusən o, Beynəlxalq Hesablaşmalar Bankı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və bir sıra regional inkişaf bankları kimi təşkilatların, G7/G8, G10, G20 kimi qrupların, Maliyyə Sabitliyi Forumunun, Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının komitələrində fəal iştirak edir.

İtaliya Bankı yeni Aİ ölkələri, namizəd ölkələr, Qərbi Balkandan olan potensial namizəd ölkələr, Aralıq Dənizi ölkələri, Şərqi Avropa ölkələri və Cənubi Qafqaz ölkələrinin təşkilatlarına texniki əməkdaşlıq xidmətləri göstərməkdədir: beynəlxalq seminarlar; təcrübə mübadiləsi; və çoxtərəfli proqramlar.

AVSTRALİYA EHTİYAT BANKI

1911-ci ildə Birlik Bankının ilk qanununa uyğun olaraq Bank mərkəzi bank funksiyasını deyil, yalnız kommersiya və deposit əməliyyatlarını həyata keçirirdi. Həmin vaxtlar, notların buraxılması bankın funksiyasına aid deyildir. Həmin vaxtlar notların buraxılması ilə Avstraliya Xəzinədarlıq Departamenti məşğul idi. Notların buraxılması Avstraliya Birlik Bankının səlahiyyətlərinə 1924-cü ildə verilmişdir. 1924-cü ildən 1945-ci ilədək Bank özünün mərkəzi bankçılıq funksiyalarını genişləndirmişdir. 1945-ci ildə qanunvericilik daha da təkmilləşdirilmişdir. Yuxarıda qeyd etdiyimiz kimi 1959-cu ildə Avstraliya Birlik Bankının adı dəyişdirilmiş və 14 yanvar 1960-cı il tarixindən etibarən Avstraliya Ehtiyat Bankı olaraq fəaliyyət göstərməyə başlamışdır. Həmin tarixdən etibarən Bank mərkəzi bank funksiyalarını daha da genişləndirmişdir. 1998-ci ildən etibarən nəzarət funksiyası Avstraliya Birlik Bankının fəaliyyət funksiyalarından çıxarılaraq yeni yaradılmış və əsas etibarilə depozit qəbul edən təşkilatlara nəzarəti həyata keçirən Avstraliya Prudensialına Nəzarət Qurumuna verilmişdir.

Hazırda bankın əsas vəzifəsi monetar siyasətin həyata keçirilməsidir. Orta müddət ərzində aşağı və sabit inflyasiya göstəricisinə nail olunması məqsədilə monetar qərarlar Bankın İdarə Heyəti tərəfindən qəbul edilir. Digər əsas vəzifələrdən biri maliyyə sisteminin sabitliyini və ödəniş sisteminin şəffafflığı və təhlükəsizliyini təmin etməkdir. Avstraliya Birlik Bankı həmçinin, Avstraliyanın xarici ehtiyatlarını idarə edir və milli valyutanı buraxılması ilə məşğul olur.

Avstraliya Ehtiyat Bankının ali idarəetmə orqanı Direktorlar Şurasıdır. Şuranın strukturu 1951-ci ildən bugünədək dəyişməz qalır. Direktorlar Şurasının tərkibinə Sədr, sədr müavinləri, Audit Komitəsi və Notların Buraxılması Komitəsi daxildir. Şura ildə on bir dəfə (yanvar istisna olmaqla, hər ayın ilk çərşənbə axşamı) Sidneydə və bir dəfə Melburnda (ilin birinci yarısı) toplanır. Vaxtaşırı Avstraliyanın digər ştatlarının paytaxtlarında da toplantılar keçirilməkdədir.

Ümumildə Avstraliya Ehtiyat Bankında 19 departament fəaliyyət göstərir.

Avstraliya Ehtiyat Bankı beynəlxalq əməkdaşlıq fəaliyyətini aşağıda qeyd olunan istiqamətlərdə həyata keçirmişdir:

- Maliyyə Sabitliyi Forumu – Ehtiyat Bankı əsasən böhranın idarə olunması istiqamətində Forumun tövsiyələrini həyata keçirir.

- Beynəlxalq Hesablaşmalar Bankı (BHB) və əlaqədar komitələr – Sədrin köməkçisi Avstraliya Ehtiyat Bankını BHB-nin Dünya Maliyyə Sistemi Komitəsi və Bazarlar Komitəsində təmsil edir.
- G-20 – Avstraliya Ehtiyat Bankı G20-nin Dünya Kredit Bazarlarının Tənəzzülü üzrə Tədqiqat Qrupuna sədrlik edir.
- Beynəlxalq Valyuta Fondu (BVF) – Avstraliya Ehtiyat Bankı BVF-nin İcraçı Direktorunun Ofisində Avstraliya üzrə məsləhətçini müntəzəm olaraq dəstəkləyir.
- Şərqi Asiya və Sakit Oken Hövzəsi Ölkələrinin Mərkəzi Banklarının Rəhbərlərinin Toplantısı – Ehtiyat Bankı bu Forum vasitəsilə regionun mərkəzi bankları ilə əməkdaşlıq münasibətlərini inkişaf etdirmişdir.
- Hökumətlərarası Tərəfaşlıq Fondu – 2005-ci ildən etibarən Avstraliya Ehtiyat Bankı Avstraliyanın bu Fondu çərçivəsində İndoneziya Bankı ilə hərtərəfli potensialın yaradılması proqramı həyata keçirməkdədir.
- Sakit Okeanın Cənub Regionu Ölkələri üzrə Mərkəzi Banklar Əməkdaşlığı – Forum, illik toplantı və s. bu kimi tədbirlərlə bu sahədə əməkdaşlıq münasibətlərinin qurulmasına xüsusi diqqət ayrılmışdır.
- İkitərəfli əlaqələr və əməkdaşlıq – Avstraliya Ehtiyat Bankı Banqladeş, Çili, Çin Xalq Respublikası, Malayziya, Pakistan, Cənubi Afrika Respublikası, Cənubi Koreya, Tayland, Şərqi Timor, Tonqa, Vanuatu və Papua Yeni Qvineyanın mərkəzi bankları ilə sıx əməkdaşlıq münasibətlərinə malikdir.

İSVEÇRƏ MİLLİ BANKI

İsveçrə Milli Bankı (İMB) ölkənin mərkəzi bankı kimi fəaliyyət göstərir. İsveçrə Milli Bankının səhmlərinin 55 faizi kanton və kanton bankları kimi dövlət qurumları tərəfindən alınıb. Səhmlərin fond birjasında qalan hissəsi isə əsasən özəl sahibkarlar tərəfindən alınmışdır. İsveçrə Konfederasiyası səhm paketina sahib deyil.

Bankın xronoloji tarixi:

1905 – İMB haqqında Qanunun qüvvəyə minməsi;

1907 – İMB-nin fəaliyyətə başlaması;

1909 – İMB qısa-müddətli öhdəliklərlə depozit cəlb etməyə başlayır;

1910 – Pul çapına səlahiyyətli tək orqan olur;

1926 – İsveçrənin üzvü olduğu və pul vahidlərinin İsveçrədə istifadə olunduğu Latın Monetar İttifaqının fəaliyyətinə xitam verilir;

1934 – İsveçrə Klirinq Ofisinin açılması;

1945 – İMB-nin pul çapı səlahiyyətləri ilə bağlı qanunun yenilənməsi;

1950 – İsveçrənin daxil olduğu Avropa Ödənişləri Birliyi haqqında Anlaşma;

1960 – İsveçrənin daxil olduğu Avropa Azad Ticarət Assosisiyasının yaranması;

1975 – İMB tərəfindən kredit limitinin tam aradan qaldırılması;

1987 – İsveçrə Banklarası Klirinq adlanan elektron ödəniş sisteminin fəaliyyətə başlaması;

1989 – Avropa Valyuta Korporasiyası Fondu İMB-yə Avropa Valyuta Vahidinin "digər sahibi" statusunu təqdim etmişdir.

Bank Konstitusiya və qanun vasitəsilə ölkənin maraqlarına uyğun olaraq iş aparır. Bankın fəaliyyət məqsədləri aşağıdakılardır:

- Ölkənin monetar siyasətinin həyata keçirilməsi;
- Qiymətlərin sabitliyinin təmin edilməsi;
- Nağd pul dövriyyəsinin təşkili;
- Pul bazarının likvidliyinin təmin edilməsi;
- Nağdsız pul köçürmələrinin təşkili;
- Beynəlxalq ehtiyatların idarə edilməsi;
- Maliyyə sisteminin sabitləşdirlməsi;

- Beynəlxalq əməkdaşlıqda iştirak və texniki yardımın göstərilməsi.

İsveçrə Milli Bankının iki baş ofisi mövcuddur – Bern və Surix şəhərlərində. Bundan əlavə, Cenevrədə nağd pulun dövriyyəsini təmin edən nümayəndəliyi və regionlarda beş təmsilçi ərazi idarəsi mövcuddur. Həmçinin Bankın kantonlar üzrə 16 agentliyi mövcuddur.

Bankın baş idarəetmə orqanı İdarə Heyətidir. İdarə Heyətinin funksiyaları – monetar siyasət, sərmayə qoyuluşu strategiyası və monetar siyasət sahəsində beynəlxalq əməkdaşlıqdan ibarətdir. Idarə Heyəti 3 daimi üzv və 3 nümayəndədən ibarətdir. Onlar dövlətin Federal Şurası tərəfindən Bank Şurasının tövsiyəsi əsasında seçilirlər.

Bankın Baş Şurası nəzarət funksiyalarını həyata keçirir. Şura 11 üzvdən ibarətdir. 6 üzvü Şuranın Prezidenti və vitse-prezidenti daxil olmaqla Federal Şura tərəfindən seçilir. Digər 5 üzvü səhmdarların yığıncağında təyin olunurlar. Bankın Şurasıında 5 komitə fəaliyyət göstərir.

İsveçrə səmərəli və sabit beynəlxalq monetar sistemdən faydalanır. İsveçrə Milli Bankı müxtəlif beynəlxalq institut, təşkilat və qruplarda təmsil olunmaqla beynəlxalq monetar səviyyədə əməkdaşlıq edir və eyni zamanda Beynəlxalq Hesablaşmalar Bankının üzvüdür. Bundan əlavə, İsveçrə Milli Bankı Federal departamentlə birlikdə Beynəlxalq Valyuta Fondunda və Böyük Onluqda İsveçrəni təmsil edir.

İMB-nin beynəlxalq əməkdaşlığında texniki yardım sahəsi mühüm yer tutur. Bankın bu sahədə, xüsusilə monetar siyasət, nağd əməliyyatlar və ya ehtiyatların idarə edilməsi üzrə spesifik bacarıq və təcrübəsi vardır. Texniki yardımların köməyi ilə, İsveçrə Milli Bankı digər ölkələrin mərkəzi banklarına treyninq və seminarlar təşkil edir.

RUSİYA MƏRKƏZİ BANKI

Rusiya Federasiyasının mərkəzi bankı olan Rusiya Mərkəzi Bankı 13 iyul 1990-ci il tarixində yaransa da, Rusiya İmperiyası Dövlət Bankının xələfi hesab olunur. Sovet İttifaqı 1991-ci ildə süquta uğradıqdan sonra Rusiya Federasiyasının pul sistemi Mərkəzi Bank (Rusiya Bankı) haqqında Federal Qanuna uyğun olaraq fəaliyyət göstərir. Bu qanun pul sisteminin hüquqi əsaslarını müəyyən etmişdir:

1. Rusiya Federasiyasının rəsmi pul vahidi rubldur;
2. Rusiya Federasiyası ərazisində digər pul vahidlərinin tətbiqi qadağandır;
3. Rublun qızıla nisbəti qanunla müəyyən olunmamışdır;
4. Rublun xarici pul vahidlərinə nisbətən rəsmi kursu RF MB tərəfindən müəyyən olunur;
5. Rusiya Bankı Rusiya Federasiyası ərazisində nağd pulun emissiyasını həyata keçirmək, onun dövriyyəsini təşkil etmək və dövriyyədən çıxarmaq müstəsna hüququna malikdir;
6. Rusiya Bankının bütün aktivləri ilə təmin edilən banknotlar və metal sikkələr qanuni ödəmə qüvvəsinə malik olan pul növləridir;
7. kredit idarələri üçün nağd pulların saxlanma, daşınma və inkassasiya qaydalarının müəyyən edilməsi;
8. Banknot və sikkələrin nümunələri Rusiya Bankı tərəfindən təsdiq edilir;
9. Rusiya ərazisində nağd (banknotlar və sikkələr) və nağdsız (kredit idarələrində olan hesablardakı vəsaitlər şəklində) pullar fəaliyyət göstərir;
10. Nağd pullar emissiya icacəsi əsasında dövriyyəyə buraxılır. Emissiya icazəsi pul banknotları və sikkələrin ehtiyat fondları hesabına RF MB-yə dövriyyə kassasını qüvvətləndirmək hüququ verən sənəddir.

Rusiya Federasiyası Mərkəzi Bankının tarixi 1860-cı ildə çar Aleksandr II tərəfindən Dövlət Kommersiya Bankının yenidən qurulması əsasında Russiya Dövlət Bankını yaradılmasından başlayır. 27 dekabr 1917-ci ildə inqilab nəticəsində hakimiyyətə gələn sovet hökuməti "Kommersiya bankların milliyələşdirilməsi haqqında sərəncam" qəbul etmişdir. Bütün səhmdar kommersiya bankları milliləşdirilməklə Rusiya Dövlət Bankı ilə birləşərək RSFSR-in Milli Bankı yaradılmışdır.

1921-ci ildə RSFSR-in Dövlət Bankı, 1923-cü ildən isə SSRİ Dövlət Bankı kimi fəaliyyət göstərirdi. 13 iyul 1990-cı ildə SSRİ Dövlət Bankının Rusiya Respublika Bankı əsasında RSFSR Ali Şurasına hesabat verən RSFSR Dövlət Bankı yaradılmışdır. Bu Rusiya Mərkəzi Bankının yaradılma tarixi hesab edilir. 20 dekabr 1991-ci ildə SSRİ Dövlət Bankı ləğv olunaraq bütün aktiv və passivləri, həmçinin Rusiya ərazisində olan əmlakı RSFSR Mərkəzi Bankına verilmişdir. 1991-ci ildən adını dəyişərək Rusiya Federasiyasının Mərkəzi Bankı adı altında fəaliyyətini davam etdirməkdədir. 1991-1992-ci illərdə Rusiya Mərkəzi Bankın nəzarəti altında xüsusi bankların kommersiya filialları əsasında kommersiya bankları yaradılmışdır. Bank rubla qarşı valyuta mübadiləsini müəyyən edir və valyuta bazarını yaradaraq valyutanın alqı-satqısını aparmağa başlayır. 1992-ci ildə Mərkəzi Bank dövlət büdcəsinin kassa əməliyyatlarının aparılması funksiyasını yeni yaradılan Federal Xəzinədarlığa ötürülmüşdür. 1992-1995-ci illərdə Mərkəzi Bank kommersiya banklarının fəaliyyətinə nəzarət və yoxlama sistemi, valyuta tənzimlənməsi və nəzarəti sistemləri yaratmışdır. 1995-ci ildən başlayaraq Mərkəzi Bank birbaşa kreditlərin ayrılması yolu ilə dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsini və iqtisadiyyatın inkişafına mərkəzləşdirilmiş məqsədyönlü kreditlərin ayrılmasını dayandırmışdır.

Rusiya Bankı haqqında Qanunun 1-ci maddəsinə uyğun olaraq bu idarə Rusiya Federasiyasının əsas bankıdır və onun mülkiyyətindədir. Rusiya Bankının hüquqi statusunun öz xüsusiyyətləri var. Bu bank, bir tərəfindən, hüquqi şəxsdir və kommersiya bankları və dövlətlə (büdcə ilə) müəyyən mülki-hüquqi sövdələşmələr həyata keçirə bilər. Digər tərəfdən, ona Rusiyamn pul-kredit sisteminin idarə edilməsi sahəsində geniş səlahiyyət verilmişdir.

Rusiya Bankı haqqında Qanunun 3-cü maddəsinə uyğun olaraq bankın fəaliyyətinin əsas məqsədləri aşağıdakılardır:

1. rublun qorunması və sabitliyinin təmin edilməsi, o cümlədən xarici valyutalara münasibətdə rublun alıcılıq qabiliyyətinin saxlanılması;
2. RF-nin bank sisteminin inkişafı və möhkəmləndirilməsi;
3. hesablaşmalar sisteminin effektiv və fasıləsiz işləməsinin təmin edilməsi;
4. Rusiya Bankı mənfəət qazanmaq naminə fəaliyyət göstərmir.

Bu məqsədləri həyata keçirmək üçün Rusiya Bankı Qanunun 4-cü maddəsində əks olunmuş asağıdakı funksiyaları yerinə yetirir:

1. RF Hökuməti ilə qarşılıqlı fəaliyyət göstərərək rublun sabitliyinin qorunması və təmin edilməsinə yönəlmiş vahid dövlət pul-kredit siyasətini işləyib hazırlayır və həyata keçirir;
2. nağd pulların təkbaşına emissiyasını həyata keçirir və onların dövriyyəsini təşkil edir;
3. kredit təşkilatları üçün son instansiya kreditoru kimi çıxış edir;
4. RF-də hesablaşmaların həyata keçirilməsi qaydalarını müəyyən edir;
5. bank əməliyyatları, mühasibat uçotu və bank sistemi üçün hesabat işlərinin aparılması qaydalarını müəyyən edir;
6. kredit təşkilatlarının dövlət qeydiyyatını həyata keçirir;
7. kredit təşkilatlarının fəaliyyətinə nəzarət edir;
8. kredit təşkilatları tərəfindən qiymətli kağızların emissiyasını qeydə alır;
9. valyuta tənzimləməsini həyata keçirir;
10. xarici dövlətlərlə hesablaşmalar qaydasını müəyyən edir;
11. valyuta nəzarətini təşkil edir və həyata keçirir;
12. RF-nin tədiyyə balansı proqnozunun işlənib hazırlanmasında iştirak edir.

RF hökuməti RF MB ilə birlikdə iqtisadi siyasətin, o cümlədən pul və kredit siyasətinin əsas istiqamətlərini müəyyən edir. Mərkəzi Bank tərəfindən iqti-sadiyyatın pul-kredit tənzimlənməsi bazar iqtisadiyyatında qəbul edilmiş vasitələr yolu ilə həyata keçirilir: kommersiya banklarının kreditlər üzrə faiz dərəcələrinin, ehtiyat tələblərinin dəyişdirilməsi və açıq bazarda əməliyyatların aparılması. Mərkəzi Bank pul kütləsinin miqdarını və artım tempini tənzimləyir.

Rusiya Bankının idarəetmə orqanları və strukturu Qanunun 17-18-ci maddələrində əks olunmuşdur.

Rusiya Bankının ali orqanı Direktorlar Şurasıdır. Bu, Rusiya Bankının fəaliyyətinin əsas istiqamətlərini müəyyən edən, banka rəhbərlik və onu idarə edən kollegial orqandır.

Direktorlar Şurasına Rusiya Bankının sədri və Direktorlar Şurasının 12 üzvü daxildir.

Rusiya Bankının sədri vəzifəyə Dövlət Duması tərəfindən RF Prezidentinin təqdimatına əsasən səs çoxluğu ilə dörd il müddətinə təyin edilir.

Direktorlar Şurasının üzvləri vəzifəyə Dövlət Duması tərəfindən Rusiya Bankı sədrinin Rusiya Prezidenti ilə razılaşdırılmış təqdimatına əsasən dörd il müddətinə təyin edilir. Direktorlar Şurası aşağıdakı funksiyaları yerinə yetirir:

1. RF Hökuməti ilə birlikdə vahid dövlət pul-kredit siyasətinin əsas istiqamətlərini işləyib hazırlayır və onların yerinə yetirilməsini təmin edir;
2. Rusiya Bankının illik hesabatını təsdiq edir və Dumaya təqdim edir;
3. Rusiya Bankının xərclər smetasını təsdiq edir;
4. Rusiya Bankının strukturunu müəyyən edir;
5. Mərkəzi Bankın pul-kredit siyasəti məsələlərinə dair qərarlar qəbul edir;
6. Rusiya Bankının baş auditorunu təyin edir.

Rusiya Bankı Dövlət Duması qarşısında hesabat verir, bu, özünü aşağıdakı məqamlarda göstərir:

1. Rusiya Bankı sədrinin vəzifəyə təyin və vəzifədən azad edilməsi Dövlət Duması tərəfindən RF Prezidentinin təqdimatına əsasən həyata keçirilir;
2. Rusiya Bankı Direktorlar Şurası üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi də həmçinin Dövlət Duması tərəfindən həyata keçirilir;
3. hər il Rusiya Bankının Direktorlar Şurası Dövlət Dumasına Rusiya Bankının fəaliyyəti haqqında illik hesabat təqdim edir.

Bundan əlavə, Dövlət Duması Rusiya Bankının fəaliyyəti haqqında parlament dinləmələri keçirir və bank sədrinin məruzələrini dinləyir.

Lakin, digər məsələlərdə Rusiya Bankı öz səlahiyyətlərini müstəqil surətdə həyata keçirir, odur ki, dövlət hakimiyyətinin federal orqanları, RF subyektlərinin hakimiyyət orqanları və yerli özünüidarə orqanları onun fəaliyyətinə müdaxilə etmək hüququna malik deyil.

Rusiya Bankı bank tənzimləməsi və kredit təşkilatlarının fəaliyyətinə nəzarət orqanıdır, bu bank bank qanunvericiliyi və Rusiya Bankının normativ aktlarına kredit təşkilatları tərəfindən riayət edilməsinə nəzarət edir.

Bank tənzimləməsi və nəzarətin başlıca məqsədi ölkənin bank sisteminin sabitliyini qoruyub saxlamaqdan, əmanətçi və kreditorların maraqlarını müdafiə etməkdən ibarətdir. Rusiya Bankı federal qanunlarla nəzərdə tutulmuş hallar istisna edilməklə, kredit təşkilatlarının operativ fəaliyyətinə müdaxilə etmir.

TÜRKİYƏ CÜMHURİYYƏTİ MƏRKƏZ BANKASI

Osmanlı İmperiyası dövründə xəzinə əməliyyatları, pul və kredit köçürmələri, qızıl və xarici valyuta ilə ticarət, xəzinədarlıq, kreditorlar, müəssisə və təşkilatlar tərəfindən icra olunurdu. Osmanlı İmperiyasının xarici köçürmələrini həyata keçirmək üçün ilk dəfə 1847-ci ildə Osmanlı Hökuməti "Bank-ı Dersaadet"in yaradılmasına icazə vermişdir. 1856-cı ildə isə fransız və ingilis kapitalının iştirakı ilə Osmanlı Bankı yaradılmış və 1863-cü ildən etibarən isə mərkəzi bankın funksiyalarını həyata keçirməklə dövlət bankı statusunu almışdır.

Türkiyədə Mərkəzi Bankın qurulması cümhuriyyət dövrünə təsadüf edir. Osmanlılar dövründə bank və buna bənzər kredit təşkilatları az idi. Osmanlı Bankı Mərkəzi Bankın funksiyalarını yerinə yetirirdi. Banka Osmanlı imperiyası üçün banknot çıxarmaq və dövlətin xəzinə əməliyyatlarını aparmaq səlahiyyəti verilmişdir. Cümhuriyyətin qurulduğu ilk illərdə Osmanlı Bankının fəaliyyətinin uzadılması problemi ortaya çıxmışdır. Cümhuriyyətin idarəediciləri iqtisadi vəziyyətin yeni bank təsis etməyə imkan vermədiyi üçün, Osmanlı Bankının səlahiyyət müddəti 1935-ci ilə qədər uzadılmışdır. Yeni müqaviləyə hökumətin banknot ixrac edə biləcək dövlət bankı təsis etmək halında Osmanlı Bankının etiraz etmək haqqı olmayacağını bildirən bir qərar daxil edilmişdir. 1926-cı ildən etibarən Mərkəzi Bank təsis edilmə hazırlıqları başlanılmış, 11.6.1930-cu ildə 1715 saylı Q.S.M.V. qanunu qəbul edilmişdir. 3.10.1931-ci ildə

Mərkəzi Bank təsis edilmiş, 1.1.1932-ci ildən fəaliyyətə başlamışdır. 1715 saylı qanunda bankın əsas məqsədi "ölkənin iqtisadi inkişafına kömək etmək" olaraq müəyyən edilmişdir. Bu məqsədi həyata keçirmək üçün banka: Reeskont nisbətini müəyyən etmək və pul bazarını tənzimləmək; Xəzinə əməliyyatları aparmaq; və hökumətlə birlikdə türk pulunun dəyərinin qorunması üçün tədbirlər görmək vəzifələri verilmişdir.

Qüvvədə olduğu müddətdə 1715 saylı qanunda müxtəlif dəyişikliklər edilərək, günün tələblərinə uyğun olması təmin edilmişdir. Bu dəyişikliklər, daha çox xəzinəyə və KİT-lərə kreditlər verilməsinə müvafiq olaraq edilmişdir. Buna görə də bankın əsas işi, aktiv pul siyasəti aparmaqdan çox, dövlət sektorunun maliyyə kəsirlərini örtmək olmuşdur.

1715 saylı qanun, 26.1.1970-ci ilə qədər, yəni 1211 saylı qanun qəbul edilənədək - 40 il qüvvədə qalmışdır. Mərkəzi Bank qanunu 26.1.1970-ci il 1211 saylı qanun ilə dəyişdirilmişdir. Mərkəzi Bank haqqında 14 yanvar 1970-ci il tarixində qəbul olunmuş qanunda Mərkəzi bankın əsas məqsədi kimi qiymət sabitliyinə nail olunması və saxlanılması göstərilmişdir. 1211 saylı Qanun ilə Mərkəzi Bank günün iqtisadi tələblərinə uyğun olaraq yenidən təşkilatlandırılmış, vəzifə və səlahiyyətlər yenidən müəyyənləşmişdir. 1211 saylı qanuna görə bankın əsas vəzifələri aşağıdakılardır:

1) Pul və kredit siyasətini inkişaf planlarına və illik proqramlara uyğun şəkildə aparmaq;

2) Hökumətlə birlikdə milli pulun daxili və xarici dəyərini qorumaq məqsədilə tədbirlər görmək;

3) Milli pulun həcmini və tədavülünü tənzimləmək;

4) Banklara pul vermə əməliyyatlarını qanunla göstərilən sərhədlər daxilində həyata keçirmək.

1211 saylı qanun ilə Mərkəzi Bankına kredit əməliyyatlarında tətbiq edəcəyi reeskont, diskont və faiz nisbətlərini müəyyənləşdirmək, borc pul vermə, əmanət faizləri, disponibilite və qarşılıqlar mövzusunda yüksək planlama təşkilatı vasitəsilə Nazirlər Kabinetinə təklif vermə və tətbiq ediləjək pul siyasətinin inkişaf planları və illik proqramlara uyğunluğunu təmin etmə və bank sektorunun apardığı əməliyyatların bu qanunlara uyğunluğuna nəzarət etmək səlahiyyəti verilmişdir.

5.5.2001-ci ildə 4651 saylı Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı qanununda dəyişiklik edilməsinə dair qanun rəsmi qəzetdə yayınlanmışdır. Bu qanun ilə TCMB-nın əsas məqsədinin qiymət dayanıqlığını təmin etmək olduğu və bankın ölkənin siyasətinin müəyyən edilməsində və tətbiqində yeganə səlahiyyətli və məsuliyyətli orqan olduğu bildirilmişdir. Qanuna görə bankın əsas hədəfinə zidd olmamaq şərtilə bank hökumətin böyümə və məşğulluq siyasətlərini dəstəkləyə bilər. Bundan başqa bank əsas hədəf olan inflyasiyayla mübarizənin fəal olaraq aparılması məqsədilə inflyasiya hədəfini hökumətlə birlikdə müəyyən etməklə vəzifələndirilmişdir. Bank qiymət dayanıqlığını təmin etmə, inflyasiya ilə mübarizə aparmaq üçün müasir dövrdəki mərkəzi bankçılıqda istifadə edilən pul siyasəti vasitələrini müəyyənləşdirməli və istifadə etməlidir.

Yeni mərkəz bankı qanunu ilə edilən dəyişikliklərin əsasları aşağıdakılardır:

1. Vasitə müstəqilliyi. Müstəqillik ölçüsü olaraq, bankın əsas məqsədinin qiymət stabilliyini təmin etmək olduğu və bankın pul siyasətinin müəyyən edilməsində və tətbiqində yeganə məsuliyyətli və səlahiyyətli olduğu qanuniləşmişdir. Bank vasitə müstəqilliyi qazanarkən, inflyasiya hədəfini hökumətlə birlikdə müəyyən etmə vəzifəsi və səlahiyyətilə vəzifələndirilmişdir. Bankın hesab və əməliyyatlarının auditinin müstəqil audit təşkilatları tərəfindən aparılması yeni qanunda nəzərdə tutulmuşdur.

2. Pul siyasəti orqanı. Qiymət dayanıqlığının aktivliyinin təmin edilməsi məqsədilə dünya praktikası da nəzərə alınaraq pul siyasəti orqanı yaradılmışdır. Pul siyasəti orqanı sədrin rəhbərliyi altında sədr müavinləri, bank məclisinin üzvləri arasından seçiləcək nümayəndə və sədrin məsləhəti ilə müştərək qərarla seçilən nümayəndədən ibarətdir. Xəzinənin sədri və ya onun müavini səs vermə hüququ olmamaq şərtilə iştirak edirlər.

3. Dövlət sektoruna kredit verilməməsi. Xəzinə ilə dövlət orqanı və təşkilatlarına "avans verilməsi" və kredit verilməsi qadağan olunmuşdur. Bu baxımdan da əvəzi olmadan pul kəsilməsi də dayandırılmışdır.

4. Son borc vermə mərhələsi. Son kredit mərhələsi etibarilə ödəniş sistemində

çatışmamazlıqlara səbəb ola biləcək keçici likvidlik problemlərini və maliyyə bazarlarının fəal işləməsinə mane olacaq texniki mənbəli ödəniş problemlərini aradan qaldırmaq məqsədilə Mərkəzi Bankı "sistemə təminat qarşılığında" gün daxili və ya gün sonu kredit vermə imkanı təmin edilmişdir.

5. Maliyyə sistemi və ödəbiş sisteminin fəaliyyətinə nəzarət.

6. Vəzifə müddətləri və etibarlılığı. Bankın vəzifə müddətinə paralel olaraq müdir müavinlərinin vəzifə müddətləri 3 ildən 5 ilə qədər artırılmışdır. Bununla da vəzifələrin etibarlılığı və təhlükəsizliyinə zəmanət verilmişdir.

7. Məlumat toplama və risklərin cəmlənməsi. Bankın statistik məlumatların toplanmasında, dövlət təşkilatları, xəzinə müşavirliyi, Dövlət Statistika idarəsi, digər ölkələrin statistik məlumat toplamaqda məsul olan orqanları və beynəlxalq təşkilatlarla iş birliyi aparması mümkün olmuşdur.

Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı haqqında Qanuna uyğun olaraq Bankın fundamental vəzifələri aşağıdakılardır:

1. Açıq bazar əməliyyatlarının həyata keçirilməsi;
2. Türk Lirəsinin daxili və beynəlxalq dəyərinin qorunması məqsədilə zəruri tədbirlərin görülməsi və Türk Lirəsinin xarici valyutalara qarşı paritetinin müəyyənləşdirilməsi məqsədilə hökumətlə birlikdə valyuta siyasətinin həyata keçirilməsi;
3. Ölkənin qızıl və xarici valyuta ehtiyatlarının idarəedilməsi;
4. Türk Lirəsinin həcminin və tədavülünün tənzimlənməsi, ödəniş, qiymətli kağızların transferi və hesablaşmalar sisteminin yaradılması;
5. Maliyyə sistemində sabitliyin gücləndirilməsi, pul və xarici valyuta bazarlarına münasibətdə tədbirlərin görülməsi;
6. Maliyyə bazarlarının monitorinqinin aparılması;
7. Banklardakı depozitlərin şərtlərinin, növlərinin və xüsusi maliyyə qurumlarında iştirakla bağlı şərtlərin müəyyənləşdirilməsi.

Bankın fundamental səlahiyyətləri aşağıdakılardır:

1. Türkiyədə pulların tədavülə buraxılması;
2. Hökumətlə birgə inflyasiya hədəfini və buna uyğun olaraq monetar siyasətin müəyyənləşdirilməsi;
3. Fövqəladə hallarda Əmanətlərin Sığortalanması Fondunun resursları kifayət etmədikdə Fonda müəyyənləşdirəcəyi şərtlər və qaydalara uyğun olaraq Fonda avansın verilməsi;
4. Kommersiya banklarına kreditin verilməsi;
5. Maliyyə bazarlarının monitorinqini aparmaq məqsədilə banklardan, digər maliyyə institutlarından və həmçinin qeyd edilən institutların fəaliyyətini tənzimləmək və nəzarət etməkdə səlahiyyətli olan idarələrdən lazımi məlumatların tələb edilməsi və statistik informasiyanın toplanması.

Türkiyyə Cümhuriyyəti Mərkəzi Bankının Sədri (Bakanlar Kurulu kararı ile beş illik müddətinə vəzifəyə təyin edilir) İdarə Heyəti və Monetar Siyasət Komitələrinə başçılıq edir. Bankın ən yüksək qərar orqanı Bank Məclisidir.Sayı 4 olan sədr müavinləri Bankın Monetar Siyasət Komitəsinin üzvləridir.

Hazırda Bankda sayı 15 baş direktorluq fəaliyyət göstərir. Bankın ölkə daxilində 21 şübəsi fəaliyyət göstərir. Bankın Frankfurt, Londra, New York ve Tokyoda nümayəndəliyi fəaliyyət göstərir.

Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı beynəlxalq əlaqələrində əsas yeri Beynəlxalq Valyuta Fondu (BVF) ilə əməkdaşlıq tutur. Türkiyə 1947-ci ildən bəri BVF-nin üzvüdür və ölkəni BVF-də maliyyə agenti kimi Mərkəzi Bank təmsil edir. Bundan başqa bank digər beynəlxalq maliyyə təşkilatları və xarici ölkələrin mərkəzi bankları ilə əməkdaşlıq etməkdədir.

ÇİN XALQ BANKI

Çin Xalq Respublikasının mərkəzi bankı olan Çin Xalq Bankı Çinin monetar siyasəti həyata keçirir və Çinin kontinental hissəsində fəaliyyət göstərən maliyyə institutlarının fəaliyyətini tənzimləyir.

Bank 1 dekabr 1948-ci il tarixində Huabey Bankı, Beyhay Bankı və Xibey Fermer Bankının birləşməsi nəticəsində təsis edilmişdir. İlk əvvəl Şizəçuanda yerləşən Baş ofis, 1949-cu ildə Pekinə köçmüşdür. 1949-1978-ci illərdə Çin Xalq Bankı Çin Xalq Respublikasının yeganə bankı idi və o, mərkəzi və kommersiya bankın funksiyasını yerinə yetirirdi.

1980-ci illərdə iqtisadi islahatların tərkib hissəsi olaraq Çin Xalq Bankının kommersiya bankı funksiyaları müstəqil, lakin dövlətə məxsus olan dörd bank arasında bölüşdürüldü və 1983-cü ildə Dövlət Şurası Çin Xalq Bankının Çinin mərkəzi bankı olaraq fəaliyyət göstərəcəyini elan etdi. Onun mərkəzi bank statusu Səkkizinci Milli Xalq Qurultayının 18 mart 1995-ci il tarixində keçirilən 3-cü İclasında təsdiqlənmişdir. 1988-ci ildə Çin Xalq Bankı əsaslı şəkildə yenidən formalaşdırılmışdır. 2003-cü ilin mart ayında Onuncu Milli Xalq Qurultayının Birinci İclası Çin Xalq Bankının bank təsisatları, aktivlərin idarə olunması şirkətləri, inam və investisiya şirkətləri və digər depozit maliyyə institutları üzrə nəzarət funksiyalarını ayırmaqla Dövlət Şurasının Təşkilati Struktur İslahatı üzrə Qərarını təsdiqləmişdir. Nəticədə maliyyə sektoruna nəzarət məqsədilə Çin Bank Nəzarət Komissiyası yaradılmışdır. 2003-cü ilin 27 dekabr tarixində Onuncu Milli Xalq Qurultayının Daimi Komitəsi Çin Xalq Bankının ümumi maliyyə sabitliyi və maliyyə xidmətləri təminatının qorunması üçün monetar siyasətin hazırlanması və icrası rolunun gücləndirilməsi məqsədilə qanuna düzəlişi təsdiqləmişdir.

Çin Xalq Bankının fəaliyyəti Dövlət Şurasının təlimatları əsasında monetar siyasətin formalaşdırılması və həyata keçirilməsi, maliyyə risklərinin qarşısının alınması və həll olunması və maliyyə sabitliyinin qorunmasından ibarətdir.

Çin Xalq Respublikasının Çin Xalq Bankı haqqında Qanunu Çin Xalq Bankının bu funksiyaları yerinə yetirməsini təmin edir:

1) müvafiq sifariş verilməsi və qaydaların hazırlanması və həyata keçirilməsi; monetar siyasətin formalaşdırılması və icra olunması;

2) valyutanın buraxılması və onun dövriyyəsinin idarə olunması;

3) banklararası kredit və istiqraz bazarlarının tənzimlənməsi;

4) xarici valyutanın idarə olunması və banklararası xarici valyuta bazarının tənzimlənməsi;

5) qızıl bazarının tənzimlənməsi; rəsmi xarici valyuta və qızıl ehtiyatlarının saxlanması və idarə olunması;

6) dövlət xəzinəsinin idarə olunması;

7) ödəniş və hesablaşma sisteminin normal fəaliyyətinin dəstəklənməsi;

8) maliyyə sektorunda çirkli pulların yuyulmasına qarşı tədbirlərin təlimatlandırılması,

9) təşkil olunması və müvafiq maliyyə vəsaiti axınlarının monitorinqinin həyata keçirilməsi;

10) maliyyə statistikaları, sorğuları, analizləri və proqnozlarının həyata keçirilməsi;

11) Mərkəzi Bank olaraq beynəlxalq maliyyə tədbirlərində iştirak edilməsi;

12) Dövlət Şurası tərəfindən qeyd olunan digər funksiyaların icra olunması.

Çin Xalq Bankının yüksək rəhbərliyi sədr və sədr müavinlərindən ibarətdir. Sədr Çin Xalq Respublikasının prezidenti tərəfindən vəzifəyə təyin olunur və vəzifəsindən kənarlaşdırılır. Sədr vəzifəsinə namizədlər Dövlət Şurasının Birinci Katibi tərəfindən irəli sürülür və Milli Xalq Qurultayı tərəfindən təsdiqlənir. Milli Xalq Qurultayının fasilə dövrü ərzində namizədlərlə bağlı qərarları Qurultayın Daimi Komitəsi qəbul edir. Çin Xalq Bankının sədr müavinləri Dövlət Şurasının Birinci Katibi tərəfindən vəzifəyə təyin olunur və ya vəzifədən kənarlaşdırılır.

Çin Xalq Bankının Pekində yerləşən baş ofisi 18 funksional departamentdən (bürodan) ibarətdir.

Beynəlxalq əlaqələr: Çin Xalq Bankının Beynəlxalq departamentinin cavabdeh olduğu sahələr aşağıdakılardır:

• Çin Xalq Bankının beynəlxalq maliyyə təşkilatları, xarici mərkəzi banklar və Honq Konq və Makao Xüsusi İnzibati Regionlar və Tayvan əyaləti ilə rəsmi əlaqələri və işgüzar əməkdaşlıq münasibətləri;

• Yerli maliyyə sənayesinin açılışının Çin hökumətinin ÜTT-yə qoşulduğu zaman üzərinə götürmüş olduğu öhdəliklərə uyğun olaraq koordinasiyası;

• Çin Xalq Bankının xarici işlərinin həyata keçirilməsi;

• Çin Xalq Bankının xarici ofislərinin fəaliyyətinə nəzarət.

İRAN İSLAM RESPUBLİKASI MƏRKƏZİ BANKI

İran İslam Respublikası Mərkəzi Bankı (İİRMB) İranın Mərkəzi Bankıdır. İran İslam İnqilabından sonra Bankın fəaliyyəti şəriət qanunları əsasında həyata keçirilir.

İranın ilk dövlət bankı olan Bank Milli İran 1927-ci ildə təsis olunmuşdur. Bankın əsas vəzifələri hökumətin maliyyə əməliyyatlarının dəstəklənməsi və İranın milli valyutasının (rial və tümən) çapı və dövriyyəyə buraxılması olmuşdur. Bank Melli İran 33 ildən artıq müddət ərzində İran rialının dəyərini dəstəkləməklə İranın Mərkəzi Bankı kimi fəaliyyət göstərmişdir. 1960-cı ilin Avqust ayında İran hökuməti İran Mərkəzi Bankını təsis edərək Bank Melli İranda olan Mərkəzi bank öhdəliklərini alaraq İran Mərkəzi Bankına vermişdir.

1979-cu ildə İranda İslam İnqilabın baş verməsi ilə İran Mərkəzi Bankının adı dəyişdirilərək "İran İslam Respublikası Mərkəzi Bankı" qoyulmuşdur. Bu tarixdən etibarən İranda monetar və kredit siyasətləri İranın Pul və Bank Qanunu (1979), Bankların Milliləşdirilməsi Qanunu (1979), Banklar Administrasiyası Haqqında Qanun (1979) və Faizsiz Bankçılıq Haqqında Qanun (1983) əsasında tərtib və icra olunur.

İRMB aşağıdakı funksiyaların yerinə yetirilməsinə görə cavabdehdir:

- Əskinaz və sikkələrin buraxılması;
- Bank və kredit təşkilatlarının fəaliyyətlərinə nəzarət;
- Xarici valyuta siyasəti və əməliyyatlarının tərtibi və tənzimlənməsi;
- Qızıl əməliyyatlarının tənzimlənməsi;
- Milli valyuta axınının formalaşdırılması və tənzimlənməsi.

Hökumətin bankı olaraq İİRMB hökumət hesablarını, dövlət müəssisələri və təşkilatlarına verilən qrant və kreditlərin saxlanması üçün səlahiyyətləndirilmişdir.

İİRMB aşağıdakı orqanlardan ibarətdir:

- Baş Məclis;
- Monetar və Kredit Şurası;
- İdarə Heyəti;
- Not Ehtiyatlarına Nəzarət Şurası;
- Müşahidə Şurası.

İdarə Heyəti Sədr, sədr müavini, baş katib və 3 vitse-sədrdən ibarətdir.

Milli Cəvahirat Xəzinəsi - İİRMB-nin Baş Ofisində yerləşir. Xəzinədə dünyada məşhur olan bir çox daş-qaşların kolleksiyası toplanmaqdadır.

İİRMB bir sıra beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq əlaqələrinə malikdir. İran İslam Respublikası İslam İnkişaf Bankının fəal üzvlərindən biri olduğundan İİRMB-nin onunla çox yaxın əlaqələri var.

İİRMB-nin Sədri İranın Beynəlxalq Valyuta Fondundakı Müdiri olaraq çıxış edir.

İİRMB Beynəlxalq Hesablaşmalar Bankının illik toplantılarında müşahidəçi statusunda iştirak edir.

Bundan əlavə İİRMB Dünya Bankı ilə yaxın əməkdaşlıq əlaqələrinə malikdir.

3.2. AZƏRBAYCAN RESPUBLİKASININ MƏRKƏZİ BANKIN FƏALİYYƏTİNİN ÜMUMİ ƏSASLARI VƏ ƏMƏLİYYATLARI

Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin II hissəsinə müvafiq olaraq, Mərkəzi Bank dövlətin müstəsna mülkiyyətindədir. Mərkəzi Bank müstəqil balansa, nizamnamə kapitalına və digər əmlaka malikdir. Mərkəzi Bank balansında olan əmlaka qanunvericiliyə uyğun olaraq sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirir. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, Mərkəzi Bankın razılığı olmadan kapitalının və digər əmlakının özgəninkiləşdirilməsinə yol verilmir.

Mərkəzi Bankın kapitalı onun nizamnamə kapitalından və kapital ehtiyatlarından ibarətdir. Mərkəzi Bankın nizamnamə kapitalı 10 milyon manatdır. Mərkəzi Bankın kapital ehtiyatları tədavülə buraxılmış nağd milli valyutanın 15 faizi miqdarında müəyyən edilir və hesabat ilinin mənfəətindən ayırmalar hesabına formalaşdırılır.

Mərkəzi Bank öz fəaliyyəti barədə yalnız Azərbaycan Respublikası Prezidentinə hesabat verir. və Mərkəzi Bankın Azərbaycan Respublikası Prezidenti qarşısında hesabatlığı aşağıdakılardan ibarətdir:

1. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndinə müvafiq olaraq, Mərkəzi Bankın İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsindən;

2. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərinə müvafiq olaraq, Mərkəzi Bankın İdarə Heyəti sədrinin – Mərkəzi Bankın sədrinin (bundan sonra – Mərkəzi Bankın İdarə Heyəti sədri) və onun müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsindən;

3. bu Qanunun 58-ci maddəsinə müvafiq olaraq, Mərkəzi Bankın fəaliyyətinin yoxlanılması üçün auditorun təyin edilməsindən və zəruri hallarda, auditor yoxlamasının növbədənkənar qaydada keçirilməsindən;

4. Mərkəzi Bankın İdarə Heyətinin sədri tərəfindən ildə iki dəfə Mərkəzi Bankın əsas məqsəd və funksiyalarının həyata keçirilməsi barədə hesabatın, habelə audit rəyi ilə təsdiq edilmiş ilin yekunları üzrə maliyyə hesabatının və hesabat əməliyyat büdcəsi barədə hesabatın Azərbaycan Respublikası Prezidentinə təqdim edilməsi.

Büdcə layihəsinin müzakirəsi zamanı Mərkəzi Bankın İdarə Heyətinin sədri qarşıdakı il üçün pul siyasətinin əsas istiqamətləri barədə Azərbaycan Respublikası Milli Məclisinə məlumat verir.

Mərkəzi Bank dövlətin öhdəlikləri üçün, dövlət isə Mərkəzi Bankın öhdəlikləri üçün cavabdeh deyildir. Lakin istisna hal olaraq, Mərkəzi Bankın aktivləri onun passivlərinin məbləğindən aşağı düşdükdə, yaranmış kapital çatışmazlığı dövlət tərəfindən ödənilir.

Mərkəzi Bank Azərbaycan dövlətinin bankıdır. Mərkəzi Bank Azərbaycan dövlətinin maliyyə agenti kimi çıxış edə bilər. Mərkəzi Bank maliyyə nazirliyi ilə razılaşdırılmış şərtlərlə dövlətin maliyyə agenti funksiyalarını həyata keçirə bilər. Maliyyə agenti olaraq, Mərkəzi Bank dövlətin borc qiymətli kağızlarını yerləşdirmək və onlarla digər əməliyyatlar aparmaqla dövlət borcuna xidmət göstərə, habelə qanunla müəyyən edilmiş hallarda və qaydada başqa maliyyə əməliyyatlarını apara bilər.

Mərkəzi Bank maliyyə nazirliyi ilə razılaşdırılmış şərtlərlə dövlət xəzinədarlıq hesablarına xidmət göstərir. Pul siyasətinin həyata keçirilməsi ilə əlaqədar tələb olunduqda, Mərkəzi Bank Respublika maliyyə nazirliyi ilə razılaşdırılmış şərtlərlə dövlətdən müddətli depozitlər qəbul edə bilər. Mərkəzi Bank Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanlarının, habelə dövlət və büdcədənkənar dövlət fondlarının bank hesablarına xidmət göstərə bilər. Mərkəzi Bank MB Haqqında Qanunda müəyyən olunmuş məqsədlərinə uyğun olaraq dövlətin iqtisadi siyasətinin həyata keçirilməsinə səlahiyyətləri daxilində yardım edir. Mərkəzi Bank Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarına dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərinə, o cümlədən büdcə-vergi, qiymət-tarif tədbirlərinə, habelə dövlətin daxili və xarici borcunun həcminə və idarə edilməsinə dair təkliflər verə bilər.

Mərkəzi Bank Azərbaycan Respublikasının dövlət büdcəsi kəsirinin birbaşa maliyyələş-dirilməsi üçün dövlətə kredit vermir. Dövlət büdcəsində qısamüddətli vəsait çatışmazlığı

yarandıqda, Mərkəzi Bank maliyyə nazirliyi ilə bağlanmış müqaviləyə əsasən gəlir gətirən dövlət borc qiymətli kağızları ilə təmin edilməsi şərti ilə dövlətə ən çoxu 6 ay müddətinə və cari ildə ödənilmək şərti ilə milli valyutada (manatla) kredit verə bilər. Belə kreditlərin verilmiş və ödənilməmiş hissəsinin ümumi məbləği son üç il ərzində dövlət büdcəsinin orta gəlirlərinin 3 faizindən çox ola bilməz. Mərkəzi Bank tərəfindən Azərbaycan dövlətinin buraxdığı borc qiymətli kağızların alınması dövlətə kreditlərin verilməsi hesab olunur.

Azərbaycan Respublikası Mərkəzi Bankının Pul siyasəti və Maliyyə Sabitliyi Komitəsi pul və məzənnə siyasəti orientirlərinin müəyyən edilməsi və həyata keçirilməsi, habelə maliyyə sabitliyinin qorunması məqsədilə yaradılan məşvərətçi orqandır.

Mərkəzi Bank öz məqsədlərinə nail olmaq üçün yerli və xarici kredit təşkilatları ilə aşağıdakı əməliyyatları aparmaq hüququna malikdir:

- çekləri, vekselləri, qiymətli metalları və qiymətli daşları, habelə bunlardan hazırlanmış məmulatı almaq, satmaq və saxlamaq;
- xarici valyutanı, habelə xarici valyutada təqdim etdikləri ödəniş sənədlərini və öhdəliklərini almaq və satmaq;
- qarantiyalar və zəmanətlər verməк;
- bank hesabları, o cümlədən depozit hesabları açmaq;
- hesablaşma, kassa, depozit əməliyyatları aparmaq, qiymətli kağızların və başqa sərvətlərin saxlanması və idarə olunması üçün onları qəbul etmək;
- hər hansı valyutada çekləri və vekselləri ödənişə təqdim etmək;

Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan hallarda beynəlxalq təcrübədə qəbul edilmiş digər bank əməliyyatlarını həyata keçirmək.

Mərkəzi Bank bank əməliyyatlarının aparılması üçün haqq tutmaq hüququna malikdir. Mərkəzi Bank öz əməkdaşlarına, habelə qanunvericilikdə nəzərdə tutulmuş hallarda fondlara bank xidmətləri göstərə bilər. Hesablaşma və klirinq (prosessinq) əməliyyatlarının dəstəklənməsi məqsədilə Mərkəzi Bank həmin əməliyyatları həyata keçirən təşkilatlara bank hesabları açа bilər. Mərkəzi Bank xarici dövlətlərin hökumətlərinə, mərkəzi banklarına və pul siyasətini tənzimləyən orqanlarına, habelə Mərkəzi Bankın və ya Azərbaycan Respublikasının üzv olduqları beynəlxalq təşkilatlara bank xidmətləri göstərə bilər. Mərkəzi Bank etibarlı emitentlər tərəfindən buraxılmış likvidli borc qiymətli kağızlarını almaq hüququna malikdir. Mərkəzi Bank qanunvericiliklə qadağan olunmayan mülki-hüquqi əqdləri bağlaya bilər.

Mərkəzi Bank aşağıdakı fəaliyyətləri həyata keçirə bilməz: bu Qanunda nəzərdə tutulmuş şəxslərdən başqa, digər hüquqi və fiziki şəxslərlə bank əməliyyatları aparmaq; istehsal, ticarət, sığorta və bu Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, digər kommersiya fəaliyyəti ilə məşğul olmaq; Mərkəzi Bankın fəaliyyətini, Mərkəzi Bank qarşısında olan öhdəliklərin icrasını, habelə Mərkəzi Bankın əməkdaşlarının sosial ehtiyaclarını təmin etmək üçün zəruri olan hallar istisna olmaqla, daşınmaz əmlak üzərində tam və ya qismən əşya hüquqlarını almaq, satmaq və ya başqa tərzdə əldə etmək.

3.3. AR MƏRKƏZİ BANKIN TƏŞKİLATI STRUKTURU VƏ İDARƏ OLUNMASI

Mərkəzi Bankın təşkilati strukturuna İdarə Heyəti, mərkəzi aparat, ərazi idarələri daxildir. Mərkəzi Bankın mərkəzi aparatı daxili audit bölməsindən, habelə İdarə Heyətinin müəyyən etdiyi digər struktur bölmələrdən ibarətdir. Mərkəzi Bankın mərkəzi aparatına daxil olan bütün struktur bölmələri və qurumları İdarə Heyəti tərəfindən təsdiq edilmiş əsasnamələrə uyğun olaraq fəaliyyət göstərir.

Mərkəzi Bank İdarə Heyəti tərəfindən idarə olunur. Mərkəzi Bankın İdarə Heyətinin tərkibi yeddi nəfərdən ibarətdir. İdarə Heyətinin tərkibinə sədr, Mərkəzi Bankda daimi əsaslarla işləyən dörd üzv və iki kənar üzv daxildir.

İqtisadiyyat və ya hüquq sahəsində ali təhsilə, iqtisadiyyat, hüquq, maliyyə və ya bank sahəsi üzrə peşəkar təcrübəyə malik olan, mülkiyyət əleyhinə, iqtisadi fəaliyyət sahəsində, qulluq

mənafeyi əleyhinə, habelə ağır və xüsusi ilə ağır cinayətlərə görə məhkum olunmayan, habelə xarici dövlətlərin qarşısında heç bir öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşları İdarə Heyətinin üzvləri ola bilərlər.

Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvləri, bələdiyyələrin seçkili üzvləri, habelə dövlət hakimiyyəti və ya bələdiyyə orqanında qulluqda olan şəxslər eyni zamanda Mərkəzi Bankın İdarə Heyətinin üzvləri ola bilməzlər.

Mərkəzi Bankın İdarə Heyətinin üzvləri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 10-cu bəndinə, 95-ci maddəsinin I hissəsinin 15-ci bəndinə və II hissəsinə müvafiq olaraq, vəzifəyə təyin və vəzifədən azad edilirlər.

İdarə Heyətinin üzvləri vəzifəyə 5 il müddətinə təyin edilirlər. Mərkəzi Bankın İdarə Heyətinin sədri Azərbaycan Respublikası Konstitusiyasının 109- cu maddəsinin 32-ci bəndinə müvafiq olaraq, Mərkəzi Bankın İdarə Heyətinin üzvləri sırasından İdarə Heyəti üzvünün səlahiyyət müddətinə vəzifəyə təyin edilir.

Mərkəzi Bankın İdarə Heyəti sədrinin birinci müavini və digər müavinləri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq olaraq, Mərkəzi Bankın İdarə Heyəti üzvləri sırasından İdarə Heyəti üzvünün səlahiyyət müddətinə vəzifəyə təyin edilirlər.

İdarə Heyətinin üzvləri Mərkəzi Bankda daimi əsaslarla işlədiyi dövrdə elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, digər ödənişli fəaliyyətlə, habelə sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməzlər. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, İdarə Heyətinin Mərkəzi Bankda daimi əsaslarla işləyən üzvləri hüquqi şəxslərin idarəetmə orqanlarında vəzifə tuta bilməzlər.

Mərkəzi Bankın İdarə Heyətinin üzvləri, habelə onların yaxın qohumları (ər-arvad, valideynlər, ər-arvadın valideynləri, baba, nənə, övlad, övladlığa götürülən, qardaş və bacı) Mərkəzi Bankın nəzarət etdiyi kredit təşkilatlarında mühüm iştirak payına malik ola bilməzlər. İdarə Heyətinin üzvləri siyasi partiyaların üzvü ola bilməz və ictimai birliklərdə vəzifə tuta bilməzlər.

Mərkəzi Bankın İdarə Heyətinin səlahiyyətləri(Maddə 22) :

1. hər il üçün dövlətin pul və valyuta siyasətini müəyyənləşdirir və təsdiq edir;

2. pul siyasətinin alətlərinə dair qərarlar qəbul edir, o cümlədən uçot dərəcəsini, özünün əməliyyatları üzrə faiz dərəcələrini, acıq bazarda əməliyyatların şərtlərini müəyyən edir;

3. yeni nümunəli pul nişanlarının tədavülə buraxılması və köhnə nümunəli pul nişanlarının tədavüldən çıxarılması barədə qərar qəbul edir;

4. valyuta tənzimi və nəzarətinin həyata keçirilməsi, habelə manatın başqa valyutalara mübadilə məzənnəsinin müəyyən olunması qaydasını təsdiq edir;

5. Mərkəzi Bankın büdcəsini və ona dəyişiklikləri təsdiq edir;

6. Mərkəzi Bankın kapital ehtiyatlarının formalaşdırılması və istifadə olunması qaydasını müəyyən edir;

7. Mərkəzi Bankın illik maliyyə hesabatını təsdiq edir;

8. beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanılması və idarə olunması strategiyası və qaydalarını müəyyən edir;

9. kredit təşkilatlarına bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaların verilməsi və ləğv edilməsi barədə qərar qəbul edir;

10. kredit təşkilatları üçün iqtisadi tənzimləmə (prudensial) normativləri müəyyən edir;

11. qanunvericiliklə müəyyən olunmuş hallarda, banklara müvəqqəti inzibatçının təyin edilməsi və səlahiyyətinə xitam verilməsi haqqında qərar qəbul edir;

12. Azərbaycan Respublikasının bank sistemində xarici kapitalın iştirak limitini müəyyənləşdirir;

13. Mərkəzi Bankın təşkilati strukturunu və idarəetmə prosedurlarını müəyyən edir;

14. Mərkəzi Banka işə qəbul və əməkdaşların qiymətləndirilməsi qaydalarını, habelə Mərkəzi Bankın İdarə Heyətinin nomenklaturasına daxil olan vəzifələri müəyyənləşdirir, həmin vəzifələrə təyinatları və vəzifələrdən azad edilmələri təsdiq edir;

15. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin rəhbərinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən vəzifəyə təyin edilməsi və vəzifədən azad edilməsinə razılıq verir;

16. Mərkəzi Bankda əməyin ödənilməsi formaları və miqdarını Azərbaycan Respublikasının bank sistemində uyğun əməkhaqqı səviyyəsi nəzərə alınmaqla müəyyənləşdirir;

17. Mərkəzi Bankın normativ xarakterli aktlarını təsdiq edir;

18. bu Qanunla Mərkəzi Bankın İdarə Heyətinin səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll edir.

Mərkəzi Bankın İdarə Heyətinin sədri Mərkəzi Bankın İdarə Heyətinin işini təşkil edir və eyni zamanda Mərkəzi Bankın icra strukturuna başçılıq edir. Mərkəzi Bankın İdarə Heyətinin sədri aşağıdakı səlahiyyətlərə malikdir:

1. etibarnamə təqdim etmədən Mərkəzi Bankı Azərbaycan Respublikası daxilində və qanunvericiliklə müəyyən edilmiş qaydada xaricdə təmsil edir;

2. İdarə Heyətinin təsdiq etdiyi normativ xarakterli aktları imzalayır;

3. Mərkəzi Bankın bütün əməkdaşları üçün məcburi olan əmr və sərəncamlar verir;

4. İdarə Heyətinin nomenklaturasına daxil olmayan şəxsləri vəzifəyə təyin edir və vəzifədən azad edir;

5. İdarə Heyəti sədrinin müavinləri və Mərkəzi Bankın digər rəhbər işçiləri arasında vəzifə bölgüsünü aparır;

6. Mərkəzi Bankın fəaliyyətinə dair İdarə Heyətinin səlahiyyətinə aid edilməyən məsələləri həll edir;

7. bu Qanunla nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir.

Mərkəzi Bankın İdarə Heyətinin sədri olmadıqda, onun səlahiyyətləri birinci müavin tərəfindən həyata keçirilir. Birinci müavin olmadıqda, həmin səlahiyyətlər Mərkəzi Bankın İdarə Heyəti sədrinin müəyyən etdiyi qaydada digər müavini və ya İdarə Heyətinin üzvü tərəfindən həyata keçirilir.

Mərkəzi Bankın daxili audit bölməsi aşağıdakıları həyata keçirir: Mərkəzi Bank üzrə risklərin idarə olunması sahəsində adekvat prosedurların və nəzarət mexanizmlərinin vəziyyətini qiymətləndirir, onların daim tətbiq olunmasına nəzarət edir; qanunvericiliyə əməl olunmasını təmin etmək məqsədilə Mərkəzi Bankın struktur bölmələrinin auditini həyata keçirir; audit zamanı aşkar etdiyi nöqsanların aradan qaldırılması, habelə uçot və hesabat, daimi nəzarət prosedurları və mexanizmləri barədə Mərkəzi Bankın İdarə Heyətinə və struktur bölmələrinə tövsiyələr verir; Mərkəzi Bankın İdarə Heyətinin müəyyən etdiyi digər səlahiyyətləri həyata keçirir. Daxili audit bölməsi bilavasitə Mərkəzi Bankın İdarə Heyətinin sədrinə tabedir.

3.4. AZƏRBAYCAN MƏRKƏZİ BANKININ MƏQSƏD VƏ FUNKSIYALARI

Mərkəzi Bankın fəaliyyətinin əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyininin təmin edilməsidir. Bununla yanaşı, Mərkəzi Bankın fəaliyyətinin məqsədi, həmçinin bank və ödəniş sistemlərinin sabitliyini və inkişafını təmin etməkdir. Mənfəət götürmək Mərkəzi Bankın əsas məqsədi deyildir. Mərkəzi Bank məqsədlərinə nail olmaq olmaq üçün aşağıdakı funksiyaları həyata keçirir:

1. dövlətin pul və valyuta siyasətini müəyyən edir və həyata keçirir;

2. nağd pul dövriyyəsini təşkil edir, Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin II hissəsinə və bu Qanuna müvafiq olaraq, pul nişanlarının tədavülə buraxılmasını və tədavüldən çıxarılmasını həyata keçirir;

3. manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən edir və elan edir;

4. qanunvericiliyə uyğun olaraq valyuta tənzimini və nəzarətini həyata keçirir;

5. sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlayır və idarə edir;

6. qanunvericiliyə uyğun olaraq hesabat tədiyə balansını tərtib edir və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında iştirak edir;

7. «Banklar haqqında» və «Poçt haqqında» Azərbaycan Respublikası qanunlarına, bu Qanuna və onlara müvafiq qəbul etdiyi normativ xarakterli aktlara uyğun olaraq bank fəaliyyətini lisenziyalaşdırır və tənzimləyir, qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarəti həyata keçirir;

8. ödəniş sistemlərinin fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların üzərində nəzarəti qanuna uyğun olaraq həyata keçirir;

9. bu Qanunla və digər qanunlarla nəzərdə tutulmuş başqa funksiyaları həyata keçirir.

Mərkəzi Bank məqsədlərinə nail olmaq - dövlətin pul və valyuta siyasətini müəyyən edir və həyata keçirir. Mərkəzi Bank qarşıdakı il üçün dövlətin pul siyasətinin əsas istiqamətlərini oktyabr ayının 1-dən gec olmayaraq, Azərbaycan Respublikası Prezidentinə təqdim edir və dekabr ayının 31-dək kütləvi informasiya vasitələrində ictimaiyyətə açıqlayır. Pul siyasətinin əsas istiqamətlərini açıqlayarkən, Mərkəzi Bank cari ildə həyata keçirilən pul siyasətinin yekunlarını, habelə qarşıdakı il üçün müəyyən etdiyi pul siyasətinin məqsəd və vəzifələrini, Mərkəzi Bankdan asılı olan və asılı olmayan amilləri də əks etdirməklə onların həyata keçirilməsi yollarını göstərir.

Azərbaycan Mərkəzi Bankı Pul siyasətini aşağıdakı alətlər vasitəsilə həyata keçirilir:

1) açıq bazarda əməliyyatların aparılması;
2) faiz dərəcələrinin müəyyənləşdirilməsi;
3) kredit təşkilatları üçün məcburi ehtiyatların müəyyənləşdirilməsi;
4) kredit təşkilatlarının yenidən maliyyələşdirilməsi;
5) depozit əməliyyatlarının aparılması;
6) bank əməliyyatlarının məhdudlaşdırılması;
7) beynəlxalq təcrübədə qəbul edilmiş pul siyasətinin digər alətləri.

Mərkəzi Bank məqsədlərinə nail olmaq üzrə dövlətin valyuta siyasətini müəyyən edir və həyata keçirir. Valyuta siyasəti – dünya iqtisadi inteqrasiya prosesləri kontekstində iqtisadiyyatın daxili və xarici dinamik müvazinətini (tarazlığını) təmin etmək, beynəlxalq ödəmələri müəyyən sistem daxilində yerinə yetirmək və tədiyyə balansını tənzimləmək məqsədi ilə ölkənin cari və strateji məqsədlərinə uyğun olaraq monetar orqanların həyata keçirdiyi tədbirlərin məcmuəsidir. Valyuta siyasəti – ölkə daxili və xarici iqtisadi problemlərinin həllinə yönəlik, valyuta tənzimlənməsi və nəzarəti, valyuta bazarı, qızıl-valyuta ehtiyatlarından səmərəli istifadə, beynəlxalq maliyyə təşkilatlarında iştirak məsələsinə aydınlıq, valyutanın dönərliyi, ölkədaxili və ölkəxarici valyuta problemlərini sistemli formada təhlili kimi ümdə məsələləri özündə birləşdirir. Valyuta siyasətinin istiqamət və formaları ölkənin valyuta-iqtisadi vəziyyəti və dünya iqtisadiyyatı sferasında gedən dəyişikliklərə bağlı olaraq tarazlanır. Valyuta siyasətinin sağlam və səmərəli tətbiqi ölkənin iqtisadi təhlükəsizliyinin əsas təminatıdır. Valyuta siyasətinin istiqamətləri : iqtisadiyyatda dollarlaşmanın qarşısını almaq; valyuta nəzarəti; valyuta bazarının optimal strukturu və qızıl-valyuta ehtiyatları diversifikasiyası; xarici borcun idarə olunması; valyuta rezervlərinin yığımı; daxili investisiya ehtiyacının qarşılamaq məqsədi ilə xarici investisiyanın cəlbi; Kapitalın çıxışına məhdudiyyət; xarici rəqabətə qarşı yerli istehsalçıların müdafiəsi (idxal əvəzliyici istehsalın stimullaşdırma siyasəti); valyuta böhranına qarşı alınacaq tədbirlər; valyuta məzənnə tarazlığının təminatı; tədiyyə balansının tarazlığı; ixracatçılara yönəlik stimullaşdırma siyasəti; çirkli pulların yuyulmasına qarşı mübarizə; deviz siyasəti (valyuta müdaxiləsi) və diskont siayasəti.

Valyuta siyasətini həyata keçirilmə sırasında onun valyuta bazarının fəaliyyətinə təsir göstərən iqtisadi parametrlərin qarşılıqlı əlaqəsinin monitorini aparılması vacibdir: valyuta məzənnə; qızıl-valyuta ehtiyatları; tədiyyə balansı saldosu; daxili pul tədavülünün həcmi və dollarlaşma dərəcəsi; valyuta liberallaşma dərəcəsi.

Valyuta siyasəti xarici valyutaya olan tələb və təklif əsasında realizə olunur. Valyuta tələb və təklifə təsir tədbirlərini bir neçə qrup kateqoriyasına bölmək olar:

1. Maliyyə (Mərkəzi bankın emissiya siyasəti, o cümlədən MB valyuta bazarında iştirakı; büdcənin icrası ilə əlaqədar hökumətin fəaliyyəti, qeyri-rezidentlərə açılan kredit xətti, büdcə hesablarında qalıqların tənzimlənməsi və s.);

2. iqtisadi (ölkənin ixracat potensiyalının inkişafı və ya idxalı əvəzedici sahələrin inkişafı);

3. inzibati (valyuta nəzarət və tənzimlənməsi konteksində birbaşa (kvota) və dolaylı (gömrük məhdiyyəti);

4. sosial-psixoloji (dövlətin informasiya-məlumat xarakterli fəaliyyəti, iqtisadi vahidlərin valyuta sferasında gedən hadisələrə yönəlik aydınlıq gətirmə siyasəti).

Valyuta siyasətinin həyata keçirlmiş nəticələrinin tam iqtisadi-statistik görüntüsünü ölkənin cari tədiyyə balansında görmək olar.

Mərkəzi Bank Nağd pul dövriyyəsini təşkil edir, Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin II hissəsinə və pul nişanlarının tədavülə buraxılmasını və tədavüldən çıxarılmasını həyata keçirir. Azərbaycan Respublikasının Konstitusiyasının 19-cu maddəsinin I hissəsinə müvafiq olaraq Azərbaycan Respublikasının pul vahidi manatdır. Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin III hissəsinə müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır. Mərkəzi Bankın buraxdığı pul nişanları, o cümlədən yubiley və xatirə pul nişanları Azərbaycan Respublikasının bütün ərazisində nominal dəyərləri ilə hər növ ödənişlərin həyata keçirilməsi, hesablara daxil edilməsi və pul köçürmələri zamanı hökmən qəbul edilməlidir. Manatla qızıl və ya digər qiymətli metallar arasında rəsmi nisbət müəyyən edilmir. Tədavülə buraxılmış pul nişanları Mərkəzi Bankın borc öhdəliyidir və onun bütün aktivləri ilə təmin edilir.

Azərbaycan Respublikasının ərazisində nağd pul tədavülünün təşkili üçün Mərkəzi Bank aşağıdakıları həyata keçirir: pul nişanlarına olan tələbatı müəyyənləşdirir; pul nişanlarının istehsalını təşkil edir və ya hazırlanmasına sifariş verir, onların daşınmasını və saxlanmasını təmin edir; pul nişanlarının ehtiyatlarını yaradır və həmin ehtiyatlara sərəncam verir; Mərkəzi Bank və kredit təşkilatları tərəfindən nağd pulun saxlanması və inkassasiyası qaydalarını müəyyən edir; Mərkəzi Bank və kredit təşkilatlarında kassa əməliyyatlarının aparılması qaydalarını müəyyənləşdirir; tədavülə yararsız olan pul nişanlarının əlamətlərini və onların dəyişdirilməsi qaydalarını müəyyən edir.

Yeni nümunəli pul nişanlarının tədavülə buraxılması haqqında qərarı Mərkəzi Bankın İdarə Heyəti qəbul edir. Mərkəzi Bankın tədavülə buraxdığı pulların nominallarını, ölçüsünü, tərtibatını, mühafizə elementlərini, habelə digər bədii və texniki xüsusiyyətlərini müəyyən edir. Mərkəzi Bankı müəyyən etdiyi qaydada və qiymətlərlə buraxdığı yubiley və xatirə pul nişanlarının satışını təşkil edir. Mərkəzi Bankı qiymətlər miq¬yasının dəyişdirilməsi (denomnasiya) ilə əlaqədar yeni pul nişanlarının tədavülə buraxılması haqqında qərarı müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla qəbul edir. Denominasiya halları istisna olmaqla, Mərkəzi Bankı tədavüldə olan kağız və metal pulun yeni nümunəli pul nişanlarına dəyişdirilməsi haqqında qərar qəbul edir. Mərkəzi Bankı tədavüldə olan pul nişanlarının dəyişdirilməsi haqqında qərarını, habelə yeni pul nişanlarının təsvirini və pulların dəyişdirilməsi qaydaları haqqında məlumatı kütləvi informasiya vasitələrində dərc etdirir. Yeni pul nişanlarının tədavülə buraxılması ilə əlaqədar pulların dəyidirilməsi zamanı dəyişdirilmənin məbləğləri, yaxud subyektləri üzrə hər hansı məhdudiyyətə yol verilmir. Dəyişdirilməli olan pul nişanları Mərkəzi Bankın müəyyən etdiyi müddətdə, lakin bir ildən az olmamaq şərti ilə qanuni ödəniş vasitəsi sayılır. Həmin müddətdən sonra pul nişanları Mərkəzi Bankı tərəfindən müddətsiz olaraq dəyişdirilir.

Mərkəzi Bankı manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən edir və elan edir..Valyuta bazarında məzənnənin 2 funksiyası var: daxili iqtisadi şərtləri və xarici iqtisadi şərtləri dəyərləndirək, ikisi arasında tarazlığı qurmaqdır və valyuta məzənnəsi də qiymət qəbul edildiyinə görə, o zaman valyuta təklif və tələbini gerçək səviyyə tarazlığında tutmaq gərəkdir. Beləlikə məzənnə daxili qiymətlə xarici qiymət arasında əlaqəni yaradan yeganə vasitədir və ən önəmli makroiqtisadi göstəricilərindən biridir.

Məzənnə valyuta isytehsal edən sektorlarla valyuta isteklak edən sektor arasında tarazlığı qoruyur və beləliklə eyni qayda ilə ixrac sektorı və idxal sektorları arasında stimullaşdırma və qorumaçılıq siyasəti həyata keçirir.

Məzənnə siyasəti – ölkənin ixracat potensiyalına və investiya mühitinə təsir edən ən önəmli formalaşdırma tədbirlər məcmusudur (məs: tədiyyə balansının tənzimlənməsi, ölkənin qızıl-valyuta ehtiyatları). Valyuta məzənnəsinə təsir edən amillər: daxili və xarici qiymət səviyyəsi (SGP nəzəriyyəsi);xarici ticarət balansına aid statistik göstəricilər;beynəlxalq kapital hərəkətində

dəyişikliklər (məs. ölkə daxilində faiz dərəcələrinin artımı: öz növbəsində milli pul vahidinin dəyərini artırır); tədiyyə balansının ayrı-ayrı maddələrində dəyişiklik (ixracat artımı, milli valyutanın güclənməsinə, bu isə öz növbəsində ölkənin beynəlxalq aləmdə rəqabət qabiliyyətliyinə mənfi təsir göstərir). dövlət budcəsinə aid göstərijilər; xarici borc və faiz ödəmələri; dövlət budcəsinə aid göstəricilər, xarici borc və faiz ödəmələri; pul miqdarındakı dəyişmələr; Mərkəzi bankın qızıl-valyuta ehtiyatlarının həcmi; beynəlxalq qurumların ölkə iqtisadiyyatına bağlı dəyərləndirmə notları və s.

Azərbaycan Respublikası Mərkəzi Bankı manatın sabitliyini təmin etmək məqsədi ilə xarici valyutanın alqı-satqısı üzrə əməliyyatlar aparmaqla valyuta bazarına müdaxilə edə və satış məzənnəsinin alış məzənnəsindən kənarlaşmasına həd qoya bilər.

Mərkəzi Bank dövlətin pul siyasətinin həyata keçirilməsi, ölkənin beynəlxalq öhdəlikləri üzrə hesablaşmaların vaxtında aparılması üçün beynəlxalq qızıl-valyuta ehtiyatlarını İdarə Heyətinin müəyyən etdiyi strategiya çərçivəsində saxlayır və idarə edir.Mərkəzi Bank İdarə Heyətinin müəyyən etdiyi strategiya və qaydalar çərçivəsində aşağıdakı aktivlərdən ibarət beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlayır və idarə edir: qızıl, digər qiymətli metallar və qiymətli daşlar; kağız və metal pul formasında sərbəst dönərli xarici valyuta; xarici dövlətlərin mərkəzi banklarının və ya digər maliyyə idarələrinin hesablarında Mərkəzi Bankın sərbəst dönərli xarici valyutada saxladığı vəsaitlər; Beynəlxalq Valyuta Fondunun xüsusi borcalma hüquqları və Beynəlxalq Valyuta Fondunda ehtiyat mövqeyi; xarici dövlətlərin, mərkəzi bankların və ya beynəlxalq maliyyə təşkilatlarının buraxdığı, yaxud təminat verdiyi qiymətli borc kağızları; beynəlxalq aləmdə qəbul olunmuş digər ehtiyat aktivləri.

Mərkəzi Bank beynəlxalq qızıl-valyuta ehtiyatlarının idarə edilməsində bu sahədə ixtisaslaşmış maliyyə təsisatlarının xidmətlərindən İdarə Heyətinin müəyyən etdiyi strategiya çərçivəsində istifadə edə bilər. Beynəlxalq qızıl-valyuta ehtiyatları dövlətin pul siyasətinin həyata keçirilməsi, ölkənin beynəlxalq öhdəlikləri üzrə hesablaşmaların vaxtında aparılması üçün Mərkəzi Bankın mülahizəsinə görə təhlükəli səviyyəyədək azaldıqda və ya azalması qorxusu olduqda, Mərkəzi Bank müvafiq icra hakimiyyəti orqanına ehtiyatların belə azalmasına gətirib çıxarmış və ya gətirib çıxara biləcək səbəbləri qabaqcadan göstərməklə, beynəlxalq qızıl-valyuta ehtiyatı mövqeyi haqqında hesabat və əsaslandırılmış təkliflər təqdim edir. Mərkəzi Bank beynəlxalq qızıl-valyuta ehtiyatlarının ümumi miqdarı barədə rübdə bir dəfədən az olmayaraq, kütləvi informasiya vasitələrində məlumat dərc etdirir.

Mərkəzi Bank qanunvericiliyə uyğun olaraq hesabat tədiyə balansını (Ölkənin tədiyə balansı başqa ölkələrdən daxil olan pulun ümumi məbləği ilə digər ölkələrə ödənilən pulların məbləği arasındakı nisbətdir) tərtib edir və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında iştirak edir. Tədiyə balansı ölkə rezidentlərinin müəyyən dövr ərzində qeyri-rezidentlərlə apardığı iqtisadi əməliyyatların məcmusunu əks etdirən statistik hesabat sistemidir. İnstitusional vahidin rezidentlik statusu onun hər hansı bir ölkənin iqtisadi ərazisini öz iqtisadi maraqlarının mərkəzi seçməsi və bu əraziyə sıx bağlılığı ilə müəyyən edilir. Tədiyə balansı ikili yazılış prinsipi əsasında tərtib olunur. Bu zaman hər hansı əməliyyat eyni dəyər ifadəsi olan iki əks işarəli yazı ilə qeyd olunur. Bu yazılardan biri «müsbət» işarəsi ilə kredit bölməsində, digəri isə «mənfi» işarəsi ilə debet bölməsində əks olunmaqla hər bir mübadilənin mədaxil və məxaric tərəflərini göstərir. Malların və xidmətlərin ixracı, əldə olunmuş gəlirlər və transfertlər, aktivlərdə azalma və öhdəliklərdə (passivlərdə) artma kredit yazılışı vasitəsi ilə balansda əks olunur. Malların və xidmətlərin idxalı, ödənilmiş gəlirlər və köçürülmüş transfertlər, aktivlərdə artma və öhdəliklərdə azalma debet yazılışı vasitəsi ilə balansa daxil edilir. Tədiyə balansının hesablarındakı yazıların çoxu tərəflər arasında iqtisadi qiymətlilər mübadiləsi gedən əməliyyatları əks etdirir: belə iqtisadi qiymətlilərə real resurslar (mallar, xidmətlər, gəlirlər, pul yardımları) və maliyyə resursları (aktivlər və öhdəliklər) aiddir. Bu prinsip əsasında tədiyə balansı 4 hissəyə bölünə bilər: - Cari əməliyyatlar hesabı – buraya ölkənin xarici ticarəti (idxal-ixrac), əldə edilmiş və göstərilmiş xidmətlər, əldə edilmiş və ödənilmiş faktor gəlirlər (əmək haqqı, dividend, faiz, renta və digər bu tip ödənişlər) və cari transfertlər (pul baratları, humanitar yardımlar, qrantlar və s.) aiddir. Kapitalın və maliyyənin hərəkəti hesabı – Kapital hesabı əsasən ölkənin qalan dünya ilə istehsal edilməmiş qeyri-maliyyə

aktivlər üzrə əməliyyatlarını (məsələn, ölkədə xarici səfirliyə satılmış torpaq sahəsi), həmçinin kapital yönümlü digər transfertləri (məsələn, avadanlıq formasında edilmiş humanitar yardım), Maliyyə hesabı isə müxtəlif növ sərmayə axınlarını, yaranmış maliyyə öhdəliklərini və tələblərini ifadə edir (birbaşa və portfel investisiyalar, kreditlər, depozitlər və digər). - Ehtiyat aktivlər – bu maddə Cari əməliyyatlar, Kapital və maliyyənin hərəkəti hesabında baş vermiş əməliyyatların nəticəsi olaraq ölkənin valyuta ehtiyatlarının artıb/azalmasını ifadə edir. Məsələn, əgər Cari əməliyyatlar balansının kəsirini maliyyələşdirmək üçün xaricdən kredit cəlb etmək mümkün deyilsə, bu kəsir Mərkəzi Bankın valyuta ehtiyatları hesabına valyuta bazarına müdaxilə etməklə örtülür. Yuxarıda qeyd olunmuş mühasibatlıq yazılışı qaydalarına əsasən kredit tərəfi "müsbət" işarə ilə aktivin azalmasını, debet tərəfi isə "mənfi" işarə ilə aktivin artmasını ifadə edir. Balanslaşdırıcı maddələr – Konseptual baxımından hər bir əməliyyatın kredit və debet tərəfi olduğundan, balansın yekununda ikili yazılış qaydası üzrə məcmu kredit əməliyyatlarının yekun həcmi məcmu debet əməliyyatlarının yekun həcminə bərabər olmalıdır. Praktikada isə heç bir ölkənin tədiyə balansının tərtibatında buna nail olmaq mümkün deyildir. Xüsusilə ölkənin xarici iqtisadi əlaqələrinin sürətlə genişlənməsi şəraitində bir sıra əməliyyatların dəqiq qeydiyyatını aparmaq daha da çətin olur (informasiyanın tam olmaması, informasiya mənbələri arasında vaxt intervalı, qiymətləndirmələrdə kənarlaşmalar və s.). Əksər hallarda bir əməliyyatın kredit və debet tərəflərini qeyd etmək üçün müxtəlif informasiya mənbələrindən istifadə olunur. Bu mənbələrin biri və ya bir neçəsi natamam olduqda kredit və debet tərəfləri bir birinə bərabər olmur və nəticədə müəyyən fərq yaranır. Bu fərqlər cəmi yekunda balanslaşdırıcı maddələr rolunu oynayır.

«Banklar haqqında» və «Poçt haqqında» Azərbaycan Respublikası qanunlarına, bu Qanuna və onlara müvafiq qəbul etdiyi normativ xarakterli aktlara uyğun olaraq bank fəaliyyətini lisenziyalaşdırır və tənzimləyir, qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarəti həyata keçirir; Banklar məcmu kapitalını və likvid ehtiyatlarını daimi olaraq müəyyən olunmuş səviyyədə saxlamalı, öz öhdəliklərini yerinə yetirmək və zərərə yol verməmək üçün aktivlərin qiymətdən düşməsinə qarşı zəruri tədbirlər görməli, mühasibat sənədlərini və digər zəruri sənədləri qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib etməli, bankın fəaliyyətinə nəzarət mexanizmlərini formalaşdırmalı və tətbiq etməli, zərərin əmələ gəlməsi riskini maksimal şəkildə azaltmaq məqsədi ilə aktivlərin diversifikasiyasını (bölüşdürülməsini) təmin etməlidirlər.

Banklar, Mərkəzi Bankdan aldığı bank lisenziyasında qadağan edilməmiş-dirsə, aşağıdakı fəaliyyət növləri ilə məşğul ola bilərlər: tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi; kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri; fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması; klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi; ödəniş vasitələrinin (o cümlədən kredit və debet kartları, yol çekləri və bank köçürmə vekselləri) buraxılması; öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin (o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin və depozit sertifikatlarının), xarici valyutanın, qiymətli metalların və *qiymətli daşların* , valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, habelə forvard kontraktlarının, svoplara dair sazişlərin, fyuçerslərin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və ya faiz dərəcələrinə aid digər törəmə vasitələrin satın alınması və satılması; qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi; öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması; qiymətli kağızlar bazarında peşəkar fəaliyyət; maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi; kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi; sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq); qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi; Banklar bu Qanunun 32.1-ci maddəsində sadalanan fəaliyyət növlərindən başqa bu Qanunun 33-cü maddəsində göstərilən fəaliyyət növləri istisna olmaqla, digər qanunlarla nəzərdə tutulmuş fəaliyyət növlərini də həyata keçirə bilərlər. Bu Qanunun 32.1-ci maddəsində göstərilmiş

hər hansı fəaliyyət növü üçün qanunvericiliyə əsasən əlavə olaraq xüsusi razılıq (lisenziya) tələb edildikdə, banklar yalnız müvafiq xüsusi razılıq (lisenziya) aldıqdan sonra onları həyata keçirə bilərlər.

Mərkəzi Bank Azərbaycan Respublikasında bank fəaliyyətinin həyata keçirilməsi üçün kredit təşkilatlarına xüsusi razılıqların (lisenziyaların), onların filial və şöbələrinə, habelə nümayəndəlik fəaliyyətinin həyata keçirilməsi üçün yerli və xarici bankların nümayəndəliklərinə icazələrin, maliyyə xidmətlərinin göstərilməsi üçün poçt rabitəsinin milli operatoruna xüsusi razılığın (lisenziyanın) verilməsində və onların ləğv edilməsində müstəsna səlahiyyətə malikdir. Bank fəaliyyətinin həyata keçirilməsi üçün verilən lisenziyaların və icazələrin forma və məzmununu Mərkəzi Bank müəyyənləşdirir.

Kredit təşkilatlarının və poçt rabitəsinin milli operatorunun fəaliyyətinin tənzimlənməsi və nəzarəti üzrə Mərkəzi Bank aşağıdakıları həyata keçirir: bank fəaliyyəti üzrə normativ xarakterli aktları qəbul edir; prudensial normativləri, habelə onların hesablama metodlarını və tətbiqi qaydalarını müəyyən edir; kreditlər və digər aktivlər üzrə ehtimal olunan zərərlərin ödənilməsi üçün banklar, xarici bankların yerli filialları və bank olmayan kredit təşkilatları tərəfindən yaradılan xüsusi ehtiyat fondunun hesablanması və formalaşdırılması qaydasını müəyyən edir; hesabat və yoxlamalar əsasında kredit təşkilatlarının maliyyə vəziyyətini qiymətləndirir və bunun əsasında maliyyə hesabatlarında müvafiq düzəlişlərin edilməsi barədə kredit təşkilatlarına icrası məcburi olan göstərişlər verir; banklarda və xarici bankların yerli filiallarında korporativ idarəetmə standartlarını müəyyən edir və tətbiqinə nəzarət edir; qanunla müəyyən edilmiş hallarda və qaydada kredit təşkilatlarında, habelə onların törəmə təsərrüfat cəmiyyətlərində yoxlamalar aparır; kredit təşkilatları tərəfindən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməsinə nəzarət edir; bank xidmətləri bazarında inhisarçılıq fəaliyyətinin qarşısının alınması məqsədilə səlahiyyətli dövlət orqanı qarşısında məsələ qaldırır; kredit təşkilatlarına və onların inzibatçılarına qarşı qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada təsir (təshih) tədbirlərini və sanksiyaları tətbiq edir; qanuna müvafiq surətdə həyata keçirdiyi nəzarət tədbirlərinin nəticələri tələb etdiyi hallarda, kredit təşkilatlarının idarəetmə orqanlarının iclaslarında müşahidəçi qismində iştirak edir, kredit təşkilatlarının inzibatçıları ilə məsləhətləşmələr aparır; qanunla nəzərdə tutulmuş hallarda, bankların maliyyə sağlamlaş-dırılması tədbirləri çərçivəsində onların Mərkəzi Bank qarşısında kredit öhdəliklərinin yerinə yetirilməsinin xüsusi şərtlərini müəyyən edir; qanunla nəzərdə tutulmuş hallarda banklara və xarici bankların yerli filiallarına müvəqqəti inzibatçı təyin edir, zəruri hallarda, bankın öhdəlikləri üzrə moratorium tətbiq edilməsi barədə məhkəməyə müraciət edir; lisenziyası ləğv olunmuş banklar və xarici bankların yerli filialları haqqında qanunvericiliyə müvafiq tədbirlər görür; qanunla nzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir.

Kredit təşkilatları və poçt rabitəsinin milli operatoru üçün prudensial normativləri müəyyən edərkən, Mərkəzi Bank kredit təşkilatlarının növləri üzrə fərqli normativləri və onların hesablanması metodlarını müəyyənləşdirə bilər.

Azərbaycan Mərkəzi Bankının məqsədlərindən biri də, ödəniş sistemlərinin sabitliyini və inkişafını təmin etməkdir. Azərbaycan Respublikasının Mərkəzi Bankın (AMB) ödəniş sistemləri sahəsində fəaliyyəti onun struktur bölməsi olan Ödəniş sistemləri və hesablaşmalar departamenti tərəfindən həyata keçirilir. Mərkəzi Bank ödəniş sistemlərinin fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların üzərində nəzarəti qanuna uyğun olaraq həyata keçirir. Ödəniş sistemləri üzrə səlahiyyətlər Mərkəzi Bank ödəniş, o cümlədən hesablaşma və klirinq (prosessinq) sistemlərinin sabit işləməsini təmin etmək məqsədi ilə onların fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların fəaliyyətinə nəzarət edir. Mərkəzi Bank normativ xarakterli aktları ilə müəyyən edilmiş qaydada klirinq (prosessinq) təşkilatlarının fəaliyyətinə icazələr verir və nəzarəti həyata keçirir. Mərkəzi Bank Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ölkədə nağdsız hesablaşmaların və kredit təşkilatları vasitəsilə pul köçürmələrinin aparılması qaydalarını və şərtlərini, habelə ödəniş sənədlərinin forma və məzmununu müəyyən edir. Mərkəzi Bank Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və digər normativ hüquqi aktlara

uyğun olaraq bank hesablarının növlərini, onların açılması, aparılması və bağlanması qaydalarını müəyyən edir. Mərkəzi Bank kredit təşkilatlarının istifadə etdikləri elektron hesablaşma və pul köçürmələri, klirinq (prosessinq) sistemlərinin etibarlığının və təhlükəsizliyinin, habelə bank informasiyasının mühafizəsinin təmin edilməsinə aid minimum tələbləri müəyyən edə bilər. Mərkəzi Bank qanunvericiliyə müvafiq olaraq, ödəniş sistemlərinin təşkili sahəsində digər səlahiyyətləri həyata keçirir.

Kredit təşkilatları arasında hesablaşmaların təşkili Mərkəzi Bank ölkə ərazisində fəaliyyət göstərən kredit təşkilatları arasında hesablaşmaları Mərkəzi Bankda milli valyutada (manatda) açdıqları müxbir hesabları vasitəsilə, yaxud beynəlxalq təcrübəyə uyğun olaraq Mərkəzi Bankın müəyyən etdiyi digər üsullarla təşkil edir.

3.5. MƏRKƏZI BANKIN PUL SİYASƏTİ

Mərkəzi banklar pul siyasətinin həyata keçirilməsi istiqamətində müəyyən etdikləri hədəf və məqsədlərə çatmaq üçün müxtəlif vasitələrdən istifadə edirlər. Ancaq bu vasitələrin təsirləri isə ölkədən ölkəyə və ən əsası da ölkələrin iqtisadi səviyyələrinə və struktur özəlliklərinə bağlı olaraq önəmli fərqliliklər göstərməkdədir.

Pul siyasəti iqtisadi siyasətin əsas elementlərindən biridir. Onun strateji məqsədi dövlət orqanları tərəfindən müəyyənləşdirilir. Pul siyasəti element kimi ümumi məqsəd əldə olunınasına şərait yaradır, lakin o, lazımi məqsədə çatmaq imkanında deyil. Monetar orqanlar ancaq müəyyən məqsədlərə nail ola bilərlər. Onlar da digər sahələrdə məqsədə nail olmaga kömək edir və dövlətə iqtisadi siyasətin reallaşdırılması üçün şərait yaradırlar. Monetar orqanlar heç də həmişə pul tədavülünü səmərəli inkışaf etdirməni təmin edə bilmirlər. Bu müvəffəqiyyətsizlik çox zaman dəqiq müəyyənləşmiş strategiyanın olmaması ilə əlaqədar olur. Əgər pul siyasəti pui tədavülünün stabilliyinə gətirib çıxartmırsa, bu o demək deyil ki, pul siyasəti gücsüzdür. Bu ona görədir ki, onun qarşısında pul siyasətinin müvəffəqiyyətini təmin edən məqsədlər qoyulmamışdır.

Pul siyasəti strategiyasının hazırlanması iki mərhələdən ibarətdir: onun son məqsədinin müəyyən edilməsi; cari məqsədin müəyyən edilməsi.

Bütün bu məqsədlərin hamısı monetar orqanlar tərəfindən həyata keçirilir. Pul siyasətinin son məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyininin təmin edilməsidir. Hər bir ölkənin iqtisadi siyasətinin əsasında inflyasiya səviyyəsinin aşağı salınması və ÜDM-in artımı durur. Bildiyimiz kimi, dövlət orqanlarının əsas məqsədi müəyyənləşmiş siyasi iqtisadi tədbirlərin həyata keçirilməsi yolu ilə stabilliyin əldə olunması və bu stabilliyin uzun müddət qorunmasıdır. Ümumi iqtisadi stabillik hər şeydən əvvəl əsas makroiqtisadi göstəricilərin müəyyən vəziyyətini nəzərdə tutur. Bunlara əsasən istehsalın stabil artımı, stabil qiymətlər, işçi qüvvəsinin tam məşğulluğu, tədiyə balansının strukturunda müsbət saldoya nail olmaqdır. Ancaq bu kimi sadalanan nəticələrə nail olmaq üçün monetaristlər belə hesab edirlər ki, bütün bunlara nail olmaq üçün bazar elementləri sərbəst fəaliyyət göstərməlidirlər. İnhisarçı meyllərin həm dövlət, həm də xüsusi sektorda inkişafı rəqabətin öz rolunu yerinə yetirməsinə imkan vermir.

Pul orqanları öz səlahiyyətlərini yerinə yetirmək üçün iki aspekti dəqiq müəyyənləşdirməlidirlər:

1) pul orqanlarının səlahiyyətlərinin müəyyənləşdirilməsi. Belə bir praktika mövcuddur ki, Mərkəzi Banklar bütün əldə olunmuş nailiyyətləri öz adlarına çıxır, uğursuzluqlara görə isə çətinliklərə qarşı duracaq səlahiyyətlərinin olmadıqlarını bəhanə gətirirlər.

2) Pul sisteminin stabilliyi. Həyata keçirilən pul siyasətinin stabilliyi iqtisadi sistemin stabilliyindən xəbər verir. Məsələn, qiymət səviyyəsi stabil olmazsa, həm istehsalçıların və həm də istehlakçıların davranışında dəyişikliklər olacaqdır. Ona görə də M. Fridmen Mərkəzi Bankın həm pul kütləsini və ya uçot dərəcələrini tez-tez kəskin şəkildə dəyişdirməsinin əleyhinə çıxırdı.

Daxili və xarici, taktiki və aralıq məqsədlərin fərqləndirilməsi mütləq bir- birinə qarşı duran kimi qəbul edilir. Əsl həqiqətdə daxili və xarici, taktiki və aralıq məqsədlərin fərqləndirilməsi mütləq deyildir. Əslində onlar arasında sıx əlaqə olduğuna görə pul siyasəti vardır. Bizim təsnifatda taktiki və aralıq

məqsədlərin araşdırılması monetar orqanların səlahiyyət dairəsinin müəyyənləşdirilməsi zərurətindəndir. Belə şəraitdə nəzarət sadələşir, müvəffəqiyyət və müvəffəqiyyətsizliyə görə bir orqan məsuliyyət daşıyır. Pul-kredit tədbirlərinin reallaşdırılması prosesi iqtisadçı alimlər tərəfindən müxtəlif cür pul-kredit tədbirlərinin azad olaraq həyata keçirilməsinin əleyhinə olaraq bəzi monetarçılar onun "Pul konstitusiyası" vasitəsi ilə reallaşdırılmasını irəli sürürlər. "Pul konstitusiyası" dedikdə, əvvəlcədən müəyyənləşdirilmiş tədbirlər paketi nəzərdə tutulur və bu qaydaların çox nadir hallarda dəyişdirilməsi qeyd edilir. Bu qayda və qanunların iqtisadi proqnozlar əsasında hazırlanmasını nəzərdə tuturlar.

Bunun əksinə olaraq son illər pul sisteminin liberallaşdırılması ideyaları geniş yayılmışdır. Bütün bu nəzəriyyələrin əsas məqsədi pul siyasətinin iqtisadi proseslərə təsirinin optimallaşdırılması istiqamətidir. Pul siyasətinin müxtəlif ölkələrdə məqsədlərinin fərqlənməsi monetar orqanların taktikasının seçilməsindən asılıdır.

Pul siyasətinin strategiyası kimi məqsədləri də aşağıdakı kimi təsnifləşdirilir: fəaliyyət sərhədlərinə görə; pul siyasətini daxili və xarici olaraq iki istiqamətə bölmək olar. Fəaliyyət vaxtına görə (taktiki və aralıq) də pul siyasətinin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Taktiki məqsəd dedikdə, pul orqanlarının açıq bazarda ardıcıl əməliyyatlar aparması vəzifələri nəzərdə tutulur. Aralıq məqsəd isə, müəyyən vaxt intervalında iqtisadi dəyişiklərin tənzim edilməsi vəzifələrini ifadə edir. Aralıq məqsədlərə istehsalın nominal həcmi, faiz dərəcəsi, pul kütləsinin artım tempi, qiymət səviyyəsi aiddir.

Pul siyasətinin aralıq məqsədlərindən biri də pul kütləsinin artırılmasıdır. Pul kütləsinin dəyişdirilməsi istehsalın hecminə təsir edir. Lakin bu təsirin hansı səviyyədə olması iqtisadçılar arasında mübahisələrə səbəb olur. Pul kütləsinin artırılması nominal istehsal həcmini artırır. Faiz dərəcəsi ilə pul dövriyyə sürəti arasında asılılıq olduğuna görə Mərkəzi bank daim tədavüldə olan pul kütləsini korrektə etməlidir. Müasir pul nəzəriyyələri pulun dövriyyə sürətinə stabil deyil, dəyişkən səviyyə kimi baxır.

Ümumiyyətlə, pulun dövriyyə sürətinə iki amil faiz norması və inflyasiya səviyyəsi təsir göstərir. Pul siyasətinin aralıq məqsədlərindən biri də qiymət səviyyəsinin nəzarətdə saxlanılmasıdır. Qiymət səviyyəsinin qaxması bütün iqtisadi proseslərə təsir edir. Ona görə də dövlət orqanlarının həyata keçirdikləri iqtisadi siyasətdə bu göstərici əhəmiyyətli yer tutur. Qiymət səviyyəsi müəyyən nöqtədən aşağı düşdükdə Mərkəzi Bank bank sisteminə əlavə ehtiyatlar verməklə məcmu tələbi artırır. Qiymət səviyyəsi müəyyən edilmiş nöqtədən yuxarı qalxdıqda əksinə tədbirlər həyata keçirilir. Pul siyasətinin daimi eyni səviyyədə saxlanılmasının çatışmayan tərəfləri vardır. Bu onunla əlaqədardır ki, bu prosesdə təklifdə ola biləcək şokların nəticələri iqtisadi sistemə mənfi təsir edir. Təklifdə ola biləcək şok zamanı Mərkəzi Bank pul kütləsini sıxmaqla qiymət səviyyəsini eyni saxlamağa çalışır. Bu isə iqtisadi sistemin inkişafının qarşısını alır.

Pul siyasətinin aralıq məqsədlərindən biri də faiz dərəcələrinin iqtisadi aktivliyi stimullaşdıracaq səviyyədə olmasını tənzim etməkdən ibarətdir. Pul siyasəti vasitəsi ilə Mərkəzi Banklar faiz dərəcələrinə təsir edir və onların müəyyən həddən artıq olmasın qarşısını alır. Mərkəzi Bank birbaşa faiz dərəcəsinin səviyyəsini müəyyənləşdirmək imkanında deyildir. Dolayı metodlar vasitəsi ilə faiz dərəcəsini tənzim etmək üçün Mərkəzi Bank uçot dərəcəsindən istifadə edir. Digər tərəfdən açıq bazarda əməliyyatların aparılması faiz dərəcəsinin səviyyəsinə təsir edə bilir. Faiz dərəcəsinin aşağı və ya yüksək olması iqtisadi fəallığa, investisiya mühitinə çox güclü təsir edir.

Ümumiyyətlə, bütün ölkələrdə mərkəzi bankların əsas vəzifəsi çevik pul-kredit siyasətinin aparılması və pul-kredit siyasətinin əsas metodları ilə iqtisadiyyatda tənzimləyici funksiyasını yerinə yetirməkdir. Pul siyasətinin başlıca istiqamətlərində ölkənin makroiqtisadi və makromaliyyə vəziyyəti təhlil edilir, pul-kredit siyasətinin və bank sisteminin inkişafının əsas istiqamətləri əks etdirilir.

Pul siyasətini həyata keçirərkən Mərkəzi banklar iki istiqamətdə hərəkət edə bilər:

1. Birbaşa tənzimləyici gücündən istifadə edərək;

2. Mərkəzi bank dolayı olaraq pul bazarına müdaxilə etmək şərti ilə.

1. Birbaşa pul siyasətinin alətləri. Birbaşa pul siyasətində Mərkəzi Bank məqsədlərini həyata keçirmək üçün bazar qaydaları çərçivəsindən deyil, qanuni qaydalar yolundan istifadə edir.

1.1. Faiz dərəcələrinə nəzarət. MB-nin birbaşa alətləri içərisində ən çox istifadə ediləni - faiz dərəcələri üzərində nəzarət sistemidir. Mərkəzi Bank kredit qurumlarına əmanət və kredit əməliyyatlarına görə faiz dərəcələrinə məhdudiyyət qoya bilər. Bu tətbiqat çərçivəsində müxtəlif sektorlara

müxtəlif faiz dərəcələri tətbiq edilə bilər, və bu zaman stimullaşdırılacaq sektorlara açılacaq kreditlərin faiz dərəcələri aşağı səviyyədə tutulur. Burada məqsəd kredit mənbələrin dövlət proqramına uyğun olaraq prioritet sahələrə verməkdir.

1.2. Kredit limitləri. Mərkəzi Banklar kommersiya banklarının iqtisadi fəaliyyətlə əlaqədar olaraq sektorlara açacaqları kredit miqdarına məhdudiyyət qoya bilər. Açılacaq kreditlərə görə məhdudiyyət limitləri fərqləndirilir. Stimul edilmək istənilən sektorlara ayrılacaq kredit limitlərinin miqdarı yüksək tutulur və burada məqsəd kreditlərin bu sektorlara yönəlməsini təmin etməkdir.

1.3. Fərqliləşdirilmiş reeskont kreditləri**.** Bank bazasında reeskont kvotaları, bankların məqsədlərinə, risk vəziyyətinə uyğun olaraq, likvid ehtiyacı ilə əlaqədar müəyyən edilir. Məqsəd bu kvotaların yardımı ilə yerli bankların reeskont pəncərəsindən daha çox yararlana bilməsini, bununla da bəzi sektorların maliyyə baxımından dəstəklənməsini təmin etməkdir. Məsələn, kənd təsərrüfatı sektoruna daha çox qaynaq transfer edən banklarda Mərkəzi bank tərəfindən reeskont kvotaları yüksək tutulur.

1.4. Disponibilitə tətbiqi. Mərkəzi Bank, kommersiya banklapın aktivlərindəki mənbələrin müəyyən bir nisbətini dövlət istiqraz kağızlarını satın almağa və ya bankların aktivlərinin müəyyən faizini kassalarında nağd olaraq tutmağa məcbur edə bilər.

1.5. Portfeldə finans aktivlərinin yenidən nizamlanması. Mərkəzi Bank, kommersiya banklarının portfellərində tutacaqları maliyyə aktivlərinin nisbətini təsbit edə bilər. Məsələn, satın alınan səhm və iqtiqrazların hansı fəaliyyət sahəsinə aid olmasını, bunların nisbətinin və ya miqdarının nə qədər olacağını müəyyənləşdirə bilir. Beləliklə, finans qurumlarının əllərində olan fondların iqtisadi sektorlara transfer edilməsini təmin etmək mümkündür.

1.6. Reklam və ya rəsmi olmayan göstərişlər. Mərkəzi Bankın ölkədə həyata keçiriləcək pul siyasətinin məqsədləri haqqında media qurumları vasitəsilə ictimaiyyətə açıqlamaları və ya iqtisadi islahatlar haqqında tövsiyə və təklifləri, şirkət və şəxslərin gələcək investisiya qərarlarında dəyişikliyə təsir edə bilər.

2. Dolayı pul siyasəti. Dolayı pul siyasətinin həyata keçirilməsi istiqamətində Mərkəzi Bank pul bazarında bütün iştirakçılar kimi eyni statusda iştirak edir və bazarda gedən dəyişikliklərin təşəbbüskarı birbaşa Mərkəzi Bank deyil, bazardır.

Pul siyasətinin dolayı alətlərinin üç növü mövcuddur: Reeskont siyasəti; Məcburi ehtiyat normaları; açıq bazar əməliyyatı.

2.1. Reeskont siyasəti. Mərkəzi Bank reeskont əməliyyatlarını aparmaqla, likvid keyfiyyəti yüksək olan finans varlıqlarının diskont edilməsi formasında həyata keçirir. Bu yolla Mərkəzi Bank bankların kredit həcmlərinə təsir edə bilər. Reeskont krediti likvidə ehtiyacı olan bankların ən son likvid mənbəyi olan MB bu açığın bağlana bilməsi məqsədi ilə kredit təmin edilməsini qoruyan bir pul-kredit siyasəti alətidir.

2.2. Məcburi ehtiyat normaları. Mərkəzi Bank bu siyasəti həyata keçirməklə, kommersiya banklarına portfellərinin müəyyən bir hissəsini rezerv pul olaraq saxlamaqla (nağd və ya MB-da əmanət formasında) qarşılarına öhdəçilik qoymaqdadır. Başqa sözlə, məcburi ehtiyat normaları bankların passivlərində yer alan bəzi öhdəliklərinin müəyyən bir hissəsinin nağd və faizsiz olaraq MB tərəfindən bron edilməsidir. MEN tətbiqi, bankların əmanətlərinə ani və vaxtaşırı çəkilişlərə qarşı bir yandan əmanət sahiblərinin sistemə olan inamını artırmaqla bərabər, digər tərəfdən pul miqdarına nəzarətdə önəmli bir alət olmuşdur. (Gizli vergi təsiri uyьulamaya görə faiz ödəmələrindən topladıqları əmanətin bir hissəsini faizsiz olaraq MB depo etdiyindən, banklar bu hissədən əldə edəcəyi gəlirdən məhrum olur).

2.3. Açıq bazar əməliyyatı (ABƏ). Açıq bazar əməliyyatı, finans aktivlərinin MB tərəfindən birinci və ikinci bazarda birbaşa və ya tərs depo əməliyyatlarında istifadə edilən maliyyə aktivləri içərisində başlıca yeri cari xəzinə borcları və dövlət istiqraz sənədləri tutur. Açıq bazar əməliyyatı MB-nin tədavüldəki pul kütləsini azaltmaq və ya çoxaltmaq üçün xəzinə bono və истигразлар, özəl sektora aid bəzi истиграз və sənədləri ilə konkret və ya keçici bir müddət üçün alqı-satqı əməliyyatıdır.

Açıq bazar əməliyyatları, bankların likvidlərindəki və bazardakı pul miqdarında dəyişikliyə yol açır. Bankların likvidində meydana gələn dəyişmələr kredit açа bilir və fond həcminə və kredit

siyasətinə təsir edə bilir. Bundan başqa, açıq bazar əməliyyatları bazardakı faiz dərəcəsinə təsir edir. MB qiymətli kağızları satın alarkən bazara likvid çıxdığından faiz dərəcələri aşağı düşəcək, qiymətli kağızın qiyməti artacaqdır. Digər tərəfdən MB bazara qiymətli kağız satarkən, bazardakı likvid azalacaq, faiz dərəcələri yüksələcək, qiymətli kağızların qiyməti aşağı düşəcəkdir.

Pul siyasətinin həyata keçirilməsi məqsədi ilə buraxılan Mərkəzi Bankın borc qiymətli kağızlarının buraxılışı və dövriyyəsi qaydaları qanunvericiliklə müəyyən edilir.

Mərkəzi Bankı uçot dərəcəsini və öz əməliyyatları üzrə faiz dərəcələrini müəyyənləşdirir. Mərkəzi Bankı uçot dərəcəsini müəyyənləşdirərkən ölkədəki mövcud makroiqtisadi durumu və maliyyə bazarının vəziyyətini nəzərə alır. Mərkəzi Bankı öz əməliyyatları üzrə faiz dərəcələrini pul bazarının likvidlik vəziyyətini nəzərə alaraq özünün açıq bazar, yenidənmaliyyələşdirilmə və depozit əməliyyatları üzrə faiz dərəcələrini təsbit etməklə və ya hərraclarda tələb və təklif əsasında müəyyənləşdirir. Mərkəzi Bank müəyyən etdiyi uçot dərəcəsini və öz əməliyyatları üzrə faiz dərəcələrini dərc etdirir. Mərkəzi Bank kredit təşkilatlarına məcburi ehtiyatlar saxlamaq barədə göstəriş verə bilər. Ehtiyatlar depozitlərin faizi nisbətində müəyyən edilir və Mərkəzi Bankda saxlanılır. Tələb olunan ehtiyatların norması, hesablanması və saxlanması qaydası Mərkəzi Bankın İdarə Heyəti tərəfindən müəyyən edilir. Məcburi ehtiyatlar təmin edilmədikdə Mərkəzi Bank ehtiyatı təmin etməyən kredit təşkilatına və onun inzibatçılarına qarşı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş inzibati tənbeh tədbirlərini tətbiq edə bilər.

Pul siyasətinin həyata keçirilməsi məqsədilə Mərkəzi Bank tərəfindən kredit təşkilatlarının yenidən maliyyələşdirilməsi həyata keçirilir. Bu zaman verilən kreditlər dövlət qiymətli kağızları, dövlətin və digər etibarlı emitentlərin qarantiyaları və zaminliyi, xarici valyuta, qızıl, müxtəlif formada qiymətli metallar və digər aktivlərlə təmin olunmalıdır. Belə kreditlər 6 aydan çox olmayan müddətə verilir və həmin müddətə uzadıla bilər. Yenidən maliyyələşdirilmənin forma, qayda və şərtlərini Mərkəzi Bankın İdarə Heyəti müəyyən edir. Kreditlər yalnız milli valyutada (manatla) kredit təşkilatlarının baş idarələrinə verilir.

Mərkəzi Bank özünün müəyyən etdiyi şərtlərlə və qarşılıqlı razılaşma əsasında kredit təşkilatlarından depozitlər cəlb edə bilər. Pul siyasətinin həyata keçirilməsi məqsədilə istisna hallarda qanunvericiliyə müvafiq olaraq Mərkəzi Bankı kredit təşkilatları tərəfindən aparılan ayrı-ayrı əməliyyatları müvəqqəti məhdudlaşdıra, o cümlədən onların əməliyyatları üzrə faiz dərəcələrinin aşağı və yuxarı hədlərini müəyyənləşdirə bilər.

Mərkəz Bankın fəaliyyətinin əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsini nəzərə alaraq Milli Bank monetar amillərdən asılı olaraq dəyişən baza inflyasiya göstəriъisini hədəfləyir. Baza inflyasiya üzrə hədəf MB tərəfindən hər növbəti il üçün işlənən və iътimaiyyətə bəyan olunan pul siyasətinin əsas istiqamətlərində öz əksini tapır. Pul siyasəti üzrə son məqsədə nail olmaq üçün aralıq hədəflər müəyyən edilir. Baza inflyasiya üzrə illik hədəfə nail olmaq üçün pul siyasətinin aralıq hədəfləri kimi pul kütləsindən və Nominal Effektiv Məzənnədən (NEM) istifadə edilir. Hədəf götürülən inflyasiya səviyyəsindən asılı olaraq tələb olunan pul kütləsinin artım həddi və eləъə də NEM-nin dəyişim trayektoriyası təyin edilir. Sonra bu göstəriъilər pul siyasətinin tətbiqi üçün istiqamət rolunu oynayır. Azərbayъanda pul siyasətinin aralıq məqsədləri kimi pul kütləsi və NEM-dən istifadə olunması uzunmüddətli dövrdə inflyasiyanın dinamikasının əsasən məhz bu parametrlərdən asılı olması ilə əlaqədardır.

Pul siyasətinin aralıq hədəflərindən asılı olaraq onun əməliyyat hədəfləri müəyyənləşdirilir. Pul siyasətinin əməliyyat hədəfləri pul bazası və manatın ABŞ dollarına nəzərən ikitərəfli nominal məzənnəsidir. Bu göstəriъilərdən əməliyyat hədəfləri kimi istifadə edilməsi ölkənin maliyyə bazarlarının xüsusiyyətləri ilə əlaqədardır. Belə ki, sərənъamda olan pul siyasəti alətləri vasitəsilə Мяркязи Bank pul bazasına və ikitərəfli məzənnəyə digər potensial operativ hədəflərə müqayisədə daha effektiv təsir göstərə bilir.

Pul siyasətinə dair gündəlik qərarlar pul bazasının və ABŞ dollarının məzənnəsinin dəyişimində dərhal öz əksini tapır. Pul bazasının və manatın ABŞ dollarına nəzərən məzənnəsinin dəyişimi isə pul kütləsinə və NEM-ə təsir göstərir. Bu da müəyyən vaxt ərzində inflyasiya üzrə hədəfə nail olmağa imkan verir. Operativ hədəflərdən asılı olaraq pul siyasəti alətlərinin kəmiyyət

parametrləri, o cümlədən açıq bazar əməliyyatlarının həcmi, valyuta mübadiləsinin məbləği və s. müəyyənləşdirilir.

Azərbaycan Mərkəzi Bank qarşıdakı il üçün dövlətin pul siyasətinin əsas istiqamətlərini oktyabr ayının 1-dən gec olmayaraq, Azərbaycan Respublikası Prezidentinə təqdim edir və dekabr ayının 31-dək kütləvi informasiya vasitələrində ictimaiyyətə açıqlayır. Pul siyasətinin əsas istiqamətlərini açıqlayarkən, Mərkəzi Bank cari ildə həyata keçirilən pul siyasətinin yekunlarını, habelə qarşıdakı il üçün müəyyən etdiyi pul siyasətinin məqsəd və vəzifələrini, Mərkəzi Bankdan asılı olan və asılı olmayan amilləri də əks etdirməklə onların həyata keçirilməsi yollarını göstərir.

Maliyyə bazarlarının inkişaf səviyyəsini nəzərə alaraq MB 2007-ci ildən etibarən pul siyasətinin beynəlxalq ətandartlara uyğunlaşdırılması çərçivəsində «faiz dərəcələri dəhlizi» yanaşmasının tətbiqini nəzərdə tutur. Yeridilən pul siyasətinin reallaşması mexanizmlərinin mütərəqqi formalarından olan faiz dəhlizinin tətbiqiqı yeni əməliyyat strukturunu nəzərdə tutmaqla MB iqtisadiyyatda pulun dəyərinə təsir etmək imkanlarının genişləndirəcəkdir.

Mərkəzi Bank Pul siyasətini aşağıdakı alətlər vasitəsilə həyata keçirir:

1. açıq bazarda əməliyyatların aparılması;
2. faiz dərəcələrinin müəyyənləşdirilməsi;
3. kredit təşkilatları üçün məcburi ehtiyatların müəyyənləşdirilməsi;
4. kredit təşkilatlarının yenidən maliyyələşdirilməsi;
5. depozit əməliyyatlarının aparılması;
6. bank əməliyyatlarının məhdudlaşdırılması;
7. beynəlxalq təcrübədə qəbul edilmiş pul siyasətinin digər alətləri.
8. Mərkəzi Bank bu Qanunla müəyyən edilmiş məqsəd və funksiyalarına uyğun olaraq bu Qanunun 29.1-ci maddəsində göstərilənlərdən özünün məqbul hesab etdiyi alətləri tətbiq edir.

Mərkəzi Bank pul siyasəti üzrə hədəflərinə nail olmaq üçün faiz dəhlizinin parametrləri, məcburi ehtiyat normaları, açıq bazar əməliyyatları kimi alətlərdən aktiv istifadə etmişdir. Mərkəzi Bank açıq bazarda aşağıdakı əməliyyatları apara bilər: dövlətin buraxdığı qiymətli kağızlarla alqı-satqı və digər əməliyyatlar; özünün buraxdığı qiymətli kağızlarla alqı-satqı və digər əməliyyatlar; xarici valyuta ilə alqı-satqı və digər əməliyyatlar.

Pul siyasətinin həyata keçirilməsi məqsədi ilə buraxılan Mərkəzi Bankın borc qiymətli kağızlarının buraxılışı və dövriyyəsi qaydaları qanunvericiliklə müəyyən edilir.

Mərkəzi Bank uçot dərəcəsini və öz əməliyyatları üzrə faiz dərəcələrini müəyyənləşdirir. Mərkəzi Bank uçot dərəcəsini müəyyənləşdirərkən, ölkədəki mövcud makroiqtisadi durumu və maliyyə bazarının vəziyyətini nəzərə alır. Mərkəzi Bank öz əməliyyatları üzrə faiz dərəcələrini pul bazarının likvidlik vəziyyətini nəzərə alaraq özünün açıq bazar, yenidənmaliyyələşdirilmə və depozit əməliyyatları üzrə faiz dərəcələrini təsbit etməklə və ya hərraclarda tələb və təklif əsasında müəyyənləşdirir. Mərkəzi Bank müəyyən etdiyi uçot dərəcəsini və öz əməliyyatları üzrə faiz dərəcələrini dərc etdirir.

Mərkəzi Bank kredit təşkilatlarına məcburi ehtiyatlar saxlamaq barədə göstəriş verə bilər. Məcburi ehtiyatlar Mərkəzi Bank tərəfindən pul siyasətinin həyata keçirilməsində istifadə olunan əsas alətlərdən biri olaraq pul kütləsini və bank sisteminin likvidliyini tənzimləyən mexanizmdir. Ehtiyatlar depozitlərin faizi nisbətində müəyyən edilir və Mərkəzi Bankda saxlanılır. Tələb olunan ehtiyatların norması, hesablanması və saxlanması qaydası Mərkəzi Bankın İdarə Heyəti tərəfindən müəyyən edilir.

Məcburi ehtiyatlar təmin edilmədikdə, Mərkəzi Bank ehtiyatı təmin etməyən kredit təşkilatına və onun inzibatçılarına qarşı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş inzibati tənbeh tədbirlərini tətbiq edə bilər.

Məcburi ehtiyatlar depozitlərin valyutasında (manat və xarici valyuta) Mərkəzi Bankda bankın müvafiq müxbir hesablarında saxlanılır.

Pul siyasətinin həyata keçirilməsi məqsədilə Mərkəzi Bank tərəfindən kredit təşkilatlarının yenidən maliyyələşdirilməsi həyata keçirilir. Bu zaman verilən kreditlər dövlət qiymətli kağızları, dövlətin və digər etibarlı emitentlərin qarantiyaları və zaminliyi, xarici valyuta, qızıl, müxtəlif formada qiymətli metallar və digər aktivlərlə təmin olunmalıdır.

Yenidən maliyyələşdirilmənin forma, qayda və şərtlərini Mərkəzi Bankın İdarə Heyəti müəyyən edir. Kreditlər kredit təşkilatlarının baş idarələrinə verilir.

Depozit əməliyyatları Mərkəzi Bank özünün müəyyən etdiyi şərtlərlə və qarşılıqlı razılaşma əsasında kredit təşkilatlarından depozitlər cəlb edə və onlarda depozitlər yerləşdirə bilər.

Pul siyasətinin həyata keçirilməsi məqsədilə istisna hallarda, qanun-vericiliyə müvafiq olaraq, Mərkəzi Bank kredit təşkilatları tərəfindən aparılan ayrı-ayrı əməliyyatları müvəqqəti məhdudlaşdıra, o cümlədən onların əməliyyatları üzrə faiz dərəcələrinin aşağı və yuxarı hədlərini müəyyənləşdirə bilər.

3.6. QLOBAL BÖHRANLARIN ŞİDDƏTLƏNMƏSİ MÜHİTİNDƏ AZƏRBAYCAN MƏRKƏZ BANKININ PUL SİYASƏTİNİN İSTİQAMƏTLƏRİ

Sistemli bank böhranın başlanğıcı ümumilikdə bank sektorunda müstəsna rolu olan bir və ya bir neçə bankın ödəmə qabiliyyətində ciddi problemlərin yaranması ilə bağlı ola bilər. Bu cür bankların dağılması «domino effekti»ni təhrik edə və bununla da sistemli böhran yarada bilər.

Bazar iqtisadiyyatı şəraitində bank böhranları qanunauyğun haldır və ona xas olan immanent disproporsiyalar və ziddiyyətlərlə şərtləndirilir. Bu çərçivədə bank sektorundakı böhranların səbəblərini araşdıran elmi-tədqiqat işləri son illər artmaqdadır.

Məlum olduğu kimi, dünya maliyyə böhranı (2008) Amerikanın daşınmaz əmlak bazarında möhtəkirlikdən başlanmışdır. Bundan başqa, törəmə maliyyə alətlərinin yaranma səbəblərindən biri risklərdən qorunmaq olsa da, onların spekulyativ məqsədlə istifadəsi sürətlə artdı. İpoteka "köpüyü" partlayaraq, bütün dünyada bank sektorundakı böhrana təkan vermişdir ki, bu da öz növbəsində, dünyanın bütün dövlətlərinin iqtisadiyyatında real sektorda resesiyya səbəb olmuşdur. Bütün bunlar maliyyə bazarlarında güvən amilinin itməsinə və panikanın yayılmasına gətirib çıxardı. Amerikanın bank sistemində başlayan böhran sürətlə dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrinə yayıdı.

ABŞ iqtisadiyyatda dərinləşən tənəzzül meylləri qlobal iqtisadi artıma mənfi təsir edən mühüm amillərdən biridir. ABŞ iqtisadiyyatında tələbin zəifləməsi Avropanın ixracyönümlü iqtisadiyyata malik ölkələrində iqtisadi fəallığa ciddi ziyan vurmuşdur. 2008-ci ildə Avrozonada real iqtisadi artım 0,8% və ya əvvəlki ildən 1,8% bəndi az təşkil etmişdir.

Kredit standartlarının şərtləndirilməsi və daşınmaz əmlak bazarında böhran investisiya qoyuluşlarına ciddi mənfi təsir göstərmişdir.

Maliyyə böhranının təsirləri dünya maliyyə bazarında baş verən dəyişikliklər neftin qiymətinin kəskin ucuzlaşması bir sıra ölkələrdə iri bankların və şirkətlərin müflisləşməsi, kütləvi işsizliyə, dünya iqtisadiyyatının durğunluq dövrünü yaşamasına və nəticə etibarı ilə qlobal iqtisadiyyatın tənazül dövrünə keçməsinə səbəb olmuşdur.

Böhranın qarşısını almaq və onun təsirini minimallaşdırmaq üçün antiböhran tədbirləri görülür, dünyanın aparıcı dövlətləri tərəfindən istehsalı bərpa etmək və bankları risklərdən qorumaq üçün maliyyə yardımları göstərilir.

Qlobal maliyyə böhranına baxmayaraq, 2008-ci ildə Mərkəz Bankının pul siyasəti ölkədə makroiqtisadi dayanıqlığın qorunmasında aktiv rol oynamışdır.

Qlobal maliyyə böhranı (2008) və postkrizis ssenarisinin inkişafı

Beləliklə, 2007- 2008 –ci illərdə başlanan və indiyədək davam edən qlobal maliyyə böhranını 4 mərhələyə bölmək olar:

5. Anglo- sakson maliyyə böhranı (2007 –ci ilin yaz ayından 2008- ci ilin mart ayınadək). Qlobal böhranının ilk mərkəzi ABŞ ipoteka bazarında problemlərin yaranması ilə meydana çıxdı və ABŞ-ın ən iri ipoteka Bankının "Bear Stearns" qurtarılmasına yönəlik başlanan əməliyyat oldu.

6. Hüdüd çəkmə vəya sərhəd çəkmə (decoupling, mart- avqust 2008- ci il). Böhran bütünlüklə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrə yayıldı, ancaq bununla yanaşı ümid varqlmaqda idi ki, böhran inkişaf etməkdə ölkələrə təsir etməyəcək və nəticədə onların dinamik iqtisadi inkişafı burulğan içində olan ölkələrin xilas edilməsində əsas katalizator olacaqdır.

7. Kredit daralma əməliyyatı (de-leveraging,sentyabr- noyabr 2008 ci il). Qlobal böhranın inkişaf etməkdə ölkələrə bulaşması və inkişaf etmiş ölkələrdə resesiyanın başlanması haqqında rəsmilərin etirafları. Dünyanın bir çox ölkələrində bank sisteminin kollaps təhlükəsinin başlanğıcı.

8. Emissionla vurulmaq vəya doldurmaq (quantitative easing, noyabr 2008 –ci ilin sonundan indiyədək olan müddətə). Dünya ökələrinin əksər hökümətləti istehsalat kollapsına yol verməmək üçün monetar və fiksal xarakterli çox çesidli tədbirlər paketi hazırladı və məqsəd ilk növbədə, pul təklifini artırmaqla tələbi stumallaşdırmaqdır.

2008 –ci il qlobal maliyyə böhranının izlədiyi yol xəritəsi:



Bank böhranının hərarət dərəcənin şıddətlənməsinə təsir edən amillər aşağıdakılardır:

1.Faiz dərəcələrində yüksəlmə;

2.Bankın balansındakı pozuntular;

3.Fond birjasında çöküş;

4. Iqtisadiyyatda qeyri- müəyyənsizliyin artımı.

2007- 2008 -ci illərdə ABŞ baş verən böhranın daha çox "finans infeksiyası"[1] kimi yeni fenomenin nəticəsi olduğu aydınlaşandan sonra yeni dünya finans böhranının yaranma təhlükəsi xüsusilə kəskin şəkildə qəbul olunmağa başladı. 2008-ci ilin II yarısı - fond indekslərində azalma: 70-80%, global maliyyə sektorunda itkilər: 3 trln. $ və ya qlobal ÜDM-in 4.3%-i təşkil etmişdir.

2007 – 2008 ci il böhranından sonra ABŞ hökümət bankların struktur yenilənməsinə sərf etdiyi birbaşa maliyyə məsrəfləri ÜDM-un 38,7 %-ni təşkil edir, yəni rəqəmlə ifadə etsək- 5500 mlr. $. Avrozonada isə, böhranın qarşısının alınması ilə əlaqədar məsrəflər ÜDM-un 23,4%-i həcminə çatmışdı(3285mlr. $), o cümlədən AFR hökümətinın antiböhran proqramının həcmi 500 mlr. Avro, Fransada 360 mlr. Avro, İrlandiyada 400 mlr. Avro təşkil etmişdir.

Ölkələr üzrə açıklanan maliyyə paketleri (UDM nisbəti,%)

Ölkələr	2008	2009	2010
Çin	0,4	3,1	2,7
G. Koreya	1,1	3,9	1,2
Rusiya	0	4,1	1,3
ABD	1,1	2	1,8
G.Afrika	1,7	1,8	-
Kanada	0	1,9	1,7
Almaniya	0	1,6	2
Meksika	0	1,5	-
Yaponya	0,3	2,4	1,8
Fransa	0	0,7	0,8

[1] Müəllif 1997-ci il dekabr ayında Rusiya Banklar Birliyində bu mövzuda çıxışına görə mükafata və diploma layiq görülmüşdür. Bundan başqa, Moskvada 2009-cu ildə yayınlanan «банковская система РФ и ее антикризисное регулирование» dərslik vəsaitində "finans infeksiyası" terminin Z.F.Məmmədova aid olduğu haqqlnda istinad verilir.s. 180.

Hindistan	0,6	0,6	0,6
Türkiyə	0	0,8	0,3
Brezilya	0	0,6	0,8

Son məlumatlara görə hazırki finans böhranı nəticəsində dünya üzrə bankların məcmu itkiləri 700 mlrd dollardan çox təşkil edir, bunlardan yarıya qədəri Amerika banklarının payına düşür. Banklar bu məbləğin təxminən 50%-ni artıq yeni kapitalın cəlb olunması hesabına kompensasiya edə biliblər. Lakin BMF-nun son hesablamalarına görə bankların itkilərinin məbləği iki dəfədən də çox-1,6 trln. dollaradək arta bilər.

Beləliklə, Qlobal maliyyə böhranı (2008) və postkrizis ssenarisinin inkişafı ardıcılıqla aşağıdakı kimi olmuşdur:

8. ABŞ ipoteka kreditləşmə sisteminin çöküşü;
9. kredit həcminin azaldılması və kredit xəttinin açılmasına ciddi nəzarət;
10. Fond indekslərinin aşağı doğru meyli;
11. büdcə defiçitlərinin artımı;
12. Real sektorda geriləmə;
13. işsizliyin güclənməsi;
14. istehlak xərclərinin azalması.

Qlobal böhranın Azərbaycana təsir kanalları

Qlobal maliyyə böhranın Azərbaycana təsir kanalları aşağıdakılardır:

1. Neft və digər yanacaq ixrac məhsullarının qiymətinin dünya bazarında azalması.

İxracın 90%-dən, büdcə gəlirlərinin isə 60%-dən çoxu neft sektoru hesabına formalaşır. (AR MB hesablamalarına görə, neftin qiymətinin hər 1% azalması qeyri-neft ÜDM-ni 0.13% azaldır, büdcə xərclərinin hər 1% azalması isə ÜDM-i 0.3% azaldır).

2.Beynəlxalq maliyyə bazarında likvidlik çatışmamazlığı vəya banklararası kredit böhranı nəticəsində xarici maliyyə mənbələrinə çıxış imkanlarının məhdud vəziyyətə düşməsi.

3. Pul baratlarının azalması - təkcə Rusiyadan ötən il 930 mln. dollar gəlib).Baratların azalması istehlak fəallığına mənfi təsir edir (baratların hər 1% azalması qeyri-neft ÜDM-in 0.06% azalması effektini verir)

4. ABŞ və AB ölkələrində resessiya**.** Qlobal tələbin azalması nəticəsində (əsasən, ABŞ və AB ölkələrində resessiya)qeyri-xammal Ixracı azalmaqdadır (ixracın azalması qeyri-neft sənayesində artıma mənfi təsir göstərir).

Qlobal maliyyə böhranının təsiri Azərbaycan maliyyə sisteminə daha çox psixoloji xarakterli olmuş və maliyyə institutlarını inkişaf strategiyalarını yenidən nəzərdən keçirməyə sövq etmişdir. Əlverişsiz xarici mühitə baxmayaraq Azərbaycan bank sistemi reallaşan risklərə davamlılıq nümayiş etmişdir.

Beləliklə, qlobal maliyyə böhranın yayğınlaşdığı kontekstində Azərbaycanda maliyyə sabitliyi qorunub saxlanılması ilə səciyyələnmış, bank sistemində sabitlik və artım dinamikası təmin olunmuşdur.

Beləliklə, qlobal maliyyə və iqtisadi böhran şəraitində makroiqtisadi sabitliyin qorunub saxlanılması, dövriyyədə pul kütləsinin artmasına nəzarətin gücləndirilməsi və maliyyə intizamının sərtləşdirilməsi, uğurla həyata keçirilən neft strategiyası nəticəsində ölkənin getdikcə artan maliyyə ehtiyatlarından istifadənin səmərəliliyinin artırılması, istehlak bazarına nəzarətin gücləndirilməsi, iqtisadiyyatda sağlam rəqabət mühitinin formalaşması ilə bağlı bir sıra vacib tədbirlərin, infrastruktur lahiyələrin və digər sosial və iqtisadi proqramların icra olunması və həyata keçirilməsi Azərbaycan iqtisadiyyatına müsbət təsir göstərəcəkdir. Bu tədbirlərin həyata keçirilməsi Azərbaycan vətəndaşlarının rifahının yaxşılaşmasına və gəlirlərinin sabitləşməsinə əhəmiyyətli dərəcədə təsir edəcəkdir.

Mərkəzi Bank 2009-cu il üçün bəyan etdiyi pul siyasətinin əsas istiqamətlərinə uyğun olaraq hesabat dövründə makroiqtisadi tarazlığın və dayanıqlığın təmin olunmasına, habelə bank sistemində maliyyə sabitliyinin qorunmasına yönəldilmiş pul və məzənnə siyasəti yeritmişdir. Rüb ərzində əsasən qonşu ölkələrdə gedən devalvasiyanın psixoloji təsiri ilə valyuta bazarında

dollara tələbat art-mışdır. Bazarın vaxtında tənzimlənməsi sayəsində manatın məzənnəsi sabit qalmış və nəticədə ilin əvvəlindən bəri manat ABŞ dollarına qarşı cəmi 0.2% ucuzlaşmışdır. Tədiyə balansının tarazlığı manatın məzənnəsinin sabit qalmasının əsas faktoru olmuşdur. Manatın sabit qalması dövr ərzində inflyasiyanın artmamasına, iqtisadi subyektlərin maliyyə itkilərindən qorunmasına imkan vermişdir.

Beləliklə, qlobal maliyyə böhranın (2008) yayğınlaşdığı kontekstində Azərbaycanda maliyyə sabitliyi qorunub saxlanılması ilə səciyyələnmış, bank sistemində sabitlik və artım dinamikası təmi olunmuşdur. Özəlliklə, Azərbaycan Mərkəzi Bankın məzənnə siyasəti makroiqtisadi sabitliyin qorunmasında təqdirəlayiq yerə sahibdir.[2] Nəzərə alsaq ki, 2009-cu il I rübündə Rus rublunun devalvasiya səviyyəsi 12%, Türk lirəsi 10%, Qazax təngəsi 20%, Ukrauna qrivnası 54%, Belarus rublu 34% və Erməni dramı 20% təşkil etdiyi halda, Azərbaycan Manatı isə ABŞ dollarına qarşı məzənnəsi il ərzində 5,2 % möhkəmlənmişdir.

Ticarət partnyoru olan ölkələrin valyutalarına nəzərən ikitərəfli nominal məzənnələrinin dəyişiminin ticarət xüsusi çəkiləri nəzərə alınmaqla həndəsi ortasını əks etdirən manatın nominal effektiv məzənnəsi 2009-cu ilin I rübündə ümumi ticarət dövriyyəsi üzrə 7.9% bahalaşmışdır ki, bu da orta illik inflyasiyanın birrəqəmli səviyyəyə düşməsinə müsbət təsir göstərmişdir. Real effektiv məzənnə isə bu dövrdə 4.2% möhkəmlənmişdir. Partnyor ölkələrin əksəriyyətində inflyasiya getdiyi halda Azərbaycanda deflyasiyanın baş verməsi real effektiv məzənnəyə azaldıcı təsir göstərmişdir. Qlobal böhranın ölkə iqtisadiyyatına təsirini minimuma endirmək üçün 2008-ci ilin sonlarından başlanan pul siyasətinin yumşaldılması 2009-cu ilin I rübündə də davam etdirilmişdir. Ölkədə inflyasiya gözləntilərinin azalmasını nəzərə alaraq və işgüzar aktivliyin yüksəldilməsi məqsədilə hesabat dövrü ərzində uçot dərəcəsi 8%-dən 3%-ə, faiz dəhlizinin yuxarı həddi isə 13%-dən 8%-ə endirilmişdir. Məcburi ehtiyat normaları 6%-dən 0.5%-ə salınmışdır. Beləliklə rüb ərzində Mərkəzi Bank tərəfindən likvidliyin verilməsi əməliyyatları aktivləşdirilmiş, likvidliyin cəlb olunması alətləri isə məhdudlaşdırılmışdır. Rüb ərzində Mərkəzi Bankın təkrar maliyyələşdirmə əməliyyatlarının həcmi 10% artmışdır. Həm manat, həm də xarici valyuta ilə məcburi ehtiyat normasının azaldılması hesabına isə I rüb ərzində bank sisteminə 247 mln. manat likvidlik verilmişdir. Nəticədə son illər ərzində ilk dəfə olaraq likvidliyin verilməsi alətlərinin (yenidənmaliyyələşdirmə, tərs REPO, SVOP) həcmi ilə likvidliyin cəlb olunması alətlərinin (not portfeli, REPO, məcburi ehtiyatlar) fərqini xarakterizə edən likvidlik saldosu pozitiv zonaya keçmişdir.

Bütün bunlar bankların likvid vəsaitlərinin artması ilə müşaiyət olunmuş və pul təklifinin əhəmiyyətli azalmasının qarşısını almışdır. Rübün sonuna ötən ilin müvafiq dövrü ilə müqayisədə manatla pul bazasının artım tempi 14%, manatla geniş pul kütləsinin artımı isə 7.1% təşkil etmişdir. Pul kütləsinin qeyri-neft Ümumi Daxili Məhsula nisbəti 31%-ə çatmışdır. Mərkəzi Bankın makroiqtisadi sabitliyə yönəldilmiş pul və məzənnə siyasəti ölkədə maliyyə sabitliyinin qorunmasına yardım etmişdir.

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən qəbul edilmiş mühüm pul siyasəti və makro – prudensial idarəetmə qərarları

Mərkəzi Bankın yenidənmaliyyələşdirmə əməliyyatları aktivləşdirilmiş və 2009-cu ilin 7 ayında AMB-nin kredit portfeli 3.5 dəfə artmışdır. Azərbaycan Respublikasının Prezidentinin 9 iyul 2009-cu il tarixli Fərmanı ilə Mərkəzi Bankın pul siyasəti və bank sisteminin tənzimlənməsi sahəsindəki siyasətinin çevikliyini artıaran **"**Azərbaycan Respublikasının Milli Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr qüvvəyə minmişdir. Dəyi-şikliklərə görə Mərkəzi Bank artıq daha uzun müddətə və müxtəlif valyutalarda banklara kreditlər, o cümlədən subordinasiya kreditləri verə bilər. Eyni zamanda Mərkəzi Bank real sektorun dəstəklənməsi məqsədilə dövlət zəmanəti əsasında bankları kreditləşdirmək hüququna malikdir.

[2] Z.F. Məmmədov, 02.11.2008 – ci il və 12.02.2009 tarixlərində www. 1st News mühasibəsində «Правительство Азербайджана не должно допустить снижения курса маната по отношению к иностранным валютам» manatın devalvasiya olmayacağını və hətta manatın regional valyuta olma imkanlarını proqnozunu vermişdir. Halbuki, Azərbaycan və xaricdə müxtəlif dairələr tərəfindən ortaya atılmış şayiələr gəzirdi ki, manat devalvasiyaya uğrayacaq, manatın məzənnəsi düşəcək və guya ki, bu referendumdan sonra baş verəcəkdir. Bu mövzuda deyilən və yazılanlar fiaskoya uğradı.

Yeni qanunverici bazanı əsas götürərək AMB-də 28 iyul 2009-cu il tarixində "Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən banklara kreditlərin verilməsi qaydaları" təsdiq olunmuşdur. Bu sənəddə pul siyasətinin həyata keçirilməsi, maliyyə sabitliyinin təmin olunması, kapital adekvatlığı probleminin tənzimlənməsi, habelə dövlət əhəmiyyətli layihələrin maliyyələşdirilməsi məqsədilə müxtəlif müddətlərə kreditlərin verilməsi qaydaları öz əksini tapmışdır. Daxili maliyyə bazarlarının inkişafının dəstəklənməsi istiqamətində Mərkəzi Bankın iştirakı ilə Mütəşəkkil Banklararası Kredit Bazarında təminat sistemi yaradılmışdır.

14. Oktyabr 2008- ci il

•Uçot dərəcəsi 15%-dən 12%-ə endirilmiş, faiz dəhlizinin yuxarı həddi 20%-dən 17%-ə salınmışdır;

•Milli və xarici valyutada öhdəliklər üzrə məcburi ehtiyat normaları 12%-dən 9%-ə, bankların xarici öhdəlikləri üzrə məcburi ehtiyat norması 5%- dən 0%-ə endirilmişdir. Bununla bank sisteminə 220 mln. manat likvidlik verilmişdir.

• Həm manat, həm də xarici valyutada məcburi ehtiyat normalarının ortalama müddəti 1 ayadək uzadılmışdır.

31. Oktyabr 2008 ci il

•Uçot dərəcəsi 12%-dən 10%-ə endirilmişdir;

•Faiz dəhlizinin yuxarı həddi 15%, aşağı həddi isə 1% müəyyən edilmişdir;

1.12.2008.

•Uçot dərəcəsi 10%-dən 8%-ə, faiz dəhlizinin yuxarı həddi 13%-ə endirilmişdir;

•Milli və xarici valyutada öhdəliklər üzrə məcburi ehtiyat normaları 9%-dən 6%- ə endirilmişdir. Bununla bank sisteminə 125 mln. manatlıq likvidlik dəstəyi verilmişdir.

1.02.2009.

•Uçot dərəcəsi 5%-ə, faiz dəhlizinin yuxarı həddi 10%-ə endirilmişdir;

•Milli və xarici valyutada öhdəliklər üzrə məcburi ehtiyat normaları 6%-dən 3%- ə endirilmişdir. Bununla bank sisteminə 135 mln. manatlıq likvidlik dəstəyi verilmişdir.

10.02.2009

•Mərkəzi Bank tərəfindən valyuta svopu əməliyyatlarının aparılmasına başlanılmışdır.

02. Mart 2009.

•Uçot dərəcəsi 3%-ə, faiz dəhlizinin yuxarı həddi 8%-ə endirilmişdir;

•Milli və xarici valyutada öhdəliklər üzrə məcburi ehtiyat normaları 3%-dən 0, 5%-ə endirilmişdir. Bununla bank sisteminə 111 mln. manatlıq likvidlik verilmişdir.

25. May.2009.

•Uçot dərəcəsi 2%-ə, faiz dəhlizinin yuxarı həddi 7%-ə endirilmişdir.

Pul Siyasəti alətlərinin dərəcələri üzrə qəbul edilmiş qərarlar

	Faiz dəhlizi			Məcburi ehtiyat norması
	Yuxarı həddi	Uçot dərəcəsi	Aşağı həddi	
14.10.08	17%	12%	3%	9%
31.10.08	13	8	1	6
01.12.08	13	8	1	6
01.02.09	10	5	1	3
01.03.09	8	3	1	0.5
25.05.09	7	2	1	0.5

Pul siyasəti ilə bağlı digər işlər
Maliyyə sabitliyinin qorunması ilə bağlı qərarlar

1. Aktivlərin təsnifat dərəcələri sərtləşdirilmişdir:

- Nəzarət altında olan aktivlər 6%-dən 10%-ə qaldırılmış (30.04.08);

- Qeyri-qənaətbəxş aktivlər 25%-dən 30%-ə yüksəldilmiş (30.04.08);
- Təhlükəli aktivlər 50%-dən 60%-ə artırılmışdır (30.04.08).

2. Daşınmaz əmlakla təminata qarşı tələblər 120%-dən 150%-ə artırılmışdır. (30.04.08).

3. Subordinasiya borclarının məcmu kapitalda iştirakı məhdudlaşdırılmış (18.02.08):

- Subordinasiya borcunun maksimal məbləği birinci dərəcəli kapitalın 50%-i həddində müəyyən edilmişdir.

4. İpoteka kreditlərinin risk dərəcəsi 50%-dən 100%-ə artırılmışdır (18.02.08).

5. "Banklarda kreditlərin verilməsi Qaydaları"na dəyişikliklərlə borcalanın maliyyə vəziyyətinin və onun krediti qaytarma qabiliyyətinin qiymətləndirilməsinə, həmçinin borcalanın fəaliyyətinə daimi monitorinqə və bütövlükdə kredit portfelinin keyfiyyətinə nəzarət olunmasına dair tələblər genişləndirilmişdir. (18.11.08)

6. Açıq valyuta mövqeyinin hesablanması metodikası təkmilləşdirilmiş, o cümlədən, balansdankənar hesablar üzrə dəqiqləşdirilmələr aparılmış, mövqelərin hesablanmasında bank metalları ilə aparılan əməliyyatların əks etdirilməsinə başlanılmışdır. (17.12.08)

7. "Kredit əməliyyatları üzrə faizlərin hesablanmasının dayandırılması haqqında Qaydalar"a dəyişikliklərlə "faizləri hesablanmayan" kreditlər üzrə müştərinin ödənişləri hesabına borc tələblərinin ödənilməsi növbəliyinə yenidən baxılmışdır. (17.12.08)

8. Bankların və sığorta şirkətlərinin kapitalizasiyaya yönəldiləcək mənfəəti mənfəət vergisindən azad olunmuşdur. (01.01.09 tarixindən qüvvəyə minmişdir).

9. Qorunan əmanətlər üzrə illik faiz dərəcəsi limitinin təmin edilməsində çeviklik təmin edilmiş, qorunan əmanətlər üzrə maksimal məbləğ 6000 manatdan 30000 manatadək artırılmıdır. (08.05.09) Faiz dərəcəsi 15%-dək olan əmanətlər sığorta sisteminə daxil edilmişdir. (10.06.08)

10. Mərkəzi Bankın təşəbbüsü ilə 2009-cu ilin iyun ayından ipoteka kreditləşməsi bərpa olunmuşdur. Bunun psixoloji və fiziki təsiri ilə daşınmaz əmlak bazarı son iki ayda canlanmışdır. İpoteka kreditləşməsi tikinti, bank işi, sığorta, qiymətləndirmə fəaliyyəti, rieltor və notarius xidmətləri, habelə qiymətli kağızlar bazarında iqtisadi fəallığı bilavasitə artırmış, əmlak bazarında qiymətləri stabilləşdirmişdir. Qiymətlərin stabilləşməsi öz növbəsində bank kreditlərinin girov təminatının dəyərsizləşməsinin qarşısını almışdır.

11. Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondunun buraxdığı təmin edilmiş qiymətli kağızlar üzrə risk dərəcəsi 0% təyin olunmuşdur. (17.06.09)

14. Azərbaycan Respublikası Prezidenti 7 avqust 2009-cu il tarxində dövlət mülkiyyətində olan maliyyə institutlarına nəzarəti gücləndirməyi nəzərdə tutan "Nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan bankların və bank olmayan kredit təşkilatlarının idarə edilməsində dövlətin iştirakı qaydası haqqında" Fərman vermişdir.

15. Banklarda risklərin idarə edilməsi sistemləri təkmilləşdirilmişdir. Bu məqsədlə banklarda risklərinin monitorinqi gücləndirilmiş, risklərin idarə edilməsi sistemlərinin qiymətləndirilməsi üzrə xüsusi metodologiya əsasında reytinqlər verilmiş, zəifliklərin aradan qaldırılması üzrə tədbirlər planı hazırlanıb və onun icrasına başlanılıb.[3]

Bütövlükdə, bankların idarəetmə, xüsusilə risklərin idarəedilməsi potensiallarının artırılmasına yönəlmiş tədbirlər davam etdirilmişdir. Bank nəzarətinin maliyyə sabitliyi və risklərin qabaqlayıcı rejimdə aşkarlanması potensialı gücləndirilmişdir.

Bütün bu tədbirlər bank sektorunun sabitliyinin yüksəlməsinə xidmət etmişdir. 2008-ci ildə iri məbləğdə xarici öhdəliklərini icra etməsinə baxmayaraq, banklar kreditləşməni davam etdirmişdir. Təkcə sentyabr-noyabr aylarında verilən yeni kreditlərin həcmi 1.9 mlrd.manat olmuşdur.

[3] Mənbə: www.nba.az

Banklar həm xarici, həm də daxili öhdəliklərini ödəmək üçün kifayət qədər likvid aktivlərə malikdir. Hətta bəzi bankların borclarının vaxtından əvvəl geri tələb olunmasına baxmayaraq,banklar öz öhdəliklərini tam və vaxtında icra etmişlər.

Bank sisteminin kapitallaşması davam etmişdir. Kapitalın adekvatlığı də qənaətbəxş səviyyədədir, məcmu kapitalın adekvatlıq əmsalı 19% (prudensial tələb 12%) təşkil etmişdir.

Bank sisteminə inam sabit olaraq qalır, əmanət bazası, xüsusilə xırda əmanətçilərin depozitləri dayanıqlıdır. Bütövlükdə, cari ilin on bir ayında uzunmüddətli əmanətlərin xüsusi çəkisi 33%- dən 37%-dək artmışdır.

Qlobal likvidlik böhranına baxmayaraq, həyata keçirilmiş preventiv tədbirlər sayəsində bank sistemində maliyyə sabitliyi qorunmuşdur və banklar maliyyə dayanıqlığı nümayiş etdirmişdir.[4]

Azərbaycan Respublikasının Milli Məclisi 08 may 2009-cu il tarixdə "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda əlavə və dəyişikliklərin edilməsi haqqında Azərbaycan Respublikası Qanununu qəbul etmişdir. Qanuna edilmiş dəyişikliklə qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddinin müəyyən edilməsinin Azərbaycan Respublikası Mərkəzi Bankının uçot faiz dərəcəsindən asılılığı aradan qaldırıldı. Qəbul olunmuş Qanuna əsasən illik faiz dərəcəsinin yuxarı həddini Azərbaycan Respublikası Mərkəzi Bankı ilə razılaşdırmaqla Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası müəyyən edir. 10 iyun 2009-cu il tarixdə keçirilmiş növbədənkənar iclasda Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddini Azərbaycan Respublikası Mərkəzi Bankı ilə razılaşdırmaqla 15 faiz müəyyən etdi.

Qeyd edək ki, 2009-cu il 01 yanvar tarixindən etibarən Fonda üzv olan banklarda 15 faiz dərəcəsi ilə və bu faiz dərəcəsi həddində əmanətlər yerləşdirmiş əmanətçilərin əmanətləri qorunan əmanətlər hesab olunur və Fond tərəfindən sığortalanır.

Xatırladaq ki, Qanuna edilmiş dəyişikliyə əsasən kompensasiya məbləğinin maksimum həddi 30 min manatdır. Əmanətçilər əmanətlərin sığortalanması üçün heç bir ödəniş etmirlər. Sığorta haqları yalnız banklar tərəfindən ödənilir. Bundan başqa Qanuna dəyişikliyə uyğun olaraq hər hansı iştirakçı bankda sığorta hadisəsi baş verərsə, əmanətçilər sığortalanmış əmanətlər üzrə əmanətin 100 % həcmində və maksimum 30 000 min manat məbləğində kompensasiya ala biləcəklər. Qeyd etmək lazımdır ki, kompensasiya məbləğinin 30 min manata çatdırılması MDB məkanında ən yüksək kompensasiya məbləğidir. Müqayisə üçün Qazaxıstanda kompensasiya məbləği 33 min, Rusiyada isə 25 min ABŞ dolları təşkil edir.

Beləliklə, Mərkəzi Bankın pul siyasəti ölkədə makroiqtisadi dayanıqlığın qorunmasında aktiv rol oynamışdır. Pul təklifinin strukturunda müsbət keyfiyyət dəyişikilikləri davam etmiş, iqtisadiyyatda dollarlaşma səviyyəsi daha da azalmışdır.

Məzənnə siyasəti həm də valyuta bazarında sabitliyin qorunmasını təmin etmiş, manatın ABŞ dollarına qarşı məzənnəsi il ərzində 5.2% möhkəmlənmişdir.

QANUNLAR

1. Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Azərbaycan Respublikasının Qanunu
2. Banklar haqqında Azərbaycan Respublikasının Qanunu
3. Əmanətlərin sığortalanması haqqında Azərbaycan Respublikasının qanunu
4. Valyuta Tənzimi haqqında Azərbaycan Respublikasının qanunu

[4] Azərbaycan Respublikası Milli Bankının 2009-cu il üçün Pul Siyasətinin Əsas İstiqamətləri barədə Bəyanatı

ƏDƏBİYYAT

1. Dünya ölkələrinin Mərkəzi Bankları. AR MB Beynəlxalq əlaqələr departamenti. Bakı, 2009

2. Abbasov Ə.M., Z.F. Məmmədov. Bank işi və e-bankçılıq. Bakı, 2003.

3. Sadıxov.M., Məmmədov Z.F. Pul-kredit siyasetin sabitləədirilməsinin ilkin tədbirləri haqqında//Bazar iqtisadiyyatina keçidin aktual probremleri. Respublika konfransı. Baki: Elm. 1994.

4. Məmmədov Z.F. Azərbaycan Respublikasinda pul və valyuta siyasətinin iqtisadi - hüquqi aspektləri// Qanun. – 2009. - № 3. 158 -170.

5. Məmmədov Z.F. Global maliyyə böhrani və ona qarşi tədbirlər paketi // Qanun. – 2009. - № 7

6. Məmmədov Z.F. Qlobal böhranlarin şiddətlənməsi mühitində Azərbaycan Mərkəz Bankinin pul siyasətinin istiqamətləri və makro – prudensial idarəetmə antikriziz tədbirləri // Qanun. – 2009. - № 12.

7. Məmmədov Z.F. Qlobal maliyyə böhranı: səbəb və nəticələr // maliyyə və uçot. 12. - 2009.

8. Məmmədov Z.F. Global böhrani və dövlətin antiböhran strategiyasi: dünya təcrübəsi və azərbaycan realliği// Dövlət idarəçiliyi. № 1. – 2010.

9. Məmmədov Z.F. Qlobal maliyyə böhranı kontekstində dövlət monetar idarəetmə sistemində antiböhran siyasət: dünya təcrübəsi və Azərbaycan modeli// AMEA-nın xəbərləri. İqtisadiyyat seriyası. №2, 2010.c. 5-15.

10. Зейналов В. З. Проблемы развития банковского сектора Азербайджана в условиях глобального кризиса// Экономика и управление.-2011.-№ 7.

11. Мамедов З. Ф. Современные тенденции развития банковской системы Турецкой Республики// Деньги и кредит. -1998.- № 6. - С.58-65.

12. Мамедов З. Ф. Банковский сектор Турции: современные позиции и роль иностранного капитала // Деньги и кредит.- 2003.- № 12 .- С. 61-67.

13. Рустамов. Э. С. Глобальный кризис и антикризисная политика Центрального банка Азербайджана // Деньги и кредит.- 1/2010.

14. Рустамов. Э. С. Проблемы реформирования макроэкономических институтов в послекризисный период// Деньги и кредит.- 9/2010.

IV FƏSİL. ÖDƏNİŞ SİSTEMİ

ƏSAS ANLAYIŞLAR

Bank sistemində ödəniş vasitələri ilə hesablaşmalar dedikdə, plastik kartlar, çeklər və digər ödəniş vasitələri ilə əməliyyatlar üzrə hesablaşmalar başa düşülür.

AZIPS – Real Vaxt Rejimində Banklararası Milli Hesablaşmalar Sistemidir.

SWIFT – Ümumdünya Banklararası Maliyyə Telekommunikasiya Cəmiyyətidir.

XÖHKS – Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemidir.

BMS – Mərkəzi Bankın Baş Mühasibatlıq Sistemidir.

İştirakçı –AZIPS və ya XÖHKS-ə dair Kollektiv Sazişə qoşulmuş (müvafiq sistemə münasibətdə) bank və ya qanunvericiliyə müvafiq hesablarına Mərkəzi Bankda xidmət olunan şəxsdir.

Autsayder – AZIPS və/və ya XÖHKS-in İştirakçısı olmayan (müvafiq sistemə münasibətdə) bank və ya qanunvericiliyə müvafiq hesablarına Mərkəzi Bankda xidmət olunan şəxsdir.

Emitent İştirakçı – vəsaiti göndərən İştirakçıdır.

Benefisiar İştirakçı – vəsaiti alan İştirakçıdır.

Valyutalaşma tarixi – ödəniş sənədinin icra olunma tarixidir.

Kod – banka və ya qanunvericiliyə müvafiq hesablarına Mərkəzi Bankda xidmət olunan şəxsə Mərkəzi Bank tərəfindən verilmiş altı rəqəmli identifikasiya nömrəsidir.

SWIFT BİK-i – banka və ya qanunvericiliyə müvafiq hesablarına Mərkəzi Bankda xidmət olunan şəxsə SWIFT tərəfindən verilmiş identifikasiya nömrəsidir.

Paket ödənişləri – XÖHKS-də İştirakçılar tərəfindən qruplaşdırılan ödəniş tapşırıqlarıdır.

Klirinq hesabı – İştirakçıya XÖHKS-də açılmış hesabdır.

Klirinq sessiyası – XÖHKS-də gün ərzində İştirakçıların Paket ödənişlərinin qəbul edilməsi, icra olunması və nəticədə hesablaşmalar üzrə xalis mövqelərin (Klirinq hesabının debet dövriyyəsi ilə kredit dövriyyəsi arasındakı fərq) müəyyənləşdirilməsi dövrüdür.

Klirinq – XÖHKS-də Klirinq sessiyası ərzində İştirakçıların xalis mövqelərinin müəyyənləşdirilməsi prosesidir.

Müxbir subhesab – İştirakçının XÖHKS-də əməliyyatlar aparmaq məqsədi ilə BMS-də açılmış subhesabıdır.

Ümumi fayl (MT150) – Paket ödənişləri əsasında İştirakçı tərəfindən yaradılan və XÖHKS-ə göndərilən fayldır.

IBAN - Bankçılıq Standartları üzrə Avropa Komitəsi (ECBS) və Standartlaşdırma üzrə Beynəlxalq Təşkilat (ISO) tərəfindən müəyyən edilmiş ISO 13616 beynəlxalq standartına uyğun olaraq yaradılan bank hesab nömrəsidir.

Plastik kartlar - kart sahibinə mal, iş və ya xidmətlərə görə nağdsız ödənişin həyata keçirilməsi, habelə banklardan və bankomatlardan nağd pul vəsaiti almaq imkanı verən şəxsi ödəniş vasitəsidir. Plastik kartlardan istifadə qaydası kart sahibi və emitent bank arasında qarşılıqlı öhdəliklərlə tənzimlənir. **Plastik kartlar** fiziki və hüquqi şəxslərə verilir. Bank tərəfindən hər bir kart sahibi üçün ayrıca bank hesabı açılır.

lokal ödəniş kartı- Yalnız ölkə ərazisi daxilində istifadə edilməsi üçün emissiya edilmiş kartdır.

Beynəlxalq ödəniş kartı- Beynəlxalq kart təşkilatlarının (Visa, MasterCard, American Express və s.) üzvü olan yerli və ya xarici banklar tərəfindən emissiya edilmiş, beynəlxalq kart təşkilatlarının loqotipini daşıyan, ölkə daxilində və ölkədən kənar əməliyyatların aparılması üçün istifadə olunan kartdır.

Korporativ kartlar - hüquqi şəxs olan kart sahibinə öz hesabı üzrə əməliyyatlar həyata keçirməyə imkan verən plastik kartlardır. Plastik kartlarla əməliyyatlar iki yolla həyata keçirilir: bankomatlar vasitəsilə və Pos-terminallar vasitəsilə.

Bankomatlar - plastik kartlarla əməliyyatlar zamanı nağd pulların verilməsi, mal, iş və ya xidmətlərə görə nağdsız ödənişin həyata keçirilməsi və inkassasiya üçün nəzərdə tutulmuş bank

avtomatlarıdır. Bundan başqa, bankomat kart sahibinə onun hesabının cari vəziyyəti haqqında məlumat (o cümlədən kağız üzərində çıxarış) almağa imkan verir.

Pos-terminallar - plastik kartların maqnit lentində və ya «çip»-də yerləşdirilmiş məlumatı oxumaq imkanına malik olan və plastik kartlar üzrə əməliyyatların həyata keçirilməsi məqsədilə bankla əlaqə yarada bilən elektron qurğulardır. Pos-terminallar ticarət və xidmət məntəqələrində yerləşdirilir.

Prosessinq mərkəzi - bankomatlar şəbəkəsinə və plastik kartları ödəməyə qəbul edən ticarət və xidmət məntəqələri şəbəkəsinə xidmət göstərən müstəqil bir təşkilat və ya bank bölməsidir. Prosessinq mərkəzi kredit təşkilatlarının məlumat mübadiləsi şəbəkəsinə çıxışa malikdir. Prosessinq mərkəzinin köməyi ilə əməliyyatların avtorizasiyaları həyata keçirilir. Plastik kartlara xidmət prosesində meydana çıxan ödəniş öhdəliklərinin yerinə yetirilməsinin təminatçısı onu buraxan emitent bankdır. Buna görə də plastik kartlar qüvvədə olduğu bütün müddət ərzində bankın mülkiyyəti olaraq qalır, kart sahibləri (müştərilər) isə plastik kartların istifadəçisi kimi çıxış edir.

Plastik kartlar xarakterinə görə iki növə ayrılır: debet kartları və kredit kartları.

Debet kartları - kart sahibinə bank hesabında olan məbləğ həddində vəsaitin birbaşa silinməsi yolu ilə mal, iş və xidmətlərə görə hesablaşmaların həyata keçirilməsi və nağd pul şəklində vəsaitlərin alınmasını təmin edən plastik kartlardır. Debet kartlarının sahibləri qabaqcadan emitent bankdakı hesabına müəyyən məbləğdə vəsait daxil etməlidir. Kartdan istifadə etməklə hesablaşmaların həyata keçirilməsi zamanı hesabda olan vəsait aparılan əməliyyata müvafiq olaraq azalır.

Kredit kartları - kart sahibinə bank krediti hesabına mal, iş və xidmətlərə görə hesablaşmaların həyata keçirilməsi və nağd pul şəklində vəsaitlərin alınmasını təmin edən plastik kartlardır. Kredit kartları üçün müəyyən limitlər müəyyənləşdirilir. Açılmış hesab üzrə vəsaitin limiti kart sahibinin vəsait xərcləməsi üçün ona açılmış kredit xəttinin həcmi ilə əlaqədar olur. Kredit birdəfəlik, həmçinin bərpa olunan ola bilər. Bank və kart sahibi arasındakı müqavilədən asılı olaraq kredit xəttinin bütün məbləği və ya bir hissəsi ödənildikdən sonra bərpa edilir.

Çek orderli qiymətli kağız olub, ifadə etdiyi pul məbləğinin çek sahibinə ödənilməsi barədə çek verənin banka verdiyi və heç nə ilə şərtləndirilməyən yazılı sərəncamından ibarətdir.

Ödəniş kartı (bundan sonra - kart) **-** malların, iş və xidmətlərin dəyərinin odənilməsi, oz hesabından digər şəxsin hesabına pul vəsaitinin köçurulməsi, habelə nağd pul vəsaitinin əldə edilməsi ucun istifadə edilən odəniş alətidir.

emitent – kartların emissiyasını, kart sahiblərinə xidmət gostərilməsini, ekvayerə aparılmış əməliyyatların dəyərinin odənilməsini təmin edən huquqi şəxsdir.

Kartların emissiyası-emitent tərəfindən kartların dovriyyəyə buraxılmasıdır.

Ekvayer – ekvayerinq xidmətini həyata kecirən huquqi şəxsdir. Ekvayer uzvu olduğu beynəlxalq və ya lokal kart təşkilatının tələblərinə uyğun olaraq, mutləq qaydada həmin kart təşkilatının odəniş kartlarını muvafiq əməliyyatların aparılması ucun kart sahiblərindən qəbul etməlidir.

Ekvayerinq xidməti ekvayerlə təsərrufat subyekti arasında bağlanmış muqavilə əsasında həyata kecirilir.

Ekvayerinq – Ekvayerinq xidmətini Azərbaycan Respublikasının qanunvericiliyinə muvafiq olaraq bank fəaliyyətinin həyata kecirilməsi lisenziyasına malik, muvafiq beynəlxalq və ya lokal kart təşkilatı ilə bu fəaliyyətin həyata kecirilməsi ucun muqavilə bağlayaraq onun icazəsini almış huquqi şəxslər həyata kecirə bilərlər.

Kart hesabı – kartlarla aparılan əməliyyatların ucotunun aparılması ucun acılan cari bank hesabıdır.

Kart sahibi - kartdan istifadə etməklə bank əməliyyatlarının aparılmasına səlahiyyətli olan fiziki şəxs, huquqi şəxsin numayəndəsi və ya fərdi sahibkardır.

Təsərrufat subyekti - ekvayerlə bağlanmış muqavilə əsasında, malların, iş və xidmətlərin dəyərinin odənilməsi ucun kartları odəniş vasitəsi kimi qəbul edən pərakəndə ticarət, iaşə və xidmət muəssisəsidir.

Avtorizasiya - kartlardan istifadə edilməklə əməliyyatların aparılması ucun icazənin alınması prosedurudur.

POS-terminal - kart vasitəsilə malların, iş və xidmətlərin dəyərinin odənilməsi, valyuta mubadiləsi əməliyyatının aparılması, habelə nağd pul vəsaitinin alınması ucun nəzərdə tutulmuş avadanlıqdır.

İmprinter - kart uzərindəki qabardılmış rekvizitlərin həkketmə usulu ilə kağız sənəd formasında olan slipə əks olunmasına imkan verən mexaniki avadanlıqdır.

Slip – imprinterdə kartla odənişin həyata kecirilməsini təsdiqləyən kağız sənəddir.

Qəbz - həyata kecirilən əməliyyatın məbləğini, novunu, tarixini, bu qəbzi formalaşdırmış qurğunu muəyyən etməyə imkan verən və həmcinin kart uzrə məlumatları ozundə əks etdirməklə, kart ilə əməliyyatın həyata kecirilməsini təsdiqləyən sənəddir.

Kartın bloklaşdırılması – kart vasitəsilə əməliyyatların həyata kecirilməsinin tam və ya muvəqqəti olaraq dayandırılmasıdır.

Korporativ kart - xidməti, numayəndəlik və digər xərclərin odənilməsiməqsədilə huquqi şəxsin səlahiyyətli numayəndəsinə və ya fərdi sahibkara huquqi şəxsin (fərdi sahibkarın) hesabında olan pul vəsaitlərinə sərəncam vermək huququ verən kartdır.

Maqnit lentli kart - əməliyyatın həyata kecirilməsi ucun zəruri məlumat daşıyıcısı maqnit lent olan kartdır.

Smart kart-məlumat daşıyıcısı inteqral sxem (mikroprosessor) olan kartdır.

Əvvəlcədən odənilmiş kart - ucotu konsolidə olunmuş kart hesabında aparılan və kart sahibinə əvvəlcədən mədaxil etdiyi vəsait həcmində mal, iş və xidmətlərin dəyərinin odənilməsinə və nağd pul vəsaitinin alınmasına imkan verən kartdır.

Konsolidə olunmuş kart hesabı - emissiya edilmiş əvvəlcədən odənilmiş kartlar uzrə əməliyyatların ucotunu aparmaq ucun emitent tərəfindən acılmış vahid hesabdır.

Kart təşkilatı - kartlar vasitəsilə aparılmış əməliyyatlar haqqında məlumatların toplanması, emalı və oturulməsi, klirinqi, həmcinin kart emissiyasına və ekvayrinqinə texniki xidmət gostərilməsini həyata kecirən, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq prosessinq təşkilatı kimi dovlət qeydiyyatından kecmiş lokal kart prosessinq təşkilatı və ya beynəlxalq kart təşkilatıdır.

"On-layn" rejimi - əməliyyatın aparılması anında avtorizasiyanın təmin edilməsidir.

"Off-layn" rejimi - baş verdiyi anda emitent tərəfindən avtorizasiya edilmədən əməliyyatın həyata kecirilməsinin təmin edilməsidir.

Personalizasiya – odəniş kartlarının hazırlanması zamanı kart sahibi haqqında məlumatların karta yuklənməsi və kart uzərində eyniləşdirmə məlumatlarının qabardılmış formada çap olunmasıdır.

Şəxsi tanınma kodu (PİN-kod) **–** emitent tərəfindən kart sahibinə və ya onun tərəfindən vəkil edilmiş şəxsə təqdim edilən və tranzaksiyanın həyata kecirilməsi ucun avtorizasiya zamanı kart sahibinin tanınmasında istifadə olunan gizli şifrədir.

Stop-list - əməliyyatların aparılması dayandırılmış və ləğv edilmiş kartların daxil edildiyi siyahıdır.

4.1. ÖDƏNİŞ SİSTEMİ HAQQINDA ÜMUMİ MƏLUMAT

Azərbaycan Respublikasının Mərkəzi Bankının (AMB) ödəniş sistemləri sahəsində fəaliyyəti onun struktur bölməsi olan Ödəniş sistemləri və hesablaşmalar departamenti tərəfindən həyata keçirilir. Ödəniş sistemləri və hesablaşmalar departamentinin missiyası müasir standartlara cavab verən elektron ödəniş sistemlərinin yaradılması, onların sabit və fasiləsiz istismarının təşkil edilməsi, beynəlxalq aləmdə bu istiqamətdə baş verən meyllər nəzərə alınmaqla daim inkişaf etdirilməsi və təkmilləşdirilməsidir.

AMB tərəfindən beynəlxalq təcrübə əsasında beynəlxalq maliyyə qurumlarının texniki yardımı və maliyyə köməyindən istifadə edilməklə son on il ərzində Milli Ödəniş Sisteminin yaradılması və inkişafı istiqamətində geniş islahatlar aparılmışdır.

1998-ci ildə Milli Ödəniş Şurasında Milli Ödəniş Sisteminin yaradılmasının konseptual əsasları və strategiyası hazırlanmışdır.

2001-ci ilin əvvəllərində Milli Ödəniş Sisteminin arxitekturasının əsasını təşkil edən Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi (**AZIPS**) yaradılaraq istifadəyə verilmişdir. AZİPS sisteminin istismara verilməsi nəticəsində banklar arasında hesablaşmaların real vaxt rejimində (on-line) həyata keçirilməsinə, pul dövriyyəsinin sürətinin nəzərəçarpacaq dərəcədə artmasına, banklar tərəfindən likvidliyin daha çevik idarə olunmasına imkan yaranmışdır.

AZİPS sistemi SWIFT şəbəkəsi üzərində qurulan Y arxitekturaya malikdir, məlumat mübadiləsinin yüksək təhlükəsizlik səviyyəsini təmin edir və müasir standartlara tamamilə uyğundur. Respublikada fəaliyyət göstərən bütün banklar, Mərkəzi Bank, bank olmayan Aqrarkredit birliyi, Dövlət Xəzinədarlığı Agentliyi sistemin üzvüdürlər.

2002-ci ilin sonlarından etibarən Milli Telekommunikasiya Şəbəkəsinin bazasında Milli Ödəniş Sisteminin arxitekturasının ikinci mühüm elementi olan Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi (XÖHKS) yaradılaraq istifadəyə verilmişdir. Beləliklə, kiçik həcmli, lakin daim təkrarlanan xırda ödənişlərin (əmək haqqı, sosial müdafiə ödənişləri, telefon, qaz, su, elektrik enerjisi üzrə kommunal ödənişlər və s.) elektron daşıyıcılar əsasında həyata keçirilməsinə, eyni zamanda, xırda ödənişlərin əsas iştirakçıları olan kommunal xidməti müəssisələrinin, böyük sayda ödəniş əməliyyatları (məs., vergi, gömrük və sosial müdafiə ödənişləri) aparan hökumət qurumlarının Milli Ödəniş Sisteminin infrastrukturuna inteqrasiyası üçün əlverişli zəmin yaradıldı.

XÖHKS sistemi Milli Telekommunikasiya Şəbəkəsi üzərində qurulmuşdur, məlumat mübadiləsinin yüksək təhlükəsizlik səviyyəsini təmin edir və müasir standartlara tamamilə uyğundur. Respublikada fəaliyyət göstərən bütün banklar, Mərkəzi Bank, bank olmayan Aqrarkredit birliyi, Dövlət Xəzinədarlığı Agentliyi , Azərbaycan İpoteka Fondu, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Ərazi İdarəsi sistemin üzvüdürlər.

AZİPS və XÖHKS sistemlərinin fövqəladə hallarda etibarlı və davamlı fəaliyyətini təmin etmək məqsədilə onların Sumqayıt Ehtiyat Mərkəzində ehtiyat surətləri yaradılmışdır. Sistemlərin əsas və ehtiyat mərkəzlərdə yerləşən serverləri arasında real vaxt rejimində informasiya mübadiləsi təşkil edilmişdir.

Ödəniş sistemləri sahəsində aparılan islahatların əhatə dairəsinin genişləndirilməsi və regionlara istiqamətləndirilməsi, yaradılmış Milli Ödəniş Sisteminin imkanlarından daha aktiv istifadə olunması, bütün ölkə üzrə vahid elektron ödəniş məkanının yaradılması, hüquqi və fiziki şəxslərin maliyyə xidmətlərinə çıxış imkanlarının daha da artırılması zərurətini nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 9 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasında Milli Ödəniş Sisteminin İnkişafı üzrə 2005-2007-ci illər üçün Dövlət Proqramı təsdiq edilmişdir.

Dövlət Proqramına uyğun olaraq ölkədə kart ödənişlərinin daha da inkişaf etdirilməsi və Milli Ödəniş Sisteminin arxitekturasının tamamlanması üçün yeni infrastrukturun – "MilliKart" Prosessinq Mərkəzi yaradılaraq respublikada fəaliyyət göstərən 18 bankın idarəçiliyinə və istifadəsinə verilmişdi.

Kommunal xidməti müəssisələrinin daxili informasiya sistemlərinin beynəlxalq standartlar əsasında təkmilləşdirilməsi və ödəniş sistemləri infrastrukturuna texnoloji inteqrasiyasının tamamlanmasının icrası ilə əlaqədar olaraq kommunal xidməti haqlarının yığımı üzrə Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin (KÖMİS) yaradılaraq 2008-ci ilin 11 iyul tarixindən etibarən istismara verilmişdir. Sistem vasitəsilə KÖMİS-ə qoşulmuş kommunal xidməti müəssisələri üzrə ödənişləri həm nağd, həm də bankomatlarda və KÖMİS-in "İnternet Service" xidmətindən istifadə etməklə ödəniş kartları vasitəsilə həyata keçirmək mümkündür.

2010-cu il ərzində Milli Ödəniş Sisteminin dövriyyəsi tarixi maksimum həddinə çatmışdır. Ödəniş sistemində ümumi həcmi 84,83 mlrd. manat olmaqla, 10,15 mln. ədəd əməliyyat aparılmışdır.

4.2. İRİ MƏBLƏĞLİ ÖDƏNİŞLƏRİN KÖÇÜRÜLMƏSİ SİSTEMLƏRİ – AZİPS

AMB-nin Azərbaycan Banklararası Ödəniş Sistemi (AZİPS) respublikanın yeganə iri məbləğli ödəniş sistemidir. AZİPS real vaxt rejimində işləyən hesablaşma sistemidir (RTGS). Sistem iştirakçıların AMB-dəki müxbir hesabları vasitəsilə ödənişləri tam elektron şəkildə emal edir. Hesablaşmanın qətiliyi və gerigötürülməzliyinə nəzarət tələbləri vasitəsilə nail olunmuşdur.

Əgər ödəməni həyata keçirmək üçün lazımi qədər vəsait varsa AZİPS real vaxt əsasında yeni manatla hesablaşmanı təmin edir. Əgər lazımi qədər vəsait yoxdursa o zaman əməliyyat avtomatik olaraq gözləmə növbəsinə göndərilir və orada ödəmə üçün lazım olan miqdarda vəsait daxil olana qədər gözləyir. Mərkəzi Bank qeyri - likvidliyi qənaətbəxş olan iştirakçıları günlük və gecəlik (overnayt) pulsuz güzəştli kreditlərlə təmin edir. Bu proses avtomatlaşdırılmadığına görə iştirakçılar kreditin ayrılması üçün Bazar əməliyyatları departamenti ilə əlaqə saxlamalıdırlar.

AZIPS İştirakçılar arasında real vaxt rejimində hesablaşmaların aparılması üçün istifadə olunur. AZIPS-də hesablaşmalar Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarının və SWIFT-in tələblərinə cavab verməlidir.

AZIPS-in İştirakçısı aşağıdakı tələblərə cavab verməlidir:

1. SWIFT-də qeydiyyata alınmalı;
2. SWIFT-in AZM qrupunun üzvü olmalı;
3. SWIFT-in Y-Copy rejimində işləməli;
4. AZIPS-ə dair Kollektiv Sazişin İştirakçısı olmalıdır.

AZIPS-də hesablaşmalar Mərkəzi Bankda yerləşdirilmiş Mərkəzi Hesablaşmalar Sistemi vasitəsi ilə həyata keçirilir.

İştirakçı aşağıdakı ödəniş tapşırıqlarını SWIFT vasitəsi ilə AZIPS-ə göndərə bilər:

- MT102, MT103 müştəri ödənişləri;
- MT205 bank ödənişləri.

İştirakçı ödəniş tapşırığını Valyutalaşma tarixindən əvvəl 10 (on) təqvim günü tarıxı ilə AZIPS-ə göndərə bilər. Bu halda həmin ödəniş tapşırığı haqqında məlumat AZIPS-də saxlanılır və Valyutalaşma tarixində icra olunur.

İştirakçının Valyutalaşma tarixində göndərdiyi ödəniş tapşırığı AZIPS tərəfindən aşağıdakı qaydada qəbul edilir:

- müştəri ödənişləri üçün saat 10^{00}-dan 16^{30}-dək;
- bank ödənişləri üçün saat 10^{00}-dan 17^{00}-dək.

Hesablaşmaların aparılması üçün İştirakçının hesabında kifayət qədər vəsait olmadıqda ona həmin günə müştəri ödənişlərinin icrası məqsədi ilə 30 dəqiqə ərzində (saat 16^{30}-dan 17^{00}-dək) vəsait tapmaq imkanı verilir.

İştirakçı vəsait tapmaq üçün aşağıdakı mənbələrdən istifadə edə bilər:

- Azərbaycan Respublikası qanunvericiliyinə, o cümlədən Mərkəzi Bankın normativ aktlarına uyğun olaraq banklararası kreditlərdən;
- Azərbaycan Respublikası qanunvericiliyinə, o cümlədən Mərkəzi Bankın normativ aktlarına zidd olmayan digər mənbələrdən.

İştirakçı vəsait tapmadıqda onun Valyutalaşma tarixi həmin günə olan icra olunmayan ödəniş tapşırıqları ləğv olunur və bu barədə AZIPS tərəfindən İştirakçıya MT019 göndərilir.

Mərkəzi Bank İştirakçının apardığı əməliyyatlara görə saat 17^{00}-dan 17^{20}-dək onun Müxbir hesabından xidmət haqqı tutur və bu barədə AZIPS tərəfindən İştirakçıya MT900 göndərilir.

Müstəsna hallarda Mərkəzi Bank İştirakçılara rəsmi xəbərdarlıq etməklə bu Qaydaların 2.7-2.9-cu bəndləri ilə müəyyən edilmiş vaxtları dəyişə bilər.

AZIPS-də hesablaşmalar başa çatdıqda AZIPS tərəfindən İştirakçıya Hesabdan Çıxarış MT950 göndərilir.

İştirakçı AZIPS-ə göndərdiyi ödəniş tapşırığının Başlıq hissəsinin (Message Header) 103-cü sahəsində (FIN Copy Service) "AZN" seçməlidir.

Benefisiar İştirakçı AZIPS-dən aldığı ödəniş tapşırığının Başlıq hissəsinin 103-cü sahəsində "AZN" və Tamamlama hissəsində (Message Trailer) "PAC" qeydinin olduğunu yoxlamalıdır. Kənarlaşma olduqda Benefisiar İştirakçı ödənis tapşırığını icra etməməli, bu barədə Mərkəzi Banka və Emitent İştirakçıya dərhal rəsmi məlumat (elektron və ya kağız daşıyıcılarda) verməlidir.

AZIPS-dən istifadə ilə bağlı texniki problem yarandıqda İştirakçı Mərkəzi Banka rəsmi müraciət (elektron və ya kağız daşıyıcılarda) etməlidir. Bu halda Mərkəzi Bank həmin İştirakçının AZIPS-də iştirakını müvəqqəti dayandırır və bu barədə AZIPS tərəfindən digər İstirakçılara MT298 SMT700 göndərilir. Həmin İştirakçının hesablaşmaları bu Qaydaların 4-cü bəndinə uyğun olaraq həyata keçirilir.

Problem aradan qaldırıldıqda İştirakçı Mərkəzi Banka rəsmi məlumat verir, Mərkəzi Bank onun AZIPS-də iştirakını bərpa edir və bu barədə AZIPS tərəfindən digər İştirakçılara MT298 SMT700 göndərilir.

Vəsaiti alan AZIPS-in İştirakçısı olmadıqda Emitent İştirakçı ödəniş tapşırığını Mərkəzi Bankın SWIFT ünvanına (SWIFT BİK-inə) göndərir.

Emitent İştirakçı tərəfindən göndərilmiş ödəniş tapşırığının aşağıdakı rekvizitləri AZIPS-də saxlanılır:

- nömrəsi;
- məbləği;
- valyuta kodu;
- göndərilmə tarixi;
- Valyutalaşma tarixi;
- vəsaiti göndərənin SWIFT BİK-i;
- vəsaiti alanın SWIFT BİK-i;
- ödənişin növü (müştəri və ya bank).

SWIFT tərəfindən AZIPS-ə ödəniş tapşırığının qəbul edilməsi haqqında MT096 göndərilir və AZIPS ödəniş tapşırığını icraya qəbul edərək aşağıdakıları yoxlayır:

- ödəniş tapşırığının nömrəsinin təkrarlanmamasını;
- Valyutalaşma tarixinin günün tarixinə uyğunluğunu.

Kənarlaşma olduqda ödəniş tapşırığının icrası imtina olunur və Emitent İştirakçıya səbəbi göstərilməklə SWIFT tərəfindən MT019, AZIPS tərəfindən isə MT298 SMT701 göndərilir.

Kənarlaşma olmadıqda:

- Emitent İştirakçının hesabı debetləşdirilir və Benefisiar İştirakçının hesabı kreditləşdirilir;
- AZIPS tərəfindən SWIFT-ə ödənişin icra olunması haqqında MT097 göndərilir;
- SWIFT tərəfindən ödənişin icra olunması haqqında Emitent İştirakçıya onun tələbindən asılı olaraq MT012, Benefisiar İştirakçıya isə ödəniş tapşırığı göndərilir.

Ödənişlərin növbəliyini göstərmək məqsədi ilə Emitent İştirakçı ödəniş tapşırıqlarının Başlıq hissəsində onların icra olunma ardıcıllığını əks etdirən 1-dən 99-dək Prioritet nömrəsini qeyd edə bilər. Emitent İştirakçı tərəfindən göndərilən ödəniş tapşırığında Prioritet nömrəsi qeyd olunmadıqda AZIPS onun Prioritet nömrəsini 98 kimi qəbul edir.

Emitent İştirakçı tərəfindən göndərilən və həmin günə Valyutalaşma tarixi olan ödəniş tapşırığı aşağıdakı hallarda icra olunmadan "Gözləmə rejimində" saxlanılır:

- Emitent və ya Benefisiar İştirakçının hesabı üzrə əməliyyatlar müvəqqəti dayandırıldıqda;
- Emitent İştirakçının hesabında kifayət qədər vəsait olmadıqda;
- AZIPS müvəqqəti dayandırıldıqda;
- Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda.

Bu halda AZIPS tərəfindən Emitent İştirakçıya MT298 SMT700 göndərilir.

Emitent İştirakçı Gözləmə rejimində olan ödəniş tapşırığının Prioritet nömrəsini dəyişə bilər. Bu halda Emitent İştirakçı tərəfindən AZIPS-ə MT298 SMT202 göndərilir.

Prioritet nömrəsini hər hansı səbəbdən dəyişmək mümkün deyilsə, AZIPS tərəfindən İştirakçıya səbəbi göstərilməklə MT298 SMT252 göndərilir.

Emitent İştirakçı Gözləmə rejimində olan ödəniş tapşırığını ləğv edə bilər. Bu halda Emitent İştirakçı tərəfindən AZIPS-ə MT298 SMT200 göndərilir.

Ödəniş tapşırığının hər hansı səbəbdən ləğv edilməsi mümkün deyilsə, AZIPS tərəfindən İştirakçıya səbəbi göstərilməklə MT298 SMT250 göndərilir.

Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq İştirakçının hesabı Mərkəzi Bank tərəfindən debetləşdirildiyi halda AZIPS tərəfindən İştirakçıya MT900, kreditləşdirildiyi halda isə MT910 göndərilir.

İştirakçı hesabı haqqında ümumi məlumat (hesab üzrə debet və kredit əməliyyatlarının ümumi məbləği və hesabın qalığı) almaq üçün AZIPS-ə MT920 göndərə bilər. Bu sorğuya cavab olaraq AZIPS tərəfindən İştirakçıya MT941 göndərilir.

İştirakçı hesabı üzrə Aralıq Çıxarış almaq üçün AZIPS-ə MT920 göndərə bilər. Bu sorğuya cavab olaraq AZIPS tərəfindən İştirakçıya MT942 göndərilir.

İştirakçı hesaba daxil olan, hesabdan silinən, habelə daxil olması və silinməsi gözlənilən ödəniş tapşırıqları haqqında məlumat almaq üçün AZIPS-ə MT298 SMT800 göndərə bilər. Bu sorğuya cavab olaraq AZIPS tərəfindən İştirakçıya MT298 SMT850 göndərilir.

İştirakçı Gözləmə rejimində olan ödəniş tapşırıqları və Müxbir hesabının vəziyyəti haqqında ümumi məlumat almaq üçün AZIPS-ə MT298 SMT801 göndərə bilər. Bu sorğuya cavab olaraq AZIPS tərəfindən İştirakçıya MT298 SMT851 göndərilir.

İştirakçı Gözləmə rejimində olan ödəniş tapşırıqları haqqında təfərrüatlı məlumat almaq üçün AZIPS-ə MT298 SMT804 göndərə bilər. Bu sorğuya cavab olaraq AZIPS tərəfindən İştirakçıya MT298 SMT854 göndərilir.

İştirakçının sorğuları düzgün doldurulmadıqda AZIPS tərəfindən İştirakçıya səbəbi göstərilməklə MT298 SMT900 göndərilir.

Mərkəzi Bank və diqər İştirakçılar AZIPS-də hesablaşmaların aparılmasına dair məlumatları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq arxivləşdirir.

Banklararası Milli Hesablaşmalar sistemi – AZİPS milli ödəniş sistemində mühüm yer tutur və maliyyə sektorunda onun təyinatı böyük həcmdə və prioritet ödənişlərin həyata keçirilməsidir. 2010-cu il ərzində nağdsız ödənişlərin 92%-i bu sistem vasitəsilə həyata keçirilmişdir. AZİPS sistemində ümumi həcmi 78,4 mlrd.manat olmaqla 362 min ədəd ödəniş sənədi emal olunmuşdur ki, bu da 2009-cu illə müqayisədə həcm etibarilə 7,6% (5,6 mlrd. manat) çoxdur və say etibarilə 7,9% (31 min ədəd) azdır. Hər bir ödəniş sənədinin məbləği orta hesabla 216,6 min.manat təşkil etmişdir.

4.3. XIRDA ÖDƏNIŞLƏR ÜZRƏ HESABLAŞMA KLİRİNQ SİSTEMİ

AMB-nin BCSS (XÖHKS) sistemi elektron pərakəndə ödənişlər üçün nəzərdə tutulmuşdur.Kiçik məbləğli vəsaitlərin köçürülməsi AZİPS vasitəsilə də həyata keçirilə bilər. Belə ki, AZİPS-də ödəniş mesajına üçüncü tərəf ödəniş detallarını əlavə etmək imkanı mövcuddur və minimum məbləğ tələbi yoxdur.

XÖHKS 2002-ci ilin dekabr ayından istifadə olunur. Sistem paket emala əsaslanır və özəl telekommunikasiya şəbəkəsi vasitəsilə ilə fəaliyyət göstərir. Bir paket daxilində cəmi ödənişin sayı və həmçinin bir ödəniş daxilində fərdi mesajların sayı məhdudsuzdur. Bir ödəniş mesajının maksimum məbləği təqribən 40.000 manatdır. Hər bir ödənişdə eyni dəyər tarixli ödənişlər olmalıdır.

XÖHKS İştirakçıların Paket ödənişlərinin Klirinqi üçün istifadə olunur.

XÖHKS-də hesablaşmalar Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarının tələblərinə cavab verməlidir.

XÖHKS-in İştirakçısı aşağıdakı tələblərə cavab verməlidir:

- Mərkəzi Bank tərəfindən müəyyən edilən provayderlə ayrılmış xəttin verilməsi haqqında müqaviləni bağlamalı;

- XÖHKS üzrə tələb olunan "Əməliyyatçının iş yeri", "Açar meneceri", "Paket yoxlayıcısı" və "Fayl adapteri" modullarından ibarət olan proqram təminatlarına malik olmalı;

- Mərkəzi Bankın XÖHKS-ə dair informasiya təhlükəsizliyi tələblərinə cavab verməli;

- XÖHKS-ə dair Kollektiv Sazişin İştirakçısı olamalıdır.

Mərkəzi Bank XÖHKS-də gün ərzində Klirinq sessiyalarının sayını və vaxtını, habelə XÖHKS-də qəbul edilən bir ödəniş tapşırığının maksimal məbləğini müəyyən edir.

XÖHKS-dən istifadə ilə bağlı texniki problem yarandıqda İştirakçı Mərkəzi Banka rəsmi müraciət (elektron və ya kağız daşıyıcılarda) etməlidir. Bu halda həmin İştirakçı Mərkəzi Bankda ayrılmış xüsusi iş yeri vasitəsi ilə XÖHKS-də iştirakını təmin edir.

Problem aradan qaldırıldıqda İştirakçı Mərkəzi Banka rəsmi məlumat (elektron və ya kağız daşıyıcılarda) verir.

XÖHKS-də hesablaşmalar Klirinq hesabı vasitəsi ilə həyata keçirilir.

İştirakçı MT205-dən istifadə edərək AZIPS vasitəsi ilə Müxbir hesabından Müxbir subhesabına vəsait köçürməklə Klirinq hesabının debet limitini müəyyən edə bilər. İştirakçı Klirinq hesabının debet limitini gün ərzində dəyişə bilər:

- Klirinq hesabının debet limitini artırdıqda İştirakçı Müxbir hesabından Müxbir subhesabına vəsait köçürür. Bu halda XÖHKS tərəfindən İştirakçıya MTn99 göndərilir;

- Klirinq hesabının debet limitini azaltdıqda İştirakçı tərəfindən XÖHKS-ə MTn99 göndərilir. Bu halda İştirakçının həmin vaxta olan Klirinq hesabının mövqeyi XÖHKS tərəfindən onun yeni müəyyən edilən debet limiti ilə müqayisə edilir:

- İştirakçının həmin vaxta olan Klirinq hesabının mövqeyi yeni müəyyən edilən debet limitindən azdırsa, XÖHKS tərəfindən İştirakçıya debet limitinin azaldılması üzrə prosesin başlanması haqqında MTn99 göndərilir. İştirakçının Klirinq hesabının debet limiti azaldıqda AZIPS vasitəsi ilə İştirakçıya MT910 göndərilir;

– İştirakçının həmin vaxta olan Klirinq hesabının mövqeyi yeni müəyyən edilən debet limitindən artıqdırsa, XÖHKS tərəfindən Klirinq hesabının debet limitinin dəyişməsi imtina olunur və bu barədə İştirakçıya MTn96 göndərilir.

İştirakçı ödənış tapşırıqları əsasında Paket ödənişlərini aşağıdakı qaydada yarada bilər:

- "Əməliyyatçının iş yeri" modulu vasitəsi ilə;

- "Paket yoxlayıcısı" modulu ilə İştirakçının Mühasibatlıq Sistemi arasında əlaqə interfeysi olduqda Mühasibatlıq Sistemi vasitəsi ilə.

İştirakçı "Paket yoxlayıcısı" modulu vasitəsi ilə Ümumi fayl yaradır və həmin faylda Valyutalaşma tarixindən əvvəl 10 (on) təqvim günü tarixi ilə istənilən sayda Paket ödənişlərini yerləşdirərək XÖHKS-ə göndərə bilər. Bu halda həmin Paket ödənişləri XÖHKS-də saxlanılır və Valyutalaşma tarixində icra olunur.

XÖHKS Ümumi faylı qəbul edərək aşağıdakıları yoxlayır:

- Ümumi faylda və Paket ödənişlərində Mərkəzi Bankın XÖHKS-ə dair informasiya təhlükəsizliyi tələblərinə uyğun imzaların düzgünlüyünü;

- Ümumi faylın və Paket ödənişlərinin məcburi sahələrinin doldurulmasının düzgünlüyünü;

- Paket ödənişlərini təşkil edən hər bir ödənış tapşırığının məbləğinin XÖHKS-də qəbul edilən bir ödəniş tapşırığının maksimal məbləğini aşmamasını.

Kənarlaşma olduqda, yəni:

- Ümumi faylın imzalanmasında və məcburi sahələrin doldurulmasında kənarlaşma olduqda Ümumi fayl XÖHKS tərəfindən geri qaytarılır və İştirakçıya səbəbi qöstərilməklə MT158 göndərilir;

- Paket ödənişlərinin imzalanmasında və məcburi sahələrin doldurulmasında kənarlaşma olduqda Paket ödənişləri XÖHKS tərəfindən geri qaytarılır və İştirakçıya səbəbi göstərilməklə səhv Paket ödənişlərının siyahısını əks etdirən MT158 göndərilir;

- Paket ödənişlərini təşkil edən bir ödəniş tapşırığının məbləği XÖHKS-də qəbul edilən bir ödəniş tapşırığının maksimal məbləğini aşdıqda həmin ödəniş tapşırığı XÖHKS tərəfindən geri qaytarılır və İştirakçıya səbəbi göstərilməklə MT158 göndərilir.

Kənarlaşma olmadıqda:

- XÖHKS tərəfindən İştirakçıya Ümumi faylın icraya qəbul edilməsi haqqında MT196 göndərilir;

- Paket ödənişlərini təşkil edən ödəniş tapşırıqları göndərilmə ardıcıllığı ilə icra edilir.

Emitent İştirakçı tərəfindən göndərilən və həmin günə Valyutalaşma tarixi olan Paket ödənişləri aşağıdakı hallarda icra olunmadan "Gözləmə rejimində" saxlanılır:

- Emitent İştirakçının hesabında kifayət qədər vəsait olmadıqda;
- Emitent və ya Benefisiar İştirakçının hesabı üzrə əməliyyatlar müvəqqəti dayandırıldıqda;
- XÖHKS müvəqqəti dayandırıldıqda;
- Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda.

Bu halda XÖHKS tərəfindən İştirakçıya MT196 göndərilir.

Emitent İştirakçı Gözləmə rejimində olan Paket ödənişlərini və ya Paket ödənişlərini təşkil edən ödəniş tapşırığını ləğv edə bilər. Bu halda Emitent İştirakçı tərəfindən XÖHKS-ə MT192 göndərilir. Paket ödənişləri və ya Paket ödənişlərini təşkil edən ödəniş tapşırığı ləğv olunduqda XÖHKS tərəfindən İştirakçıya MT196 göndərilir.

Emitent İştirakçı Gözləmə rejimində olan Paket ödənişlərini və Paket ödənişlərini təşkil edən ödəniş tapşırığını ləğv edə bilər. Bu halda Emitent İştirakçı tərəfindən XÖHKS-ə MT198/192 göndərilir. Paket ödənişləri və Paket ödənişlərini təşkil edən ödəniş tapşırığı ləğv olunduqda XÖHKS tərəfindən İştirakçıya MT198 göndərilir.

Paket ödənişlərini və ya Paket ödənişlərini təşkil edən ödəniş tapşırığının hər hansı səbəbdən ləğv edilməsi mümkün deyilsə, XÖHKS tərəfindən İştirakçıya səbəbi göstərilməklə MT196 göndərilir.

XÖHKS-də Klirinq sessiyaları aşağıdakı dövrlərə bölünür:

- Sənədlərlə mübadilə ;
- Klirinqqabağı ;
- Klirinq.

Klirinq sessiyası açıldıqda XÖHKS tərəfindən İştirakçılara MTn99 göndərilir. Bu andan etibarən Sənədlərlə mübadilə dövrü başlanılır və bu dövrdə İştirakçı Ümumi faylları XÖHKS-ə göndərə bilər.

Sənədlərlə mübadilə dövrü qurtardıqda XÖHKS tərəfindən İştirakcılara cari Klirinq sessiyasına Ümumi faylların qəbulunun dayandırılması haqqında MTn99 göndərilir. Bu andan etibarən Klirinqqabağı dövr başlanılır və İştirakçı tərəfindən bu dövrdə XÖHKS-ə göndərilən Ümumi fayllar günün növbəti Klirinq sessiyasına saxlanılır.

Klirinqqabağı dövrdə XÖHKS tərəfindən hər bir İştirakçının Klirinq hesabı üzrə ilkin xalis mövqeyi hesablanılır və İştirakcıya icra olunan və icra olunmayan ödəniş tapşırıqlarını, habelə ödəniş tapşırıqlarının icra edilməsi üçün çatışmayan məbləği əks etdirən MT986/INBP göndərilir. İştirakçının Klirinq hesabında kifayət qədər vəsaiti olmadıqda həmin günə Valyutalaşma tarixi olan icra olunmayan ödəniş tapşırıqlarının icrası məqsədi ilə Klirinq hesabının debet limitinin artırılması imkanı verilir.

Klirinqqabağı dövr qurtardıqda XÖHKS tərəfindən İştirakçılara MTn99 göndərilir. Bu andan etibarən Klirinq dövrü başlanılır və bu dövrdə İştirakçıların cari Klirinq sessiyasında Klirinq hesabları üzrə xalis mövqeləri müəyyən edilir və İştirakçıya:

- Klirinq hesabının debet və ya kredıt edilməsini təsdiq edən MT900 və ya MT910;

- cari Klirinq sessiyasında icra olunan və icra olunmayan ödəniş tapşırıqlarını əks etdirən MT970;

- cari Klirinq sessiyasında Klirinq hesabı üzrə xalis mövqeyini əks etdirən MT971 göndərilir.

XÖHKS-də cari Klirinq sessiyasında həmin günə Valyutalaşma tarixi olan icra olunmayan Paket ödənişləri həmin günün növbəti Klirinq sessiyasına keçirilir. Növbəti Klirinq sessiyası

nəzərdə tutulmadıqda icra olunmayan Paket ödənişləri ləğv edilir. Bu halda XÖHKS tərəfindən İştirakçıya MT158 göndərilir.

Klirinq sessiyası qurtardıqda XÖHKS tərəfindən İştirakçılara MTn99 göndərilir.

Klirinq sessiyasının sonunda İştirakçının Klirinq hesabı üzrə əməliyyatları İştirakçıların Müxbir subhesabında əks olunur. Günün sonunda İştirakçının Müxbir subhesabının qalığı AZIPS vasitəsi ilə Müxbir hesabına köçürülür.

İştirakçı Klirinq hesabı haqqında ümumi məlumat (hesab üzrə debet və kredit əməliyyatlarının ümumi məbləği və hesabın qalığı) almaq üçün XÖHKS-ə MT920 göndərə bilər. Bu sorğuya cavab olaraq XÖHKS tərəfindən İştirakçıya MT941 göndərilir.

İştirakçı Klirinq hesabı üzrə Aralıq Çıxarış almaq üçün XÖHKS-ə MT920 göndərə bilər. Bu sorğuya cavab olaraq XÖHKS tərəfindən İştirakçıya MT942 göndərilir.

İştirakçı göndərdiyi Ümumi faylın, Ümumi faylı təşkil edən bir Paket ödənişlərinin və ya Paket ödənişlərini təşkil edən bir ödəniş tapşırığının icrası haqqında məlumat almaq ücün XÖHKS-ə MT195/STAT göndərə bilər. Bu sorğuya cavab olaraq XÖHKS tərəfindən İştirakçıya MT196 /STAT göndərilir.

İştirakçı göndərdiyi Ümumi faylın, Ümumi faylı təşkil edən Paket ödənişlərinin və Paket ödənişlərini təşkil edən bir ödəniş tapşırığının icrası haqqında məlumat almaq ücün XÖHKS-ə MT198/195/STAT göndərə bilər. Bu sorğuya cavab olaraq XÖHKS tərəfindən İştirakçıya MT198 göndərilir.

İştirakçı göndərdiyi Ümumi faylı təşkil edən bir neçə Paket ödənişlərinin icrası haqqında məlumat almaq üçün XÖHKS-ə MT195/LİST göndərə bilər. Bu sorğuya cavab olaraq XÖHKS tərəfindən İştirakçıya MT158 göndərilir.

İştirakçı göndərdiyi Paket ödənişlərini təşkil edən bir neçə ödəniş tapşırığının icrası haqqında məlumat almaq üçün XÖHKS-ə MT195/LIST göndərə bilər. Bu sorğuya cavab olaraq XÖHKS tərəfindən İştirakçıya MT198 göndərilir.

İştirakçı Ümumi faylın surətini almaq üçün XÖHKS-ə MT195/COPY göndərə bilər. Bu sorğuya cavab olaraq XÖHKS tərəfindən MT156 göndərilir.

İştirakçı Paket ödənişlərinin və ya Paket ödənişlərini təşkil edən ödəniş tapşırığının surətini almaq üçün XÖHKS-ə MT195/COPY göndərə bilər. Bu sorğuya cavab olaraq XÖHKS tərəfindən İştirakçıya MT196 göndərilir.

İştirakçı Paket ödənişlərinin və Paket ödənişlərini təşkil edən ödəniş tapşırığının surətini almaq üçün XÖHKS-ə MT198/195/COPY göndərə bilər. Bu sorğuya cavab olaraq XÖHKS tərəfindən İştirakçıya MT198 göndərilir.

Mərkəzi Bank və diqər İştirakçılar XÖHKS-də hesablaşmaların aparılmasına dair məlumatları Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemində (XÖHKS) bütün nağdsız ödənişlərin böyük əksəriyyəti say baxımından 96,4%, həcm baxımından 7,6% (6,4 mlrd. manat həcmində 9,8 mln. ədəd sənəd) kiçik həcmli nağdsız hesablaşma şəklində emal olunmuşdur ki, bu da sistemin əsasən pərakəndə xırda ödənişlərin həyata keçirilməsində təyinatını göstərir. 2009-cu illə müqayisədə

2010-cu il ərzində ödənişlərin həcmi 17,5%, sayı isə 55,3% çoxdur. Sistemdə hər bir ödəniş sənədinin məbləği orta hesabla 655 manat təşkil etmişdir.

4.4. KÜTLƏVİ ÖDƏNİŞLƏR ÜZRƏ MƏRKƏZLƏŞDİRİLMİŞ İNFORMASİYA SİSTEMİNİN (KÖMİS)

Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin mahiyyəti respublikada fəaliyyət göstərən kommunal və digər kütləvi xidmət təşkilatları üzrə mərkəzləşdirilmiş elektron abonent bazasını yaratmaq, bu abonentlərə sistemə qoşulmuş maliyyə qurumlarının istənilən ödəniş məntəqəsində borclarını öyrənmək və ən müasir ödəniş mexanizmləri vasitəsilə ödənişlərini aparmaq imkanı yaratmaqdan ibarət olmuşdur. Ən müasir texnologiya və proqram təminatına əsaslanan bu sistemin istifadəyə verilməsi nəticəsində abonentlərə sistemə qoşulmuş

maliyyə qurumlarının istənilən ödəniş xidməti nöqtəsində kommunal xidməti borcları haqqında tam informasiya almaq və istənilən ödəniş mexanizmləri (nağd yolla, ödəniş kartları, bank köçürmələri, "Internet Banking") vasitəsilə ilə ödəniş aparmaq imkanı yaradılmışdır. Sistemə qoşulmuş kütləvi xidmət müəssisələrinin xeyrinə qəbul edilən ödənişlər haqqında məlumatlar 30 saniyə ərzində həmin təşkilatlara çatdırılır. Eyni zamanda iştirakçı təşkilatların daxili informasiya sistemi ilə yaradılmış yüksək səviyyəli məlumat mübadiləsi interfeysi vasitəsilə bu təşkilatların elektron abonent bazasında baş verən dəyişikliklər real rejimdə mərkəzi informasiya bazasına türürülür.

Respublikada kommunal xidməti sektorunda fəaliyyət göstərən "Bakıelektrikşəbəkə" ASC, ARDNŞ-nin "Azəriqaz" İB, "Azərsu" ASC və "Azərenerji" ASC kimi əsas təşkilatlar sistemə inteqrasiya olunmuş, toplam olaraq 4 milyona yaxın abonent haqqında məlumat sistemə yüklənmişdir. Artıq "Bakıelektrikşəbəkə" ASC, ARDNŞ-nin "Azəriqaz" İB və "Azərenerji" ASC üzrə bütün xidmət zonaları əhatə edilmişdir, "Azərsu" ASC ilə bu istiqamətdə işlər davam etdirilir. Sistemə qoşulmuş 35 bank və Azərpoçt MMC-nin 700-ə yaxın ödəniş məntəqəsində bu təşkilatların abonentlərinə borclar haqqında məlumatlar çatdırılır və xidmət haqları qəbul edilir. Hal-hazırda sistemdə gündəlik emal olunan sənəd sayı 35- 50 min arasında dəyişir. Həmçinin respublikada fəaliyyət göstərən "MilliKart" MMC və "AzəriCard" MMC kimi kart prosessinq mərkəzləri sistemə inteqrasiya olunmuş və bu mərkəzlərdə xidmət olunan bankların müştəriləri bankomat şəbəkəsindən və KÖMİS-in www.apus.az internet servis xidmətindən istifadə etməklə borcları haqqında məlumatları ala bilər, ödəniş kartları vasitəsilə ödənişlərini apara bilirlər.

4.5. KAĞIZ DAŞIYICILARDA HESABLAŞMALAR

Banklar ödəniş tapşırıqını Mərkəzi Banka kağız daşıyıcılarda təqdim edə bilərlər. Kənarlaşma olduqda ödəniş tapşırığı icra olunmadan geri qaytarılır. Kənarlaşma olmadıqda Mərkəzi Bank kağız daşıyıcılarda təqdim olunmuş ödəniş tapşırığının icrasını aşağıdakı qaydada həyata keçirir:

1.Emitent bank autsayder, Benefisiar bank sistemin üzvü olduqda Emitent bank ödəniş tapşırığını kağız daşıyıcılarda Mərkəzi Banka təqdim edir. Mərkəzi Bankın məsul işçisi ödəniş tapşırığının 1-ci nüsxəsi əsasında ödənişi müvafiq sistem vasitəsi ilə Benefisiar banka göndərir.

2.Emitent bank sistemin üzvü, Benefisiar bank autsayder olduqda, Emitent bank ödəniş tapşırığını müvafiq sistem vasitəsi ilə Mərkəzi Bankın ünvanına göndərir, sistem avtomatik olaraq Emitent bankın müxbir hesabını debetləşdirir, Benefisiar bankın müxbir hesabını kreditləşdirir. Mərkəzi Bankın məsul işçisi ödənişi çap edir, öz imzası ilə və stampla təsdiq edərək Benefisiar banka təqdim edir.

3.Emitent və Benefisiar banklar sistemlərin autsayderi olduqda Emitent bank ödəniş tapşırığını Mərkəzi Banka təqdim edir. Mərkəzi Bankın məsul işçisi ödəniş tapşırığının birinci nüsxəsi əsasında Emitent bankın müxbir hesabını debetləşdirir, Benefisiar bankın müxbir hesabını kreditləşdirir və ödəniş tapşırığının iki nüsxəsini imza və ştampla təsdiq edərək bir nüsxəsini Emitent banka , bir nüsxəsini benefisiar banka təqdim edir.

4. Mərkəzi Bank və diqər İştirakçılar kağız daşıyıcılarda hesablaşmaların aparılmasına dair məlumatları Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq arxivləşdirir.

4.6. BANK HESABLARININ NÖVLƏRİ

Bank hesabları aşağıdakı növlərə bölünür:

1. cari hesablar;
2. cari subhesablar;
3. ssuda hesabları;
4. əmanət (depozit) hesabları;
5. Müxbir hesablar.

Cari hesablar dövlət orqanlarının, bələdiyyələrin, hüquqi şəxslərin, onların filial, nümayəndəlik və digər ayrıca bölmələrinin, ailə kəndli təsərrüfatının, həmçinin fərdi sahibkarların maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarının aparılması üçün açılır. Fiziki şəxslərin cari hesabları onların hesabına daxil olan pul vəsaitini qəbul etmək və hesaba salmaq, hesabdan pul vəsaitlərini köçürmək və vermək, habelə hesab üzrə digər əməliyyatların aparılmasına dair sərəncamlarını yerinə yetirmək üçün açılır. Həmkarlar İttifaqının ilk təşkilatı üçün cari hesablar qanunvericiliklə və nizamnamə ilə onların üzərinə qoyulmuş vəzifələrin icrası üçün açılır.

Büdcə təşkilatlarına cari hesablar yalnız xarici dövlət və hüquqi şəxslər tərəfindən məqsədli təyinat üzrə verilən yardım və qrantların alınması və istifadəsi üzrə bank əməliyyatlarının aparılması üçün açılır.

Cari hesablara müvəqqəti cari hesablar və xüsusi cari hesablar da aiddir. Müvəqqəti cari hesablar təsərrüfat ortaqlıqları, cəmiyyətləri, kooperativlər və digər təsərrüfat subyektlərinə onların dövlət qeydiyyatına alınanadək müvafiq olaraq nizamnamə, şərikli kapitallarının, habelə paylarının ödənilməsi üçün açılır. Xüsusi cari hesablara məhkəmələrin və məhkəmə icraçısı qurumlarının depozit hesabları, habelə notariusların depozit, sığorta girovu və zəmanət kassası hesabları aiddir. Məhkəmənin və məhkəmə icraçıları qurumunun depozit hesabları qanunvericilikdə nəzərdə tutulmuş məqsədlərlə bank əməliyyatlarının aparılması üçün açılır. Sığorta girovu və zəmanət kassası hesabı xüsusi qaydada notariat fəaliyyəti həyata keçirilən zaman fəaliyyət nəticəsində vurula biləcək ziyanın ödənilməsi və xüsusi notariusun məsuliyyətinə zəmanət vermək məqsədilə qanunla nəzərdə tutulmuş pul vəsaitlərinin yığılması və istifadəsi üçün xüsusi notariuslara açılır.

Notariusun depozit hesabı qanunvericilikdə nəzərdə tutulmuş hallarda hüquqi və fiziki şəxslərdən pul vəsaitlərinin, qiymətli kağızların daxil olması, saxlanması və digər əməliyyatların aparılması üçün dövlət və xüsusi notariuslara açılır.

Cari subhesablar hüquqi şəxslərə onların regional fəaliyyətləri ilə əlaqədar filial və nümayəndəlik statusu daşımayan və olduğu yerdən kənarda yerləşən struktur bölmələrinə açılır. Bu hesablara daxil olan vəsaitlər həmin struktur bölmələrinin işçilərinin əmək haqları və əmək haqqı ilə bağlı digər məcburi köçürmələrin, habelə bu qurumların fəaliyyətini təmin edən zəruri kommunal xərclərin ödənilməsi üzrə ödənişləri istisna olmaqla, baş təşkilatla bağlanmış bank hesabı müqaviləsində müəyyən olunmuş müddətlərdə baş təşkilatın cari hesabına köçürülməlidir.

Ssuda hesabları bankın müştərilərə verdiyi kreditlərin uçotu üçün, kredit müqaviləsində nəzərdə tutulduğu hallarda isə, həmçinin kredit vəsaitlərinin istifadəsi və ödənilməsi ilə bağlı bank əməliyyatlarının aparılması üçün açılır.

Əmanət (depozit) hesabları bank əmanəti (depozit) müqaviləsinə əsasən müştərilərin əmanətlərinin uçotu, pul vəsaitlərinin əmanətlərə cəlb edilməsi və müvafiq əməliyyatların aparılması üçün açılır.

Müxbir hesablar bankların özlərinin və müştərilərinin bank əməliyyatlarının aparılması məqsədi ilə yerli və xarici banklar üçün açılır.

4.7. STANDART BANK HESAB NÖMRƏSİNİN (İBAN) TƏTBİQİ VƏ İSTİFADƏSİ

Bankçılıq Standartları üzrə Avropa Komitəsi (ECBS) və Standartlaşdırma üzrə Beynəlxalq Təşkilat (İSO) tərəfindən müəyyən edilmiş İSO 13616 beynəlxalq standartına uyğun olaraq yaradılan və banklar, poçt-maliyyə xidmətləri göstərən poçt rabitəsi milli operatoru və Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlıq Agentliyi (maliyyə institutları) tərəfindən müştərilərə təqdim edilən standart bank hesab nömrəsidir. Elektron ödəniş məkanında bank müştərilərinin identifikasiya edilməsinin təkmilləşdirilməsi, ödənişlərin emalı zamanı avtomatlaşdırılma səviyyəsinin yüksəldilməsi və hal-hazırda tətbiq edilən bank hesablarının strukturundakı pərakəndəliyin aradan qaldırılması məqsədilə beynəlxalq təcrübəyə əsaslanaraq respublikada IBAN-ın tətbiqi qərara alınmışdır. Bu tədbirin həyata keçirilməsi üçün Mərkəzi Bankın, Vergilər Nazirliyinin, Maliyyə Nazirliyinin, Dövlət Sosial Müdafiə Fondunun, Banklar Assosiasiyasının və

kommersiya banklarının (Beynəlxalq Bank, Kapital Bank, Standart Bank, Unibank, Bank Respublika və Muğanbank) nümayəndələrindən ibarət 17.06.2010-cu il tarixində İşçi Qrup (İQ) yaradılmışdır. İQ tərəfindən IBAN strukturu müəyyən edilmiş, ödəniş sistemlərində istifadə olunan ödəniş formatlarında ediləcək dəyişikliklər dəqiqləşdirilmiş və bir sıra zəruri materiallar hazırlanmışdır.

Respublikada İQ tərəfindən qəbul edilmiş IBAN aşağıdakı struktura malikdir:

2 simvol – Azərbaycan Respublikasının ölkə kodudur (“AZ”).

2 simvol – nəzarət rəqəmidir.

4 simvol – maliyyə institutunun SWIFT BIC-inin ilk 4 simvoludur.

20 simvol – müştəri hesab nömrəsidir. Müştəri hesab nömrəsinin simvollarının sayı 20-dən az olarsa, onun əvvəlinə sıfırlar əlavə edilir.

Azərbaycanda IBAN-ın tətbiqinin məqsədi maliyyə institutlarında mövcud olan hesab strukturlarının beynəlxalq standart əsasında unifikasiya olunmasıdır. **Azərbaycanda İBAN-a tam keçid** 03.09.2012-ci il tarixində planlaşdırılır.

İBAN-İN STRUKTURU

IBAN-ın strukturu 28 simvoldan ibarət olmaqla aşağıdakı quruluşa malikdir:

1. ilk dəyişməyən 2 simvol – “Ölkələrin və onların qurumlarının adlarının təsviri üçün Kodlar” beynəlxalq standartına (ISO 3166) uyğun olaraq, “AZ” Azərbaycan Respublikasının ölkə kodudur;

2. növbəti 2 simvol – nəzarət rəqəmləridir;

3. növbəti 4 simvol – “Bank İdentifikasiya Kodları” beynəlxalq standartına (ISO 9362) uyğun olaraq, bankın BIC-inin ilk 4 simvoludur;

4. növbəti 20 simvol – müştəri hesab nömrəsidir.

2. Müştəri hesab nömrəsi üçün standart format mövcud deyildir. Müştəri hesab nömrəsində bankların seçimindən asılı olaraq filial kodu, balans hesabı, valyuta kodu, subhesab və müştəri kodu göstərilə bilər. Simvolların sayı 20- dən az olduğu halda, həmin boşluqların yerinə müştəri hesab nömrəsinin əvvəlinə sıfırlar əlavə edilməlidir.

3. Müştəri hesab nömrəsində yalnız Latın əlifbasının böyük hərflərindən (A-Z) və rəqəmlərdən (0-9) istifadə edilməlidir.

4. Elektron ödəniş sənədlərində IBAN-ın strukturunda boş sahəyə yol verilməməlidir.

5. Kağız daşıyıcıda hazırlanmış ödəniş sənədlərində IBAN-ın simvolları dörd-dörd qruplaşdırılmaqla boş sahə ilə bir-birlərindən ayrıla bilər.

4.8. KREDİT KARTLARI VƏ KART PROSESSİNQ TƏŞKİLATLARI

İlk öncə sahibi olacaq fiziki şəxslərə istiqamətlənmiş pərakəndə məhsul kimi yaranan ödəniş kartları hal-hazırda bütün dünyada banklar üçün pərakəndə biznes fəaliyyətinin əsas istiqamətlərindən biridir.Ödəniş kartı malların, iş və xidmətlərin dəyərinin ödənilməsi, öz hesabından digər şəxsin hesabına pul vəsaitinin köçürülməsi, habelə nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən ödəniş alətidir.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq prosessinq təşkilatı kimi dövlət qeydiyyatından keçmiş və ödəniş kartları vasitəsilə aparılmış əməliyyatlar haqqında məlumatların toplanması, emalı və ötürülməsi, həmçinin kart emissiyasına və ekvayrinqinə texniki xidmət göstərilməsi üzrə fəaliyyəti həyata keçirən hüquqi şəxsdir.

Prosessinq təşkilatlarına prosessinq fəaliyyətinin həyata keçirilməsi üçün icazələrin verilməsi, bu fəaliyyətə nəzarət qaydaları, həmçinin prosessinq sisteminin etibarlılığına və təhlükəsizliyinə aid minimum tələblər Azərbaycan Respublikası Mərkəzi Bankının "Prosessinq təşkilatlarına icazələrin verilməsi və prosessinq fəaliyyətinə nəzarət" Qaydaları əsasında müəyyən edilir. Prosessinq fəaliyyətinin həyata keçirilməsi üçün icazə müddətsiz olaraq verilir.

Hal-hazırda ölkədə 4prosessinq təşkilatı fəaliyyət göstərir. Bu prosessinq təşkilatlarından 2-ü ayrıca hüquqi şəxs kimi, 2-si isə bankın daxili bölməsi kimi fəaliyyət göstərir.

Hal-hazırda ölkədə fəaliyyət göstərən banklar tərəfindən beynəlxalq kart təşkilatlarından "Visa Int.", "MasterCard Worldwide", "American Express", "Diners Club" kimi təşkilatlara məxsus beynəlxalq ödəniş kartları və həmçinin lokal ödəniş kartları emissiya olunur.

Kredit kartları istehlak xərcləmələrində, çekin yerini alan bir ödəmə alətidir. Bank kartları kredit kartlarından fərqlidir. Kredit kartının sahibi müəyyən bir miqdara qədər ödəmə həyata keçirmədən xərcləmələri edə bilər. Bank kartı isə kredit əməliyyatını aparmaq haqqını verməz. Kredit kartının işləmə sxemasını aşağıdakı kimi göstərə bilərik: Müştəri banka bank kredit kartoçkasının alınması üçün ərizə təqdim edir. Şirkətin kredit qabiliyyəti yoxlanıldıqdan sonra, şirkətin ödəmə quçu təsbit edilərək limit çərçivəsində özəl kartoçka hesabı açılır və ona plastik kart hazırlanır. Kartoçka sahibi mal və xidmət alarkən kartoçkasını satıcıya təqdim edir və satıcı ticarət hesabı hazırlayır (slip) və bu prosesə impintinq (imprinting) deyilir. Hesab üç nüsxədə hazırlanır, 1-ci nüsxə kart sahibinə, 2-ci satıcıya, 3-cü isə banka, yəni bank - ekvayerə göndərilir. Bank ekvayer günlük və ya müştəri ilə bağladığı müqavilə əsasında, ticarət hesabı olan kimi orada qeyd edilən məbləği satıcının hesabına köçürüb və bunun qarşılığında məbləğin 2-5%-ni komisyon haqqı olaraq özündə saxlayır. Bank-ekvayer pulları bank-emitent vasitəsilə, yəni informasiya mübadiləsi interchange sistemi ilə alır və məlumat qarşılığında ekvayer emitentə komisyon haqqı ödəyir.Hər ayın sonu tarixinə bank emitent kart sahibinə onun kart hesabının xüsusi çıxarışını göndərir. Alıcı, yəni kart sahibi müqavilədə nəzərdə tutulmuş komisyon haqqını və ay ərzində həyata keçirdiyi xərcləri də ödəyir.

Əgər kart sahibi ilə satıcının hesabı bir bankda olarsa, o zaman hesablaşmalar sadələşir.

Debet kartoçkasına sahib olan şəxs onun cari hesabında tutulan vəsait limitində xərcləmə həyatı keçirə bilər. Dünyada ilk bankomat 1967-ci ildə Londonda fəaliyyətə başlamışdır. Hal-hazırda dünyada ən böyük bankomat istifadəçiləri Sakit okean - Asiya regionu ölkələrinin payına düşməkdədir. Bankomatlar apardıqları əməliyyatlarına görə bir neçə növə bölünür:

Sadə bankomatlar- tam funksiyalı, yəni bu bankomatlar daha mürəkkəb əməliyyatlar həyata keçirə bilərlər: pul köçürməsi, xarici valyutaların dəyişməsi. Bankomat aparatları həm küçələrdə, həm də ofislərdə yerləşdirilə bilər. Bankomatların çalışma rejimi aşağıdakı kimidir: on line rejimi; avtonom rejim (off line); cədvəl rejimi.

Kart sahibinə bank pul verərkən, bank ondan pin kodunu tələb edir. Kartı əlində tutan, ancaq kodu bilməyən şəxsin bankdan pul alması mümkün deyildir. Kredit kartları, nağd puldan istifadə edilmədən, mal və xidmət satinalma imkanı saxlayan kartlardır. Digər tərəfdən isə kredit kartları ödəmə prosesində və ya alış-verişlərdə kreditdən istifadə etməni genişləndirir. Kredit kartları "indi al daha sonra ödə" amerikan həyat tərzi fəlsəfəsinin bir məhsuludur. Başlanğıcda yalnız ticarəti asanlaşdırmasına baxmayaraq, günümüzdə bankçılıq, işlətmə və fərdi pul menecmentinin təməl ünsürü halına gəlmişdir. Günümüzdə kredit kartları effektiv və çekin yerini alan bir ödəmə vasitəsi alətinə çevrilmişdir. Kart sahibinin yanında pul daşıması vacib deyil, ona çekin qəbul edilməməsindən doğa biləcək problemləri aradan qaldırmaq, bəlli bir miqdara qədər bütün ehtiyaclarını bu yolla ödəyə bilməkdir. Kredit kartlarının müxtəlif növləri mövcuddur: ödəmə, borclandırma (charge cards, kreditli kart (credit cards), səyahat və əyləncə kartları (travel and entertaiment cards), mağaza kartları (store cards), firma kartları, beynəlxalq və ölkə daxili kartlardır. Kredit kartları ilə sürətlə artan əməliyyat həcminə diqqət yetirdikdə, kredit kartları sisteminin inkişaf etmiş

ölkələrdə oturmuş bir sistem olduğunu qəbul etmək məcburiyyətindəyik. İnkişaf etmiş ölkələrin ödəmə sistemlərində kredit kartlı ödəmələrinin ümumi ödəmədəki % paylarını aşağıdakı cədvəldə aydın görə bilərik.

Kredit kartından istifadə etmənin üstünlükləri aşağıdakılardır: yetərli qədər nağd pul daşımamaq, uyğun bir mal və ya xidmətin satınalınması zamanı böyük miqdar pulun itirilmə və ya oğurlanma riskini ortadan qaldırır; yolçuluq sırasında planlaşmamış olayların sonda təşkil edilən proqram dəyişikliklərinin ödəmə gücünə təsir etməməsi; beynəlxalq keçərli kart sahi-binin xaricə gedərkən hədsiz miqdarda valyuta daşıma məcburiyyətinin olmaması, ödəmələrdə müəyyən faizin olması, kartların bir hissəsinin nağd çəkmə imkanı olması, təklif edilən bəzi xidmətlərdən aşağı qiymətlərlə yararlanması və bunlara bənzər bir çox xidməti bərabərində təklif etməsidir. İş yeri baxımından yararlanaraq o, həmin an nağd pulu olmadığı üçün alış-veriş aparmayan müştəriləriilə satış apararaq onların girovlarını artırmaq, kredit kartı ilə yapdığı satış qarşılığını bankdan qəbul edərək, sanki nəğd pul ilə satış yapmaq, beləliklə çek və sənəd qəbul etmənin riskindən (məsrəflərindən), müddətlərindən qurtula bilər. Banklar baxımından isə kredit kartları gəlirlərini artırmada önəmli bir alətdir. Üzv iş yerlərindən alınan komisiyonlar, kart başına hər il alınan üzvlük haqları, kredit kartı yolu ilə müştərilərinin artması buna nümunə ola bilər.

Kredit kartları mövzusundakı yeniliklərdən biri də bu kartın eyni zamanda telefon kartları əvəzinə telefonlarda da istifadə edilməsidir. Kredit kartları ilə bağlı ən önəmli problem kartlar mövzusunda yetərli qanunların olmamasıdır.

Kart prosessinq təşkilatları üzrə kart infrastrukturunun bölgüsü

01.01.2011-cu il tarixinə

Kart prosessinq təşkilatının adı	Xidmət olunan bankların sayı	Ödəniş kartlarının sayı	Terminallarının sayı (ədədlə)	
			Bankomat	POS -terminal
"AzeriCard" MMC	30	2000000	1200	6000
"MilliKart" MMC	11	150000	250	2500
KapitalCard	1	2000000	390	420
RoyalCard	1	27319	31	109

Mənbə: Mərkəzi Bankının məlumatları

AzeriCard. "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə məxsus olan "AzeriCard"ın 1996-cı ildə ölkədə ilk prosessinq təşkilatı kimi əsası qoyulmuşdur. 1997-ci ildə Qafqaz regionu və Orta Asiyada debet/kredit kartlarının xidmət olunması üçün "AzeriCard" prosessinq təşkilatının qurulması başlanmışdır. Birinci mərhələdə təşkilat üçün təşkil olunmuş yer MasterCardın Təhlükəsizlik Departamentində tam sertifikasiyadan keçmiş, MasterCard və VISA-ın bütün standartlarına tam şəkildə uyğunlaşdırılmışdır. "AzeriCard" şirkəti fəaliyyətə başladığı andan, ilk 24 saatlıq Müştərilərə Dəstək Xidməti yaradılmışdır.

"AzeriCard"-a MSP (Member Service Provider) və Eurocard-Mastercard, Cirrus/Maestro, VISA Electron və VISA kartlarının embossinq/şifrələmə mərkəzi statusları verilmişdir. Ödəniş kartlarının qəbulu və emissiyası üzrə "Azərbaycan Beynəlxalq Bankı" ASC, "AzeriCard" tərəfindən MasterCard və VISA beynəlxalq kart təşkilatlarında tam sertifikasiyadan keçmişdir.

1999-cu ildə "Royal Bank of Scotland" Özbəkistan, "AzeriCard" prosessinq təşkilatı tərəfindən MasterCard beynəlxalq kart təşkilatında sertifikasiyadan keçmişdir. 2005-ci ildə isə "Azərbaycan Beynəlxalq Bankı-Moskva" "AzeriCard" prosessinq təşkilatına qoşulmuşdur.

2000-ci ilin əvvəllərində "AzeriCard" və "Azərbaycan Beynəlxalq Bankı" ASC American Express beynəlxalq kart təşkilatında ödəniş kartlarının qəbulu üzrə sertifikasiyadan keçmişlər. 1 may 2008-ci ildə isə "AzeriCard" prosessinq təşkilatı və "Azərbaycan Beynəlxalq Bankı" ASC American Express ödəniş kartlarının emissiyası üzrə xüsusi hüquq qazanmışlar.

Hal-hazırda "AzeriCard" kart əməliyyatları və ödəniş xidmətləri üzrə yeni sistem quraşdırmışdır. Yeni sistem mükəmməl məlumatlar bazası sistemi olan "Oracle"-da qurulmuş və istənilən beynəlxalq və ya daxili əməliyyatların həyata keçirilməsinə imkan verir. Bu sistem MasterCard, Visa, American Express və Diners Club kimi beynəlxalq kart təşkilatları ilə çalışır.

"AzeriCard" prosessinq təşkilatı yüksək texnologiya bazasında "card to card", mobil və şəhər telefonları, kommunal xidmətləri, gömrük rüsumları və vergilərin ödənişi, "Mobil banking" və "İnternet banking", PIN Change, ORM (Online Risk monitorinq), SMS Xəbərdarlıq və başqa xidmətləri həyata keçirir.

"AzeriCard" prosessinq təşkilatı tərəfindən elektron ticarət əməliyyatlarını aparmaq üçün VISA və MasterCard beynəlxalq kart təşkilatlarında bütün lazımi proseslər uğurla başa çatdırılmışdır. "AzeriCard" MMC "3D Secure Verified by VISA" və "MasterCard Secure Code" texnologiyaları sayəsində kart sahibləri və pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələri üçün ödənişlərin tam təhlükəsizliyini təmin edir.

2010-ci ilin ortalarından Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemi vasitəsilə ödənişlərin həyata keçirilməsi mümkün olmuşdur. Bu sistem sayəsində ödəniş kartı sahibləri elektrik enerjisi, qaz, su və digər kommunal borclarını ödəyə bilərlər.

Həmçinin, pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrində simsiz POS-terminalların quraşdırılma prosesi başlanmışdır.

"AzeriCard" prosessinq təşkilatında xidmət olunan bankların siyahısı

№	Bankın adı	№	Bankın adı
1	"Atabank" ASC	16	"Xalq Bank" ASC
2	"Atrabank" ASC	17	"Muğan Bank" ASC
3	"Azərbaycan Beynəlxalq Bankı"ASC	18	"NBC Bank" ASC
4	"Azərbaycan Kredit Bankı" ASC	19	"Nikoyl Bank" İKB ASC
5	"Azəriqazbank" ASC	20	"Parabank" ASC
6	"Azfinansbank" ASC	21	"Paşa Bank" ASC
7	"Bank Avrasiya" ASC	22	"Rabitəbank" ASC
8	"Bank of Azərbaycan" ASC	23	"Turanbank" ASC
9	"Bank Respublika" ASC	24	"Yapı Kredi Bank" QSC
10	"Bank Silk Way" ASC	25	"Yunayted Kredit Bank" ASC
11	"Bank Standard" QSC	26	"Azərbaycan Beynəlxalq Bankı-Moskva" MMC
12	"Dekabank" KB ASC	27	"Baki Ticarət Bankı" ASC
13	"Əmrahbank" ASC	28	"Qafqaz İnkişaf Bankı"
14	"Gəncəbank" SKB	29	"Royal Bank" ASC
15	"Günaybank" ASC	30	"The Royal Bank of Scotland"

Mənbə: AR MB

2010-cu il ərzində bank kartlarının sayı 257 min ədəd artaraq 4,23 mln. ədəd təşkil etmişdir və hər min nəfər yetkinlik yaşına çatmış əhaliyə orta hesabla 694 ödəniş kartı düşür. İnternet-banking vasitəsilə 75,47 mln. man məbləğində 29,98 min. əməliyyat həyata keçirilmişdir.

"MilliKart" MMC. Azərbaycan Respublikası Prezidentinin 09 dekabr 2004-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Milli Ödəniş Sisteminin İnkişafı üzrə 2005-2007-ci illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində Dünya Bankının maliyyə dəstəyi ilə Azərbaycan Respublikasının Mərkəzi Bankında "MilliKart" prosessinq təşkilatı 03 yanvar 2005-ci il tarixində yaradılaraq istismara verilmişdir.

14 iyul 2006-cı il tarixində 18 bankın təşəbbüsü ilə "MilliKart" MMC təsis edilmişdir. Bankın təsisçiləri aşağıdakı banklardır:

"AtaBank" ASC, "Dəmirbank" ASC, "Azər-Türk Bank" ASC, "Bank of Baku" ASC, "Zaminbank" ASC, "Turanbank" ASC, "Amrahbank" ASC, "Xalq Bank" ASC, "KredoBank" ASC, "AccessBank" QSC, "Parabank" ASC, "Rabitəbank" ASC, "Bank Respublika" ASC, "Bank Standard Kommersiya Bankı" QSC, "Texnikabank" ASC, "Unibank" KB ASC, "Debüt" KB ASC, "Azərbaycan Sənaye Bankı" ASC.

02 oktyabr 2006-cı il tarixindən isə "MilliKart" prosessinq təşkilatı fəaliyyətini Məhdud Məsuliyyətli Cəmiyyət kimi davam etdirir.

Azərbaycan Respublikasında kart ödənişlərinin inkişaf etdirilməsi məqsədi ilə Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) "MilliKart" MMC-nin nizamnamə kapitalında iştirakı ilə bağlı öz niyyətini bildirmiş və bununla əlaqədar 30 dekabr 2008-ci il tarixində AYİB-nin "MilliKart" MMC-nin təsisçiləri sıralarına daxil olması ilə bağlı müvafiq Saziş imzalanmışdır. AYİB-nin prosessinq təşkilatının nizamnamə kapitalında iştirak etməsi ilə əlaqədar olaraq, 07 iyun 2010-cu il tarixində "MilliKart" MMC-nin yeni nizamnaməsi dövlət qeydiyyatına alınmışdır.

Bu prosessinq təşkilatı VİSA və MasterCard kimi beynəlxalq kart təşkilatları tərəfindən sertifikasiyadan keçmiş və müvafiq olaraq həmin təşkilatlarda TPP (Third Party Processor) və MSP (Member Service Provider) kimi qeydiyyata alınmışdır.

Prosessinq təşkilatının funksiyaları onun tərəfindən kart ödənişləri üzrə prosessinq xidmətlərinin göstərilməsi, kart hesablarının dəstəklənməsi, bankomat, POS-terminal və digər ödəniş terminallarının fəaliyyətinin təmin olunması, banklar və beynəlxalq kart təşkilatları üçün hesabatların hazırlanması, beynəlxalq kart təşkilatları ilə banklar arasında məlumat mübadiləsinin təşkil edilməsi və digər xidmətlərdən ibarətdir.

"MilliKart" MMC, "Dəmirbank" ASC, "Unibank" KB ASC, "GoldenPay" MMC-nin sıx əməkdaşlığı nəticəsində elektron ticarət xidməti yaradılaraq istifadəyə verilmişdir. Bu sistemin göstərdiyi elektron ticarət xidmətlərində qabaqcıl texnologiyaların istifadə edilməsi ilə yanaşı, etibarlılıq və təhlükəsizliyin yüksək səviyyədə təmin olunması üçün məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Belə ki, internet vasitəsilə ödənişlərin təhlükəsiz aparılması məqsədi ilə "MilliKart" MMC "3-D Secure" texnologiyalarının tətbiqi ilə əlaqədar MasterCard və VISA təşkilatlarında müvafiq olaraq "Secure Code" və "Verified by VISA" üzrə sertifikasiyadan keçmişdir.

"MilliKart" prosessinq təşkilatında xidmət olunan bankların siyahısı

№	Bankın adı
1	"Accessbank" QSC
2	"Azərbaycan Sənaye Bankı" ASC
3	"Azər-Türk Bank" ASC
4	"Bank of Baku" ASC
5	"Dəmirbank" ASC
6	"Expressbank" ASC
7	"Kredobank" ASC
8	"Unibank" KB ASC
9	"Zaminbank" ASC
10	"Azərpoçt" MMC

Mənbə: AR MB

KapitalKart. Ödəniş kartları sahəsində müştərilərə göstərilən xidmət səviyyəsini yüksəltmək və operativliyi daha da artırmaq məqsədilə "Kapital Bank" ASC tərəfindən daxili prosesinq sisteminin yaradılması üzrə bank tərəfindən elan edilən tenderdə Rusiyanın "Compass Plus" şirkəti qalib olmuşdur.

05 may 2009-cu il tarixində "Kapital Bank" ASC-yə məxsus ödəniş kart bazası və ekvayrinq şəbəkəsi "Azəricard" MMC-dən "KapitalKart" daxili prosessinq sisteminə miqrasiya edilmişdir. "KapitalKart" hazırda yalnız "Kapital Bank" ASC-yə xidmət göstərir. Bu prosessinq sistemi "Kapital Bank" ASC tərəfindən idarə edilir və Visa və MasterCard beynəlxalq kart təşkilatları tərəfindən tam şəkildə sertifikatlaşdırılıb.

"KapitalKart" prosessinq sisteminin funksiyaları kart ödənişləri üzrə prosessinq xidmətlərinin göstərilməsi, kart hesablarının dəstəklənməsi, bankomat, POS-terminal və digər ödəniş terminallarının fəaliyyətinin təmin olunması, bank və beynəlxalq kart təşkilatları üçün

hesabatların hazırlanması, beynəlxalq kart təşkilatları ilə banklar arasında məlumat mübadiləsinin təşkil edilməsi və digər xidmətlərdən ibarətdir. "KapitalKart" prosessinq sisteminin nəzdində kart sahiblərinə günün 24 saatı xidmət göstərən "196 Müştəri Xidməti" mövcuddur. Bundan başqa, kart əməliyyatlarının və terminal şəbəkəsinin təhlükəsizliyini təmin etmək məqsədilə "KapitalKart" tərəfindən xüsusi proram vasitəsilə günün 24 saatı monitorinq xidməti də həyata keçirilir.

Bununla yanaşı, nağdsız ödənişləri daha da stimullaşdırmaq məqsədilə 2010-cu ilin iyun ayından etibarən "KapitalKart" tərəfindən Ethernet və GPRS tipli POS-terminalların quraşdırılmasına başlanmışdır. "KapitalKart" real vaxt rejimində kart hesabına daxil olan mədaxil haqqında məlumatın verilməsi, o cümlədən mobil danışıq, kommunal xidmətlər üzrə borcların ödənilməsi kimi bir sıra nağdsız ödənişlərin həyata keçirilməsini təmin etmək məqsədilə "SMS Info", "SMS Banking" və "Internet Banking" xidmətlərini müştərilərin istifadəsinə vermişdir.

Həmçinin, internet vasitəsilə ödənişlərin təhlükəsiz aparılması məqsədilə "KapitalKart" "3-D Secure" texnologiyalarının tətbiqi ilə əlaqədar MasterCard və VISA beynəlxalq kart təşkilatlarında müvafiq olaraq "SecureCode" və "Verified by VISA" üzrə sertifikasiyadan keçmişdir.

RoyalCard. 2010-cu ildən fəaliyyətə başlayan "RoyalCard" prosessinq təşkilatı "Royal Bank" ASC-nin daxili struktur bölməsi olaraq VISA, MasterCard, Japan Credit Bureau və China Unionpay beynəlxalq kart təşkilatları ilə əməkdaşlıq edir. Hazırda UnionPay və JCB üzrə sertifikasiya işləri tamamlanmaqdadır. RoyalCard elektron kommersiya, internet bankçılıq və s. müasir bank xidmətləri üzrə yüksək texnoloji imkanlara malikdir. RoyalBank kart informasiyasının təhlükəsizliyi üzrə ixtisaslaşmış İrlandiya şirkəti olan "SysNet Global Salutions" tərəfindən hər il PCİDSS beynəlxalq standartı üzrə auditdən keçir və 2010-cu ilin 02 noyabr 2010-cu il tarixində qeyd edilən şirkətin idarə heyətinin qərarı ilə Azərbaycan üzrə prinsipial biznes partnor seçilmişdir.

Prosessinq təşkilatı ödəniş kartlarının personallaşdırılması, klirinq və hesablaşma xidmətlərinin aparılması, ödəniş kartlarının və PİN zərflərin hazırlanması, ödəniş kartlarının aktivləşdirilməsi və bloklaşdırılması, fasiləsiz müştəri xidməti və digər xidmətləri təklif edir.

Hal-hazırda yalnız "Royal Bank" ASC-nin ödəniş kartlarına xidmət göstərir.

KARTLAR VASİTƏSİ İLƏ ODƏNİŞLƏRİN HƏYATA KECİRİLMƏSİ

Kart sahibi emitentlə bağlanmış muqaviləyə uyğun olaraq kart vasitəsi ilə mallar, iş və xidmətlərin əldə edilməsi uzrə odənişləri yerinə yetirə, valyuta mubadiləsini apara, nağd pul vəsaiti əldə edə, həmcinin nağdsız formada oz hesabından vəsaiti başqa hesaba kocurə və qanunvericiliklə qadağan edilməmiş digər əməliyyatları həyata kecirə bilər.Kartlar vasitəsi ilə həyata kecirilən əməliyyatlar avtorizasiya edildiyi andan sistemdə gericağrılmaz sayılır. Səhv odənişlər uzrə əməliyyatlara etiraz etmək ucun kart sahibi muqavilə şərtlərinə uyğun olaraq emitentdən oz hesabı uzrə cıxarışları tələb edə və emitentə aparılan əməliyyatı təsdiqləyən sənədləri (qəbz) təqdim edə bilər. Kart sahibi əməliyyat uzrə etiraz etmək ucun muqavilədə gostərilən muddətdə muraciət etmədikdə aparılmış kart əməliyyatı təsdiq edilmiş sayılır.

Səhv odənişlərin araşdırılması, dəyəri kart vasitəsilə odənilmiş məhsul, iş və xidmətdən imtina edilməsi və bu əməliyyat uzrə məbləğin geri qaytarılması qaydası emitent və kart sahibi arasında bağlanan muqavilənin şərtlərinə və həmcinin muvafiq beynəlxalq və ya lokal kart təşkilatlarının tələblərinə əsasən həyata kecirilir. Kart sahiblərinin bankomat, POS-terminal və digər avadanlıqlar vasitəsilə apardığı butun əməliyyatlar muvafiq sənədlərin (qəbz, slip) verilməsi ilə həyata kecirilməlidir. Bu sənədlər kağız və ya elektron daşıyıcılarda tərtib edilə bilər.

EMİTENT VƏ KART SAHİBİNİN VƏZİFƏLƏRİ

Kartların emissiyasını Azərbaycan Respublikasının qanunvericiliyinə muvafiq olaraq bank fəaliyyətinin həyata kecirilməsi ucun lisenziyaya malik olan huquqi şəxslər həyata kecirə bilər. Emitent emissiya etdiyi kartların novunu, muştərilərə təqdim edilməsi şərtlərini və kartlar uzrə xidmətləri mustəqil şəkildə muəyyən edir. Lokal kartın uzərində emitentin loqotipi, adı, kart sahibinin adı və soyadı (əvvəlcədən odənilmiş kartlar istisna olmaqla), imza yeri, həmcinin kartın quvvədə olma muddətini əks etdirən məlumatların olması vacibdir.

Beynəlxalq kart uzrə tələblər beynəlxalq kart təşkilatlarının tələblərinə əsasən muəyyən edilir.

Emitent onun tərəfindən muəyyən edilmiş ərizə forması əsasında muraciət etmiş muştəri ilə muvafiq muqavilə bağladıqdan sonra kartı sahibinə təqdim edir. Yazılı formada olmaqla ən azı 2 (iki) nusxədə tərtib edilən muqavilənin bir nusxəsi kart sahibinə təqdim edilməlidir. Emitent kartı və PİN-kod olan qapalı zərfi yalnız kart sahibinə və ya onun tərəfindən vəkil edilmiş şəxsə təqdim etməlidir. By qaydalara uyğun təqdim olunmamış kart və PİN kodlarla bağlı yarana biləcək it-kilərə gorə emitent qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır.

Kart sahibi ilə emitent arasında bağlanmış muqavilədə ən azı aşağıdakı şərtlər nəzərdə tutulmalıdır:

1. kart sahibinin şəxsi məlumatları (soyadı, adı və atasının adı, unvanı, şəxsiyyətini təsdiq edən sənədin nomrəsi, verilmə tarixi və onu verən dovlət orqanının adı);
2. emitentin və kart sahibinin huquq və vəzifələri;
3. kart sahibi tərəfindən odənilən xidmət haqlarının novu, məbləği və odənilməsi qaydası;
4. digər valyutalarda aparılan əməliyyatlar uzrə hesablaşma şərtləri və tətbiq olunan məzənnəyə istinad;
5. emitent tərəfindən kart sahibinin hesabı uzrə pul vəsaitlərinin hərəkəti və hesabındakı qalıq haqqında cıxarışların verilməsi qaydası və dovriliyi;
6. kart sahibi tərəfindən kartdan istifadə qaydaları və təhlukəsizliyin gozlənilməsi uzrə əsas tələblər;
7. bir hesab uzrə əlavə kartların təqdim edildiyi şəxslər barəsində məlumat (muqavilədə muştəriyə bir necə kartın təqdim olunması nəzərdə tutulduqda);
8. itki, oğurluq və ya kartın səlahiyyətli olmayan şəxs tərəfindən qanunsuz istifadəsi halları haqqında məlumatın verilməsi qaydası və bu halda baş vermiş itkilərə gorə tərəflərin məsuliyyəti;
9. emitent tərəfindən kartın bloklaşdırılması, kart hesabı uzrə əməliyyatların dayandırılması və kartın geri alınması şərtləri;
10. muqavilə uzrə təhlukəsizlik tələblərinin və digər şərtlərin pozulması halında tərəflərin cavabdehliyi;
11. əsassız silinmələrlə bağlı şikayətlərin verilməsi və onlara baxılması qaydası, icra muddəti;
12. mubahisələrə baxılması qaydası;
13. muqavilənin quvvəyə minməsi və ləğvi şərtləri.

Muqavilədə həmcinin kart sahibinə kredit xəttinin acılması qaydası, onun odənilməsi forması və muddəti, tutulacaq xidmət haqqının məbləği və Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən digər şərtlər nəzərdə tutula bilər.

Kart sahibi ilə bağlanmış muqavilə və təqdim olunmuş etibarnamə əsasında emitent ucuncu şəxslərə əlavə kart təqdim edə bilər.

Emitent emissiya etdiyi kartların reyestrini aparmalıdır. Reyestr ozundə emissiya olunan kartların məcburi rekvizitlərini əks etdirməlidir. Reyestrdə əlavə informasiyanın əks olunması emitent tərəfindən mustəqil surətdə muəyyənləşdirilir.

Kart vasitəsilə aparılan butun əməliyyatlar kart sahibinin kart hesabında əks olunur.

Emitent kart hesablarının acılmasını və bu hesab uzrə aparılan əməliyyatların muhasibat ucotunu muvafiq qanunvericiliyə uyğun həyata kecirir.

Kart sahibinin bir hesabı uzrə bir necə kartla aparılan əməliyyatların ucotu aparıla bilər. Kart sahibinin bir necə hesabı uzrə hesabların fəaliyyət rejimindən asılı olaraq bir kartla aparılan əməliyyatların ucotu aparıla bilər.

Kart sahibi ilə bağlanmış muqavilə əsasında emitentin aşağıdakı vəzifələri vardır:

1. kart sahibi ilə bağlanmış muqaviləyə əsasən kartı ona təqdim etmək;

2. kart və PİN-kod sahibinə təqdim olunarkən kart sahibini muqavilənin ayrılmaz tərkib hissəsi olan və ya ona əlavə kimi nəzərdə tutulan kartdan və PİN-koddan istifadə qaydaları ilə tanış etmək;

3. kartdan istifadə qaydaları və xidmət tariflərinin dəyişməsi haqqında qərar quvvəyə minməzdən ən azı 30 (gun) əvvəl kart sahibini məlumatlandırmaq;

4. kartın istifadəsi ilə yerinə yetirilən əməliyyatlar və aparılan hesablaşmalar uzrə kart sahibinin muraciətlərinə baxmaq və muvafiq araşdırma apararaq kart sahibini məlumatlandırmaq;

5. oz işci heyəti, təsərrufat subyektləri və kart sahibləri tərəfindən kartlardan qanunsuz istifadənin qarşısını almaq ucun daxili prosedur qaydaları hazırlamaq.

Kart sahibinin vəzifələrinə aşağıdakılar aid edilir:

1. emitent və ekvayer tərəfindən gostərilmiş xidmətlərin haqqını odəmək;

2. kartdan və PİN-koddan istifadə olunması uzrə emitentlə bağlanmış muqavilənin şərtlərinə, təhlukəsizlik qayda və prosedurlarına əməl etmək;

3. kart vasitəsi ilə əməliyyatın həyata kecirilməsini təsdiqləyən qəbzdə həyata kecirilmiş əməliyyatlar uzrə hər hansı uyğunsuzluq aşkar etdikdə muəyyən olunmuş muddət ərzində bu haqda emitenti məlumatlandırmaq;

4. muqavilədə ayrı hal nəzərdə tutulmadığı hallarda kartın huquqi olmayan şəxslər tərəfindən istifadəsinə yol verməmək.

Muqavilədə nəzərdə tutulmuş şərtlər daxilində emitent birtərəfli qaydada muqaviləni dayandıra və kart sahibi tərəfindən aparılan əməliyyatlara məhdudiyyətlər qoya bilər.

Emintent kart sahibi ilə bağlanmış muqavilədə ayrı hal nəzərdə tutulmadığı halda, kart sahibi tərəfindən muqavilədə nəzərdə tutulmuş qaydada məlumatlandırılanadək itirilmiş və ya oğurlanmış kartlarla kart sahibinə dəyən ziyana gorə məsuliyyət daşımır.

Kart sahibi muqavilədə nəzərdə tutulmuş şərtlər daxilində kartın fiziki təqdim edilməməsi, kart sahibinin identifikasiya olunmaması və ya kart sahibinin imzası ilə təsdiqlənən sənəd olmadan aparılan əməliyyatlar uzrə məsuliyyət daşımır.

Emitent (və ya emitent tərəfindən muəyyən edilmiş və muqavilə əsasında bu xidməti yerinə yetirən qurum) kart itirildikdə və ya ona zərər dəydikdə kart sahibinin bildirişlərini mumkun kommunikasiya vasitələrindən istifadə etməklə hər gun 24 saat ərzində qəbul etmək iqtidarında olmalıdır. Emitent bildirişin alınması zamanı kart sahibinin şəxsiyyətini muəyyənləşdirməli və bildirişin qəbul edilmə tarixini, vaxtını (saat və dəqiqə), kartın nomrəsini və hadisənin təfərruatının qeydiyyatını aparmalıdır. Emitent kart sahibi ilə bağlanmış muqavilə uzrə muəyyən olunmuş şərtlər daxilində kart sahibinə kartdan istifadə etmədən kart hesabı uzrə sərəncam vermək huquqlarını məhdudlaşdıra bilməz.

KORPORATİV KARTLAR

Emitent huquqi şəxs və fərdi sahibkarla bağladığı muqavilə əsasında onlara korporativ kart təqdim edə bilər. Korporativ kartlar vasitəsi ilə aşağıdakı əməliyyatlar aparıla bilər:

1. olkə ərazisində inzibati xərclərin, o cumlədən ezamiyyə və numayəndəlik xərclərinin odənilməsi məqsədilə nağd pul vəsaitinin əldə edilməsi və ya nağdsız odənişlərin aparılması;

2. olkədən kənarda valyuta rejiminə uyğun olaraq xarici valyutada inzibati

xərclərin, o cumlədən ezamiyyə və numayəndəlik xərclərinin odənilməsi ilə bağlı nağd pul vəsaitinin əldə edilməsi və ya nağdsız odənişlərin aparılması.

Korporativ kart uzrə kart hesabına cari hesabdan vəsaitin kocurulməsi və ya əks əməliyyatın aparılması huquqi şəxsin və ya fərdi sahibkarın odəniş tapşırığı əsasında həyata kecirilir. Huquqi şəxsin və ya fərdi sahibkarın kart hesabı uzrə bir necə korporativ kart təqdim oluna bilər. Korporativ kartlar uzrə həyata kecirilən əməliyyatların qanuniliyinə gorə kart hesabının sahibi olan huquqi şəxs və ya fərdi sahibkar məsuliyyət daşıyırlar. Korporativ kartın istifadəcisi pul vəsaitlərinin təyinatına uyğun istifadə edilməsi haqqında Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş sənədləri huquqi şəxsin və ya fərdi sahibkarın muhasibatlığına təqdim etməlidir. Kart hesabında olan pul vəsaitləri korporativ kartın istifadəcisi tərəfindən təyinatına uyğun istifadə edilmədikdə, istifadəci təyinatına uyğun istifadə edilməyən pul vəsaitini huquqi şəxsin və ya fərdi sahibkarın kassasına nağd formada və ya onun kart hesabına nağdsız kocurmə yolu ilə mədaxil etməlidir. Korporativ kart məvacib, dividend, pensiya, təqaud və digər sosial odənişlərin odənilməsi məqsədilə istifadə oluna bilməz.

Emitent beynəlxalq və ya lokal kart təşkilatının tələblərinə əsasən əvvəlcədən odənilmiş kartlar emissiya edə bilər.

Əvvəlcədən odənilmiş kartların sahibləri emitentin muştəriləri olmaya da bilərlər. Əvvəlcədən odənilmiş kartların sahibləri yalnız fiziki şəxslər ola bilər.

Emitent əvvəlcədən odənilmiş kartlar vasitəsi ilə bankomat və POSterminallardan nağd pul vəsaitinin cıxarılmasını, o cumlədən bu kartların istifadəsi ilə həyata kecirilən muxtəlif odənişləri məhdudlaşdıra bilər. Emitent və ya əvvəlcədən odənilmiş kartların satışı və ya paylanması ucun məsul olan ucuncu tərəf bu haqda kart sahibini məlumatlandırmalıdır.

Emitent tərəfindən əvvəlcədən odənilmiş kartların istifadəsi ilə həyata kecirilən əməliyyatlar uzrə pul vəsaitlərinin ucotu emissiya edilmiş butun oncədən odənilmiş kartlar ucun acılmış konsolidə olunmuş hesab uzrə aparılır.

Əvvəlcədən odənilmiş kartlara vəsait nağd və ya nağdsız formada mədaxil edilə bilər.

BEYNƏLXALQ KART TƏŞKİLATLARI

"Visa Int." beynəlxalq kart təşkilatı. 1958-ci ildə San-Fransisko şəhərində yerləşən "Bank of America" tərəfindən BankAmericard adlı kart emissiya olunmağa başlanılmışdır. 1965-ci ildən başlayaraq "Bank of America" bu kartın emissiya edilməsi hüququnu digər banklara da verməyə başladı.

1970-ci ildə isə BankAmericard kartlarını emissiya edən banklar birləşərək "National BankAmericard Inc." (NBI) adlı kompaniya yaratdılar. Amerika Birləşmiş Ştatlarından kənarda fəaliyyət göstərən və BankAmericard kartlarını emissiya edən banklar tərəfindən isə 1974-cü ildə "International Bankcard Company" (IBANCO) təsis edilmişdi.

1977-ci ildən isə NBI kompaniyası Visa USA, IBANCO kompaniyası Visa International, BankAmericard isə Visa kart adlandırılmağa başlandı.

"Visa Int." beynəlxalq kart təşkilatı tərəfindən fiziki və hüquqi şəxslərə özündə müxtəlif funksiyaları və üstünlükləri əks etdirən aşağıdakı kart məhsulları təqdim olunur.

Fiziki şəxslər üçün - "Visa Int." beynəlxalq kart təşkilatı banklara fiziki şəxslər üçün üç əsas kart məhsulunu təqdim edir: kredit, debet və öncədən ödənilmiş kartlar.

Visa Electron. Dünya üzrə üzərində Visa loqotipi olan istənilən yerdə istifadə etmək olar. "Visa Electron" kartı müəyyən seqmentlərə, məsələn tələbə və gənclərə, məhdud gəlirli müştərilərə və ilk dəfə kart əldə edən istehlakçılara doğru istiqamətlənir. "Visa Electron" kartları üzrə avtorizasiyanın aparılmasının tələb olunması bu kartı bankın yeni müştərilərinə təqdim edilməsi və ödəniş kartından yeni istifadə edən müştərilər baxımından daha əlverişli edir.

Visa Classic. "Visa Classic" kartı ilə bütün dünyada Visa loqotipi əks olunan istənilən bankomatda, real və virtual dükanlarda, həmçinin poçt və telefon vasitəsilə məhsul və xidmətləri təklif edən dükanlarda ödəniş aparmaq mümkündür. Bu, bank kartlarından istifadə etmək

bacarığına malik orta gəlirli istehlakçılar üçün nəzərdə tutulmuşdur. Emboss edilmiş "Visa Classic" kartının üzərində yazılar qabardılmış formada göstərilir.

Visa Gold. Visa Gold" kartı bankın etibarlı müştərilərinə təqdim olunur. "Visa Gold" kartının sahibi "Visa Xüsusi Təkliflər" (Visa Special Offers) beynəlxalq proqramı üzrə endirimlər və əlverişli təkliflər əldə edə bilər. Kartın rəngi əsasən qızılıdır (adı da buradandır).

Visa Platinum. "Visa Gold" kartının sonrakı inkişaf mərhələsinin məhsulu olan "Visa Platinum" kartı üçün onun sahibinin yüksək statusunu əks etdirən funksiya və xidmətlərin toplusu səciyyəvidir.

Visa Infinite. Karta əsaslanan ödəniş sisteminin ierarxik strukturunda ən yüksək mövqedə duran "Visa Infinite" kartı sahibinə eksklüziv xidmətlər toplusu təklif edir. Bu xidmətlər arasında iş və şəxsi tələblərin ödənilməsi üçün şəxsi menecerin sutkada 24 saat ərzində dəstəyi, səyahət zamanı 1 mln. ABŞ dolları həcmində sığorta, unikal diskont proqramı, bütün dünya üzrə seçmə endirimlər və xüsusi təkliflər öz yerini tapmışdır. "Visa Infinite" kartı üzrə orta xərc limiti 20 min ABŞ dolları təşkil edir. Emitentdən asılı olaraq bu limit müəyyən edilməyə bilər.

Visa Virtual. İstehlakçıların elektron ticarətə inamının artırılması məqsədilə, həmçinin insanlara öz xərclərini real və virtual dükanlarda bölüşdürməsi imkanının yaradılması, yalnız internet şəbəkəsində istifadə olunması üçün "Visa Virtual" kartlarını təqdim edir. "Visa Virtual" kartları öz nömrəsinə və məhdud istifadə tarixinə malikdir. Bu kart Visa kartının əsas parametrləri olan maqnit lent, ödəniş sisteminin ticari markası və imza üçün zolaq olmadığından yalnız internetdə istifadə edilə bilər.

Visa Prepaid. Öncədən ödənilmiş kartlar bankda mütəmadi olaraq pul vəsaiti əlavə olunan hesabın olmasını nəzərdə tutmur və əsasən kiçik və gündəlik ödənişlər üçün nəzərdə tutulmuşdur. Öncədən ödənilmiş kartlar maqnit lentli, həmçinin çip quraşdırılmış kartlar formasında ola bilər. Öncədən ödənilmiş kartların əsas üstünlüyü üzərində kart sahibinin adı qeyd olunmadığından bank şöbəsinə və ya onun agentinə müraciət edərək onu dərhal əldə etmənin mümkün olmasıdır.

Hüquqi şəxslər üçün. "Visa Int." beynəlxalq kart təşkilatı müəssisələrin maliyyə baxımından idarə olunmasının effektivliyinin yüksəldilməsi üçün bir sıra kommersiya məhsulları işləyib hazırlamışdır. "Visa Int." beynəlxalq kart təşkilatının kommersiya məhsulları iri, orta və kiçik biznesin istənilən profilli müəssisələrinin tələblərinə cavab verir. Bu kateqoriyaya "Visa Business Gold", "Visa Business", "Visa Business Electron", **"**Visa Corporate", "Visa Purchasing" və "Visa Distribution" aiddir. Bu növ kartlar təşkilatın cari hesabına bağlansa da, hər bir kart üzrə fərdi limit müəyyən etməyə imkan verir. Bununla da əməkdaşların iş zərurəti ilə əlaqəli xərcləri asan və rahat idarə olunur, həmçinin əməkdaşlara vəsaitlərin ayrılması proseduru və mühasibatlıq hesabatı əhəmiyyətli dərəcədə sadələşir.

Visa Business. Əməkdaşlarının sayı 50 nəfərə qədər olan orta müəssisələrdə müxtəlif gündəlik ödənişlərin aparılması üçün nəzərdə tutulan bu kartlar adətən ezamiyyə və nümayəndəlik xərclərinin, kommunal xidmətlər üzrə ödənişlərin, həmçinin idarə avadanlıqlarının, dəftərxana mallarının, proqram təminatının alınması ilə bağlı xərclərin uçotu məqsədilə istifadə olunur.

Belə bir sistem böyük olmayan müəssisələrin rəhbərlərinə xərcləri şəxsi və iş maddələrini ayırmağa, həmçinin nağd pul vəsaitinin dövriyyəsini nəzarətdə saxlamağa imkan verir. Bankların "Visa Business" kartlarının hesabları üzrə daha ətraflı məlumat təqdim etmələri müəssisələrə xərcləri effektiv qruplaşdırmağa, vergi və digər orqanlara hesabatların təşkil olunması qaydasını sadələşdirməyə kömək edir.

Visa Business Electron. Kart özündə "Visa Business" kartının universallığını və rahatlığını, həmçinin "Visa Electron" kartının yüksək təhlükəsizlik səviyyəsini birləşdirir. "Visa Business Electron" kartı iri təşkilatların inzibati işçi heyəti üçün münasibdir.

Visa Business Gold. Bu kart "Visa Business Electron" kartı ilə oxşar xüsusiyyətlərə malik olmaqla, pul vəsaitlərinin yüksək xərc limitinə malik olan orta və yuxarı səviyyəli rəhbərlər üçün nəzərdə tutulmuşdur.

Visa Corporate. Orta və iri təşkilatların daima iş səfərlərinə gedən əməkdaşlarının ezamiyyə və nümayəndəlik xərclərinin ödənilməsi üçün nəzərdə tutulmuş "Visa Corporate" kartı bir sıra xidmətlərin, məsələn, avia biletlərin alışı, mehmanxana, avtomobillərin kirayəsi və digər

xərclərin ödənilməsi üçün istifadə olunur. Təşkilatın rəhbərliyi bu kartın köməyi ilə öz əməkdaşlarının xərcləri üzərində nəzarəti həyata keçirmək imkanı əldə edir.

Visa Purchasing. Ofis ehtiyacları üzrə xərclərin ödənilməsi üçün nəzərdə tutulan bu kart orta və iri təşkilatlar tərəfindən istifadə olunur və bir qayda olaraq bu təşkilatlarda inzibati fəaliyyətə cavabdeh olan şəxslərə təqdim olunur. Kartın istifadəsi təşkilatlara (həm özəl, həm də dövlət sektorunda) məhsul və xidmətlərin böyük olmayan alışlarının rəsmiləşdirilməsi üzrə zəhmət tələb edən işdən azad olmağa imkan verir.

Bu növ kartlar üzrə banklara qarşı hesabların təqdim olunması zamanı xüsusi formada hesabatlıq tələbi qoyulur. Bu forma sayəsində təşkilatlar əhəmiyyətli dərəcədə məhsul və xidmətlərin əldə edilməsi üzrə idarəetmə xərclərini azalda, həmçinin daha əlverişli şərtlərlə məhsulların çatdırılması və xidmətlərin göstərilməsi üzrə təchizatçılarla danışıqların aparılması sahəsində zəruri analizin aparılması üçün informasiya əldə edə bilərlər.

Digər məhsullar

Visa Smart Debet/Credit. "Visa Smart Debet/Credit" kartı (VSDC) Visanın çip kartlar üçün əsas əlavəsidir. Bu əlavə "EMV" standartına uyğun olduğundan, bu əlavəyə malik kart "EMV" infrastrukturu olan istənilən ölkədə istifadə oluna bilər. "VSDC" kartının istifadə olunmasının əsas üstünlüklərindən biri yeni əlavələrlə geniş imkanların əldə olunmasıdır. Bura müxtəlif bonus sxemləri (loyalty), identifikasiya funksiyaları (ID), sığorta, yığım sxemləri və s. aiddir. "VSDC" kartı məhsul və xidmətlərin dəyərinin ödənilməsində, bankomat vasitəsilə nağd pul vəsaitinin çıxarılmasında, internet vasitəsilə təhlükəsiz ödənişlərin aparılmasında, dükanlarda xalların toplanmasında, endirimlərin əldə olunmasında, həmçinin mobil telefon, kompüter və digər texniki avadanlıqlar vasitəsilə ödənişlərin aparılmasında istifadə oluna bilər.

Visa Horizon

Bu kart sahibinin pul vəsaitini çipdə saxlayan debet kartıdır. Bu baxımdan onun istifadəsi zamanı avtorizasiyanın alınması üçün bank-emitent ilə real rejimdə əlaqənin qurulmasına ehtiyac yoxdur. Mümkün balans haqqında bütün məlumat kartda quraşdırılmış çipdə saxlanılır və ticarət mərkəzində quraşdırılmış terminal vasitəsi ilə oxunması mümkündür. Kart sahibi zərurət yarandıqda kartda olan balansına pul vəsaitini bankda olan hesabı vasitəsilə bankomat, özünəxidmət terminalı və ya bank şöbəsinin köməyi ilə əlavə edə bilər. "Visa Horizon" kartı rabitə ilə bağlı problem olduğu və ya ümumilikdə rabitənin olmadığı yerlərdə istifadə üçün uyğun gəlir.

Bu məhsul üzrə öncədən avtorizə olunma sayəsində ödəməmə və vəsaitlərin əlavə xərclənməsi riski olmadığından "Visa Horizon" kartı bankların yeni müştəriləri üçün münasibdir. Kart üzrə balans öncədən ödənilən və kartı itirdikdə kart sahibinin kartda istifadə etmədiyi vəsaitləri itirdiyi elektron cüzdan kartlarından fərqli olaraq, "Visa Horizon" kartının itirilməsi zamanı bankda müştərinin hesabında olan vəsaitlərin bərpa edilməsi imkanı vardır.

Visa Cash

Öncədən ödənilmiş kart olmaqla, özündə quraşdırılmış çipin təhlükəsizliyi və funksionallığı ilə ödəniş kartlarının əlverişliliyini birləşdirir (onu "elektron cüzdan" adlandırmaqda olar). "Visa Cash" kartı xırda ödənişlər (qəzet, kinoya bilet, mütəmadi olmayan telefon danışıqlarının və s. dəyərinin ödənilməsi) üçün nəzərdə tutulmuşdur.

Visa Instant Issue – ani kartlar

Üzərində kart sahibinin adı və soyadı qeyd olunmayan bu kartın əsaslandığı baza məhsul – "Visa Electron" kartıdır. Bu kart vasitəsi ilə əməliyyatın həyata keçirilməsi məbləğindən asılı olmayaraq avtorizasiyanın aparılmasını tələb edir. Bu baxımdan bu məhsul bank-emitent üçün aşağı riskli məhsullar qrupuna aid edilir. Kartın fərqləndirici xüsusiyyəti onun müştəriyə banka müraciət etməsi anında verilməsidir (buna görə bu kartlar bəzən "ani" adlandırılırlar). "Visa İnstant İssue" kartı pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrində məhsul və xidmətlərin dəyərinin ödənilməsinə, "Visa Electron" kartlarının qəbulu və xidmət olunması məntəqələrində pul vəsaitinin əldə olunmasına imkan verən kartdır.

"MasterCard Incorporated" beynəlxalq kart təşkilatı

"MasterCard Incorporated" beynəlxalq kart təşkilatının yaranması 1966-cı ildə Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən bir sıra banklar tərəfindən Banklararası Kart

Assosiasiyasının – Interbank Card Association (ICA) yaradılmasına və öz kartlarını emissiya etməsinə təsadüf edir. İCA-nın fəaliyyətini genişləndirməsi nəticəsində Western States Bankcard Association ilə birləşdi. 1979-cu ildən birgə yaradılmış kompaniya "MasterCard International" adlandırıldı.

2002-ci ilin iyul ayında Avropada fəaliyyət göstərən "Europay International" və Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən "MasterCard International" 30 ildən artıq müddətdə davam edən qarşılıqlı fəaliyyətləri nəticəsində "MasterCard Incorporated" adlı beynəlxalq kart təşkilatının tərkibində birləşdilər.

Cirrus/Maestro

Praktiki baxımdan gəlir səviyyəsindən asılı olmayaraq hər bir kəs onun sahibi ola bilər. Bu elektron hesablaşmalar üçün debet kartıdır. Bunun vasitəsilə Cirrus beynəlxalq bankomatlar sistemində (bütün dünya üzrə 900 mindən artıq) nağd pul vəsaiti əldə etmək, "Maestro" beynəlxalq sisteminin POS-terminalları quraşdırılmış ticarət məntəqələrində məhsul və xidmətlərin dəyərini ödəmək mümkündür. Bir qayda olaraq kart emboss edilmədiyindən məhsul və xidmətlərin alışı zamanı imprinterdə istifadə olunması mümkün deyildir. Kart üzrə bütün əməliyyatlar mütləq qaydada avtorizə olunmalıdır. "Cirrus/Maestro" kartı bankların yeni müştərilərinə və ya bankla məhdud çərçivədə əlaqəsi olan müştərilərə təqdim oluna bilər.

MasterCard Electronic

İlkin səviyyəli kredit kartı kimi çıxış edən bu kart kredit tarixçəsinə malik olmayan və ya tarixçəsi az olan, lakin kredit kartının imkanlarından istifadə etmək istəyən müştərilərə istiqamətlənmişdir və banklar tərəfindən kütləvi istehlak kreditləşməsi layihəsinin reallaşdırılması zamanı risklərin azaldılması üçün nəzərdə tutulmuşdur. Məhdud funksiyalı kredit kartı olmaqla bu xüsusiyyətlərə malikdir:

- məcburi elektron avtorizasiyanı tələb edir;
- emboss edilməmişdir;
- kart üzrə avtorizasiya limiti yoxdur;
- ani kredit kartı ola bilər;
- pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrində kart vasitəsilə məhsul və xidmətlərin dəyəri ödənilə bilər;
- nağd pul vəsaitini ancaq bankomatlar vasitəsilə əldə etmək olar.

MasterCard Standard

Bu stabil gəlirləri olan orta müştərilər üçün kredit kartıdır. Bir qədər pozitiv, lakin VİP xidmət səviyyəsini əldə etməyə kifayət etməyən kredit tarixçəsinə malik olan müştərilər üçün nəzərdə tutulmuşdur. "MasterCard Standard" kartları vasitəsilə bankomatlar və nağd pulun verilməsi məntəqələrində nağd pul vəsaiti əldə etmək, pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrində (internet dükanlar daxil olmaqla) istənilən ödənişləri həyata keçirmək mümkündür. Kart üzrə həm elektron, həm də səsli avtorizasiya (imprinter istifadə olunduqda) həyata keçirilə bilər.

MasterCard Gold

Ödəniş sisteminin premium kartları arasında baza və birinci kart hesab olunur. Öz sahibinə xidmətin yüksək keyfiyyətini təmin edir. Orta səviyyəli kartlardan əsas fərqi 5000 ABŞ dollarından başlamaqla yüksək kredit xəttinə malik olmasıdır. Kart sahibləri "MasterCard Global Service"in (Master Cardın müştərilərin dəstəyi üzrə qlobal xidməti) çətin vəziyyətlərə (itmiş kartın mütləq bloklaşdırılması, kartın dəyişdirilməsi, təcili nağd pul vəsaiti əldə etmək) düşən müştərilərə gün ərzində 24 saat kömək göstərən xidmətindən və sığorta xidmətinin minimum dəstindən yararlana bilərlər. Kart vasitəsilə bankomatlar və nağd pulun verilməsi məntəqələrində nağd pul vəsaiti əldə etmək, pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrində (internet dükanlar daxil olmaqla) məhsul və xidmətlərin dəyərinin ödənilməsi mümkündür. Kart elektron və səsli avtorizasiya (imprinterin istifadə olunması ilə) əsasında xidmət oluna bilər.

Kredit kartı kimi bir qayda olaraq, təşkilatların yuxarı rəhbərliyinə və ya öz fəaliyyəti ilə əlaqədar bir çox işgüzar səfərlərdə olan fiziki şəxslərə təqdim olunur.

MasterCard Platinum

Özündə kredit limitinin yüksək səviyyəsini və əlavə xidmətlərin toplusunu birləşdirir. "MasterCard Gold" kartı üçün nəzərdə tutulmuş xidmətlərdən başqa, bu kartın sahibləri bütün dünya

üzrə hava limanlarında, mehmanxanalarda və restoranlarda diskont əldə edirlər. "MasterCard Platinum" kartlarına xidmət göstərən pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələri Platinum MasterCard Collection adlı qrup tərkibində birləşmişdir. Kart sahiblərinə sığorta xidmətinin geniş paketi təqdim olunur. Kart kredit məhsullarının tərkib hissəsidir.

MasterCard World Signia

Bu kart üzrə öncədən təyin edilmiş xərc limitinin olmaması onun sahibinin tam maliyyə müstəqilliyi və statusu ilə müəyyən olunur. Bir qayda olaraq, karta əlavə olunan güzəşt proqramları müəyyən dövrlə məhdudlaşmır. Təqdim olunan güzəşt sxemi "MasterCard Platinum" kartlarının sahiblərinə təqdim olunan sxemlə kifəyət qədər oxşardır. Fərqləndirici cəhəti gün ərzində 24 saat fəaliyyət göstərən World Signia (World Signia Assistance Centre) müştəri dəstəyi xidmətinin olmasıdır. Kart kredit məhsullarının tərkib hissəsidir. Bu növ kartın emissiya edilməsi hüququnu əldə etmək üçün bank ödəniş sistemindən onun özünün təqdim etdiyi xidmətə görə VİP-xidmət üzrə müəyyən qiymətləndirmə əldə etməlidir.

Korporativ müştərilər üçün

Banklar tərəfindən korporativ proqramlar çərçivəsində təşkilatın vəsaitlərini müəyyən həcmdə xərcləmək səlahiyyəti olan əməkdaşlar üçün korporativ kartlar təqdim olunur. Proqramın əsas elementi kimi "MasterCard Business" çıxış edir. Korporativ məhsullar iri beynəlxalq korporasiyalar, həmçinin xırda biznes fəaliyyəti üzrə regional təşkilatlar üçün nəzərdə tutulmuşdur. Onların reallaşdırılmasının məqsədi təşkilatın inzibati, nümayəndəlik, ezamiyyə və digər təsərrüfat fəaliyyəti ilə bağlı maliyyə xərclərini optimallaşdırmaq, həmçinin təşkilatın xərcləri üzərində effektiv nəzarəti təmin etməkdir.

Maestro Prepaid

Öncədən ödənilmiş kart olan "Maestro Prepaid" üzərində kart sahibinin adı göstərilmədiyindən adsız kartdır. Buna görə kartın verilməsi 10-12 dəqiqə vaxt ala bilər. Kartın sahibi onu üçüncü şəxslərin istifadəsinə verə bilər (məsələn öz ailə üzvlərinə). Kart üzrə əməliyyatlar mütləq qaydada elektron formada avtorizasiya olunmalıdır.

"American Express" beynəlxalq kart təşkilatı

"American Express" adlı kartlar Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən eyni adlı kompaniya tərəfindən emissiya edilir. Banklar kompaniya ilə qarşılıqlı razılaşma əsasında bu kartların paylanılması hüququnu əldə edə bilər.

1841-cildə amerika vətəşdaşı olan Henri Uels Nyu-York şəhərində məhsulların, pul vəsaitinin və sənədlərin çatdırılması üzrə öz biznes fəaliyyətinə başlamışdır. 1850-ci ildə isə Djon Farqo ilə birgə ilk əvvəl yüklərin çatdırılması, sonralar isə teleqraf və poçt xidmətini göstərən "American Express" adlı kompaniyanı təsis etmişdir. 1882-ci ildən isə kompaniya Amerika və Avropa qitələri arasında poçt vasitəsilə pul köçürmələrini həyata keçirməyə başlamışdır. İlk American Express kartları isə 1958-ci ildən emissiya edilir. Bu kartlar üzrə ödənişlər ancaq ABŞ dolları vasitəsilə həyata keçirilir. Təşkilat tərəfindən fiziki və hüquqi şəxslərə kartlar təqdim olunur.

"American Express" kartlarının aşağıdakı növləri vardır:

- Şəxsi kartlar ("American Express Personal Card" – yaşıl rəngli plastik materialdan hazırlanan yaşıl kartlar);
- Qızıl ("American Express Gold Card" – qızılı rəngdə plastik materialdan hazırlanan kartlar);
- Platin ("American Express Platinum Card" – platin rəngə çalan plastik materialdan hazırlanan kartlar);
- Centurion ("American Express Centurion Card" – qara rəngdə plastik materialdan hazırlanan kartlar).

American Express Centurion Card

American Express kompaniyasının ən mükəmməl kartı hesab olunur. Bu kart üzrə aylıq olaraq təqdim olunan xərc limiti 75000 ABŞ dollar təşkil edir. Kart üzrə əlavə kartların təqdim olunması, turistlərin bütün dünya üzrə illik sığortalanması, kompaniyanın həyata keçirdiyi xüsusi layihələrdə (məsələn, mükafat, yüksək səviyyəli otellerin və istirahət mərkəzlərinin seçilməsi və s.) iştirak hüququ və s. təklif olunur.

“Diners Club International” beynəlxalq kart təşkilatı

1949-cu ildə Nyu-York şəhərində fəaliyyət göstərən “Hamilton Credit Corporation” adlı maliyyə kompaniyasının rəhbəri Frenk Maknamaranın, həmin kompaniyanın hüquqşünası Ralf Şnayderin və prodüser Alfred Bluminqdeylin nahar süfrəsi arxasında kompaniyanın müştərilərindən birinin həyata keçirdiyi maliyyə sxeminin müzakirəsi zamanı “Diners Club” adlı kartların emissiya edilməsi ideyası yaranmışdır. İlk əvvəllər kredit kartları olan “Diners Club” kartları “Empire State Building” ətrafında fəaliyyət göstərən restoranların müştərilərinə ödənişsiz əsaslarla paylanılırdı.

1961-ci ildən isə “Diners Club” kartlarının hazırlanmasında karton kağız əvəzinə plastik material tətbiq olunmağa başlanmışdır.

“Japan Credit Bureau” (JCB) beynəlxalq kart təşkilatı

“Japan Credit Bureau” beynəlxalq kart təşkilatı 1961-ci ildə Yaponiyada yaradılmışdır. İlk öncə ölkə daxilində fəaliyyət göstərən kart təşkilatı 1981-ci ildən Amerika Birləşmiş Ştatlarının kart bazarına daxil olaraq, öz xidmətlərini geniş şəkildə digər dövlətlərdə də təqdim etməyə başlamışdır. Hal-hazırda 190-dan çox ölkədə bu kart təşkilatı öz xidmətlərini təklif edir.

Beynəlxalq kart təşkilatı tərəfindən “JCB Standard Card”, “Mitsuwa JCB Card”, “Marukai JCB Card” kimi kart məhsulları təqdim olunur. Təqdim olunan kart məhsulları üzrə kart sahibinə əlavə gəlir qazandıran “JCB Cash Back Program”ı tətbiq olunur. Həmçinin ödəniş kartları üzrə illik xidmət haqqı tətbiq olunmur.

JCB Standard Card

İllik xidmət haqqı tətbiq olunmayan “JCB Standard Card”lar üzrə “JCB cash back proqram”ı tətbiq olunur. Bu proqrama əsasən kart vasitəsi ilə həyata keçirilən 100 ABŞ dollar həcmində əməliyyata görə kart sahibi 1 ABŞ dollar dəyərində olan 1 xal əldə edir. Kart vasitəsilə həmçinin, sığorta xidmətlərində, səyahət xidmətlərində və digər sahələrdə güzəştlər əldə etmək mümkündür.

“China UnionPay” beynəlxalq kart təşkilatı

Çin bank kartları assosiasiyası olan “China UnionPay” 2002-ci ildə “China UnionPay Co. Ltd” (CUP) kimi fəaliyyətə başlamışdır. Bu Çində fəaliyyət göstərən yeganə milli bank kartları assosiasiyasıdır. 2003-cü ildə “China UnionPay” tərəfindən yerli banklarla birgə müstəqil bank kartı brendi olan “UnionPay” adlı kartlar emissiya edilməyə başlanılmışdır. 2004-cü ildən başlayaraq fəaliyyətini genişləndirən “China UnionPay” dünyanın 25-dən çox ölkəsində öz xidmətlərini təklif edir.

4.9. SWIFT BEYNƏLXALQ MALİYYƏ ÖDƏNİŞLƏRLƏRİNİ HƏYATA KEÇİRƏN TƏŞKILAT KİMİ

1973-cü ilin may ayında 15 ölkənin 239 bankı SWIFT-i(Society for Worldwide Interbank Financial Telecommunications) təsis etdilər. Ümumdünya banklararası maliyyə telekommunikasiya cəmiyyəti olan SWIFT– maliyyə telekommunikasiya sahəsində aparıcı beynəlxalq təşkilat sayılır.

SWIFT-in əsas məqsədi - maliyyə informasiyalarının rəsmi mübadilə üsullarının və standartlaşdırılmış məlumatların istifadəsi ilə beynəlxalq şəbəkəyə məlumatların ötürülməsini təmin edən sistemdir. Bu sistem vasitəsilə gün ərzində 500 000-dən artıq məlumatın mübadiləsi baş verir. Hal hazırda SWIFT sistemindən 204 ölkənin 8000-dən artıq maliyyə və kredit təşkilatı istifadə etməkdədir. Bu sistemə qoşulmuş hər bir təşkilat ilin 365 gününün istənilən vaxtı və coğrafi mövqeyindən asılı olmayaraq bir bir ilə qarşılıqlı əlaqəyə girmək imkanına malikdirlər. Hal hazırda gün ərzində SWIFT şəbəkəsi vasitəsilə cəmi məbləği 8 trl ABŞ dolları təşkil edən 10 million maliyyə məlumatı ötürülməkdədir. SWIFT-in təməlində 50-dən artıq milli ödəmə sistemi yaradılmışdır. Bundan əlavə SWIFT Avropa Banklar Assosiasiyasının hesablaşma sisteminin və avropa sistemi olan TARGET-in əsası sayılır. SWIFT tərəfindən təklif edilmiş və həyata keçirilmiş konsepsiyalar, maliyyə informasiyasının formaları və ötürülmə qaydaları bu günümüzdə

beynəlxalq standart statusunu daşıyır. Milli ödəniş sistemində vahid SWİFT standartlarının tətbiqi hesablaşma və maliyyə risklərinin minimuma enməsi, hesablaşmaların effektivliyinin və təhlükəsizliyinin, məlumatların ötürülməsinə çəkilən xərclərin azaldılmasına təminat verir. Bundan başqa SWİFT-in təməlində tərtib edilmiş milli ödəniş sistemləri ən böyük ödəniş sistemlərinə inteqrasiya olunur. SWİFT klirinq funksiyalarını yerinə yetirmir. SWİFT – gəlirsiz təşkilatdır. Bütün əldə olunmuş gəlir xərclərin ödənilməsinə və sistemin modernləşdirilməsinə xərclənir. Ödəmənin xərclənməmiş məbləği dövri olaraq istifadəçiyə qaytarılır. SWİFT ilə iş istifadəçilərə bir sıra üstünlüklər verir: Məlumatların ötürülməsinin təhlükəsizliyi; Bu sistem ötürülmüş məlumatların qorunması və məxfiliyini təmin edir; Əməliyyatlara sərf edilən xərclərin azaldılması. Bundan əlavə əməliyyatları həcmi artdıqca, xərclər azalır; Dünyanın istənilən nöqtəsinə məlumatın tez bir zamanda çatdırılması. Məlumatın lazımi ünvana çatdırılması adətən 15-20 dəqiqəyə baş verir, lakin əlavə ödəniş olunarsa, o zaman çatdırılma vaxtını 1-5 dəqiqəyə kimi azaltmaq mümkündür; Bütün ödəniş sənədləri sistemə standartlaşdırılmış formada daxil olduğu üçün bu sistem daxil olan məlumatların təkmilləşdirilməsinin avtomatlaşdırılmasına keçidə, məlumatı göndərən və qəbul edən arasında fərqli düşünmənin qarşısını almaqa imkan verir ki, bu da son nəticədə bankın effektivliyini yüksəltməyə şərait yaratmış olur; SWİFT istifadəçilərinə tam maliyyə təminatı verir. Yəni əgər bu sistemin nasazlığı səbəbindən hansısa məlumat göndərilən ünvana sutka ərzində çatmamışsa, o zaman SWİFT bu gecikmə üzündən sifarişçiyə dəymiş birbaşa və dolayı zərəri tam olaraq öz üzərinə götürür.

SWİFT-in ən başlıca çatışmayan cəhəti isə istifadəçilərin zannincə bu sistemə daxilolmanın bahalılığıdır. Bankın SWİFT-ə daxil olmasına çəkilən xərc 160-200 min dollar təşkil edir ki, bu da orta və kiçik banklar üçün problemlər yaratmış olur.

Milli qanunvericiliyə müvafiq olaraq beynəlxalq bank əməliyyatları etmək hüququna malik istənilən bank SWIFT-in üzvü olmaq imkanına malikdir. Bank-üzvlərindən əlavə SWIFT şəbəkəsinin digər iki kateqoriyalı üzvləri mövcuddur. Bunlar assosiasiyalaşmış üzvlər və iştirakçılardır. Birincilər siyahısına bank-üzvlərin ayırmaları və filialları aid edilir. Assosiasiyalaşmış üzvlər səhmdarlar sayılmırlar və cəmiyyətin işlərinin idarə edilməsi hüququna malik deyillər. SWIFT-in belə adlanan iştirakçıları isə müxtəlif maliyyə institutlarıdır (broker və diller kontoraları, klirinq və sığorta şirkətləri, investisiya təşkilatları və s.). SWIFT-ə daxilolma iki mərhələdən ibarətdir: Bankın bu cəmiyyətə üzv olmağa hazırlıq mərhələsi və Bankın cəmiyyətdə işlək üzv kimi şəbəkəyə daxil olmasına hazırlıq.

SWIFT-ə qoşulma ildə 4 dəfə baş verir: Mart, iyun, sentyabr və dekabrda. SWIFT-ə tam olaraq qoşulma prosesi 4 aydan gec olmayaraq baş verir və iki mərhələdən ibarətdir: Maliyyə təşkilatının SWIFT ittifaqı üzvülüyünə daxil olma(sənədlər paketinin rəsmiləşldirilməsi və onların SWIFT göndərilməsi). SWIFT Direktorlar şurası sənədləri nəzərdən keçirir və bankın cəmiyyətə qəbul edilməsi haqqında qərar qəbul edir. Namizəd-bank birdəfəlik ödəniş və cəmiyyətin bir səhminin əldə edilməsi hüququnu alır. Maliyyə təşkilatında SWIFT aparat-proqram kompleksinin yaradılması və onun birbaşa sistemə qoşulması. Məhz bu mərhələdə bütün texniki məsələlər həll edilir, kommunikasiya avadanlığı əldə edilir(onun dəyəri yüzlərlə min ABŞ dolları təşkil edə bilər), heyətin təlimi keçirilir. Təcrübə göstərdiyi kimi SWIFT sistemində iştiraka dair bankların xərcləri adətən 5 il ərzində özünü ödəyir (əsasən müasir elektron avadanlığın quraşdırılması).

Cəmiyyət fəaliyyətinin istiqamatlərindən biri də maliyyə informasiyası mübadiləsinin unifikasiya vasitələrinin işlənib hazırlanmasından ibarətdir. Bu məqsədlə maliyyə məlumatlarının strukturlu sistemi yaradılmış və təkmilləşdirilməsi davam edilir. Onun yardımı ilə praktiki olaraq valyuta və fond birjalarında icra edilən əməliyyatlar daxil olmaqla bank və digər maliyyə əməliyyatlarının bütün spektrini həyata keçirmək olar.

Bank məlumatları müddətli və adi məlumatlara bölünür. Müddətli məlumatların göndərilməsinə görə xüsusi rüsum tutulur.

Hazırda SWIFT Sisteminə əsaslanan ödəniş sistemi banklararası nəğdsiz hesablaşmaların dünya həcminin 60 faizindən çoxunu təmin edir. Qeyd etmək lazımdır ki «böyük yeddiliyə» daxil olan beş ölkə öz Milli ödəniş sisemlərini məhz SWIFT bazası üzərində qurublar. Habelə SWIFT

şəbəkəsi dövlətdaxili hesablaşmalar zamanı da istifadə edilir. Məsələn ABŞ-da bu aparılan sənədlərin dörddə bir hissəsini təşkil edir.

QANUNLAR, AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ NORMATİV SƏNƏDLƏR VƏ TƏLİMATLARI

1) Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Azərbaycan Respublikasının Qanunu
2) Banklar haqqında Azərbaycan Respublikasının Qanunu
3) Prosessinq təşkilatlarına icazələrin verilməsi və prosessinq fəaliyyətinə nəzarət qaydaları
4) Banklarda İnformasiya Texnoloqiyalarının tətbiqi qaydaları
5) Azərbaycan Respublikasinda fəaliyyət göstərən Banklar arasında hesablaşmaların aparılması qaydaları
6) Prosessinq təşkilatlarına icazələrin verilməsi və prosessinq fəaliyyətinə nəzarət qaydaları

ƏDƏBİYYAT

1. Abbasov Ə.M., Z.F. Məmmədov. Bank işi və e-bankçılıq. Bakı, 2003.
2. Məmmədov Z.F. , A. Yeman. Azərbaycan Milli Ödəniş Sisteminin inkişaf tendensiyası: huquqi və iqtisadi aspektlərin təhlili // Qanun. – 2009. - № 10
3. Аббасов А.М. , Мамедов З. Ф. Электронизация финансовой индустрии в условиях сетевой экономики. Баку: Азернешр, 2007.
4. Банковское дело Управление и технологии под ред. Тавасиева Учебник 2005. 671с.
5. Банковское дело под ред Коробовой Г.Г Учебник 2006 -766с.
6. Банковское дело - современная сист. кредитования. под ред. Лаврушин.М.- 2007.
7. Банковское дело Костерина Т.М МФПА, 2005
8. Банковское дело под ред Лаврушина О.И Учебник 2005
9. Банковское дело под ред Коробовой Г.Г Учебник 2006
10. Банковские риски. Издательство: КноРус, 2008 г.
11. Банковский менеджмент .Издательство: КноРус, 2010 г.

V FƏSİL. BANK FƏALİYYƏTİNİN TƏŞKİLİ, İDARƏ EDİLMƏSİ, TƏŞKİLATI STRUKTURU VƏ REQLAMENTİ

ƏSAS ANLAYIŞLAR

Bank lisenziyası – Qanunla müəyyən edilmiş qaydada verilən, fiziki və hüquqi şəxslərdən depozitlər və ya digər qaytarılan vəsaitlər cəlb etmək, öz adından və öz hesabına kreditlər vermək ilə bağlı fəaliyyəti, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirməyə müstəsna hüquq verən xüsusi razılıqdır.

Bank krediti (bundan sonra kredit)—bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (komisyon haqqlar) ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir. Həmin şərtlərlə pul vəsaitinin verilməsi haqqında götürülmüş hər hansı öhdəlik, qarantiya, zəmanət, borc qiymətli kağızlarının diskontla və ya faizlər alınmaqla satın alınması və müqaviləyə əsasən hər hansı formada verilmiş vəsaitin qaytarılmasını tələb etməklə bağlı digər hüquq da kredit anlayışına aiddir.

Depozit–müvafiq müqavilə şərtləri ilə faizlər və ya komisyon haqqlar ödənilməklə və ya ödənilmədən müştərilərin (əmanətçilərin) tələbi ilə qaytarılmasını və ya başqa hesaba köçürülməsini nəzərdə tutan bankın balansında aparılan cari, əmanət (depozit) və ya digər hesaba qoyulmuş və ya köçürülmüş pul vəsaitidir.

İnzibatçı – bankın Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin üzvləri, habelə bankın baş mühasibi (mühasibat xidmətinin rəhbəri), daxili audit bölməsinin əməkdaşları, bank filialının, şöbəsinin və nümayəndəliyinin rəhbərləri və baş mühasibləri.

Banka aidiyyəti olan şəxslər – bankın inzibatçıları, struktur bölmələrinin rəhbərləri, qərarların qəbul edilməsində iştirak edən digər əməkdaşları və onlarla yaxın qohumluq münasibətlərində olan şəxslər (əri/arvadı, valideyni, o cümlədən ərinin/ arvadının valideyni, babası, nənəsi, övladı, o cümlədən övladlığa götürülən, qardaşı və bacısı); bankda mühüm iştirak payı olan hər hansı şəxs və ya bankın mühüm iştirak payı olan hüquqi şəxs və həmin hüquqi şəxsdə mühüm iştirak payı olan hər hansı şəxs, habelə bu cür mühüm iştirak payına malik olan hüquqi şəxslərin icra orqanlarının rəhbərləri.

Banka aidiyyəti olan şəxs adından hərəkət edən şəxslər – aralarında bağladıqları müqavilə əsasında banka aidiyyəti olan şəxs adından hərəkət etməyə hüququ olan şəxs; banka aidiyyəti olan şəxsin mühüm təsir göstərə bildiyi hüquqi şəxs; banka aidiyyəti olan şəxsin nümayəndəsi.

Məqbul və lazımi keyfiyyətlərə malik şəxs – vətəndaş qüsursuzluğuna malik olan, habelə, ictimai mövqeyinə görə vicdanlı və etimada layiq sayılan və peşəkar keyfiyyətləri, təcrübəsi, işgüzar mənafeləri ona bankın mühüm iştirak payının sahibi, inzibatçısı, müvəqqəti inzibatçısı və ləğvedicisi olmaq imkanı verən fiziki şəxsdir;

Vətəndaş qüsursuzluğu dedikdə, mühüm iştirak payının sahibləri, o hüquqi şəxs olduqda onun icra orqanının rəhbərləri, habelə bankın törəmə strukturlarının rəhbərləri üçün qəsdən törədilmiş cinayətə görə məhkumluğun olmaması; inzibatçı, müvəqqəti inzibatçı və ləğvedici üçün məhkumluğunun olmaması, keçmişdə mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində ağır və xüsusilə ağır cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilməsi faktının olmaması, müvafiq vəzifəni tutması və ya peşə fəaliyyəti ilə məşğul olması üzərində məhkəmə qərarı ilə qoyulmuş qadağanın olmaması, məhkəmə qaydasında müflis elan edilməsi faktının olmaması başa düşülür.

Mühüm iştirak payı – səhmdar kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahiblikdir.

Bankların idarəetmə strukturu- Hər bir bank ali idarəetmə orqanı olan səhmdarların ümumi yığıncağı, onun idarə olunmasına və işinə nəzarəti həyata keçirən orqan olan Müşahidə Şurası, bankda audit işini təşkil edən AuditnKomitəsi və məsul icra orqanı olan İdarə Heyəti tərəfindən idarə olunur.

Hərtərəfli yoxlama – bankın ümumi vəziyyətinin, o cümlədən kapital, aktivlər, idarəetmə, gəlir, likvidlik və riskliyə həssaslıq komponentlərinin qiymətləndirilməsi, habelə onun fəaliyyətinin bank qanunvericiliyinə uyğunluğunu müəyyən etmək üçün bank fəaliyyətinin bütün sahələrini əhatə edən ətraflı yoxlamadır;

Prudensial – bankın təhlükəsiz fəaliyyətinin təmin edilməsinə istiqamətlənmiş normativlərə, qaydalara, tələblərə və göstərişlərə əsaslanmış düşünülmüş davranış, idarəetmə və nəzarət üsuludur.

Bankın məcmu kapitalı (öz vəsaiti) — prudensial hesabatlıq məqsədləri üçün istifadə olunan kapital olmaqla, Mərkəzi Bankın normativ xarakterli aktları ilə müəyyən etdiyi I dərəcəli (əsas) və II dərəcəli (əlavə) kapitala daxil olan komponentlərin (elementlərin) cəmi və onlardan tutulmaların fərqidir.

Risk – bankın mənfəətinə və kapitalına təsir edən gözlənilməz zərərin baş verməsi ehtimalıdır.

Risklərin idarə edilməsi prosesi – bankın məruz qala biləcəyi riskin müəyyənləşdirilməsi, ölçülməsi, təhlili, idarə edilməsi, monitorinqi və hesabatlığını əhatə edən prosesdir.

Kredit riski – borcalanın banka olan borcunun tam və ya qismən ödənilməməsi riskidir.

Bazar riski – bazarda baş verən dəyişikliklərin nəticəsində bankın məruz qala biləcəyi riskdir. Bu dəyişikliklərə faiz dərəcələri, valyuta məzənnələrinin, qiymətli kağızların dəyəri, habelə makro iqtisadi göstəricilərdə baş verən dəyişikliklər aid edilir.

Əməliyyat riski – qeyri-adekvat və ya uğursuzluqla nəticələnmiş daxili proseslərdən, insanlardan və ya sistemlərdən, yaxud bankdan kənar hadisələrin baş verməsindən yarana biləcək zərərdir. Əməliyyat riskinin aşağıdakı alt kateqoriyaları mövcuddur: insan resursu riski; texnoloji risk; proses riski; təşkilati risk; kənar risklər.

Reputasiya riski – bank haqqında mənfi ictimai fikirin yaranması riskidir.

Strateji risk – strateji hədəflərin düzgün seçilməməsi nəticəsində bankın məruz qala biləcəyi riskdir.

Likvidlik riski – planlaşdırılmış və gözlənilməyən öhdəliklərin vaxtında və effektiv yerinə yetirilə bilməməsi, əlavə likvid vəsaitin əldə edilməməsi, həmçinin bankın aktivlərinin minimal zərərlə dərhal satılması üzrə imkanların azalması riskidir.

Risk götürmə qabiliyyəti – bankın strateji məqsədlərinə çatmaq üçün üzərinə götürə biləcəyi riskin həcmidir.

Riskin qəbul edilməsi – kapitalın adekvatlığına dair tələblərə riayət etmək şərti ilə bankın kapitalının hesabına mümkün zərərin qarşılanmasıdır. Bank qəbul etdiyi risklərə qarşı yetərli kapitala malik olmalıdır.

Riskin minimallaşdırılması – müxtəlif idarəetmə metodları ilə risklərin azaldılmasıdır. Bu metodlar hər bir risk kateqoriyası üzrə fərqli ola bilər.

Riskin ötürülməsi – bankın təhlükəli hesab etdiyi fəaliyyət və əməliyyatların bankdan kənar tərəflərə ötürülməsidir.

Riskdən qaçma – təhlükəli hesab edilən əməliyyatların həyata keçirilməməsidir.

Borcalan – bankdan kredit alan, yaxud banka borcu olan hər hansı fiziki və ya hüquqi şəxsdir.

Bir - biri ilə əlaqədar borcalanlar qrupu – qarşılıqlı surətdə İqtisadi əlaqəsi olan iki və daha çox borcalanlardır ki, onlardan birinin maliyyə çətinliyinin meydana çıxması digər borcalanların da banka olan borclarının ödənilməsi ilə əlaqədar problemlərinin əmələ gəlməsinə səbəb ola bilir.

5.1. BANK FƏALİYYƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNƏ DAİR ÜMUMİ QAYDALAR

Banklar iqtisadiyyatın pul və kredit ehtiyacını ödəyən qurumlardır.

Mərkəz bankı pul təklifini iqtisadiyyatın pul tələbinə, iqtisadi və sosial siyasətin hədəflərinə görə ayırmağa çalışır; banklar iqtisadiyyatda gerçəkləşdirilə bilən pul borc verə bilir, fondları ticarət, sənayə və kənd təsərrüfatına, tikinti və s. kimi sektorlara kredit formasında dağıdaraq bir

qrup iqtisadi vahidlərin likvid çoxluğu ilə, digərlərinin likvid ehtiyaclarının ödənilməsinə yığım edilən pulların bazara axmasını saxlamaq şərti ilə iqtisadi fəaliyyətlərin davamlılığına və genişlənməsinə xidmət edirlər.

Bank—fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir.

Yəni, banklar iqtisadi vahidlərin məlum bir müddət xərcləmədikləri pulları əmanət formasında toplayaraq və başqa formalarda borc alaraq saxladıqları borcu verə bilər. Fondları kredit vermək, qiymətli kağızlar satın almaq, müxtəlif əməliyyatlarda iştirak etməklə işlədirlər, pul yaradaraq iqtisadiyyatın pul tələbinin (likvid ehtiyacının) önəmli bir bölümünü ödəyir, ödəmələrə vasitəçi olmaq, pul həvalə etmək, sənəd qəbul etmək, kassa icarələmək kimi təklif edirlər.

Günümüzdə krdit alqı-satqısı böyük bir əhəmiyyətə malikdir. Malları istehsal edən, malların topdan və pərakəndə satışını həyata keçirən bir yerdən digər yerə daşınmasını saxlayan firma və şirkətlər arasında, bunlarla ev idarələri arasında çeşidli formalarda kredit verilir, kredit alınır. Toplum içində alınan və verilən kreditlərin önəmli bir bölümünə banklar vasitəçi olurlar. Çünki kredit zəmanətə və etimada əsaslanır. Banklar kredit tələb edənlərin kreditlərini ölçmək, verdikləri kreditlərin vaxtında qaytarılmasını zəmanəti altına salmaq şərti ilə bu etimadı saxlayarlar.

Həqiqətən, banklar hər şeydən öncə kredit alış-verişinin əsası olan girovu saxlayan qurumlardır.Toplum içində pulu olub borc verməyə hazır kimsələr və kredit axtaranların sayı sonsuzdur. Ancaq bunların arasında bir kredit alış-verişinin meydana gəlməsi üçün borc alana ətimad əsas şərtdir. Bank kredit almaq istəyəndə alınan kreditləri ölçmək və verdiyi krediti zəmanət altına almaq üçün gərəkli texniki alətlərə malikdir.

Banklar kiçik, orta, böyük borc verə bilən fondları toplayaraq böyük fondların yığımına xidmət edirlər. Bununla müasir böyük şirkətlərin və dövlətlərin kredit tələblərini ödəmək imkanına sahibdirlər. əgər banklar olmasa idi müasir iri şirkətlərin və dövlətin böyük həcmdəki kredit tələblərini ödəyə bilmək üçün yüzlərlə əmanət sahibinə müraciət edilməsi gərəkərdi.

Avropa birliyi ölkələrinin ədəbiyyatlarında banklar - xalqın əmanətlərini və ya da geri ödənməsi gərəkli pulları qəbul etmə və öz hesabına kreditlər açan qurumlar kimi səciyyələndirilir.

Iqtisadi anlamda bank anlayışı iqtisadiyyata (banknot və qeydiyyatlı pul kimi) ödəmə vasitələri saxlayan, nağd sərmayə və sərmayə təmsil edən xalqlarla (daşınar dəyərlərlə) ilgili ticarət əlaqələrini davamlı olaraq aparan qurumlardır.

Türkiyənin banklar haqqında qanununda haqsız olaraq bank kəlməsini ünvanında işlədənlər cəzalandırılır və iş yerləri keçici və ya davamlı olaraq bağlanılır, elan və reklamları dayandırılır.

Isveçrə qanunlarında da reklamlarında haqsız yerə bank kəlməsinin istifadəsinə görə cəza nəzərdə tutulur.

Dünya üzrə ən yeni müasir bankçılıq qanunu sayıla bilən Avropa birliyinin banklar haqqında qanununda bank əməliyyatları aşağıdakı kimi sıralanmışdır:

1. Əmanət olaraq pulların qəbulu (depozit qəbulu);
2. Başqalarına aid cari hesablar formasında nağdsız ödəmə işlərinin aparılması;
3. Kredit əməliyyatı;
4. Çek və veksellərin satın alınması, özəlliklə veksellərin diskontosu;
5. Valyuta əməliyyatları;
6. Qaranti əməliyyatı;
7. Qiymətli kağız əməliyyatları;
8. İnvestisiya əməliyyatı;
9. Faktorinq əməliyyatı;

Bank əməliyyatlarının klassik bölgüsü balansa görə aparılır. Buna görə bank əməliyyataları bank balansının aktiv ya da cədvəlində yer almasına görə fərqləndirilir. Bank balansının öhdəliklər və kapital tərəfində bankların öz və cəlb etdikləri vəsaitləri yer alır. Məcmu kapitalın strukturuna birinci (I) dərəcəli və ikinci (II) dərəcəli kapital daxildir. birinci (I) dərəcəli kapitalın strukturuna daxildir: nizamnamə kapitalı, səhmlərin emissiyasından əlavə vəsait,

bölüşdürülməmiş xalis mənfəət. ikinci (II) dərəcəli kapitalın strukturuna daxildir: cari ilin mənfəət, ümumi ehtiyatlar, kapitalın digər vəsaitləri, məcmu kapitaldan tutulmalar.

Bankların aktivlərində kreditlər və likvid dəyərlər ən önəmli payı təşkil edir.

Azərbaycan Respublikasının ərazisində banklar və bank olmayan kredit təşkilatları bank fəaliyyətini Mərkəzi Bankın verdiyi xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilə bilər. Depozit əməliyyatları yalnız banklar *və* poçt rabitəsinin milli operatoru tərəfindən həyata keçirilə bilər. Bu Qanunun 3.4-cü və 42-ci maddələri istisna olmaqla, digər müddəaları «Kredit İttifaqları haqqında» Azərbaycan Respublikasının Qanununa və digər qanunvericiliyə müvafiq olaraq, lisenziyalaşdırılan və tənzimlənən kredit ittifaqlarına və başqa bank olmayan kredit təşkilatlarına şamil olunmur. Bank olmayan kredit təşkilatlarının bank fəaliyyətinin lisenziyalaşdırılması və tənzimlənməsi qüvvədə olan qanunvericilik və Mərkəzi Bankın normativ xarakterli aktları ilə həyata keçirilir. Bank olmayan kredit təşkilatlarına rəhbərlik edən işçilərin peşə ixtisasına və təcrübəsinə dair tələblər Mərkəzi Bank tərəfindən müəyyən edilir.

Bank ən azı üç hüquqi və/və ya fiziki şəxs tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır. Siyasi partiyalar, ictimai birliklər, fondlar və digər qeyri-kommersiya təşkilatları bankın səhmdarı ola bilməzlər. Bank yalnız adlı səhmlər buraxa bilər. Bankın imtiyazlı səhm sahibləri səs hüququna malik ola bilməzlər. Bankın təsisçiləri olan səhmdarları onun sonrakı səhmdarlarına nisbətən hər hansı əlavə üstünlüklərə malik ola bilməz və ya hər hansı əlavə vəzifələr daşıya bilməzlər.

Banklar, Mərkəzi Bankdan aldığı bank lisenziyasında qadağan edilməmişdirsə, aşağıdakı fəaliyyət növləri ilə məşğul ola bilərlər:

1. tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;

2. kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri;

3. fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;

4. klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi;

5. ödəniş vasitələrinin (o cümlədən kredit və debet kartları, yol çekləri və bank köçürmə vekselləri) buraxılması;

6. öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin (o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin və depozit sertifikatlarının), xarici valyutanın, qiymətli metalların və *qiymətli daşların* , valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, habelə forvard kontraktlarının, svoplara dair sazişlərin, fyuçerslərin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və ya faiz dərəcələrinə aid digər törəmə vasitələrin satın alınması və satılması;

7. qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi;

8. öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;

9. qiymətli kağızlar bazarında peşəkar fəaliyyət;

10. maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;

11. kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;

12. sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);

13. qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi.

heç bir bank topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul ola və ya sığorta təşkilatları istisna olmaqla tərəfdaş, şərik və ya payçı kimi bunlarda iştirak edə bilməz.

5.2. BANK FƏALİYYƏTİNİN ÖZƏLLİKLƏRİ

Bankların fəaliyyəti sənaye, aqrar, tikinti və nəqliyyat müəssisələrindən çox fərqlidir. Bunu aşağıdakı şəkildə sıralaya bilərik:

1) quruluş yönündən bankların fəaliyyət göstərməsi üçün digər kommersiya şirkətlərindən fərqliliyi onların lisenziyalarının Mərkəzi Bankdan alınması şərtidir;

2) bankın qurucularının şəxsiyyətləri, vicdan və xarakterləri özəl bir araşdırma mövzusudur;

3) öz kapital və cəlb edilmiş sərmayə nisbəti çox fərqlidir. Ümumiyyətlə banklarda borc vəsaiti öz sərmayəyə nisbətən çoxdur. Lakin, bu çoxluq hududsuz deyil, qanunla tənzimlənir;

4) banklar mal deyil, satınalma gücü istehsal edir. Bankçılıq pul ticarəti deməkdir. Bir tərəfdən ucuz faizlə aldığı pulları, digər tərəfdən nisbətən daha yüksək faizlə satmaq nəticəsində mənfəət əldə etməyə çalışır.

5) banklar digər müəssisələrdən fərqli olaraq, rentabellik likvidlik və riskin bölüşdürülməsi prinsiplərinə çox bağlıdırlar. Banklar mümkün olduğu qədər ucuz bir faizlə, hətta yerinə görə faizsiz təmin edərək, ən yüksək faizlə ehtiyacı olan iqtisadi vahidlərə borc olaraq vəsait verir. Bu borc müəyyən bir təminata bağlı olaraq verilir. Bu təminat maddi olduğu kimi şəxsin etibarına görə də müəyyən edilə bilər. Banklar əlindəki pulu mümkün olduğu qədər çox fiziki və hüquqi şəxslərə paylamaq üçün kassasındakı aktivlərinin müəyyən bir hissəsini nağd pul şəklində saxlayır;

6) dövlət orqanları tərəfindən çox ciddi nəzarət altındadırlar;

7) qanun, banklara kassalarında borclarına qarşı hər an likvid varlıqların nisbətini təsbit etdiyi halda, digər müəssisələrdə belə bir məcburiyyət yoxdur;

8) banklar pul yaratmaqla tədavüldə pulun miqdarına təsir edərək qiymət mexanizminə təsir edə bilir, lakin digər müəssisələrin belə bir təsir etmə imkanları mümkün deyildir;

9) bankların quruluş sərmayələrinin böyük olması tələb edilir. Hazırda, Azərbaycanda yeni bank açmaq üçün 10 milyon manat tələb edilir;

10) Bankların iflası zamanı dövlət tərəfindən lazımi tədbirlər və proqramlar hazırlanır.

5.3. BANKÇILIĞIN ƏSAS PRİNSİPİ VƏ FUNKSİYALARI

Bankçılığın təməl prinsipi aşağıdakılardır: likvidlik, təhlükəsizlik və mənfəət. Bankçılıqda likvidlik bir bankın minimum zərər ilə, ola biləcək əmanət çəkimlərini ödəyəbilmə və eyni anda bazarın kredit ehtiyacını qarşıyabilmə gücüdür. Bankçılıqda təhlükəsizlik, öz sərmayənin yetərli və aktivlərinin keyfiyyətli olması şəklində iki tərəflidir. Bank kapitalının yetərli olması əmanətçilərin banka olan güvənini, bankın kredit müştərisinin keyfiyyəti isə bankın təhlükəsizliyini təmin edir.

Bu səbəblə, finans sisteminin mərkəzində kredit həcmini, yığım miqdarını, qiymətli kağız qiymətini müəyyən edən və bunların fəaliyyətinə tənzimliyən finans bazarı mövcuddur.

Bankların mənfəəti, kredit müştərisindən aldığı faiz ilə əmanətçiyə ödədiyi faiz arasındakı fərqdir. Bazar prinsipləri çərçivəsində fəaliyyət göstərən və biznes quruluşu olan bankların ən son məqsədləri, təhlükəsizlik və likvidliyi arasında optimallığı təmin edərək bankın mənfəətini maksimizə etməkdir. Ancaq bu üç prinsipin bir biri ilə asanca uyğunlaşmamağı da bir həqiqətdir.

Bankın təşkilat strukturu onun böyüklüyü ilə, təklif edilən xidmətlərin çeşidliliyi və şəxsi heyətin nüfuz dərəcəsi ilə yaxından bağlıdır. Kiçik sərmayəli bankların təməl fünksiyaları kreditlər və müştəri xidmətləridir. Bunun həcmi artdıqca ixtisaslaşma və verdiyi kreditlərin çeşidi də artar (kommersiya, istehlak, inşaat kreditləri kimi) və eyni zamanda, müştəri xidmətləri çoxalar.

Banklar faiz və komisyon formasında təşkil edilən gəlirlərini artıra bilmək üçün təklif etdikləri xidmətlərin çeşidlərini çoxaldırlar. Bankların məhsul birləşimini üç təməl qrupa ayıra bilərik: kreditlər; əmanətə yönəlik xidmətlər; investisiya (pul bazarı alətləri). Müştəri qrupları -müştəri bazarları istehlakçılar (pərakəndə bankçılıq, digər banklar (müxbir bankçılıq) rəsmi müştərilər və qurumlardan (topdansatış bankçılıq) ibarətdir.

Banklar ən əsas kredit, əmanət və ödənişlərə aid geniş xidmətlər spektrini təklif edən və iqtisadiyyatda istənilən müəssisəyə çeşidli maliyyə xidmətlərini göstərən kredit təşkilatlarıdır.

Əmanət funksiyası. Hər bir bank aktiv əməliyyatları (kredit qoyuluşu qiymətli kağızlar alqısı və s.) həyata keçirmək üçün öz kapitalı ilə yanaşı (nizamnamə, ehtiyat fondu, bölüşdürülməmiş mənfəət) bank öhdəliklərinin əsas hissəsini təşkil edən əmanət cəlbi ilə də məşğul olur. Geniş mənada əmanətlərə müştərilərin banka müəyyən müddətə daha yüksək faizlə qoyduqları pul vəsaitləri ilə yanaşı fiziki və hüquqi şəxslərıı cari hesablarında olan resurslar da aiddir. Müxtəlif subyektlər gələcəkdə dövrün xərcləri üçün qazancları akumulyasiya edir və bu da bankın əmanət yığma imkanlarını artırır. Banklar əhalinin sıx məskunlaşdığı yaşayış və iş yerlərində şöbələr, hesablaşmaları asanlaşdıran plastik kartlar vasitəsilə sərbəst pul vəsaitlərini toplayıb əmanət bazasını genişləndirir.

Kredit funksiyası. Banklar yığdıqları vəsaitə görə müəyyən haqq verir və ya məsrəfləri ödəyir. Bu xərcləri üstələmək və mənfəət qazanınaq üçün banklar istehsal, ticarət sahələrinə kredit verir. Əmanət və kredit funksiyası ilə banklar iqtisadiyyatda vasitəçi rolunu oynayaraq qənaətli təsərrüfatdan defisitli təsərrüfata pulu öz zəmanəti ilə ötürür.

Köçürmə və hesablaşmalar funksiyası. Hər bir müəssisənin bank hesabı var. Onun vasitəsilə o, ödənişlərini aparır və başqa subyektlərdən ödənişləri qəbul edir. Hesablaşmaların nağdsız formasının banklar vasitəsilə təhlükəsiz, operativ və ucuz və bu əməliyyatların bankdan kənarda mümkün olmadığı üçün bankların vacib funksiya olaraq qəbul edilir.

Nağd vəsaitlərin idarə edilməsi. Bank müəssisələrin ödənişlərinin inkassasiyasını və məxrəcinin aparılmasını öz üzərinə götürür. Artıq nağdi hissəsini isə qısamüddətli qiymətli kağızlara qoyur. Müştəriyə nağdiyyə lazım olduqda isə əks əməliyyat keçirilir. Son vaxtlaradək hüquqi şəxslərin nağdiyyəsi idarə olunurdusa, indi fiziki şəxslərlə də analoji əməliyyatlar aparılır.

Trast funksiyası. Banklar müəyyən haqda şəxslərin (personal trast xidmətləri) və müəssisələrin mülkiyyəti (kommersiya və qeyri-kommersiya trast xidmətləri) və maliyyə resurslarını idarə edir.

Bank investoru və ya anderayter. Anderaytinq qiymətli kağızın emitentdən alınması və mənfəət əldə edilməsi məqsədilə başqasına satılması deməkdir. Bu əməliyyat ənənəvi bank xidmətlərindən risklidir. Buna görə 1933-ci ildə ABŞ konqresi banklara eyni vaxtda investisiya və kommersiya əməliyyatları ilə məşğul olmağı qadağan etdi. Sonralar isə firmalar bank kreditləşməsindənsə, öz qiymətli kağızlarını emissiya edib yerləşdirməyi üstün tutdular. Banklar köhnə müştərilərini qaytarmaq üçün investisiya əməliyyatları ilə məşğul olmaq zərurətini aydınlaşdırdı. Bu xidmət iri müəssisələrin birləşməsi, özəlləşmə proseslərinin sürətlənməsi nəticəsində artmağa meyl etdi.

Broker funksiyası. Banklar müştərilərinə broker xidmətini göstərərək dilerlərə müraciət etmədən səhm, istiqraz və sair qiymətli kağızları almaq imkanını verir. Banklar daşınınaz əmlaka broker əməliyyatlarını apararaq yaşayış və kommersiya tikililərini satıb sonradan onları maliyyələşdirir. Banklar broker firmaları ilə müqavilə bağlayaraq öz təşkilatlarında broker büroları yaradır. Bununla brokerlər bank müştərilərinə, banklar isə brokerlərin biznes dairəsinə yaxınlaşır. Yaşayış yerini dəyişən insanlar «öz bankını» tapmamış, ev və kommersiya tikilisi axtararaq brokerə müraciət edir. O isə öz növbəsində müştərini banka səmtləndirir. Birbaşa faiz dərəcələri ilə əlaqədar olmayan brokerlər bankların partnyoruna çevrilir. Eləcə də banklar artıq bu əməliyyatlar üzrə ixtisaslaşmış broker firmalarını alır. Bankların inkişafinda bu istiqamət də əhəmiyyətli sayılır.

İnvestisiya planlaşdırma funksiyası. Banklar müştəriləri üçün investisiya layihələrini planlaşdırır. Banklar daim iqtisadi cəmiyyətdə gedən prosesləri təhlil obyektində saxlamalı və güclü maliyyə-hüquqi ekspertlər ilə müştərilərinə professional planlaşdırma xidməti göstərməlidirlər.

Kredit pullarının emissiyası. Banklar depozit-kredit emissiyasını həyata keçirərək dövriyyədəki pul kütləsini artırır. Müştəriyə verilmiş kredit onun tələb edilənədək hesabına yazılaraq bankın öhdəliyini artırır. Hesabın sahibi vəsaiti nağdlaşdıraraq dövriyyədəki nağd pul kütləsini artıra bilər. Amma iqtisadiyyat müəyyən həcmli pul kütləsi tələb etdiyindən bankların bu funksiyası mərkəzi banklar tərəfindən ya məhdudlaşdırılır, ya da stimullaşdırılır.

Məsləhət xidməti. Ənənəvi olaraq müştərilər banklara müraciət edərək kreditin, əmanətin, investisiyaların optimal istifadəsini onlarla müzakirə edir. Banklar vergi deklarasiyalarını və biznes-planları tərtib etməkdən tutmuş daxili və xarici bazarlarda marketinq araşdırmaları, mal və xidmətlərin bazarda irəliləməsi barədə məsləhətlər verir. Banklar hesablaşma əməliyyatı, əmanət qoy-

anların, kredit götürmək istəyənlərin arasında vasitəçi olaraq külli miqdarda informasiyanı təhlil edir. Məhz bu qabiliyyət göstərilən fimksiyanı daşımaqda bankları başqa uyğun subyektlərdən fərqləndirir.

Dəyərli əşyaların saxlanması. Qədimdən bankların əsas xidmət növlərindən biri də dəyərli əşyaların saxlanmasıdır. Zinət əşyaları, sənədlər və s. şəxsi ləvazimatlar yanmayan seyflərdə qorunur. Bankın mühafizəsi müştərilərin rahat dincəlmə ehtimalını artırır.

Valyuta mübadiləsi. Bu xidmət növü də bank təkamülündə əhəmiyyətli rol oynamışdır. Bu gün dünya maliyyə bazarının riskli olması bu əməliyyatların geniş mənada iri banklar tərəfindən aparılmasına gətirib çıxarıb. Buna səbəb vəsaitin likvidliyi problemi və zəngin təcrübənin vacibliyidir. Geniş mənada aparılan bu əməliyyatlar dilinq adlandırılır.

Lizinq xidməti. Banklar müştərilərinə avadanlıq almaq üçün kredit əvəzinə lizinq təklif edir. Yəni bank öz vəsaiti olaraq onu icarəyə verir. Lizinq ödənişləri tam ödənildikdən sonra avadanlıq ya bankın, ya da müştərinin sərəncamında qalır.

Vençur kapitalının təklifi. Banklar getdikcə riskli sahələrin finansmanına vəsait ayırır. Vençur kapitalı əsasən yüksək texnologiyalar siyahısma aid layihələrdir ki, ənənəvilikdən uzaq iflasa uğramaq ehtimalı çox olan, lakin yüksək gəlir də gətirə bilən biznes-planlar əsasında həyata keçirilir.

Pensiya təminatı. Banklar pensiya fondlarının maraq dairəsinə daxil olaraq vətəndaşların qocalığının təmini ilə məşğul olur. Bu, bilavasitə şəxslərlə, ya da müəssisələrlə bağlanan müqavilə əsasında olur. Daxil olan vəsait akumulyasiya edilərək investisiyalara yönəldilir. Vətəndaşlar təqaüd yaşına çatdıqda və ya onlar əmək qabiliyyətini itirdikdə ödənişlər başlanır. Bu resurslar uzunmüddətli vəsait kimi bankların investisiya fəaliyyətində mühüm rol oynayır.

5.4. BANK FƏALİYYƏTİNİN HƏYATA KEÇİRİLMƏSI ÜÇÜN LİSENZİYA

Mərkəzi Bank bank lisenziyalarının verilməsində və ləğv edilməsində, habelə filiallar, şöbələr və nümayəndəliklər açmaq üçün banklara icazə verilməsində və verilmiş icazələrin ləğv edilməsində müstəsna hüquqlara malikdir. Bank lisenziyaları və icazələr yazılı formada müddətsiz olaraq verilir. Bank lisenziyaları və icazələr yalnız onları almış şəxslər tərəfindən istifadə edilə bilər və üçüncü şəxslərə verilə bilməz (Banklar haqqında Azərbaycan Respublikasinin Qanunu - Maddə 6).

Mərkəzi Bank Bank lisenziyasında və ya icazəsində kifayət qədər təşkilati-texniki hazırlığa və ya ixtisasa malik olmayan bankın bəzi fəaliyyət növlərini məhdudlaşdmaq huququna malikdir.

Mərkəzi Bankın «Bank lisenziyalarinin və icazələrin alinmasi üçün müraciət qaydalari haqqinda təlimat» Azərbaycan Respublikasının ərazisində banklara və xarici bankların yerli filiallarına bank lisenziyasının, habelə yerli bankların filiallarına, xarici nümayəndəliklərinə və xarici bankların yerli nümayəndəliklərinə icazənin alınması üçün müraciətlərin və onlara əlavə olunan sənədlərin forma və məzmununu müəyyən edir.

Bank lisenziyasının alınması üçün ilkin müraciət. Bank lisenziyasının alınması üçün ilkin müraciət (Əlavə N 1) bankın bütün təsisçiləri tərəfindən və ya onların müvafiq qaydada vəkil etdikləri şəxs tərəfindən imzalanır və imza(ları) notariat qaydasında təsdiq olunur.

Bank lisenziyasının alınması üçün ilkin müraciətə (Əlavə N 1) aşağıdakı sənədlər əlavə olunmalıdır:

1. bankın təklif edilən nizamnamə kapitalının miqdarı, bankın nizamnamə kapitalında təklif edilən hər bir səhmdarın payı haqqında məlumat;

2. bankın səsvermə hüququ olan səhmlərini əldə edəcək hər bir sahibi üçün:

Həmin sahib hüquqi şəxs olduqda:

1) onun adını, ünvanını, kommersiya fəaliyyətinin növünü, onun digər təşkilatlarda mühüm iştirak paylarını, habelə onun kapitalında digər şəxslərin mühüm iştirak paylarını göstərən məlumat (Əlavə N 4);

2) dövlət qeydiyyatı haqqında sənədlərin (nizamnamənin, şəhadətnamənin) və nəzərdə tutulan iştirak payının əldə edilməsi barədə səlahiyyətli idarəetmə orqanının qərarının notariat qaydasında təsdiq edilmiş surəti;

3) azı son üç maliyyə ilini (hüquqi şəxs üç ildən az müddətdə yaradıldıqda isə son maliyyə illəri və ya ili) əhatə edən və auditor yoxlamasından keçmiş maliyyə hesabatlarının (balansın, mənfəət və zərər haqqında hesabatın, nağd pulun hərəkəti barədə hesabatın) və auditor rəyinin əslləri və ya notariat qaydasında təsdiq edilmiş surətləri.

Həmin sahib xarici hüquqi şəxs olduqda:

1) bu Təlimatın 2.1.2-ci yarımbəndinin üçüncü abzasında nəzərdə tutulan məlumat (Əlavə N 4);

2) onun yerləşdiyi ölkədə dövlət qeydiyyatından keçdiyini təsdiq edən sənəd, nizamnamə (əsasnamə), ən azı son üç maliyyə ili üçün auditor yoxlamasından keçmiş maliyyə hesabatı (balans, mənfəət və zərər haqqında hesabat, nağd pulun hərəkəti barədə hesabat) və auditor rəyi;

Həmin sahib fiziki şəxs olduqda:

1) onun soyadını, adını, atasının adını və vətəndaşlığını, şəxsiyyət vəsiqəsinin və ya şəxsiyyətini təsdiq edən digər sənədin məlumatlarını, daimi yaşayış yerini, məşğuliyyət növünü, habelə digər təşkilatlarda onun mühüm iştirak paylarını göstərən məlumat (Əlavə N 5);

2) şəxsiyyət vəsiqəsinin və ya şəxsiyyətini təsdiq edən digər sənədin surəti;

3) məşğuliyyət növünü təsdiq edən sənədin notariat qaydasında təsdiq edilmiş surəti;

Həmin sahib əcnəbi olduqda – bu Təlimatın 2.1.2-ci yarımbəndinin doqquzuncu - on ikinci abzaslarında nəzərdə tutulan sənədlərdən başqa rezidenti olduğu ölkənin bir və ya bir neçə maliyyə təşkilatlarının müsbət tövsiyyələri (bu şəxslə hansı vaxtdan işgüzar münasibət yaratdığını, ödəmə qabiliyyətli müştəri olmasını və ya maliyyə vəziyyətini xarakterizə edə bilən digər müsbət göstəriciləri əks etdirə bilər) və/və ya bank hesablarından çıxarışlar;

bankda mühüm iştirak payının təklif edilən sahibi hüquqi şəxs olduqda:

- onun icra orqanlarının rəhbərlərinin siyahısı;

- hər rəhbər üçün onun tərəfindən imzalanmış və imzası notariat qaydasında təsdiqlənmiş vətəndaş qüsursuzluğuna dair ərizə ;

Rəhbər əcnəbi olduqda, rezidenti olduğu ölkənin müvafiq hakimiyyət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş arayış;

əgər mühüm iştirak payının sahibi olan hüquqi şəxs şirkətlər qrupuna daxildirsə bu qrup haqqında məlumatlar, o cümlədən qrupa daxil olan digər təşkilatlarda mühüm iştirak payına malik şəxslər, bu şəxslərin inzibatçıları haqqında məlumatlar (sərbəst formada ətraflı və dürüst şəkildə tərtib olunmalı, fiziki və hüquqi şəxslərin adları ixtisarsız yazılmalıdır);

Bankda mühüm iştirak payının təklif edilən sahibi fiziki şəxs olduqda onun tərəfindən imzalanmış və imzası notariat qaydasında təsdiqlənmiş, vətəndaş qüsursuzluğuna dair ərizə ;

Mühüm iştirak payının sahibi əcnəbi olduqda, rezidenti olduğu ölkənin müvafiq hakimiyyət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş arayış;

Bankın yaradılması, onun nizamnaməsinin qəbul edilməsi və idarəetmə orqanlarının formalaşdırılması haqqında bütün təsisçilər tərəfindən imzalanmış qərarın notariat qaydasında təsdiq edilmiş surəti və bankın təsisçiləri və ya onların səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq edilmiş nizamnaməsi.

Nizamnamədə bankın adı, olduğu yer, buraxdığı səhmlərin kateqoriyası, onların nominal dəyəri və miqdarı, səhmdarların hüquqları, idarəetmə orqanlarının tərkibi, fəaliyyət müddəti və salahiyyətləri, habelə könüllü ləğv etmə qaydaları öz əksini tapmalıdır.

bankın kommersiya strategiyasını, nəzərdə tutduğu fəaliyyət növlərini, təşkilati strukturunu, o cümlədən daxili nəzarət sistemini və ilk üç il üçün maliyyə proqnozlarını (balans, mənfəət və zərər haqqında hesabatı) müəyyənləşdirən biznes-plan ;

bankın təklif edilən inzibatçılarının siyahısı, habelə onların hər biri üçün peşə ixtisası və təcrübəsi haqqında məlumatın göstərildiyi sənədlərin (təhsil və əmək fəaliyyəti haqqında) notariat qaydasında təsdiqlənmiş surətləri, həmin şəxslər tərəfindən doldurulmuş anket, bankda və digər hüquqi şəxslərdə onların mühüm iştirak paylarının miqdarı və siyahısı, tərəflərindən imzalanmış və imzası notariat qaydasında təsdiqlənmiş vətəndaş qüsursuzluğuna dair ərizə;

İnzibatçı əcnəbi olduqda, rezidenti olduğu ölkənin müvafiq hakimiyyət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş arayış;

xarici bank və ya xarici bank holdinq şirkəti yerli törəmə bank təsis etdiyi halda bu Təlimatın 2.3-cü bəndində göstərilmiş sənədlər;

ilkin müraciətə baxılması üçün dövlət rüsumunun ödənildiyini təsdiq edən bank sənədi.

Xarici bankın yerli filialının açılmasına dair ilkin müraciətə (bankın səlahiyyətli şəxsi tərəfindən imzalanmalıdır) aşağıdakı sənədlər əlavə olunmalıdır:

1. bankın nizamnaməsi və filialın yaradılması barədə səlahiyyətli idarəetmə orqanının qərarının surəti;

2. bankın mühüm iştirak paylarına malik olan sahiblərinin payı göstərilməklə siyahısı;

3. əgər bank şirkətlər qrupuna daxildirsə, bu qrup haqqında məlumatlar, o cümlədən qrupa daxil olan digər təşkilatlarda mühüm iştirak payına malik şəxslər, bu şəxslərin inzibatçıları haqqında məlumatlar (sərbəst formada ətraflı və dürüst şəkildə tərtib olunmalı, fiziki və hüquqi şəxslərin adları ixtisarsız yazılmalıdır);

4. bankın ən azı son üç maliyyə ili üçün auditor yoxlamasından keçmiş maliyyə hesabatı (balans, mənfəət və zərər haqqında hesabat, nağd pulun hərəkəri barədə hesabat) və auditor rəyi;

5. bankın səlahiyyətli idarəetmə orqanı tərəfindən təsdiq edilmiş filialın əsasnaməsi. Əsasnamədə filialın adı, olduğu yer, fəaliyyəti ilə bağlı digər məlumatlarla yanaşı təsisçi bank tərəfindən filiala ayrılmış, kapitala bərabər tutulmuş vəsaitin miqdarı, bank fəaliyyəti növləri, filialın idarəetmə strukturu və rəhbərlərinin səlahiyyətləri, bank tərəfindən filial üzərində nəzarətin həyata keçirilməsi və bankın öz qərarı ilə ləğv edilməsi qaydası göstərilməlidir;

6. filialın kommersiya strategiyasını, nəzərdə tutduğu fəaliyyət növlərini, təşkilati strukturunu, o cümlədən daxili nəzarət sistemini, habelə filialın işinin ilk üç ili üçün maliyyə proqnozlarını (balansı, mənfəət və zərər haqqında hesabatı) müəyyənləşdirən biznes-plan (Əlavə N 9);

7. bankın səlahiyyətli şəxsi tərəfindən imzalanan filialın öhdəlikləri üçün bankın məsuliyyət götürməsini təsdiq edən sənəd;

8. filiala təyin edilməsi təklif olunan inzibatçılar haqqında Bank lisenziyalarinin və icazələrin alinmasi üçün müraciət qaydalari haqqinda Təlimatın 2.1.8-ci yarımbəndində göstərilmiş sənədlər;

9. Bank lisenziyalarinin və icazələrin alinmasi üçün müraciət qaydalari haqqinda Təlimatın 2.3-cü bəndində göstərilmiş sənədlər;

10. ilkin müraciətə baxılması üçün dövlət rüsumunun ödənildiyini təsdiq edən bank sənədi.

Xarici bankın və xarici bank holdinq şirkətinin yerli törəmə bankına, xarici bankın yerli filialına bank lisenziyası alınması üçün ilkin müraciətə bu Bank lisenziyalarinin və icazələrin alinmasi üçün müraciət qaydalari haqqinda Təlimatın 2.1-ci və 2.2-ci bəndlərində göstərilmiş sənədlərdən başqa aşağıdakı sənədlər də əlavə olunmalıdır:

xarici bankın törəmə bankı və ya filialı üçün – təsisçi xarici bankın yerləşdiyi ölkənin bank tənzimləməsi və nəzarəti orqanının bankın həmin ölkədə fiziki və hüquqi şəxslərdən depozitlər və digər qaytarılan vəsait cəlb etmək üçün icazənin olması, habelə həmin tənzimləmə və nəzarət orqanının banka nəzarəti həyata keçirməsi barədə yazılı bildirişi və bu orqanın törəmə bankın təsis edilməsinə və ya filialın, açılmasına yazılı icazəsi;

xarici bank holdinq şirkətinin törəmə bankı üçün - bank holdinq şirkətinin yerləşdiyi ölkənin bank tənzimləməsi və nəzarəti orqanının bu şirkətə nəzarəti həyata keçirməsi, bu şirkətin fiziki və hüquqi şəxslərdən depozitlər və digər qaytarılan vəsait cəlb etməsi üçün həmin ölkədə lisenziyası olan bir və ya bir neçə bankının olması və ya onları idarə etməsi barədə yazılı bildirişi və bu orqanın törəmə bankın təsis edilməsinə yazılı icazəsi.

Təsis edilən bank və ya Azərbaycan Respublikasında filialını açan xarici bank ilkin müraciətinə müsbət baxılması haqqında Mərkəzi Bankın qərarının qəbul edildiyi gündən 180 təqvim günü müddətində ilkin nizamnamə kapitalının minimum miqdarını (kapitala bərabər tutulmuş vəsaiti) Mərkəzi Bankda bu məqsədlər üçün açılan hesaba ödəməli və qanunvericiliyə müvafiq qaydada dövlət qeydiyyatından keçərək "Banklar haqqında" Azərbaycan Respublikası

Qanununa uyğun olaraq korporativ idarəetmə sistemlərini təşkil etməli, texnili-təchizat və təhlükəsizlik tədbirlərini tamamlamalıdır.

Bank lisenziyası alınması üçün yekun müraciətə aşağıdakı sənədlər əlavə olunmalıdır:

1. bankın və ya xarici bankın yerli filialının dövlət qeydiyyatı haqqında sənədlərin (nizamnamənin, şəhadətnamənin) notariat qaydasında təsdiq edilmiş surəti;

2. bankın səlahiyyətli idarəetmə orqanının qərarı ilə təsdiq edilmiş bankın reqlamenti;

Reqlament bankın təşkilati və idarəetmə strukturunu, struktur vahidlərinin tabeçilik və hesabatını, habelə "Banklar haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş digər məlumatları əks etdirməlidir;

3. bankın yaradılması, nizamnamənin qəbul edilməsi və inzibatçıların təyin edilməsi haqqında səhmdarların ümumi yığıncağının qərarının notariat qaydasında təsdiq edilmiş surəti;

4. bank lisenziyasının alınması üçün ilkin müraciətə müsbət baxılması haqqında Mərkəzi Bankın qərarında şərtlər qoyulduqda, həmin şərtlərin yerinə yetirildiyini təsdiqləyən sənəd (sənədlər);

5. Mərkəzi Bankın müvafiq normativ xarakterli aktlarına uyğun olaraq bankın korporativ idarəetmə sistemlərinin formalaşdırılmasını təsdiq edən məlumat və sənədlər;

6. bankda texniki-təchizat və təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini təsdiqləyən məlumat və sənədlər (belə məlumat və sənədlər bankın inzibati binasının iş yerləri, informasiya texnologiyaları vasitələri və hesablama texnikası ilə təchiz olunmasını, əməliyyat və uçot işlərinin həyata keçirilməsini təmin edəcək proqram təminatının mövcudluğunu, pul vəsaitlərinin və digər qiymətlilərin saxlanması üçün Mərkəzi Bankın müvafiq normativ xarakterli aktlarının tələblərinə cavab verən kassa qovşağının qurulmasını, bankın mühafizə siqnalizasiya vasitələri ilə qorunmasını əks etdirməlidir);

7. bankın və ya xarici bankın yerli filialının hüquqi ünvanını təsdiq edən sənədin (icarə müqaviləsi, mülkiyyət hüququnu təsdiq edən sənəd və s.) notariat qaydasında təsdiq edilmiş surəti;

8. ilkin müraciət olunarkən Mərkəzi Banka təqdim edilmiş məlumatlarda və sənədlərdə əhəmiyyətli dəyişikliklər olduqda həmin dəyişikliklərin müfəssəl şərh edildiyi məlumat;

9. bank lisenziyasının verilməsi üçün dövlət rüsumunun ödənildiyini təsdiq edən bank sənədi.

Yerli bankların yerli və xarici filiallarının və xarici nümayəndəliklərinin açılmasına icazə almaq üçün müraciətə aşağıdakı sənədlər əlavə olunmalıdır:

1. bankın filial və ya nümayəndəlik açmaq barəsində səlahiyyətli idarəetmə orqanının qərarının notariat qaydasında təsdiq edilmiş surəti və ya iclas protokolundan çıxarış;

2. filialın və ya xarici nümayəndəliyin bankın səlahiyyətli idarəetmə orqanı tərəfindən təsdiq edilmiş əsasnaməsi;

Əsasnamədə digər məlumatlarla yanaşı filial və ya xarici nümayəndəliyin adı, ünvanı, filial üçün bank fəaliyyəti növləri, inzibatçıların səlahiyyətləri, bank tərəfindən nəzarətin həyata keçirilməsi, filial və ya nümayəndəliyin bankın öz qərarı ilə ləğv edilməsi qaydası göstərilməlidir;

3. yerli filialın hüquqi ünvanını təsdiq edən sənədin (icarə müqaviləsi, mülkiyyət hüququnu təsdiq edən sənəd və s.) notariat qaydasında təsdiq edilmiş surəti;

4. filialın kommersiya strategiyasını, nəzərdə tutduğu fəaliyyət növlərini, təşkilati strukturunu, habelə filialın ilk üc ili üçün maliyyə proqnozlarını müəyyənləşdirən biznes plan;

5. filialın və ya xarici nümayəndəliyin inzibatçılarının (rəhbərlərinin) təyin edilməsi barədə bankın səlahiyyətli idarəetmə orqanının qərarının notariat qaydasında təsdiq edilmiş surəti və ya protokoldan çıxarış;

6. filiala təyin edilməsi təklif edilən inzibatçıların siyahısı, habelə onların hər biri üçün peşə ixtisası və təcrübəsi haqqında məlumatın göstərildiyi sənədlərin (təhsil və əmək fəaliyyəti haqqında) notariat qaydasında təsdiqlənmiş surətləri, həmin şəxslər tərəfindən doldurulmuş anket, bankda və digər hüquqi şəxslərdə onların mühüm iştirak paylarının miqdarı və siyahısı, tərəflərindən imzalanmış və imzası notariat qaydasında təsdiqlənmiş vətəndaş qüsursuzluğuna dair ərizə ;

Xarici filialını və ya nümayəndəliyini açan yerli bank onların fəaliyyətinə yerləşdiyi ölkədə müvafiq icazə aldıqdan sonra bu barədə Mərkəzi Banka 5 gün müddətində yazılı bildiriş göndərməlidir. Bu zaman əvvəlcədən müraciət edilərkən Mərkəzi Banka təqdim edilmiş məlumatlarda əhəmiyyətli dəyişikliklər olduqda həmin dəyişiklikləri müfəssəl şərh edən məlumat da təqdim olunmalıdır.

Filialın və ya nümayəndəliyin açılmasına icazə almış bank həmin qurumlar haqqında məlumatı onun alındığı gündən 5 təqvim günü müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq dövlət reyestrinə təqdim etməlidir.

Xarici bankın yerli nümayəndəliyinin açılmasına icazə almaq üçün müraciətə aşağıdakı sənədlər əlavə olunmalıdır:

1. bankın nizamnaməsi və yerli nümayəndəliyin açılması barədə bankın səlahiyyətli idarəetmə orqanının qərarının surəti;

2. bank, onun təşkilati strukturu və xarici bankın nümayəndəlik açmaq barəsində səlahiyyətli orqanı da göstərilməklə idarəetmə orqanları haqqında məlumat;

3. bankın mühüm iştirak paylarının sahiblərinin onlara məxsus səsli səhmlər payı göstərilməklə siyahısı;

4. bankın son maliyyə ili üçün auditor yoxlamasından keçmiş maliyyə hesabatı (balans, mənfəət və zərər haqqında hesabat, nağd pulun hərəkəri barədə hesabat) və auditor rəyi;

5. yerli nümayəndəliyin səlahiyyətləri və ünvanı göstərilməklə bankın səlahiyyətli idarəetmə orqanı tərəfindən təsdiq edilmiş əsasnaməsi;

6. nümayəndəliyə təyin edilməsi təklif olunan inzibatçıların peşəkar keyfiyyətləri və məhkumluqlarının olub-olmaması barədə arayış;

7. xarici bankın yerləşdiyi ölkənin bank tənzimləməsi və nəzarəti orqanının bankın həmin ölkədə fiziki və hüquqi şəxslərdən depozitlər və digər qaytarılan vəsait cəlb etmək üçün icazəsinın olması, həmin tənzimləmə və nəzarət orqanının banka nəzarəti həyata keçirməsi barədə yazılı bildirişi və bu orqanın xarici bankın yerli nümayəndəliyinin açılmasına yazılı icazəsi.

Xarici bankın yerli nümayəndəliyi dövlət qeydiyyatına alındıqdan sonra icazə almaq üçün müraciətə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- xarici bankın yerli nümayəndəliyinin qanunvericiliyə müvafiq olaraq dövlət qeydiyyatına alınması haqqında sənədlərin (əsasnamənin və şəhadətnamənin) notariat qaydasında təsdiq edilmiş surəti;

- ilkin olaraq Mərkəzi Banka təqdim edilmiş məlumatlarda və sənədlərdə əhəmiyyətli dəyişikliklər olduqda həmin dəyişikliklərin müfəssəl şərh edildiyi məlumat.

Bank lisenziyalarının və icazələrin alınması üçün müraciət qaydaları haqqında Təlimat"a
Əlavə № 1

Azərbaycan Respublikasının Mərkəzi Bankına

_____
«___» _____ 200__-ci il
№ _____

Bank lisenziyasının alınması üçün
İLKİN MÜRACİƏT*

_____
(bankın/ xarici bankın adı)

_____ keçirilmiş iclasının
(Səhmdarların ümumi yığıncağının/xarici bankın səlahiyyətli idarəetmə orqanının)

«___» _____ 200__-ci il tarixli _____ №-li qərarına uyğun olaraq
_____
_____
(bankın/xarici bankın yerli filialının adı və ünvanı)

bank lisenziyasının alınmasına ilkin razılıq verilməsini xahiş edir.

Əlavə: (təqdim olunan sənədlərin siyahısı, nüsxələri və hər nüsxə üzrə vərəqlərin sayı).

Mən, aşağıda imza edən bu Ərizədə və ona əlavə olunan bütün sənədlərdə olan məlumatların düzgünlüyünü təsdiq edirəm və əmin edirəm ki, məndə olan məlumata görə onlar dəqiq və tamdır. Həmin məlumatlarda baş verən əhəmiyyətli dəyişikliklər barədə Azərbaycan Respublikası Mərkəzi Bankına dərhal məlumat verməyi öhdəmə götürürəm.

Bankın Muşahidə Şurası sədrinin / xarici bankın səlahiyyətli şəxsinin
soyadı, adı, atasının adı və imzası_____

Bank lisenziyalarının və icazələrin alınması üçün müraciət qaydaları haqqında Təlimat"a
Əlavə № 2

Azərbaycan Respublikasının Mərkəzi Bankına

_____
«___» _____ 200__-ci il
№ _____

Bank lisenziyasının alınması üçün
YEKUN MÜRACİƏT

Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq dövlət qeydiyyatından keçmiş (qeydiyyat nömrəsi və tarixi)

_____
(bankın/ xarici bankın yerli filialının adı)

* Xarici bankların yerli nümayəndəliklərinin açılmasına icazə alınması üçün ərizə bu nümunəvi formaya uyğun tərtib olunur.

bank lisenziyasının verilməsini xahiş edir.

Əlavə: (təqdim olunan sənədlərin siyahısı, nüsxələri və hər nüsxə üzrə vərəqlərin sayı).

Mən, aşağıda imza edən bu Ərizədə və ona əlavə olunan bütün sənədlərdə olan məlumatların düzgünlüyünü təsdiq edirəm və əmin edirəm ki, məndə olan məlumata görə onlar dəqiq və tamdır.

Bank lisenziyasının alınması üçün ilkin müraciət olunarkən təqdim edilmiş məlumatlarda və sənədlərdə əhəmiyyətli dəyişikliklər olmamışdır / Bank lisenziyasının alınması üçün ilkin müraciət olunarkən təqdim edilmiş məlumatlarda və sənədlərdə aşağıdakı əhəmiyyətli dəyişikliklər edilmişdir (həmin dəyişikliklərin müfəssəl şərh edildiyi məlumat və qoşulan sənədlərin siyahısı əlavə olunmalıdır).

Bankın Muşahidə Şurası sədrinin / xarici bankın səlahiyyətli şəxsinin
soyadı, adı, atasının adı və

imzası_____

Bank lisenziyalarının və icazələrin alınması üçün müraciət qaydaları haqqında Təlimat"a
Əlavə № 3

Azərbaycan Respublikasının *Mərkəzi Bankına*

_____
«___» _____ 200__-ci il
№ _____

Yerli bankın filial və ya xarici nümayəndəliyinin
açılmasına icazə alınması üçün
ƏRİZƏ

_____
(bankın adı)

_____ keçirilmiş iclasının
(bankın səlahiyyətli idarəetmə orqanının adı)
«___» _____ 200__-ci il tarixli _____ №-li qərarına uyğun olaraq
_____

_____
(filialın / xarici nümayəndəliyin adı və ünvanı)
açılmasına icazə verilməsini xahiş edir.

Əlavə: (təqdim olunan sənədlərin siyahısı, nüsxələri və hər nüsxə üzrə vərəqlərin sayı).

Mən, aşağıda imza edən bu Ərizədə və ona əlavə olunan bütün sənədlərdə olan məlumatların düzgünlüyünü təsdiq edirəm və əmin edirəm ki, məndə olan məlumata görə onlar dəqiq və tamdır. Həmin məlumatlarda baş verən əhəmiyyətli dəyişikliklər barədə Azərbaycan Respublikası Mərkəzi Bankına dərhal məlumat verməyi öhdəmə götürürəm.

Bankın Muşahidə Şurası sədrinin
soyadı, adı, atasının adı və imzası_____

Bank lisenziyalarının və icazələrin alınması üçün müraciət qaydaları haqqında Təlimat"a **Əlavə № 4**

Hüquqi şəxs olan təsisçi haqqında
MƏLUMAT*

«____» _____ 200__-ci il tarixinə

1. Təsisçi _____
(hüquqi şəxsin adı)

2. Ünvanı
_____
(ölkə, şəhər, küçə, poçt indeksi)

3. Əlaqə telefonu (ları) və faks_____
(ev, iş, mobil)

4. Elektron poçt ünvanı (əgər varsa)_____

5. Dövlət qeydiyyatı barədə məlumatlar_____

_____
(sənədin adı, nömrəsi, tarixi, təqdim edən dövlət orqanının adı)

6. VÖEN_____

7. Fəaliyyətin xarakteri _____
_____
(əsas fəaliyyət növlərini göstərməli)

8. İcra orqanının rəhbəri (ləri)
_____
_____
(soyadı, adı, atasının adı və vəzifəsi)

9. Təsis olunan bankda iştirak payı _____
_____

10. Son üç ildə iri maliyyə problemləri, o cümlədən müflisləşmə, konservasiya (müvəqqəti idarəetmə), sanasiya məsələləri meydana çıxmışdırmı?
_____
Bu halların səbəbləri _____
_____
_____

Bu problemlərin həlli nəticələri
_____
_____

11. Əgər belə fakt varsa, digər hüquqi şəxslərdə mühüm iştirak paylarınız barədə məlumatları göstərin:

Hüquqi şəxsin adı və ünvanı_____ _____

İştirak payının məbləği və iştirak etdiyiniz hüquqi şəxsin nizamnamə kapitalında xüsusi çəkisi (faizlə)_____

Fəaliyyət növü _____
(fəaliyyət növlərini sadalayın)

12. Əgər belə fakt varsa, başqa hüquqi və fiziki şəxslərin nizamnamə kapitalınızda mühüm iştirak payları barədə məlumatları göstərin.

Həmin şəxslərin adları və ünvanı_____ _____

* Bu məlumatın bütün sahələri doldurulmalı, əgər müəyyən sahələr üzrə faktlar yoxdursa, bu barədə müvafiq qeyd aparın.

_____

İştirak payının məbləği və nizamnamə kapitalınızda xüsusi çəkisi (faizlə)_____

Fəaliyyət/ məşğuliyyət növü

_____

(fəaliyyət / məşğuliyyət növlərini sadalayın)

Təsisçi hüquqi şəxsin qanuni təmsilçisi və ya müvəkkil etdiyi şəxsin soyadı, adı, atasının adı və imzası_____

Bank lisenziyalarının və icazələrin alınması üçün müraciət qaydaları haqqında Təlimat"a
Əlavə № 5

Fiziki şəxs olan təsisçi haqqında
MƏLUMAT*

«____» _____ 200__-ci il tarixinə

1. Təsisçi _____

_____

(soyadı, adı, atasının adı)

2. Təvəllüdü _____

3. Anadan olduğu yer _____

_____

4. Vətəndaşlığı _____

5. Şəxsiyyəti təsdiq edən sənədin seriyası, nömrəsi və təqdim edən dövlət orqanının adı_____

_____

6. Yaşadığı yer _____

7. Əlaqə telefonu (ları)_____

(ev, iş, mobil)

8. Iş yeri, vəzifəsi / məşğuliyyət növü_____

9. Əgər belə fakt varsa, digər hüquqi şəxslərdə mühüm iştirak payınız barədə məlumatları göstərin:

Hüquqi şəxsin adı və ünvanı_____

İştirak payının məbləği və nizamnamə kapitalında xüsusi çəkisi (faizlə)_____

Fəaliyyət növü _____

(fəaliyyət növlərini sadalayın)

Mən, aşağıda imza edən bu Məlumatda olan informasiyanın düzgünlüyünü və tam olmasını təsdiq edirəm.

Təsisçi fiziki şəxsin imzası_____

* Bu məlumatın bütün sahələri doldurulmalı, əgər müəyyən sahələr üzrə faktlar yoxdursa, bu barədə müvafiq qeyd aparın.

Bank lisenziyalarının və icazələrin alınması üçün müraciət qaydaları haqqında Təlimat"a **Əlavə № 6**

.

3x4

İnzibatçının

ANKETİ*

1. Adı

_____

(soyadı) (adı) (atasının adı)

2. Ünvanı

_____

(ölkə) (şəhər/rayon) (poçt indeksi)

3. Doğulduğu tarix

_____

(gün) (ay) (il)

4. Doğulduğu yer

_____

(ölkə) (şəhər/rayon)

5.Vətəndaşlığı

_____

(ölkə)

6. Şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsi, təqdim edən dövlət orqanının adı

_____

7. Əlaqə telefonu (ları)

_____ _____ _____

(ev) (iş) (mobil)

8. Faks nömrəsi (ləri) (əgər varsa)

_____

9. Elektron poçt ünvanı(ları) (əgər varsa)

_____

10. Ailə vəziyyəti

* Bu anketdə sorğu edilən bütün məlumatlar istər Azərbaycan Respublikasında, istərsə də xarici ölkələrdə həyata keçirilən fəaliyyəti əhatə etməlidir.
Bu anketin bütün sahələri doldurulmalıdır. Əgər anketdəki müəyyən sahələr üzrə faktlar yoxdursa, bu barədə müvafiq qeyd aparın.

Yaxın qohumları (əri/arvadı, valideyni, o cümlədən ərinin/arvadının valideyni, babası, nənəsi, övladı, o cümlədən övladlığa götürülən, qardaşı və bacısı):

Soyadı, adı	Təvəllüdü	Qohumluğu

11. İstifadə edilmiş və ya dəyişdirilmiş soyadlar və adlar

Bütün digər keçmiş adları, onlardan istifadə edilməsinin və ya dəyişdirilməsinin səbəblərini, habelə istifadə dövrünü göstərin (nigahdan əvvəlki soyadınızı, əvvəlki nigahlardakı soyadınızı, qanuni olaraq və digər qaydada dəyişdirilmiş soyadlarınızı və s.).

Soyadı, adı	İstifadə dövrü	İstifadənin / dəyişdirilmənin səbəbləri

12. Yaşayış yerləri barədə məlumatlar

Son beş ildə bütün yaşayış yerlərinizi xronoloji qaydada göstərin (sonuncudan başlamaqla).

Ölkə	Şəhər / rayon	Küçə	Poçt indeksi	Yaşadığınız müddət	
				ay/il -dən	ay/il -dək

13. Təhsili və peşə təcrübəsi barədə məlumatlar

a) Təhsil barədə məlumatları göstərin

Təhsil müəssisəsinin adı	Təhsil müddəti	Aldığı ixtisası	Diplom və ya təhsil haqqında digər sənədin nömrəsi

b) Elmi dərəcələrinizi, elmi adlarınızı və elmi əsərlərinizi göstərin.

Elmi dərəcə, onun alındığı tarix və onu təsdiqləyən sənədin nömrəsi	Elmi ad (lar)	Elmi əsərlər

c) Ixtisas dərəcənizi müəyyənləşdirmək üçün mühüm hesab etdiyiniz hər hansı başqa məlumatları (ixtisas üzrə yerli və ya beynəlxalq seminarlarda, treyninq-kurslarda, simpoziumlarda və s. tədbirlərdə iştirak) təqdim edin.

_____
_____

14. Bilik səviyyəsi barədə məlumatlar

Namizəd aşağıdakı sahələrdən hansı üzrə biliklərə malikdir və bu biliklər hansı səviyyədədir?

Bilik sahələri*	Biliklərin səviyyəsi			
	əla	yaxşı	kafi	yoxdur
Azərbaycan Respublikasının bank qanunvericiliyi				
Bankların fəaliyyətinə aid mülki və vergi qanunvericiliyi				
Bank nəzarəti standartları				
Korporativ idarəetmə standartları				
Bank hesabatlılığı və mühasibat uçotu				
Kredit işinin təşkili				
Bankdaxili nəzarət və audit				
Ödəniş sistemləri və informasiya texnologiyaları				
Azərbaycan Respublikasında valyuta tənzimi				

15. Hərbi xidmət/mükəlləfiyyət

Hərbi xidmətiniz barədə aşağıdakı məlumatları göstərin.

Silahlı Qüvvələrin növü	Qoşun növü	Heyət və hərbi rütbə	Xidmət müddəti		Qeydiyyatda olduğunuz hərbi komissarlığın adı
			Ay/il -dən	Ay/il -dək	

Əgər hərbi xidmət keçməmişsinizsə, onun səbəbləri (xəstəlik, ailə vəziyyəti, təhsil və s.) barədə ətraflı məlumat (məsələn, hansı xəstəliklə əlaqədar, təhsilin müddəti və s.) göstərin.

_____
_____

16. İş yeri barədə məlumatlar

a) İş yeriniz və ya müstəqil məşğuliyyətiniz barədə aşağıdakı məlumatları xronoloji qaydada göstərin (sonuncu iş yerindən başlayaraq). Bütün işsizlik dövrlərini və əvvəlki işdən çıxma səbəblərini göstərin.

1. Təşkilatın adı:

_____

2. Ünvanı:

_____

Ölkə Şəhər/ rayon Küçə Poçt indeksi

İşəgötürənin soyadı, adı _____
İşəgötürənin vəzifəsi _____
Telefon nömrəsi _____
Tutduğunuz vəzifə_____
İşləmə dövrü: _____ -dən _____ - dək
İşdən çıxmanın səbəbləri _____

* Cədvəldə sadalanan bilik sahələri qəti deyil və anketi dolduran tərəfindən genişləndirilə bilər.

_____

(sizin işdən azad edilməyiniz və ya hər hansı işdən öz xahişinizlə çıxıb getməyin təklif edilməsi hallarının olub-olmadığını göstərin)

Müstəqil fəaliyyətin növü_____

b) Bank fəaliyyəti sahəsində iş təcrübəniz haqqında məlumat, o cümlədən, rəhbərliyiniz altında olan işçilərin sayını, kreditlər verilməsi, investisiyalar haqqında və digər mühüm məsələlər üzrə qərarların qəbul edilməsi səlahiyyətlərini göstərin.

_____
_____

c) Üç ildən az olmayan müddət ərzində başqası ilə əvəz edilməsi barədə Mərkəzi Bankın tələbi ilə hər hansı bankın, filialın və ya şöbənin inzibatçısı vəzifəsindən azad edilmişsinizmi? (işə bərpa edilməniz haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduğu hallar istisna olmaqla) _____

(hə/yox)

17. Müxtəlif məlumatlar

a) Əgər belə fakt varsa, Müşahidə Şurasının, Audit Komitəsinin, Idarə Heyətinin üzvü və ya digər rəhbəri, əməkdaşı, yaxud mühüm iştirak payının sahibi (səhmdar kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən payın birbaşa və ya dolayı yolla sahibi) olduğunuz (əvvəllər və hazırda) bank, digər maliyyə təşkilatı və ya holdinq şirkəti barədə aşağıdakı məlumatları göstərin.

Təşkilatın adı və ünvanı	Mülkiyyət forması	Fəaliyyət növü	Vəzifə/ əlaqə	Səhmlərin (payın) məbləği və nizamnamə kapitalında çəkisi (faizlə)	Əlaqə müddəti	
					Ay/il -dən	Ay/il -dək

b) Əgər belə fakt varsa, Müşahidə Şurasının, Təftiş Komissiyasının (Audit Komitəsinin, müfəttişin), Idarə Heyətinin üzvü və ya digər rəhbəri, yaxud mühüm iştirak payının sahibi (səhmdar kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən payın birbaşa və ya dolayı yolla sahibi) olduğunuz hüquqi şəxslər (məhdud məsuliyyətli cəmiyyət, səhmdar cəmiyyəti, təsərrüfat ortaqlığı və s.) barədə aşağıdakı məlumatları göstərin. Bu bölmədə bundan əvvəl təqdim olunmuş məlumatları təkrar etməyin.

Hüquqi şəxsnin adı və ünvanı	Mülkiyyət forması	Fəaliyyət növü	Vəzifə / əlaqə	Səhmlərin (payın) məbləği və nizam-namə kapitalında xüsusi çəkisi (faizlə)	Əlaqə müddəti	
					Ay/il -dən	Ay/il -dək

c) Bankda mühüm iştirak payına malik olan hüquqi şəxsdə mühüm iştirak payına malik olan şəxslər haqqında məlumatları göstərin.

Mühüm iştirak payı sahiblərinin adları və ünvanları	Mühüm iştirak payı sahiblərinin fəaliyyət növü	Səhmlərin (payın) məbləği və nizamnamə kapitalında xüsusi çəkisi (faizlə)	Əlaqə müddəti

ç)Aşağıdakılar üçün ərizə verərkən nə vaxtsa rədd cavabı almısınızmı və planlaşdırılan rədd cavabı barədə rəsmi, yaxud qeyri-rəsmi bildiriş aldıqdan sonra öz istəyinizlə ərizəni geri götürmüsünüzmü?

	Hə	Yox
• maliyyə təşkilatının (kredit təşkilatları, sığorta təşkilatları və s.) təsis edilməsi • maliyyə təşkilatının və ya bu maliyyə təşkilatının baş təşkilatının alınması • Hər hansı maliyyə təşkilatının mühüm iştirak payının alınması		

Əgər yuxarıda göstərilən suallardan hər hansı birinə cavab təsdiqedicidirsə, rədd cavabının və ya ərizənin geri götürülməsinin səbəblərini, müvafiq dövlət orqanını, ərizənin verilməsi tarixini və bu məsələyə dair digər məlumatı ətraflı göstərin.

_____
_____

d) Əgər belə fakt varsa, üç ildən az olmayan müddət ərzində Müşahidə Şurasının, Təftiş Komissiyasının (Audit Komitəsinin, müfəttişin), Idarə Heyətinin üzvü və ya digər rəhbəri, əməkdaşı, yaxud mühüm iştirak payının sahibi (səhmdar kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən payın birbaşa və ya dolayı yolla sahibi) olduğunuz hüquqi şəxs üçün icazə, şəhadətnamə, sertifikat və ya xüsusi razılıq (lisenziya) alınması ilə əlaqədar hər hansı bir nəzarət orqanına təqdim edilən sənədlərdə saxta və ya yanlış məlumatların olması səbəbindən icazə, şəhadətnamə, sertifikat və ya lisenziyanın ləğv edilməsi halları haqqında ətraflı məlumat göstərin.

_____
_____

e) Əgər belə fakt varsa, əlaqədar olduğunuz maliyyə təşkilatına qarşı maliyyə sağlamlaşdırırlması, müvəqqəti idarəetmə, məcburi ləğvetmə və ya müflisləşmə haqqında qərarın qəbul edildiyi tarixdən əvvəlki bir il ərzində həmin təşkilatın Müşahidə Şurasının, Təftiş Komissiyasının (Audit Komitəsinin, müfəttişin), Idarə Heyətinin üzvü, inzibatçısı və ya mühüm iştirak payının sahibi kimi rolunuz və vəzifələriniz barədə məlumatı göstərin.

_____
_____

ə) Əgər Siz son 3 ildə kənar auditorların və ya qanuna uyğun olaraq təyin edilmiş nəzarətçilərin hesabat sənədlərini imzalamaqdan imtina etdikləri və ya qeyd-şərt etməklə imzaladıqları hüquqi şəxsin rəhbəri olmuşsunuzsa, bu barədə ətraflı məlumat verin.

_____
_____

f) Hər hansı maliyyə təşkilatından şəxsi məqsədlər üçün aldığınız kredit, təmsil olunduğunuz və ya işlədiyiniz təşkilatın krediti və ya tapşırıq verən kimi çıxış etdiyiniz kredit üzrə ödəniş, girov təminatı, gecikdirmə və ya kreditlə əlaqədar digər öhdəliklərin pozulmasına nə vaxtsa yol vermisinizmi? Belə faktlar olmuşsa, bu barədə ətraflı məlumat göstərin.

_____
_____

g) Əgər belə fakt varsa, Müşahidə Şurasının, Təftiş Komissiyasının (Audit Komitəsinin, müfəttişin), Idarə Heyətinin üzvü və ya digər inzibatçısı, yaxud mühüm iştirak payının sahibi (səhmdar kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən payın birbaşa və ya dolayı yolla sahibi) olduğunuz hüquqi şəxsin fəaliyyəti ilə bağlı son 10 ildə hər hansı cinayət işlərinin istintaqı aparılmışdırsa, istintaqa hansı qismdə (təqsirləndirilən şəxs, şahid və s.) cəlb edildiyinizi göstərin.

_____
_____

ğ) Əgər belə fakt varsa, təsisçisi və ya üzvü olduğunuz qeyri-hökumət təşkilatları barədə aşağıdakı məlumatları göstərin.

Təşkilatın adı və ünvanı	Fəaliyyət növü	Vəzifə / əlaqə

h) Əgər sizin məqbul və lazımi keyfiyyətlərə malik olmanızı və ya peşəkarlığınızı təsdiq edən hər hansı məlumatlara maliksinizsə, həmin məlumatları göstərin.

_____
_____

Mən, aşağıda imza edən, bu anketdə olan məlumatların düzgünlüyünü təsdiq edirəm və həmin məlumatlarda baş verən hər hansı dəyişikliklər barədə Azərbaycan Respublikası Mərkəzi Bankına məlumat verməyi öhdəmə götürürəm.

İmza:

Tarix:

"Bank lisenziyalarının və icazələrin alınması üçün müraciət qaydaları haqqında Təlimat"a
Əlavə № 7

Vətəndaş qüsursuzluğuna dair

Ə R İ Z Ə

_____
(soyadı, adı, atasının adı)

_____

_____
Aşağıdakı faktların olmadığını təsdiq edirəm:

1. Mühüm iştirak payının sahibləri, o hüquqi şəxs olduqda onun icra orqanının rəhbərləri, habelə bankın törəmə strukturlarının rəhbərləri:

- qəsdən törədilmiş cinayətə görə məhkumluğun olmaması.

2. İnzibatçı:

- məhkumluğunun olmaması, keçmişdə mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində ağır və xüsusilə ağır cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilməsi faktının olmaması, müvafiq vəzifəni tutması və ya peşə fəaliyyəti ilə məşğul olması üzərində məhkəmə qərarı ilə qoyulmuş qadağanın olmaması, məhkəmə qaydasında müflis elan edilməsi faktının olmaması.

_____ _____

(imza) (imzanın tarixi)

"Bank lisenziyalarının və icazələrin alınması üçün müraciət qaydaları haqqında Təlimat"a **Əlavə N 8**

_____ (bankın adı)

_____ (bankın idarəetmə orqanının adı)

P R O T O K O L N_____

(___ N-li PROTOKOLUNDAN ÇIXARIŞ*)

Bakı şəhəri

"_____"_____il

Sədrlik edirdi: _____

(soyadı, adı, atasının adı və vəzifəsi)

İştirak edirdilər: (səhmdarların tam adları və nizamnamə kapitalında iştirak payları)

Dəvət olunanlar: (tam adları və vəzifələri)

Gündəlik.

1._____

(baxılan məsələlər, məruzəçilərin soyadları və adları)

2._____

3._____

Eşidildi: (məsələnin adı, məruzəçilərin və müzakirələrdə çıxış edənlərin soyadları və adları).

Çıxış etdilər: (məruzələrin və çıxışların qısa mətni)

Qərara alındı: (qəbul edilmiş qərar və ya həmin məsələyə dair rədd edilmiş layihə tam yazılmış şəkildə)

1._____

Lehinə:

Əleyhinə:

2._____

Lehinə:

Əleyhinə:

3._____

* Protokoldan çıxarış iclasın sədri və iclas katibinin soyadları, adları, atalarının adları, "düzdür" qeydi və qeydin tarixi göstərilməklə onların imzası və bankın möhürü ilə təsdiq olunur.

Lehinə:
Əleyhinə:
Sədr _____
(soyadı, adı, atasının adı) (imza)
Katib _____
(soyadı, adı, atasının adı) (imza)

"Bank lisenziyalarının və icazələrin alınması üçün müraciət qaydaları haqqında Təlimat"a
Əlavə № 9

_____
(bankın adı)

BIZNES PLANI*

I.Mündəricət.

- Bankın adı.
- Bankın yaradılması haqqında məlumat.
- Bankın yerləşəcəyi ünvan haqqında məlumat.
- Bankın nizamnamə kapitalı haqqında məlumat.
- Biznes planın baxılması zamanı əlaqə saxlanılacaq şəxs haqqında məlumat.

II. Kommersiya strategiyası.

- Bankın fəaliyyət strategiyasını əsaslandırılmış surətdə təsvir edin. Hər bir strateji istiqaməti göstərin və onun haqqında izahlı məlumat verin.
- Marketinq strategiyası. Marketinq strategiyasında bankın proqnozlaşdırılmış daxilolmalarını, bazarın hansı seqmentlərində fəaliyyət göstərəcəyini, müştərilərin sayını və tərkibini (fiziki və hüquqi şəxslər, fərdi və korporativ şəxslər, bazarın digər subyektləri, dövlət və özəl mülkiyyətində olan hüquqi şəxslər, hökümət və qeyri- hökümət təşkilatları, rezident və qeyri-rezident şəxslər, digər təsnifat üzrə), və hansı gəlir səviyyəsinə çata biləcəyinizi təsvir edin. Bankın fəaliyyət göstərəcəyi bazarın geniş iqtisadi xarakteristikası verilməlidir. Bu təhlil ən son məlumatlara əsaslanmalı və bu məlumatların mənbələri göstərilməlidir. Bu bölmədə strategiyanın məqsədlərinin hazırlanması üçün istifadə olunmuş bazar təhlilinin, iqtisadi və rəqabət komponentlərinin əsas planlaşdırma fərziyyələrinin və bu fərziyyələrin əsaslarının geniş müzakirəsi olmalıdır.
- Xidmət strategiyası. Bank maliyyə alətlərinin və xidmətlərinin planlaşdırılan ümumi şərtlərinin siyahısını tərtib və təsvir edin, bankın törəmə cəmiyyətlərinin fəaliyyətləri də daxil olmaqla. Bankın maliyyə alətlərini və xidmətlərini necə təklif edəcəyini göstərin; müxtəlif bazar subyektlərinə hansı maliyyə alətlərindən istifadə olunacağını və onların fərqlərini göstərin; və hər bir maliyyə alətinin və xidmətin təqdim edilməsi ilə bağlı müddətləri və xərcləri göstərin.
- Aidiyyatı şəxslər və aidiyyatı şəxs adından hərəkət edən şəxslərlə əməliyyatların həcmi və şərtlərini təsvir edin.
- Əmanət (depozit) siyasəti. Bankın əmanət (depozit) siyasətinin əsas istiqamətlərini və komponentlərini təsvir edin. Əmanət (depozit) siyasətində cəlb olunacaq vəsaitlərin mənbəyi, mənşəyi, muddəti, iqtisadi coğrafiyası və tətbiq olunacaq maliyyə alətlərinin effektliyi təsvir

* Qeyd: Bu formada təsvir olunanlar minimum tələblərdir. Hər bir bank Biznes Planın geniş və izahlı təqdim olunmasında müstəqildir.

olunmalıdır. Əmanətlərin (depozitlərin) cəlb olunması ilə əlaqədar risklərin müəyyənləşməsi, ölçülməsi və minimallaşdırılması tədbirlərini təsvir edin.

• Kredit və investisiya siyasəti. Kredit və investisiya siyasətinin əsas prinsiplərini və həyata keçirilməsi formalarını təsvir edin. Bazarda rəqabətə davamlı hansı kredit alətlərindən istifadə edəcəyinizi göstərərək əsaslandırın. Kredit və investisiya portfelinin stukturunu təsvir edin (müddətinə, risk dərəcəsinə, təminatlılığına, mənşəyinə və iqtisadi coğrafiyasına görə).

• Faiz siyasəti. Əmanət (depozit), kredit, investisiya və digər fəaliyyət növlərini həyata keçirərkən faiz dərəcələrinin və komissyon haqların müəyyənləşdirilməsi və hesablanması qaydalarını göstərin. Bazarda faiz konyukturasının dəyişməsinin mənfi nəticələrinin aradan qaldırılması üçün tədbirlər planını açıqlayın.

• İnformasiya texnologiyaları. Bankın fəaliyyəti ilə əlaqədar texniki avadanlığı, kompyuter vasitələrini və proqram təminatını təsvir etməklə analizini verin. İnformasiya axımı və təhlükəsizliyi sxemini təsvir edin.

• Kadr siyasəti. İnsan resurslarının planlaşdırılması, onların peşəkarlıq səviyyəsinə dair tələblər, tədris kurslarının planlaşdırılması, insan resurslarının idarəetmə standartları, işə qəbuletmə və işdən azadetmə standartları, əməyin qiymətləndiriliməsi, motiviasiya və s. geniş izahını təsvir edin.

III. Bankın fəaliyyət növləri.

• Bankın fəaliyyət növlərini təsvir edin və əsaslandırın, o cümlədən qeyri- ənənəvi fəaliyyət növlərini təsvir edin.

IV. Təşkilati struktur.

• Təşkilati strukturun təsvirini və sxemini təqdim etməklə hər bir struktur bölmənin məqsədini, fəaliyyətini və məsuliyyətini, habelə həmin bölmələrdə çalışacaq işçilərin sayını göstərin (filiallarlar və şöbələr daxil olmaqla). Struktur bölmələri arasında olan əlaqələri təsvir edin və əsaslandırın.

• Bankın hər bir struktur bölməsinin fəaliyyət planlarını, prosedurları və bankın idarə edilməsində səlahiyyət bölgüsünü təsvir edin.

V. Daxili Nəzarət və Audit Sistemləri.

• İdarəetmənin təmin edilməsini;

• Müşahidə Şurasının və İdarə Heyətinin fəalıiyyəti üçün tələb olunan məlumatların dəqiq və vaxtında hazırlanması və çatdırılmasını;

• Bankın fəaliyyətinin qanunvericiliyə və daxili normativ sənədlərə (qaydalara, planlara, əsasnamələrə və s.) uyğunluğunun yoxlanılmasını;

• Risklərin muəyyənləşdirilməsi, qiymətləndirilməsi, idarə olunması və mini-mallaşdırılması üzrə tədbirlər planına riayət olunmasını;

• Bankın fəaliyyətində mövcud olan çatışmazlıqların səbəbləri haqqında məlumat əldə edilməsini və onların aradan qaldırılmasına nəzarətin həyata keçirilməsini;

• Aktivlərin qorunması, maliyyə və əməliyyat uçotunun bütövlüyünün təmin edilməsi, əməliyyatların səmərəliliyinin artırılması, habelə qanunvericiliyin və daxili normativ sənədlərə riayət edilməsi üzrə aydit prosedurlarını;

• Daxili audit sistemini və prosedurlarını təsvir edin.

VI. İlk üç il üçün maliyyə proqnozları*.

Balans:

Aktivlər	1-ci il	2-ci il	3-cü il
1	**2**	**3**	**4**
Nağd pul			
Mərkəzi Banka qarşı tələblər			
Kredit təşkilatlarına qarşı tələblər			
Qiymətli kağızlar və investisiyalar			
Müştərilərə ümumi kreditlər və lizinqlər			
Kredit itkiləri üzrə ehtiyyatlar			
Müştərilərə verilmiş xalis kreditlər və lizinqlər			
Əsas vəsaitlər (amortizasiya çıxılmaqla)			
Hesablanmış alınacaq faizlər			
Qeyri-maddi aktivlər (amortizasiya çıxılmaqla)			
Digər aktivlər			
Aktivlərin cəmi			
Öhdəliklər			
Tələb olunanadək depozitlər			
Müddətli depozitlər			
Kredit təşkilatlarının tələbləri			
Mərkəzi Bankın tələbləri			
Digər borc götürülmüş öhdəliklər			
Hesablanmış ödəniləcək faizlər			
Subordinasiya olunmuş borclar			
Digər öhdəliklər			
1	**2**	**3**	**4**
Öhdəliklərin cəmi			
Kapital			
Adi səhmlər			
İmtiyazlı səhmlər			
Səhmlərin buraxılışından əldə edilmiş əlavə vəsaitlər			
Aktivlərin yenidən qiymətləndirilməsi			
Bölüşdürülməmiş mənfəət			
Kapitalın Cəmi			
Öhdəliklər və kapitalın cəmi			

- Pul axınları haqqında hesabat

Əməliyyat fəaliyyətindən nağd pul axını	1-ci il	2-ci il	3-cü il
1	**2**	**3**	**4**
Alınmış (ödənilmiş) xalis faizlər və komisyon haqqlar			
Alınmış dividendlər			
Dilinq əməliyyatlarından gəlir (zərər)			

* Filialın fəaliyyəti üçün təqdim edilən maliyyə proqnozlarında yalnız filiala uyğun maddə və bölmələr əks olunmalıdır.

Xarici valyuta əməliyyatlarından gəlir (zərər)			
Digər əməliyyatlardan daxilolmalar			
Əmək haqqı və müavinatlar			
İnzibati xərclər			
Digər əməliyyat xərcləri			
Əməliyyat aktivlərində artım (azalma)			
Azərbaycan Mərkəzi Bankında məcburi ehtiyatlar			
Kredit təşkilatlarına qarşı tələblər			
Müştərilərə verilmiş kreditlər			
Digər aktivlər			
Əməliyyat öhdəliklərində artım (azalma)			
Azərbaycan Mərkəzi Bankın və kredit təşkilatlarının tələbləri			
Müştərilərin tələbləri			
Digər öhdəliklər			
Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətindən gələn xalis nağd pul axını			
Ödənilmiş mənfəət vergisi			
Əməliyyat fəaliyyətindən xalis nağd pul axını			
1	**2**	**3**	**4**
İnvestisiya fəaliyyətindən nağd pul axını			
Alınmış (satılmış) xalis qiymətli kağızlar			
Alınmış (satılmış) səhmlər			
Alınmış (satılmış) əsas vəsaitlər			
Alınmış (satılmış) qeyri-maddi aktivlər			
İnvestisiya fəaliyyətindən xalis nağd pul axını			
Maliyyələşdirmə fəaliyyətindən nağd pul axını			
Ödənilmiş dividendlər			
Buraxılmış (geri alınmış uzunmüddətli) depozit sertifikatları			
Buraxılmış (geri alınmış uzunmüddətli) borc öhdilikləri			
Buraxılmış (geri alınmış) səhmlər			
Maliyyələşdirmə fəaliyyətindən xalis nağd pul axını			
Nağd pulda və nağd pul ekivalentlərində azalma/artım			
İlin əvvəlində nağd pul və nağd pul ekivalentləri			
İlin sonunda nağd pul və nağd pul ekivalentləri			

5.5. BANKLARIN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ

Bank ən azı üç hüquqi və/və ya fiziki şəxs tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır. Siyasi partiyalar, ictimai birliklər, fondlar və digər qeyri-kommersiya təşkilatları bankın səhmdarı ola bilməzlər. Bank yalnız adlı səhmlər buraxa bilər. Bankın imtiyazlı səhm sahibləri səs hüququna malik ola bilməzlər. Bankın təsisçiləri olan səhmdarları onun sonrakı səhmdarlarına nisbətən hər hansı əlavə üstünlüklərə malik ola bilməz və ya hər hansı əlavə vəzifələr daşıya bilməzlər (Banklar haqqında Azərbaycan Respublikasının Qanunu -maddə19).

Bankın nizamnaməsinin notariat qaydada təsdiqlənmiş surəti, bank tərəfindən təsdiqlənmiş daxili reqlamenti, habelə bankın bank fəaliyyəti ilə əlaqədar müqavilələri imzalamaq səlahiyyəti verilmiş vəzifəli şəxslərin siyahısı bank tərəfindən Mərkəzi Banka bir nüsxədə təqdim edilir və Mərkəzi Bankda saxlanılır Banklar haqqında Azərbaycan Respublikasının Qanunu -20).

Bank məcmu kapitalını, xarici bankın yerli filialı isə məcmu kapitala bərabər tutulmuş vəsaitini daimi olaraq Mərkəzi Bankın banklar üçün müəyyən etdiyi məcmu kapitalın minimum miqdarından aşağı olmayan səviyyədə saxlamalıdır. Bankın məcmu kapitalının, xarici bankın yerli filialı üçün isə məcmu kapitala bərabər tutulmuş vəsaitin strukturu, komponentləri və hesablanması qaydası Mərkəzi Bank tərəfindən müəyyən edilir. Bankın və ya xarici bankın yerli filialının inzibatçıları məcmu kapitalın və ya məcmu kapitala bərabər tutulmuş vəsaitin miqdarının Mərkəzi Bankın banklar üçün müəyyən etdiyi məcmu kapitalın (məcmu kapitala bərabər tutulmuş vəsaitin) minimum miqdarının 25 faizinə və ya onun adekvatlıq əmsalının 3 faizə çatdığını müəyyən etdikləri bütün hallarda dərhal bu barədə Mərkəzi Banka bildiriş göndərməlidirlər(Banklar haqqında Azərbaycan Respublikasının Qanunu maddə21).

Hər hansı bir şəxs bankın nizamnamə kapitalında mühüm iştirak payını, o cümlədən nizamnamə kapitalındakı mövcud payını mühüm iştirak payına çatdıran əlavə payı, habelə mühüm iştirak payını artıraraq səsvermə hüququ olan səhmlərin və ya nizamnamə kapitalının 20 faizinə, 33 faizinə, 50 faizinə çatmasına və ya bu miqdarı keçməsinə, yaxud bankın həmin şəxsin törəmə strukturuna çevrilməsinə gətirib çıxaran iştirak payını bu Qanunla müəyyən edilmiş qaydada əldə edə bilər(Banklar haqqında Azərbaycan Respublikasının Qanunu maddə22).

Bankların idarəetmə strukturu- Hər bir bank ali idarəetmə orqanı olan səhmdarların ümumi yığıncağı, onun idarə olunmasına və işinə nəzarəti həyata keçirən orqan olan Müşahidə Şurası, bankda audit işini təşkil edən AuditnKomitəsi və məsul icra orqanı olan İdarə Heyəti tərəfindən idarə olunur (Banklar haqqında Azərbaycan Respublikasının Qanunu maddə23).

Bankın təşkilati strukturu Səhmdarların Ümumi Yığıncağı və ya onun verdiyi səlahiyyətlər əsasında Müşahidə Şurası tərəfindən təsdiq edilir. Təşkilati strukturun tərkibinə ən azı aşağıdakı funksiyaları daşıyan bölmələr daxil edilməlidir:

1. müştərilərlə birbaşa iş;
2. risklərin idarə edilməsi;
3. bank əməliyyatları;
4. inzibati və yardımçı xidmət.

Bankın təşkilati strukturu Mərkəzi Banka təqdim edilir.

Bank fəaliyyəti ilə əlaqədar müxtəlif risklərin səmərəli idarə edilməsi məqsədi ilə Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydalarına müvafiq daxili komitələr yaradılır. Hər bir komitəyə İdarə Heyətinin bu sahəyə cavabdeh olan üzvü sədrlik edir. Hər bir bankda idarəetmə orqanlarının və struktur bölmələrin fəaliyyətini tənzimləyən əsasnamələr tərtib edilir. Əsasnamələrdə idarəetmə orqanlarının və struktur bölmələrin tərkibi, funksiya və səlahiyyətləri, fəaliyyət qaydaları müəyyən edilir. Əsasnamələr və onlara edilən bütün dəyişikliklər Azərbaycan Respublikasının Mərkəzi Bankına (bundan sonra – Mərkəzi Bank) təqdim edilir.

İdarəetmə orqanlarının əsasnamələri Səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiq edilir. İdarəetmə orqanlarının əsasnamələrində ayrıca olaraq onların sədrlərinin səlahiyyətləri müəyyən edilməlidir. Səlahiyyətlərin həcmi müəyyən edilərkən qanunvericiliyin tələbləri və bank fəaliyyətində risklərin azaldılması məsələləri nəzərə alınmalıdır.

Bankın fəaliyyətinə nəzarəti həyata keçirən Müşahidə Şurası Səhmdarların Ümumi Yığıncağının verdiyi səlahiyyətlər əsasında bankın bütün siyasətlərinin və fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir. Səhmdarlar qarşısında bankın ümumi fəaliyyətinə görə Müşahidə Şurası, bankın cari fəaliyyətinə görə İdarə Heyəti məsuliyyət daşıyır.

Banklarda korporativ idarəetmə standartlarinin tətbiqi qaydaların 10-cu bölməsinə uyğun olaraq yaradılan komitələrin əsasnamələri bankın Müşahidə Şurası tərəfindən təsdiq edilir. Komitələrin əsasnamlərində qərarların qəbul edilmə qaydası göstərilməlidir. Bankın filial, şöbə və nümayəndəlikləri istisna olmaqla digər struktur bölmələrin əsasnamələri İdarə Heyəti tərəfindən, daxili audit bölməsinin əsasnaməsi isə Audit Komitəsi tərəfindən təsdiq edilir. Bankda hər bir fəaliyyət növü üzrə əməliyyatın həyata keçirilməsi və risklərin idarə-edilməsi ilə bağlı daxili qaydalar və prosedurlar İdarə Heyəti tərəfindən tərtib olunur və Müşahidə Şurası tərəfindən təsdiq edilir. Bu sənədlərdə hər bir fəaliyyət növünün həyata keçirilməsi qaydası tam və açıq müəyyən olunur. Bankda hər bir vəzifə üzrə vəzifə təlimatı olmalıdır. Vəzifə təlimatları struktur bölmələrin

rəhbərləri tərəfindən təsdiq edilir və işçilər tərəfindən imzalanır. Vəzifə təlimatında vəzifə üzrə funksiya, səlahiyyətlər və məsuliyyət müəyyən olunmalıdır.

SƏHMDARLARIN ÜMUMI YIĞINCAĞI

Bank səhmdarlarının ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir[5]:

1. bankın nizamnaməsini qəbul etmək, nizamnaməyə əlavə və dəyişikliklər etmək;
2. bankın reqlamentini qəbul etmək və reqlamentə əlavə və dəyişikliklər etmək;
3. bankın faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətini, habelə bankın ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək;
4. digər hüquqi şəxslərin kapitalında bankın iştirakı barədə qərarlar qəbul etmək, bankın filiallarını və nümayəndəliklərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək;
5. növbəti və tələb olunduğu hallarda növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin etmək;
6. bankın büdcəsini qəbul və təsdiq etmək;
7. bankın İdarə Heyətinin üzvlərini təyin və azad etmək, İdarə Heyətinin əsasnaməsini təsdiq etmək;
8. bankın Müşahidə Şurasının və Audit Komitəsinin üzvlərini təyin və azad etmək, həmin idarəetmə orqanlarının əsasnaməsini təsdiq etmək, bankın inzibatçılarının işə götürülməsi müddətlərini və şərtlərini müəyyənləşdirmək;
9. Müşahidə Şurası üzvlərinin səlahiyyətləri istisna olmaqla, bankın inzibatçılarının bank adından və bank hesabına öhdəliklər qəbul etmək səlahiyyətlərini və həmin səlahiyyətlərin bankın digər əməkdaşlarına verilməsi hüququnun hədlərini müəyyənləşdirmək;
10. bu Qanunun 28-ci maddəsinə əsasən bank inzibatçılarının kommersiya maraqlarını açıqlaması haqqında qaydaları və həmin qaydalara dəyişiklik və əlavələri qəbul etmək;
11. bankın törəmə təsərrüfat cəmiyyətlərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, başqa bankın satın alınması barədə qərarlar qəbul etmək;
12. nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarlar qəbul etmək, bank səhmlərinin buraxılması müddətlərini və şərtlərini müəyyənləşdirmək, habelə bankda mühüm iştirak payının əldə edilməsinə razılıq vermək;
13. bankın kənar auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş illik maliyyə hesabatlarını təsdiq etmək, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividendlərin ödənilməsi barədə qərar qəbul etmək;
14. bankın satılması, yenidən təşkili və ləğvi barəsində qərarlar qəbul etmək;
15. Bu Qanunla və bankın nizamnaməsi ilə səlahiyyətinə aid edilmiş digər məsələləri həll etmək;

Bank haqqında Qanunun 24.1.2—24.1.7-ci maddələri ilə səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər həll edilmək üçün bankın Müşahidə Şurasına verilə bilər.

Bankın təsis yığıncağı bütün təsisçilər və ya onların nümayəndələri iştirak etdikdə səlahiyyətli sayılır. Səhmdarların sonrakı ümumi yığıncaqları bütün səsvermə hüququ olan səhmlərin azı 60 faizinin sahibi olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır.

Bankın təsis yığıncağında onun yaradılması, nizamnaməsinin qəbul edilməsi və idarəetmə orqanlarının formalaşdırılması barədə qərarlar yekdilliklə qəbul edilir. Nizamnaməyə əlavə və dəyişikliklər edilməsi, Müşahidə Şurası və İdarə Heyəti üzvlərinin təyin və azad edilməsi, bankın satılması, yenidən təşkili, başqa bankın alınması və bankın fəaliyyətinə xitam verilməsi məsələləri

[5]Banklar haqqında Azərbaycan Respublikasının Qanunu, Maddə 24.

üzrə qərarlar yığıncaqda təmsil edilən səhmdarların 75 faiz səs çoxluğu ilə qəbul olunur. Bütün digər qərarlar yığıncaqda iştirak edən səhmdarların sadə səs çoxluğu ilə qəbul olunur.

Səhmdarlar bankın nizamnamə kapitalındakı paylarına mütənasib səs hüququna malikdirlər. Hər bir səhmdar səhmdarların ümumi yığıncağında özünün səs hüququnu həm şəxsən, həm də səlahiyyətli nümayəndəsi vasitəsilə həyata keçirə bilər. Etibarnamə yazılı şəkildərəsmiləşdirilir və yığıncağın protokoluna qoşulur. Etibarnamə yığıncaq başlananadək verilir.

Səhmdarları qanuni əsasda təmsil edən şəxslər üçün ayrıca etibarnamə tələb olunmur. Həmin şəxslər bu cür səlahiyyətlərini təsdiqləyən sənəd təqdim edirlər.

Səhmdarların növbəti və növbədənkənar yığıncaqları keçirilə bilər. Səhmdarların hər bir ümumi yığıncağının keçirilməsi günü, yeri, vaxtı və gündəlik üzrə materiallarla tanış olma qaydası barəsində bildirişlər, habelə həmin yığıncağın gündəliyi yığıncağın keçirilməsi gününə ən azı 45 təqvim günü qalmış səhmdarlara göndərilir və bu barədə kütləvi informasiya vasitələrində məlumat dərc etdirilir. Bildirişlə birlikdə göndərilən gündəliyə daxil edilməmiş məsələlər üzrə qərar qəbul olunmasına yol verilmir. Növbəti yığıncaqlar ildə bir dəfədən az olmayaraq keçirilir. Növbəti yığıncaqlar bankın hər il üçün maliyyə hesabatı tərtib edildikdən və kənar auditor yoxlamasından kecdikdən sonra ən geci iki ay ərzində keçirilir.

Növbədənkənar yığıncaqlar səsvermə hüququ olan səhmlərin azı 5 faizinin sahibləri olan səhmdarların, Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə çağırıla bilər.

Növbədənkənar yığıncaqların çağrılması qaydası Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

Səhmdarların yığıncağında səsvermə hüququna malik olan bütün səhmdarlar təmsil olunmuşdursa, yığıncaq onun çağırılması vaxtından və üsulundan asılı olmayaraq səlahiyyətli sayılır. Səsvermə hüququna malik olan səhmdarların hamısı yekdilliklə razılıq verərsə, bu yığıncaq gündəliyə daxil edilməmiş məsələləri də müzakirə edə və onlara dair qərarlar qəbul edə bilər.

Müşahidə Şurası bankın struktur bölmələrinin, habelə törəmə təsərrüfat cəmiyyətlərinin fəaliyyətinin qanunvericiliyə müvafiq qaydada həyata keçirilməsini təmin etmək məqsədi ilə İdarə Heyətinin işinə nəzarət edir. Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti daha da səmərəli həyata keçirmək üçün Müşahidə Şurası İdarə Heyətindən bankın bütün fəaliyyəti haqqında istənilən hesabatlar və məlumatlar tələb edə bilər. Müşahidə Şurası bankda risklərin idarə edilməsinə nəzarətin tətbiq edilməsi məqsədi ilə İdarə Heyətindən asılı olmayan və müstəqil qərarlar qəbul edə bilən daxili komitələr yaradır. Bu komitələrin əsas funksiyası bankın gündəlik fəaliyyətinin həyata keçirilməsində İdarə Heyətinə köməklik göstərməkdir. Daxili komitələr qərar qəbul etmək səlahiyyətinə malikdir və bu qərarlar barədə İdarə Heyətinə məlumat verir. Daxili komitələrin üzvləri Müşahidə Şurasının dəvəti ilə onun iclaslarında iştirak edir və Müşahidə Şurası qarşısında hesabat verir. Komitələrə verilən səlahiyyətlərdən asılı olmayaraq bankın bütün fəaliyyətinə nəzarətin həyata keçirilməsinə Müşahidə Şurası məsuliyyət daşıyır.

Bankın Müşahidə Şurasının səlahiyyətlərinə aşağıdakılar aiddir[6]:

1. bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən bankın İdarə Heyətindən hesabat almaq;

2. səhmdarların ümumi yığıncağı və İdarə Heyəti üçün tövsiyələr vermək;

3. səhmdarların ümumi yığıncağının hər bir iclasını bildirişlər göndərmək yolu ilə çağırmaq və səhmdarların, habelə Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə və onların gündəliyi üzrə keçirilən növbədənkənar iclaslar istisna olmaqla, hər bir iclasın gündəliyini qəbul etmək;

4. Bank tərəfindən qüvvədə olan qanunvericiliyin pozulması faktını müəyyən etdikdə, bun pozuntu barəsində səhmdarların ümumi yığıncağını, Audit Komitəsini və İdarə Heyətini xəbərdar etmək, Mərkəzi Banka isə bank qanunvericiliyinin *və* "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun *tələblərinin* pozulması faktları barədə bildiriş göndərmək;

[6] Banklar haqqında Azərbaycan Respublikasının Qanunu, Maddə 25.

5. bu Qanuna müvafiq olaraq, İdarə Heyəti üzvlərini vəzifədən kənarlaşdırmaq, səhmdarların ümumi yığıncağında təsdiq edilənədək onları müvəqqəti olaraq bu Qanunun 10-cu maddəsinin tələblərinə cavab verən başqa şəxslərlə əvəz etmək;

6. bank ilə İdarə Heyətinin bir və ya bir neçə üzvü arasında mənafelər toqquşması olduğu hallarda bankı idarə və təmsil etmək;

7. bankın etibarlı və prudensial idarə olunmasını təmin etmək üçün zəruri olan qaydaları və daxili əsasnamələri qəbul etmək, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı daxili nəzarət sistemini hazırlamaq və tətbiq etmək;

8. bankın kapital ehtiyatları yaradılması haqqında qərar qəbul etmək;

9. bankın nizamnamə kapitalının 50 faizindən artıq məbləğdə və bankın nizamnaməsində nəzərdə tutulmuş hallarda bank adından müvafiq əqdlərin bağlanmasına icazə vermək;

10. banka aidiyyəti şəxslər və aidiyyəti şəxs adından hərəkət edən şəxslər ilə əqdlər bağlanmasını təsdiq etmək;

11. bankın fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin yoxlanması barədə qərar qəbul etmək;

12. kənar və daxili auditorların, habelə Mərkəzi Bankın yoxlamalarının nəticələrini nəzərdən keçirmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;

13. bu Qanunla, bankın nizamnaməsi və Mərkəzi Bankın normativ xarakterli aktları ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

Müşahidə Şurası bu Qanunun 25.1.6-cı maddəsində nəzərdə tutulan səlahiyyəti icra etməzdən əvvəl Mərkəzi Banka əsasları göstərməklə yazılı bildiriş göndərir və səhmdarların ümumi yığıncağının növbədənkənar iclasını çağırır. Mərkəzi Bank Müşahidə Şurasının qərarına dair öz münasibətini bildirə bilər.

Müşahidə Şurasının bu Qanunun 25.1.5, 25.1.6 və 25.1.8-ci maddələrinə əsasən qəbul etdiyi qərarlar səhmdarların ümumi yığıncağının növbəti iclasının gündəliyinə daxil edilməli və müzakirə olunmalıdır.

Bankın Müşahidə Şurası 3 nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. Şuranın üzvləri bankın səhmdarlarının ümumi yığıncağı tərəfindən səhmdarlardan və/və ya kənar şəxslərdən 4 ildən çox olmayan müddətə təyin edilən fiziki şəxslərdir. Şuranın üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər. Səhmdarların ümumi yığıncağı Müşahidə Şurasının üzvləri sırasından Müşahidə Şurasının sədrini təyin edir. Müşahidə Şurası üzvlərinin muzdu bankın bölüşdürülməmiş mənfəətinin faizi şəklində və ya əmək haqqı formasında səhmdarların ümumi yığıncağında təyin edilə bilər.

bu Qanunun 10-cu maddəsinin müvafiq tələblərinə uyğun gəlməyən fiziki şəxslər bankın Müşahidə Şurasının üzvü ola bilməz və bank səhmdarlarının ümumi yığıncağının qərarı ilə Müşahidə Şurasının üzvləri vəzifəsindən azad edilməlidirlər.

Müşahidə Şurası onun iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. İclaslarının keçirilməsi qaydası bankın nizamnaməsində və ya Müşahidə Şurası haqqında əsasnamədə müəyyən edilir.

Müşahidə Şurasının iclasları ən azı üç ayda bir dəfə keçirilir. İclasların nəticələrinə dair protokol Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müvafiq qaydada tərtib edilir.

Müşahidə Şurasının qərarları yığıncaqda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda Müşahidə Şurası sədrinin səsi həlledici sayılır.

1. mümkün zərərlərin hesablanması daxil edilməklə qeyri-işlək aktivlər, o cümlədən yüksək risklə təsnifləşdirilmiş aktivlər;

2. kreditlər üzrə öz öhdəliklərini pozmuş borcalanları müvafiq kateqoriyalara daxil etməklə bütün vaxtı keçmiş və faizləri hesablanmayan kreditlər, onların gecikmə müddətləri və səbəbləri;

3. əvvəlki rüb ərzində yüksək risklə təsnifləşdirilmiş bütün aktivlər, belə təsnifləşdirmələrin səbəbləri, hər bir yüksək risklə təsnifləşdirilmiş aktiv üzrə mümkün zərərlər üçün ehtiyatın yaradılmasına ayırmaların məbləği;

4. iri kreditlərin məbləği və sahələr üzrə cəmləşməsi;

5. problemli aktivlərin keyfiyyətinin yaxşılaşdırılması üzrə təkliflər;

6. restrukturizasiya olunmuş kreditlərin təsviri;

7. inzibatçilara və onlarla əlaqədar maraqları olan şəxslərə verilmiş bütün kreditlərin təsviri.

Aktiv və passivləri idarəetmə komitəsi tərəfindən Müşahidə Şurasının növbəti iclasına vəsaitlərin və likvidliyin idarə edilməsi haqqında hesabat təqdim edilir Bu hesabata aşağıdakı məlumatlar daxil edilir:

1. faiz dərəcələrinin dəyişilməsinə həssas olan aktiv və passivlərin cari faiz dərəcəsinin yenidən müəyyənləşdirilməsi zamanı onların arasında mövcud olan fərqlər;

2. faiz dərəcəsi riskinin idarə edilməsi üçün istifadə edilən və ya təklif olunan bütün balansdankənar əməliyyatlar və öhdəliklər, habelə ehtimal olunan xərclər;

3. bankin maliyyə vəsaitlərinə əlavə tələbatı və onların əldə edilməsi üçün planlar, mənbələr və qiymətlər;

4. bankın cari və proqnozlaşdırılan likvidlik əmsalları.

İnformasiya texnologiyaları komitəsi tərəfəindən Müşahidə Şurasının növbəti iclasına idarəetmə informasiya sistemləri və əməliyyatlara dəstək barədə hesabat təqdim edilir. Bu hesabata bütün idarəetmə informasiya sistemləri, avadanlıqlar üçün ehtiyat prosedurları və qiyməti 10 min manatdan artıq olan kompüter avadanlıqlarının, proqram təminatının alınmasına və ya icarəsinə müraciət barədə məlumat daxil edilir.

Audit Komitəsi tərəfindən Müşahidə Şurasının növbəti iclasına qanunvericiliyin tələblərinə riayət edilməsi barədə hesabat təqdim edilir. Bu hesabata aşağıdakı sənədlər və məlumatlar daxil edilir:

1. qanunvericiliyin tələblərinə əməl edilməsi, aşkar olunmuş qanun pozuntuları haqqında məlumat və onların aradan qaldırılması üçün fəaliyyət planı;

2. daxili nəzarətin vəziyyətinin yoxlanması barədə hesabat və onun səmərəliliyinin artırılması barədə tövsiyələr, habelə kənar audit hesabatı və rəhbərliyə verilən təkliflər daxil olmaqla, kənar auditlə əlaqədar bütün yazışmalar;

3. banka, onunla əlaqədar şəxslərə təsir edə biləcək gözlənilən məhkəmə icraatı haqqında məlumat;

4. banka aid ola bilən hər hansı bir qanunvericilik aktı haqqında məlumat.

Müşahidə Şurasının digər inzibatçılarla münasibətdə fidusiar vəzifələri

Müşahidə Şurasının hər bir üzvü aşağıdakılara əməl etməlidir:

1. bankın maliyyə vəziyyətindən, habelə onun bütün mühüm əməliyyatlarından, işin xüsusiyyətlərindən və miqyasından daimi xəbərdar olmalı, İdarə Heyəti və digər inzibatçılar tərəfindən təqdim olunmuş hesabatları mütəmadi olaraq müstəqil şəkildə təhlil etməlidir;

2. öz vəzifələrini lazımi qaydada icra etməsi üçün zəruri olan vaxt və səylərini həsr etməli, bank və maliyyə sektorunda baş verən hadisələr və mövcud olan meyllər haqqında hər zaman mümkün qədər məlumata malik olmalı, bank sektorunda mövcud olan inkişafdan geridə qalmamaq məqsədi ilə lazım olan tədbirlərin həyata keçirilməsinə səy göstərməlidir;

3. bankın daxili və kənar audit hesabatları, bankla kənar auditorlar arasında bütün rəsmi yazışmalarla tanış olmalıdır.

Müşahidə Şurasının hər bir üzvü öz təhlilində və səsvermədə məntiqli, ehtiyatlı və konservativ olmalıdır. O, bankın mənafeyinə uyğun olmayan və ya uzun müddətli risklər hesabına, qısa müddətli gəlir əldə etmək perspektivinə yol verməməlidir.

Müşahidə Şurasının hər bir üzvünün işlərin müstəqil şəkildə idarə olunmasına dair aşağıdakı fidusiar vəzifələri yerinə yetirməlidir:

1. bankın mənafelərini qorumaq məqsədi ilə yalnız öz şəxsi mühakiməsinə və daxili inamına əsaslanaraq qərar qəbul etməli və səs verməlidir;

2. səsvermə və ya qərar qəbul etmə zamanı hər hansı bir səhmdarın və ya səhmdarlar qrupunun maraqlarına üstünlük verməməli və ya onların göstərişləri ilə hərəkət etməməlidir.

Müşahidə Şurasının hər bir üzvü işləri vicdanla, qərəzsiz və məxfiliyin qorunmasını gözləməklə aşağıdakı fidusiar vəzifələri yerinə yetirməlidir:

1. banka qarşı ədalətli olmalı və hər bir imkandan istifadə edərək bankın maraqlarını qorumalıdır. O, bankı, Şuranın digər üzvlərini və bankın digər inzibatçılarını içtimaiyyət qarşısında tənqid etməməlidir;

2. vəzifə borcunu yerinə yetirərkən ona məlum olan biznes imkanlarını əvvəlcədən Şuraya açıqlamadan və bu imkanları öz bankına təklif etmədən özünün və ya digər əlaqədar şəxslərinin mənafeyi üçün istifadə etməməlidir;

3. vəzifə borcunu yerinə yetirərkən ona məlum olan bank, onunla əlaqədar şəxslər, müştərilər və bankla biznes əlaqəsi olan başqa şəxslər haqqında hər hansı bir məxfi məlumatı, qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, heç bir şəxsə açıqlamamalıdır.

Müşahidə Şurasının hər bir üzvünün İdarə Heyəti ilə münasibətlərindən irəli gələn aşağıdakı fidusiar vəzifələri yerinə yetirməlidir:

1. ildə ən azı bir dəfə İdarə Heyəti üzvlərinin peşəkarlığını, onların bankın mənfəətlə işləməsinə və maliyyə vəziyyətinin sabit olmasına, strateji məqsədlərə vaxtında nail olunmasında xidmətləri, habelə tutduqları vəzifəyə uyğunluğunu qiymətləndirməlidir.

Müşahidə Şurasının hər bir üzvü Audit Komitəsi və daxili auditorlar ilə münasibətlərindən irəli gələn aşağıdakı fidusiar vəzifələri yerinə yetirməlidir:

1. bankda daxili nəzarət, maliyyə fəaliyyətinin nəticələri və bankın Strateji Plana (Biznes Plana) əməl etməsi ilə bağlı problemləri müzakirə etməli və onları aradan qaldırmaq üçün Audit Komitəsi ilə mütəmadi olaraq görüşlər keçirməlidir;

2. Audit Komitəsinin və ya onun hər hansı bir üzvünün işinə heç bir şəkildə müdaxilə etməməli və onların İdarə Heyətindən, digər inzibatçılardan və səhmdarlardan müstəqil olmasını təmin etməlidir;

3. daxili auditorların fəaliyyətinə müdaxilə etməməli, yalnız Audit Komitəsinə daxili audit planının əsas istiqamətlərini müəyyən edən tövsiyələr verməli və daxili audit bölməsinin Audit Komitəsinə tabe olmasını təmin etməlidir;

4. daxili auditorlara bank və bankla əlaqədar şəxslər haqqında bütün zəruri olan məlumatların verilməsini və sənədlərin nəzərdən keçirilməsini, habelə onların zəruri əməkdaşlarla görüşməsini təmin etməlidir.

Bankın İdarə Heyəti bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi üçün məsuliyyət daşıyır. İdarə Heyəti 3 nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. İdarə Heyətinin üzvləri bank səhmdarlarının ümumi yığıncağı tərəfindən 4 ildən çox olmayan müddətə təyin edilirlər. Onlar növbəti müddətlərə yenidən seçilə bilərlər. Səhmdarların ümumi yığıncağı İdarə Heyətinin üzvlərindən birini İdarə Heyətinin sədri təyin edir. İdarə Heyəti sədrinin səlahiyyətləri İdarə Heyətinin əsasnaməsində müəyyən edilir.

Bu Qanunun 10-cu maddəsinin müvafiq tələblərinə uyğun gəlməyən fiziki şəxslər bankın İdarə Heyətinin üzvü ola bilməz və səhmdarların ümumi yığıncağının qərarı ilə İdarə heyətinin üzvləri vəzifəsindən azad edilməlidirlər.

İdarə Heyəti onun iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin qərarları yığıncaqda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda İdarə Heyətinin sədrinin səsi həlledici sayılır.

İdarə Heyətinin iclasları ən azı ayda bir dəfə keçirilir. O, fəaliyyəti ilə əlaqədar Müşahidə Şurasına hesabat verir. İdarə Heyəti bankın idarə olunması və fəaliyyətinin, o cümlədən Strateji Planın (Biznes Planın) həyata keçirilməsi üçün məsuliyyət daşıyır. İdarə Heyəti bankın maliyyə nəzarəti sisteminin maliyyə idarəetməsi və hesabatlıq tələblərinə uyğun olmasını, büdcənin yerinə yetirilməsini təmin etməli və bankın qarşılaşdığı və proqnozlaşdırdığı risklərin idarə edilməsi üçün lazım olan prosedurları tətbiq etməlidir. Bu məqsədlə İdarə Heyəti ona həvalə olunmuş hüquqlar çərçivəsində funksiya və məsuliyyətin bölüşdürülməsini, idarəetmə hesabatlıq sisteminin təşkilini və bankın səmərəli idarə edilməsini təmin edən təşkilati strukturu tətbiq etməli və fəaliyyətini dəstəkləməlidir.

Hər bir bankda müstəqil Audit Komitəsi və daxili audit bölməsi (departament, şöbə və s.) fəaliyyət göstərir. Daxili audit bölməsinin əməkdaşı İdarə Heyətinin üzvü ola bilməz.

Bankın Audit Komitəsi üç nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. Komitənin üzvləri Səhmdarların Ümumi Yığıncağı tərəfindən 4 ildən çox olmayan müddətə təyin edilir. Komitənin üzvləri növbəti müddətə yenidən seçilə bilər. Səhmdarların Ümumi Yığıncağı Komitənin üzvlərindən birini Komitənin sədri təyin edir. Audit Komitəsinin üzvlərinin əmək haqqı formasında muzdu Səhmdarların Ümumi Yığıncağı tərəfindən təyin edilir.

Bank haqqında Qanunun 10-cu maddəsinin müvafiq tələblərinə uyğun gəlməyən fiziki şəxslər bankın Audit Komitəsinin üzvü ola bilməz və Səhmdarların Ümumi Yığıncağının qərarı ilə Audit Komitəsinin üzvləri vəzifəsindən azad edilməlidirlər.

Audit Komitəsi onun iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.

İclasların keçirilməsi qaydası Audit Komitəsi haqqında təsdiq edilmiş əsasnamədə müəyyən edilir. Audit Komitəsinin qərarları yığıncaqda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir, üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda Audit Komitəsi sədrinin səsi həlledici sayılır.

Daxili audit bölməsi (departament, şöbə və s.) Audit Komitəsinin nəzarəti altında fəaliyyət göstərir və bankın icra orqanı ilə qarşılıqlı surətdə bankda daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin fəaliyyətinin səmərəliliyinə fasiləsiz nəzarəti həyata keçirir;

Daxili audit bölməsinin rəhbəri və əməkdaşları Audit Komitəsinin təqdimatı ilə bankın Müşahidə Şurası tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunur. Bankda Audit Komitəsinin və daxili audit bölməsinin fəaliyyətinin standartlarını və qaydalarını Mərkəzi Bank müəyyən edir.

Audit Komitəsinin iclasları ən azı üç ayda bir dəfə keçirilir. Audit Komitəsi daxili audit bölməsinin fəaliyyətini təşkil və onun fəaliyyətinə nəzarət edir. Daxili audit bankın bütün fəaliyyət sahələrini əhatə edir. Audit Komitəsi qanunla müəyyən edilmiş səlahiyyətlərdən başqa aşağıdakı vəzifələri yerinə yetirir:

1. daxili audit bölməsinin əsasnaməsini təsdiq edir;
2. bankın inzibati, əməliyyat, uçot siyasəti və prosedurları üçün müvafiq daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi barədə təkliflər verir;
3. əməliyyatlarla bağlı vəzifələrin və məsuliyyətin bölüşdürülməsinin və əməliyyatlar üzrə ikili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi barədə təkliflər verir;
4. daxili audit bölməsinin büdcəsi, daxili auditorların vəzifədə irəliləyişi, işdən kənarlaşdırması və ya azad olunması, habelə mükafatlandırılması barədə bankın Müşahidə Şurasına təkliflər verir;
5. bankdaxili nəzarətin vəziyyətinin bankın reqlamentinə və fəaliyyətinin Strateji Plana (Biznes Plana) uyğunluğunun yoxlanılmasına dair audit hesabatlarını, habelə auditin müstəqilliyini və onun nəticəsinin əsaslandırılmasını qiymətləndirir və təsdiq edir;
6. daxili audit yoxlamasının nəticələrini, rəy, təklif və tövsiyələrini Müşahidə Şurasına təqdim edir və birgə təhlil edir. Aşkar edilmiş səhvlərin, nöqsanların, uyğunsuzluqların və pozuntuların aradan qaldırılması barədə Müşahidə Şurasına təkliflər verir;
7. kənar auditin gedişi zamanı bankın fəaliyyətinə dair mühüm fakt və məlumatların kənar auditora təqdim edilməsini təmin edir;
8. kənar auditordan audit zamanı aşkar olunan mühüm faktlar və hadisələr haqqında məlumatın dərhal ona verməsini tələb edir;
9. bankın daxili nəzarətinə və maliyyə vəziyyətinə dair mühüm məlumatları əks etdirən kənar auditorun hesabatının İdarə Heyətinə təqdim edilməsini təmin edir;
10. kənar auditor, İdarə Heyəti və digər inzibatçılarla birlikdə hesabatı müzakirə və təhlil edir, çatışmazlıqların və pozuntuların aradan qaldırılması üçün tədbirlər planlarının hazırlanması üzrə təkliflər verir;
11. zərurət yarandıqda mühüm məsələlərin müzakirə edilməsi məqsədi ilə Mərkəzi Bankın, bankın digər idarəetmə orqanlarının və kənar auditorun iştirakı ilə görüşlərin keçirilməsini təşkil edir.

Daxili komitələr

Müşahidə Şurasının vəzifəsinə bankın fəaliyyətindəki risk sahələrinin müəyyənləşdirilməsi və onların düzgün idarə edilməsinə nəzarət, İdarə Heyətinin vəzifəsinə isə risklərin idarə edilməsi prosedurlarının hazırlanması və tətbiqi daxildir.

Müşahidə Şurası İdarə Heyəti ilə məsləhətləşmələrdən sonra bankda risklərin idarə edilməsi prosesini səmərəli həyata keçirmək məqsədi ilə müvafiq daxili komitələr yaradır və onun üzvlərini təyin edir. Komitələrin tərkibi, funksiya və səlahiyyətləri, habelə fəaliyyət qaydaları onların əsasnamələri ilə müəyyən edilir.

Bank fəaliyyətində mövcud olan risklərin idarə edilməsi məqsədilə bankda kredit risklərinin səmərəli idarə edilməsi ilə bağlı Kredit komitəsi, likvidlik və bazar risklərin idarə edilməsi ilə bağlı Aktiv və passivləri idarəetmə komitəsi yaradılmalıdır. Bankın informasiya texnologiyaları sistemlərinin səmərəli və təhlükəsiz işini təmin etmək, habelə bankın qarşılaşdığı digər risklərin tənzimlənməsi məqsədilə müvafiq olaraq İnformasiya texnologiyaları komitəsi və digər komitələr yaradıla bilər. Komitə sədrlərrinin və üzvlərinin təyin edilməsi Müşahidə Şurasının səlahiyyətindədir.

Riskləri idarəetmə komitəsi

Risklərin idarə edilməsi üzrə müstəqil qərarlar qəbul edə bilən Riskləri idarəetmə komitəsi bankın İdarə Heyətinin ən azı bir üzvünün, eləcə də bankın struktur bölmələrinin rəhbər işçilərinin işçtirakı ilə tək sayda üzvlərdən ibarət olmaqla yaradılmalıdır. Riskləri idarəetmə komitəsinin səlahiyyətləri Mərkəzi Bankın müvafiq normativ xarakterli aktları ilə tənzimlənir.

Kredit komitəsi

Kredit komitəsi bankın İdarə Heyəti üzvlərindən və struktur bölməsinin rəhbərlərindən təşkil olunur. Komitəyə İdarə Heyətinin üzvü rəhbərlik edir. Bankın Baş Maliyyə İnzibatçısı və mühasibat xidmətinin vəzifəli şəxslərindən biri komitənin üzvü olmalıdır.

Kredit komitəsinin başlıca vəzifələri aşagıdakılardan ibarətdir:

1. Müşahidə Şurasının müəyyən etdiyi limitlərdən artıq kreditlərin verilməsi və kredit öhdəliklərinin götürülməsi, habelə onların şərtlərinin dəyişdirilməsi və restrukturizasiyasını təsdiq etmək;
2. kreditlərin cəmləşmələrinə nəzarət etmək;
3. müxtəlif fəaliyyət növlərinin və sahələrin kreditləşməsi üçün qaydaların hazırlanması və tətbiq edilməsini təmin etmək;
4. kreditlərin və kredit öhdəliklərinin faiz dərəcələrini müəyyən etmək;
5. vaxtaşırı kredit portfelinin qəflətən monitorinqini həyata keçirmək;
6. girovların müntəzəm olaraq yenidən qiymətləndirilməsini təmin etmək;
7. kreditlərin verilməsi üzrə səlahiyyətlərə və prosedurlara riayət edilməsini təmin etmək;
8. kreditlərin qaytarılması üçün görülən bütün tədbirlərin icrasına rəhbərlik etmək;
9. kreditlər üzrə mümkün zərərlər üçün yaradılmış ehtiyatların yetərliyini (adekvatlığın) yoxlamaq və təhlil etmək;
10. ayda bir dəfədən az olmamaq şərti ilə kreditlərin alınması üçün ərizələri nəzərdən keçirmək;
11. ən azı ayda bir dəfə kredit portfelinə aid riskləri təhlil etmək;
12. Mərkəzi Bankın qaydalarına uyğun şəkildə bütün kreditlərin təsdiqi, təsnifatı, ehtiyatların yaradılması, vaxtında və tam həcmdə ödənilməsi üçün struktur bölmələri tərəfindən hazırlanmış qayda və prosedurlara baxmaq və təsdiq olunması üçün Müşahidə Şurasına təqdim etmək.

Aktiv və passivləri idarəetmə komitəsi

Aktiv və passivləri idarəetmə komitəsi likvidliyinin və bütövlüklə aktiv və passivlərin idarə edilməsi üçün məsuliyyət daşıyan bankın İdarə Heyəti üzvlərindən və struktur bölmələrin rəhbərlərindən təşkil olunur. Komitəyə bu sahədə təcrübəsi olan İdarə Heyətinin üzvü rəhbərlik edir.

Aktiv və passivləri idarəetmə komitəsinin başlıca vəzifələri aşagıdakılardan ibarətdir:

1. Müşahidə Şurası tərəfindən təsdiq edilmiş qaydalara əsasən likvidlik və bazar risklərinin, habelə maliyyə vəsaitlərinin idarə edilməsi istiqamətlərini və hədəflərini müəyyən etmək;

2. onun səlahiyyətlətinə aid edilmiş risklərin idarə edilməsi ilə əlaqədar istiqamət və hədəflərlə bağlı qanunveriçiliyə riayət edilməsini təmin etmək.

İnformasiya texnologiyaları komitəsi

İnformasiya texnologiyaları komitəsi İdarə Heyəti üzvlərindən və müvafiq struktur bölmələrin rəhbərlərindən təşkil olunur. Komitəyə informasiya texnologiya sistemlərinin idarəedilməsi təcrübəsinə malik olan İdarə Heyətinin üzvü rəhbərlik edir.

İnformasiya texnologoyaları komitəsinin başlıca vəzifələri aşagıdakılardan ibarətdir:

1. bankın idarəetmə informasiya və digər avtomatlaşdırılmış sistemlərinin mükəmməl və fasiləsiz işini təmin etmək və monitorinqini aparmaq;
2. mühasibat uçotu və menecment informasiya sisteminin məlumatları üzrə adekvat ehtiyat nüsxələrinin (ehtiyat nümunələrinin) yaradılması üçün "Gözlənilməz hallar üzrə tədbirlər planının" işlənib hazırlanmasını təmin etmək;
3. informasiya texnologiyaları üzrə prosedurların hazırlanmasını təmin etmək.

İnformasiya texnologiyaları üzrə prosedurlar aşagıdakı sahələri əhatə edir:

1. informasiya texnologiyalarının tətbiqi;
2. informasiya təhlükəsizliyinin idarə edilməsi;
3. məlumatlara daxil olma hüququ;
4. informasiya texnologiyaları vasitələrinin fiziki təhlükəsizliyi;
5. tətbiq etmə üzrə nəzarət mexanizmləri;
6. fövqəladə hallar və ehtiyat mərkəzi.

İnformasiya texnologiyaları komitəsinin sədri informasiya texnologiyalarının səmərəli fəaliyyəti üçün məsulliyyət daşıyır. İnformasiya texnologiyaları üzrə struktur bölmənin rəhbəri İnformasiya texnologiyaları komitəsinin rəhbərinə hesabat verir.

İnformasiya texnologiyaları üzrə bütün mühüm məsələlərə İnformasiya texnologiyaları komitəsi tərəfindən müsbət rəy verildikdə və həmin məsələlərə İdarə Heyətinin razılığı olduqda Müşahidə Şurası bu məsələlər üzrə müvafiq qərar qəbul edir.

İnformasiya texnologiyaları komitəsinin sədri Müşahidə Şurasına əvvəlcədən müvafiq məlumat vermədən heç bir kənar şəxsi bankın informasiya texnologiyaları sistemlərinə xidmət göstərməyə cəlb edə bilməz.

Maliyyə idarəetməsi və hesabatlıq

Bankın maliyyə idarəetməsi və hesabatlığı aşağıdakı tərkib hissələrdən ibarətdir:

1. uçotun idarə edilməsi prosedurları;
2. rəhbərliyə məlumat;
3. maliyyə nəzarəti.

Maliyyə idarə etməsi və hesabatlığı üzrə vəzifələr aşağıdakı kimi bölüşdürülür:

1. Müşahidə Şurası bankın maliyyə idarəetməsinin və hesabatlığının üsullarını və qaydalarını müəyyən edir, onların lazımi qaydada və vaxtında yerinə yetirilməsinə nəzarət edir;
2. illik maliyyə hesabatları Səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiq edilir. Müşahidə Şurası illik maliyyə hesabatlarının əsas istifadəçilərə vaxtında çatdırılmasını, Audit Komitəsi isə onların mötəbərliyini və aydınlığını təmin edir;
3. İdarə Heyəti Müşahidə Şurası tərəfindən təsdiq edilmiş büdcə və maliyyə planlaşdırılması sistemini yaradır və proqnozlaşdırılan mənfəətliyin vaxtaşırı təhlilini aparır;
4. Baş Maliyyə Inzibatçısı bankın mühasibat, hesabatlıq və maliyyə nəzarəti funksiyalarının lazımi qaydada təşkil edilməsini və onlara əməl edilməsini təmin edir;
5. Baş Maliyyə İnzibatçısı mühasibat prosedurlarının idarə edilməsini və bütün maliyyə və vergi hesabatlarının vaxtında hazırlanmasını və təqdim edilməsini təmin edir;
6. struktur bölmələrin rəhbərləri Müşahidə Şurası tərəfindən təsdiq edilmiş daxili qaydalara uyğun olaraq maliyyə nəzarətini həyata keçirmək üçün məlumatın hazırlanmasını və təqdim edilməsini təmin edir.

Bankın bütün struktur bölmələri və mühasibat xidmətinin əməkdaşları məhsul və xidmətlər haqqında cari məlumat bazasını yaradır. Müşahidə Şurası, İdarə Heyəti və ya bankın hər bir

inzibatçısı bu məlumat bazasında saxlanan məlumatlarla istənilən zaman tanış olmaq hüququna və imkanına malik olmalıdırlar.

Filial və şöbələrin əməliyyatları bankın mühasibat kitablarında real vaxt rejimində və mərkəzləşdirilmiş qaydada əks etdirildikdə həmin filial və şöbəyə baş mühasibin təyin olunması məcburi deyildir.

Büdcənin hazırlanması

Büdcə növbəti təqvim ili üçün il başlanmazdan əvvəl tərtib olunur. Büdcənin hazırlanması ilin əvvəlinə bir ay qalmış başa çatdırılır.

Büdcə Baş Maliyyə İnzibatçısının rəhbərliyi altında hazırlanır, İdarə Heyəti ilə razılaşdırılır və bankın səlahiyyətli idarəetmə orqanı tərəfindən təsdiq edilir.

Büdcənin icrasına məsul olan şəxslər və müddətlər müəyyən edilir.

5.6. BANK FƏALİYYƏTİNDƏ (AYRI-AYRI FƏRDİ ƏMƏLİYYAT SƏVİYYƏSİNDƏ) RİSKLƏRİN NÖVLƏRİ VƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİSTEMİ

Risklərin idarə edilməsi funksiyasını həyata keçirən təşkilati struktur ümumi bank səviyyəsində (Bazar riski: faiz dərəcəsi riski, valyuta riski, kapital riski əmtəə riski)gözlənilməz hadisələrin bankın kapitalına mənfi təsir göstərə bilməsi və bankın biznes məqsədlərini həyata keçirmək imkanlarının məhdudlaşdırmasının qarşını almaqla bərabər, həmçinin bankın daxilindən qaynaqlanan, yəni ayrı-ayrı fərdi əməliyyat səviyyəsində(Kredit riski, Əməliyyat riski, Nüfuz riski, Strateji risk, Likvidlik riski) ortaya çıxan riskləri minimizə etmək məcburiyyətindədir.

Kredit riski, aktivin dəyərini itirməsinə və yaxud dəyərsiz hala düşməsinə səbəb olan, borcalanın maliyyə vəziyyətinin pisləşməsi kimi hadisəsindən (balansdankənar hadisələr daxil olmaqla) yaranan zərər ehtimalıdır. Kredit risklərinin idarə edilməsində məqsəd, belə kredit hadisələrini aradan qaldırmaq, kredit riski təhlükəsini məqbul olan parametrlər daxilində saxlamaq, bank aktivlərinin sağlamlığını qorumaq və onlardan əldə olunacaq gəlirlərin itkilərin örtəcəyini təmin etməkdən ibarətdir. Banklar, bütün kredit portfelinin riskini, eləcə də ayrı-ayrı kreditlərdə və ya əməliyyatlarda mövcud olan riskləri idarə etməlidir.

Risklərin İdarə Edilməsi Departamenti kredit risklərinin idarə edilməsində aşağıdakı funksiyaları yerinə yetirməlidir:

1. Əks tərəfin kredit sazişinin şərtlərinə riayət etməsinə nəzarət etmək;
2. Mütəmadi olaraq müştərinin fəaliyyətindəki dəyişiklikləri qiymətləndirmək üçün onunla görüşlər təşkil etmək;
3. Davamlı olaraq kreditin yalnız kredit sazişində göstərilən məqsədlər üçün istifadə olunmasını yoxlamaq;
4. Mövcud olan bütün məlumatlar (kütləvi informasiya vasitələrinin nəşrləri daxil olmaqla) vasitəsilə müştərinin, eləcə də onun zəmanətçilərinin maliyyə vəziyyətinə nəzarət etmək;
5. Lazım gəldikdə vaxtı ötmüş kreditlərlə əlaqədar müvafiq prosedurlardan istifadə etmək.

Kredit risklərini müəyyən etmək üçün aşağıdakı ölçülər hesablana bilər:

- Qabaqcadan ödənilmə riski: bu risk müştərinin və ya əks tərəfin krediti ödəyə bilməməsi nəticəsində yaranan zərər riskidir. Bu zaman zərərin ölçüsü qüvvədə olan bazar dərəcələrindən asılı olur. Qabaqcadan ödənilmə riski, kredit ekvivalentliyi prinsipinə görə ölçülməlidir və riskin vəziyyətinin cari bərpa dəyərinin bazardakı dəyişikliklərin nəticəsi kimi müəssisənin gələcək potensial risk təhlükəsinin bəzi çoxsaylı təxminlərinin cəmini əks etdirməlidir.
- Cari təhlükə: bu əks tərəfin bu gün krediti ödəyə bilmədiyi və vəziyyətin cari bazar şəraitində yenidənqiymətləndirilməsinə ekvivalent olduqda yaranan zərər növüdür.
- Potensial risk təhlükəsi: əks tərəf gələcəkdə müəyyən olunmuş müddət ərzində krediti ödəyə bilmədikdə nəyin itiriləcəyini əks etdirən əməliyyatın, gələcək cari bərpa dəyərinin qiymətləndirilməsidir. Mükəmməl təcrübəyə əsasən, bu dəyər simulyasiya vasitəsilə əldə olunmalıdır və bazarın dəyişkənliyi, portfelin təsiri, əvəzləşdirmə müqavilələri, girov və digər kredit vasitələrini

(zəmanətlər, akkreditivlər və s.) nəzərə almaqla, Riskə məruz Dəyərə görə bazar riski simulyasiyasına analoji olmalıdır. Nisbətən mürəkkəbləşdirilmiş alternativ təcrübəyə görə, potensial risk təhlükəsini hesablamaq üçün qiymətləndirmələrdən etibarlı istifadə oluna bilər.

• Gözlənilən zərər, mövcud məlumata əsasən bankın üzləşəcəyi ehtimal edilən zərərlərin səviyyəsini əks etdirir.Bu, gələcək potensial təhlükənin əks tərəfin krediti ödəyə bilməməsi ehtimalı və nəzərə alınmış yığılma dərəcələri ilə riyazi ehtimaldır. Gəlirlərə tətbiq edilən kredit riski dəyəri kimi istifadə edilən gözlənilən kredit itkisi ölçüləri, bankı uzun müddətli istifadə olunan kredit zərərlərindən qorumaq üçün bir vasitədir.

• Gözlənilməyən zərər, faktiki zərərin gözlənilən zərərdən yuxarı və ya aşağı olacağı ehtimalını əks etdirir. Gözlənilməyən zərərin səviyyəsi, müəyyən edilmiş etibarlılıq səviyyəsi çərçivəsində ən pis kredit zərərini ölçməklə qiymətləndirilir. Müəyyən edilmiş etibarlılıq səviyyəsi çərçivəsində gözlənilməyən zərərləri hasil etmək üçün kifayət risk kapitalının bölüşdürülməsi ilə gözlənilməyən zərər ölçüləri, bankı gözlənilən kredit zərərindən xeyli yüksək olan qısamüddətli zərərlərdən qoruyan vasitədir.

• Hesablaşma riski: əks tərəfdən gözlənilən ödənilməmiş məbləğlərdir ki, burada dəyər artıq bank tərəfindən əks tərəfə göndərilmişdir. Məsələn, hesablaşma riski xarici valyuta əməliyyatları ilə və ya qiymətli kağızların sərbəst təchiz edilməsi zamanı (ödəniş qəbul edilməzdən əvvəlki təchizat) yarana bilər. Spot xarici valyuta əməliyyatları baş verdiyi halda, bu riskin saat qurşağındakı fərqlər, valyutanın ödənilməsi və onun benefisiarının hesabına göndərilməsi zamanı yaranan vaxt fərqlərinə görə meydana çıxması ehtimal edilir.

Likvidlik riski, bankın aktivlərində olan artımı maliyyələşdirə bilməməsi və öz öhdəliklərini vaxtlı-vaxtında yerinə yetirə bilməməsi riskidir.Banklara təsir göstərə biləcək üç növ likvidlik riski vardır:

1. Qısamüddətli nağd vəsaitlərə olan tələbləri yerinə yetirmək üçün kifayət qədər pul və qiymətli kağızları saxlaya bilməməsi;
2. Əlavə maliyyələşdirmənin əldə edə bilməməsi;
3. Bazar mövqeyini bağlaya və ya ləğv edə bilməməsi.

Gələcək maliyyələşdirmə tələblərini müəyyənləşdirmək məqsədi ilə Risklərin İdarə Edilməsi Departamenti hər bir valyuta üzrə proqnozlaşdırılan nağd vəsaitlərin axınını qiymətləndirməli və nəzarət altında saxlamalıdır. Bazar və ya bazar likvidliyinin itirilməsindən yaranan likvidlik ehtiyaclarını ödəmək üçün yaradılan alternativ strategiyalar bankın gözlənilməyən hallar üzrə likvidliyin planlaşdırılması prosesinə daxil edilməlidir.

Bankın fəaliyyət göstərdiyi bazarlardakı likvidlik riskləri müntəzəm olaraq qiymətləndirilməlidir. Müvafiq hallarda, bazar likvidliyi riski, bazar mövqeyinin bağlanması üçün təxmin olunan vaxtı əks etdirməklə Riskə məruz Dəyər modelinə daxil edilməlidir.

Likvidlik Boşluğu riski (müxtəlif zaman "dilimləri" və valyuta növləri üzrə proqnozlaşdırılan nağd vəsaitlərin mədaxili ilə məxarici arasındakı fərq), gələcəkdə likvidlik boşluğunun yarandığı vaxtlardakı nağd vəsait axınının diskont edilmiş dəyərinə nəzarət etməklə və müvafiq faiz dərəcələrindəki dəyişiklikləri nəzərə almaqla ayrıca nəzərə alınmalıdır.

Bank tərəfindən onun fəaliyyətinin müxtəlif sahələrinin idarə edilməsi və nəzarəti üzrə ən azı aşağıdakıları əhatə edən likvidliyin idarə olunması prosesi formalaşdırılmalıdır:

Aktivlərin idarə olunması üzrə:

1. müxbir hesablardakı qalıqların monitorinqi;
2. kreditləşmə həcminin monitorinqi;
3. kredit portfelinin keyfiyyətinin monitorinqi;
4. kreditlər üzrə faiz dərəcəsinin monitorinqi;
5. bankın qiymətli kağızlar portfelinin monitorinqi;
6. repo əməliyyatları üzrə alınmış qiymətli kağızların monitorinqi;
7. təminat qismində istifadə oluna bilən aktivlərin monitorinqi;
8. likvidliyin adekvat səviyyədə saxlanması məqsədilə satıla bilən əsas və digər qeyri-likvid vəsaitlərin monitorinqi.

Öhdəliklərin idarə olunması üzrə:

1. son illərin tendensiyaları, mövsümi amillər, faiz dərəcəsinin dəyişdirilməsinə həssaslıq və digər makroiqtisadi amillər nəzərə alınmaqla, bank tərəfindən cəlb edilmiş vəsaitlərin həcminin monitorinqi;
2. depozitlərin həcminin monitorinqi (o cümlədən, bankların və digər hüquqi şəxslərin depozitləri, "overnayt" əməliyyatları);
3. depozit və digər öhdəliklər üzrə ödəmə müddətlərinin monitorinqi;
4. bankın əsas öhdəliklərinin kreditorları üzrə daimi monitorinqin aparılması və onlarla əlaqələrin dəstəklənməsi;
5. öhdəliyin növü, öhdəlik üzrə kreditor və onun yerləşdiyi ərazi nəzərə alınaraq öhdəliyin mənbələri üzrə cəmləşmənin monitorinqi;
6. balansarxası öhdəliklərin monitorinqi.

Əməliyyat riski, qeyri-adekvat və ya uğursuzluqla nəticələnmiş daxili proseslərdən, insanlardan və ya sistemlərdən, yaxud kənar hadisələrin baş verməsindən yaranan zərər riskidir. Əməliyyat riskinin aşağıdakı kateqoriyaları mövcuddur:

1. insan resursu riski – bankın əməkdaşları tərəfindən bank fəaliyyəti ilə bağlı normativ hüquqi sənədlərdə müəyyən edilmiş tələblərin, habelə bankdaxili qaydaların pozulması ilə əlaqədar xərclərin (zərərin) yaranması riskidir;
2. sistem riski – bankda mövcud sistem və ya texnologiyalarda hər hansı təqsir olmadan baş verən problemlərlə əlaqədar xərclərin (zərərin) yaranması riskidir. Hər hansı bir niyyətlə sistem və ya texnologiyalarda baş verən itkilər insan resursu riski və ya kənar risk kimi təsnifləşdirilməlidir.
3. proses riski - qayda və prosedurlarda olan boşluqlar və ya müxtəlif əməliyyat və fəaliyyət növlərini əhatə edən qaydaların olmaması ilə əlaqədar yaranan riskdir.
4. kənar risklər - üçüncü tərəf və ya təbiətin vurduğu ziyan nəticəsində xərclərin (zərərin) yaranması riskidir.

Bundan başqa, bank fəaliyyətində Nüfuz riski və Strateji risk kimi risklərin idarə edilməsi də vacibdir. Nüfuz riski – banka qarşı etimadın azalması və mənfi ictimai rəy nəticəsində xərclərin (zərərin) yaranması riskidir.

Strateji risk isə strateji hədəflərin düzgün seçilməməsi nəticəsində bankın üzləşdiyi riskdir.

Beləliklə, hər bir bankda onun əməliyyatlarının növünə, həcminə, fəaliyyətinin xüsusiyyətlərinə və mühitinə, mürəkkəbliyinə və üzləşdiyi risklərə adekvat risklərin idarə edilməsi sistemi yaradılmalıdır.

Risklərin idarə edilməsi sistemi qurularkən aşağıdakılar nəzərə alınmalıdır:

1. bankın missiyası, strateji və taktiki hədəfləri;
2. bankın əməliyyat və fəaliyyət növləri;
3. bankın menecment və əməliyyat prosesləri;
4. bankdaxili təşkilati struktur;
5. daxili, xarici və tənzimləyici mühit;
6. risklərarası əlaqə və onların biri-birinə təsiri;
7. böhran vəziyyətlərində bankın dəstəklənməsi tədbirləri.

Risklərin idarə edilməsi sistemi mütəmadi olaraq bankın daxili audit bölməsi tərəfindən qiymətləndirilməli və nəticələr barədə bankın Audit Komitəsinə hesabat verilməlidir.

Bank fəaliyyətində mövcud olan risklərin idarə edilməsi məqsədilə bankda kredit riskinin səmərəli idarə edilməsi ilə bağlı Kredit komitəsi, likvidlik və bazar risklərinin idarə edilməsi bağlı Aktiv və passivləri idarəetmə komitəsi yaradılır.

Zəruri hallarda bankın informasiya texnologiyaları sistemlərinin səmərəli və təhlükəsiz işini təmin etmək, habelə bankın qarşılaşdığı digər risklərin idarə olunması məqsədi ilə İnformasiya texnologiyaları komitəsi və digər komitələr yaradıla bilər. Bankdaxili komitərlərin səlahiyətləri Azərbaycan Respublikasının Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) normativ xarakterli aktları, korporativ idarəetmə standartları və bankın daxili sənədləri ilə tənzimlənir.

Banklarda risklərin idarə edilməsi funksiyasını həyata keçirən təşkilati struktur yaradılarkən aşağıdakılar təmin edilməlidir:

1. təşkilati strukturun bütün səviyyələri arasında effektiv əlaqə və informasiya axını;
2. maraqlar münaqişəsinin yaranmaması;
3. məsuliyyət və səlahiyyətlərin dəqiq müəyyənləşdirilməsi;
4. müstəqil və şəffaf qərar qəbul etmə prosesini;
5. bankın məruz qala biləcəyi risklər barədə daimi olaraq bank rəhbərliyi və struktur bölmələrinin məlumatlandırılması;
6. Bankdaxili risk mədəniyyətinin formalaşdırılması.

Risklərin idarə edilməsi strukturu aşağıdakılardan ibarətdir:

Müşahidə Şurası. Müşahidə Şurası bankın fəaliyyəti nəticəsində məruz qala biləcəyi bütün riskləri anlamalı, onlar barədə tam məlumat əldə etməli, bütün risklərin adekvat səviyyələrini, onları idarə etmə imkanlarını müəyyən etməli və riskləri düzgün müəyyənləşdirən, qiymətləndirən, onlara nəzarət edən səmərəli risklərin idarə edilməsi sisteminin yaradılmasını təmin etməlidir.

Risklərin idarə edilməsi prosesində bankın Müşahidə Şurasının vəzifə və səlahiyyətləri aşağıdaklılardan ibarətdir: bankın risklərin idarə edilməsi siyasətini, risklərin idarə edilməsi üzrə təşkilati strukturunu, səlahiyyət və məsuliyyətlərini, müxtəlif əməliyyat və fəaliyyət istiqamətləri üzrə daxili qayda və prosedurları, risklərin idarə edilməsi işində istifadə edilən müxtəlif metodologiyaları, limitləri təsdiq etmək; risklərin idarə edilməsi sisteminin effektivliyi və səmərəliliyinin təmin edilməsinin yoxlanılmasına dair daxili audit bölməsinə tapşırıqlar vermək; bankın qəbul edəcəyi riskin səviyyəsini müəyyənləşdirmək; adekvat risklərin idarə edilməsi qaydalarının hazırlanmasını təmin etmək; Mərkəzi Bankın tələbləri nəzərə alınmaqla bankın kapitalı üzrə kəmiyyət və keyfiyyət tələblərini müəyyən etmək; bankın idarə heyətinə risklərin idarə edilməsi ilə bağlı tövsiyələr vermək; Risklərin idarə edilməsi komitəsindən (RİK) mütəmadi hesabatlar tələb etmək; RİK-ə rəhbər təyin etmək.

İdarə Heyəti. İdarə Heyəti Müşahidə Şurası tərəfindən təsdiq edilən və rislərin idarə edilməsini həyata keçirən təskilatı strukturu yaradır və risklərin idarə edilməsi üzrə bütün qayda və prosedurların hazırlanmasını təmin edir. İdarə Heyəti öz fəaliyyətləri ilə əlaqədar olan riskləri anlamalı, bankın effektiv və qanunvericiliyə uyğun qaydada fəaliyyət göstərməsi üçün mükəmməl və etibarlı nəzarət mühitinin yaradılmasını, bu mühitin qorunub saxlanılmasını, səlahiyyətlər iyerarxiyasını, vəzifə və məsuliyyətlə, o cümlədən, səlahiyyətlərin müəyyənləşdirilməsi və qərarların qəbul edilməsi prosedurlarını, professional bilik və təcrübəyə malik risklərin idarə edilməsi heyətini və onların davamlı olaraq bilik və peşəkarlıq səviyyələrinin artırılmasını təmin etməlidir. İdarə Heyəti risklərin idarə edilməsi bölməsinə cavabdeh olan (kurasiya edən) İdarə Heyətinin üzvünü təyin etməlidir. Risklərin idarə edilməsi prosesində bankın İdarə Heyətinin səlahiyət və vəzifələri ən azı aşağıdakılardan ibarətdir:

1. risklərin idarə edilməsi funksiyasının vəzifə və səlahiyyətlər bölgüsünü müəyyən etmək;
2. risklərin idarə edilməsi sisteminə yetərli sayda təcrübəli və peşəkar əməkdaşları cəlb etmək;
3. risklərin idarə edilməsi siyasətini tətbiq etmək və mütəmadi olaraq ona yenidən baxmaq;
4. risklərin idarə edilməsi bölməsinin işini qiymətləndirmək;
5. risklərin idarə edilməsi bölməsinə tapşırıqlar vermək.

Risklərin idarə edilməsi komitəsi. Bankda onun əməliyyatlarının növünə, həcminə, fəaliyyətinin xüsusiyyətlərinə və mühitinə, mürəkkəbliyinə və üzləşdiyi risklərə adekvat risklərin idarə edilməsi sistemi yaradılmalıdır. Risklərin idarə edilməsi sistemi bankın fəaliyyətinə xas olan risklərin müəyyən edilməsi, qiymətləndirməsi, onlar barədə hesabatların hazırlanması, məqbul risk limitlərinin müəyyən edilməsi və onlara nəzarət edilməsi və risklərin azaldılmasını təmin etməlidir. Bankda risklərin idarə olunması üzrə daxili siyasət, qaydalar, təşkilati struktur və hesabatlıq sistemlərini, habelə risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi, idarə edilməsi, monitorinqi və hesabatlığa dair minimum tələblər Mərkəzi Bankın müvafiq normativ xarakterli aktları ilə tənzimlənir.

Müşahidə Şurası, İdarə Heyətindən asılı olmayan və risklərin idarə edilməsi üzrə müstəqil qərarlar qəbul edə bilən Risklərin idarə edilməsi komitəsini (RİK) yaratmalıdır. Bu komitə bankda risklərin idarə edilməsi üzrə məsuliyyətə malik olan İdarə Heyətinin bir neçə üzvündən, eləcə də bankın struktur bölmələrinin rəhbər işçilərininin iştirakı ilə yaradılmalıdır. RİK-in iclasları ayda bir

dəfədən az olmayaraq keçirilməli və nəticələri barədə bankın Müşahidə Şurasına hesabat verilməlidir. RİK-in sədri bankın Müşahidə Şurası tərəfindən təyin edilir. RİK-in sədri digər bankdaxili komitələrin üzvü olmalı və veto hüququna malik olmaqla bu komitələrdə məbləği məcmu kapitalının 1%-dən çox olan bütün əməliyyatlara dair qərarların qəbul edilməsində iştirak etməlidir.

RİK-in vəzifə və səlahiyyətləri Müşahidə Şurası tərəfindən təsdiq edilmiş müvafiq əsasnamədə müəyyən edilir. RİK-in vəzifə və səlahiyətləri aşağıdakılardan ibarətdir:

1. risklərin idarə edilməsi prosesinin hər bir mərhələsinə dair minimal tələbləri müəyyən etmək;
2. risklərin idarə edilməsi bölməsinə tapşırıqlar vermək və ondan mütəmadi hesabatları tələb etmək;
3. müxtəlif risklər üzrə limitləri müəyyən etmək və təsdiq edilməsi üçün Müşahidə Şurasına təqdim etmək;
4. mütəmadi olaraq bankdakı risklərin vəziyyəti, risklərin idarə edilməsi sisteminin adekvatlığı və risklərin idarə edilməsi prosesinin effektivliyi haqda Müşahidə Şurasına hesabat vermək;
5. risklərin idarə edilməsi siyasəti, bankdaxili risklərin idarə edilməsi funksiyası üzrə vəzifə və səlahiyyətləri, müxtəlif əməliyyat və fəaliyyət istiqamətləri üzrə qayda və prosedurları, risklərin idarə edilməsi işində istifadə edilən müxtəlif metodologiyaları müəyyənləşdirmək və yenidən baxmaq, təklifləri Müşahidə Şurasına təqdim etmək.

Risklərin idarə edilməsi bölməsi. Risklərin idarə edilməsi bölməsinin məqsədi gündəlik olaraq RİK-in fəaliyyətinə əməliyyat dəstəyinin təmin edilməsidir. Risklərin idarə edilməsi bölməsinə RİK tərəfindən mütəmadi tapşırıqlar verilir. Risklərin idarə edilməsi bölməsinin rəhbəri ən azı 3 il bank işi təcrübəsinə malik olmalıdır. Risklərin idarə edilməsi bölməsinin rəhbəri bankın İdarə Heyəti tərəfindən təyin edilir və Müşahidə Şurası tərəfindən təsdiq edilir. Risklərin idarə edilməsi bölməsinin istənilən məlumat bazasına çıxışı təmin edilməlidir.

Risklərin idarə edilməsi bölməsinin vəzifə və səlahiyətlərinə aşağıdakılar aid edilir:

1. bankın hər bir əməliyyat növü və fəaliyyət istiqaməti ilə bağlı bütün prosedur və qaydalarında risklərin müəyyənləşdirilməsi və minimallaşdırılması;
2. bankın fəaliyyətinin Müşahidə Şurası tərəfindən təsdiq edilmiş risk limitləri çərçivəsində və daxili qaydalara uyğun həyata keçirilməsinə nəzarət edilməsi;
3. hər bir əməliyyat bölməsinin üzləşdiyi bütün spesifik risklərin müəyyən edilməsi, qayda və prosedurlarının yoxlanılması və onlarda risklərin müəyyənləşdirilməsi;
4. ayrı-ayrı risk kateqoriyalarının müəyyənləşdirilməsi, ölçülməsi, idarə edilməsi, nəzarətini həyata keçirilməsi və bu risklər barədə RİK-ə və bankın İdarə Heyətinə mütəmadi olaraq hesabatların təqdim edilməsi;
5. Bankın kapitalının kəmiyyət və keyfiyyət göstəricilərinə, kapitalın adekvatlığına dair tələblərə riayət edilməsinə nəzarətin edilməsi.

5.7. BANKIN FƏALİYYƏTİNİN YOXLANILMASI

Azərbaycan Respublikası Mərkəzi Bankın " BANK YOXLAMALARININ HƏYATA KEÇİRİLMƏSİNİN PROSEDUR QAYDALARI" Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən banklarda və xarici bankların yerli filiallarında yoxlamaların təşkili və həyata keçirilməsinin prosedur qaydalarını müəyyən edir[7].

[7] Daha geniş: AR MB. Bank yoxlamalarinin həyatakeçirilməsinin prosedur qaydaları

Mərkəzi Bank hər bir bankda ildə bir dəfə yoxlama aparır. Mərkəzi Bank təqdim edilən prudensial və bank statistikası hesabatlarının təhlili və mənbəyi məlum olan digər məlumatlar əsasında bank aktivlərinin itirilməsi təhlükəsinin yarandığı, o cümlədən bankın aktivlərinin keyfiyyətini və maliyyə vəziyyətini xarakterizə edən göstəricilərin kəskin və ya davamlı olaraq pisləşdiyi, bank öhdəliklərinin və ya ödənişlərin icra edilməsi üçün zəruri olan likvid vəsaitlərin əhəmiyyətli səviyyədə yaxud davamlı olaraq azaldığı, bankın idarəetmə sistemində onun prudensial idarə edilməsinə təhlükə yarada bilən halların meydanna çıxdığı müəyyən edildikdə, habelə qanunvericiliyin pozulması faktlarının araşdırılması məqsədilə Milli Bank banklarda əlavə (planlaşdırılmamış) yoxlamalar keçirə bilər. Milli Bank, həmçinin, qarşılıqlı fəaliyyət prinsiplərinə müvafiq olaraq xarici bank tənzimlənməsi və nəzarəti orqanlarının sorğularına, habelə məhkəmənin qüvvəyə minmiş qərarlarına əsasən banklarda əlavə (planlaşdırılmamış) yoxlamalar keçirir.

Bankın fəaliyyətinin yoxlanılması hərtərəfli (kompleks) və ya məqsədli (tematik) ola bilər. Bankda aktivlərin kənarlaşdırılması, bank aktivlərinin keyfiyyətini və maliyyə vəziyyətini xarakterizə edən göstəricilərin kəskin pisləşməsi, öhdəliklərin və ödənişlərin icra edilməməsi, habelə dövlət təhlükəsizliyi baxımından çirkli pulların yuyulması, terrorizmin maliyyələşdirilməsi hallarının araşdırılması, seçki hesablarının rejiminə əməl edilməsi məsələləri ilə bağlı yoxlamalar Mərkəzi Bank tərəfindən banka əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilə bilər.

Yoxlama qrupunun üzvləri aşağıdakı hüquqlara malikdir: banka, onun filial, şöbə və nümayəndəliklərinə, habelə onun törəmə cəmiyyətlərinə daxil olmaq və onların hesabatlarını, mühasibat kitablarını, sənədlərini, o cümlədən reqlamentini (əsasnamə, qaydalar və prosedurlar) və digər uçot yazılarını əldə etmək, yoxlamaq və onlara dair bankın və törəmə cəmiyyətinin inzibatçısı və əməkdaşlarından izahat tələb etmək; bankın, onun filial, şöbə və nümayəndəliklərinin bankda mühüm iştirak payına malik olan şəxslərin, banka aidiyyatı olan şəxslərin və aidiyyatı şəxs adından hərəkət edən şəxslərin inzibatçılarından, əməkdaşlarından və agentlərindən həmin qurumların idarə edilməsinə və cari fəaliyyətinə, o cümlədən müştərilərin əməliyyatlarına aid istənilən məsələ barəsində bütün lazımi informasiyanın verilməsini və onlara dair izahatı tələb etmək; bankdan avtomatlaşdırılmış əməliyyat və idarəedici informasiya sistemlərinə çıxış əldə etmək; bankın inzibatçıları və əməkdaşları ilə yoxlanılan məsələlər barədə müzakirələr aparmaq.

Yoxlama qrupunun üzvləri yoxlamanı apararkən aşağıdakı vəzifələri həyata keçirir: qrupun fəaliyyət planında əks olunan vəzifələrə uyğun olaraq yoxlamalar aparır; yoxlamanın həyata keçirilməsi ilə bağlı bankın rəhbərinə lazımi sənədləri təqdim edir; yoxlama zamanı səlahiyyətlərinin aşmasına yol vermir; yoxlama zamanı öz fəaliyyəti ilə bankın cari fəaliyyətinə maneə yaratmır; bank sənəd-lərinin və bank sirrinin qorunmasını təmin edir; öz sahəsi üzrə nəticələri yazılı formada rəsmiləşdirir; vəzifələrinin keyfiyyətli və vaxtında yerinə yetirilməsinə fərdi məsuliyyət daşıyır; bankın əməkdaşlarına öz hərəkətlərinin səbəblərini izah etmək üçün imkan yaradır; bank əməkdaşlarının fikirlərinə hörmətlə yanaşır və fikir ayrılığı yarandığı halda öz mövqeyini izah edir; yaranan hər hansı münaqişəni nəzakətlə və peşəkarcasına həll edir.

Fəaliyyətinin yoxlanılması zamanı bank aşağıdakı hüquqlara malikdir:

- yoxlama qrupunun üzvlərindən yoxlamanın həyata keçirilməsi üçün əsas sayılan sənədi tələb etmək, onların şəxsiyyətlərini təsdiq edən sənədlərlə tanış olmaq;
- yoxlamaya aid olmayan şəxsləri yoxlamaya buraxmamaq;
- fəaliyyətinin yoxlanılması barədə məlumatlara malik olmaq;
- yoxlamanın nəticələrini müzakirə etmək və onlara dair münasibət bildirmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlamaların nəticələrindən şikayət etmək.
- Bankın inzibatçıları yoxlamanı həyata keçirmək üçün yoxlama qrupunun üzvlərinə lazım olan material və sənədləri təqdim edir və yoxlama prosesinə aşağıdakı köməkliyi göstərir:
- yoxlama qrupunun işinin təmin edilməsi üçün bankda ayrıca yer ayırır və yoxlama sənədlərini qorumaq üçün təhlükəsizliyi, habelə yoxlamanın aparılması üçün tələb olunan surətçıxarma və digər texnikadan istifadə imkanının yaradılmasını təmin edir;

• bankın inzibatçılarından birini yoxlama qrupu üzrə koordinator təyin edir və yoxlama keçirilən zaman yaranan bütün məsələləri operativ şəkildə həll edir.

Yoxlamanın nəticələrinin rəsmiləşdirilməsi. Yoxlama başa çatdıqdan sonra yoxlama qrupu bankın icra orqanının rəhbəri və yoxlamanın əhatə etdiyi sahəyə cavabdeh olan əməkdaşları ilə yekun müzakirələr keçirir. Yoxlama qrupunun üzvləri yoxlamanın ilkin nəticələri və bankın yoxlama ilə əhatə edilmiş sahələrinin vəziyyəti haqqında ilkin rəylərini bildirirlər. Müzakirələr zamanı yoxlama qrupunun rəhbəri yoxlama nəticəsində aşkar edilmiş faktları onların mühümlüyünə görə bölüşdürür və bankın hansı fəaliyyət sahəsinin yüksək risk zonasına aid olduğunu göstərir.

Yekun müzakirələrdə yoxlama zamanı aşkar edilmiş risklərin minimallaşdırılması və səmərəli idarə edilməsi, habelə nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün konkret tədbirlər, məsul şəxslər və tədbirlərin icra müddətləri müəyyənləşdirilə bilər.

Bankda həyata keçirilən hər bir yoxlamanın nəticələri yazılı şəkildə iki nüsxədə tərtib olunmuş yoxlama haqqında hesabatda əks olunur. Yoxlama haqqında hesabat bu Qaydaların 3.8-ci bəndində nəzərdə tutulan müddət başa çatdıqdan sonra 30 (otuz) təqvim günü ərzində yoxlama qrupunun rəhbəri tərəfindən hazırlanır.

Yoxlama haqqında hesabat asan oxunmalı və aydın olmalıdır. Nəticələr dəqiq faktlara və rəqəmlərə əsaslanmalıdır.

Yoxlama haqqında hesabatın əsas məqsədi aşağıdakılardan ibarətdir:

- bankın maliyyə və əməliyyat fəaliyyətinin nəticələri barədə rəy formalaşdırmaq;
- yoxlamanın nəticəsini Milli Banka və bankın rəhbərliyinə çatdırmaq;
- bankın rəhbərliyinin xüsusi diqqətini tələb edən sahələri müəyyənləşdirmək və təkmilləşdirmək üçün təkliflər vermək.

Yoxlama haqqında hesabata yoxlamanın əhatə etdiyi sahələr, yoxlanılan dövr ərzində bu sahələrdə baş vermiş dəyişikliklər, aşkar olunmuş qanun pozuntuları, nöqsan və çatışmazlıqlar haqqında müfəssəl və icmal məlumatlar daxil edilir.

Yoxlama haqqında hesabata aşkar olunmuş qanun pozuntuları, nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün bank tərəfindən görülməli olan tədbirlər, icra müddətləri və görüləcək tədbirlər üzrə məsul şəxslər barədə məlumatlar daxil edilə bilər.

Yoxlama haqqında hesabat yoxlama qrupunun bütün üzvləri tərəfindən imzalanır. Yoxlama haqqında hesabatın bütün vəqərələri nömrələnir və onun bütün səhfələri yoxlama qrupunun rəhbəri tərəfindən imzalanır.

Yoxlama haqqında hesabat yoxlama qrupunun rəhbəri tərəfindən bankın müvafiq inzibatçısına rəsmi təqdimetmə yolu ilə və ya xüsusi rabitə xidməti vasitəsilə banka çatdırılır.

Bank 10 (on) təqvim günü ərzində yoxlama haqqında hesabatla tanış olur və onu imzalayaraq Milli Banka təqdim edir. Yoxlama haqqında hesabatın nüsxəsi bu müddətdə Milli Banka təqdim olunmadıqda Milli Bank hesabatın özündə olan nüsxəsində bu barədə qeyd aparır.

Yoxlama haqqında hesabatda əks olunan nəticələrlə razı olmadıqda bankın inzibatçısı yoxlama haqqında hesabatı imzalayaraq, hesabata ona dair izahatını (etirazını) əks etdirən əlavələr (sənədlər) daxil edir.

Yoxlama qrupu ilə bank arasında yoxlamanın nəticələri barədə fikir ayrılığı və bankın etirazı olduqda Mərkəzi Bankda bununla bağlı müzakirələr təşkil oluna bilər.

“Bank yoxlamalarının həyata keçirilməsinin prosedur Qaydaları”na

Əlavə 1

Yoxlama vəsiqəsi

N_____ “_____” _____200 -il

Yoxlama qrupunun rəhbərinə

_____

(A.A.S)

Yoxlama qrupunun üzvlərinə

(A.A.S)

_____

_____

_____

_____

“Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 46.2-ci maddəsinə uyğun olaraq _____ bankında (xarici bankın yerli filialında) yoxlamanın keçirilməsi tapşırılır.

Yoxlama “____” _____ ildən “____” _____ ilədək dövrü əhatə edir və bu Vəsiqə “_____” tarixədək etibarlıdır.

İdarə Heyəti sədrinin
müavini _____
(soyadı, adı, atasının adı)

M.Y.

QANUNLAR, NORMATİV SƏNƏDLƏR VƏ TƏLİMATLAR

1) Banklar haqqında Azərbaycan Respublikasının Qanunu
2) Əmanətlərin sığortalanması haqqında Azərbaycan Respublikasının qanunu
3) Bankların likvidliyinin idarə olunması haqqında Qaydalar
4) Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları
5) Bank yoxlamalarının həyata keçirilməsinin prosedur qaydaları
6) Banklarda risklərin idarə olunması haqqında Qaydalar
7) Risklərin İdarə Edilməsi Standartı

ƏDƏBIYYAT

1. Банковские риски. Издательство: КноРус, 2008 .
2. Мамедов З.Ф. Анализ и оценка банковских рисков // Известия СПбУЭФ. 2006. - № 3. - С.-93- 102
3. Банковское дело. Учебник. М.: Проспект, 2008.
4. Банковское дело Управление и технологии под ред. Тавасиева Учебник 2005. 671с.
5. Банковское дело. под ред. Коробовой Г.Г. - Учебник 2006 -766с.
6. Банковское дело: современная сист. кредитования. под ред. Лаврушин М.- 2007.
7. Банковское дело . МФПА, 2005
8. Банковское дело. под ред. Лаврушина О.И. М.- 2007.
9. Банковское дело. под ред. Коробовой Г.Г. М.- 2006.
10. Банковские риски. Издательство: КноРус, 2008 .
11. Банковский менеджмент. Издательство: КноРус, 2010 .
12. Мамедов З. Ф.Системы финансового надзора за банковскими секторами: мировой опыт и азербайджанская практика // научная - практическая конференция. Государственный финансовый контроль в современных условиях. 18 февраля 2011.
13. Рустамов. Э. С. Глобальный кризис и антикризисная политика Центрального банка Азербайджана // Деньги и кредит.- 1/2010.
14. Рустамов. Э. С. Проблемы реформирования макроэкономических институтов в послекризисный период// Деньги и кредит.- 9/2010.

VI FƏSİL. BANKLARIN ÖHDƏLİKLƏRİ VƏ KAPITALI

ƏSAS ANLAYIŞLAR

Depozit - müvafiq müqavilə şərtləri ilə faizlər və ya komisyon haqqlar ödənilməklə və ya ödənilmədən müştərilərin (əmanətçilərin) tələbi ilə qaytarılmasını və ya başqa hesaba köçürülməsini nəzərdə tutan bankın balansında aparılan cari, əmanət (depozit) və ya digər hesaba qoyulmuş və ya köçürülmüş pul vəsaitidir.

Öhdəliklər - əvvəlki dövrlərdə baş vermiş hadisələrdən yaranan və tənzimlənməsi bankdan iqtisadi səmərəyə malik vəsaitlərin əks-axınına gətirib çıxaran cari borclardır.

Kapital - bankın öz vəsaitləridir və bankın bütün öhdəlikləri çıxıldıqdan sonra onun aktivlərdə qalan payıdır.

Bankın məcmu kapitalı (öz vəsaiti) - prudensial hesabatlıq məqsədləri üçün istifadə olunan kapital olmaqla, Mərkəzi Bankın normativ xarakterli aktları ilə müəyyən etdiyi I dərəcəli (əsas) və II dərəcəli (əlavə) kapitala daxil olan komponentlərin (elementlərin) cəmi və onlardan tutulmaların fərqidir.

Nizamnamə kapitalının (xarici bankların yerli filialları üçün nizamnamə kapitalına bərabər tutulmuş vəsaitin) minimum miqdarı – Azərbaycan Respublikası Mərkəzi Bankının (irəlidə - AMB) müəyyən etdiyi yeni açılan və fəaliyyətdə olan bankların səhmdarları tərəfindən (xarici bankların yerli filialları üçün baş təşkilatın) ödənilməli olan kapitalın minimum məbləğidir.

Kapitalın adekvatlıq əmsalları – Qaydalarda müəyyən edilmiş düsturlarla hesablanan I dərəcəli kapitalın və məcmu kapitalın ayrılıqda risk dərəcəsi üzrə ölçülmüş aktivlərə olan nisbətidir.

6.1. BANKLARIN ÖHDƏLİKLƏRİ

Banklarin öhdəlikləri - banklar tərəfindən vəsaitlərin cəlb olunması və onun resurslarının formalaşması üzrə əməliyyatlarıdır. Bu əməliyyatlann köməyi ilə banklar mənfəət əldə etmək məqsədi ilə kredit verilməsi, qiymətli kağızlara sərmayə qoyuluşu və s. üçün vəsaitlər toplayırlar. Bazar iqtisadiyyatına keçid şəraitində bank passivlərinin formalaşması və onlann strukturunun optimallaşdırılması, öhdəliklərin mənbələrinin keyfiyyətcə səmərəli idarə olunması xüsusi əhəmiyyət kəsb edir.

Bank öhdəlikləri likvidlik səviyyəsini əks etdirən ardıcıllıqla və onların xarakteri üzrə qruplaşdıraraq mühasibat balansında əks olunur. Mühasibat balansına öhdəliklər və kapital üzrə maddələr aşağıdakı kimi əks olunur:

Öhdəliklər

1. Mərkəzi Bank qarşısında öhdəliklər;
2. maliyyə sektoru qarşısında öhdəliklər;
3. müştərilər qarşısında öhdəliklər;
4. borc götürülmüş digər vəsaitlər;
5. digər öhdəliklər.

Kapital

1. nizamnamə kapitalı;
2. ehtiyatlar;
3. bölüşdürülməmiş mənfəət.

Öhdəliyin əsas xüsusiyyəti bankın borcunun olmasıdır. Öhdəlik - borcdur və ya müəyyən bir işi müəyyən şəkildə yerinə yetirmək və ya müəyyən şəkildə hərəkət etmək barədə verilmiş təminatdır. Öhdəliyin yerinə yetirilməsi aşağıdakı üsullarla həyata keçirilə bilər:

1. pul vəsaitlərinin ödənilməsi vasitəsi ilə;
2. digər aktivlərin verilməsi ilə;
3. xidmətlər göstərməklə;

4. bir öhdəliyin digəri ilə əvəz olunması vasitəsilə;

5. öhdəliyin kapitala keçirilməsi vasitəsilə.

Öhdəliklər həmçinin kreditorun hər hansı vəsait və ya əmlak üzərində öz hüquqlarının itirilməsi və ondan imtina etməsi kimi digər vasitələrlə də ödənilə bilər. Öhdəliklər keçmiş dövrlərin əməliyyatları (hadisələri) nəticəsində yaranır.

Bankların öhdəliklərinin tərkibi aşağıfakı kimidir: Azərbaycan Mərkəzi Bankının tələbləri; Kredit təşkilatların tələbləri; Tələb olunanadək depozitlər; Müddətli depozitlər; Digər borc götürülmüş vəsaitlər; Hesablanmış ödəniləcək faizlər; Subordinasiya olunmuş borclar və Digər öhdəliklər .

Öhdəliklər aşağıdakı hallarda qısamüddətli öhdəliklər kimi təsnifləşdirilr:

1) öhdəliyin bankın əməliyyat prosesinin normal şəraitində ödənilməsi nəzərdə tutulduqda;

2) öhdəlik hesabat tarixindən etibarən on iki ay ərzində ödənilməli olduqda.

Bütün digər öhdəliklər uzunmüddətli öhdəliklər kimi təsnifləşdirilir.

Bank, faizlərin ödənilməsi də daxil olmaqla uzunmüddətli öhdəliklərini, hətta onlar hesabat tarixindən etibarən on iki ay ərzində ödənilməli olduqda belə, aşağıdakı şərtlərdə, uzunmüddətli öhdəliklər kimi təsnifləşdirir:

1) öhdəliyin ilkin müddəti on iki aydan artıq dövr təşkil etmişdirsə;

2) öhdəliyin uzunmüddətli əsasda yenidən maliyyələşdirilməsi nəzərdə tutulduqda;

3) bu niyyətlər yenidən maliyyələşdirmə müqaviləsi ilə və ya maliyyə hesabatlarının təsdiq olunmasına qədər ödəniş cədvəlinin dəyişilməsi haqqında müqavilə ilə təsdiq olunduqda.

Maliyyə hesabatlarında öhdəliklər aşağıdakı qaydada təsnifləşdirilir:

1. tələb olunanadək və 1 ayadək;
2. 1 aydan 3 ayadək;
3. 3 aydan 6 ayadək;
4. 6 aydan 1 ilədək;
5. 1 ildən yuxarı.

bankın öhdəliklərində depozitlərlə (Depozit – müvafiq müqavilə şərtləri ilə faizlər və ya komisyon haqqlar ödənilməklə və ya ödənilmədən müştərilərin (əmanətçilərin) tələbi ilə qaytarılmasını və ya başqa hesaba köçürülməsini nəzərdə tutan bankın balansında aparılan cari, əmanət (depozit) və ya digər hesaba qoyulmuş və ya köçürülmüş pul vəsaitidir) bağlı əməliyyatlar mühüm rol oynayır. İqtisadi məzmununa və istifadə müddətlərinə depozitlərin tərkibi iki hissədən ibarətdir: tələb olunanadək depozitlər və müddətli depozitlər. Tələbolunanadək depozıt onun sahibi tərəfindən bank hesablarına köçürülən və onun sahibinin ehtiyac yarandıqda tələb etdiyi depozit formasıdır. Bu vəsaitlər cari depozit hesablarında saxlanılır. Müddətli depozitlər hesablara köçürülərkən müəyyən edilmiş müddət ərzində bank hesablarında saxlanılan vəsaitlərdir.

Müddətli depozitlər üzrə hesablara sertifikatlar, veksellər, əhalinin məqsədli və müddətli əmanət hesabları, həmçinin əvvəlcədən müddəti müəyyən edilməyən lakin asanhqla təyin edilə bilən hesablar aiddir. Belə hesablara büdcə vəsaitlərinin saxlandığı və kapital qoyuluşlarımn maliyyələşdirildiyi və s. Hesablar aid edilə bilər. Başqa banklardan alınmış depozitlər də müddətli adlanırlar, çünki belə vəsaitlər həmişə, bir qayda olaraq əvvəlcədən müəyyən edilmiş müddətə alınır.

Müddətli depozitlərin bir çox parametrləri, o cümlədən subyektləri, məbləğləri, müddətləri, qəbulu və qaytarılması qaydaları, istifadə üsulları kommersiya banklarının vəziyyətindən asılı olaraq çox fərqli və müxtəlif ola bilər. Bu, bankların öz fəaliyyətlərində seçmiş olduqları istiqamətlərdən, onların maliyyə vəziyyətindən və malik olduqları imicdən asılı olur.

Əmanət sahibləri verdikləri pul qədər banklardan alacaqlı olurlar. Başqa bir sözlə, pulunu banka qoyan bir kimsə banka kredit vermiş olur. Bir sıra ölkələrdə ödəmələrin böyük bir hissəsi (təxminən 90%) banklar vasitəsilə olur. Pulun banknot yerinə əmanət şəklində bankda tutulması əmanətçiyə gəlir gətirir. Müddətləri baxımından əmanətləri aşağıdakı şəkildə sıralamaq mümkündür: müddətsiz əmanət; müddətli əmanət.

Banklardan istənilən an çıxarılmaq üzrə qoyulan əmanətlərə müddətsiz, müəyyən bir müddət sonunda götürülmə ilə qoyulan əmanətlərə isə müddətli əmanət deyilir. Tələb olunanadək depozitlər müxtəlif bank hesablarındakı vəsaitlərin sahibinin pul və hesablaşma sənədlərini yazmaqla birinci tələbdən əldə edə bilməsidir. Bunlara hüquqi şəxslərin cari və hesablaşma hesabında saxlanılan vəsaitlər, müxtəlif təyinatlı fondların vəsaitləri, hesablaşmalardakı vəsaitlər, digər kreditorların vəsaitləri, digər bankların müxbir hesablarındakı vəsait-lərin qalığı, fiziki şəxslərin tələb edilənədək əmanətlərdəki vəsaitləri və s. aiddir. Depozit sahiblərinin kateqoriyalarından asılı olaraq depozitləri hüquqi və fiziki şəxslərin depozitlərinə bölmək olar. Depozit əməliyyatının subyekti banklar və pulun sahibləri olan kreditorlar, obyekti isə banka verilən pullar sayılır. Bu hesabın sahibi üçün üstünlüyü onun yüksək likvidli olmasıdır. Ancaq onlar üzrə faizlər ya ödənilmir, ya da aşağı faiz müəyyən edilir.

Nəzərə alsaq ki, dünya bank təcrübəsində bankların cəlb etdiyi vəsaitlərin əsas hissəsini (təqribən 60-70 %ni) müddətli depozitlər təşkil edir, bizdə müddətli depozitlərin ümumi depozitlərdə xüsusi çəkisi 2-3 dəfə aşağıdır. Müxtəlif növlü depozit və əmanətlər üzrə ödənilən faiz siyasəti stimullaşdırıcı rola malik olmalı və müştəriləri öz vəsaitlərini nəinki qısa müddətə, hətta uzun müddətə banklarda saxlamağa təhrik etməlidir.

Bankların əsas xərcləri depozit və əmanət xidməti ilə bağlıdır. Cəlb edilmiş vəsaitlərin tərkib hissəsindən biri də əmanət qoyuluşlarıdır. Yerli təcrübədə əmanət hesabları yalnız fiziki şəxslərə, xarici təcrübədə isə həm də qeyri-kommersiya təşkilatlarına və işgüzar firmalara da açılır. Fiziki şəxslər üçün açılan əmanət qoyuluşlarının müxtəlif növləri vardır: müddətli, uduşlu, məqsədli və s.

Azərbaycan Respublikasında mövcud bank qanunvericiliyinə uyğun olaraq əhalinin əmanətləri bütün banklar tərəfindən, onların nizamnaməsində belə əməliyyatların aparılması üçün Azərbaycan Respublikası Mərkəzi Bankının verdiyi lisenziya əsasında qəbul edilə bilər.

Əmanətçi ilə bağlanmış müqaviləyə əsasən bank əmanətçinin qoyduğu pul vəsaitini saxlamağı, əmanət üzrə faiz şəklində və bankların təklif etdiyi başqa formada gəlir ödəməyi, əmanətlə hesablaşmalar üzrə əmanətçinin tapşırıqlarını yerinə yetirməyi tutulmuş şərtlərlə və qaydada geri qaytarmağı öhdəsinə götürür.

Banklar ilk növbədə müştərilərin vəsaitlərini cəlb etmək və ya onların vəsaitlərini özündə saxlamaq üçün onlara kifayət qədər yüksək faiz gəliri əldə etməyi təmin etməlidir. Digər tərəfdən isə banklar kifayət qədər yüksək faiz dərəcəsindən qaçmalıdırlar.

Hal-hazırda isə banklar depozit və əmanət əməliyyatları üzrə faiz siyasətini təyin etməkdə sərbəstdirlər. Kommersiya banklarının bu cür siyasətinə müəyyən amillər təsir göstərir. Bankların faiz dərəcəsinə təsir göstərən əsas amillərdən biri Mərkəzi Bankların apardığı uçot siyasətidir. Çünki uçot siyasətinin aşağı düşməsi və ya qalxması kommersiya banklarının ssuda və depozitləri üzrə faizlərinin aşağı düşməsinə və ya qalxmasına səbəb olur. Mərkəzi bankların açıq bazarda apardığı əməliyyatlar da kommersiya banklarının faiz siyasətinə təsir göstərən pul-kredit tənzimlənməsinin əsas metodlarından biridir.

Düzdür, bu gün depozit problemi ilk növbədə banka inamla bağlıdır. Ona görə də, depozitin səviyyəsi, artma meyli bu təsiri özündə demək olar ki, həmişə əks etdirir. Depozitlər içərisində vacib yeri tələb edilənədək depozitlər tutur. İnkişaf etmiş ölkələrdə müştərinin tələbi ilə nağdlaşdırılan və ya başqa hesaba dərhal köçürülən depozitlərdən vəsait çeklərlə silinir. Onu da qeyd edək ki, ödəmə dövriyyəsinin böyük əksəriyyəti bu çeklərlə aparılır. Bu hesablar üzrə müştərilərə ya faizlər ödənilir, ya qanunvericiliklə qadağan olunur, ya da bankın xidmət haqqında güzəştləri ilə müşayiət olunur. Bu əmanətlərin təklifi vacib bank xidmətləri olduğundan ödəmə sistemi tez bir zamanda effektivliyini artırdı, işgüzar əməliyyatlar sadələşdi, tezləşdi və təhlükəsizləşdi. Bu gün banklar müddətli əmanətlər xidmətindən geniş istifadə edir. Müddətli əmanət dedikdə müəyyən müddətə bankın istifadəsinə verilən, tələb edilənədək əmanətdən daha yüksək faizli depozit başa düşülür. Bank «portfeli»ndə bankların 2 cür müddətli əmanət qəbul etdiyi göstərilir: xüsusi müddətli əmanətlər və götürülməsi barədə qabaqcadan xəbərdarlıq edilən əmanətlər. Qaydaya görə, bu əmanət növündəki vəsait müddət qurtaranadək (bloklaşdırılır) və bank tamamilə ondan istifadə edir. Vəsait vaxtında götürülməzsə, o cari hesabdakı kimi istifadə

olunur. Adətən müddətlər 4 qrupa bölünür: 30-89 gün, 90-179,180-359 və 360-dən çox. Bir qayda olaraq müddət uzandıqca faiz dərəcəsi artır. Amma uçot dərəcəsinin aşağı düşəcəyi proqnozu varsa, bu qayda pozula bilər. Faizin müddətlərarası dəyişilməsi şərtləri də ola bilər.

Əmanətlərlə (depozitlərlə) bağlı əməliyyatların uçotunun aparılması üçün metodoloji göstərişlər:

1. Əmanətlərin (depozitlərin) qəbul edilməsi zamanı aşağıdakı mühasibat yazılışı verilir:

Dt Kassa/ müxbir hesab/ müştərinin hesabı

Kt müvafiq müştərinin müvafiq əmanət (depozit) hesabı

2. Əmanətlərə (depozitlərə) dair ödəniləcək faizlərin hesablanması zamanı aşağıdakı mühasibat yazılışı verilir:

Dt müvafiq faiz xərcləri hesabı

Kt müvafiq hesablanmış faiz borcları hesabı

3. Əmanətlər (depozitlər) üzrə hesablanmış faizlərin ödənilməsi zamanı aşağıdakı mühasibat yazılışı verilir:

Dt müvafiq hesablanmış faiz borcları hesabı

Kt Kassa/ müxbir hesab/ müştərinin hesabı

4. Əmanətlərin (depozitlərin) qaytarılması zamanı aşağıdakı mühasibat yazılışı verilir:

Dt müvafiq müştərinin müvafiq əmanət (depozit) hesabı

Kt Kassa/ müxbir hesab/ müştərinin hesabı

Bir qayda olaraq bank balansının kapital hissəsinə aşağıdakılar daxildir: Adi səhmlər ;İmtiyazlı səhmlər; Səhmlərin buraxılışından əldə edilmiş əlavə vəsaitlər; Aktivlərin yenidən qiymətləndirilməsi; Bölüşdürülməmiş mənfəət; İlin əvvəlindən cari tarixədək mənfəət.

Bankın məcmu kapitalı iki hissədən ibarət olur. Birincinin tərkibinə Nizamnamə kapitalı + Səhmlərin emissiyasından əlavə vəsait + Bölüşdürülməmiş xalis mənfəət(I dərəcəli kapital) və Cari ilin mənfəəti+ Ümumi ehtiyatlar + Kapitalın digər vəsaitləri(IIdərəcəli kapital).

Kapitalın məbləği kapitalın aktivlərin və öhdəliklərin həcmindən asılıdır. Kapital bankda iştirak payı olan tərəflərin dividend alınması və ya kapitalın ödənilməsinə münasibətdə müxtəlif hüquqlara malik olma faktını əks etdirir. Mənfəət, bankın fəaliyyətinin effektivlik dərəcəsinin ölçüsü və ya investisiyalardan (səhmlərdən) daxil olan səmərənin ölçüsü üçün əsas kimi istifadə olunur. Mənfəətin ölçüsü ilə bilavasitə əlaqədar olan elementlər - gəlir və xərclərdir. Gəlir və xərclərin elementləri aşağıdakı kimi təyin olunur:

Gəlir – hesabat dövrü ərzində aktivlərin axıb gəlməsi və ya artması formasında və ya səhmdarların qoyuluşları ilə əlaqədar olmayan, kapitalın artmasına gətirib çıxaran öhdəliklərin azalması kimi təzahür edən iqtisadi səmərələrin artmasıdır. Gəlir anlayışına, daxil olan pul vəsaitləri və digər gəlirlər aiddir. Daxil olan pul vəsaitləri (mədaxil) bankın adi fəaliyyət prosesində yaranır və müxtəlif anlayışlarla, o cümlədən mükafatlar, faizlər, dividendlər, royalti və icarə haqqı adlandırılır. Digər gəlirlər, gəlir anlayışına cavab verən digər maddələri ifadə edir və bankın adi fəaliyyəti prosesində yarana və yaranmaya bilər. Bu gəlirlər özlüyündə iqtisadi səmərələrin artımını təşkil edir və öz xarkterinə görə daxil olan pul vəsaitlərindən fərqlənmir. Digər gəlirlər, məsələn, əsas vəsaitlərin realizə olunmasından yaranan gəlirlərdən ibarətdir. Gəlir anlayışına həmçinin realizə olunmamış gəlirlər, yəni, bazar qiymətli kağızlarının yenidən qiymətləndirilməsindən yaranan gəlir və ya uzunmüddətli aktivlərin balans dəyərinin artmasından yaranan gəlir daxildir. Mənfəət və zərər haqqında hesabatda belə gəlirlər tanınarkən ayrı-ayrılıqda təqdim olunur, çünki bu gəlirlər haqqında məlumatlar iqtisadi qərarların qəbul olunması üçün faydalıdır. Müxtəlif növ aktivlər gəlir vasitəsilə əldə oluna və artırıla bilər. Buna misal olaraq, pul vəsaitlərini, debitor borcunu, təchiz olunmuş mallar və göstərilən xidmətlərin müqabilində alınan malları və göstərilən xidmətləri göstərmək olar. Gəlir öhdəliklərin tənzimlənməsi nəticəsində də yarana bilər.

Xərc – hesabat dövrü ərzində aktivlərin axıb getməsi və ya tükənməsi və ya səhmdarlar arasında paylanması ilə əlaqədar olmayan kapitalın azalmasına gətirib çıxaran öhdəliklərin artması kimi təzahür edən iqtisadi səmərələrin azalmasıdır. Xərc anlayışına itkilər və bankın adi fəaliyyət prosesində yaranan xərclər daxildir. Bankın adi fəaliyyət prosesində yaranan xərclərinə

əmək haqqı və amortizasiya kimi digər xərclər də daxildir. İtkilərə, xərc anlayışına uyğun gələn və bankın adi fəaliyyət prosesində yarana bilən və gözlənilməyən xərclər aiddir. İtkilər iqtisadi səmərələrin azalmasını əks etdirir və buna görə də öz xarakterinə görə digər xərclərdən fərqlənmir. Mənfəət və zərər haqqında hesabatda itkilər, müvafiq gəlirlər çıxılmaqla ayrı-ayrılıqda əks etdirilir. Çünki onlar haqqında məlumatlar iqtisadi qərarların qəbul olunması üçün faydalıdır.

Bank gəlir və xərcləri xarakterinə görə qruplaşdıraraq, əsas gəlir və xərc növlərini açıqlayan mənfəət və zərər haqqında hesabat təqdim etməlidir.

Mənfəət və zərər haqqında hesabata aşağıdakı gəlir və xərc maddələri daxil edilməlidir:

- faiz gəlirləri;
- faiz xərcləri;
- aktivlər üzrə ehtimal olunan zərər üçün ehtiyatlar;
- qızıl və digər qiymətli metalların yenidən qiymətləndirilməsi üzrə xalis gəlirlər;
- qiymətli kağızların yenidən qiymətləndirilməsi üzrə xalis gəlirlər;
- valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə xalis gəlirlər;
- xarici valyuta ilə dilinq əməliyyatları üzrə xalis gəlirlər;
- haqq və komissiya gəlirləri;
- haqq və komissiya xərcləri;
- digər əməliyyat gəlirləri;
- işçilərə sərf olunan xərclər;
- qeyri-maddi aktivlər və əsas vəsaitlər üzrə köhnəlmə xərcləri;
- əsas vəsaitlər üzrə təmir və saxlanma xərcləri;
- inzibati xərclər;
- digər xərclər;
- mənfəət vergisi üzrə xərc.

Aksiyanın emissiyası. Aksiya emisssiyasından əldə edilən vəsait investisiya maliyyələşməsində istifadə olunan ən geniş maliyyə mənbəyidir və bu da aksioner cəmiyyət tərəfindən aksioner kapitalın cəlb olunmasında tətbiq olunur: şəxsi kapitalın artırılmasında, firmanın dəyişdirilməsində yeni aksiyaların buraxılması həyata keçirilir. Aksioner cəmiyyətin yeni aksiyalarının buraxılması yolu ilə bu həm köhnə, həm də yeni aksionerlər arasında yerləşdirilə bilir. Yeni aksiyaların əldə edilməsi zamanı hüquqi üstünlük köhnə aksionerlərə verilir. Bu cür təcrübə aksionerlərə kapitalda öz paylarını müəyyən səviyyədə qoruyub saxlamaq imkanı verir. Əgər köhnə aksionerlərin yeni aksiyalar almağa vəsaitləri olmazsa, aksiaylar yeni aksionerlər arasında yerləşdirilir.

Qeyd etmək lazımdır ki, şəxsi kapitalın genişləndirilməsi başqa yolla - bölünməmiş kapitalın kapitallaşdırılması yolu ilə da həyata keçirilə bilər. Bu zaman aksioner cəmiyyətin rəhbərliyi aksionerlərin razılığı ilə aksionerlərə dividend ödəməmək qərarını qəbul edir və vəsaiti müxtəlif fəaliyyətlərə yatırırlar.

Kapitalın artırılmasında gəlirin saxlanılması ən sadə və ucuz vasitə hesab edilir. Belə ki, aksiyaların emissiyasından fərqli olaraq onların yerləşdirilməsi və əldə edilməsi heç bir xərc tələb etmir. Bir şeyi də qeyd etmək lazımdır ki, gəlirin yenidən investisiyaya qoyulması aksiya kursuna mənfi təsir göstərə bilər. Belə ki, dividend ödənişlərinin aramsızlığı aksiya kursunun ən vacib göstəricilərindən biridir. Gəlirin ödənilməməsi zamanı vəsaitlər elə yerləşdirilməlidir ki, o yüksək gəlir gətirsin və dividend ödənişlərinin xərcləri üzrə kompensasiya ödənilsin. Analoji olaraq yeni aksiyaların satışından əldə edilən gəliri investisiya zamanı gəlir əldə edilməsini, aksiya üzrə həminki dividendi və aksiya kursunu təmin etməlidir. Aksiyanın emissiyası və yerləşdirilməsi həmişə müəyyən xərclərlə bağlı olur.

İstiqrazların emissiyası. İnvestisiyanın maliyyə mənbələrin-dən biri əhalinin və kommersiya strukturlarının sərbəst pul vəsait-lərinin cəlb olunmasına istiqamətlənmiş istiqrazların emissiyası ola bilər. İstiqraz vərəqəsinin müddəti investisiya layihəsinin həyata keçirilməsinin orta müddətindən uzun olmamalıdır.

Potensial investorlar üçün istiqrazın cəlbediciliyi onların yerləşdirilməsi şərtləri ilə müəyyənləşdirilir. İstiqraz vərəqələrinin şərtlərinə aşağıdakılar aid edilir: borcun məbləği və müddəti, buraxılmış istiqrazların sayı, faiz dərəcəsinin səviyyəsi, faiz dərəcələrinin ödəniş şərtləri, ödənişin vaxtı, forması və qaydaları, kredit maraqlarının qorunması və s. Təklif olunan şərtlər investorlar üçün əlverişli olmalı və istiqrazın likvidliyini təmin etməlidir. İnvestisiya resursları mənbələrinin formalaşdırılması zamanı kapital cəlb olunmasında istifadə olunan müxtəlif vasitələrin üstünlük və çatışmamazlıqları nəzərə alınmalıdır.

Beləliklə, maliyyə resurslarının səfərbər edilməsində borc vəsaitləri ilə müqayisədə aksiyanın emissiyasının öz üstünlükləri vardır ki, bunlar da əsasən aşağıdakılardır:

- aksiya maliyyələşdirilməsi uzun müddət ərzində səhmdar kapitalın genişləndirilməsinə imkan verir;
- kredit münasibətlərindən fərqli olaraq aksiyaların yerləşdirilməsi üçün heç bir girov və zəmanət tələb edilmir;
- istiqrazlardan fərqli olaraq səhmdar cəmiyyət kifayət qədər gəlir olmadıqda adi aksiyalar üzrə dividend ödəməyə bilər;
- investisiya layihələrinin maliyyələşdirilməsi zamanı aksiyanın buraxılması ilə kapitalın cəlb olunması həmin müddətdə vəsaitlərin ödənilməsi üçün imkan yaradacaqdır;
- dividend şəklində kifayət qədər gəlir əldə edilməsi və aksiyanın daha yüksək kursla satılması;
- aksioner cəmiyyətin idarə olunmasında iştirak etmək;
- cəmiyyətin fəaliyyətinə təsir göstərmək.

Çatışmayan xüsusiyyətləri isə aşağıdakılardır:

- dividend ödənilməməsi riski;
- aksiya kursunun aşağı düşməsi nəticəsində kapitalın itirilməsi riski;
- kiçik aksionerlərin səhmdar cəmiyyətin ümumi siyasətinə təsir edə bilməməsi;
- cəmiyyət ləğv olunan zaman kapitalın qaytarılmasında aksiyanın istiqrazdan fərqli olan sonunculuq növbəsi.

İstiqrazlara qoyuluşun da öz üstünlükləri vardır:

- istiqraz üzrə gəlirin həcmi təmin edilib və qabaqcadan məlumdur;
- cəmiyyət ləğv olunan zaman istiqrazlar aksiyalara nisbətən ilk növbədə olur.

İstiqraz qoyuluşun çatışmayan cəhətləri isə aşağıdakılardır:

- aksiyaya nisbətən az gəlirli olması;
- istiqraz sahibi olan şəxsin şirkətin idarə edilməsində iştirak edə bilməməsi.

Səhmlərin ilkin emissiya prosedurası aşağıdakı mərhələlərdən ibarətdir:

- emitent tərəfindən qiymətli kağızların ixrac edilməsi qərarının qəbul edilməsi;
- emitent tərəfindən qiymətli kağızların emissiya layihəsinin hazırlanması və təsdiq edilməsi;
- qiymətli kağızların icraçısının dövlət qeydiyyatından keçməsi;
- emissiya layihəsi barədə məlumatları açıqlamaq;
- qiymətli kağızların şəhadətnamələrinin hazırlanması;
- ixracın nəticələri barədə hesabatın qeydiyyatdan keçməsi və onların elan edilməsi;
- Qiymətli kağızların qapalı səhmdar cəmiyyətdə yerləşdirilməsi halı üçün:
- emitent tərəfindən qiymətli kağızların ixrac edilməsi qərarının qəbul edilməsi;
- qiymətli kağızların ixracının və emissiya layihəsinin dövlət qeydiyyatından keçməsi;
- qiymətli kağızların yerləşdirilməsi;
- ixracın nəticələri barədə hesabatın dövlət qeydiyyatından keçməsi. Beləliklə, qiymətli kağızların emissiya prosesi bir neçə əsas mərhələlərdə formalaşır və birinci mərhələni hazırlıq mərhələsi hesab etmək olar.

SC təsis edilməmişdən qabaq yaradılacaq yeni təsis strukturunun əlverişli olub-olmadığı məsələsi həll olunmalıdır. Hesabat və analizlər aparılmalıdır ki, yaratmış olduğumuz SC istehsal

və təsərrüfat proseslərini daha effektli şəkildə təşkil etməyə imkan verəcək və yenidən yaradılacaq SC-nin istehsal etdikləri mallar rəqabətə davam gətirəcək.

Səhm təkrar ixracı zamanı eldə edilən vəsait investisiya fəaliyyətinin finansmanında istifadə edilir. Bu zaman daha effektli mənbə və finansman mexanizmi işlənib hazırlanmalıdır. Bu zaman biz aksiya emissiya etməli, istiqraz buraxmalı, borc almalı və s. bu kimi məsələləri həll etməliyik. Əgər şirkət yeni emissiya keçirməyi planlaşdırırsa, onda aşağıdakıları müəyyən etməlidir:

- emissiyanın həcmi;
- Səhmlərin yerləşdirilməsi şərtləri;
- Səhmbazarında yerləşdirəcəyi emissiya qiyməti.

Səhm ixracı məsələsini həll etmək üçün aşağıdakı istiqamətlər üzrə analitik işlərin aparılması tələb edilir:

- şirkətin fəaliyyət göstərdiyi sahənin analizi (və yaxud da yeni yaradılacaq şirkətin fəaliyyət sahəsi);
- şirkətin fəaliyyət göstərdiyi sahədə vəziyyətin öyrənilməsi; SC-nin finans vəziyyətinin analizi.

Belə hazırlıq vəziyyətinin nəticəsi olaraq qiymətli kağızın ixrac edilib-edilməməsi məsələsini həll edirik.

Əgər biz səhm ixrac edəcəyimizə qərar veririksə, onda aşağıdakı addımlar atılmalıdır:

- buraxılacaq səhmin növü müəyyən edilir;
- səhmin buraxılması təşkil edilir;
- səhmin emissiya və buraxılma vaxtı əsaslandırılır, aksiyanın ictimai ixracı üçün lazım olan pul vəsaiti müəyyən edilir.

Qanuna və nizamnaməyə uyğun olaraq səhmin buraxılması qərarını emitentin idarəetmə orqanı qəbul edir. Hazırlıq mərhələsi zamanı 2 ən mühüm sənəd tərtib edilməlidir: biznes planı və qiymətli kağızların emissiya layihəsi. Səhmin emissiya layihəsinin işlənib hazırlanması prosesi ikinci mərhələ hesab edilirdi. Bu sənəd də əsasən yeni SC-nin yaradılması və yaxud da əlavə səhm ixrac edilən zaman mühüm əhəmiyyət kəsb edir. Bu normativ sənəddə üç informasiya öz əksini tapmalıdır:

- emitent haqqında əsas məlumatlar;
- onun maliyyə vəziyyətini xarakterizə edən məlumatların olması;
- ixrac ediləcək qiymətli kağızların xarakteristikası. Qiymətli kağızların emissiyasının 3-cü mərhələsi onların buraxılışının qeydiyyatdan keçməsidir.

Səhmin təkrar ixracının qeydiyyatdan keçməsi üçün lazım olan normativ sənədlər aşağıdakılardır:

- qeydiyyatdan keçməsi üçün ərizə;
- səhmin buraxılması qərarı;
- notariusda təsdiq edilən təsis sənədlərinin surətləri;
- emissiya layihəsi (2 nüsxə);
- ödəmə tapşırığının surəti (səhm əməliyyatına görə verginin ödənilməsi haqqında ödəmə tapşırığı surəti.

Qeydiyyatdan keçirən orqanın təqdim olunan sənədlərə heç bir iddiası olmadıqda emitentə aşağıdakı sənədləri verir:

- qeydiyyatdan keçməsi barədə bəyanatın nüsxəsi;
- qiymətli kağızın dövlət qeydiyyatından keçməsi aktını təsdiq edən məktub və ya məktubda aşağıdakılar göstərilməlidir: qeydiyyatdan keçmiş aksiyanın həcmi və xarakteristikası; tarix və dövlət qeydiyyat kodu.

Səhm emissiyasının dördüncü mərhələsi ondan ibarətdir ki, emitent emissiya layihəsi nəşr edir ki, bütün maraqlanan alıcılar informasiyaya sahib olsunlar.

Beşinci mərhələ isə səhmlərin realizasiyasıdır, yəni birinci alıcısına satılmasıdır. Bunu emitentin özü və yaxud da qiymətli kağızlar bazarının peşəkar iştirakçıları olan anderrayterlər də edə bilərlər.

Səhm emissiyasının sonuncu mərhələsi ixracın nəticələri barədə hesabatın verilməsindən ibarətdir. Emitent 2 şəkildə hesabat hazırlamalıdır. Biri aksionerlər üçün, digəri isə dövlət orqanları üçün. Emitent aksionerlər qarşısında illik keçirilən iclasda hesabat verir, dövlət orqanları qarşısında isə qiymətli kağızların yerləşdirilməsi ərzində, həmçinin də bitdikdən sonra hesabat verir. Emitentin təqdim etdiyi hesabata aşağıdakılar daxil edilməlidir.

- Səhm realizasiya qiyməti, sayı, növü və ödəmə forması;
- yerləşdirmənin iştirakçıları barədə (banklar və investisiya institutları);
- emitentin aksiyalarının nəzarət paketinin sahibi haqqında
- nizamnamə kapitalında direktorlar şurası və idarə heyəti üzvlərinin payı barədə və səhmlərin yerləşdirilməsi haqqında olan digər məlumatlar.

6.2. KAPİTAL ANLAYIŞI

Təsərrüfat subyektinin fəaliyyətinin maliyyələşməsi sistemində əsas anlayışlardan biri kapitaldır. Bu kateqoriyanın izah edilməsi üçün üç əsas yaxınaşmanı müəyyən edirlər: iqtisadi, mühasibat və uçot-təhlil.

İqtisadi yaxınlaşma çərçivəsində kapitalın fiziki konsepsiyası yerinə yetirilir və cəmiyyətin gəlirlərinin universal mənbəyi olan və dövlət daxil olmaqla şəxsi (onun daşıyıcısından, yəni insandan uzaqlaşmayan), özəl, ictimai birliklərə bölünən resursların cəmi kimi geniş mənada nəzərdən keçirilir. Kapitalın iki son növünü, öz növbəsində, real və maliyyə növünə ayırmaq olar. Real kapital istehsal amillərində (binalar, maşınlar, nəqliyyat vasitələri, xammal və digərləri) ifadə olunur; maliyə isə qiymətli kağızlarda və pul vəsaitlərində.

Müəssisə səviyyəsində yerinə yetirilən mühasibat yaxınlaşması çərçivəsində "kapital" termini xalis aktivlərin sinonimi kimi çıxış edir, onun həcmi isə müəssisənin aktivlərinin məbləği və onun öhdəliklərinin həcmi arasındakı fərq kimi hesablanır.

Uçot-təhlil yanaşması mahiyyət etibarilə iki əvvəlki yanaşmanın birləşməsidir və kapitalın fiziki və maliyyə konsepsiyalarının modifikasiyasından istifadə edir. Bu halda resurslar cəmi kimi kapital eyni vaxtda iki tərəfdən xarakterizə edilir: a) onun qoyulma istiqamətləri (kapital vahid müstəqil substansiya kimi mövcud deyildir və həmişə bəsi fiziki formaya salınır) və b) yaranma mənbələri kimi (kapital haradan alınmışdır və kimindir). Müvafiq olaraq kapitalın iki bir-biri ilə qarşılıqlı əlaqədə olan müxtəlifliyini ayırırlar: aktiv və passiv. Aktiv kapital – təsərrüfat subyektinin istehsal gücüdür və onun mühasibat balansının aktivində iki blok - əsas və dövriyyə kapitalları formasında formal olaraq təqdim edilmişdir. Passiv kapital – vəsaitlərin uzunmüddətli mənbələridir və onların hesabına subyektlərin aktivləri formalaşmşdır; onlar xüsusi və borc kapitalına bölünmüşdür.

Xüsusi kapital üçüncü tərəflərin tələbləri ödənildikdən sora müəssisə sahiblərinə çatan müəssisə aktivlərinin dəyərinin bir hissəsidir. Formal xüsusi kapital isə balans passivində bu və ya digər dərəcədə ifadə olunmudur; onun əss komponentləri nizamnamə, əlavə və ehtiyat kapitalları, eləcə də paylaşdırılmamış gəlirdir.

Borc kapitalı isə üçüncü şəxslər tərəfindən müəsisəyə uzun müddətə verilən vəsaitlərin pul baxımından qiymələndirilməsi deməkdir. Xüsusidən fərqli olaraq, borc kapitalı qaytarılmalıdır, qaytarılması şərti barədə onun yığılması vaxtında danışılır; o mənada daimidir ki, kapital təchizatçıları nöqteyi-nəzərindən borcun əsas məbləğinin nominal həcmi dəyişmir. Forml olaraq borc kapitalı balansın passivində müəssisənin üçüncü şəxslər qarşısında götürdüyü öhdəliklərinin cəmi kimi ifadə edilmişdir, onun əsas komponentliri isə uuzunmüddətli kreditlər və borclardır.

Uçot-təhlil yanaşmasına əsasən kapitalın həcmi mühasibat balansının üçüncü və dördüncü bölmələrinin yekunlarının məbləği kimi hesablanır.

Maddi-əşya baxımından ifadə olunması nöqteyi-nəzərindən mənbələrin digər bütün növləri kimi kapitalın sahibi göstərilməmişdir, yəni o, müəssisənin müxtəlif aktivlərinə görə yayılmışdır. Bu mənada xüsusi və borc kapitalının olmasını heç bir vaxt belə təsəvür etmək olmaz ki, hesablama hesabındakı vəsaitlərin bir hissəsi xüsusi, bir hissəsi isə borc vəsaitlərdir.

Səhmdar tipli kommersiya təşkilatının yaradılması zamanı, bir qayda olaraq, yeganə maliyyələşmə mənbəyi nizamnamə kapitalıdır. Təşkilatın nizamnamə kapitalı onun əmlakının minimal ölçüsünü müəyyən edir. Biznesin bəzi təşkilati-hüquqi formaları üçün onun həcmi aşağıda məhdudlaşdırılır; o cümlədən, açıq cəmiyyətin minimal nizamnamə kapitalı (MNK) onun qeydiyyat tarixində əməyin ödənilməsi üçün minimal həcmin minqat məbləğindən aşağı, qapalı cəmiyyətin kapitalı isə MNK-nin yüzqat məbləğindən aşağı olmamalıdır.

Cəmiyyətin təsis edilməsi zamanı onun səhmləri cəmiyyətin nizamnaməsi ilə müəyyən edilən müddət ərzində tam ödənilməlidir, bu zaman nizamnamə kapitalının 50%-dən çox olmyan hissəsinin cəmiyyətin yaradılması vaxtı, yerdə qalan hissəsinin isə onun qeydiyyata alındığı andan il ərzində ödənilməsi lazımdır.

Əlavə kapitala müəssisənin əsas vəsaitlərinin, əsaslı tikinti obyektlərinin və digər əmlak obyektlərinin 12 aydan yuxarı sərfəli şəkildə istifadə edilməsi məbləği, eləcə də yerləşdirilmiş səhmlərin (səhmdar cəmiyyətin emissiya gəliri) nominal dəyərindən çox alınmış məbləğ daxildir.

Rezerv kapitalının yaradılması icbari olaraq ayrılan illik vəsaitlərin onlar üçün müəyən edilmiş həcmə çatana qədər həyata keçirilir. Ayrılmış bu vəsaitlərin həcmi müəssisənin nizamnaməsində müəyyən edilir, lakin xalis gəlirin (vergilər üzrə büdcə ilə hesablaşmalardan sonra cəmiyyətin sərəncamında qalan gəlirlər) 5%-dən aşağı ola bilməz.

İlin nəticələrinə görə müəssisə tərəfindən əldə olunan gəlir səhmdar cəmiyyətdə səhm-darların ümumi toplantısının və ya məhdud məsuliyyətli cəmiyyətdə iştirakçıların toplantısının qərarı ilə dividentlərin ödənilməsi, ehtiyat və digər fondların yaradılması, eləcə də ötən illərə görə itkilərin kompensasiya edilməsi və s. üçün bölüşdürülür. Bölüşdürülməyən gəlir, mahiyyət etibarilə müəssisənin aktivlərinə yenidən investisiya edilir; o balansda xüsusi vəsaitlərin mənbəyi kimi göstərilir. Gəlirin yerdə qalan hissəsi isə səhmdarların növbəti iclaslna qədər dəyişməz qalır.

6.3. BANK KAPİTALININ FUNKSİYASI

Xüsusi kapital bilavasitə banka mexsus olan vəsaitlərdir. Xüsusi kapital öz çəkisinə görə ümumi kapitalda az bir hissəni təşkil etsə də, kredit təşkilatının normal fəaliyyətini təmin etmək üçün mühüm funksiyalan yerinə yetirir. Bıı funksiyalar aşağıdakılardan ibarətdir: müdafiə funksiyası, operativ funksiya, tənzimləmə tunksiyası[8].

Müdafiə funksiyası. Məlum olduğıı kimi, bank resurslarının 90%-ə qədəri əmanətçilər tərəfmdən maliyyələşdirilir. Buna görə də kommersiya banklarımn səhmdar kapitalmın və ona bərabər tutulan vəsaitlərin əsas fiınksiyası əmanətçilərin maraqlarının müdafiəsidir. Bu flınksiya banklarm ləğv ola biləcəyi vəya hər hansı bir səbəbdən öz fəaliyyətirii dayandıra biləcəyi halda əmanətçilərə dəymiş zərərin əvəzinin ödənilməsini nəzərdə tutur. Xüsusi kapital, bankların normal fəaliyyətini təmin edən resurs ehtiyatının yaradılması yolu ile bankın ödəmə qabiliyyətini qoruyub saxlayır. Nəzərə almaq lazımdır ki, zərərlər bütövlükdə kapital hesabına deyil, cari resurslar hesabına ödənilir, örtülür. Cari aktivlər kifayət etmədikdə, banklar bu məqsəd üçün xüsusi kapitaldan istifadə edə bilər. Firma, müəssisə və təşkilatlardan fərqli olaraq bank ödəmə qabiliyyətini qorumaq üçün bu vasitəyə əl ata bilir. Bankın səhmdar kapitah toxunulmaz olduğu bütün hallarda o ödəmə qabiliyyətli sayılır. Bu, o halda mümkündür ki, bankın aktivləri bütün öh-dəliklərdən təmin olunmamış öhdəliklərin və səhmdar kapitahn cəmini çıxdıqdan sonra qalan hissəsinə bərabər və ya ondan çox olsun.

Kapitalın müdafiə funksiyası postsovet məkanı ölkələrinin bank sistemləri üçün aktual və xüsusi əhəmiyyət kəsb edən məsələdir. Bu ölkələrdə hələ ki, tam sabit iqtisadi vəziyyət təmin edilmədiyinə, bank sistemlərində obyektiv və subyektiv səbəbdən rəqabətin gözlənilməz vüsətlə inkişaf etdiyinə, etibarlı, güclü informasiya bazası mövcud olmadığına, qeyri-düzgün bank siyasəti apanldığına, əmanətlərin sığortası sisteminin

[8] Bağırov M.M. Bank işi. Bakı, 2003.

olmadığma görə çox vaxt bankların sıradan çıxması və əmanətçilərin öz vəsaitlərini itirməsi halları baş verir. Ona görə də, bu cür halda hər bir bank üçün xüsusi kapitalın olması onun etibarlığını, likvidliyini təmin edən ən vacib şərt kimi çıxış edir.

Operativ funksiya. Hər bir kommersiya bankma normal, səmərəli fəaliyyətə başlamaq üçün ilkin start kapitalı lazımdır. Həmin kapital bina, qurğular, torpaq sahələri, texniki vəsaitlər almaq və həmçinin nəzərdə tutulmayan itkilərin bağlanmasını operativ həll üçün etmək lazımdır. Bu məqsədi həyata keçirmək üçün müxtəlif mənbələrdən və xüsusi kapitaldan da istifadə oiuna bilər. Bu halda o, operativ funksiyanı yerinə yetirmiş olur.

Tənzimləmə funkiyası. Bankların xüsusi vəsaiti qeyd olunan funksiyalarla yanaşı həm də tənzimləmə funksiyasıns yerinə yetirir. Bu flınksiya əsasən cəmiyyətin bankların səmərəli fəaliyyətində marağı və mövcud qanunların, qaydaların, icra mexanizminin banklar tərəfindən heyata keçirilən əməliyyatlara dövlət orqanlarının nəzarət etmək imkanlan yaratması və mövcudluğu ilə bağlıdır. Bank resurslarmm quruluşu müxtəlif əlamətlərdən, məsələn, onlann ixtisaslaşma və universallaşma dərəcəsindən, fəaliyyət istiqaməti və xüsusiyyətlərindən, borc resursları bazarınm vəziyyətindən və həmçinin ölkədəki iqtisadi vəziyyətdən ası-lıdır. Bir qayda olaraq, universal bankların fəaliyyətində qısamüddətli kreditləşmə əsas yer tutur. Onlar cəlb etmə mənbəyi kimi qısamüddətli depozitlərə, investisiya bankları isə qiymətli kağızların alınmasına, müəssisələrin, səhmdar cəmiyyətlərin, dövlətin kapital qoyuluşlan kimi istifadə etdikləri xüsusi məqsədli fondlara və digər kredit və maliyye institutlanndan alınan uzunmüddətli istiqrazlara üstünlük verirlər. Banklarm əsas məqsədi isə daha etibarh, sabit maliyyə vəziyyətinə malik müştərilərə kredit verməklə resurslannı artırmaq və güclü resurs bazası yaratmaqdan ibarətdir. Qeyd etmək lazımdır ki, bütün banklar aralarındakı fərqlərdən asılılayaraq, resurs bazasını yalnız likvidlik təmin olunduğu hallarda artıra bilir. Bankların xüsusi vəsaitinin quruluşu öz keyfiyyət tərkibinə görə yekcins deyildir və il ərzində müxtəlif amillərin təsiri ilə dəyişə bilir. Bu amillərin biri əldə olunan mənfəətdən istifadə xarakteridir.

Avropa ölkələrində səhmdar kommersiya banklarının nizamnamə kapitalı satılmış səhmlərdən daxil olmuş vəsaitlər hesabma formalaş.ır. Lakin nizamnamə kapitalı təkcə daxil olmuş pul vəsaitləri hesabına deyil, həm də maddi və qeyri-maddi aktivlərin, həmçinin üçüncü şəxsin qiymətli kağızları hesabına da formalaşa bilər. Təhlillər göstərir ki, bir çox bankların nizamnamə kapitahnın 70%-dən çoxu maddi aktivlərin payına düşür. Bu isə bankların bu vəsaitlərdən kredit resurslan kimi istifadə etmək imkanlarını azaldır, ödəmə qabiliyyətini və likvidliyini zəiflədir. Analoji vəziyyət nizamnamə kapitalında qeyri-maddi aktivlərin payı çox olduğu halda da özünü büruzə verir.

Bankların xüsusi kapitalı onların aktiv əməliyyatlarının artınlmasının mənbəyi, əsasıdır. Bu vəsaitlər olrhadan bank özünün normal fəaliyyətini qura bilməz, ödəmə qabiliyyətliyini, Ukyjdliyini təmin edə bilməz. Bir sözlə, kredit təşküctt kimi onun mövcudluğu mümkün olmaz. Ona görə də hər bir bank üçün xüsusi kapitalm mənbələrinin tapılması və artırılması çox əhəmiyyətlidir. Bela maflbələr rolunda, digpr mənbəiəriə yanaşı bankın ehtiyatları daxil olmaqla keçmiş illərin bölüşdürülməmiş mənfəəti, qiymətli kağızlarm əlavə bura-xıhşlarının yerləşdirilməsi, həmçinin yeni payçıların tapüması, cəlb edilməsi ola bilər.

Xüsusi kapitahn idarə edilməsi bankların yüksək mənfəət əldə etməsində və passivlərin dayanıqlığınm təmin edilməsində yüksək ehəmiyyətə malik rol oynayır. Xüsusi kapitalın idarə edilməsinin mühüm üsuüarından biri dividend siyasətidir. Ölkədə qeyri - sabit maliyyə vəziyyəti, həmçinin mükəmməl, inkişaf etməmiş fond bazarı şəraitində banklar adətən xüsusi kapital artımmı mənfəətin toplanması hesabına təmin edirler. Dividendlərin kapitallaşması səhmdar kapitalın artmamasının heç də həmişə ən asan və daha ucuz başa gələn üsulu deyildir. Bununla yanaşı banklar düzgün olaraq müəyyən edirlər ki, onlann səhmlərinin məzənnəsi ödənən dividendlərin səviyvəsindən asılıdır. Dividendlərin artımı səhmlərin məzənnə-lərinin artımına səbəb olur. Səhmlərdən yüksək gəlir əldə olunması əlavə səhm satışı hesabına kapitalın artımmı təmin edir.

İri banklar pul resurslarımn cəlb edilməsinin səmərəli metodu, üsulu kimi səhm emissiyasından istifadə edirlər. Kommersiya bankları həm adi səhmlərin, həm də imtiyazlı

səhmlərin (müddətsiz, məhdud müddətli, adi səhmlərə mübadilə edilən) emissiyasını həyata keçirirlər.

Yüksək imicə malik olan iri banklar fond bazarında öz səhmlərini yerləşdirmək imkanına malik olurlar. Bu üsul ilə banklar səhmlərin məzənnəsi vasitəsi ilə manevr edərək dividendlərin səviyyəsini müəyyənləşdirir, səmərəli əməliy-yatlar həyata keçirərək əlavə mənfəət əldə edirlər. Kiçik banklar üçün isə bu yol ilə əlavə resurs cəlb etmək çətindir. Onlar üçün bu yolla xüsusi kapitah artırmaqdansa əmanətçilərin resurslarını cəlb etmək daha asarı və ucuzdur.

Xarici ölkələrin bank praktikasında xüsusi kapitahn artımı üsulu kimi istiqrazların buraxılmasından da istifadə edilir. Böyüyən və inkişaf etməkdə olan banklar öz inkişafını maliyyələşdirmək üçün uzunmüddətli kapitala ehtiyac duyur və öz kapitalmın strukturunda ona üstünlük verirlər. Bu ehtiyac istiqraz emissiyası vasitəsi ilə ödənilir.

1988-ci ilin iyul ayında Bazeldə (Isveçrədə) iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin mərkəzi bankları şəxsi kapitalın kifayətliliyinin ümumi hesablama qaydasını ("Kuka əmsalı") müəyyən etmişlər. Bu əmsal bankın şəxsi kapitalı ilə riskin səviyyəsi üzrə ölçülən balans və qeyri-balans aktivlər arasındakı minimum nisbəti müəyyən edir. 1994-cü ildə müxtəlif ölkələrin mərkəzi banklarında Kuka əmsalından kommersiya banklarının şəxsi kapitalının kifayətliliyinə dair tələblərin müəyyən olunması zamanı baza oriyentiri kimi istifadə olunmuşdur. Verilən normativin kəmiyyəti birinci dərəcəli kapitala münasib olaraq 4%-dən az olmamalıdır; kommersiya bankının ümumi şəxsi kapitalının aktivlərə nisbəti riskin dərəcəsi ölçülməklə 8%-dən aşağı olmamalıdır.

Milli bankların şəxsi kapitalının kifayətlilik dərəcəsi ilə bağlı tələblərin hazırlanması zamanı verilən standartlardan Azərbaycanda da istifadə olunur. Hazırda, Azərbaycanda yeni bank açmaq üçün 10 milyon manat tələb edilir.

6.4. ÖHDƏLİKLƏRİN LİKVİDLİK GÖSTƏRİCİLƏRİ

Likvidlik – bankın balans və balansarxası öhdəliklərini (bundan sonra – öhdəliklər) yerinə yetirmək, cəlb olunmuş vəsait mənbələrində baş vermiş və/və ya gözlənilən dəyişiklikləri effektiv tənzimləmək, habelə əlavə xərclərə yol vermədən aktivlərin planlaşdırılmış artımını maliyyələşdirmək qabiliyyətidir. Yəni, bankın likvidliyi – bankın ona təqdim oluna bilən maliyyə tələbləri üzrə öz aktivlərinin pul vəsaitlərinə çevrilməsi hesabına hesablaşma aparmaq qabiliyyətidir. Bankın likvidliyi onun bank öhdəliklərinin ödənişi üçün onda nəzəri cəhətdən kifayət qədər məbləğdə olan likvid aktivlərin olmasını nəzərdə tutur.

Bank Likvidlik riski – planlaşdırılmış və gözlənilməyən öhdəliklərin vaxtında və effektiv yerinə yetirilə bilməməsi, əlavə likvid vəsaitin əldə edilməsi, həmçinin bankın aktivlərinin minimal zərərlə dərhal satılması üzrə imkanların azalması riskidir.

Likvidliyin təhlil edilməsi üçün ödəniş müddətlərinin bölgüsü - ödəniş müddəti eyni dövrə düşən aktiv və öhdəliklərin bölgüsüdür.

Bankın likvidliyi kredit resurslarının cəlb olunması və yerləşdirilməsi miqdarına və müddətinə uyğun olaraq müəyyən olunur. Belə ki, bank tərəfindən aktiv əməliyyatların aparılması nəticəsində nağd pulun daxil olması bankın borcunun ödənilməsi üçün vacib olan nağd pulun miqdarı və müddəti ilə nadir hallarda üst-üstə düşür.

Öhdəliklərin likvidlik göstəricisi öhdəliklərin yerinə yetirilmə ehtimalına, həmçinin öhdəliklərin sahibinin banka verilmiş vəsaitləri tələb etmək hüququna əsasən müəyyən edilir. Bank tərəfindən cəlb edilmiş vəsaitlərin geri tələb edilməsi ehtimalı və hüququ nə qədər çox olarsa, öhdəliklərin likvidlik göstəricisi də bir o qədər yüksək olur. Öhdəliklər aşağıdakı likvidlik kateqoriyaları üzrə təsnifləşdirilir:

1. Yüksək likvidli (cari) öhdəliklər - bu öhdəliklərə bankların müxbir hesabları və "overnayt" depozitləri də daxil olmaqla bütün cari hesablar; tələbli depozitlər, ödəniş müddəti 30 gün və ya bundan az olan müddətli öhdəliklər (o cümlədən, bankın buraxdığı qiymətli kağızlar), icra müddəti başa çatmış öhdəliklər, müqaviləyə əsasən vəsaitlərdən istifadəyə başlanması tarixinə məhdudiyyət qoyulmayan və geri çağırıla bilinməyən açılmış kredit xətləri aid edilir.

Mərkəzi Bankdan cəlb edilmiş borc vəsaitləri yüksək likvidli (cari) öhdəliklərə aid edilmir.

Müddəti başa çatmış öhdəliyin icrası bankdan tələb edilmədikdə və tərəflər arasında bağlanmış müqavilə şərtləri əsasında eyni müddətə uzadılmış hesab edildikdə, həmin öhdəlik yüksək likvid (cari) öhdəliklərə aid edilmir.

2. Orta likvidli öhdəliklər – bu öhdəliklərə müddəti 30 gündən 365 günədək olan müddətli öhdəliklər (o cümlədən, bankın buraxdığı qiymətli kağızlar), ödəniş müddəti bir ildən çox olan, lakin müqaviləyə əsasən kreditora həmin öhdəliyi vaxtından əvvəl tələb etmək hüququ verən borc öhdəlikləri aid edilir.

3. Aşağı likvidli öhdəliklər – bu öhdəliklərə müddəti 365 gündən çox olan öhdəliklər aiddir.

Bank tərəfindən onun fəaliyyətinin müxtəlif sahələrinin idarə edilməsi və nəzarəti üzrə Öhdəliklərin idarə olunması ən azı aşağıdakıları əhatə etməlidir: son illərin tendensiyaları, mövsümi amillər, faiz dərəcəsinin dəyişdirilməsinə həssaslıq və digər makroiqtisadi amillər nəzərə alınmaqla, bank tərəfindən cəlb edilmiş vəsaitlərin həcminin monitorinqi; depozitlərin həcminin monitorinqi (o cümlədən, bankların və digər hüquqi şəxslərin depozitləri, "overnayt" əməliyyatları); depozit və digər öhdəliklər üzrə ödəmə müddətlərinin monitorinqi; bankın əsas öhdəliklərinin kreditorları üzrə daimi monitorinqin aparılması və onlarla əlaqələrin dəstəklənməsi; öhdəliyin növü, öhdəlik üzrə kreditor və onun yerləşdiyi ərazi nəzərə alınaraq öhdəliyin mənbələri üzrə cəmləşmənin monitorinqi; balansarxası öhdəliklərin monitorinqi.

Yüksək likvidli (cari) öhdəliklər kimi təsnifləşdirilmiş ödəniş müddəti 8 gündən 30 günədək olan öhdəliklər (o cümlədən, bankın buraxdığı qiymətli kağızlar) bankın ani likvidlik əmsalının hesablanmasında nəzərə alınmır.

likvidlik əmsalları.

1. Yüksək likvidli aktivlərin ümumi aktivlərin məbləğinə olan nisbəti.

2. Cari aktivlərin yüksək likvidli (cari) öhdəliklərə olan nisbəti (cari likvidlik əmsalı). Cari aktivlərə yüksək likvidli aktivlərdən əlavə ödəniş müddəti 30 gün, yaxud bundan az olan aktivlər daxildir. 1-ci və 2-ci əmsalların azalma meylləri yüksək keyfiyyətli aktivlərin azalmasını, yaxud bankın adətən qısa müddətlərə cəlb edilmiş dəyişkən vəsait mənbələrinə daha çox arxalanmasını göstərir. Bu azalma təkcə likvidlik vəziyyətinin pisləşməsi meylini deyil, həmçinin maliyyələşdirmə strategiyasında baş vermiş məqbul hesab edilən dəyişiklikləri də göstərə bilər.

3. Yüksək likvidli (cari) öhdəliklərin aktivlərin ümumi məbləğinə olan nisbəti. Bu əmsal aktivlərin qısamüddətli öhdəliklərlə maliyyələşdirilməsi səviyyəsini ölçür. Bu rəqəmin yüksək olması bankın qeyri-sabit maliyyələşmə mənbələrindən yüksək asılı olmasını göstərir.

4. Yüksək likvidli (cari) öhdəliklərin ümumi öhdəliklərin məbləğinə olan nisbəti. Bu əmsal ilk problemlər yarandıqda bankı tərk edə biləcək vəsaitləri qiymətləndirir. Əgər bankda iri məbləğdə yüksək likvid öhdəliklər mövcuddursa, bank daha ciddi fövqalədə likvidlik planı hazırlamalıdır.

5. Kreditlərin depozitlərə olan nisbəti. Bu əmsalda kreditlərə banklararası kreditlər istisna olmaqla digər müştərilərə verilmiş xalis kreditlər (zərərin ödənilməsi üçün yaradılmış məqsədli ehtiyatlar çıxılmaqla), depozitlərə isə bankların depozitləri istisna olmaqla bankda olan müştərilərin depozitləri aiddir. Bu əmsal bankın hesabına kredit portfelinin maliyyələşdirilməsi səviyyəsini qiymətləndirir. Əmsalın artımı bankın daha çox qeyri-sabit maliyyələşmə mənbələrinə (məsələn, qısamüddətli borclar) üstünlük verdiyini göstərir.

6. Girov qoyulmuş qiymətli kağızların bütün qiymətli kağızlara olan nisbəti. Bu əmsal likvidliyə olan tələbatı ödəmək üçün istifadə edilə bilməyən, girov qoyulmuş qiymətli kağızların faizlə ifadəsini göstərir.

7. Yerli maliyyə bazarlarından cəlb olunmuş vəsaitlərin cəminin xarici bazarlardan cəlb olunmuş vəsaitlərin cəminə olan nisbəti. Bu əmsal bankın yerli və xarici bazarlardan cəlb edilmiş vəsaitlərinin cəmləşməsinin tənzimlənməsi üçün nəzərdə tutulur.

8. Tələbli depozitlərin və bankların müxbir hesablarının sabit qalıqlarının cəminin öhdəliklərin ümumi məbləğinə nisbəti. Bu əmsal tələbli depozitlərin və müxbir hesabların sabit qalıqlarının öhdəliklərin hansı hissəsini təşkil etdiyini müəyyən edir. Sabit qalıq dedikdə bir il ərzində hesabda sabit olaraq qalan və hesabdan çıxarılmayan məbləğ başa düşülür.

Bankın likvidlik mövqeyinin effektiv proqnozlaşdırılması üçün bank ayda bir dəfədən az olmayaraq likvidlik vəziyyətinin stress-testini həyata keçirməlidir.

Stress-testin ssenarisinin hazırlanmasında banka və onun fəaliyyətinin xüsusiyyətlərinə (bank əməliyyatlarının və məhsullarının növünə, cəlb edilmiş vəsaitlərin mənbələrinə) aid olan, bazarda cari və proqnozlaşdırılan vəziyyətlə bağlı fərziyyələr, habelə reytinq agentlikləri tərəfindən verilmiş reytinqlərin təsiri kimi meyarlar əsas götürülməlidir.

Stress-testin keçirilməsi zamanı müqavilə ilə müəyyən edilən müddətli aktiv və öhdəliklərin məbləğlərinin hər zaman onların likvid dəyərini real əks etdirmədiyi nəzərə alınır.

Öhdəliklər üzrə stress-test fərziyyələri aşağıdakılardan ibarət ola bilər:

1. müddətli öhdəliklərin sahibləri tərəfindən vəsaitlərin vaxtından əvvəl geri götürülməsi;
2. cari və müxbir hesablarda vəsaitlərin azalması;
3. müştərilərin depozitlərinin valyutasının dəyişdirilməsi;
4. iri depozitlərin geri çağırılması;
5. banklar və digər maliyyə qurumlarından alınmış vəsaitlərin vaxtından əvvəl geri çağırılması;
6. kredit xətləri üzrə müqavilə şərtlərinin pozulması (vaxtından əvvəl bağlanması, nəzərdə tutulmuş vəsaitlərin tam həcmdə və ya vaxtında ayrılmaması.

Bank tərəfindən likvidlik vəziyyətinin dəyişməsinin inkişafının "ən pis", "ən yaxşı" və "ehtimal olunan" ssenariləri tərtib olunmalı və yuxarıda qeyd olunan fərziyyələr daxil olmaqla hər bir ssenari üçün ayrıca meyarlar müəyyən edilməlidir.

Bundan əlavə bank rəhbərliyinin, habelə müvafiq səlahiyyətli əməkdaşlarının məlumatlandırılması məqsədilə hesabatlıq sistemi aşağıdakı məlumatları özündə cəmləşdirməlidir:

1. öhdəliklərin cəmləşməsi barədə məlumat: ən iri vəsait təminatçıları öhdəliklərin sahibləri, onların fəaliyyət sahələri və coğrafi ərazi üzrə toplanması, resursların növü (cari hesab, müddətli depozit, banklararası kredit), vəsaitin məbləği, faiz dərəcəsi və digər məlumatlar;
2. ən qısa müddət ərzində satıla bilən aktivlərin siyahısı;
3. hazırda təminat qismində yerləşdirilmiş və əlavə vəsaitlər tələb olunarsa təminat qismində yerləşdirilə və ya gələcəkdə yenidən maliyyələşdirilə bilən aktivlərin siyahısı;
4. kreditlərin və digər öhdəliklərin geri qaytarılması, gələcəkdə əldə ediləcək əsas vəsaitlərin və uzunmüddətli investisiyaların maliyyələşdirilməsi üzrə plan (bankdaxili) və proqnozlar (bankdankənar təsir nəzərə alınmaqla);
5. aktivlərin gəlirliyi və bank əməliyyatlarının aparılması üçün müxtəlif resursların dəyəri (maliyyələşmə mənbələri üçün mövcud olan və proqnozlaşdırılan qiymətlər);
6. bazarda mövcud vəziyyətin, habelə öhdəliklərinin diversifikasiyası məqsədilə bankın bazara çıxış imkanlarının və qısa müddət ərzində aktivlərin satılmasını təmin edə bilmək bacarığının qiymətləndilməsi üzrə mütəmadi məlumat.

6.5. BANK MƏCMU KAPİTALI

BANK KAPİTALININ VƏ ONUN ADEKVATLIĞININ HESABLANMASI QAYDALARI - Azərbaycan Respublikasında fəaliyyət göstərən kommersiya bankları və xarici bankların yerli filialları (irəlidə - banklar) üçün kapitalın tərkib hissələrini (komponentlərini), habelə bank nəzarəti üzrə Bazel Komitəsinin müəyyən etdiyi prinsiplərə müvafiq surətdə kapitalın adekvatlıq əmsallarını və onların hesablanması qaydalarını müəyyən edir. QAYDALARDA "Məcmu kapitalın əsas məqsədi bank ləğv edildiyi zaman vəsaitini bölüşdürməklə depozitlər (əmanətlər) və ya digər kreditor borclar üzrə itkilərin ödənilməsi ilə onun öhdəliklərinin icrasını təmin etməkdir" deyə qeyd edilir. Bu vəsait bankın ödəmə qabiliyyətliyinin itirilməsinə gətirib çıxara bilən mümkün zərərləri azaldır və bank sisteminəəmanətçilərin və potensial investorların inamını artırır. Məcmu kapitalın formalaşması və artırılmasına yönəldilən vəsaitlər (investisiyalar) pul şəklində Azərbaycan Respublikasının milli valyutasında ödənilir. Bankın fəaliyyəti dövründə onun məcmu kapitalının minimum miqdarı Mərkəzi Bankın tələbindən, adekvatlıq əmsalları isə

bu Qaydalarda müəyyən edilmiş səviyyədən aşağı olarsa, zərərin baş verdiyi hallar istisna olmaqla bank kapitalının komponentləri azaldıla bilməz (o cümlədən dividendlərin nağd şəkildə verilməsi hesabına).

AMB kredit riskləri ilə yanaşı bank fəaliyyətinə aid olan digər riskləri (əməliyyat və valyuta riskini, daxili nəzarətin, yaxud ekspertizanın kifayət qədər olmaması riskini, ölkə riskini, aktivlərin eyni bir iqtisadi sahədə, yaxud coğrafi zonada cəmləşməsi riskini və s.), habelə bankın maliyyə vəziyyətini nəzərə alaraq onun minimum məcmu kapitalına və adekvatlıq əmsallarının səviyyəsinə qarşı tələbləri öhdəliklərininin təmin edilməsi məqsədi ilə fərdi qaydada artıra bilər.

Heç bir şəxs bankın nizamnamə kapitalında mühüm iştirak payını, o cümlədən nizamnamə kapitalındakı mövcud payını mühüm iştirak payına çatdıran əlavə payı, habelə mühüm iştirak payını artıraraq səsvermə hüququ olan səhmlərin və ya nizamnamə kapitalının 20 faizinə, 33 faizinə, 50 faizinə çatmasına və ya bu miqdarı keçməsinə, yaxud bankı həmin şəxsin törəmə strukturuna çevrilməsinə gətirib çıxaran iştirak payını AMB-nin qabaqcadan icazəsini almadan əldə edə bilməz.

Hər bir bank məruz qaldığı kredit, bazar (o cümlədən, bazar riskinin tərkibinə daxil olan faiz və məzənnə riskləri), əməliyyat və likvidlik risklərinin xüsusiy-yətinə uyğun məcmu kapitalın adekvatlığının qiymətləndirilməsi prosedurlarına və kapitalın adekvat səviyyədə saxlanılması strategiyasına malik olmalıdır.

Məcmu kapitalın idarə edilməsi ilə bağlı strategiya və bankdaxili prosedurlar bankın İdarə Heyəti tərəfindən hazırlanmalı, MüşahidəŞurası tərəfindən təsdiq edilməli və bankın müvafiq əməkdaşlarına çatdırılmalıdır.

I dərəcəli kapital bankın əsas kapitalı hesab olunur və onun məbləği (aparılan "tutulmalardan" sonra) bankın hesablanmış məcmu kapitalında 50 faizdən az olmamalıdır. I dərəcəli kapitala aşağıdakı komponentlər daxil edilir:

1. Dövriyyəyə buraxılıb tam ödənilmiş adi səhmlər (bankın geri aldığı adi səhmlər çıxılmaqla);

2. Dövriyyəyə buraxılıb tam ödənilmiş qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər;

3. Səhmlərin emissiyasından əmələ gələn əlavə vəsait (kapital artıqlığı);

4. Keçmiş illərin bölüşdürülməmiş xalis mənfəəti;

5. Bankın konsolidasiya olunmuş törəmə cəmiyyətlərində azlıq təşkil edən səhmdarların (payçıların) kapitalı;

6. Xüsusi subordinasiya borc öhdəlikləri.

Keçmiş illərin bölüşdürülməmiş xalis mənfəətinə aşağıdakılar daxil edilir:

1. cari ilin zərəri çıxılmaqla bütün əvvəlki illərin yığılıb bölüşdürülməmiş mənfəəti;

2. kapital ehtiyatları, yəni əvvəlki illərin bölüşdürülməmiş mənfəəti hesabına yaradılmış fondlar.

II dərəcəli Kapital. II dərəcəli kapital **əlavə kapitaldır.** Bankın hesablanmış məcmu kapitalında II dərəcəli kapitalın məbləği I dərəcəli kapitalın məbləğindən (aparılan "tutulmalardan" sonra) çox olmamalıdır. Bundan artıq olan hissə məcmu kapitalın hesablanması zamanı nəzərə alınmır.

II dərəcəli kapitala aşağıdakı komponentlər daxil edilir:

1. cari ilin bu tarixə olan mənfəəti;

2. ümumi ehtiyatlar (balans aktivlərinin və balansdankənar öhdəliklərin risk dərəcəsi üzrə ölçülmüş məbləğinin (aparılan «tutulmalar»dan sonra) 1,25 faizinədək, lakin "adi" ehtiyatların məbləğindən çox olmayan hissəsi);

3. kapitalın digər komponentləri:

3.1. kumulyativ müddətsiz imtiyazlı səhmlər;

3.2. ən azı 5 il müddətinə buraxılmış subordinasiya borc öhdəlikləri (ödənişinə qalan son 5 ildə II dərəcəli kapitala daxil edilmək üçün onların məbləği hər il 20 faiz azaldılır). II dərəcəli kapitalın hesablanmasında nəzərə alınan subordinasiya borc öhdəliklərinin məbləği I dərəcəli kapitalın (aparılan "tutulmalar"dan sonra) 50%-dən çox olmamalıdır.

Bank məcmu kapitalınının qiymətləndirmə prosesi. Bank mütəmadi olaraq məcmu kapitalını, onun adekvatlığını, məruz qaldığı riskləri və bu risklərin xüsusiyyətlərinin dəyişməsinin kapitala təsirini qiymətləndirməlidir. Qiymətləndirmə prosesinə ən azı aşağıdakı əsas elementlər daxil olmalıdır:

1. bütün mühüm risklərin müəyyənləşdirilrməsi, ölçülməsi və onların bankın məcmu kapitalının adekvatlığına təsirinin qiymətləndirməsi;

2. bankın təyin edilmiş kapital adekvatlığı hədəflərinə nail olunmasının qiymətləndirilməsi;

3. məcmu kapitalın qiymətləndirilməsi sistemində istifadə edilən əsas fərziyyələrin həssaslığının vəəsaslandırılmaların qiymətləndirməsi;

4. risklər üzrə hesabatlar əsasında bankın gələcəkdə məcmu kapitala olan tələbatın qiymətləndirilməsi və lazım gəldikdə strateji planda (biznes planda) müvafiq düzəlişlərin edilməsi.

Qiymətləndirmənin nəticələri bankın rəhbərliyinə təqdim edilməlidir. Bununla əlaqədar bankda müvafiq hesabatlıq prosedurları müəyyən edilməlidir.

Bank məcmu kapitalın adekvatlığını təmin etmək məqsədilə kapitalın və risklərin idarə edilməsi prosesləri. Bank məcmu kapitalın adekvatlığını təmin etmək məqsədilə kapitalın və risklərin idarə edilməsi proseslərini müntəzəm olaraq təhlil etməlidir. Təhlil aşağıdakı istiqamətlər üzrə aparılmalıdır:

1. fəaliyyətinin xüsusiyyəti, həcmi və mürəkkəbliyi nəzərə alınmaqla məcmu kapitalın qiymətləndirilməsi prosesinin yararlığı;

2. məcmu kapitalın əsas risklər səviyyəsi ilə düzgün əlaqələndirilməsi;

3. qiymətləndirmə zamanı istifadə edilən məlumatların dürüstlüyü və dolğunluğu;

4. qiymətləndirmə zamanı istifadə olunan fərziyyə, model və ssenarilərin əsaslandırılması və etibarlılığı.

Risklərin və bankın məcmu kapitalının qiymətləndirilməsi və idarə edilməsi proseslərinə ildə bir dəfədən az olmayaraq daxili audit vasitəsilə səmərəli nəzarət həyata keçirilməli və nəticələr barədə rəhbərliyə hesabat verilməlidir. Məcmu kapitalın strukturuna birinci (I) dərəcəli və ikinci (II) dərəcəli kapital daxildir.

Kapitaldan tutulmalar. Kapitalın adekvatlıq əmsalları hesablanmazdan əvvəl kapitaldan aşağıda göstərilənlər çıxılır ("tutulmalar" aparılır):

1. I dərəcəli kapitaldan – bütün "qeyri-maddi" aktivlərin xalis dəyəri;

2. Məcmu kapitaldan – bankın investisiyalar üçün yaratdığı "məqsədli" ehtiyatlar çıxılmaqla konsolidasiya olunmamış törəmə cəmiyyətlərinə, habelə digər hüquqi şəxslərin kapitalına vəsait qoyuluşları.

6.6. KAPİTALIN ADEKVATLIQ ƏMSALI

1988-ci ilin iyul ayında Bazeldə (Isveçrədə) iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin mərkəzi bankları şəxsi kapitalın kifayətliliyinin ümumi hesablama qaydasını ("Kuka əmsalı") müəyyən etmişlər. Bu əmsal bankın şəxsi kapitalı ilə riskin səviyyəsi üzrə ölçülən balans və qeyri-balans aktivlər arasındakı minimum nisbəti müəyyən edir. 1994-cü ildə müxtəlif ölkələrin mərkəzi banklarında Kuka əmsalından kommersiya banklarının şəxsi kapitalının kifayətliliyinə dair tələblərin müəyyən olunması zamanı baza oriyentiri kimi istifadə olunmuşdur. Verilən normativin kəmiyyəti birinci dərəcəli kapitala münasib olaraq 4%-dən az olmamalıdır; kommersiya bankının ümumi şəxsi kapitalının aktivlərə nisbəti riskin dərəcəsi ölçülməklə 8%-dən aşağı olmamalıdır.

Mərkəzi bankların şəxsi kapitalının kifayətlilik dərəcəsi ilə bağlı tələblərin hazırlanması zamanı verilən standartlardan Azərbaycanda da istifadə olunur. Hazırda, Azərbaycanda yeni bank açmaq üçün 10 milyon manat tələb edilir.

Bütün banklar məcmu kapitalın adekvatlıq əmsalını 12 faizdən və I dərəcəli kapitalın adekvatlıq əmsalını 6 faizdən az olmayan səviyyədə saxlamağa borcludurlar.

Kapitalın adekvatlıq əmsalları hesablanmazdan əvvəl risk dərəcəsi üzrə ölçülmüş aktivlərdən aktivlər üzrə zərərin ödənilməsi üçün "məqsədli" ehtiyatlar ("tutulmalar") çıxılır.

Kapitalın adekvatlıq əmsallarına dair tələblər və onların hesablanması

Bütün banklar məcmu kapitalın adekvatlıq əmsalını 12 faizdən və I dərəcəli kapitalın adekvatlıq əmsalını 6 faizdən az olmayan səviyyədə saxlamağa borcludurlar.

Məcmu kapitalın, risk dərəcəsi üzrə ölçülmüş aktivlərin və kapitalın adekvatlıq əmsallarının hesablanması aşağıdakı düsturlarla aparılır:

Məcmu kapital = I dərəcəli kapital - I dərəcəli kapitaldan"tutulmalar" + II dərəcəli kapital - məcmu kapitaldan "tutulmalar";

Risk dərəcəsi üzrə ölçülmüş aktivlər = risk dərəcəsi üzrə ölçülmüş balans aktivləri + risk dərəcəsi üzrə ölçülmüş balansdankənar öhdəliklər - risk dərəcəsi üzrə ölçülmüş aktivlərdən "tutulmalar";

2010-cu ilin sonuna Azərbaycan bank sisteminin məcmu kapitalının həcmi 1,9 mlrd. manat olmuşdur. I dərəcəli kapitalın məcmu kapitalda payı 80%, mənfəətin payı 8,9% olmuşdur.

Bank sisteminin məcmu kapital adekvatlığı yüksək səviyyədə qalmış (16,9%) və Mərkəzi Bankın müəyyən etdiyi minimal normanı (12%) xeyli üstələmişdir.

Aktivlərin və kapitalın artım tempində disbalansların neytrallaşdırılması, bank sisteminin sabitliyini təmin etmək, aktivlərin köpüklərinin yaranmasının qarşısını almaq, bank aktivlərinin sağlam artımını təmin etmək məqsədilə Mərkəzi Bank tərəfindən 2010-cu ilin sonunda yeni leverec[9] əmsalı tətbiq olunmuşdur. Banklar leverec əmsalını 8 faizdən az olmayan səviyyədə saxlamağa borcludurlar.

QANUNLAR, NORMATIV SƏNƏDLƏR VƏ TƏLIMATLAR

1) AR MB. Bankların likvidliyinin idarə olunması haqqında Qaydalar
2) Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları
3) Banklarda risklərin idarə olunması haqqında Qaydalar

ƏDƏBİYYAT

1.Bağırov M. Bank işi. Bakı, 2003.
2.Ibrahimov Z. Pul, kredit və banklar (suallara cavab). Bakı, 2009.
3. Банковское дело. Учебник. М.: Проспект, 2008.
4. Банковское дело Управление и технологии под ред. Тавасиева Учебник 2005. 671с.
5. Банковское дело. под ред. Коробовой Г.Г. - Учебник 2006 -766с.
6. Банковское дело: современная сист. кредитования. под ред. Лаврушин М.- 2007.
7. Банковское дело . МФПА, 2005
8.Банковское дело. под ред. Лаврушина О.И. М.- 2007.
9.Банковское дело. под ред. Коробовой Г.Г. М.- 2006.
10.Банковские риски. Издательство: КноРус, 2008 .
11.Банковский менеджмент. Издательство: КноРус, 2010 .
12.Банковский маркетинг. Издательство: МФПА 2004.

[9] Leverec əmsalı – bankın I dərəcəli kapitalının balans aktivlərinə və balansdankənar öhdəliklərə (qarantiyalar, zəmanətlər və kredit xətti üzrə öhdəliklərin icra olunmamış hissəsi) nisbəti kimi hesablanır.

VII FƏSİL. BANKLARIN AKTİV ƏMƏLİYYATLARI VƏ AKTİVLƏRIN TƏHLÜKƏSİZLİYİ

ƏSAS ANLAYIŞLAR

Aktivlər – bankın bütün kreditləri, investisiyaları, pul vəsaitləri və əmlakıdır (bank işində istifadə olunmayan əmlak da daxil olmaqla). Aktivlər standart və qeyri-standart aktivlər qrupuna bölünürlər. Standart aktivlər qrupuna "qənaətbəxş aktivlər" və "nəzarət altında olan aktivlər", qeyri-standart aktivlər qrupuna "qeyri-qənaətbəxş aktivlər", "təhlükəli aktivlər" və "ümidsiz aktivlər" aiddir.

Kredit – bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (komisyon haqları) ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir. Həmin şərtlərlə pul vəsaitlərinin verilməsi haqqında götürülmüş hər hansı öhdəlik, qarantiya, zəmanət, borc qiymətli kağızlarının diskontla və ya faizlər alınmaqla satın alınması və müqaviləyə əsasən hər hansı formada verilmiş vəsaitin qaytarılmasını tələb etməklə bağlı digər hüquq da kredit anlayışına aiddir.

Vaxtı keçmiş kredit - əsas məbləğ (və ya onun hissəsi), yaxud onlara hesablanan faizlər və ya hər hansı birinin ödənilməyən hissəsi üzrə ödənişləri müqavilədə göstərilən tarixdən 30 təqvim gündən artıq gecikdirilən kreditdir.

Tam təminatlı kredit – elə kreditdir ki, onun vaxtında və tam qaytarılmasını təmin etmək üçün həmin bankda yerləşdirilmiş depozitlərlə və ya bazar dəyəri bu kreditin ödənilməmiş məbləğinə bərabər və ya ondan artıq olan girovla (daşınmaz əmlakla təmin olunmuş kreditlər üzrə girovun bazar dəyəri kreditin minimum 150%-i həcmində) və ya digər təminatla təmin edilmişdir (bu Qaydalarda girov dedikdə ipotekalar da başa düşülür).

Qismən təminatlı kredit - bazar dəyəri kreditin ödənilməmiş məbləğindən aşağı olan girovla və ya digər təminatla təmin edilmiş kreditdir.

Təminatsız kredit - təminatı olmayan kreditdir və ya təmin edilən təqdirdə, bu təminatın bazar dəyəri yoxdur, etibarlı şəxs tərəfindən verilməmişdir, yaxud dəyərindən asılı olmayaraq qanunvericiliyə uyğun olaraq rəsmiləşdirilməmişdir.

Restrukturizasiya olunmuş kredit – bu elə kreditdir ki, adi şəraitdə bankın güzəştə getmədiyi, lakin borclunun maliyyə vəziyyətinin pisləşməsi səbəbindən o, qaytarılmasını təmin etmək məqsədilə müqavilədə nəzərdə tutulduğundan daha əlverişli şərtlərlə yenidən rəsmiləşdirilmişdir (məsələn, faiz dərəcəsi azaldılmış, yaxud hesablanmış faizlərin alınması hüququndan tam və ya qismən imtina edilmiş, yaxud borcalan tərəfindən ödəniş aparılmadan əsas və faiz borclarının məbləği azaldılmış və qaytarılma müddəti uzadılmış kreditlər).

Yüksək risklə təsnifləşdirilmiş aktiv - qeyri-qənaətbəxş, təhlükəli və ya ümidsiz təsnifləşdirmə kateqoriyasına aid edilmiş aktivdir.

Bazar dəyəri - "ədalətli satışın" bütün şərtlərinə əməl etməklə açıq bazarda əmlakı almaq üçün ehtimal olunan ən münasib qiymətdir. Ədalətli satış dedikdə aşağıdakılar başa düşülür: tam məlumatlı satıcının və alıcının hərəkətləri müstəqildir; onların hər ikisi kənardan təsir olmadan maraqları mövqeyindən çıxış edir.

Hesablama metodu ilə hesablanmayan aktiv - faizlərinin hesablanması dayandırılmış aktivdir.

Yığılma prosesində olan kredit - borcalan tərəfindən ödəniş şərtləri pozulmuş elə kreditdir ki, onun məhkəmə iddiası irəli sürmədən borcalan tərəfindən, yaxud zəruri tədbirlər görməklə təminat hesabına qaytarılması və ya əlavə təminat hesabına onun qaytarılması üçün məhkəmə qərarının müvafiq vaxt ərzində verilməsi ehtimalı vardır.

Faizin kapitallaşdırılması - müqaviləyə əsasən ödənilmə vaxtı çatmış faizlərin ödənilməmiş hissəsinin kreditin qalıq məbləğinə əlavə olunmasıdır. Kapitallaşdırılmış faizə müddəti uzadılmış, yaxud yeni kredit kimi rəsmiləşdirilmiş faizlər də aiddir.

Qeyri-işlək kredit - faizinin hesablanması dayandırılmış, yaxud əsas məbləğinin və ya faizinin ödənişi müqavilədə nəzərdə tutulmuş müddətlərdən 90 gün və ya daha çox gecikdirilmiş, faizi kapitallaşdırılmış və ya yeni kredit kimi rəsmiləşdirilmiş, yaxud faizinin ödəniş müddəti

uzadılmış kreditlər, habelə faizinin ödəniş müddəti 90 gün və ya daha çox gecikdirilmiş overdraftlardır.

Qeyri-işlək kreditin məbləği - ödənilməmiş faiz məbləği istisna olmaqla kreditin əsas məbləğinin ödənilməmiş qalığıdır.

İşlək kredit - qeyri-işlək kredit kateqoriyasına daxil edilməyən kreditdir.

Zərərin ödənilməsi üçün ehtiyatlara ayırmalar - təsnifləşdirilən aktivlər üzrə mümkün (gözlənilən və ya gözlənilməyən) zərərin ödənilməsi üçün xərclərə aid edilən xüsusi ehtiyatların məbləğidir.

Xüsusi ehtiyatlar- aktivlər üzrə zərərin ödənilməsi üçün "adi ehtiyatlar"a və "məqsədli ehtiyatiar"a bölünür. Xüsusi ehtiyatlar konkret bir və ya bir qrup aktivlə əlaqədar mümkün zərərin ödənilməsi üçün istifadə olunur.

Aktivlər üzrə zərərin ödənilməsi üçün "adi ehtiyatlar" - bankın "standart aktivlər"i üzrə mümkün zərərin ödənilməsi üçün yaradılmış ehtiyatdır.

Aktivlər üzrə zərərin ödənilməsi üçün "məqsədli ehtiyatlar" - bankın "qeyri-standart aktivlər"i üzrə mümkün zərərin ödənilməsi üçün yaradılmış ehtiyatdır.

Banklararası tələblər - müəyyən müddətə və ya tələb olunanadək bir bank tərəfindən digər bankda yerləşdirilmiş depozitlər və ya "nostro"müxbir hesab qalıqlarıdır.

Ödəmələrə görə balansa götürülmüş daşınmaz əmlak - borcalanın borcunun tam və ya qismən ödənilməsi məqsədi ilə bank tərəfindən balansa götürülən daşınmaz əmlakdır. Təsnifləşdirmə məqsədi ilə bu anlayışa əldə edılməsı mənbəyindən asılı olmayaraq keçmişdə bankın və ya onun struktur bölmələrinin ofisləri kimi istifadə edilmiş, hazırda istifadə olunmayan və istifadəsi nəzərdə tutulmayan binalar və tikililər də daxildir.

Ödəmələrə görə balansa götürülmüş daşınar əmlak - nəqliyyat vasitələri, ava-danlıqlar (daşınmaz əmlaka birbaşa bağlanmamış daşınar əmlak), qiymətli kağızlar, digər daşınar əmlak və maliyyə aktivləri daxil olmaqla, borcalanın borcunun tam və ya qismən ödənilməsi məqsədi ilə bank tərəfindən üzərində mülkiyyət hüququ əldə edilən daşınar əmlakdır.

Qeyd olunmuş dəyər - kreditin əsas məbləğinin ödənilməmiş hissəsidir. Kredit olmayan aktivin "qeyd olunmuş dəyəri" onun əldə edilməsi qiymətidir.

Kreditin ümumi dəyəri - kreditin "qeyd olunmuş dəyər"i ilə bu kredit üzrə bütün hesablanıb alınmamış faizlər, komissiyon haqları və digər ödənişlər daxil olmaqla ödənilməmiş məbləğlərin cəmidir.

Likvid aktiv - Ehtiyac yarandığı zaman sərbəst və rahat şəkildə nağd pul vəsaitinə çevrilən, reallaşdırıla bilən vəsait, aktiv. Pul özlüyündə likvid aktiv he sab olunur.

Likvid qiymətli kağızlar -1) İnvestor tərəfindən sahibi olduğu qiymətli kağızları (səhmləri, istiqrazları və s.) əldə etdiyindən daha yüksək dəyərə, yəni mənfəət əldə etməklə reallaşdıra bilmə qabiliyyəti. Başqa sözlə, qiymətlikağızların likvidliyi onlara bazar tələbinin yüksək olmasını ifadə edir; 2) istənilən növ qiymətli kağızın nağd pul vəsaitinə çevrilə bilinməsi imkanları, qabiliyyəti. Bu zaman gəlirliyin təmin olunması şərti tələb olunmur.

7.1. BANKLARIN AKTİV ƏMƏLİYYATLARIN MAHİYYƏTİ

Aktivlər - əvvəlki dövrlərdə baş vermiş hadisələr nəticəsində bank tərəfindən nəzarət edilən və gələcəkdə bank tərəfindən iqtisadi səmərə alınması gözlənilən vəsaitlərdir. Hər bir bankın məqsədi, maksimum mənfəət əldə etməkdir. Bunun üçün banklar aktiv əməliyyatlardan istifadə edir.

Aktivdə əks olunan gələcək iqtisadi səmərə banka aşağıdakı yollarla daxil olur:

1. aktiv, bank tərəfindən göstərilən xidmətlərdən ayrılıqda və ya digər aktivlərlə əlaqəli şəkildə istifadə olunduqda;
2. aktiv, digər aktivlərlə mübadilə olunduqda;
3. aktiv, öhdəliklərin ödənilməsi üçün istifadə olunduqda;
4. aktiv, bankın sahibləri arasında bölüşdürüldükdə.

Bir çox aktivlər, məsələn, əsas vəsaitlər fiziki formaya malikdir. Lakin fiziki forma, aktivin mövcudluğunu müəyyən etmək üçün əsas deyil, belə ki, patentlər və müəlliflik hüququ fiziki

formaya malik olmamasına baxmayaraq, aktiv hesab olunur, çünki bank tərəfindən onlardan gələcəkdə iqtisadi səmərə əldə etmək gözlənilir və nəzarət olunur. Həmçinin mülkiyyət hüququnun olması da aktivin mövcudluğu üçün birinci dərəcəli hesab edilmir. Belə ki, əgər bank əldə olunması gözlənilən mənfəətə nəzarət edirsə, icarə olunan əmlak da aktiv kimi tanınır. Bankın aktivləri əvvəlki dövrlərin əməliyyatları və digər hadisələr nəticəsində yaranır. Yaranmış xərclər və yaradılmış aktivlər arasında sıx əlaqə mövcuddur, lakin bunlar uyğun olmaya da bilər. Belə ki, bank xərc həyata keçirdikdə, nəzərdə tutulur ki, bu xərc gələcəkdə mənfəət əldə etmək məqsədi güdür, lakin bu o demək deyil ki, aktiv kimi tanınan obyekt yaranmışdır. Həmçinin müvafiq xərclərin istisna olması, maddənin aktiv kimi tanınmasına mane olmur və mühasibat balansında tanına bilər.

Hər bir bank mühasibat balansında aparılan aktiv əməliyyatların xarakterinə əsaslanaraq, qısamüddətli və uzunmüddətli aktivlər ayrı-ayrılıqda təsnifləşdirilir.

Aktivlər aşağıdakı hallarda qısamüddətli aktiv kimi təsnifləşdirilr:

1. aktiv satılmaq üçün saxlanıldıqda və ya bankın əməliyyat prosesinin normal şəraitində istifadə edilmək üçün nəzərdə tutulduqda;

2. aktiv əsas etibarı ilə kommersiya məqsədləri üçün və ya qısa vaxt müddətində saxlanıldıqda və hesabat tarixindən etibarən on iki ay ərzində realizə edilməsi nəzərdə tutulduqda;

3. aktiv istifadəsi üzrə heç bir məhdudiyyət olmayan pul vəsaitləri və ya onların ekvivalenti hesab edildikdə.

Bütün digər aktivlər uzunmüddətli aktivlər kimi təsnifləşdirilməlidir.

Bank aktiv və öhdəlikləri likvidlik səviyyəsini əks etdirən ardıcıllıqla və onların xarakteri üzrə qruplaşdıraraq mühasibat balansında əks etdilir.

Mühasibat balansına aşağıdakı aktiv maddələr daxil edilir:

- nağd pul və digər ödəniş vasitələri;
- qızıl və digər qiymətli metallar;
- Mərkəzi Bankdakı hesablar;
- maliyyə sektoruna verilmiş kreditlər və avanslar;
- müştərilərə verilmiş kreditlər və avanslar;
- qiymətli investisiya kağızları;
- qeyri-maddi aktivlər;
- əsas vəsaitlər;
- digər aktivlər.

Aktivlər – bankın bütün kreditləri, investisiyaları, pul vəsaitləri və əmlakıdır (bank işində istifadə olunmayan əmlak da daxil olmaqla). Aktivlər standart və qeyri-standart aktivlər qrupuna bölünürlər. Standart aktivlər qrupuna "qənaətbəxş aktivlər" və "nəzarət altında olan aktivlər", qeyri-standart aktivlər qrupuna "qeyri-qənaətbəxş aktivlər", "təhlükəli aktivlər" və "ümidsiz aktivlər" aiddir.

Beləliklə, aktiv əməliyyatların nəticələri bankın balansmın aktiv hissəsində əks etdirilir, bu göstəricilər əsasında bankm resurslarının yerləşdirilməsi xarakteri, onlardan istifadənin səmərəliliyi yoxlanılır və təhlil edilir.

Aktivlərin keyfiyyətinin qiymətləndirilməsinin əsas məqsədi bankın aktivlərinin keyfiyyətinin nəticələrinin sənədləşdirilməsidir. Qiymətləndirmə zamanı bütün riskli aktivlər, o cümlədən bütün kreditlər təhlil olunur və onlara Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün ehtiyatlarin yaradilmasi qaydalarına uyğun olaraq müvafiq reytinqlər verilir (müvafiq təsnifləşdirmə kateqoriyalarına aid edilir). Bank müntəzəm keçirilən qiymətləndirmənin köməyi ilə problemli aktivlər üzrə risklərin azaldılması üçün vaxtında lazımi tədbirlər görməli və kredit portfeli üzrə mümkün zərərləri minimuma endirməyə qadir olmalıdır.

1 yanvar 2011-ci il tarixinə Azərbaycanda bank sisteminin aktivləri 13,3 mlrd. Manat təşkil edir.

7.2. AKTİVLƏRIN TƏSNİFLƏŞDİRİLMƏSİ[10]

Təsnifləşdirmə borclunun maliyyə vəziyyətinin təhlili, onun öz borcunu ödəmək qabiliyyəti və istəyi əsasında aparılır. Buna görə də borclunun öz borcunu ödəmək qabiliyyəti və istəyi çox mühüm amil hesab edilməklə təsnifləşdirmə zamanı nəzərə alınır.

I. Qənaətbəxş aktivlər. Qənaətbəxş aktivlər yüksək keyfiyyətli aktivlərdir. Bu kateqoriyaya aşağıdakı şərtlərin bir neçəsinə qaydaların 5.4.1-ci bəndində nəzərdə tutulan hal istisna olmaqla cavab verən aktivlər aiddir:

1. əsas məbləği və faizləri nağd vəsaitlə və ya onun əvəzedicilərinın girovu ilə (məsələn, bankda milli və sərbəst dönərli xarici valyutada yerləşdirilmiş depozitlərlə, xəzinə vekselləri ilə) tam təmin olunmuş kreditlər (bu şərt aktivin bu kateqoriyaya aid edilməsinə kifayətdir);

2. əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti kredit müqaviləsinə uyğun ödənilən (geçikdirilmiş borcu olmayan) işlək kreditlər;

3. əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti kredit müqaviləsində müəyyən olunmuş tarixdən 30 günədək gecikdirilmiş (vaxtı keçməmiş) 10 min manatadək təminatsız və məbləğindən asılı olmayaraq tam təminatlı işlək kreditlər;

4. sabit, likvid, yaxşı kapitallaşdırılmış, gəlirli və işgüzar borcalanlara verilmiş işlək kreditlər;

5. bank qarşısında öz borc öhdəliklərini uzun müddət müntəzəm yerinə yetirən etibarlı müştərilərə verilmiş işlək kreditlər.

"Qənaətbəxş aktivlər" kateqoriyasına aid edilmiş kreditlərin qaytarılması ilə bağlı heç bir problem olmasa da, banklar bu növ kreditlər üçün onun "qeyd olunmuş dəyər"inin 2 faizi həcmində adi ehtiyatlar yaradırlar.

II. Nəzarət altında olan aktivlər. Nəzarət altında olan aktivlərin potensial çatışmazlıqları vardır və onların aradan qaldırılmaması və ya qaydaya salınmaması aktivlərin keyfiyyətinin pisləşməsinə səbəb ola bilər. Bu kateqoriyaya aşağıdakı şərtlərin bir neçəsinə cavab verən aktivlər aiddir:

1. əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti kredit müqaviləsində müəyyən olunmuş tarixdən 60 günədək (vaxtı 30 günə kimi keçmiş) geçikdirilmiş 10 min manatdan yuxarı təminatsız işlək kreditlər;

2. əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti kredit müqaviləsində müəyyən olunmuş tarixdən 31 gündən 60 günədək (vaxtı 30 günə kimi keçmiş) gecikdirilmiş 10 min manatadək təminatsız işlək kreditlər;

3. əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti kredit müqaviləsində müəyyən olunmuş tarixdən 31 gündən 90 günədək (vaxtı 60 günə kimi keçmiş) gecikdirilmiş tam təminatlı işlək kreditlər;

4. qaytarılma müddəti bir dəfə uzadılmış tam təminatlı və yığılma prosesində olan kreditlər. Lakin bu zaman faiz borcları kapitallaşdırılmamalı, onlar tam ödənilməli və kreditin vaxtının uzadılması borclunun maliyyə vəziyyətinin pisləşməsi ilə əlaqədar olmamalıdır. Bunun üçün bankda borclunun maliyyə vəziyyətinin sağlam olmasını sübut edən maliyyə hesabatları olmalıdır;

5. borcalan maliyyə hesabatlarını (balans hesabatı, mənfəət və zərərlər haqqında hesabat və pul vəsaitinin hərəkəti barədə hesabat), yaxud krediti vaxtında ödəmək qabiliyyətini sübut edən digər əməliyyat sənədlərini və ya biznes-planını təqdim etmədikdə;

6. bankın təcrübəsinin kifayət qədər olmamasına və ya kredit və girov müqaviləsinin qeyri-adekvatlığına görə bankın lazımi qaydada nəzarət edə bilməyəcəyi kreditlər;

7. təminatın vəziyyətinin pisləşməsinin əlamətləri müşahidə olunduqda;

8. iqtisadi şəraitin dəyişkənliyinin borcluya təsir ehtimalı, yaxud artıq təsir göstərməyə başlaması müşahidə olunduqda;

---

[10] Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün ehtiyatların yaradılması qaydaları - aktivlərin təsnifləşdirilməsi və aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyat fondlarının (irəlidə - "ehtiyatlar") yaradılması qaydalarını müəyyən edir.

9. borclunun əməliyyatlarında əlverişsiz meyllər meydana çıxdıqda (məsələn, borclunun satdığı məhsula tələbat aşağı düşdükdə, məhsulun istehsalına sərf olunan xammalın qiyməti artdıqda və s.).

Banklar "nəzarət altında olan aktivlər" kateqoriyasına aid edilmiş kreditlər üçün onun "qeyd olunmuş dəyər"inin 10 faizi həcmində adi ehtiyatlar yaradırlar.

III. Qeyri-qənaətbəxş aktivlər. Qeyri-qənaətbəxş aktivlər borcun tam ödənilməsini təhlükə qarşısında qoya bilən konkret problemlər xasdır. Müəyyən hallarda "qeyri-qənaətbəxş" aktivlərə borclu barədə bankın maliyyə informasiyası olmadığından (məsələn, bankdan ilk dəfə kredit götürən müştəri barədə və s.), yaxud təminatlar barədə adekvat sənədlərin olmaması səbəbindən normal risk dərəcəsini keçən aktivlər də aid edilir. Belə halların yaranması təminatı borcun ödənilməsinə yönəltməyə mane olur. Bu kateqoriyaya aşağıdakı şərtlərin bir neçəsinə cavab verən aktivlər aiddir:

1. əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti kredit müqaviləsində müəyyən olunmuş tarixdən 61 gündən 120 günədək gecikdirilmiş təminatsız kreditlər;

2. əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti kredit müqaviləsində müəyyən olunmuş tarixdən 91 gündən 180 günədək gecikdirilmiş tam təminatlı kreditlər;

3. qeyri-işlək kreditlər;

4. qaytarılma müddəti iki dəfə uzadılmış (kredit müqaviləsi təkrarən iki dəfə rəsmləşdirilmiş) tam təminatlı və yığılma prosesində olan kreditlər. Lakin ikinci dəfə "nəzarət altında olan aktivlər"də olduğu kimi faizlər kapitallaşdırılmamalı və tam ödənilməli, borclunun maliyyə vəziyyətinin sağlam olması isə maliyyə hesabatları əsasında sübut olunmalıdır;

5. borclunun fəaliyyəti zamanı ona daxil olan pul axınları borca xidmət şərtləri ilə qeyri-adekvat olduqda;

6. borclu zərərlə və ya kiçik mənfəətlə işlədikdə;

7. təminatın vəziyyəti pisləşdikdə, yaxud təminat itirildikdə (natura formasında və ya hüquqi baxımdan);

8. borcun əsas ödəniş mənbələri borcu ödəmək üçün kifayət etmədikdə və bank əlavə ödəniş mənbələri (məsələn, təminat, əmlakın satışı, borclu sahibkar tərəfindən yeni kapitalın cəlb olunması və s.) axtarıb tapmaq məcburiyyəti qarşısında qaldıqda.

Banklar "qeyri-qənaətbəxş aktivlər" kateqoriyasına aid edilmiş kreditlər üçün onun "qeyd olunmuş dəyər"inin 30 faizi həcmində məqsədli ehtiyatlar yaradırlar.

IV. Təhlükəli aktivlər. "Qeyri-qənaətbəxş" aktivlərə xas olan xüsusiyyətlərlə yanaşı, Təhlükəli aktivlərin yaxşı təminatı olmur (yəni texniki, hüquqi və ya iqtisadi səbəbdən girovun reallaşdırılması çətinləşir). Bu çatışmazlıqlar səbəbindən mövcud faktlar və şərtlər əsasında borcların tam geri qaytarılması böyük şübhə doğurur və onun ödəniş ehtimalı çox azdır. Lakin zərər ehtimalı yüksək olsa da, aktivi möhkəmləndirə biləcək "mühüm və kifayət qədər konkret amillər" mü-zakirədə olduğuna görə onun "ümidsiz aktivlər" kimi təsnifləşdirilməsi təxirə salınır. Müzakirədə olan "mühüm və kifayət qədər konkret amillərə" müəssisənin nəzərdə tutulan birləşməsi, satılması, yaxud ləğv edilməsi, gözlənilən əlavə kapital axını, əlavə təminatın əldə edilməsi və yenidən maliyyələşdirmə planları aiddir. Bu kateqoriyaya aşağıdakı şərtlərin bir neçəsinə bu Qaydaların 5.10.5-ci bəndində nəzərdə tutulan hal istisna olmaqla cavab verən aktivlər aiddir:

1. "qeyri-qənaətbəxş aktivlər" kateqoriyasında göstərilmiş şərtlərə malik olan aktivlər;

2. əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti kredit müqaviləsində müəyyən olunmuş tarixdən 121 gündən 180 günədək gecikdirilmiş təminatsız qeyri-işlək kreditlər;

3. əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti kredit müqaviləsində müəyyən olunmuş tarixdən 181 gündən 360 günədək gecikdirilmiş tam təminatlı qeyri-işlək kreditlər;

4. qaytarılma müddəti üç dəfə uzadılmış (kredit müqaviləsi təkrarən üç dəfə rəsmləşdirilmiş) tam təminatlı kreditlər;

5. restrukturizasiya olunmuş kreditlər (bu şərt aktivin bu kateqoriyaya aid edilməsinə kifayətdir).

Banklar "təhlükəli aktivlər" kateqoriyasına aid edilmiş kreditlər üçün onun "qeyd olunmuş dəyər"inin ödənilməmiş məbləğinin 60 faizi həcmində məqsədli ehtiyat fondları yaradırlar.

V. Ümidsiz aktivlər. Ümidsiz aktivlərin keyfiyyəti çox aşağı olduğundan onların qaytarılması ümidsiz hesab edilir və dəyəri faktiki olaraq itirildiyi üçün bank aktivləri kimi onların uçotunun davam etdirilməsi özünü doğrultmur. Bu aktivlərin qismən ödənişi mümkün olsa da belə aktivlərin ödənilməsi cəhdləri uzun müddət tələb etdiyindən onların silinməsini təxirə salmağın mənası yoxdur. Bununla belə, əgər bu aktivlər balansda saxlanılırsa, müvafiq qərar qəbul olunanadək onları tam bağlamaq üçün ehtiyatlar yaradılır. Belə kateqoriyaya aşağıdakı şərtlərin birinə və ya bir neçəsinə cavab verən aktivlər aiddir:

1. əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti kredit müqaviləsində müəyyən olunmuş tarixdən 180 gündən çox gecikdirilmiş təminatsız kreditlər;
2. təminatından asılı olmayaraq əsas məbləği və ya faiz borclarının qaytarılma müddəti kredit müqaviləsində müəyyən olunmuş tarixdən 360 gündən çox gecikdirilmiş kreditlər;
3. borclu borcunu ödəməyə qadir olmadıqda və borcun ödənilməsi üçün əlavə mənbələrin olmadığı müəyyən edildikdə;
4. qaytarılma müddəti üç dəfədən çox uzadılmış (kredit müqaviləsi təkrarən üç dəfədən çox rəsmləşdirilmiş) kreditlər;
5. girovsuz (təminatsız) və ya bazarın olmaması səbəbindən girovu satıla bilməyən kreditlər (bu şərtlər bu növ təsnifləşdirmə üçün yeganə əsas olmamalıdır);
6. borclu banka olan krediti ödəməkdən boyun qaçırdıqda (bu şərt bu növ təsnifləşdirmə üçün yeganə əsas olmamalıdır);
7. borclu müflis elan edildikdə;
8. müxbir bankın lisensiyası məcburi ləğv edildikdə;
9. borclu hər hansı bir səbəbdən artıq bizneslə məşğul olmadıqda və ya fəaliyyət göstərmədikdə (sahibkar hüquqi və fiziki şəxslərə kommersiya məqsədləri üçün verilmiş kreditlər üzrə);
10. borclunu tapmaq mümkün olmadıqda (qanunvericilikdə müəyyən olunmuş qaydada həmin şəxs haqqında əməliyyat axtarış tədbirlərinə başlanması üçün səlahiyyətli dövlət orqanlarına müraciət olunduqda).

Banklar "ümidsiz aktivlər" kateqoriyasına aid edilmiş kreditlər üçün onun "qeyd olunmuş dəyər"inin 100 faizi həcmində məqsədli ehtiyatlar yaradırlar.

Təsnifləşdirmə prosesində təminatın rolu

Banklar təminata kreditlərin ödənilməsinin əsas mənbəyi kimi baxmamalıdır. Təminatın likvidliyinin və onun bazar dəyərinin aktivlərin təsnifləşdirilməsində əhəmiyyətini nəzərə alaraq banklar onun qiymətləndirilməsi üzrə daxili qaydalar hazırlayıb tətbiq edirlər. Bütün təminatlar aşağıdakı kimi likvid və qeyri-likvid qruplara bölünürlər:

Likvid təminata aşağıdakılar aiddir: Azərbaycan Respublikasının hökuməti adından Maliyyə Nazirliyi, yaxud qanunvericiliyə əsasən belə səlahiyyətlərə malik olan digər hökümət orqanları, habelə AMB tərəfindən buraxılan qiymətli kağızlar və qeyd edilən orqanlar tərəfindən verilmiş şərtsiz qarantiyalar (zəmanətlər); bankın depozit hesabında olan və girov kimi saxlanılan milli və sərbəst dönərli valyutalardakı pul vəsaitləri; İƏİT-ə daxil olan ölkələrin dövlət qiymətli kağızları; banka girov haqqında müqaviləyə əsasən verilən standartlaşdırılmış qiymətli metallar (külçələr).

Qeyri-likvid təminata aşağıdakılar aiddir: qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş qaydada təminat kimi rəsmiləşdirilmiş girovlar; qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdiilmiş təminatın digər növləri.

Bank işində istifadə olunmayan aktivlərin (əmlakın) təsnifləşdirilməsi

Ödəməmələrə görə bankın balansına götürülmüş bank işində istifadə olunmayan daşınmaz əmlak aşağıdakı şərtlərdən asılı olaraq təsnifləşdirilir və onlar üçün ehtiyatlar yaradılır: ödəməmələrə görə bankın balansına götürülən daşınmaz əmlak dəyərindən asılı olmayaraq qeyri-sağlam aktivlərdir və onlar təhlil olunur; ödəməmələrə görə bank balansına götürülmüş daşınmaz əmlakı, habelə əvvəllər istifadə etdiyi əsas vəsaitləri istifadə olunmadığı andan 3 ildən artıq balansda saxlaya bilməz. Əks halda, AMB-nin "Bankların əsas vəsaitlərlə (əmlakla) apardıqları

əməliyyatların tənzimlənməsi Qaydaları" ilə müəyyən olunmuş əlavə müddətin verildiyi hal istisna olmaqla, bank daşınmaz əmlakı yaratdığı müvafiq ehtiyatlar hesabına balansdan silir.

Ödəmələrə görə bankın mülkiyyətinə keçmiş tarixdən bank işində istifadə olunmayan daşınmaz əmlak aşağıdakı kimi təsnifləşdirilir və onun üçün müvafiq xüsusi ehtiyatlar yaradılır: daşınmaz əmlakın bazar dəyəri onun balans dəyərindən çox olduqda o, birinci il balans dəyəri məbləğində ən azı "qeyri-qənaətbəxş aktivlər" kimi təsnifləşdirilir; daşınmaz əmlakın bazar dəyəri balans dəyərindən az olduqda o, birinci il bazar dəyəri məbləğində ən azı "qeyri-qənaətbəxş aktivlər" kimi, fərq isə "ümidsiz aktivlər" kimi təsnifləşdirilir.

Bir illik müddət başa çatdıqdan sonra bankın balansında ödəmələrə görə qalmış daşınmaz əmlak ən azı "təhlükəli aktivlər" kateqoriyasına aid edilir.

Üç illik müddət başa çatdıqdan sonra ödəmələrə görə balansa götürülmüş daşınmaz əmlak (AMB-nin "Bankların əsas vəsaitlərlə (əmlakla) apardıqları əməliyyatların tənzimlənməsi Qaydaları" ilə müəyyən olunmuş əlavə müddətin verildiyi hal istisna olmaqla) "ümidsiz aktivlər" kateqoriyasına keçirilərək balansdan silinir. Balansdan silinən daşınmaz əmlak müvafiq balansdankənar hesabda uçota alınır.

Ödəmələrə görə balansa götürülmüş daşınar əmlakın təsnifləşdirilməsi və onun üçün müvafiq xüsusi ehtiyatın yaradılması aşağıdakı kimi həyata keçirilir: daşınar əmlak bank tərəfindən fərdi qaydada təhlil edilib təsnifləşdirilir.

Ödəmələrə görə balansa götürülmüş bank işində istifadə olunmayan daşınar əmlak üzərində mülkiyyət hüququ əldə edildiyi tarixdən onun 120 gün müddətinə realizə edilməsi üçün bütün zəruri tədbirlər görülür. Ödəmələrə görə bank balansa götürülmüş daşınar əmlaka dair mülkiyyət hüququ əldə etdiyi tarixdən etibarən onu aşağıdakı kimi təsnifləşdirir və onun üçün müvafiq xüsusi ehtiyatlar yaradır: daşınar əmlakın bazar dəyəri balans dəyərindən çox olduqda o, 60 gün ərzində balans dəyəri məbləğində ən azı "qeyri-qənaətbəxş aktivlər" kimi təsnifləşdirilir; daşınar əmlakın bazar dəyəri balans dəyərindən az olduqda o, 60 gün ərzində bazar dəyəri məbləğində ən azı "qeyri-qənaətbəxş aktivlər", fərq isə "ümidsiz aktivlər" kimi təsnifləşdirilir; 60 günlük müddət başa çatdıqdan sonra bankın balansında ödəmələrə görə qalmış daşınar əmlak ən azı "təhlükəli aktivlər" kateqoriyasına aid edilir. 120 günlük müddət başa çatdıqdan sonra ödəmələrə görə balansa götürülmüş daşınar əmlak "ümidsiz aktivlər" kimi təsnifləşdirilərək balansdan silinir. Balansdan silinən daşınar əmlak müvafiq balansdankənar hesabda uçota alınır. Ödəmələrə görə götürülmüş əmlak (daşınmaz və daşınar) üzərində bank mülkiyyət hüququnu əldə etdikdə əmlak onun bazar dəyəri ilə kreditin ümumi dəyərinin müqayisəli aşağı məbləği ilə balansda uçota alınır.

Balansdankənar öhdəliklərin təsnifləşdirilməsi və ehtiyata dair tələblər.

İcrası mümkün ola bilən balansdankənar öhdəliklər gözlənilməyən risklərlə bağlı olduğundan banklar tərəfindən təsnifləşdirilir. Bu öhdəliklərə əsasən kreditin verilməsinə dair öhdəliklər, kredit xətləri, qarantiyalar, akkreditivlər və banklar tərəfindən verilən digər potensial öhdəliklər aiddir. Bu Qaydaların məqsədləri üçün balansdankənar öhdəliklərlə bağlı risklər kredit riskləri kimi tanınır və bu növ risklər və onun xüsusiyyətləri bank rəhbərləri tərəfindən nəzərə alınır. Bu məqsədlə gözlənilə bilən riskləri müəyyən etmək üçün bank qarşısında öhdəlik götürdüyü müştəridən borcu ödəmək qabiliyyətini müəyyən edə bilən maliyyə hesabatlarının təqdim olunmasını tələb edir. Müvafiq əməliyyatları həyata keçirən banklar aşağıdakıları nəzərə almaqla balansdankənar öhdəlikləri bu Qaydaların 5-ci bəndində müəyyən olunmuş şərtlər əsasında təsnifləşdirirlər: təsnifləşdirmə balansdankənar öhdəliyin yarandığı tarixdən aparılır və onlar üzrə xüsusi ehtiyatlar borclunun gözlənilən öhdəliklərinin ödənilməsində potensial risk ehtimalı olduqda yaradılır; qarantiya, akkreditiv və banklar tərəfindən verilən digər potensial öhdəliklər balans aktivlərinə çevrildiyi andan ən azı "nəzarət altında olan aktivlər" kateqoriyasına aid edilir; kredit xəttinin qalıq hissəsi ən azı, müqavilədə başqa şərtlər nəzərdə tutulmadığı halda, bank tərəfindən faktiki verilmiş hissənin təsnifləşdirmə kateqoriyasına aid edilir.

Bank mümkün zərərlərin ödənilməsi üçün yaradılmış ehtiyatların aktivlər üzrə adekvatlığını müəyyən etmək üçün onları ayda ən azı bir dəfə qiymətləndirir. Ehtiyatların yaradılmaması və ya

lazımi səviyyədə saxlanmaması faktları əmanətçilərin və digər kreditorların vəsaitlərini təhlükəyə məruz qoyur və qeyri-sağlam bank fəaliyyəti kimi qiymətləndirilir.

Bankın aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün yaratdığı ehtiyatlar ayrıca bir aktiv üçün deyil, aktivlər qrupu üçün (kreditlər, banklararası tələblər, qiymətli kağızlar, debitor borcları, digər aktivlər və s.) nəzərdə tutulur. Yaradılmış ehtiyatlardan həmin qrupa daxil olan bütün aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün istifadə edilir.

Bu Qaydaların hər hansı müddəası bank rəhbərliyinə və ya AMB-nin inspektorlarına aktivlərin keyfiyyəti ilə yanaşı, iqtisadi meylləri, mümkün zərərin həcmi və xarakterini, bank rəhbərliyinin idarəetmə qabiliyyətini və s. amilləri nəzərə almaqla ehtiyatların daha yüksək səviyyədə saxlamasına və ya onu tələb etməyə mane olmur. Bu zaman Qaydaların 5.2-ci bəndinin tələblərinə əməl olunur.

Mümkün zərərlərin ödənilməsi üçün ehtiyatlar bankın xərclər hesabının debetləşdirilməsi yolu ilə yaradılır. Bu xərclər öz mahiyyətinə görə digər xərclərdən (məsələn, əmək haqqı, amortizasiya və s.) fərqlənmir və bankın bölüşdürülməmiş mənfəətinin və ya cari gəlirinin olub-olmamasından asılı deyildir. Aktivlərin qiymətləndirilməsinin nəticəsinə əsasən ehtiyat kifayət qədər olmadığı halda o, çatışmayan məbləğ qədər xərclər hesabının debetləşdirilməsi ilə artırılır. Banklar tərəfindən aktivlərin hər bir qrupu, kateqoriyası və ya sinfi üzrə "Ehtimal olunan zərərlər üzrə ehtiyatların yaradılmasına ayırma" adlı subhesabların açılması istisna olunmur.

Aktivlərin aylıq qiymətləndirilməsi zamanı onların keyfiyyətinin yaxşılaşması müəyyən edildikdə artıq yaradılmış ehtiyatlar müvafiq xərclər hesabının kreditləşdirilməsi yolu ilə azaldılır və ya xərc hesabında qalıq olmadığı halda gəlirlərə aid edilir.

Əvvəllər balansdan "ümidsiz aktivlər" kimi silinmiş (əsas borc məbləğində) və sonra onların ödənilməsi üçün banka daxil olan vəsait müvafiq xərclər hesabının azaldılmasına və ya xərc hesabında qalıq olmadığı halda gəlirlərə aid edilir.

Konkret aktiv üçün yaradılan məqsədli ehtiyatın məbləği həmin aktivin dəyərindən çıxılır. Konkret aktiv üçün yaradılan adi ehtiyatın məbləği isə hesabatlarda ayrıca maddə kimi "Kapital" hesablarında əks etdirilir.

Ehtiyatlar hesabında debet qalığının yaranmasına yol verilmir. Ehtiyatlar hesabına silinəcək aktivlər ehtiyat hesabının qalığından çox olduqda tələb olunan məbləğ əməliyyat günü ərzində xərclər hesabına yaradılır. Ehtiyatların "Bölüşdürülməmiş mənfəət", yaxud kapitala aid olan digər maddələr hesabına yaradılmasına yol verilmir. Bir qrupa daxil olan "məqsədli ehtiyatlar"ın və "adi ehtiyatlar"ın öz aralarında bir-birinə köçürülməsinə icazə verilir.

Kreditlərin təsnifləşdirilməsi üzrə tələb olunan sənədlər

Banklar aktivlərin təsnifləşdirməsini və onlar üzrə mümkün zərərlərin ödənilməsi üçün adekvat ehtiyatların yaradılmasını Muşahidə Şurasının təsdiq etdiyi daxili qayda və prosedurlarına uyğun həyata keçirir.

Kreditlərin təsnifləşdirilməsi üçün aşağıdakı sənədlərin bir neçəsi və ya hamısı tələb olunur:

1. kreditin alınması üçün ərizə;
2. borcalanın maliyyə hesabatı (balans hesabatı, mənfəət və zərərlər haqqında hesabat və pul vəsaitinin hərəkəti barədə hesabat);
3. biznes-plan;
4. ipotekaya və ya digər girova dair hüquqi sənədlər;
5. kredit müqaviləsi və kreditin verilməsi haqqında başqa məlumatlar;
6. kredit vəsaitlərinin istifadəsi və geri qaytarılması üzrə monitorinq və s.

AMB və bank tərəfindən aparılan təsnifləşdirmənin nəticələri fərqli olduqda bu məsələ AMB və həmin bank arasında müzakirəyə çıxarılır. AMB zəruri saydığı hallarda hesabatlar və ya aşkar olunmuş faktlar əsasında hər hansı bir aktivin təsnifləşdirilməsi ilə bağlı mümkün zərərlər üzrə ehtiyatların dəyişdirilməsini və ya artırılmasını banklardan tələb etmək hüququna malikdir. Həmin dəyişikliklərə aşağıdakılar əsas olur:

1. kreditlərin verilməsi üzrə bankın daxili qayda və prosedurlarında kredit risklərinin idarəedilməsinə dair adekvat qaydaların olmaması;

2. bank kreditlərinin sənaye sahələri, regionlar və s. üzrə cəmləşməsi;

3. eyni növlü kreditlər üzrə (məsələn, konkret sektorlara, sənaye sahələrinə və ya rayonlara verilən kreditlər) bankın faktiki itkilərinin mövcudluğu;

4. bankın kredit portfelinin ümumi vəziyyətinin pisləşməsi;

5. bank rəhbərliyinin problemli aktivlərin qaytarılması, yaxud ödəməmələrə görə girova tutmanın yönəldilməsi üzrə təcrübəsinin olmaması;

6. AMB tərəfindən keçirilən yoxlamalarda borclunun və ya bankın maliyyə vəziyyətinin pisləşməsi ilə bağlı aşkar olunmuş digər faktlar və s.

7.3. AKTİVLƏRİN RİSK DƏRƏCƏSI ÜZRƏ ÖLÇÜLMƏSI

Banklar bütün balans aktivlərini və balansdankənar öhdəliklərini növündən, xüsusiyyətindən, habelə borclunun kredit öhdəliyini təmin edən hər hansı təminatdan asılı olaraq müxtəlif risk dərəcələrinə aid edirlər. Aktivlər 0 %, 20 %, 50 % və 100 %-li risk dərəcələrindən (qruplarından) birinə aid edilir.

Balans aktivlərinin risk dərəcəsi üzrə olçülməsi: Balans aktivlərinin risk dərəcəsi üzrə ölçülməsi üçün aktivlərin balans məbləği aşağıda göstərilən müvafiq risk əmsallarına vurulur və nəticələr toplanır.

Balans aktivləri risk qruplarına aşağıdakı xüsusiyyətlərindən asılı olaraq aid edilir:

1. **0 faizli (0,0 əmsallı) risk qrupu :**

1.1. bankın kassalarında, xəzinələrində, onun nümayəndəlik, şöbə və filiallarında, mübadiləşöbələrində, bankomatlarda və yolda olan nağd milli vəİqtisadi Əməkdaşlıq vəİnkişaf Təşkilatı (bundan sonra-İƏİT) ölkələrinin (Əlavə№ 1) sərbəst dönərli valyutası və bank metalları;

1.2. bankın AMB və ya onun ərazi idarələrindəki müxbir hesablarında və məcburi ehtiyatlarında olan vəsait;

1.3. Azərbaycan Respublikasının hökumətinə qarşı olan birbaşa tələblər, hökumət və AMB tərəfindən buraxılan qiymətli kağızlar, Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondunun buraxdığı təmin edilmiş qiymətli kağızlar;

1.4. İƏİT ölkələrinin hökumətlərinin və mərkəzi banklarının buraxdıqları qiymətli kağızlar və onlara qarşı olan birbaşa tələblər;

1.5. kreditin bankın hesablarında faktiki olaraq girov qoyulmuş milli və İƏİT ölkələrinin sərbəst dönərli valyutası və bank metalları ilə təmin olunmuş hissəsi.

2**. 20 faizli (0,2 əmsallı) risk qrupu:**

2.1. İƏİT ölkələrində qeydə alınmış depozit və ya digər maliyyə-kredit təşkilatlarına qarşı tələblər, o cümlədən banklararası kreditlər, depozitlər, bu təşkilatlarda olan müxbir hesab qalıqları və onlar tərəfindən qeyd-şərtsiz təmin olunmuş digər aktivlər;

2.2. İƏİT ölkələrinin yerli hakimiyyət, yaxud bələdiyyə orqanları tərəfindən buraxılan qiymətli kağızlarla təmin olunmuş tələblərin və ya aktivlərin onlara uyğun hissəsi. Bu tələblərin ödənilməsi mənbəyi kommersiya layihələrindən gəlirlər hesabına deyil, ümumi büdcə daxilolmaları hesabına olur;

2.3. Dünya Bankına, Beynəlxalq Valyuta Fonduna, Avropa Yenidənqurma və İnkişaf Bankına, Asiya İnkişaf Bankına, İslam İnkişaf Bankına və Qara Dəniz Ticarət vəİnkişaf Bankına qarşı olan birbaşa tələblər, yaxud aktivlərin bu təşkilatlar tərəfindən qeyd-şərtsiz təmin olunmuş hissəsi;

2.4. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma vəİnkişaf Bankı və Asiya İnkişaf Bankı tərəfindən buraxılmış qiymətli kağızların nominal dəyəri ilə deyil, bazar dəyəri ilə təmin olunmuş aktivlər və ya aktivlərin onlara uyğun olan hissəsi;

2.5. Azərbaycan Respublikasının hökuməti, AMB, yaxud İƏİT ölkələrinin hökumətləri və mərkəzi bankları tərəfindən buraxılmış qiymətli kağızların nominal dəyəri ilə deyil, bazar dəyəri ilə təmin olunmuş aktivlər və ya aktivlərin onlara uyğun olan hissəsi;

2.6. aktivlərin tam və ya hər hansı bir hissəsi, əgər onlar üçüncü şəxs tərəfindən buraxılmış qiymətli kağızlarla təmin olunmuşsa və bu qiymətli kağızların ödənilməsinə öz növbəsində

Azərbaycan Respublikasının hökuməti, AMB, yaxud İƏİT ölkələrinin hökumətləri və mərkəzi bankları tərəfindən qeydşərtsiz təminat verilmişsə;

2.7. Azərbaycan Respublikasının hökuməti, AMB və yaxud İƏİT ölkələrinin hökumətləri və mərkəzi bankları tərəfindən üçüncü şəxslərin banka olan borclarının tam və ya hər hansı bir hissəsinin ödənilməsi üçün verilmiş qeydşərtsiz təminat məbləğində olan hissəsi.

3. **50 faizli (0,5 əmsallı) risk qrupu:**

3.1. İƏİT ölkələrinin yerli hakimiyyət, yaxud bələdiyyə orqanları tərəfindən buraxılan qiymətli kağızlarla təmin olunmuş tələblərin və ya aktivlərin onlara uyğun hissəsi. Bu tələblərin ödənilməsi mənbəyi kommersiya layihələri üzrə alınan gəlirlər hesabına olur.

4. **100 faizli (1,0 əmsallı) risk qrupu:**

4.1. yuxarıdakı qruplarda göstərilən kredit və tələblərdən başqa bütün digər kreditlər və tələblər;

4.2. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası, yerli hakimiyyət və bələdiyyə orqanları tərəfindən buraxılmış qiymətli kağızlarla təmin edilmiş kreditlər;

4.3. bütün əsas vəsaitlər, o cümlədən bank işində istifadə olunmayan əsas vəsaitlər;

4.4. yığılma prosesində olan ödəniş alətləri;

4.5. İƏİT ölkələrinə daxil olmayan depozit və ya digər maliyyə-kredit təşkilatlarına qarşı tələblər, o cümlədən banklararası kreditlər, depozitlər, bu təşkilatlarda olan müxbir hesab qalıqları və onların bankda olan nağd valyutası;

4.6. yuxarıda göstərilən risk qruplarına aid edilməmiş digər aktivlər.

7.4. LİKVİD AKTİV VƏ ÖHDƏLİKLƏRİN TƏSNİFATI

Aktivin likvidlik göstəricisi, onun yüksək likvidli aktivə çevrilməsinə sərf edilən müddətə və bu zaman yarana bilən zərərə əsasən müəyyən edilir.

Aktivlər aşağıdakı likvidlik kateqoriyaları üzrə təsnifləşdirilir:

1. Yüksək likvidli aktivlər – bu kateqoriyaya milli və sərbəst dönərli xarici valyutada olan nağd vəsaitlər, Azərbaycan hökuməti və Mərkəzi Bankı tərəfindən buraxılmış qiymətli kağızlar, Mərkəzi Bankın nəzdində Azərbaycan İpoteka Fondunun buraxdığı təmin edilmiş qiymətli kagızlar, Mərkəzi Bankda saxlanılan normadan artıq məcburi ehtiyatlar, Mərkəzi Bankda, habelə bütün yerli banklarda və yüksək reytinqə malik olan xarici banklarda olan müxbir hesablar, "overnayt" depozitləri aid edilir.

2. Orta likvlidli aktivlər – bu aktivlərə banklararası bazarın qısamüddətli maliyyə alətləri, yerli və xarici banklarda, digər maliyyə institutlarında yerləşdirilmiş depozitlər, bank metalları, yerli bankların, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (bundan sonra-İƏİT) ölkələrinin hökumətlərinin və mərkəzi banklarının buraxdıqları qiymətli kağızlar, habelə investisiya reytinqinə malik olan və repo əməliyyatları üzrə alınmış qiymətli kağızlar, müddəti 30 günədək olan kreditlər aid edilir.

3. Aşağı likvidli aktivlər - qısa müddət ərzində minimal zərərlə yüksək likvidli aktivə çevrilə bilməyən aktivlər aid edilir (orta likvidli aktivlərə aid edilən kreditlər istisna olmaqla verilmiş digər kreditlər, yüksək və orta likvidli aktivlərə aid edilən qiymətli kağızlar istisna olmaqla digər qiymətli kağızlar, əsas vəsaitlər, digər hüquqi şəxslərdə iştirak payı və s.).

Bank tərəfindən onun fəaliyyətinin müxtəlif sahələrinin idarə edilməsi və nəzarəti üzrə Öhdəliklərin idarə olunması ən azı aşağıdakıları əhatə etməlidir:

1. müxbir hesablardakı qalıqların monitorinqi;
2. kreditləşmə həcminin monitorinqi;
3. kredit portfelinin keyfiyyətinin monitorinqi;
4. kreditlər üzrə faiz dərəcəsinin monitorinqi;
5. bankın qiymətli kağızlar portfelinin monitorinqi;
6. repo əməliyyatları üzrə alınmış qiymətli kağızların monitorinqi;
7. təminat qismində istifadə oluna bilən aktivlərin monitorinqi;

8. likvidliyin adekvat səviyyədə saxlanması məqsədilə satıla bilən əsas və digər qeyri-likvid vəsaitlərin monitorinqi.

Bankın likvidlik mövqeyinin effektiv proqnozlaşdırılması üçün bank ayda bir dəfədən az olmayaraq likvidlik vəziyyətinin stress-testini həyata keçirməlidir.

Stress-testin ssenarisinin hazırlanmasında banka və onun fəaliyyətinin xüsusiyyətlərinə (bank əməliyyatlarının və məhsullarının növünə, cəlb edilmiş vəsaitlərin mənbələrinə) aid olan, bazarda cari və proqnozlaşdırılan vəziyyətlə bağlı fərziyyələr, habelə reytinq agentlikləri tərəfindən verilmiş reytinqlərin təsiri kimi meyarlar əsas götürülməlidir.

Stress-testin keçirilməsi zamanı müqavilə ilə müəyyən edilən müddətli aktiv və öhdəliklərin məbləğlərinin hər zaman onların likvid dəyərini real əks etdirmədiyi nəzərə alınır.

Aktivlər üzrə Stress-test üçün fərziyyələri aşağıdakılardan ibarət ola bilər:

1. Aktivlər üzrə stress-test:
2. kreditlərin vaxtında qaytarılmaması və ya gecikdirilməsi (kredit riski ilə əlaqədar yaranan likvidlik riski);
3. mərkəzi Bank tərəfindən məcburi ehtiyat normasının dəyişdirilməsi;
4. bankda likvid aktivlərin həcminin azalması;
5. bazarda likvid aktivlərin dəyərində dəyişikliklərin müşahidə olunması.

Aktiv və öhdəliklərə təsir edən fərziyyələr: -faiz dərəcəsinin dəyişməsi; inflyasiya dərəcəsinin dəyişməsi; valyuta məzənnəsinin kəskin dəyişməsi.

Bank tərəfindən likvidlik vəziyyətinin dəyişməsinin inkişafının "ən pis", "ən yaxşı" və "ehtimal olunan" ssenariləri tərtib olunmalı və yuxarıda qeyd olunan fərziyyələr daxil olmaqla hər bir ssenari üçün ayrıca meyarlar müəyyən olunur.

7.5. BANK AKTİVLƏRİNİN TƏHLÜKƏSİZLİYİNİ TƏMİN EDƏN NƏZARƏT MEXANİZMİ: DAXİLİ AUDİT

Daxili audit, bank aktivlərinin təhlükəsizliyini təmin edən müvafiq nəzarət mexanizmlərinin adekvatlığını, yaxud mövcudluğunu, bankın səhmdarlara, nəzarətedici orqanlara və ictimaiyyətə təqdim etdiyi dövri hesabatların dəqiqliyini, tamlığını və dürüstlüyünü təsdiq etməlidir.

Daxili nəzarət mexanizmləri bank fəaliyyətində potensial səhvlərin, nöqsanların və itkilərin vaxtında aşkar edilməsi və qarşısının alınmasının, bank risqlərinin minimuma endirilməsinin mühüm vasitəsidir. Daxili nəzarət mexanizmlərinin yaradılması bank əməliyyatlarının etibarlılığı, təhlükəsizliyi, səmərəliliyi və qanunvericiliyə uyğunluğunu təmin etmək üçün zəruridir.

Hər bir bank öz fəaliyyətində daxili nəzarət mexanizmlərinin adekvatlığını təmin etmək məqsədilə aşağıdakı əsas prinsipləri və qaydaları rəhbər tutmalıdır:

1. Mükəmməl təşkilati struktur;
2. Zəruri siyasət və uçot qaydaları;
3. Aktivlərin qorunması üçün tədbirlər;
4. Daxili audit üzrə səmərəli proqram.

Daxili audit Müşahidə şurasının, Maliyyə-təftiş komissiyanın və İdarə Heyətinin sərəncamında olan ən səmərəli daxili nəzarət vasitəsidir. Daxili audit proqramı o zaman mükəmməl hesab edilə bilər ki, müəyyən edilmiş nəzarət mexanizmləri, əməliyyat proseduraları - qeyri-səmərəlilik, uyğunsuzluqlar, yaxud saxtakarlıq və ya qəsdən manipulyasiya nəticəsində dəyə biləcək zərərin minimuma endirilməsini təmin etsin. Auditorun rolu əməliyyat sistemləri, prossesual nəzarət mexanizmləri və sənədləşmənin mükəmməliyi, təsirliyinin və etibarlığının müəyyənləşdirilməsinə yönəldilmiş yoxlamalar və təhlillər aparmaq yolu ilə bankın əmlakının qorunmasına kömək göstərməkdir. Səmərəli audit zəruri nəzarət atmosferi yaradır, bank əməliyyatlarının dəqiqliyinə və etibarlılığına xidmət göstərir. Daxili auditin bu qaydalarla müəyyən olunmuş məqsəd və vəzifələri, bankın Maliyyə-təftiş komissiyasının qanunvericiliklə ona həvalə edilmiş səlahiyyətlərinin icrasını istisna etmir. Maliyyə-təftiş komissiyası öz vəzifə və səlahiyyətlərinin icrasında daxili və xarici audit yoxlamalarına əsaslana bilər.

Auditin məqsəd və vəzifələri ilk növbədə aşağıdakılardan ibarətdir:

1. bankın ayrı-ayrı əməkdaşları və struktur bölmələrinin icra etdiyi əməliyyatların qanunvericiliyə, normativ aktlara və daxili sənədlərə uyğunluğunu müəyyən etmək məqsədilə, mütəmadi olaraq yoxlamaların aparılmasını təmin etmək;

2. bankın əməkdaşları tərəfindən qanunvericiliyin, normativ aktların, təlimatların, daxili sənədlərin, peşə etikası standartlarının tələblərinin pozulması faktlarını tədqiq etmək, uyğunsuzluqları, yaxud saxtakarlıq əlamətlərini aşkara çıxarmaq;

3. aşkar edilmiş nöqsanların aradan qaldırılması və buna nəzarət məqsədilə tövsiyələr işləyib hazırlamaq;

4. aparılmış yoxlamaların nəticələri və aşkar edilmiş hər bir faktın müvafiq qaydada sənədləşdirilməsini təmin etmək;

5. aparılmış yoxlamaların nəticələri, aşkar edilmiş yeni risqlər, nöqsan və çatışmazlıqlar və onların aradan qaldırılması barədə vaxtında bank rəhbərliyinə məlumat vermək;

6. bankın əməkdaşları tərəfindən qanunvericiliyin, normativ aktların, daxili sənədlərin tələblərinin öyrənilməsi üzrə işin təşkilinə nəzarət etmək;

7. mühasibat uçotu və hesabat sisteminin adekvatlığını təhlil etmək;

8. inzibati nəzarət mexanizmləri və qaydaların, habelə əməliyyatların səmərəliyinə qiymət vermək;

9. yeni siyasət formalaşdırılarkən və köhnə siyasətə yenidən baxılarkən, yaxud yeni fəaliyyət növlərinin planlaşdırılması prosesində və onların tətbiqinin müxtəlif mərhələlərində nəzarət mexanizmlərinin mövcudluğunu təmin etmək.

Daxili audit xidməti əməkdaşları hüquqları:

1. yoxlama məqsədilə, uçot-hesabat, mühasibat, pul-hesabat və digər sənədlərə icazənin olması;

2. bank əməkdaşlarının hərəkətlərinin, icra etdiyi əməliyyatların qanunvericiliyin, normativ aktların və daxili sənədlərin tələblərinə uyğun olub-olmamasını təyin etmək;

3. bankın bütün struktur bölmələrinin fəaliyyətini yoxlamaq;

4. ayrı-ayrı əməliyyatların müvəqqəti dayandırılması barədə tövsiyələr vermək;

5. zəruri hallarda daxili auditə aid olan bir sıra məsələlərin həllinə bankın digər struktur bölmələrinin əməkdaşlarını cəlb etmək.

Bankların bütün əməkdaşları daxili audit xidməti ilə qarşılıqlı münasibətlərində aşağıdakılara əməl edilir:

1. daxili audit xidməti tərəfindən öz vəzifə səlahiyyətlərinin icrasına köməklik göstərmək;

2. qanunvericiliyin, təlimat və qaydaların tələblərinin pozulması, həmçinin banka zərər vurulması faktları barədə daxili audit xidmətinə məlumat vermək;

3. ayrı-ayrı əməliyyatların qanunvericiliyin, normativ aktların, daxili sənədlərin və peşə etikası standartlarının tələblərinə uyğunluğu şübhə doğurduqda, daxili audit xidməti əməkdaşları ilə məsləhətləşmələr aparmaq;

4. «maraqlı tərəf» hesab edilə biləcəyi hallarda, bankın əməkdaşları daxili audit xidmətini əvvəlcədən xəbərdar etmədən, müvafiq əməliyyatların aparılmasında iştirak edə bilməzlər.

Bundan başqa Mərkəzi Bank tərəfindən kredit təşkilatlarından vaxtaşırı olaraq daxili nəzarət sisteminin vəziyyəti və keçirilmiş audit yoxlamalarının nəticələrinə dair hesabatlar tələb edilə bilər.

Bankların audit funksiyası aşağıdakı minimum normalara uyğun olmalıdır.

1) Auditor müstəqil olmalıdır:

1.1. bilavasitə bankın Müşahidə şurası və Maliyyə-təftiş komissiyasına hesabat verməlidir;

1.2. öz vəzifələrini icra etmək üçün lazımi səlahiyyətlərə malik olmalıdır (sənədlərə və şöbələrə sərbəst icazəsi olmalıdır);

1.3. yüksək etika və peşə keyfiyyətlərinə malik olmalıdır;

1.4. yoxlanılan sahə funksiyasına aidiyyatı olmamalıdır;

1.5. audit proqramlarının həyata keçirilməsi qrafiki, yaxud miqyası üzərində heç bir məhdudiyyət olmamalıdır.

2). Auditor səriştəli olmalıdır:

2.1. ali İqtisadi təhsilə, müvafiq peşə təcrübəsinə malik olmalı, habelə peşə biliklərini daim artırmaq arzusunda olmalıdır;

2.2. bank əməliyyatlarına və Audit keçirilməsinin beynəlxalq qaydalarına bələd olmalıdır;

2.3. beynəlxalq miqyasda qəbul olunmuş uçot standartlarından xəbərdar olmalıdır.

3) Audit proqramı:

3.1. bankın Maliyyə-təftiş komissiyası və Müşahidə şurası tərəfindən təsdiq edilməli və müntəzəm surətdə nəzərdən keçirilməlidir;

3.2. yazılı formada olmalı və auditin məqsədlərini əks etdirməlidir;

3.3. auditin məqsədlərinə nail olmaq üçün kifayət qədər geniş miqyasda olmalıdır;

3.4. yoxlanılan hər bir sahə üzrə ətraflı iş proqramlarını nəzərdə tutmalıdır;

3.5. hər bir proqramda zəruri audit işinin aydın və dəqiq təsviri olmalı, habelə işin miqyasından asılı olaraq bankın ayrı-ayrı departamentlərində konkret əməliyyatların yoxlanılması proseduraları göstərilməlidir. Proqramda nəzərdə tutulan proseduralar, digər amillərlə yanaşı bank əməliyyatlarının həcmindən və mürəkkəbliyindən asılı olaraq dəyişdirilə bilər;

3.6. lazım gəldikdə proqramda balans hesablarının, xüsusilə kredit, depozit və müxbir hesablarının təsdiqi nəzərdə tutulmalıdır;

3.7. audit yoxlamalarının keçirilməsi müddətləri, hər bir sahə ilə əlaqədar risqdən asılı olmalıdır. Bank risqləri təhlil edilərkən auditor tərəfindən konkret əməliyyatın, əlaqədar aktivlərin və passivlərin xarakteri, müvafiq siyasətin və daxili nəzarət normalarının mövcudluğu, daxili nəzarət mexanizmlərinin səmərəliyi kimi amillərə xüsusi dəqiq yetirilməlidir;

3.8. görülən işlər sənədləşdirilməlidir. Daxili audit barədə iş sənədlərində audit işlərinin proqramı, yoxlamanın həcmini və aparılmış əməliyyatları təsvir edən təhlillər və təqdim olunmuş rəylərin əsasları olmalıdır.

Daxili audit proqramı əsasən aşağıdakı məsələlərin həllinə yönəldilməlidir:

1. Müşahidə şurası və rəhbərlik tərəfindən müəyyən olunmuş siyasətə və qaydalara əməl edilməsi, o cümlədən əməliyyatların aparılmasına müvafiq icazələr alınmasının təsdiqi;

2. Qüvvədə olan qanunvericiliyə və normativ aktlara əməl edilməsi;

3. Bank sənədlərinin müfəssəlliyi, o cümlədən bütün əməliyyatların müvafiq hesablarda uçotunun düzgün və vaxtında aparılması;

4. Bank aktivlərinin təhlükəsizliyi, maliyyə hesabatlarında onların düzgün uçotu;

5. Gəlir və xərclərin dəqiq uçotunu, qanuniliyini və bankın siyasətinə uyğunluğunu müəyyən etmək üçün onların ətraflı təhlili. Bura hesablamaların və sənədlərin dəqiqliyini təmin etmək məqsədilə depozitlər və kreditlər üzrə faizlər, vaxtında aparılmamış ödənişlər üçün cərimələr, xidmət haqqı və s. kimi kompüter hesablamalarının və sənədlərin seçmə yolu ilə yoxlanılması da daxildir;

6. Müvafiq sənədləşmələrin aparılması və girova nəzarət, habelə akkreditivlər və təminatlar kimi balansarxası maddələrin uçotunun aparılması;

7. Balansdan silinmiş kreditlərdən dəyən zərər barədə sənədlərin təhlili;

8. Əvvəldən axıradək hər bir əməliyyat üzrə dəqiq və lazımi qaydada təsdiq edilmiş sənədlərin olması;

9. Kompüter texnikasının, proqram təminatının təhlükəsizliyi və etibarlığı, habelə fövqəladə vəziyyətlər üçün planların tərtib edilməsi (məlumatların təhlükəsizliyi, saxlanması və bərpası).

4) Auditor rəyi:

1. - audit başa çatdıqdan dərhal sonra tərtib edilməlidir;

2. - auditin məqsədlərini, miqyasını, nəticələri barədə hesabatı və problemlərin aşkara çıxarıldığı hər bir sahə üzrə ətraflı tövsiyələri əks etdirməlidir;

3. - tövsiyələrdə auditin nəticələrinin qısa xarakteRİK təsviri, tələb olunan islah tədbirləri, bu tədbirlərin həyata keçirilməsi üçün məsul şəxlərin adı və onların həyata keçirilməsi müddətləri göstərilməlidir;

4. - rəylər bilavasitə Müşahidə şurasına və Maliyyə-təftiş komissiyasına, rəylərin surətləri isə bankın İdarə Heyətinə və şöbə rəislərinə (rəyin yalnız müvafiq bölmələri) təqdim edilməlidir;

5. - daxili auditin səmərəliyi, daha çox tövsiyyələrin yerinə yetirilməsini təmin etmək məqsədilə, nəzarətin davam etdirilməsindən asılıdır. Müşahidə şurası nəzarəti yoxlamalar siyasətini formalaşdırmalıdır. Rəhbər heyət və daxili auditor sonradan nəzarət qaydalarını müəyyən etməlidirlər.

5) Auditin keçirilməsi müddəti:

Auditin keçirilməsi müddəti, adətən auditin keçiriləcəyi hər bir sahə ilə əlaqədar risq dərəcəsindən asılıdır. Audit ildə azı bir dəfə keçirilməlidir.

Kredit təşkilatlarında daxili nəzarət sisteminin, o cümlədən daxili audit işinin vəziyyəti, onun təşkilinin və bu qaydaların tələblərinə uyğunluğu Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən yoxlanılmalıdır. Bundan başqa Mərkəzi Bank tərəfindən kredit təşkilatlarından vaxtaşırı olaraq daxili nəzarət sisteminin vəziyyəti və keçirilmiş audit yoxlamalarının nəticələrinə dair hesabatlar tələb edilə bilər.

QANUNLAR, NORMATİV SƏNƏDLƏR VƏ TƏLİMATLAR

1) Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Azərbaycan Respublikasının Qanunu
2) Banklar haqqında Azərbaycan Respublikasının Qanunu
3) Banklarda daxili nəzarət və daxili auditin təşkili barədə Qaydalar
4) Daxili Audit Standartı
5) Risklərin İdarə Edilməsi Standartı
6) Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları
7) Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərin ödənilməsi üçün ehtiyatların yaradılması Qaydaları

ƏDƏBİYYAT

1. Аббасов А.М., Мамедов З. Ф. Цифровизация финансов. Баку.: БГУ, 2003. -200 с.
2. Ibrahimov Z. Pul, kredit və banklar (suallara cavab). Bakı, 2009.
3. Банковское дело. Учебник. М.: Проспект, 2008.
4. Банковское дело Управление и технологии под ред. Тавасиева Учебник 2005. 671с.
5. Банковское дело. под ред. Коробовой Г.Г. - Учебник 2006 -766с.
6. Банковское дело: современная система кредитования// под ред. Лаврушин. М.- 2007.
7. Банковское дело . МФПА, 2005
8. Банковское дело. под ред. Лаврушина О.И. М.- 2007.
9. Банковское дело. под ред. Коробовой Г.Г. М.- 2006.
10. Банковские риски. Издательство: КноРус, 2008 .
11. Банковский менеджмент. Издательство: КноРус, 2010 .
12. Банковский маркетинг. Издательство: МФПА 2004.